Arif Şəkərəli oğlu Şəkərəliyev
Əməkdar elm xadimi, Beynəlxalq Menecment Akademiyasının üzvü,
İqtisad elmləri doktoru, professor

DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ:
REALLIQLAR
VƏ PERSPEKTİVLƏR

BAKI -2009

Elmi redaktoru: **Məmmədhəsən Xanlar oğlu Meybullayev**
İqtisad elmləri doktoru, professor

Rəyçilər: **Məhiş Alış oğlu Əhmədov**
İqtisad elmləri doktoru, professor
Qabil Nadir oğlu Manafov
İqtisad elmləri doktoru, professor

Arif Şəkərəli oğlu Şəkərəliyev. Əməkdar elm xadimi, Beynəlxalq Menecment Akademiyasının üzvü, İqtisad elmləri doktoru, professor

DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

(MONOQRAFİYA)

Bakı: «İqtisad Universiteti», 2009.

Monoqrafiyada dövlətin cəmiyyətin siyasi sistemində oynadığı rol, bazar İqtisadiyyatı şəraitində dövlətin rolu və İqtisadi funksiyaları, İqtisadiyyatın dövlət tənzimlənməsinin zəruriliyi, dövlətin İqtisadi siyasəti və onun reallaşması istiqamətləri, xarici ticarət siyasəti, gömrük siyasəti, vergi siyasəti, dövlət büdcəsinin formalaşmasında vergi və rüsumların rolu, pul-kredit siyasəti, ölkənin maliyyə sabitliyinin təmin edliməsi məsələləri araşdırılır. Həmçinin, monoqrafiyada dövlətin nəqliyyat siyasəti, ətraf mühitin mühafizəsi və ekoloji inkişafın təmin edilməsi, İqtisadi təhlükəsizlik və onun təmin olunması istiqamətləri və problemləri tədqiq edilir.

Kitab elmi işçilər, aspirantlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ş 3701000000
N098-2009

© Şəkərəliyev A.Ş., 2009

MÜNDƏRİCAT

Giriş.....5

I Bölmə. İqtisadiyyatın dövlət tərəfindən idarə olunması…….....…8
I Fəsil. Dövlət cəmiyyətin siyasi sisteminin mühüm elementi kimi.....8

1.1 Dövlətin əmələ gəlməsinin səbəbləri.....8
1.2 Dövlətin funksiyaları….....14
1.3 Bazar İqtisadiyyatında dövlət.....28
1.4 Keçid dövründə dövlətin qarşısında duran əsas vəzifələr.....35

II Bölmə. Azərbaycan dövlətinin İqtisadi siyasəti və onun reallaşması istiqamətləri.....41
II Fəsil. Azərbaycan dövlətinin xarici ticarət siyasəti.....41
2.1 Xarici ticarət konsepsiyası və xarici ticarət siyasəti.....41
2.2 Xarici ticarət təşkilatlarının xarakteristikası və quruluşu.....48
2.3 Azərbaycanın xarici İqtisadi təşkilatlarla əməkdaşlığının müasir vəziyyəti….....53
2.4 Azərbaycanın Beynəlxalq ticarət əməkdaşlığının perspektivləri.....60
2.5 Xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri.....67
2.6 Beynəlxalq ticarət sisteminin inkişafında Dünya Ticarət Təşkilatının rolu….....83
2.7 Azərbaycanın Dünya Ticarət Təşkilatına qəbulu perspektivləri.....93

III Fəsil. Gömrük siyasəti və onun təkmilləşdirilməsi itiqamətləri.....110
3.1 Milli İqtisadiyyatın inkişafında gömrük siyasətinin rolu və onun təkamülü.....110
3.2 Gömrük siyasətinin normativ hüquqi bazasının formalaşması.....128
3.3 Gömrük siyasəti ilə İqtisadi təhlükəsizliyin təmin edilməsinin qarşılıqlı əlaqəsi.....134
3.4 Keçid dövründə gömrük siyasətinin formalaşmasının səciyyəvi xüsusiyyətləri. 141
3.5 Gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi.....155
3.6 Azərbaycanın beynəlxalq gömrük əlaqələri və gömrük ittifaqlarında iştirakının perspektivləri.....171

IV Fəsil. Dövlətin vergi siyasəti.....176
4.1 Vergilərin sosial-İqtisadi mahiyyəti. 176
4.2 Vergi mexanizmi və onun təkmilləşdirilməsi. 183
4.3 Vergi sisteminin beynəlxalq təcrübəsi və vergi islahatları.....195

V Fəsil. Azərbaycanın dövlət büdcəsinin formalaşmasında vergi və rüsumların rolu.....199
5.1 Vergilər büdcə gəlirlərinin formalaşmasının əsasıdır.....199
5.2 Dövlət büdcəsinin gəlirlərində gömrük vergi və rüsumların rolu.....212
5.3 Büdcə gəlirlərində gömrük vergilərinin təkmilləşdirilməsi istiqamətləri.....218

VI Fəsil. Pul-kredit siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri.....238
6.1Müasir şəraitdə bank sisteminin fəaliyyəti.....238
6.2 Azərbaycanda pul-kredit sisteminin tənzimlənməsi istiqamətləri.....244
6.3 Iqtsadiyyatın inkişafında bankların rolunun artması.....248
6.4Azərbaycanda pul, valyuta, kapital bazarının problemləri və inkişaf perspektivləri.....252

VII Fəsil. Ölkənin maliyyə sabitliyinin təmin edilməsi.....262
7.1 Azərbaycanda maliyyə sabitliyinin formalaşması prosesi..... 262
7.2 Maliyyə sisteminin səmərəli fəaliyyətində bankların maliyyə sabitliyinin təmin edilməsi.....277
7.3 Xarici İqtisadi əlaqələrin tənzimlənməsi ilə maliyyə sabitliyinin təmin edilməsinin qarşılıqlı əlaqəsi.....281
7.4 Beynəlxalq maliyyə institutlarının Azərbaycan İqtisadiyyatının inkişafında rolu və bu qurumlarla əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətləri.....294

VIII Fəsil. İqtisadi təhlükəsizlik və onun təmin olunması istiqamətləri.....316
8.1 Yeni İqtisadi şəraitdə İqtisadi təhlükəsizlik sisteminin formalaşması xüsusiyyətləri.....316
8.2 Maliyyə-bank siteminin təhlükəsizliyinin formalaşması məsələsi.....323
8.3 Ərzaq təhlükəsizli və onun təmin edilməsi.....332
8.4 Bazar İqtisadiyyatı şəraitində İqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətləri.....357

IX Fəsil. Dövlətin nəqliyat siyasəti.....370
9.1 Azərbaycanda nəqliyyat sisteminin inkişafına dövlət qayğısı.....370
9.2 Nəqliyyat xidmətinin təkmilləşdirilməsi istiqamətləri.....382

X Fəsil. Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi.....390
10.1 Davamlı ekoloji tarazlığın təmin edilməsinin zəruriliyi və İqtisadi metodlardan istifadənin istiqamətləri.....390
10.2 Azərbaycanda ekoloji durum və İqtisadi inkişafın tarazlıq problemi.....403
10.3 Azərbaycanda ekoloji inkişafın təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq. 409

G İ R İ Ş

Bu gün iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

H.Ə.ƏLİYEV

Tarixən qısa zaman kəsiyində ölkəmizdə müstəqillik bərqərar olmuş, dönməz xarakter almışdır. Biz İqtisadi və sosial inkişaf baxımından çox böyük uğurlar qazanmışıq.

İLHAM ƏLİYEV

Azərbaycan dövlətinin müstəqillik dövründə sosial – İqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar, xüsusilə son beş ildə ölkə İqtisadiyyatının sıçrayışlı inkişafı və onun İqtisadi artım tempinə görə dünyanın lider ölkəsinə çevrilməsinə, ÜDM-in 10 dəfəyə qədər artımı, dövlət büdcəsinin də, həmçinin 9,7 dəfə yüksəlməsi, neft strategiyasının uğurla reallaşdırılması bilavasitə düzgün İqtisadi siyasətin həyata keçrilməsi və onların dövlət tərəfindən tənzimlənməsi ilə bağlıdır.

Bazar İqtisadiyyatının dövlət tənzimlənməsinin vacibliyini göstərən C.M.Keyns yazırdı: «Dünyanı idarə edən ayrı- ayrı ölkələrin dövlət başçılarıdır. Onların buraxdığı cüzi səhvlər böyük fəlakətlərə səbəb olur». Azərbaycanın timsalında bu daha aydın görünür. Belə ki, 1991-1993-cü illərdə ölkə rəhbərliyinə idarəçilik bacarığı və təcrübəsi olmayan şəxslərin gəlməsi, ölkənin müstəqil bir dövlət kimi yox olmasına səbəb olacağdı. Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə yenidən qayıdışı əhalini və dövləti böyük faciələrdən xilas etdi, bu isə müstəqil Azərbaycanın tərəqqisinə səbəb oldu.

Ümummilli Liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şurunun oyanması, azadlığa və müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatımızın, İqtisadiyyatımızın bütün sahələrində, elm və mədəniyyətimizin inkişafında böyük nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olmuşdur.

Ölkəmizin müstəqilliyinin və dünya İqtisadiyyatına dərin inteqrasiya prosesinin hazırki möhkəm təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən respublikaya rəhbərlik etdiyi həmin illərdə yaradılmış potensiala əsaslanır.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai – siyasi sabitlik, güclü İqtisadiyyat, möhkəm sosial təsisatlar,

qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz, bütün bunlar günümüzün reallığıdır.

Ümummilli Liderimiz Heydər Əliyevin milli neft strategiyası Azərbaycana böyük siyasi və İqtisadi dividentlər gətirib. Ölkəmizin Qərbə inteqrasiyasına geniş yol açıb, bu prosesi sürətləndirib. Indi biz bu möhtəşəm strategiyanın real nəticələrini, bəhrələrini görürük. «Əsrin müqaviləsi» çərçivəsində Bakı – Tbilisi – Ceyhan neft-boru kəməri Azərbaycanı demokratik Qərb dünyası ilə daha sıx birləşdirir və ölkəmizə milyardlarla dollar həcmində mənfəət gətirir.

Azərbaycan dövlətinin iri beynəlxalq layihələrdə iştirakı, Böyük Ipək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin reallaşması da Ümummilli Liderimizin bəşəri xidmətlərindəndir.

Bu gün müasir Azərbaycan dövləti özünəməxsus inkişaf yolu ilə gedir. Bu inkişafın təməl daşları Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev məktəbinin yetirməsi, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, xalqla birbaşa ünsiyyətdə olması, ümummilli liderimiz tərəfindən başlanılmış işlərin məntiqi davamıdır. Memarı və qurucusu ulu öndər Heydər Əliyev olan müstəqil dövlətimiz böyük şəxsiyyətin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər bir Azərbaycan vətəndaşının borcu isə ulu öndərin şah əsəri olan Azərbaycanı qorumaq və daha da inkişaf etdirməkdir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərir ki, «Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Siyasi və ictimai – siyasi vəziyyət baxımından Azərbaycan çox sabit ölkədir və Azərbaycana birbaşa xarici investisiyaların qoyulması bunu əks etdirir. İqtisadi potensialın möhkəmləndirilməsində uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, Azərbaycanda islahatlar davam etdirilir və etdirilməlidir. Həm siyasi sahədə, həm də İqtisadi sahədə. Çox sevindirici haldır ki, ən böyük maliyyə qurumu olan Dünya Bankı bu il Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanıyıbdı. Bu onu göstərir ki, bizim islahatlarımız həqiqətən çox cəsarətlidir, uğurludur və əhəmiyyətlidir».

Son dövrdə ölkədə aparılan uğurlu islahatlar respublikada düzgün fiskal və monetor siyasət nəticəsində dövlət büdcəsinin sürətlə artmasına səbəb olmuşdur. Bu işdə düzgün vergi, gömrük və xarici ticarət siyasətinin aparılması mühüm yol oynamışdır. Bütün bunlar isə ölkədə maliyyə sabitliyinin təmin edilməsi, ekoloji tarazlıq, infrastruktur sahələrinin inkişafı nəticəsində ölkənin İqtisadi təhlükəsizliyinin təmin edilməsinə səbəb olmuşdur.

İlham Əliyev cənablarının Azərbaycan Respublikasına prezidentliyi - dövründə Azərbaycan İqtisadiyyatının yeni sürətli inkişaf erası başlamışdır. Bu isə dövlət tərəfindən, dövrün tələblərinə uyğun olaraq, İqtisadi islahatların

kompleks və əlaqəli şəkildə aparılması, proqnozlar əsasında formalaşdırılmış dövlət proqramlarının, yerli, regional və beynəlxalq investisiya layihələrinin həyata keçirilməsi və dünya İqtisadiyyatına inteqrasiya ilə əldə edilmişdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır.

I BÖLMƏ: İQTISADIYYATIN DÖVLƏT TƏRƏFİNDƏN İDARƏ OLUNMASI

Azərbaycan müstəqillik mövqeyində möhkəm dayanır və Ölkəmizin dövlət müstəqilliyi dönməzdir.
H.Ə.Əliyev

I FƏSİL. DÖVLƏT CƏMİYYƏTİN SİYASİ SİSTEMİNİN MÜHÜM ELEMENTİ KİMİ

1.1. Dövlətin əmələ gəlməsinin səbəbləri

Dövlət əzəli və əbədi mövcud olmamışdır. İbtidai cəmiyyətdə siniflər yox idi. O dövrdə istehsal elə aşağı inkişaf səviyyəsində idi ki, yalnız insanların minimum tələbatların ödəyirdi. Lakin sonralar ictimai əmək bölgüsünün dərinləşməsi məhsuldar qüvvələrin inkişafı və əmək məhsuldarlığının yüksəlməsinə təkan verdi. Yəni, insanlar istehlak etdiklərindən daha çox məhsul istehsal etməyə başladılar. Nəticədə izafi məhsul yarandı ki, bu da xüsusi mülkiyyətin, əmlak bərabərsizliyinin meydana gəlməsinə gətirib çıxardı. İbtidai icmanın pozulması, onun sinfi təbəqələşməsi prosesi belə gedirdi. Bu proses bir – birinə əks siniflərin, varlı və kasıbların meydana gəlməsinə səbəb oldu.

Cəmiyyət İqtisadi cəhətdən qeyri – bərabər qruplara bölündüyünə görə, obyektiv olaraq elə bir hakimiyyət təşkilatı yaranmalı idi ki, bir tərəfdən varlıların mənafeyi təmin edilmiş olsun, digər tərəfdən isə varlılarla cəmiyyətin maddi cəhətdən onlardan asılı olan hissəsi arasında qarşıdurmanı aradan qaldıra bilsin. Cəmiyyət içərisindən çıxıb ayrılmış belə bir təşkilat dövlət olmuşdur. Dövlət cəmiyyətin daxili inkişaf məhsuldur.

Dövlət ictimai əmək bölgüsü, izafi məhsul və xüsusi mülkiyyətin yaranması, daha sonra isə cəmiyyətin ziddiyyətli İqtisadi maraqları olan siniflərə bölünməsi ilə əlaqədar meydana gəlmişdir. F.Engelsin qeyd etdiyi kimi, qəbilə quruluşunu «Əmək bölgüsü və bunun nəticəsində cəmiyyətin siniflərə parçalanması dağıtdı. Onun yerini dövlət tutdu».

Yəni xüsusi itaət və idarəetmə vasitələrilə İqtisadi cəhətdən hakim sinfin maraqlarını təmin etməklə siniflərin qarşıdurmasının qarşısını alan dövlət yaranır.

Dövlət xüsusi ictimai təşkilatdır və ibtidai işləri idarə etməklə daim məşğul olan xüsusi orqanlardan ibarətdir.

Böyük fransız mütəfəkkiri Deni Didro yazırdı: «Insanlar tez anladırlar ki, əgər onlar öz azadlıqlarından, müstəqilliklərindən istifadə etməyə davam

etsələr, dayanmadan öz ehtiraslarına qapılsalar, onda hər bir ayrıca insanın vəziyyəti onun ayrı yaşadığı halda olacağından daha bədbəxt olacaqdır. Onlar dərk etdilər ki, hər bir insan öz təbii müstəqilliyinin bir hissəsindən imtina etməli və bütöv cəmiyyətin idarəsini təmsil edən idarəyə tabe olmalıdır: bu idarə bütün iradələrin və bütün qüvvələrin ümumi mərkəzi və birləşmə nöqtəsi ola bilərdi. Dövlət başçılarının mənşəyi belədir».

Dünyanın elm mütəfəkkirləri dövlətin əmələ gəlməsinin bir sıra nəzəriyyələrini irəli sürmüşlər. Onlardan əsasları: İqtisadi, hüquqi, psixolo**ci**, üzvi və zorakılıq nəzəriyyələridir.

Dövlətin yaranma səbəbləri bir çox obyektiv amillərlə: İqtisadi, sosial, dini, milli, psixolo**ci**, biolo**ci** və başqa amillərlə izah olunur.

Dövlət ictimai həyatın təşkilinin elə bir formasıdır ki, o, ayrı – ayrı fərdlərin pərakəndə cəhdləri ilə yaradıla bilməz. Dövlət cəmiyyətin əsas hakim siyasi təşkilatıdır. Onun hakimiyyəti cəmiyyətdə birləşdirən, təşkil edən və məcbur edən başlıca qüvvədir.

Cəmiyyətdə dövlətlə yanaşı insanları müxtəlif (siyasi, İqtisadi, mənəvi, peşəkar və s.) maraqlarına görə birləşdirən digər təşkilatlar da mövcuddur.

İctimai birləşmələr sistemində dövlətin xüsusi rolu vardır. Belə ki, dövlət ölkə miqyasında yeganə, tam hakimiyyətli, cəmiyyətin inkişafının əsas istiqamətini müəyyən edən bütün vətəndaşların mənafelərini nəzərə alan, ölkə daxilində və beynəlxalq aləmdə rəsmi tanınan təşkilatdır.

Dövlət insanlara ictimai təşkilatlarda birləşmək kimi konstitusiya hüququ verir, bəzi ictimai təşkilatların hüquqi vəziyyətini müəyyən edərək onların fəaliyyətini mühafizə edir. Ictimai təşkilatların hüquq və mənafelərini isə məhkəmə, prokurorluq və başqa dövlət orqanları qoruyur.

Dövlət İqtisadi bazis üzərində siyasi üstqurumdur. Siyasi sistemin bütün təşkilati qurumları olan dövlət təşkilatları, ictimai təşkilatlar, əmək kollektivləri dövlət və ictimai həyatın hüquqi əsasını təşkil edən qanunlar çərçivəsində və əsasında fəaliyyət göstərirlər. Dövlət daima inkişafdadır. Cəmiyyətin inkişafı ilə dövlət, onun məqsəd və vəzifələri, idarəetmə qurumları və funksiyaları da dəyişir. Buna müvafiq surətdə dövlət anlayışına müxtəlif baxışlar mövcuddur.

Məhşur alman filosofu G.Hegel göstərir ki, «dövlət anlamı onun ümumi fəlsəfi sisteminə əsaslanır. Bu sistem isə dövləti insan varlığının xüsusi, ruhi əsaslarının məhsulu kimi izah edir. Dövlət – mənəvi ideyanın gercəkliyidir, mənəvi ruh göründüyü kimi öz - özünə aydın olan, düşünən, özünü bilən və bildiyinə görə icra edən substansional iradədir».

Marksistlərə görə, dövlət cəmiyyətin barışmaz siniflərə bölündüyünə görə sinfi cəmiyyətin məhsulu kimi yaranmışdır. «O, ümumi qaydaya görə, İqtisadi cəhətdən qüdrətli, hakim siniflərin dövlətidir. Həmin sinif dövlətin köməyi ilə siyasi cəhətdən də hakim sinfə çevrilir və beləliklə, istismar edilən sinfi əzmək və əsarətdə saxlamaq üçün yeni vasitələr əldə edir».

V.I.Lenin isə yazır: «Dövlət bir sinfin başqa sinfə zülm etməsi maşınıdır, bir sinfin başqa sinif üzərində ağalığını saxlamaq maşınıdır».

Dövlət anlayışının müəyyən edilməsi onun əsas əlamətlərinin izahı ilə bağlıdır.

Dövlət, hakimiyyətinin vahid ərazisi, həmin ərazidə yaşayan əhali və həmin əhaliyə aid olan hakimiyyətlə xarakterizə olunur. Dövlət bütün ölkə miqyasında siyasi hakimiyyətin vahid ərazi təşkilatıdır. Ərazi əlaməti məkan bölgüsü nəzərə alınmaqla dövlət aparatının fəaliyyətini və formalaşma xarakterini şərtləndirir.

Ərazi və əhali dövlətin yaranması və mövcudluğu üçün zəruri maddi şərtdir. Dövlətin xüsusi idarəetmə aparatı və mexanizmi vardır. Dövlətin bütün tarixi tiplərinə və növlərinə qanunvericilik, icra və məhkəmə orqanları xasdır. Dövlət mexanizminə həmişə məcburetmə, o cümlədən ordu, polis, həbsxanalar və islah – əmək müəssisələri və s. aiddir. Hüquq və qanunvericilik olmadan dövlət cəmiyyətə rəhbərliyi və qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edə bilməz.

Dövlət cəmiyyətin elə siyasi təşkilatıdır ki, o öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə şamil edir. Bunun üçün də xüsusi idarəetmə aparatı vardır. Bu aparat hamı üçün məcburi göstərişlər verir.

Tarixdə dörd dövlət tipi məlumdur: quldarlıq dövləti, feodal dövləti, kapitalist dövləti və sosialist dövləti.

Dövlətin əmələ gəlməsilə insanlar arasında siyasi münasibətlər yarandı. Siyasi münasibətlər öz əsası etibarilə siniflər arasındakı münasibətlərdir. Siniflər arasındakı siyasi münasibətlər onların ümdə İqtisadi mənafeyini təmərküzləşmiş şəkildə ifadə edir. İqtisadi hərəkat ümumiyyətlə və bütünlüklə özünə yol açacaqdır, lakin İqtisadi hərəkat özü üçün yaratdığı və nisbi bir müstəqilliyə malik olan siyasi hərəkatdan da əks – təsir almalıdır.

Dövlət hakimiyyətin suveren təşkilatıdır. Dövlətin suverenliyi dövlət hakimiyyətinin elə xassəsidir ki, o, ölkə daxilində, habelə beynəlxalq aləmdə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına riayət etməklə dövlətlərarası münasibətlər sahəsində həmin dövlətin aliliyi və müstəqilliyində ifadə olunur.

Ilk dəfə Azərbaycan Demokratik Respublikası dövründən başlanan Konstitusiya quruculuğu tariximizdə 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının yarandığını elan edən «Istiqlaliyyət Bəyannaməsi» və 1919-cu ildə qəbul edilən «Müstəqillik haqqında akt» - Konstitusiya xarakterli hüquqi sənədlər olmuşdur. Qısa müddətdə, cəmi 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikasının özünün ilk Konstitusiyasını qəbul etmək imkanı Sovet Rusiyasının 1920 - ci il aprelin 28-də Azərbaycanda bolşevik hökumətini yaratması ilə aradan qaldırıldı. Azərbaycanda ilk Konstitusiya Sovet hökuməti dövründə qəbul olundu. Azərbaycan SSR – in 1921-ci ildə qəbul olunmuş bu Konstitusiyası Azərbaycanın müstəqil dövlət atributlarını formal olsa da əsasən əks etdirirdi. Azərbaycan SSR – in 1921-ci il Konstitusiyası müəyyən dəyişikliklərlə (1924) 1937-ci ilə qədər qüvvədə olmuşdur. 1936 - cı ildə ZSFSR tərkibindən çıxaraq «Müttəfiq Respublika»

kimi SSRI tərkibinə daxil olan Azərbaycan SSR – in 1937 - ci ildə ikinci Konstitusiyası qəbul edildi.

1977- ci ildə SSRI-nin yeni Konstitusiyasının qəbulu ilə əlaqədar olaraq 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi.

SSRI – nin dağılması və müstəqil Azərbaycan Respublikasının yaradılmasından sonra Azərbaycan SSR – in 1978-ci il Konstitusiyası öz əhəmiyyətini itirdi.

XX əsrin sonu Azərbaycan Respublikasının ictimai – İqtisadi, siyasi və mədəni həyatında tamamilə yeni bir mərhələnin başlanğıcı qoyuldu. Bu yeni mərhələ SSRI – nin dağılması və onun yerində müstəqil dövlətlərin, o cümlədən müstəqil Azərbaycan Respublikasının yaranması ilə başlanır. Azərbaycan Respublikası ictimai mülkiyyətə əsaslanan İqtisadi sistemdən tamamilə yeni bir ictimai – İqtisadi və siyasi münasibətlərə əsaslanan sistemə doğru, yeni bir yola qədəm qoydu.

Azərbaycan dövləti müstəqillik uğrunda mübarizədə çox ciddi obyektiv və subyektiv çətinliklərlə rastlaşdı. Azərbaycanın zəngin təbii sərvətlərə malik olması və əlverişli strate**ci** mövqedə yerləşməsi onu bir sıra iri dünya dövlətlərinin İqtisadi – siyasi və hərbi maraq dairəsinin kəsişməsi üzərində qurulmuş mübarizə burulğanına saldı. Azərbaycan qondarma «Dağlıq Qarabağ problemi» ilə üzləşdi və Ermənistanın hərbi təcavüzünə məruz qaldı.

Yeni İqtisadi – siyasi quruluşa keçid dövründə müstəqillik yolu ilə irəliləyən respublikamız başqa çətinliklərlə də rastlaşdı. Bu çətinliklər ilk dövrlərdə siyasi sabitliyin olmaması, hərc – mərclik, siyasi hakimiyət uğrunda mübarizə, silahlı qiyamlar, dövlət çevrilişi cəhdləri, İqtisadi əlaqələrin və maliyyə nizamının pozulması, işsizlik, inflyasiya, sosial gərginlik və s. formada özünü göstərirdi.

1993-cü ilin ikinci yarısında Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlişi ilə bütün bu çətinlikləri aradan qaldırmaq, müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq üçün çox gərgin və fəal mübarizə başlandı. Ölkədə özbaşınalığa, hərc-mərcliyə, hakimiyyət boşluğuna son qoyuldu. Güclü mərkəzi hakimiyyət yaradıldı.

Müstəqilliyin ilk illərində respublikanın strate**ci** inkişaf yolunu müəyyənləşdirən 30 avqust bəyanatı və 18 oktayabr «Müstəqillik aktı» yalnız 1991-ci ilin 30 de-kabrından sonra Konstitusiya xarakterli sənəd hüququ qazandı.

Göstrəilən bu ilk sənəd ölkənin ictimai – İqtisadi və siyasi həyatında baş verən prosesləri əks etdirmək, müstəqil Azərbaycan Respublikasının tutduğu strate**ci** yolun qanunvericilik bazasını yaratmaq, cəmiyyətin həyatında baş verən yenilikləri hüquqi cəhətdən tənzimləmək və s. baxımından respublikanın inkişaf sürətindən çox geri qalırdı. Bu baxımdan Azərbaycanın gələcək inkişaf yolunu müəyyən edən və ümumbəşəri tələblərə cavab verən yeni Konstitusiyanın qəbul edilməsi tələb olunurdu. Məhz buna görə də Azərbaycanın tarixi keçmişini, milli xüsusiyyətlərini, ənənələrini, ümumbəşəri, bugünkü reallıqları və gələcək perspektivləri əks etdirən yeni Konstitusiya

1995-ci ilin noyabrın 12-də ümumxalq müzakirəsi və referendumu nəticəsində qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti Ümummilli Liderimiz Heydər Əliyevin sədrliyi ilə qəbul edilən yeni Konstitusiya müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik dövlət quruculuğunda strate**ci** yolun hüquqi təsisatlarını yaratdı. Bu Konstitusiyanın ana xəttini xalqın və onun dövlətinin ümumi mənafeyi, xalqın iradəsi və dövlətin suverenlik hüququ, dövlətçiliyin mütləq üstünlüyü və əhalinin hüquqi təminatı təşkil edir.

Suverenlik dövlətin ümumiləşdirilmiş əlamətidir. Dövlət hakimiyyətinin və aliliyin öz idarəsini konkret olaraq dövlət hakimiyyətinin qərarlarının həmin ölkənin əhalisi və ictimai təşkilatlarına aid olmasında, qeyri-qanuni hərəkətlərin qarşısının alınmasında, xüsusi təsir vasitələrinə malik olmasında tapır.

XX əsrin ortalarında müasir dövlətçilik haqqında bir sıra nəzəriyyələr yaranmışdır. Həmin nəzəriyyələrdən «ümumrifah dövləti», «plüralist demokratiya», «hüquqi dövlət» nəzəriyyələrini göstərmək olar.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hüquqi və demokratik dövlət yaratmağı qarşısına məqsəd qoymuşdur. Dövlət fəaliyyətində hakimiyyətlər bölgüsü, qanunun aliliyi, aşkarlıq, fikir plüralizmi ön plana çəkilir. Beynəlxalq aləmdə də dövlətin rolu müsbət istiqamətdə dəyişir.

Hüquqi dövlət ideyasının yaranmasında böyük xidmətləri olan mütəfəkkirlərdən biri Spipozadır. Spipoza qanunlarla bağlı olan, inkişafın həqiqi hüquq və azadlıqlarını təmin edən demokratik dövlətin nəzəri əsasını ilk dəfə verənlərdən biridir. O yazırdı ki, dövlət o vaxt güclü olur ki, o, hər bir vətəndaşa təkcə həyatının deyil, həm də onun mənafeyinin təmin olunmasına təminat versin və hökmdarları mülkiyyətə, təhlükəsizliyə, şərəfə, azadlığa və təbəqələrin digər nemətlərinə qəsdlərdən qorusun.

I.Kant mərkəzində insan, şəxsiyyət duran hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını işləyib hazırlamışdır. O, xalqın idarəsini ifadə edən Konstitusiyanı qəbul etmək yolu ilə hüquq qaydaları yaradılmasında onun öz iştirakını tələb etməsinin müstəsna hüququnu ümumi hüququn mühüm prinsipi hesab edirdi. «Xalqın aliliyi hüquqi qanunlara tabe olan çoxlu insanlar birliyi» kimi çıxış edən dövlətdə bütün vətəndaşların azadlığı, bərabərliyi və müstəqilliyini şərtləndirir.

Hüquqi dövlətdə qanun ən yüksək hüquqi qüvvəyə malikdir. O, ictimai münasibətlərin əsas tənzimləyicisidir.

Hüquqi dövlətin əsas səciyyəvi xüsusiyyətlərinə gəldikdə onun İqtisadi, sosial və əxlaqi əsasının olmasını göstərmək lazımdır.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir: «Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır».

Bazar münasibətlərinə keçid dövründə respublikamızda baş verən İqtisadi dəyişikliklərin, getdikcə daha da sürətlənən islahatların aparılmasında və ictimai – siyasi münasibətlərin formalaşmasında Əsas Qanunun xüsusi rolu vardır. Yeni Konstitusiyada müxtəlif mülkiyyət növlərinə əsaslanan, bazar İqtisadiyyatına keçidi nəzərdə tutan, İqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, azad sahibkarlığa hüquqi təminat yaradılması və s. İqtisadi inkişafın əsası kimi xarakterizə olunur.

Azərbaycanın yeni Konstitusiyası ümumbəşir sivilizasiyasının ən ali prinsiplərinə əsaslanan müstəqil dövlətin atributlarını özündə əks etdirir. Ölkəmizdə qanunun aililiyinə və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu üçün hüquqi təminatlar verən, sosial – İqtisadi sahədə köklü dəyişikliklərin həyata keçirilməsinə zəmin və şərait yaradan bir Konstitusiyadır.

Dövlətlərin tiplər üzrə təsnifatında sinfi formasiyon yanaşma son vaxtlara kimi elmi və tədris ədəbiyyatlarımızda yeganə yanaşma idi.

Lakin son zamanlar dövlətlərin tiplər üzrə təsnifatının ən çox yayılmış və Qərb elmi tərəfindən geniş tanınmış olan əsaslarından biri «sivilizasiya» anlayışıdır.

Ingilis tarixçisi A.Toynibi «Sivilizasiya» termini altında cəmiyyətin mədəni, İqtisadi, coğrafi, dini, psixolo**ci** və başqa faktların ümumiliyi ilə fərqlənən nisbətən qapalı və lokal vəziyyətini başa düşürdü. Hər bir sivilizasiya onun çərçivəsində mövcud olan bütün dövlətlərə sabit ümumilik verir.

Sivilizasiya konsepsiyası siniflərin və sosial qrupların təkcə qarşı – qarşıya durmasını, ümumbəşəri dəyərlər bazasında onların qarşılıqlı əlaqə sahəsini, təkcə sinfi ziddiyyətlərin təzahürünü deyil, həm də insan həyatının müxtəlif sahələrində onun bütün davranışına nüfuz edən prinsiplərin ümumiliyini ayırmağa imkan verir.

Sivilizasiyalı yanaşmada, cəmiyyətin siyasi sistemində dövlət cəmiyyətin sosial-İqtisadi və mənəvi inkişafının, insanların müxtəlif tələbatının təmin edilməsinin mühüm amili kimi çıxış edir.

Dövlətin tipologiyası, dövlətin forması anlayışı ilə sıx əlaqədardır. Dövlətin forması özündə qarşılıqlı əlaqədə olan üç ünsürü: idarəçilik formasını, dövlət quruluşu formasını və dövlət re**ci**mi formasını birləşdirir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi, idarəçilik forması ali dövlət hakimiyyəti orqanlarının strukturunu, onların təşkili və onlar arasında səlahiyyətlər bölgüsü qaydasını özündə birləşdirir.

Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prisnipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi, Icra hakimiyyətini Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyətini isə Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Dövlət quruluşu formasına görə Azərbaycan Respublikası unitar dövlətdir.

Unitar dövlət mərkəzi hakimiyyət orqanlarına tabe olan və dövlət suverenliyi əlamətlərinə malik olmayan inzibati – ərazi vahidlərindən ibarət vahid bütöv dövlət birliyidir.

Dövlət re**ci**mi forması isə dövlət tərəfindən hakimiyyətin həyata keçirilməsinin üsul və metodlarının məcmusunu özündə əks etdirir. Dövlət re**ci**minə gəldikdə isə onu göstərmək lazımdır ki, Azərbaycan əsl demokratik re**ci**m əsasında inkişaf edən dünyəvi, hüquqi, sivil dövlət qurur. Demokratik re**ci**m, dövlət hakimiyyətinin həyata keçirilməsinin, şəxsiyyət azadlığının, onun qanuni hüquq və mənafelərini real təmin edən metodları ilə səciyyələnir.

1.2. Dövlətin funksiyaları

Dövlətin funksiyası dövlət hakimiyyətinin həyata keçirilməsinin, dövlət fəaliyyətinin həmin istiqamət ilə sıx əlaqədə olan məzmun, forma və metodlarının vahdətini özündə təcəssüm etdirir. Dövlətin bütün funksional fəaliyyəti şəxsiyyət, onun maddi və mənəvi rifahına, şəxsiyyətin maksimum hüquqi və sosial müdafiəsinə nail olmağa yönəlmişdir. Dövlət həmçinin şəxsiyyətin qanuni mənafelərinin ali müdafiəçisi kimi çıxış edir.

Dövlətin funksiyaları cəmiyyətin dövlət idarəetməsinin mahiyyət və sosial məzmununu ifadə edən fəaliyyətinin əsas istiqamətləridir. Bütün cəmiyyətlərdə dövlət daxili, xarici və ölkənin müdafiəsi funksiyasını yerinə yetirir.

Daxili funksiyalar

Dövlətin daxili funksiyası İqtisadi, sosial, ekoloji və hüquq qaydasının müha-fizəsindən ibarətdir.

1. İqtisadi funksiya

İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir.

H.Ə.Əliyev

Dövlətin çoxtərəfli İqtisadi fəaliyyəti İqtisadi həyatın bütün sahələrini əhatə edir.

Bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq hüquqi dövlətdə İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, əsasən, inzibati metodlarla deyil, İqtisadi metodlarla həyata keçirilir. Yəni, dövlətin İqtisadiyyatın idarə edilməsində yaxından iştirakı bir qədər məhdudlaşdırılır. Dövlət üçün mülkiyyətçinin azadlığı və müstəqilliyi, istehlakçının sərbəstliyi və qiymətlərin sərbəstləşdirilməsi təmin edilir.

P.Samuelson və V.Nordxaus göstərirlər ki, «Dövlətin rolunu müzakirə etməklə deyə bilərik ki, ümumiyyətlə o fəaliyyət qaydalarını müəyyən edir. Bəs onun konkret funksiyaları nədən ibarətdir? Bunlar üçdür: səmərəlilik, ədalətlilik, sabitlik. Səmərəlilik funksiyası dedikdə nəzərdə tutulur ki, dövlət bazarın inhisar kimi «səhvini» düzəldir. Dövlətin ədalətlilik proqramı kasıbların və miskinlərin (dilənçilərin) xeyrinə gəlirləri yenidən bölür. Sabitlik siyasəti nəticəsində işgüzar tsiklin qalxıb – enməsi, işsizliyin və inflyasiyanın səviyyəsi, İqtisadi artım tənzim edilir».

Bütün dünya ölkələrində başlıca məqsəd cəmiyyətdə sosial – İqtisadi sabitliyi təmin etmək, ölkə daxilində, eləcə də dünya miqyasında mövcud quruluşu möhkəmlətmək və onu yeni ictimai – İqtisadi şəraitə uyğunlaşdırmaqdan ibarətdir.

Hazırda Azərbaycanda inzibati – amirlik sisteminin, bazar sistemilə əvəz edilməsi, azad rəqabət və İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin təşəkkül tapması prosesi gedir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi, «Azərbaycan dövləti bazar münasibətləri əsasında İqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, İqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir».

Bazar İqtisadiyyatında dövlətin rolu haqqında danışarkən əvvəlcə tarixə nəzər salmaq lazımdır. Ilk dəfə dövlətin İqtisadiyyata müdaxilə etməsi məsələsi merkantilistlər tərəfindən irəli sürülmüşdür. Merkantilizm XV – XVIII əsrlərdə Avropada İqtisadi siyasətin başlıca istiqaməti idi. Merkantilistlər yalnız dövlətə insanın təbii hüquq prisnipəlrinə uyğun olan dövlət müdaxiləsini bəyənirdilər.

Bu ideyaları sonralar bir sıra İqtisadçılar inkişaf etdirdilər. Dövlətin vəzifələrini əks etdirən İqtisadi ideyaları daha geniş şəkildə əsrimizin 30-40-cı illərində ingilis İqtisadçısı Con Meynord Keyns irəli sürdü.

Dövlətin İqtisadi funksiyaları məsələsi müasir İqtisadi ədəbiyyatlarda daha da inkişaf etdirilmişdir. Məşhur amerika İqtisadçıları K.R.Makkonell və S.L.Bryu dövlətin əsas İqtisadi funksiyalarının aşağıdakılardan ibarət olduğunu göstərirlər:

1. Bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan ictimai mühitin və hüquqi bazanın təmin edilməsi.
2. Rəqabətin müdafiəsi.
3. Gəlir və sərvətlərin yenidən bölgüsü.
4. Milli məhsulun quruluşunu dəyişmək məqsədi ilə ehtiyatların bölgüsünü təkmilləşdirmək.
5. İqtisadiyyatın sabitləşdirilməsi.

Bazar İqtisadiyyatına keçid yeni İqtisadi mexanizmin yaradılması və hüquqi bazanın təmin edilməsini tələb edir. Sərbəst İqtisadiyyat yaratmaq, möhkəm İqtisadi sabitliyə nail olmaq, işsizlik və inflyasiyanın qarşısını almaq, sosial ədalətliyi, İqtisadi artımı, bazar infrastrukturunu təmin etmək üçün güclü hüquqi təminat yaratmaq lazımdır.

İqtisadiyyatın normal tənzimlənməsi və səmərəli fəaliyyəti üçün dövlətin hüquqi təminatı və müdafiəsi sahəsindəki işi onun başlıca funksiyası kimi çıxış edir. Heç də təsadüfi deyildir ki, I.Kant göstərir ki, «İqtisadiyyat ədalətli yox, səmərəli olmalıdır».

Dövlət səmərəli bazar İqtisadiyyatını təmin etmək üçün mülkiyyət inhisarçılığını aradan qaldırmaq, özəlləşdirmə, xüsusi sahibkarlıq, sosial – İqtisadi inkişafa stimul yaradan vergi sisteminin tətbiq edilməsi, maliyyə-kredit sisteminin normal tənzimlənməsi, bazar infrastrukturunun yaradılması, xarici – İqtisadi əlaqələrin düzgün təşkili, əhalinin sosial müdafiəsi, ətraf mühitin və ekoloji vəziyyətin sağlamlaşdırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi və s. sahələr üzrə müvafiq qanunlar işləyib hazırlayır və qəbul edir.

İqtisadiyyat dövlət işindən vətəndaş cəmiyyətinin əsas işinə çevrilməlidir. Bazar İqtisadiyyatında dövlət İqtisadi münasibətlərdə artıq inhisarçı subyekt kimi yox, bazarın iştirakçılarından biri kimi çıxış edir.

Dövlət inhisarçılığını aradan qaldırmaq və sərbəst İqtisadiyyat yaratmaq məqsədi ilə İqtisadi həyatın tamamilə yeni və hərtərəfli normativ hüquqi bazasını yaratmaq lazımdır.

Bazar İqtisadiyyatında dövlət xüsusi mülkiyyət hüququnu və bu mülkiyyətin istifadəsindən mənfəət əldə etmək hüququnu müəyyənləşdirir və təsbit edir. Dövlət tərəfindən xüsusi mülkiyyətin müdafiəsi torpaq, fabrik, dükanla yanaşı, intellektual mülkiyyətə də aiddir. Əks halda, şirkətlər və sahibkarlar intellektual sahəyə investisiya qoymazlar.

Mülkiyyət hüququnu müəyyənləşdirib, onu qorumaqla, səmərəli hüquqi sistem yaratmaqla dövlət əmtəələrin və xidmətlərin xüsusi bazarlarının səmərəli fəaliyyətinə, onlara cəmiyyət tərəfindən yardım göstərilməsinə nail olur.

Bazarın təminatı sahəsində Azərbaycanda son vaxtlarda xeyli iş görülmüş, bir sıra qanunlar qəbul olunmuş, yeni bazar infrastrukturunun elementləri yaradılmışdır.

Rəqabətin müdafiəsi

Bazar İqtisadiyyatına keçid mülkiyyətin çoxnövlülüyünün yaranması və rəqabətin mövcudluğunu tələb edir. Rəqabət, sözün əsl mənasında, bazar İqtisadiyyatının əsas hərəkətverici qüvvəsidir. Rəqabət əmtəə istehsalçısını məhsulun keyfiyyətini yüksəltməyə, onun çeşidini yaxşılaşdırmağa, istehsal xərclərini aşağı salmağa sövq edir. Bütün bunlar isə yüksək keyfiyyətli məhsul istehsal etmək, istehlakçıların tələbatını ödəmək, məhsulların qiymətlərini aşağı salmaq və mənfəətin artmasına səbəb olur. Bazar İqtisadiyyatı İqtisadiyyatda inhisarçılığın aradan qaldırılması və rəqabət mühitinin yaranmasını tələb edir.

Dövlət İqtisadiyyatda inhisarçılığı qadağan etmək, İqtisadi sistemdə yüksək rəqabət səviyyəsini yaratmaq üçün antiinhisar qanunları qəbul edir. Bu məqsədlə respublikada «Haqsız rəqabət» və «Antiinhisar fəaliyyəti haqqında» qanunlar qəbul edilmişdir. «Haqsız rəqabət» qanunu bazar subyektlərinin haqsız rəqabət metodlarının tətbiqi üçün məsuliyyətini müəyyən edir və sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi təminat yaradır. Haqsız rəqabət qanunvericilik aktları ilə qadağan olunur və bu metodlardan istifadə edənlər məsuliyyətə cəlb olunurlar.

«Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyətinin, yəni bazarda rəqabətə yol verilməsinin, onun məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsasları müəyyən edilir.

Qeyd etmək lazımdır ki, bir çox hallarda dövlət tənzimlənməsi və antiinhisar siyasəti rəqabəti gücləndirmək əvəzinə onu bəzən zəiflədir. Bu siyasətə əmtəə və xidmətlərin istehsalına müstəsna lisenziyalar verilməsi, vergilər, xarici malların və xidmətlərin idxalını məhdudlaşdıran kvotalar, əmək haqqını müəyyənləşdirən lisenziyalar və s. daxildir. Məhdudiyyətlər əlverişli deyil və yalnız bir qrup azsaylı insanların arzusu ilə qəbul edilə bilər. Bu isə cəmiyyətin qalan üzvləri üçün səmərəli deyil.

Dövlətin rəqabətə kömək köstərmək üçün tətbiq etdiyi qanunlar və tənzimləmə tədbirləri ardıcıl olaraq həyata keçirilməli və bu sahədə dünya dövlətlərinin təcrübəsi nəzərə alınmalıdır.

Gəlir və sərvətlərin yenidən bölgüsü

Bazar İqtisadiyyatı şəraitində dövlət gəlirlərin və sərvətlərin yenidən bölüşdürülməsi proqramında iştirak edir. Dövlətin fəaliyyəti vergi siyasətinin, gəlirlərin və sərvətlərin yenidən bölüşdürülməsinin daha ədalətli olmasına yönəldilir. Dövlət, cəmiyyətin qarşısında duran məqsəd və problemlərdən asılı

olaraq resursların ölkə İqtisadiyyatının sahələri arasında səmərəli bölgüsünə nail olur.

Bazar İqtisadiyyatı şəraitində insanların bacarıq və resurslarla təmin edilməsi sahəsində fərqlər meydana çıxır. Yəni, gəlirlərin ədalətli bölgüsü təmin edilmir. Məhz bu baxımdan gəlirlərin yenidən bölgüsündə dövlətin müstəsna rolu vardır.

Yenidən bölgünün genişləndirilməsinin tərəfdarları olan İqtisadçılar iddia edirlər ki, bu sahədə dövlətin rolu sərvətin və İqtisadi hökmranlığın ayrı-ayrı ailələrin əlində toplanmasını məhdudlaşdırmaqdan ibarətdir. Iri yenidən bölgü proqramlarının əleyhdarları isə yüksək gəliri olan ailələrə əlavə vergilərin qoyulması nəticəsində bu qrupun işə həvəsinin, qənaət və investisiyalara olan marağını zəifləyəcəyini, bundan isə bütün cəmiyyətə ziyan dəyəcəyini göstərirlər.

Bazar İqtisadiyyatı ölkələrində dövlət gəlirlərin ədalətli bölgüsü və əhalinin sosial təminatı sahəsində xeyli iş görür. Işsizlərə müavinət vermək, yoxsulları müalicə etmək, qocaların təqaüdlə təmin edilməsi, gəlirlərin indeksləşdirilməsi, sosial təminatlar, əhalinin hüquqları və istehlakçıların müdafiəsində yaxından iştirak edir.

Sosial sferada əhalinin rifah halının, maddi təminatının və yaşayış səviyyəsinin yaxşılışadırılması məqsədi ilə respublikida həyata keçirilən sosial-İqtisadi siyasətin nəticəsi olaraq, 2007-ci illə müqayisədə 2008-ci ildə orta aylıq əmək haqqı 23,1%, əhalinin adambaşına düşən gəlirləri 34,1% artmış, əhalinin sərəncamında qalan vəsaitlər 36,9%-dən çox olmuşdur. Bütün bunlar əhalinin pul gəlirlərinin və bank əmanətlərinin artımına şərait yaratmışdır.

Respublikada son beş il ərzində həyata keçirilən regionların sosial-İqtisadi inkişafı, Dövlət Proqramı da uğurla başa çatmışdır. Proqramda nəzərdə tutulmuş 600 min yeni iş yerlərinin yaradılması əvəzinə 750 min yeni iş yerləri açılmışdır ki, bu da regionların inkişafına çox böyük təkan vermişdir.

Qeyd etmək lazımdır ki, son illər dövlət büdcə xərclərinin bir neçə dəfə artması hesabına İqtisadiyyata sərmayələrin qoyulmasına diqqətin artırılması özünü qabarıq şəkildə büruzə verir. Məsələn, 2003-cü ilə nisbətən 2008-ci ilin sonuna dövlət büdcəsindən əsaslı vəsait qoyuluşuna 20 dəfədən çox vəsait yönəldilmişdir. Bu artım hesabına ölkəmizin prioritet sosial yönümlü infrastruktur sahələrinin yaradılması və yenidən qurulması ilə bərabər, mədəniyyət, idman, turizm, təhsil, səhiyyə təyinatlı layihələrin maliyyələşdirilməsi mümkün olmuşdur.

Dünyanın sənaye ölkələrində son yarım əsrdə sosial proqramlar dövlət xərclərinin və vergi sistemlərinin sürətlə artan hissəsinə çevrilmişdir. Məsələn, ABŞ-da ailələrin illik gəlirlərinin məbləğindəki fərqin əsas səbəbəi əmək haqlarının müxtəlifliyidir. Alınan gəlirin təxminən 4/3 hissəsi əmək haqqının payına, qalan 1/4 hissəsi isə icarənin, mənfəətin və faizlərin payına duşur.

ABŞ-ın Perdyu Universitetinin İqtisadiyyat üzrə professoru və İqtisadi Tədris Mərkəzinin direktoru Maykl Uottsın hesablamalarına görə, gəlirlərin

bölüşdürülməsinin əsas modeli Ikinci dünya müharibəsindən sonrakı dövrdən bəri dəyişməmişdir. Onun hesablamalarına görə, əhali hər birinin xüsusi çəkisi 10% olan beş qrupa bölünür və onda görünür ki, milli gəlirin 43 faizi ən varlı ailələrin, 24 faizi sonrakı qrupun, 17 faizi mərkəzdə yerləşən qrupun, 2 faizi sonuncudan bir pillə yüksəkdə duranların və 5 faizi ən kasıb ailələr qrupunun payına düşür.

Lakin bu rəqəmlərdə varlıların yüksək vergi ödəməsi, gəliri aşağı olan ailələrin isə hökumətin yardım proqramları hesabına subsidiyalar alması faktı əks olunmamışdır. Daha sonra göstərir ki, ən yoxsul ailələrin ümumi gəlirləri hökumətin yardım proqramı üzrə 7%-dək artdığı halda, ən varlı ailələrin gəlirlərinin 37%-dək endiyini görürük.

Dünyanın inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrinin hökumətləri bu problemlərin həlli üçün tədbirlər görərək, gəlir səviyyəsi aşağı olan ailələrə subsidiyalar verilməsi proqramlarını hazırlamışlar. Bu yardımın səviyyəsi və formaları məsələsi isə ölkələrin əksəriyyətində mübahisəli siyasi problem kimi qaldırılmaqdadır.

Bazar İqtisadiyyatı istər – istəməz ölkədə gəlir və sərvətlərin bölgüsündə dövlət, xüsusi sahibkarlar və əhali arasında bölüşdürlməsində və istifadə edilməsində əsaslı qeyri – bərabərliyə gətirib çıxarır.

Dövlət bu şəraitdə milli gəlirin və sərvətin yenidən bölüşdürlməsində yaxından iştirak edir və əhalinin az gəlirli hissəsinin sosial təminatına kömək edir. Dövlətin transfert tədiyyələri ciddi ehtiyacı olanlara, müavinəti isə ən çox işsizlərə verilir.

Əhalinin müxtəlif strukturlarının təmin olunma səviyyəsini təyin etmək üçün «istehlak səbəti»ndən istifadə edilir.

Aztəminatlıların sosial müdafiəsinin istənilən forması o zaman real olur ki, fəaliyyət göstərən qanunvericiliklə əlaqədar vətəndaşların əmək haqqı «istehlak səbəti»ndən aşağı olsun. Aztəminatlılıq təkcə dövlət hesabına deyil, həm də müəyyən xeyriyyə cəmiyyətləri hesabına yüngülləşdirilməlidir.

Milli məhsulun quruluşunu dəyişmək məqsədi ilə ehtiyatların bölgüsünü təkmilləşdirmək

Dövlətin mühüm funksiyalarından biri ehtiyatların sosial ədalətliyə görə düzgün bölünməsinə kömək etməkdir. Bu dövlətin siyasətinin «mikro» və «makro» İqtisadi tərəfidir, İqtisadi həyatın bütün tələblərinə cavab verir. Bu funksiya ölkə İqtisadiyyatının, o cümlədən, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyatın, sosial sferanın və s. sahələrin, cəmiyyətin seçdiyi bazarın birləşməsini özündə birləşdirir. «Mikro» və «makro» İqtisadiyyatın inkişafı cəmiyyət qarşısında duran bütün sosial İqtisadi problemlərin, İqtisadi artımın və habelə ölkədə siyasi sabitliyin yaradılmasında mühüm rol oynayır.

İqtisadi artım mahiyyət etibarilə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir.

Bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlət mülkiyyəti ilə rəqabət apara biləcək mülkiyyət strukturlarının yaradılması İqtisadi artımın təmin olunmasında yaxından iştirak edir.

Ümumi milli məhsulun təkrar istehsalının kəmiyyət tərəfi istehsal olunan məhsulların həcminin dinamikasını, digər tərəfdən isə İqtisadi ehtiyatlara olan xərc və əldə olunan nəticənin nisbətini əks etdirir. Lakin ümumi milli məhsulun təkrar istehsalının keyfiyyət tərəfi ölkə İqtisadiyyatının bütün sahələrində gedən mütərəqqi quruluş dəyişikliklərini, onların proporsionallıq və tarazlıq səviyyəsini, təsərrüfatçılığın təşkili və idarə olunması istiqamətini əks etdirir.

Azərbaycan İqtisadiyyatında aparılacaq İqtisadi islahatların əsasını mülkiyyət və struktur dəyişikliyi təşkil edir. Mülkiyyətlə yanaşı olaraq struktur dəyişikliyi İqtisadi islahatların ana xəttini təşkil edir. İqtisadiyyatın strukturu dedikdə onun təsərrüfat mexanizmi nəzərdə tutulur. Belə yanaşma nöqteyi – nəzərindən qurmaq istədiyimiz bazar İqtisadiyyatının sahə, idarəetmə, təsərrüfat tərkibinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Sahə tərkibi əsasən iki amildən: mövcud təbii resurslar ehtiyatından və əhalinin ehtiyacları və İqtisadiyyatın tələbatından asılı olur.

Bazar İqtisadiyyatına keçid şəraitində struktur dəyişiklikləri aparmaq məqsədilə dövlət milli məhsulun quruluşunu dəyişməklə və ehtiyatların səmərəli bölgüsünü ön plana çəkir.

İqtisadi artımın səviyyəsi hər şəraitdə məşğulluğun artması və inflyasiyanın yüksəlməsi ilə müşahidə olunur. Dövlətin əsas vəzifəsi isə bu şəraitdə milli məhsulun quruluşunu dəyişmək, yeni iş yerləri yaratmaq, işsizliyin qarşısını almaq üçün ehtiyatların bölgüsünü təkmilləşdirməkdən ibarətdir. Yəni dövlət təbii ehtiyatlar, əmək ehtiyatları və maliyyə (kapital) ehtiyatlarının səmərəli surətdə bölügsünü təşkil edir.

Bazar İqtisadiyyatına keçid nəticəsində qiymətlərin sərbəstləşdirilməsi nəticəsində satışa təklif edilən əmtəələrin çeşidi dövlət normaları ilə deyil, istehlakçı tələbatı ilə müəyyənləşdirilir. İqtisadi strukturlarda rəqabət gəlir gətirməyən müəssisələri bağlamağa, ya da işçilərin sayını azaltmağa vadar edir. Nəticədə işsizlik artır, çünki müəssisələr, firmalar, şirkətlər öz xərclərini aşağı salmaq uğrunda mübarizə aparırlar. Dövlət dotasiyalarından məhrum olmuş iri dövlət müəssisələri yeni İqtisadi şəraitdə rəqabətə davam gətirmirlər. Bu proses isə xüsusi mülkiyyətin yaranmasını sürətləndirir. Yeni kommersiya imkanlarının yarandığını görən sahibkarlar işçiləri muzdla tutur və yeni əmtəələr və xidmətlər istehsal edirlər. Yeni müəssisələrin açılması isə iş yerlərinin sayının artması, əmək bazarının çevikliyi və fəhlələr üçün iş seçmək imkanları yaradır.

Bazar İqtisadiyyatı möhkəmləndikcə işsizlik və inflyasiya səviyyəsi aşağı düşür.

Bazar İqtisadiyyatına keçid iş qüvvəsinin az məhsuldar və gəlir verən sahədən daha yüksək məhsuldar sahəyə çıxıb getməsinə səbəb olur. Belə ki, hazırkı şəraitdə respublikada iş qüvvəsinin kənd təsərrüfatı (fermer təsərrüfatı), kommersiya sahəsi (ticarət) və maliyyə – kredit strukturlarında cəmləşməsi müşahidə olunur. Çünki bu sahələrdə çalışan işçilərin maddi marağı daha yaxşı təmin edilir.

Bu baxımdan dövlət konkter olaraq təbii sərvətlərin, iş qüvvəsinin, mövcud kapitalın, texnologiyanın səmərəli bölgüsünü təmin etməlidir. Dövlət ehtiyatları yenidən bölmək yolu ilə ümumi milli məhsulun quruluşunun dəyişilməsinə nail olur.

Artan ehtiyatların kəmiyyətinin səmərəli bölgüsü bazar sisteminə keçid şəraitində Azərbaycan dövlətinin İqtisadiyyatı üçün daha xarakterikdir. Çünki tələb amili rolunda çıxış edən ehtiyatların bölügsü dövlətin əlində cəmləşdiyi üçün onun səmərəli mexanizminin tətbiqi müxtəlif istehsal sahələrinin məhsuldar fəaliyyətini təmin edə bilər.

Cəmiyyət varlandıqca insan üçün daha çox ehtiyatlar ayırır. Bu gün inkişaf etmiş ölkələr, sağlamlığın qorunması, qida və gəlirin minimal vəziyyətinin saxlanmasına öz büdcələrindəq xeyli pul ayırırlar. ABŞ-da pulsuz tibbi yardım, sosial təminat, ərzaq talonları kimi sosial proqramlar fəaliyyətdədir. Müasir İqtisadiyyatda insana minimal tələblərdən xeyli çox xərc qoyulur. Vətəndaşların gəlirlərinin yenidən bölüşdürülməsi isə vergi ilə tənzimlənir.

Dövlət, həmçinin, ölkədə ehtiyatların bölgüsünün strate**ci** planlaşdırılması və proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirir. Bu baxımdan Yaponiya dövlətinin İqtisadi inkişafında qısa müddətdə sıçrayışlı tərəqqinin baş verməsi buna əyani misaldır. Çünki, burada planlaşdırma ilə bazar mexanizmi qarşılıqlı əlaqədə həyata keçirilir.

İqtisadiyyatın sabitləşdirilməsi

Bazar İqtisadiyyatı şəraitində dövlətin rol və məsuliyyətinin artması, funksiyalarının genişlənməsi İqtisadiyyatın normal inkişafına əsaslı təsir edir ki, bu da ölkədə sabitliyin təmin edilməsinə gətirib çıxarır.

Dünyanın aparıcı İqtisadçıları dövləti maliyyə, büdcə və pul – kredit siyasəti vasitəsi ilə İqtisadiyyatın sabitləşdirilməsi, böhranın, işsizliyin, inflyasiyanın aradan qaldırılmasının mümkünlüyünün elmi yollarını işləyib hazırlamışlar.

Maliyyə – büdcə siyasəti yüksək işsizlik və zəif inflyasiya dövründə milli İqtisadiyyatın stimullaşdırılması, yaxud sürətli inflyasiya və aşağı səviyyəli işsizlik dövrlərində onun ləngidilməsinə yönəldilmiş dövlət xərclərinə və vergiqoyma problemlərinə toxunur.

Ölkədə İqtisadi artımı təmin etmək və insanların maddi rifahını yaxşılaş-dırmağın əsas amili sabitlikdir. Sabitlik iki yerə bölünür: siyasi sabitlik və

maliyyə sabitliyi. Respublikada siyasi sabitlik möhkəmlənir. Bu isə xarici və daxili sərmayədarlar üçün çox vacib göstəricidir. Sərmayədarların Azərbaycana axınının çoxalması birinci növbədə siyasi sabitliklə bağlıdır.

Maliyyə sabitliyi isə inflyasiyanın səviyyəsi, büdcə kəsirinin azaldılması, manatın alıcılıq qabiliyyətinin artması və dollara nisbətdə məzənnəsinin möhkəmlənməsi və s. məsələləri əhatə edir. Azərbaycan dövləti həyata keçirdiyi İqtisadi siyasəti respublikanın ən vacib, aktual problemlərinin həllinə yönəldib. Bu birinci növbədə istehsalı dirçəltmək və onun əsasında əhalinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir.

Respublikada maliyyə sabitliyi sahəsində işlər əsasən 1994-cü ilin sonundan başlanmışdır. Həmin ilin noyabr – dekabr aylarında inflyasiyanın səviyyəsi 50- 60 faizə çatmışdı. Qiymətlər hər gün 2 faiz artırdı. 1994-cü ildə inflyasiyanın səviyyəsi təxminən 1560-1600 faizə yaxın idi. Bu o deməkdir ki, qiymətlər 1993-cü ilə nisbətən 16 dəfə artmışdır. 1995-ci ildə isə inflyasiyanın səviyyəsi cəmi 84 faiz oldu. 1997-ci ilin əvvəlindən isə həmin proses daha intensiv gedir. 1997-ci ilin əvvəlində respublikada inflyasiyanın səviyyəsi 2 faizdən də az idi. Inflyasiyanın aşağı düşməsi həm daxildə və həm də xaricdə respublikanın İqtisadiyyatına inamı artırır.

Maliyyə sabitliyi birinci növbədə büdcə kəsirinin azaldılması ilə əlaqədardır. Büdcə kəsiri keçmiş illərdə 20-30 faizə çatdığı halda, 1997- ci ilin əvvəlində cəmisi 2,2 faiz təşkil etmişdir. Büdcə kəsirinin azalması bank sisteminin sağlamlaşdırılması və manatın məzənnəsinin möhkəmlənməsinə səbəb olmuşdur. Valyuta tənzimlənməsi faktiki olaraq tam sərbəstləşMişdir. Bu müsbət dəyişikliklər istehsalın səviyyəsinin aşağı düşməsinin qarşısını alır, maliyyə sabitliyi, İqtisadi sabitlik müəyyən müsbət meyllərə imkan yaradır.

Dövlətin İqtisadi siyasətində üstünlük banklardan, ticarət – kommersiya strukturlarından istehsala keçməlidir. Onun vasitələrindən biri dövlətin təkmil vergi siyasəti yeritməsidir.

Müxtəlif mülkiyyət formalarına, rezident və qeyri – rezident müəssisə və təşkilatlara bərabər vergi dərəcəsi tətbiq etmək, güzəştləri minimuma endirmək, vergi bazasını genişləndirmək, istehsal sahələrinə kapital qoyuluşunu stimullaşdıran, bazar İqtisadiyyatı tələblərindən irəli gələn çevik vergi siyasəti yeritmək lazımdır.

Maliyyə – sənaye qruplarının yaranması, inteqrasiyanın dərinləşməsi, istehsal, ticarət, bank strukturlarını bir təşkilati-hüquqi formada birləşməsi və qiymətli kağızlar bazarının yüksək səviyyəyə çatması dövlətə imkan verir ki, vahid vergi dərəcəsi tətbiq etsin.

Dövlətin yerinə yetirmiş olduğu maliyyə siyasətində maliyyə nəzarətindən geniş istifadə edilir. Maliyyə nəzarəti funksiyası istehsalçıların gəlirlərinin dövlət tərəfindən aşkar edilməsində və qeydiyyatında ifadə olunur. Vergi qanununa görə, bu gəlirlərin bir hissəsi vergilər şəklində sosial və digər ümumdövlət ehtiyaclarının ödənilməsi üçün dövlət büdcəsinə daxil olur. Dövlət vergilərin xərclənməsinin düzgünlüyünə nəzarət edir.

Gəlir və xərclər üzərində ali maliyyə nəzarəti Azərbaycan Respublikası Milli Məclisinin müstəsna hüququdur. Yerlərdə bu funksiyaları yerli dövlət hakimiyyəti orqanları həyata keçirir. Maliyyə nəzarəti üzrə geniş hüquqlar isə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə aiddir.

Dünya dövlətlərində, məsələn, ABŞ-da xüsusi maliyyə nəzarəti orqanı kimi, prezident tərəfindən təyin edilən və yalnız Konqresin hər iki palatasının qərarı ilə azad edilən baş nəzarətçinin rəhbərlik etdiyi Baş Hesabat Idarəsi, Fransada mərkəzdə və yerlərdə Hesabat Palatası, Ingiltərədə isə Nəzarətçi və auditor Idarəsi Maliyyə Nazirliyi ilə birgə həyata keçirir.

Bunlardan başqa, Dövlət Gömrük Idarəsi dövlət sərhədi vasitəsilə maddi nemətlərin aparılmasına nəzarət edir və gömrük vergi və rüsumlarını yığır. Nəhayət, Azərbaycan dövləti ölkənin təbii, İqtisadi, elmi-texniki və intellektual potensialının istehsal dövriyyəsinə cəlb edilməsini, rəqabət qabiliyyətli məhsullar istehsalı və reallaşdırılmaısnı, ixracatı stimullaşdırmağı, yeni iş yerləri yaratmağı və İqtisadiyyatın sabit inkişafı əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsini İqtisadi sahədə fəaliyyətinin başlıca vəzifəsi hesab edir.

2. Sosial funksiya

Dövlətin yerinə yetirmiş olduğu funksiyalardan biri sosial funksiyadır. Sosial funksiya əhalinin sosial müdafiəsini, bütün cəmiyyət üzvləri üçün onların nemətlər istehsalında bilavasitə iştirakından asılı olmayaraq normal həyat şəraitini təmin etməyə xidmət edir. Bazar İqtisadiyyatına keçid nəticəsində inzibati – amirlik sistemində dövlət tərəfindən bərabərçilik prinsipi üzrə sosial nizamasalma tədricən aradan qaldırılır. Bazar İqtisadiyyatı istehsalçıların və istehlakçıların azaldığı, müstəqilliyi, İqtisadi sərbəstliyi ilə şərtlənir. Bazar İqtisadiyyatı əhalini fəal İqtisadi fəaliyətə cəlb edir, onlarda sahibkarlıq, maddi maraq, qanun və hüquqlara riayət etmək vərdişləri tərbiyə edir.

Dövlətin sosial sahədə həyata keçirdiyi funksiya ilk növbədə əhalinin təhsil, səhiyyə, sosial müdafiə, sosial təminatı və s. sahələrdə işlərin aparılmasında özünü göstərir.

Azərbaycan xalqının böyük oğlu, Ümümmilli Liderimiz Heydər Əliyevin sözləri ilə desək: «Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir».

Dövlət əhalinin tam və səmərəli məşğulluğunu, ictimai tələbatı nəzərə alınmaqla əmək qabiliyyətli bütün əhalinin qabiliyyətinə, təhsilinə və peşəsinə uyğun işlə təmin edən elmi – texniki, İqtisadi və sosial tədbirlər kompleksini həyata keçirir. Bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq maddi nemətlərin bölgüsü istehsalçılar və istehlakçılar arasında qeyri – bərabər bölüşdürülür. Burada bazar və kommersiya prisnipləri inkişaf edir.

Bununla yanaşı olaraq, dövlət xəstələrin, əlillərin, qocaların, tələbələrin, uşaqların sosial təminatı məsələsini öz üzərinə götürür.

Azərbaycan Respublikasının Konstitusiyasında deyildiyi kimi, «hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir».

Dövlət səhiyyə, təhsil, mənzil tikintisinə, rabitə və nəqliyyatın normal inkişafına daima qayğı göstərir. Bazar İqtisadiyyatına keçid İqtisadiyyat və mədəniyyətin inkişafı, sosial münasibətlərin və cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan insanın özünün təkmilləşdirilməsi böyük dövlət qayğısı tələb edir.

Dövlət insanların mədəni həyatda iştirakı və mədəniyyət sərvətlərindən istifadə etməsi qayğısına qalır.

Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür. Sanitariya – epidemiologiya salamatlığına təminat verir, əhalinin sağlamlığının möhkəmləndirilməsində, gənclərin əməyə və Vətəni müdafiəyə hazırlanmAsında bədən tərbiyəsinin və idmanın əhəmiyyəti artır.

Azərbaycan Respublikası ali və yerli dövlət hakmiyyəti və idarəetmə orqanları əhalinin sanitariya – epidemiolo**c**i salamatlığının təmin edilməsi, idman və bədən tərbiyəsinin inkişafı sahəsində məqsədyönlü respublika kompleks proqramlarının hazırlanması və qəbul olunmasına, onların maliyyələşdirilməsi və həyata keçirilməsinə nəzarət edir.

Əhalinin sağlamlığını qorumaq və möhkəmləndirmək, ətraf mühitin insana mənfi təsirinin qarşısının alınmasına kömək etmək üçün ölkədə səhiyyə sahəsində təhsil sisteminin inkişafına böyük ehtiyac yaranır.

Azərbaycan dövləti pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində vətəndaşlar pulsuz təhsil almaq hüququna malikdirlər. Həmin təhsil müəssisələrində əlavə, pullu təhsil qrupları da yaradılır.

Azərbaycan Respublikasında dünya strandartlarına müvafiq olaraq dövlət təhsil standartlarını tətbiq edir. Azərbaycan dövləti bilik, bacarıq və istedadı reallaşdırmaq üçün hamıya bərabər şəraitin yaradılması, təhsilin demokratikləşdirilməsi, təhsil müəssisələrinin artırılması, ümumbəşəri dəyərlərdən istifadə edilməsi, insan həyatı və sağlamlığının qorunması, təhsilin elmi- kütləvi xarakter daşıması prinsiplərini ardıcıl olaraq həyata keçirir.

Bazar İqtisadyiyatına keçid ölkədə əhali arasında təbəqələşməyə, yəni yoxsul və varlılara bölünməsinə, dövlət quruculuğu prosesi isə ölkəmizdə hüquqi dövlətin yaranmasına, maddi cəhətdən əlverişsiz vəziyyətdə olanların real sosial müdafiəsini təmin edir. Dövlət quruculuğunun inkişafı isə yoxsul təbəqənin sosial müdafiəsini təmin etmək məqsədi ilə ayrılan vəsaitin get – gedə artmasına səbəb olur.

3. Ekoloji funksiya

Ekoloji funksiya - bütün dünya dövlətlərinin həyatda əhəmiyyətli fəaliyyətinin əsas ana xəttidir. Bir –birilə qarşılıqlı əlaqədə olan təbiət

komponentlərindən torpaq, yerüstü və yeraltı sular, atmosfer, yerin təki, bitkilər və heyvanlar aləmi və onları birləşdirən ekoloji sistemlər və komplekslər təbiəti mühafizə obyektləri dövlətlərin daima diqqət mərkəzindədir.

Azərbaycan dövləti ekoloji funksiyanın zəruri və dünyəvi əhəmiyyət kəsb etməsini nəzərə alaraq 1992-ci ildə «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir.

Təbiəti mühafizə və təbiətdən istifadə haqqında qanunun məqsədi cəmiyyət ilə təbiətin ahəngdar qarşılıqlı əlaqəsini təmin edərək Azərbaycanın əzəli təbii xüsusiyyətlərini, habelə canlı orqanizmləri və onların yaşayış mühitini qoruyub saxlamaqdır.

Təbii mühitin ayrı – ayrı komponentləri ilə bağlı olan ictimai münasibətlər torpaqların, yerin təkinin, su ehtiyatlarının atmosfer havasının, floranın (o cümlədən meşə ehtiyatlarının), faunanın (o cümlədən balıq ehtiyatlarının), istirahət (rekreasiya) ehtiyatlarının mühafizəsi və onlardan istifadə haqqında bu qanuna əsasən qəbul edilmiş qanunvericilik aktları ilə, habelə əlaqədar qanunlarla tənzimlənir.

Dövlət təbiəti mühafizəni təmin etməyin və təbiətdən istifadəni tənzimləyən İqtisadi mexanizmini işləyib həyata keçirir. Burada İqtisadi mexanizmin əsas vəzifəsi ekoloji təhlükəsizlik, təbii ehtiyatlardan səmərəli istifadə, onların bərpası və artırılması tədbirlərinin işlənib hazırlanmasına, planlaşdırılmasına və yerinə yetirilməsinə təbiət istifadəçilərinin maddi həvəsini artırmaqdır.

Dövlət ətraf mühitin və təbiətdən istifadənin vəziyyətinə müşahidə və nəzarət edir. Bu vəzifəni Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən Istifadəyə Nəzarət Komitəsi, habelə müvafiq fəaliyyət istiqamətləri üzrə nazirliklər və yerli idarəetmə orqanları həyata keçirirlər.

Hazırda Azərbaycan ekoloji böhran həddindədir. Deməli su, yeraltı sular, torpağın çirklənməsi və s. problemlər həll olunmasa, respublikanın gələcək inkişafı mümkün deyil.

Xəzər problemi, torpağın, havanın çirklənməsi və s. problemlər özünü daha kəskin şəkildə göstərir. Əhalinin artımı və urbanizasiya ətraf mühitin keyfiyyəti problemlərini kəskinləşdirmiş və geniş kütlə qarşısında aşkara çıxarmışdır. Məsələn, cəmiyyət külli miqdarda sərvətlərin istehsalı və istehlakının havanın, suyun və torpağın çirklənməsi şəklində ciddi təhlükə yarada biləcəyindən xəbərdardır. Ətraf mühitin problemlərinin həlli isə dövlətin əsas vəzifələrindən biridir.

4. Hüquq qaydasının mühafizəsi funksiyası

Hüquq qaydasının mühafizəsi dedikdə, dövlətin qanunverici göstərişlərinin ictimai münasibətlərin bütün iştirakçıları tərəfindən dürüst və tam həyata keçirilməsinin təmin edilməsinə yönələn dövlət fəaliyyətidir. Dövlət ictimai həyatda xüsusi məhkəmə, prokurorluq və s. orqanların köməyilə reallığı təmin edir və hüquq normaları dövlət tərəfindən rəsmi aktlarda müəyyən olunur. Bazar İqtisadiyyatına keçid şəraitində hüquq şəxsiyyətin İqtisadi azadlığının təmininin zəruri aləti kimi çıxış edir. Hüquq və İqtisadiyyatın qarşılıqlı əlaqəsi ictimai inkişafın ümumi qanunauyğunluqlarına tabedir. Bir tərəfdən bazar İqtisadiyyatının tələbatı obyektiv olaraq müəyyən İqtisadi münasibətlərin tənzimlənməsinin hüquqi formasının, mülkiyyətin müxtəlif formalarının hüquqi təsbitinin və mühafizəsinin, istehsalçıların müstəqilliyinin təmin edilməsinin zəruriliyini doğurur. Bu baxımdan Azərbaycan dövləti bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq «Mülkiyyət haqqında», «Özəlləşdirmə haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında» və s. silsilə qanunlar qəbul etmişdir.

Qanunçuluq sivilizasiyalı cəmiyyətin, onun siyasi sisteminin bütün həlqələrinin normal fəaliyyətinin əsasıdır. Ictimai həyatın sabit amili kimi qanunçuluq, bütün vətəndaşların qanun qarşısında real bərabərliyini təmin edən sivilizasiyalı cəmiyyətdə yaranır və formalaşır.

Azərbaycan dövlətinin bazar İqtisadiyyatına keçməsi və sivilizasiyalı dövlət qurması məsələsi yalnız qanunçuluq şəraitində yarana və formalaşa bilər. Bazar İqtisadiyyatı zamanı xüsusi mülkiyyət azadlığı, rəqabət yalnız qanunlarla tənzim edilə bilər.

Istənilən sivilizasiyalı dövlətin hüquq sisteminin ən vacib vəzifələri ictimai münasibətləri sosial azadlıq və ədalət çərçivəsində salmaqdan ibarətdir.

Hüquq qaydasının mühafizəsi funksiyası hüquqi təsirin cəmiyyət üçün müsbət münasibətlərin qorunması və mənfi münasibətlərin isə sıxışdırılıb aradan çıxarılmasına xidmət edir. Dövlətin hüquq qaydasının mühafizəedici funksiyası hüquqa zidd davranışın qarşısının alınması və aradan qaldırılmasına yönəlmişdir.

5. Xarici funksiyalar

Dövlətin xarici funksiyaları özündə beynəlxalq aləmdə fəaliyyətinin əsas istiqamətlərini təcəssüm etdirir. Dünya birliyinin bütün dövlətləri ilə faydalı əməkdaşlıq və xarici hücumlardan ölkənin müdafiəsini təşkil edir.

Cəmiyyətin inkişafının müasir səviyyəsi bütün sivilizasiyalı dövlətlərin İqtisadiyyat, siyasət, mədəni və s. sahələrdə əməkdaşlıq etməsini tələb edir. Burada dövlətin mənafelərinin bütün dövlətlərin konkret və ümumi

mənafelərinə uyğun gəlməsi, bərabərhüquqlu İqtisadi, siyasi, mədəni və digər münasibətlərin müəyyən edilməsi prisnipi əsas götürülür.

Yenicə müstəqillik əldə etmiş Azərbaycan dövləti dünyanın bütün dövlətlərilə dostcasına möhkəm münasibətlərə və hərtərəfli əməkdaşlığa səy edir. Dövlətlərarası münasibətləri möhkəmlətmək, onları müqavilə qaydası ilə təsbit etmək, qanunvericilik orqanları, ictimai təşkilatlar arasında əlaqələri inkişaf etdirmək, İqtisadi, siyasi, mədəni, humanitar və s. əməkdaşlığın bütün formalarını daha da fəallaşdırmaq xəttini yeridir.

Dünya ölkələri arasında İqtisadi əlaqələr kapitalların, xidmətlərin, iş qüvvələrinin, valyuta ehtiyatlarının beynəlxalq hərəkəti vasitəsilə həyata keçirilir.

Beynəlxalq İqtisadi əməkdaşlığın ümumi əlaqələndirilməsi, BMT və onun ixtisaslaşdırılmış idarələri, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Artıq Azərbaycan dövləti də BMT –nin üzvüdür və bütün səlahiyyətlərdən istfiadə edir.

Müasir tarixi dövrdə BMT –nin başlıca vəzifəsi beynəlxalq sülh və təhlükəsizliyin qorunması, möhkəmləndirilməsi, dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsidir. Azərbaycan dövləti dünyanın iri super dvölətləri, sənaye dövlətləri və inkişaf etməkdə olan ölkələrlə sıx əməkdaşlıq edir. Azərbaycan dövləti BMT-nin ixtisaslaşdırılmış idarə və təşkilatları olan Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, BMT-nin Maarif, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (YUNESKO), Ümumdünya Səhiyyə Ttəşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Benyləxalq Bank, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Maliyyə Korporasiyası ilə yaxından əməkdaşlıq edir.

Hazırda beynəlxalq həyatın beynəlmiləlləşməsi beynəlxalq təşkilatların sayının çoxalmasına, onların funksiyalarının və səlahiyyətlərinin genişlənməsinə səbəb olmuşdur.

Azərbaycan Dövləti siyasi sahədə dövlətlərin əməkdaşlığına, hər şeydən əvvəl, sülh məsələsinə böyük qiymət verir.

Azərbaycan dövləti siyasi əməkdaşlıq məsələsində parlamentlərarası və hökumətlərarası danışıqların aparılmasına istinad edir. Cəlb edildiyimiz Qarabağ müharibəsinin dünya dövlətlərinin, BMT-nin və ATƏT-in Vasitəçiliyi ilə dinc yolla qurtarmasına daha çox üstünlük verir. Məsələnin diplomatik yolla, ikitərəfli və ya çoxtərəfli danışıqlar əsasında həll edilməsinə tərəfdar çıxır.

Azərbaycan dövləti dünya dövlətləri arasında dinc, mehriban qonşuluğun və əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Bu baxımdan ətraf mühitin mühafizəsi və ekoloji vəziyyəti qorumaq sahəsində dünya dövlətlərinin əməkdaşlığı müstəsna rol oynayır. Çünki, hal – hazırda ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi məsələsi ən mühüm qloabl problemlərdən biridir. Bu isə bütün dünya dövlətlərinin səyinin birləşdirilməsini tələb edir.

6. Ölkənin müdafiəsi funksiyası

Dövlətin yerinə yetirmiş olduğu əsas funksiyalardan biri ölkənin təhlükəsizliyi və müdafiəsini təmin etmək funksiyasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, «Azərbaycan Respublikası öz təhlükəsizliyinin müdafiəsini təmin etmək məqsədi ilə Silahlı qüvvələr və başqa silahlı birləşmələr yaradır. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir».

Azərbaycan dövləti müdafiə və təhlükəsizlik məsələlərində ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı qüvvələrin gündəlik təkmilləşdirilməsi, dövlət sərhədələrinin mühafizəsi və mülki müdafiənin təşkili məsələlərinə xüsusi diqqət yetirir.

Ölkənin müdafiəsi funksiyası İqtisadi, sosial və hüquq qaydasının mühafizəsi və s. funksiyaları ilə əlaqəlidir.

Dövlətin təhlükəsizliyi və müdafiəsi onun daxili funksiyaları ilə sıx bağıldır. Belə ki, o həm ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və həm də ölkədə dinc quruculuq işləri ilə məşğul olmağa şərait yaradır.

1.3. Bazar İqtisadiyyatında dövlət

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun qarşısında duran başlıca vəzifə dünya dövlətlərinin inkişafında mütərəqqi meyllərə uyğun gələn, müxtəlif, bərabərhüquqlu mülkiyyət və təsrrüfatçılıq formaları və bazar münasibətlərinə əsaslanan əsl demokratik hüquqi dövlət qurmaqdan ibarətdir.

Azərbaycanda bazar İqtisadiyyatının təşəkkülü prosesi müəyyən çətinliklər və ziddiyyətlərlə bağlı olub, sosial-İqtisadi və mədəni həyatın bütün sahələrində özünü büruzə verir.

İqtisadi münasibətlərin yenidən qurulması, inzibati –amirlik sistemindən imtina edilməsi, hər yerdə İqtisadi amillərdən səmərəli istifadə edilməsini, bu proses isə bazar münasibətlərinə keçməyi təkidlə tələb edir. Burada başlıca məqsəd ölkəni böhranlı vəziyyətdən çıxarmaq, əmtəə qıtlığına son qoymaq, tələb və təklif arasında tarazlığı təmin etmək, normal maliyyə – kredit sistemi yaratmaq və bütün sahələrdə sosial-İqtisadi tərəqqiyə nail olmaqdan ibarətdir.

Bazar İqtisadiyyatı inzibati – amirlik sisteminin əksidir, ictimai tərəqqi və iqtisiadiyyatın inkişafının səmərəli yoludur. Bazar İqtisadiyyatına keçməkdə məqsəd işçilərin maddi marağını yüksəltmək əsasında yüksək texnika və texnologiyaya əsaslanan istehsal və istehsalın quruluşunu isə əhalinin sosial – mədəni tələbatlarını ödəyə biləcək istiqamətdə inkişaf etdirmək yolu ilə ölkədə səmərəli İqtisadiyyat yaratmaqdan ibarətdir.

Hər hansı bir İqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlətin rolu əvəzsizdir. Dövlətlə İqtisadiyyatın qarşılıqlı əlaqəsi əsas məsələ-

lərdən biridir. Dövlətin İqtisadiyyata təsiri əsasən üç istiqamətdə həyata keçirilməsilə müşahidə olunur. Dövlət İqtisadiyyatın əks – təsirinə müvafiq müdaxilə siyasəti yürütməklə İqtisadi inkişafa təkan verir, dövlətin İqtisadiyyatı özünə tabe etdirmək cəhdi İqtisadi durğunluğa aparır, dövlət İqtisadi inkişafa bu və ya digər sahədə əngəl törətməklə deformasiyaya səbəb olur ki, bu da inkişafda yeni, mənfi, ya da müsbət meylləri meydana çıxarır. Müasir şəraitdə dövlətlər məhz üçüncü istiqamətə üstünlük verirlər. Tarixi sınaqdan çıxmış hər üç mexanizm üçüncüsünün daha səmərəli olduğunu göstərir. İqtisadi sahənin dəqiqliklə öyrənilməsi, inkişaf istiqamətlərinin aşkar edilməsi, nəzərə çarpan mənfi meyllərin qarşısının alınması və s-dən ibarət olan bu mexanizm dövlətin İqtisadiyyata ümumi nəzarətini və İqtisadi inkişafın bütünlüklə lazımi axara salınmasını əsaslandırmaqla, müasir dövlətlərin əksəriyyətində İqtisadi siyasətin əsasını təşkil edir.

Bazar İqtisadiyyatında dövlətin rolunu geniş şəkildə izah etməzdən əvvəl, bu rolun nə dərəcədə mühüm olduğunu əsaslandırmaq ümumi məqsəd baxımından da vacibdir. Müasir bazar İqtisadiyyatı əmtəə və xidmətlərin arzuolunan şəkildə mübadilə olunduğu ideal bazardan hələ çox uzaqdır. Cəmiyyətin mövcud resurslarından maksimum fayda ilə istifadəni təmin edən belə bir ideallıq dövlət müdaxiləsinə ehtiyac duymur. Ancaq ən çox inkişaf edən dövlətlərin də İqtisadi quruluşu «görünməz əl»in heç bir çətinlik olmadan hər şeyi həll edəcəyi ideal bazardan çox-çox uzaq olmaqla, çoxsaylı İqtisadi və sosial bəlalara – ətraf mühitin çirklənməsinə, işsizliyə, güclü təbəqələşməyə və s. aparan çatışmazlıqlardan əziyyət çəkir. Buna görə də, dövlətin fasiləsiz olaraq İqtisadiyyatın tənzimlənməsində iştirakı vacibdir. Hələ XIX əsrin sonu, XX əsrin əvvələrində bir çox Qərb dövlətləri «dövlətə müdaxiləsiz İqtisadiyyat», «azad bazar İqtisadiyyatı» adı ilə məşhur olan prisnipə sözün əsl mənasında əməl etməyə çalışırdılar. Bu prisnip dövlət müdaxiləsini minimuma endirməyi və İqtisadiyyatı qüvvələrin «azad oyunun» ixtiyarına buraxmağı əsas götürürdü. Ancaq qüvvələrin azad oyunu öz «bəhrəsini» verdi. Kapitalizmin təkrarlanan istehsal böhranları, eləcə də İqtisadiyyatda hərbiləşmə, müstəmləkəçilik və s. dünyəvi amillər dövlətin İqtisadiyyata yenidən, həm də daha ciddi şəkildə cəlb olunmasını zəruri etdi.

İqtisadiyyatda dövlət bazar mexanizmində tez-tez meydana çıxan çatışmazlıqları aradan qaldırmalı olur. Ordu, polis, milli meteorolo**ci** xidmət, tikinti və s. bütün bunlar dövlət fəaliyyətinin özünəməxsus istiqamətlərinə çevrilməklə dövlətin İqtisadi rolunu daha da canlandırır. Kosmik və digər elmi tədqiqatlar, sosial təminat və s. dövlət fondlarından maliyyələşdirildiyi üçün dövlət mühüm maliyyə subyekti kimi maliyyə sahəsində həlledici rol oynayır. Bütün fiziki və hüquqi şəxsləri vergiyə cəlb etməklə daxili məhsulun yenidən bölgüsünü şərtləndirir. Bazar İqtisadiyyatında dövlət fəaliyyətinin üç mümkün növünü fərqləndirməklə onun rolunu müəyyən etmək daha məqsədəuyğundur. Bu funksiyalara, ilk növbədə, səmərəliliyin artırılması, bərabərliyin təmin olunması və makroİqtisadi sabitliyin, artımın stimullaşdırılması aiddir.

Səmərəliliyin artırılması dedikdə, bazar İqtisadiyyatının təbii inkişafından doğulan mənfi təzahürlərin – ətraf mühitin çirklənməsinin, inhisarlaşmanın və s. problem kimi həll edilməsi başa düşülür. Adam Smitin sözləri ilə desək, bazar mexanizminin üstünlükləri yalnız o vaxt reallaşır ki, mükəmməl rəqabət bərqərar olur. Belə bir şəraitin mövcudluğu bütün əmtəə və xidmətlərin bazarda öz həqiqi qiymətinə mübadilə olunmasını təmin edir və hər hansı alıcının, yaxud satıcının bazar qiymətlərinə və ümumiyyətlə, bazara təsir göstərməsini imkan xaricində qoyur. Rəqabətə əks olan prosesin, yəni inhisarın zühür etməsi İqtisadi səmərəyə kəskin mənfi təsir göstərdiyindən, onunla mübarizə müasir dövlətin İqtisadi siyasətində mühüm əhəmiyyət kəsb edir. Ilk dəfə ABŞ-da qəbul olunan antiinhisar qanunvericiliyi sonralar bütün ölkələrdə özünəməxsus formada qəbul olunmuşdur. Azərbaycan Respublikasında antiinhisar qanunvericiliyi, eləcə də rəqabət haqqında qanun mövcuddur və bu qanunların həyata keçirilməsini təmin etmək üçün xüsusi qurum – Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa kömək Komitəsi fəaliyyət göstərir. Bu dövlət qurumunun əsas vəzifəsi təkmil rəqabəti möhkəmlətməklə, təsərrüfatda «görünməz əl»in fəaliyyətini təmin etməkdir. Belə bir mexanizm isə resursların səmərəli istifadəsini və İqtisadiyyatın öz istehsal imkanlarının son həddinə yaxınlaşmasını reallığa çevirir. Dövlət bütün İqtisadi sahələrin təkmil rəqabət çərçivəsində işləməsini təmin etməklə, bazarların ən yüksək texnologiya və minimum miqdarlı resursların köməyilə cəmiyyətə lazım olan bütün nemətləri istehsal etməsinə şərait yaradır. Ancaq bu vəzifənin yerinə yetirilməsi bazar İqtisadiyyatının əsas səciyyələrinin təkmil rəqabət meyarlarına uyğun gəlməməsilə mürəkkəbləşir. Bu uyğunsuzluğu şərtləndirən amillərin ən əsasları qeyri – təkmil rəqabət (məsələn, inhisar), xarici səmərələr (məsələn ətraf mühitin çirklənməsi) və ictimai rifahın (məsələn, milli müdafiənin) təmin olunması kimi qaçılmazlıqlardır ki, bunlar da cəmiyyətin maddi sərvətinin bu və ya digər şəkildə israf olunmasına səbəb olur. Belə bir şəraitdə yalnız dövlətin qüdrəti bütün problemlərin eyni vaxtda və optimal şəkildə həll edilməsinə təminat verir.

Qeyd etmək lazımdır ki, bazarın səmərəliliyini azaldan amillərdən ən birincisi qeyri – təkmil rəqabət və ya inhisardır. Təkmil rəqabət şəraitində heç bir firma bazar qiymətlərinə nəzərə çarpan mənfi təsir göstərə bilmədiyi halda, inhisarçılıq vəziyyəti bunun tam əksini diktə edir. Məsələn, telefon şirkəti və ya həmkarlar ittifaqı müvafiq olaraq telefon xidmətinə və ya əmək bazarına təsir etmək iqtidarındadırsa, deməli inhisarlaşma mövcuddur, baxmayraq ki, o, müsbət, yaxud mənfi nəticələrlə müşayiət oulnur. Inhisarçılığın labüd olduğu hallarda, yəni onu aradan qaldırmaq mümkün deyilsə, dövlət birbaşa təsir üsulu ilə mənfi nəticələri neytrallaşdırmağa çalışır. XX əsr ərzində dövlətlərin əksər hissəsi qeyri – təkmil rəqabətin nəticələrini zəiflətmək üçün ciddi müdaxilə siyasəti yürütmüşlər. Bu, hər şeydən əvvəl, qiymətlərin qəti olaraq tənzimlənməsində və inhisarların gəlirinə nəzarətdə özünü göstərmişdir.

Bazar İqtisadiyyatında dövlətin əsas diqqətini cəlb edən məsələlərdən biri bazarın xarici təzahürləridir. Texnika və texnologiya inkişaf etdikcə, dövlətin üzləşməli olduğu mənfi təzahürlərin miqyası da genişlənir. Ümumi inkişaf nəticəsində istehsal olunan ener**ci**nin, kimyəvi və s. zərərli məmulatların həcmi durmadan artır ki, bu da həmin problemlərin əleyhinə mübarizənin çətin olduğunu, o cümlədən, ətraf mühitin çirklənməsinin daha böyük təhlükəyə səbəb olmasını şərtləndirir. Bu cür qlobal problemlərin həlli təklikdə, ayrı-ayrı dövlətlərin deyil, bütün dünya dövlətlərinin səylərinin birləşməsini tələb edir. Məhz bu baxımdan dövlət tənzimində istehsalın mənfi təzahürləri ilə – suyun və havanın çirklənməsi, faydalı qazıntılardan dağıdıcı istifadə, zəhərli tullantılar, təhlükəli dərman vasitələri, radioaktiv materaillar və s. ilə münasibətə ciddi diqqət yetirilir. Ümumi təhlükəsizilik, daha doğrusu, avtombillərdə tətbiq olunan təhlükəsizlik qayışından tutmuş, nüvə sınaqlarının aparılması qaydalarınadək dövlətin etdiyi bütün oxşar cəhdlər yalnız bir məqsədə, cəmiyyətin ümumi rifahının, o cümlədən İqtisadi rifahının yüksəlməsinə xidmət edir.

Müasir bazar İqtisadiyyatı törətdiyi mənfi təzahürlər müqabilində böyük sərvətlər bəxş edir. Şose və dəmiryollarının çəkilməsi müəyyən meşə sahələrinin qırılmasını tələb etsə də, digər tərəfdən böyük fayda verir, su elektrik stansiyalarının tikilməsi bəzi əraziləri su altında qoysa da, təsərrüfatı ener**ci** ilə təmin edir və s. Bütün bunlar zəruridir, onların mənfi nəticələri isə labüddür. Dövlətin bu sahədə rolu həmin proseslərdə müəyyən optimallığa nail olunmasını təmin edir.

Dövlət üzərinə düşən mühüm vəzifələri yerinə yetirmək üçün böyük həcmdə vəsaitlərə malik olmalıdır. Belə vəsaitlər üçün əsas mənbə rolunu vergilər oynayır. Müxtəlif gəlirlər üçün müəyyən edilmiş vergilərin səviyyəsini dəyişməklə, vergi güzəştləri etməklə, vergialmanın minimum səviyyəsini aşağı salmaqla dövlət İqtisadi tsiklə təsir etmək, yüksək inkişaf sürətini təmin etməyə çalışır.

Bazar İqtisadiyyatının əsas təmayüllərindən biri də gəlirlərin sosial ədalət və bərabərlik prinsipi əsasında bölüşdürülməsi mexanizminin mövcud olmasıdır. Yuxarıda cəmiyyətin maddi və intellektual resurslarından səmərəli istifadə olunmasında, İqtisadiyyatın istehsal imkanlarının mümkün həddində işləməsində dövlətin əvəzsiz rolu açıqlandı. Ancaq belə bir şərait tam bərqərar olduqda belə, bazar İqtisadiyyatının sosial bərabərlik əsasında işləməsinə təminatı yalnız, yenə dövlət verə bilər. Məsələ ondadır ki, gəlirlərə çoxsaylı qüvvələr – təbii bacarıq, təhsil, varislik, uğur, eləcə də idarəetmədə olan əyintilər: korrupsiya, mütəşəkkil cinayətkarlıq və s. təsir göstərir ki, bu da gəlir vergisinin ədalətsizliyini şərtləndirir.

Qeyd etmək lazımdır ki, qocalara, əlillərə, işsizlərə və s. imkansız şəxslərə dövlətin verdiyi transfert ödənişlər gəlirlərin ədalətli bölgüsünün əsas amillərindən biridir. Digər vasitə dövlət tərəfindən azgəlirli qrupların subsidiya-laşdırılması, ərzaq, mənzil, tibb xidməti sahəsində dotasiyaların verilməsi

ümumi gəlirlə müqayisədə çox az olsa da, sosial və maddi təminat sferasında nəzərəçarpan dəyişikliklərlə müşayiət olunur.

Dövlətin İqtisadiyyata müdaxiləsi nə qədər geniş miqyaslı olsa da, qüvvələrin azad oyunu xroniki bəlalar törətməkdə davam edir. Bazar İqtisadiyyatının bərqərar olduğu dövlətlərdə onu müşayiət edən inflyasiya, işsizlik, istehsal böhranları və s. problemlər yalnız son onilliklərdə əsaslı dövlət İqtisadi siyasətinin təsiri altında öz qorxuncluğunu itirmişlər. İqtisadi tsikl, İqtisadi siyasət konsepsiyası, İqtisadi artım və tsikl nəzəriyyələri 70 - 80-ci illərdə Amerika və Avropanın İqtisadçı alimləri, xüsusən Marşallın, Samuelsonun və s. şəxsində daha da inkişaf etdirilərək dövlət İqtisadi tənzim mexanizminin əsas alətinə çevrildi.

P.Samuelson çox haqlı olaraq obrazlı şəkildə yazır ki, «Birləşmiş Ştatlar dünyada ən böyük müəssisədir». Bütün bunlar bir daha sübut edir ki, işlək dövlət tənzimləmə mexanizminə malik olmadan bazar İqtisadiyyatının səmərəli fəaliyyətini təmin etmək mümkün deyildir. 80-ci illərdə ABŞ-da və Qərbi Avropa ölkələrində tuğyan edən inflyasiya və işsizlik problemləri sərt monetar siyasət vasitəsilə aradan qaldırıldı. Təcrübə göstərdi ki, düşünülmüş dövlət siyasəti İqtisadiyyatda istənilən xroniki geriləmə hallarını aradan qaldırır. Eyni hadisə SSRI – nin dağıdılmasından sonra müstəqillik əldə edən respublikalarda da özünü büruzə verdi. Uzun müddət mövcud olan inflyasiya sərt pul siyasəti nəticəsində aradan qaldırılırdı. Müasir dövlətlər qeyd olunan problemlərin baş qaldırılmaması üçün çox ehtiyatla vergi – büdcə və kredit – pul siyasəti həyata keçirirlər. Vergi – büdcə siyasəti vergilərin toplanması nəticəsində gəlirin müəyyən hissəsini dövlətin əlində cəmləşdirir ki, o da öz növbəsində zəruri sahələri maliyyələşdirir. Kredit – pul siyasəti isə pul təklifini və faiz dərəcələrini müəyyəin edir. Beləliklə, dövlət investisiyalara və faiz dərəcələrinə həssas olan digər xərclərə fəal təsir etmək imkanı əldə edir. Bunun da nəticəsində xərclərin ümumi səviyyəsinə, İqtisadi artım sürətinə, məhsul buraxılışının həcminə, məşğulluq səviyyəsinə, qiymətlərə və təbii ki, inflyasiyaya fəal nəzarət mexanizminin formalaşması üçün zəmin yaranır.

80-ci illərdən etibarən əksər dövlətlərin İqtisadi siyasətdə əsas diqqət yetirdikləri makroİqtisadi siyasət mövcud problemləri həll etməklə yanaşı, İqtisadi artım və məhsuldarlıq kimi uzunmüddətli məqsədlərə nail olmaq niyyəti daşıyır. Məsələn, bir çox sənaye ölkələri istehsalatı stimullaşdırmaq üçün vergi dərəcələrinin endirilməsindən geniş istifadə edirlər. Istehsalın çox aşağı səviyyədə olduğu ölkələrdə bu cür vergi siyasəti həmişə öz bəhrəsini göstərir. Investisiyaya mənfi təsir göstərən dövlət xərclərini məhdudlaşdırmağa da cəhdlər edilir. Ümumiyytələ, bazar İqtisadiyyatında sabitliyə və İqtisadi artıma nail olmaq məqsədilə dövlətin tətbiq etdiyi makroİqtisadi siyasət vergiqoyma və dövlət xərcləri mexanizmlərini əhatə edən vergi – büdcə siyasətini və kredit – pul siyasətini (faiz dərəcələrinə və kreditləşdirməyə nəzarət) özündə birləşdirir.

Hazırda bəzi İqtisadçılar bazarın planlaşdırılmasını qeyri-mümkün sayırlar. Onlar göstərirlər ki, bazar və plan heç vaxt bir araya sığa bilməz. Əslində isə, bazar mexanizmli istənilən ölkədə təsərrüfat fəaliyyəti dəqiq planlışdırılır. Ictimai tələb dəqiq öyrənilir və istehsal yalnız tələbə xidmət edir. Bazar İqtisadiyyatında plan inzibati – amirlik sistemindən onunla fərqlənir ki, bu plan sərt, dəyişməz deyil, məcmu tələbin dəyişikliklərinə çox həssaslıqla uyğunlaşandır. Plan heç də sadəcə olaraq yuxarıların göstərişlərinin həyata keçirilməsi demək deyil. Bazar sistemində dövlət yalnız bilavasitə idarə etdiyi sahələri – hərbini, təhsili, səhiyyəni, tikintini və s. planlaşdırır. Xüsusi bölmə isə müxtəlif İqtisadi dövlət metodları vasitəsilə müəyyən qədər idarə edilir.

Planlaşdırma ilə idarəetmənin əsası, onun başlıca metodudur. Yalnız planlı İqtisadiyyatın bəşəriyyətin tələbatını lazımi qədər ödəməyə qadir olduğu indi bütün ölkələrin İqtisadçıları tərəfindən təsdiq olunur. İqtisadi həyat təcrübəsi, araşdırma və müşahidələr göstərir ki, bazarın bütövlükdə planlaşdırılması qeyri – mümkün olduğu halda, onun subyektlərinin fəaliyyətinin planlaşdırılması obyektiv cəhətdən zəruridir. Mövcud qanunvericilik bazası, o cümlədən inhisar əleyhinə, sahibkarlıq fəaliyyəti haqda qanunlar, sağlam rəqabət və reklamın təmini, keyfiyyətə nəzarət və s. kimi dövlət tənzimi alətləri bazar subyektlərinin fəaliyyətini bilavasitə olmasa da, dolayı yolla tənzim etməyə yönəldilir. Burada subyektlər dedikdə, istehsalçı və istehlakçı müəssisələr, firmalar, birliklər, səhmdar cəmiyyətlər, assosiasiyalar, ev təsərrüfatları və s. hüquqi və fiziki şəxslər başa düşülür. Onların hər biri öz fəaliyyətlərində qısa, orta (1-5 il) və uzunmüddətli (5-15 il) planlaşdırmaya müraciət edirlər. Görkəmli İqtisadçı Filip Kotlerin fikrincə, bir vaxtlar bəzi firma rəhbərləri vaxt məhdudLuğunu, digərləri təsərrüfat təcrübəsini əsas tutaraq, planlaşdırmasız da keçinmək mümkün olduğunu söyləyirdilər. Ancaq sonralar təsərrüfat quruluşunun mürəkkəbləşməsi, firmaların sayının artması, rəqabətin yeni xüsusiyyətlər kəsb etməsi o yerə gətirib çıxardı ki, istehsalçılar düşünülmüş planlı fəaliyyətin rolunu dərk etməyə başladılar.

Dövlət İqtisadiyyatı liberallaşdırmaqla yanaşı, İqtisadi və sosial inkişafın ahəngdar və sürətli olmasını, ictimai istehsalın məhsuldarlığını təmin etməli, mövcud ehtiyatların səmərəli istifadəsini reallığa çevirmək üçün planlaşdırmaya xüsusi diqqət yetirməlidir. Hazırda dünyanın əksər ölkələrində uğurla tətbiq olunan planlaşdırma demokratik mərkəziyyət prisniplərinə əsaslanır. Bu prisnip ayrı- ayrı şəxslərin və qrupların maddi marağını əsas götürməklə, onların imkan və təşəbbüslərini tənzimləyir. Əsl bazar butun qabiliyyətli insanlar üçün fəaliyyət imkanı təmin edən məkandır.

Bazar planlaşdırılması sərt mərkəzliyi rədd edir, hökumət komanda deyil, yalnız sifariş verə bilər. Müvafiq firmalar bu sifarişləri qəbul etməkdə tam sərbəstdirlər. Onların təklif edilən sifarişləri qəbul etməsi üçün təbii ki, bu təklif səmərəli olmalıdır. Buna görə də, bu cür münasibət asılılıq və komanda əsasında deyil, İqtisadi dövlət tənzimi əsasında qurulmuş olur. Subyektlərin mövcud qanunlara uyğun fəaliyyət göstərməsinə yerli dövlət orqanları nəzarət

edirlər. Lakin subyektlər qanunauyğun olaraq istənilən növ fəaliyyətlə məşğul ola bilirlər. Dövlət və hökumət orqanları ölkə İqtisadiyyatını müəyyən dövrlər üzrə planlaşdırsa da, bu plana əməl edilməsi üçün heç bir məcburi tədbirdən, komandadan istifadə etmirlər. Planlaşdırma yolu ilə dövlətin İqtisadi siyasəti müəyyən edilir, tənzimləmə üsulu ilə isə bu siyasət reallaşdırılır. Onların məcmusu isə ümumi idarəçilik deməkdir.

Bazar İqtisadiyyatının yarandığı ilk dövrlərdə onun idarə edilməsinin qanunauyğun əsasları məlum olmadığından, tez-tez böhranlar baş verir, makro-İqtisadi problemlər cəmiyyəti çulğalayırdı. Ancaq getdikcə idarəetmənin qanunları aşkar edilməyə başlandı və bazarın tənzimlənməsinin incə üsulları müəyyən edildi. Tələb və təklifin tənzim edilməsinin mümkünləşməsi bazarın həm makro, həm də mikro səviyyədə idarə edilməsini reallaşdırdı. Yeni tənzim metodları bazarın formasını və ya məzmununu dəyişmədi, əmtəə pul münasibətləri azadlığı bazar mexanizminin bütün potensial stimullaşdırıcı vasitələrlə birgə mövcudluğuna təminat verir.

Dövlətin bazara müdaxiləsi rəqabət mexanizminin düzgün işini təmin etmək, qanunlara riayət olunmasına nəzarət, bazar subyektlərinin qanuni mənafelərini müdafiə məqsədilə edilir. Inkişaf etmiş ölkələrin hamısında hökumət nəzdində baş nəzarət idarələri vardır. Məsələn, 80-cı illərdə ABŞ-da düzgünlük, doğruluq, namusluluq, səmimilik və səmərəlilik üzrə Prezident Şurası yaradılmışdır. Şura ölkənin federal proqramının həyata keçirilməsində hər cür sui – istifadəyə, xəyanətə və cinayətə qarşı mübarizə aparan bütün nəzarət – təftiş orqanlarının işini əlaqələndirir. Nəzarət – təftiş orqanları qanunu pozanları dövlət sifarişindən məhrum edir, normal işləməyən qaydalara yenidən baxır, qaydaları pozan şəxslərə və firmalara cərimələr tətbiq edir və s. Bazar mexanizminin fəaliyyətini hər hansı bir formada ilk dəfə olaraq pozan hüquqi və ya fiziki şəxs bunun təkrar aşkar edildiyi halda böyük məbləğdə cərimə ödəməli olur.

Bazar İqtisadiyyatı nə qədər təkmil olsa da, bütün İqtisadi qurumlar kimi, o da bütün tələbatları ödəməyə qadir deyil. Tələbatların qeyri – bərabər ödənməsi ona da xasdır. Gəlirlərin dəstəklənməsi üzrə dövlətin yeritdiyi siyasət yoxsulluqla mübariəznin mühüm dövlət məqsədi olmasına dəlalət edir. Sosial təminat dövlətin İqtisadi subyekt kimi fəaliyyətində mərkəzi yer tutur. Bu sahədə dövlət siyasəti iki istiqamətdə – sosial sığorta və dövlət yardımı proqramları istiqamətində təzahür olunur. Sosial sığorta təqaüdə və müvəqqəti işsizliyə görə təminatı nəzərdə tutduğu halda, dövlət yardımı çoxuşaqlı ailələrə, analığa görə, təbii fəlakət və s. səbəblərdən dövlətin həyata keçirdiyi xeyriyyə proqramıdır.

1.4. Keçid dövründə dövlətin qarşısında duran əsas vəzifələr

Bazar İqtisadiyyatına keçid şəraitində Azərbaycan dövlətinin özünün milli İqtisadiyyatını yaratmaq prosesində hakimiyyət orqanları yaxından iştirak

etməli və geniş islahatlar həyata keçirməlidirlər. Islahatlar keçirmək keçid dövründə dövlətin əsas funksiyalarından biridir. Dövlətin əsaslı islahatlar keçirmək istiqaməti dövlət inhisarının aradan qaldırılması, özəlləşdirmə, maliyyə-kredit və pul tədavülü, bank, büdcə, vergi, sığorta, xarici ticarət, gömrük və s. sahələri əhatə edir.

Keçid dövründə hər bir dövlətin qarşısında duran əsas vəzifə milli mənafeyi tam təmin edən resursların istifadəsinə nail olmaqdan ibarətdir. Keçid dövrü yaşayan ölkələrin ənənəvi quruluş və xüsusiyyətlərindən asılı olaraq mikroİqtisadi siyasət xeyli fərqlənir. Fərqlər mövcud olsa da, keçid dövrünün xüsusiyyətləri məhz bir prisnipə diqqət yetirir: sahibkarlıq üzərində sərt dövlət nəzarəti. Bu prisnip bazar İqtisadiyyatında hakim olan «görünməz əl» mexanizminin fəaliyyətini məhdudlaşdırmağı tələb edir. Düzdür, normal bazar İqtisadiyyatında «görünməz əl» resursların səmərəli bölgüsünü təmin etməlidir. Ancaq keçid dövrü buna qabil deyil. Sərt dövlət tənziminin son məqsədi «görünməz əl» mexanizmini bərqərar etmək və fəaliyyətə salmaqdan ibarətdir. Dövlət tənzimi sağlam və təkmil rəqabətə şərait yaradılması, ətraf mühitin tənzimliyinə riayət edilməsi, istehsalın hər hansı formada cəmiyyətə digər ziyan vurmasının istisna edilməsi yolu ilə reallaşır.

Dövlət keçid dövündə səmərəli İqtisadi fəaliyyətə zəmin yaradılması sahəsində aşağıdakı istiqamətlərdə iş aparır:

- təkmil rəqabəti təmin etmək üçün inhisarların və ya oliqopoliyaların fəaliyyəti qəti qadağan olunur, bu sahədə mövcud qanunvericiliyə əməl olunması üçün ciddi nəzarət edilir;

- ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün müvafiq istehsal sahələrində nəzarət həyata keçirilir, müəssisələrin zərərli tullantıları minimuma endirilir, bu mümkün olmadıqda isə, həmin müəssisələr bağlanılır. Eyni zamanda, artıq çirklənmiş olan mühitin təmizlənməsi üçün xüsusi proqramlar hazırlanıb həyata keçirilir. Insan həyatı üçün zərərli olan məhsullar istehsal edən sahələrin (tütün məmulatları, spirtli içkilərin) vergi yükünü artırmaqla onların mənfi nəticələrini aradan qaldırmaq üçün baza yaradılır;

- keçid dövrünə xas olan əsas problemlərdən birinin – informasiya qıtlığının aradan qaldırılması üçün fəal tədbirlər görülür. Istehlakçılar bazarda olan məhsullar barədə məlumatlandırılır. Istehsalçıları isə elmi – texniki yeniliklər, qabaqcıl istehsal üsulları ilə tanış etmək üçün lazımi vasitələrdən istifadə olunur.

Qeyd etmək lazımdır ki, bazar İqtisadiyyatı istənilən halda gəlirlərin ədalətli bölgüsünü təmin etməyə qadir deyildir. Keçid dövründə əhali arasında onsuz da mövcud olan təbəqələşmə daha da dərinləşir, yoxsul təbəqə daha da var – yoxdan çıxır. Aşağı inkişaf səviyyəli dövlətlərdə bu təbəqənin payı say nisbətində xüsusilə azdır. Ancaq yüksək inkişaf etmiş ölkələrdə zəhmətkeş təbəqə kifayət qədər təmin olunur. Daha doğrusu, cəmiyyət varlandıqca aztəminatlılara ayrılan xərclərin həcmi də artır. Keçid dövrü ölkənin aşağı gəlir səviyyəsi ilə səciyyələndiyindən gəlirlərin bölgüsündə az da olsa ədalətliliyin

bərqərar olması üçün hökumətin səyləri əvəzsizdir. Gəlir bölgüsü, ümumiyyətlə, hökumətin ikinci ən əsas funksiyası hesab olunur. Bu funksiya vergiqoyma və xərclər, bəzən isə tənzim vasitəsilə həyata keçirilir.

Bazar İqtisadiyyatında keçid şəraitində dövlət konkret olaraq bir sıra İqtisadi funksiyaları yerinə yetirir:

1. İqtisadiyyatın dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, sahibkarlığın inkişafı.
2. Bazar infrastrukturunun, o cümlədən, əmtəə və fond birc**a**larının yaradılması.
3. İqtisadiyyatın inhisardan azad edilməsi və rəqabət mühitinin yaradılması əsasında bazar tarazlığına nail olunması.
4. Qiymətlərin liberallaşdırılması, tələb – təklif münasibəti əsasında qiymətin müəyyən edilməsi.
5. Ölkədə düzgün pul – kredit siyasətinin aparılmasını nəzərdə tutan maliyyə – iqitsadi sabitləşdirmənin həyata keçirilməsi.
6. Əhalinin müvafiq hissəsinin bazar İqtisadiyyatına uyğunlaşmasının təmini məqsədilə güclü sosial müdafiə sisteminin təşkili.
7. Əhalinin tələbatını ödəmək məqsədilə fəal struktur – investisiya siyasəti yürütmək əsasında İqtisadiyyatın sosial istiqamətə yönəldilməsi.

Dünya ölkələrində bu məqsədlərə nail olmaq üçün əsasən iki keçid variantı nümayiş etdirilir. Birincisi – təkamül yoludur ki, bu üsul bazar təsisatlarının tədrici formalaşmasına əsaslanır (Çin, Macarıstan). Ikincisi – şok terapiyası Qərbi Avropa ölkələrində (Polşa) və Rusiyada xüsusi intensivliklə həyata keçirilir. Bu iki yoldan məhz hansının seçilməsi təkcə siyasi rəhbərliyin iradəsindən deyil, eləcə də siyasi sosial, tarixi və digər amillərin təsirindən asılıdır.

Bazara keçidin təkamül yolu aşağıdakı əsas xüsusiyyətlərlə səciyyələnir:

Islahatın başlanğıcı istehlak bazarında dinamik tarazlığın bərqərar olması ilə əlaqələndirilir, belə ki, yalnız daha çevik qiymət sistemi deyil, istehlak malları bazarının özəl bölməsində sürətli inkişaf tarazlığın yaranmasına şərait yaradır.

Bazar münasibətləri əvvəlcə istehlak mallarının istehsalı və satışı sahəsini, bundan sonra isə investisiya sahəsini bürüyür.

Qiymətlərin liberallaşdırılması istehsalatın sonrakı mərhələlərində həyata keçirilir, ancaq güclü inhisarçılığa meylli olan sahələrdə qiymətlərə dövlət nəzarəti saxlanılır.

Inflyasisiyaya yol verməmək üçün sərt maliyyə siyasəti yeridilir.

Bazar İqtisadiyyatı sürətlə formalaşdırılır, sahibkarlıq fəaliyyəti həvəsləndirilir.

Təkamül yolu ilə keçidin əsas əlaməti onun kənd təsərrüfatı sahəsindən başlanmasıdır. Burada köhnə sistemin çatışmazlıqları yoluna qoyulur, özəl təsərrüfat üçün zəmin yaradılır. Aqrar sahənin inkişafına verilən təkanın təsiri getdikcə kənd təsərrüfatı ilə bağlı olan digər sahələrdə hiss olunmağa başlayır

və islahat bütün təsərrüfatı əhatə edir. Məsələn, bazar iqisadiyyatına keçiddə Çin Xalq Respublikasının yeritdiyi təkamül siyasətinin əsas məzmunu İqtisadiyyatda «bazar» və «plan» mövcudluq formalarının birləşdirilməsindən ibarətdir. Belə birləşmənin istehsal fəaliyyətinə təkan verəcəyi və xalq təsərrufatı inkişafının yüksək tempini təmin edəcəyi nəzərdə tutulur.

Ancaq Çində plan və bazarın birgə mövcudluğunun səmərəli forması hələ muəyyən edilməyib. Nəzəri olaraq belə bir forma əsaslandırılsa da, praktiki səmərəli metodlar hələ ki, müəyyən edilməyib. Bununla belə, Çin Respublikası bazara keçidldə digər keçid respublikaları ilə müqayisədə üstün nailiyyətlər əldə edib.

Çin modelinin digər respublikalarda, o cümlədən Azərbaycanda tətbiqinin qeyri – mümkünlüyü bu ölkələrə Sovet dövründən miras qalmış təsərrüfatın səciyyəvi xüsusiyyətlərinə bağlıdır. Çindən fərqli olaraq, bu respublikalarda təsərrüfat əlaqələri kəskin pozulmuş, kənd təsərrüfatı iflasa uğramışdır.

1991-ci ilin sonunda keçmiş Sovetlər Birliyinə daxil olan respublikalarda İqtisadi durum çox ağırlaşdı və nəticədə respublikalar təkamül yolundan imtina etdilər.

Şok terapiyası modelinin strategiyası iki əsas istiqaməti özündə birləşdirir: antiinflyasiya proqramı və dərin institusional islahtlar.

Şok terapiyası proqramının tərəfdarları öz modellərinin reallaşmasının iki mərhələsini fərqləndirirlər. Birinci mərhələdə (1-2 il) inflyasiyaya qarşı əsaslı tədbirlər həyata keçirilir ki, nəticədə bazarda maliyyə tarazlığı əldə oulnur. Ikinci mərhələ təqribən 10 -15 il müddətə İqtisadiyyatda mühüm dəyişikliklər və İqtisadi yüksəlişi nəzərdə tutur.

Birinci mərhələdə əmtəə qıtlığı aradan götürülmüş və istehlak bazarında tarazlıq yaranmışdır ki, bu da bazarın əsas əlamətinin istənilən əmtəənin istənilən vaxt əldə edilməsi imkanı reallığa çevrilmişdir.

Hökumətin yeritdiyi sərt keçid siyasəti İqtisadi böhranın aradan götürülməsində hər hansı başqa metodun istifadə imkanını istisna edir. Buna görə də, keçid respublikaları bu yolda sonadək irəliləməlidirlər.

Şok terapiyasının institusional dəyişikliklər mərhələsi hazırda davam edir. Bu mərhələdə dövlətin reallaşdırmalı olduğu proqram ümumi şəkildə belə göstərilə bilər:

- qiymətlərin sərbəstləşdirilməsi;
- antiinhisar qanunvericiliyinin qəbulu və bir sıra sahələrdə böyük dövlət müəssisələrinin kiçik müəssisələrə bölünməsi:
- dövlət müəssisələrinin tam kommersiya hesabına keçirilməsi, dövlət və müəssisələrin maliyyəsinin ayrılması;
- ənənəvi mərkəzi planlaşdırmanın ləğvi;
- kiçik özəlləşdirmənin geniş vüsət alması, xüsusən pərakəndə satış və ərzaq sahəsində;
- təsərrüfatın bütün sahələrində özəl bölmənin dinamik inkişafının təmini;

- milli valyutanın konvertləşən xarici valyutaya sabit kursla daxili dönərli-li-yinin əldə olunması;

- sosial müdafiənin, o cümlədən işəgötürmə xidmətinin və işsizliyə görə müavinət sistemi tətbiqinin əsaslarının yaradılması.

Dövlət bu məqsədləri reallaşdırmaqla yanaşı, İqtisadiyyata sərbəstlik vermək üçün müdaxilə miqyaslarını minimuma endirməyə çalışır. Maddi və maliyyə resurslarının bölgüsü üzrə məsuliyyəti dövlət tədricən öz üzərindən götürür. Onun əsas vəzifəsi bazarın vəziyyətinə nəzarəti və onun işinin səmərəliliyinin təmini məqsədilə, vergi, kredit və digər İqtisadi alətlərdən istifadəyə çevrilir. Dövlət həm istehlak, həm də istehsal vasitələri bazarında adi bazar iştirakçısı kimi çıxış etməyə başlayır. Dövlət sifarişi məzmun etibarilə əsaslı dəyişikliklərə uğrayır. Sifarişlər komanda deyil, təklif şəklində reallaşır, qiymətlər bazar əsasında müəyyən edilir, dövlət orqanlarının vəzifəsi isə əməliyyatı rəsmiləşdirməkdən ibarət olur.

Həqiqi bazar mexanizminin formalaşması üçün dövlət ÜDM-də özəl bölmənin payının yüksəlməsinə hər vasitə ilə yardım edir. Məlumdur ki, bu pay ən azı 25-30% olmalıdır. Ilkin nəticələrin tədqiqi göstərir ki, bazara keçid prosesində artıq müəyyən fəaliyyətlər mövcuddur. Keçid proqRamının əsas məqsədləri forma etibarilə reallaşmışdır. Qiymətlər əsasən sərbəstdir, özəlləşdirilmə aparılıb, maliyyə tarazlığı mövcuddur və s. Lakin İqtisadi islahatların aparılmasında bir sıra maneələr vardır. Belə ki, vergi yığımında və təsərrüfat uçotunda saxtakarlıq, sahibkarlara kredit verilməsində qanunsuzluqlar və s. özəl bölmənin inkişafında böyük əngəl törədir, gizli İqtisadiyyat genişlənir. Dövlətə yığılmalı olan ümumi vergilərin yalnız kiçik bir hissəsi çatır, nəticədə sosial təminat, dövlət büdcəsindən maliyyələşdirilən müəssisə, idarə və təşkilatların İqtisadi durumu çox pis vəziyyətə düşür.

Səmərəli bazar mexanizminin formalaşmasında dövlətin səyləri əsasən iki istiqamətdə formalaşır: birincisi, institusional dəyişikliklər – özəlləşdirmə, inhisarsızlaşdırma, sahibkarlıq və özəl təsərrüfat təşəbbüskarlığının stimullaşdırılması, kapital bazarının, eləcə də maliyyə və bank sisteminin müasir tələblərə cavab verən sisteminin yaradılması, aqrar islahatların həyata keçirilməsi və bazar mexanizminin şərtlərini ödəyən sosial xidmət sisteminin inkişafı; ikinci istiqamət – İqtisadiyyatın sərbəstləşdirilməsinin başa çatdırılması, o cümlədən ticarətdə, kredit – pul sferasında və xarici İqtisadi fəaliyyətdə iş azadlığının təmini.

Bazara keçidin ilk mərhələsində müəyyən olunmuş bu dövlət məqsədlərinin reallaşmasının bir neçə ilə başa gələcəyi hesab oulnurdu. Ancaq təcrübə göstərdi ki, bu onillərlə vaxt aparacaq. Başlıca səbəb ondan ibarətdir ki, dövlət keçidə yardım göstərməkdənsə ona əngəl törədir.

Bazara keçidin başlıca şərti sağlam dövlətçilik, demokratiya, o cümlədən fəaliyyət azadlığı, hər bir istiqaməti nizamlayan ədalətli qanunvericiliyin mövcudluğudur.

Bazara keçidin əsas çətinliklərindən ən əsası olur ki, mövcud struktur səmərəli resurs bölgüsünə təminat vermir. Əsl bazar strukturunun əsas səciyyəvi cəhəti bu strukturun böhranın davam etməsinə imkan verməməsindən ibarətdir. Əsl struktur bazarın daimi inkişaf edən mövcudluğuna təminat verir, bütün problemləri, o cümlədən istehsal böhranını aradan qaldırır. Bu baxımdan, resursların səmərəli bölgüsündə dövlətin rolu əvəzsizdir. Bazar mexanizmi özü gec-tez bu problemi həll edəcək, ancaq onun tezləşdirilməsi keçid prosesini çox sürətləndirə bilər. Belə ki, mövcud kredit ekspansiyası resursların daha səmərli sahələrə axınını təmin edə bilmir, başqa sözlə, proses çox ləng gedir. Əsas səbəbi isə dövlət sifarişlərinin kəskin azalması, tədiyə qabiliyyətli tələbin məhdudlaşmasıdır. Bu amillər isə məcmu səmərəli tələbin aşağı düşməsini şərtləndirir. Keynsin makroİqtisadi nəzəriyyəsinə görə, böhranın əsas səbəbi səmərəli tələbin azalmasıdır. Rəqabətli bazarda resurslar məhdudlaşmış dövlət bölməsindən başqa sahələrə axa bilərdi. Lakin mövcud struktur təsərrüfatları yeni bazarlar axtarmağa həvəsləndirməyə qabil olmamaqla yanaşı, stimulllaşdırıcı pul və vergi siyasətinə onların qiymətləri yüksəltməklə cavab vermələrini şərtləndirir. Etibarlı dövlət sifarişindən əli çıxmış istehsalçılar iki yol ayrıcında qalıblar. Birincisi, fəaliyyəti bazar əsaslarında yenidən qurmaqla. Dövlət sifarişlərinin boşalmış yerinin səmərəli tələblə doldurulmasına nail olmaqdır ki, bu yol ciddi çətinliklər gətirir. Yeni əmtəələr istehsalı, marketinq tədqiqatı, müasirləşmə və s. çoxlu vəsait və uzun vaxt tələb edir. Ancaq belə imkan mövcud deyil. Üstəlik, vergiləri ağır, təsərrüfat şərtləri qeyri – sabit, sifarişlər isə etibarsızdır. Ikinci yol hökumətin yetirdiyi siyasətə qiymətləri yüksəltməklə verilən cavabdır ki, bu, hazırda geniş yayılmışdır. Məsələn, gömrük rüsumunun artması idxal məhsullarının qiymətinin yüksəlməsi ilə nəticələnir və s.

Belə hallarda müəssisələr üçün yeganə qısamüddətli tədbir bank kreditlərindən istifadə olunmasıdır. Bu vəsait xammal və materialların artan qiymətinin ödənməsinə yönəldilir. Bank kreditlərindən sərbəst istifadə imkanı investisiyaların artımına, müəssisələrin daxili təkmilləşdirmə aparmasına mühüm təsir göstərir. Buna görə də keçid dövründə dövlətin qarşısında duran ən başlıca məsələlərdən biri, bank sistemini müasir əsaslarla yenidən qurmaq, bank təminatlılığını artırmaq və bütün bazar subyektlərinin bank kreditinə sərbəst müraciət imkanına şərait yaratmaqdır.

Hazırda respublikamızda bu istiqamətdə müəyyən işlər görülmüşdür. Belə ki, bank fəaliyyətini tənzimləyən qanunvericilik müəyyən edilmiş, «qara» valyuta bazarına son qoyulmuş, xarici vətəndaş və firmaların milli bank şəbəkəsində fəaliyyəti üçün imkanlar yaradılmışdır. Bank sisteminin inkişafına təkanv erən əsas amil inflyasiyanın aradan götürülməsidir ki, bu da respublika rəhbərliyinin düzgün pul siyasəti yeritməsinin nəticəsidir.

Keçid şəraitində dövlətin İqtisadi siyasətinin nəzərdən keçirdiyimiz istiqamətləri bu və ya digər formada yalnız bir məqsədə yönəlir. Bu məqsəd məcmu məhsulun artırılmasından ibarətdir. Məhz bu göstərici ölkənin İqtisadi

qüdrətini, əhalinin rifah halını müəyyən edir. Buna görə də, müəssisələrin istehsal fəaliyyəti hər vasitə ilə stimullaşdırılır, onalrın məhsul satışını təmin etmək üçün hər cür şərait yaradılır. Keçid respublikaları beynəlxalq münasibətlərdə qəbul olunmayan himayədarlıq siyasətindən də istifadə edirlər. Bu siyasətin əsas məzmunu daxili məhsulları xarici rəqabətdən qorumaq məqsədilə, idxala məhdudiyyətlər qoyulması və daxili bazarda milli məhsulların reallaşdırılmasına şərait yaradılmasından ibarətdir. Keçid ölkələrinin, eləcə də inkişaf etməkdə olan ölkələrin əsas çətinliyi məhz, istehsal olunan məhsulların reallaşdırılması ilə bağlıdır. Hazır məhsul satıla bilməyərək anbarlara yığılıb qalır, fəaliyyətin təkrarlanması imkanını heçə endirir. Buna görə də, satış bazarlarının müəyyən edilməsi üçün dövlət müxtəlif mexanizmlərə müraciət edir: inkişaf etməkdə olan digər ölkələrdə bu sahədə müxtəlif müqavilələr bağlanılır, barter əməliyyatları genişləndirilir, güzəştlər tətbiq oulnur, məhsullar kredit əsasları ilə satılır və s.

İqtisadi artıma gedən yol heç də yeni isteshal güclərinin yaradılmasından başlanmır. Yalnız mövcud istehalın səmərəli surətdə reallaşması üçün şərait yaradılması sonrakı inkişaf üçün zəmin ola bilər. Keynsçilərin dediyi kimi, tələb təklifin deyil, təklif tələbin ardınca gedir.

II BÖLMƏ. AZƏRBAYCAN DÖVLƏTİNİN İQTİSADİ SIYASƏTI VƏ ONUN REALLAŞMASI ISTIQAMƏTLƏRI

Azərbaycan dövlətinin strateci yolu yalnız demokratiya, sərbəst İqtisadiyyat və sahibkarlıq yoludur

Heydər Əliyev

II FƏSIL. AZRƏBAYCAN DÖVLƏTININ XARICI TICARƏT SIYASƏTI

2.1. Xarici ticarət konsepsiyası və xarici ticarət siyasəti

Azərbaycanın xarici siyasəti həm ikitərəfli formada, həm də beynəlxalq təşkilat-lar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateci xəttimiz var və bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir.

İlham Əliyev

Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkələrin bir-birindən asılılığının getdikcə güclənməsi, bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq meydana çıxan problemlərin mürəkkəbləşməsi, hər şeydən əvvəl, milli İqtisadiyyatın formalaşması və ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı respublikanın xarici İqtisadi fəaliyyətinin konseptual əsaslarının işlənib hazırlanmasından asılıdır.

Qeyd etmək lazımdır ki, müasir dünya təcrübəsinin və bütövlükdə, BIM-in nəzəri əsaslarının sistemli təhlili yuxarıda qeyd olunanların obyektiv xarakter daşıdığını göstərir. Xarici ticarət xarici İqtisadi əlaqələrin realizasiyasının əsas mexanizmi kimi çıxış edir. BIM sistemində sərhədlərin getdikcə silinməsi, texnologiya, nəqliyyat və rabitə sferalarında baş verən əsaslı kefiyyət dəyişiklikləri nəticəsində geniş təkrar istehsal sferasının başlıca bazaları olan istehsal və mübadilənin daha da dərinləşməsi prosesini sürətləndirməklə real fakt kimi meydana çıxmışdır. Bu gün istehsal edilmiş mal və xidmətlərin əsas hissəsi xarici ticarət vasitəsi ilə bazara çıxarılır, ya da həmin məhsulların istehsalında xarici komponentlərdən istifadə olunur. Son 40 il ərzində beynəlxalq mal dövriyyəsi 15 dəfə, istehsal isə cəmi 6 dəfə artmışdır.

Azərbaycan Respublikasının potensial imkanları baxımından «kiçik ölkə» olduğunu, yəni nəinki dünya bazarında, hətta regional bazarlarda belə

mövcud situasiyaya təsir etmək imkanının yoxluğunu, əksinə, özünün bütövlükdə İqtisadi fəaliyyətinin təşkili və inkişafında real vəziyyətə uyğunlaşmaq məcburiyyətində qaldığını qəbul ediriksə, onda ölkənin xarici ticarət konsepsiyasının formalaşdırılmasında göstərilən cəhətləri nəzərə almaq və onu qlobal kontekstdə araşdırmaq lazım gəlir. Bu baxımdan xarici ticarət konsepsiyası inkişaf mərhələlərinə uyğun olaraq 2 dövr üçün işlənib hazırlanmalıdır.

1). Keçid dövrünün xarici ticarət konsepsiyası.

2). Real bazar dövrünün xarici ticarət konsepsiyası.

1. Keçid dövrü öz mahiyyəti etibarı ilə respublikada bazarın formalaşması və həmin keyfiyyət aspektində real bazar münasibətlərinin təşəkkülü ilə başa çatmalıdır.

2. Real bazar münasibətlərinin təşəkkülü prosesi başa çatdıqdan sonra ölkədə həm İqtisadi bazisin sosial İqtisadi mahiyyətində, həm də cəmiyyətin siyasi təşkilində köklü keyfiyyət dəyişiklikləri baş verməklə ölkənin dünya İqtisadiyyatına funksional inteqrasiyası baş verəcəkdir. Göründüyü kimi, xarici ticarətin konseptual əsasları ölkənin inkişaf mərhələlərinə uyğun şəkildə formalaşdırılmalı və metodolo**ci** prinsiplərin tarixi səciyyə daşıdığı birmənalı şəkildə qəbul olunmalıdır.

Ölkənin xarici ticarət konsepsiyası bütövlükdə İqtisadi təhlükəsizlik konsepsiyasının tərkib elementi kimi nəzərdən keçirilməli və formalaşdırılmalıdır. Belə ki, dövlətin İqtisadi təhlükəsizlik sisteminin yaradılması və möhkəmləndirilməsi başlıca olaraq ticarətin təşkili və inkişafından birbaşa asılıdır. Belə ki, İqtisadi münasibətlərin getdikcə dərinləşməsi ölkənin həm İqtisadi təhlükəsizlik konsepsiyasında, həm də xarici ticarətdə əsaslı dəyişikliklər tələb edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkələrin inkişaf yollarının seçilməsi son dərəcə mühüm məsələlərdən biridir. Ümumiyyətlə, milli İqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından 3 inkişaf modelini fərqləndirmək olar:

1) İqtisadiyyatın ixrac yönümünün yüksəldilməsini nəzərdə tutan inkişaf modeli;

2) idxalı əvəz edəcək istehsal sahələrinin inkişaf modeli;

3) İqtisadi inteqrasiya modeli.

Bu modellərdən hər hansı birinin seçilməsi öz mahiyyəti etibarı ilə xarici ticarət konsepsiyasının formalaşdırılması deməkdir. Buna görə də Azərbaycanın mövcud potensialı baxımından bunların hansının daha mütərəqqi və məsədəuyğun olduğunu araşdırmaq zəruridir. Beləliklə, ixrac yönümlü inkişaf müasir beynəlxalq İqtisadi münasibətlər sistemində mühüm yer tutan modellərdən biridir və milli İqtisadiyyatın göstərilən istiqamətdə inkişafını tələb edir. Lakin Azərbaycan Respublikasının bu modeli tətbiq etməsi üçün aşağıda göstərilən bir sıra problemlərin həlli vacibdir:

1. Dünya bazarında yaranmış vəziyyət məhsul və xidmətlərin ixracında tamamilə yeni amillərə və parametrlərə əsaslanmağı tələb edir. Belə ki, müasir texnika və texnologiyanın tətbiqi, yeni mallar istehsal artımının və rəqabətin qeyri-müəyyənliyi dünya standartlarına cavab verməyən məhsullar istehsal edən Azərbaycanın ixrac imkanlarını xeyli məhdudlaşdırır;

2. Ixrac yönümlü inkişaf rəqabətə davam gətirməyi, yəni üstünlüklər yaratmağı tələb edir. Yəni, infrastruktura, marketinq və yeni texnologiyaların əldə edilməsi məqsədi ilə fasiləsiz olaraq investisiya qoyuluşları həyata keçirilməlidir. Aydındır ki, müasir şəraitdə maliyyə-valyuta resursları, hətta minimal tələbləri ödəmək iqtidarında olmadığı bir dövrdə göstərilən istiqamətlərdə iri həcmli kapital qoyuluşlarının həyata keçirilməsi mümkün deyildir;

3. Hətta, bütün imkan və vasitələrin mövcudluğu şəraitində belə, ixrac yönümlü inkişaf modelinin tətbiqi və onun rolunun yüksəldilməsi istənilən nəticəni verə bilməz. Belə ki, milli İqtisadiyyatın ixrac yönümünün gücləndirilməsi xarici bazarlardan ixrac asılılığı yaradır və nəticədə daxili sosial-İqtisadi situasiyaya güclü təsir göstərir. Aydındır ki, mənəvi tərəf müqabillərində də İqtisadi situasiyanın pisləşməsi zəncirvari reaksiya doğurmaqla ölkədə staqflyasiyanı sürətləndirməklə böhranlı vəziyyət yaradır. Buna görə də ixracat prosesinin əsas hissəsinin yönəldiyi xarici bazarlara əməli yardım edilməsi problemi meydana çıxır ki, bu da qlobal qarşılıqlı asılılığı yeni keyfiyyət aspektləri kimi səciyyələndirə bilər.

Ölkənin xarici ticarət konsepsiyasının ağırlıq mərkəzi kimi idxalı əvəz edəcək istehsal sahələrinin təşkili modelinin də bir sıra nöqsanları var. Əlbəttə, İqtisadi təhlükəsizliyi baxımından bir sıra mal və mal qrupları üzrə idxal asılılığına son qoyulması mühüm problemlərdən biridir. Lakin bütün məhsul və xidmətlər üzrə idxalı əvəz edəcək istehsal sahələrini inkişaf etdirmək həm mövcud protensial, həm də sosial-İqtisadi səmərəliliy baxımından qeyri-mümkündür. Idxalı əvəz edəcək istehsal sahələrinin təşkili iri həcmli investisiya qoyuluşları tələb edir, digər tərəfdən, ölkənin müxtəlif istehsal amilləri ilə təchizi dərəcələri arasındakı fərq öz-özlüyündə xarici ticarətin strukturunu müəyyənləşdirmək imkanı verir ki, bunun da heç bir əsas olmadan dəyişdirilməsi xarici ticarət sferasında böyük itkilərlə nəticələnə bilər.

Bazar İqtisadiyyatına keçid dövrü ərzində Azərbaycanın xarici ticarət konsepsiyasının əsas metodolo**ci** prinsipi müqayisəli üstünlüklərdən ibarət olmalıdır. Buna görə də, bütün məhsul növləri üzrə idxalı əvəz edəcək istehsal sferalarının təşkili istənilən səmərəni verməyəcəkdir.

Ölkənin xarici ticarət konsepsiyasının əsas istinad bazası regional İqtisadi inteqrasiya çərçivəsi daxilində yaradılan azad ticarət blokları ola bilər. Avropa Azad Ticarət Assosiasiyası tipli ticarət zonalarının təşkili həm keçid dövrü ərzində, həm də perspektivdə daxili və xarici İqtisadi fəaliyyətin optimal uyğunluğuna əsaslanan xarici ticarət konsepsiyasını formalaşdırmağa və tətbiq etməyə imkan verərdi.

Aydındır ki, Azərbaycan keçid dövrünün spesifik xüsusiyyətləri baxımından regional İqtisadi inteqrasiyaya funksional qoşulması qeyri-mümkündür. Məhz buna görə də, azad ticarət bloklarına daxil olmaq birbaşa müasir gerçəklikdən doğan nəticədir. Hal-hazırda Azərbaycan Avrasiya məkanında yeganə ölkədir ki, eyni zamanda 5 regional qruplaşmada iştirak edir:

1. Müstəqil Dövlətlər Birliyi (MDB)
2. İqtisadi Əməkdaşlıq Təşkilatı (IƏT)
3. Qara dəniz hövzəsi ölkələrinin İqtisadi əməkdaşlıq təşkilatı
4. Türk dövlətlərinin iş birliyi şurası
5. GUÖAM (Gürcüstan, Ukrayna, Özəbkistan, Azərbaycan, Moldova).

Azərbaycanın xarici ticarət konsepsiyası bütövlükdə ölkənin İqtisadi təhlükəsizlik sisteminə, ilk növbədə milli rəqabət üstünlüklərinin formalaşdırılması və inkişafına əsaslanmalıdır.

Göstərilən tərzdə xarici ticarət konsepsiyasının istinad nöqtəsi müəyyənləşdirilərək, onun istiqamətlərini aşağıdakı kimi formalaşdırmaq olar:

I. Strate**ci** istiqamətlər:

- ixracın dövlət həvəsləndirilməsi sisteminin təşkili;
- bazar subyektlərinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədi ilə dövlət proqramlarının hazırlanması;
- daxili bazarın milli mənafelərə uyğun qorunması.

II. Ixrac fəaliyyəti:

- ölkənin ixrac potensialının formalaşdırılması və inkişaf etdirilməsi;
- ixrac strukturunun təkmilləşdirilməsi, əsas ağırlıq mərkəzinin hazır məhsul və xidmətlər üzərinə keçirilməsi;
- ölkənin ixrac potensialının müqayisəli üstünlük prinsipi əsasında qiymətləndirilməsi;
- texnologiya tutumlu məhsulların ixracının artırılması;
- ixrac yönümlü istehsalın inkişafı və modernləşdirilməsində xarici investisiyaların aktiv surətdə cəlb edilməsi.

III. Idxal sferası üzrə:

- mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili;
- ölkənin İqtisadi asılılığının azaldılması;
- idxalın strukturuna nəzarət.

Aydındır ki, Azərbaycanın xarici ticarət konsepsiyası göstərilən istiqamətlərin üzvi vəhdətinə əsaslanmaqla formalaşdırılmalı və ölkənin xarici ticarəti bu prinsiplər bazasında həyata keçirilməlidir.

Xarici ticarət siyasəti dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Hətta, son dövrlərdə IEÖ-in xarici siyasət idarələri də beynəlxalq İqtisadi əlaqələrdə, xüsusi ilə xarici ticarət əlaqələrinin tənzimlənməsində yaxından iştirak edirlər. Eyni zamanda, xarici İqtisadi problemlərin kompleks xarakteri, onların ümumİqtisadi inkişafla sıx bağlılığı bəzi ölkələrdə xüsusi təşkilatlararası orqanların yaranmasına səbəb olur. Xarici ticarət və

ümumiyyətlə, xarici İqtisadi əlaqələrin təşkilati quruluşu üzrə dünya ölkələrinin təcrübəsinin təhlili göstərir ki, xarici ticarət siyasətinin, eləcə də xarici İqtisadi fəaliyyətin səmərəli həyata keçirilməsi üçün bu istiqamətdə zəruri olan təşkilat strukturları - nazirliklərarası xarici İqtisadi əlaqələr komitəsi, beynəlxalq təsərrüfat kooperasiyası və s. yaradılmalıdır. Lakin bu heç də o demək deyildir ki, xarici ticarət əlaqələri bütünlüklə dövlət inhisarına alınmalıdır. Qeyd etdiyimiz kimi, xarici İqtisadi fəaliyyətin inhisarlaşdırılması və eyni zamanda daxili bazarda əlaqələrin sərbəstləşdirilməsi real bazar münasibətlərinin təşəkkülü istiqamətində bir sıra problemlərin yaranmasına səbəb ola bilər. IEÖ-in xarici ticarət siyasəti sferasındakı təcrübəsi göstərir ki, burada 2 istiqamət özünü açıq-aşkar büruzə verir:

1. Azad ticarət siyasəti
2. Proteksionizm (himayədarlıq).

Azərbaycan Respublikası mövcud İqtisadi reallıqlar baxımından xarici ticarət siyasətinin maksimum sərbəstləşdirilməsini həyata keçirməyə məcburdur. Belə ki:

1. Respublikada real bazar münasibətlərinin formalaşması və tamqiymətli xarici İqtisadi fəaliyyətin həyata keçirilməsi üçün bütün məhdudiyyətlərin götürülməsi tələb olunur.

2. Azərbaycanın öz imkanları çərçivəsində investisiya və İqtisadiyyatda struktur dəyişiklikləri siyasəti aparmağa, əsas fondların və bir sıra istehsal sahələrinin yenidən qurulmasını həyata keçirməyə, yeni texnika və texnologiya əldə edilməsinə nail ola bilməz. Yeganə çıxış yolu «xarici impulsdan» tam həcmdə istifadə olunmasından ibarətdir.

3. Ölkənin istehsal etdiyi sənaye məhsulları əksər hallarda dünya standart-larına cavab vermir.

4. Azərbaycan Respublikasının ixracatında neft və neft məhsulları yüksək xüsusi çəkiyə malikdir.

Bununla yanaşı, formalaşmaqda olan, eləcə də milli İqtisadiyyatın prioritet sahələrinin xarici rəqabətdən qorunmasının böyük İqtisadi əhəmiyyəti vardır və bu istiqamətdə həyata keçirilməsi labüd olan tədbirlər sistemi işlənib hazırlanmalıdır. Yerli sənaye məhsullarının xarici rəqabətdən qorunmasında ən təsirli vasitə proteksionist gömrük rüsumlarının tətbiqi ola bilər. Aydındır ki, bu halda idxal olunan sənaye məhsullarına qoyulacaq gömrük rüsumlarının məbləği həmin məhsulların daxili bazardakı pərakəndə satış qiymətləri ya yerli məhsulların qiymətləri səviyyəsində olmalı, ya da ondan yüksək olmalıdır.

Beləliklə, Respublikada bazar İqtisadiyyatına keçidin müvəffəqiyyətlə başa çatdırılması, İqtisadiyyatın zəruri artım templərinə nail olunması və dünya İqtisadiyyatına səmərəli qovuşma xarici ticarət siyasətinin maksimum sərbəstləşdirilməsini tələb edir. Qeyd etmək lazımdır ki, bu sahədə 5 aprel 1994-cü il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» və «Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında» 24 iyun 1997-ci il tarixli AR Prezidentinin fərmanları önəmli rol oynamışdır. Həmin fərmanlarda bazar

mexanizminin geniş tətbiqi əsasında İqtisadiyyatın yenidən qurulması və inkişafında dönüş yaratmaq, xarici bazar subyektləri ilə qarşılıqlı faydalı ticarət və İqtisadi əlaqələri genişləndirmək, onların səmərəliliyinin yüksəldilməsi, xarici bazarlara məhsul satışında və idxalda daxili bazar subyektlərinin fəaliyyətinin sərbəstləşdirilməsi, ticarət əlaqələrinin daha da liberallaşdırılması, genişləndirilməsi, respublikada idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları respublikanın valyuta ehtiyatlarının və ixrac potensialının artırılmasında onların marağının gücləndirilməsi və s. cəhətlər üzrə aidiyyatı qərarlar qəbul olunmuşdur. Bu fərmanlarla məhsulların xarici ticarətində məhdudiyyətlər aradan qaldırılmış, bütün hüquqi şəxslərə strate**ci** məhsullar üzrə xarici ticarət fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir. Bununla belə, bu dəyişiklik bazar subyektlərinin sərbəst kommersiya fəaliyyəti yolunda müəyyən əngəllər də yaratmışdır. Belə ki, müəssisə və təşkilatların gəlirlərində vahid Valyuta Fonduna məcburi köçürmələr məhsul növündən asılı olaraq 10-70% arasında təşkil etmişdir. Aydındır ki, yüksək normativlərin tətbiqi nəinki ixrac potensialının inkişafına mənfi təsir göstərir, həmçinin ixraca olan stimulu da artırır, ixraca nəzarətin formalarından biri kimi strate**ci** məhsulların respublikadaxili satışında tender, yaxud əmtəə bir**c**alarından istifadə edilməsini nəzərdə tuturdu. Burada məqsəd strate**ci** məhsulların dünya qiymətlərindən aşağı səviyyədə ixracının qarşısının alınmasından ibarət olmuşdur.

Fərmanda nəzərdə tutulan müddəaların tətbiqi xarici ticarət siyasətinin formalaşmasında və bir sistem kimi fəaliyyət göstərməsində mühüm rol oynamışdır. Respublikanın xarici ticarət əlaqələrinin artması və uzaq xarici ölkələr ilə münasibətlərin sürətli inkişafı xarici ticarət siyasətinin daha da təkmilləşdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq AR-nin prezidenti bir-birinin ardınca: 2 mart 1996-cı il tarixli «Əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi və xarici İqtisadi əlaqələrin sərbəstləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında», 6 avqust 1996-cı il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında» və bu fərmana əlavələr və dəyişikliklər edilməsi barədə 24 sentyabr 1996-cı il fərmanlarını imzalamışdır. Bu fərmanlar respublikanın xarici ticarət əlaqələrinin maksimum sərbəstləşdirilməsi və ölkənin xarici ticarət siyasətinin inkişafı dinamikasına uyğunlaşdırılması məqsədini daşıyırdı. Belə ki, qəbul edilmiş dəyişikliklər nəticəsində strate**ci** məhsulların sayı 17-dən 4-ə qədər (neft və neft məhsulları, elektrik ener**ci**si, əlvan metallar, pambıq mahlıcı) azaldıldı. 1991-ci illə müqayisədə xarici ticarət siyasətinin ardıcıl olaraq təkmilləşdirilməsi bir sıra müsbət nəticələr əldə etməyə imkan vermişdir. Respublikanın xarici ticarət əlaqələrinin tənzimlənməsi sferasında sistemliliyə nail olunmuş, ölkənin milli mənafelərinin qorunması istiqamətində irəliləyiş əldə edilmişdir. Xarici ticarət əlaqələrinin sərbəstləşdirilməsi, ölkədə real bazar münasibətlərinin təşəkkülü prosesinə paralel olaraq aparılır ki, bu da perspektivdə məqsədəuyğun nəticələrin əldə edilməsinə səbəb olacaqdır. Hal-hazırda yeridilən xarici ticarət siyasəti əlaqələrin coğrafiyası baxımından çoxtərəflilik, ölkənin hər hansı bir

regiondan asılı düşməsinə imkan evrmir və s. Bununla yanaşı, hələlik respublikanın xarici ticarət siyasəti ümummilli mənafelərə tam uyğun deyildir, bunun əsas səbəbi isə müasir inkişaf mərhələsində xarici ticarət siyasətinin yüksək səviyyədə formalaşa bilməməsi və bir sıra faktiki problemlərin mövcud olması ilə əlaqədardır. Söhbət, hər şeydən əvvəl, xarici ticarət siyasətinin ümumi İqtisadi siyasətin tərkib hissəsi olmasından gedir. Digər tərəfdən, respublikanın hələ bazar İqtisadiyyatına keçid dövründə olması, bazar subyektlərinin tam qiymətli kommersiya fəaliyyətini həyata keçirə bilməməsi, manatın dönərli olmaması və s. Son nəticədə xarici ticarət siyasətinin maddi əsası olan cəhətlərin zəruri səviyyədə təşəkkül tapmaması digər xarakterli və səviyyəli problemlərin meydana çıxmasını şərtləndirir.

Həmçinin, mal və xidmətlər üzrə xarici ticarət əlaqələrinin tənzimlənməsi xüsusiyyətləri texnologiya, nou-hau və s. üzrə ticarətin təşkilinə birbaşa təsir göstərirsə, digər tərəfdən kapitalın miqrasiyasını, ölkəyə xarici investisiyaların cəlb edilməsini şərtləndirməklə bütövlükdə ölkənin BIM kompleksinin formalaşmasında mühüm rol oynayır. Başqa sözlə, mal və xidmətlər üzrə xarici ticarət əlaqələri əksər hallarda kapital ixracının alternativ variantına çevrilir ki, bu da xarici investisiyalara böyük ehtiyacı olan ölkənin xarici ticarət siyasətində nəzərə alınır.

Ölkədə normal istehlak bazarının formalaşması, sitehlak bazarının təmin olunması və tarazlaşdırılması, ilk növbədə, tələb və təklifin həcmi və strukturu, istehlakçıların gəlirləri və qiymətlər arasında uyğunluq olmasını tələb edir. Belə uyğunluğun yaranması əhəmiyyətli dərəcədə xarici İqtisadi əlaqələrdən asılıdır. Əhalinin və ölkənin tələbatı yalnız daxili istehsal hesabına deyil, həm də idxal hesabına formalaşır. Bundan əlavə, idxal hesabına yerli istehsalı inkişaf etdirmək və səmərəliliyini artırmaq üçün əlavə imkanlar yaranır.

Xarici ticarətdə ölkə İqtisadiyyatının inkişafını xarakterizə edən bütün proseslər dəqiq əks olunur. Bu proseslər idxalatçılar, ixracatçılar arasında qarşılıqlı əlaqələrin mürəkkəbliyini və bazar agentlərinin ziddiyyətlərini göstərir. Xarici ticarətdə ölkənin iştirakı onun İqtisadi inkişaf səviyyəsi, ərazisi, əhalisinin sayı, təbii resurslarla təmin olunma səviyyəsi, daxili bazarın həcmi, İqtisadi siyasətin vəzifəsi və məqsədi ilə şərtlənir. Xarici ticarətin həcmi və sturkturu maddi istehsalın vəziyyəti, onun texniki səviyyəsi, ictimai əmək bölgüsünün inkişaf səviyyəsi ilə müəyyən olunur. Qeyd edildiyi kimi, Azərbaycanın xarici ticarət əlaqələrinin sürətli inkişafı, hər şeydən əvvəl, onun xarici ticarət təşkilatlarında iştrakı ilə şərtləndirilir. Ölkənin daxil olduğu və ya olacağı xarici ticarət təşkilatlarının qaydalarını və şərtlərini öz ticarət siyasətinə tətbiq etməsi məhz ticarət əlaqələrinin genişləndirilməsinə yönəldir. Bu da xarici ticarətin həcminin artmaısna, ixrac və idxalın strukturunun dəyişməsinə, ticarət əlaqələrinin daha da sadələşdirilməsi, liberallaşdırılması, dərinləşdirilməsi üçün şərait yaradır.

2.2. Xarici ticarət təşkilatlarının xarakteristikası və quruluşu

Sərbəst ticarət və gömrük ittifaqı haqqında olan razılaşma dünya ölkələri arasında daha geniş yayılmağa başlamışdır. Beynəlxalq İqtisadi sistemdə rəqabətin artdığı şəraitdə, öz İqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışan dövlətlər digərləri ilə malların, kapitalın və onlarla bağlı xidmətlərin sərbəst hərəkətini təmin edən sazişlər imzalayırlar. Əksər belə müqavilələr beynəlxalq, dövlətlərarası və ya regional xarakter daşıyır. Belə təşkilatlara Ümumdünya Ticarət Təşkilatını (ÜTT), Ümumdünya Gömrük Təşkilatını (ÜGT), Avropanın Sərbəst Ticarət Assosiasiyasını (ASTA), Sərbəst Ticarət Haqqında Şimali Amerika Razılaşmasını (NAFTA), Cənubi-Şərqi Asiya Dövlətlərinin Assosiasiyasını (ASEAN), Mərkəzi Avropanın Sərbəst Ticarət Assosiasiyası (MASTA), OPEK-i və başqa bir sıra regional təşkilatları aid etmək olar. Bu təşkilatların əsas məqsədi bağlanmış müqavilə əsasında sərbəst ticarət siyasəti yürütmək şərtilə, xarici ticarətdə maneçilik törədən amillərin aradan qaldırılmasıdır. Bunun da əsas xüsusiyyətləri aşağıdakılardır:

- ticarətin gömrük və digər məhdudiyyətlərdən azad olunması;
- gömrük rüsumları və qeyri-tarif məhdudiyyətlərinin qarşılıqlı şəkildə tədricən aradan qaldırılması;
- birtərəfli qaydada gömrük rüsumlarının qaldırılmasının mümkün olmaması;
- yeni ticarət məhdudiyyətlərinin tətbiq olunması.

Göstərdiyimiz bu şərtlər dövlətə, xarici İqtisadi fəaliyyət sistemini təkmilləşdirməyə və beynəlxalq ticarət təcrübəsini daha yaxşı mənimsəməyə imkan verir. Sərbəst ticarət zonasında fəaliyyətin tənzimlənməsi həmişə heç bir dövlətüstü idarəetmə sistemi yaradılmadan həyata keçirilir. Bütün qərarlar iştirakçı dövlətlərin İqtisadi strukturlarına (maliyyə, xarici ticarətlə bağlı olan və s.) rəhbərlik edən şəxslər tərəfindən birilkdə qəbul edilir. Bu qərarları tərəflər şərtsiz yerinə yetirir və XIF sahəsindəki öhdəliklər və kordinasiya təminatının icrasını məcbur edir.

Lakin sərbəst ticarət zonaları mənfi cəhətlərdən də xali deyildir. Bu özünü yerli istehsal mllarının daha keyfiyyətli idxal malları ilə rəqabətdə tab gətirməməsi faktorunda göstərə bilər. Nəticədə isə, xarici mallar yerli istehsal mallarını daxili bazardan sıxışdırıb çıxarır. Bu isə həmişə dövlət tənzimlənməsi ilə aradan qaldırıla bilən İqtisadi bir problemdir.

Sərbəst ticarət zonasına ən yaxşı nümunə kimi NAFTA, EFTA və s. göstərmək olar. Bu zonalar daxilində vahid xarici tarif dərəcəsi yoxdur. Sazişin əsas xüsusiyyəti ondan ibarətdir ki, iştirakçı ölkələr arasında ticarət zamanı gətirilən mallara vergi, rüsum və digər məhdudiyyətlər tətbiq olunmur.

Ikinci dünya müharibəsindən sonra dünya ölkələri beynəlxalq İqtisadi əməkdaşlıq sahəsində «sivil» oyun qaydalarına böyük ehtiyacın olduğunu dərk edirlər. Müharibədən sonrakı beynəlxalq İqtisadi və maliyyə sisteminin əsası

1944-cü ildə çağırılan «Bretton Woods» konfransında qoyulmuşdu. Konfransın nəticəsində iki təşkilatın qurulmasına qərar verildi.

1. Dünya Bankı.
2. Beynəlxalq Valyuta Fondu.

Dünya Bankı Avropa İqtisadiyyatının dirçəlməsinə yardım etmək, BVF isə beynəlxalq pul və maliyyə sisteminin durğun bir şəkildə işləməsini təmin etməlidir. Beynəlxalq ticarət əlaqələrinin tənzimlənməsi üçün ÜTT-nin yaradılması cəhdi müvəffəqiyyətsizliyə uğradı. Bu təşkilatın Nizamnaməsi olan «Havana Xartiyası» qəbul olunmadı. Lakin az ölkə bu xartiya əsasında 1947-ci ildə Ticarət və Tarif üzrə Baş Saziş imzaladılar. Bu saziş digər ölkələr üçün açıq saxlınıldı. Tədricən bir sıra ölkələrin bu sazişə qoşulması, faktiki olaraq dünya ticarət problemlərini müzakirə edən və ticarət-siyasi xarakterli mübahisələri həll edən beynəlxalq təşkilata çevrilməsi ilə nəticələndi. Bu təşkilatın üzvləri 1994-cü ilə qədər raund adlanan 8 ticarət danışıqları aparmışdır. Ilkin olaraq bu danışıqlar zamanı gömrük rüsumlarının azaldılması haqqında öhdəlik qəbul olunmuş, sonra isə beynəlxalq ticarətdə qeyri-tarif tədbirlərinin (kvotalaşdırma, lisenziyalaşdırma və digər inzibati tədbirlər) aradan götürülməsi məsələləri həll edilmişdir.

Uruqvay raundunda TTBS əsasında ÜTT yaradıldı (1986-1994-cü illər). 1994-cü il aprelin 15-də Mərakeşdə imzalanan yekun aktı ÜTT-nin təsis edilməsi haqqında Sazişin imzalanması üçün yol açdı. ÜTT TTBS-in varisidir və öz fəaliyyətinə 1995-ci ilin yanvarın 1-dən başlamışdır. Mənzil qərargahı Cenevrədə yerləşir.

ÜTT ticarət sazişləri spektrində daha geniş nəzarəti həyata keçirir və mübahisəli məsələlər üzrə bir sıra qərarların qəbulu qaydalarının təkmilləşdirilməsi ilə əlaqədar daha geniş səlahiyyətə malikdir.

TTBS çərçivəsində keçirilən raundların gedişində ardıcıl olaraq üzv dövlətlərin gömrük tarif dərəcələrinin aşağı endirilməsi, həmçinin xarici ticarətin nizama salınmasında qeyri-tarif tənzimlənmələri, mülki aviasiya texnikasının və toxuculuq mallarının ticarətinə aid mühüm məsələlərə aid Sazişlər işlənib hazırlanmış, 8-ci raundda əsas mülkiyyətin mühafizəsi və xidmət ticarəti kimi (bank, sığorta, nəqliyyat və s.) yeni sahələrin genişlənməsi məsələlərinə baxılmışdır.

ÜTT-nin əsas məqsədi ticarətdə idxal rüsumlarının səviyyəsinin ardıcıl olaraq aşağı salınması, kəmiyyət və digər qeyri-tarif maneələrinin aradan qaldırılması və başlıca olaraq tarif üsullarından istifadə etməklə beynəlxalq ticarətin liberallaşdırılmasına nail olmaqdır.

ÜTT-nin əsas prinsip və qaydaları aşağıdakılardır:

- ticarətdə qarşılıqlı surətdə daha əlverişli şəraitin yaradılması;
- xarici mənşəli mal və xidmətlərə mülki re**ci**mlərin tətbiqi;
- ticarət mübahisələrinin danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməsi.

ÜTT-nin funksiyalarına aşağıdakılar aiddir:

a) Uruqvay raundunun bütün sazişlərinin və gələcəkdə imzalanması nəzərdə tutulan sazişlərin qəbul edilməsi və yerinə yetirilməsinin təşkili;

b) beynəlxalq imzalanmış və Nazirlər Konfransında daha geniş problemlərə aid olan məsələlər üzrə ÜTT üzvləri arasında danışıqların təşkili;

c) ÜTT üzvləri arasında mübahisələrə və münaqişəli vəziyyətlərə baxışın təmin edilməsi;

ç) ÜTT-yə üzv dövlətlərin ticarət siyasətinə mütəmadi nəzarətin təşkilinə təminat.

ÜTT-nin bütün üzv dövlətləri «çoxtərəfli ticarət sazişləri» adı altında birləşən sazişlərin və digər sənədlərin yerinə yetirilməsi üzrə öhdəlikləri qəbul edirlər. ÜTT-yə üzv olan 145 ölkə dünya ticarətinin 97%-dən az olmayaraq öz əllərində cəmləmişdir. ÜTT-də 180-dən çox dövlət iştirak edir. 20-dən çox dövlət Baş Sazişə qoşulma mərhələsindədir. Tacikistan istisna olmaqla, bütün MDB dövlətləri təşkilata üzv olmaq prosesinin müxtəlif mərhələlərindədirlər.

ÜTT-nin strukturu bir sıra bölmələrdən ibarətdir. ÜTT-nin ali orqanı bütün iştirakçı dövlətlərin nümayənədələrini birləşdirən Nazirlər Konfransıdır. Konfransın sessiyaları Uruqvay raundunun sazişi ilə əlaqədar prinsipial məsələlər üzrə qərarların müzakirəsi və qəbulu üçün iki ildə bir dəfədən az olmayaraq çağırılır. Konfrans aşağıdakı komitələri təsdiq edir:

- ticarət və inkişaf üzrə;
- ödəmə balansının tarazlığını təmin etmək məqsədilə məhdudlaşdırma üzrə;
- büdcə, maliyyə və inzibati;
- ətraf mühit və ticarət üzrə.

Konfrans ÜTT-nin Baş Direktorunu təyin edir. O da öz növbəsində ÜTT katibliyi şöbələrnin əməkdaşlarını təyin edir və Nazirlər Konfransının qəbul etdiyi müddəalara uyğun olaraq onların xidməti şərtlərini və vəzifələrini müəyyən edir.

ÜTT-nin qərarları konsensus yolu ilə qəbul edilir. Əgər konsensus olmazsa qərarlar əksər səs çoxluğu ilə qəbul olunur. Ticarət, xidmət, əqli mülkiyyət hüquqları, qəbul edilmiş öhdəliklərdən azad olmaq üzrə sazişlərin müddəaları şərti səs çoxluğu ilə qəbul edilir. Nazirlər Konfransının sessiyalararası dövründə onun funksiyasını Baş Şura həyata keçirir. Bundan başqa Baş Şura mübahisələrin nizama salınması üzrə Orqanın və Ticarət siyasətinə nəzarət üzrə orqanın fəaliyyətini həyata keçirir. Baş Şuranın rəhbərliyi altında əmtəələrin ticarəti üzrə şura, xidmət ticarəti üzrə Şura, əqli mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə Şura və başqa orqanlar fəaliyyət göstərir. Əmtəə və xidmətlər üzrə Şura çərçivəsində saziş və danışıqlar üzrə qruplar komitəsi təsis edilib.

Şuralara və komitələrə üzvlük ÜTT-nin bütün üzvləri üçün açıqdır. ÜTT-yə qoşulmağa ərizə verən dövlətin müvafiq ticarət re**ci**minin yoxlanması ilə işçi qruplar məşğul olur və onun haqqında birgə qərar qəbul edilməsini nəzərdə tutan məsələlərə baxır. ÜTT-yə üzvlük, bir qayda olaraq, Uruqvay raundunun bütün

paket «nəticələrini» istisnasız və tam həcmdə dövlət tərəfindən qəbulunu tələb edir.

ÜTT statusunun əsas müddəalarından biri də iştirakçı dövlətlərin öz İqtisadiyyatlarının mühafizəsini gömrük siyasəti tədbirlərinin köməyi ilə həyata keçirməsidir. Gömrük ödənişləri səviyyəsi həmişə qarşılıqlı surətdə aparılan danışıqlar yolu ilə aşağı salınır və rüsum dərəcələrinin bu yolla aşağı salınması onların gələcəkdə bir daha artırılmasının qarşısını almalıdır. Danışıqların gedişində razılaşdırılan, yaxud dövlətin təklif etdiyi tarif dərəcələrinin səviyyəsi tarif güzəştləri siyahısında göstərilir. ÜTT-yə üzv olan hər bir dövlətin özünün milli güzəştlər siyahısı vardır və siyahıda göstərilən səviyyədən yuxarı tarif dərəcələrini və yığımlarını tətbiq etməmək barədə öhdəlik götürürlər. Siyahıda göstərilən rüsum dərəcələri «vahid» dərəcələr adlanır. ÜTT-yə üzv olan dövlətlər vahid rüsum dərəcələrini artırmaq imkanına malik olurlar. Tarif güzəştləri siyahısı tarif danışıqları başlanana qədər mövcud olan ayrı-ayrı əmtəələr üzərində gömrük rüsum dərəcələrini və dövlətlərarası danışıqların gedişində əlaqələndirməyə razılıq prinsipini özündə əks etdirir. Bu danışıqlar nəticəsində rüsum dərəcəsi aşağı salınmış səviyyədən yüksək olur. Məsələn, əvvəlki rüsum dərəcəsinin səviyyəsi 14% aşağı salınmış, səviyyə isə 10%-dirsə, onun limitləşdirilmiş səviyyəsi 12% olacaqdır.

TTBS-in birinci maddəsinə görə, iştirakçı ölkələr bir-birinə daha yaxşı əlverişli şərait re**ci**mi yaratmalıdırlar. Bu şərait idxal, ixrac və tranzit əməliyyatları ilə yanaşı, həmçinin idxal-ixrac əməliyyatları zamanı beynəlxalq ödəmələrə də şamil olunur. Heç bir ölkə, digər ölkəyə qarşı hər hansı bir ön şərt qoya bilməz. TTBS sisteminin hakim qaydalarından biri «milli re**ci**m» prinsipidir. Bu prinsipə görə iştirakçı ölkələr xarici və yerli malları eyni re**ci**m altında yerləşdirməli, hər ikisi üçün daxili ticarəti tənzimləyən sərəncam və qaydalar, milli qanunlar, habelə vergi və yığımlar da eyni olmalıdır.

Ümumdünya Gömrük Təşkilatı (ÜGT). 1994-cü ilin oktyabrından fəaliyyət göstərir. Bu təşkilat 1952-ci ilin noyabr ayından fəaliyyətə başlayıb və ilk dəfə fəaliyyətə başlayan Gömrük Əməkdaşlığı Şurasına 17 ölkə üzv olmuşdur. Təşkilatın ali orqanı ildə bir dəfə çağırılan sessiyadır. Adətən, nümaynədə heyətinə dövlət gömrük orqanının başçısı rəhbərlik edir. Daimi fəaliyyət göstərən orqanı isə Katiblikdir. ÜGT-nin qərargahı Brüssel (Belçika) şəhərində yerləşir. Büdcəsi hər il üzvlərin ödədiyi üzvlük haqqının hesabına formalaşır. Üzvlük haqqının miqdarı xərclərindəki payından asılı olaraq müəyyən olunur.

Üzv olduğumuz təşkilatlardan biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Bu təşkilat ilk dəfə 1964-cü ildə Inkişaf üçün regional əməkdaşlıq, yaxud «Regional əməkdaşlıq təşkilatı» kimi Iran, Türkiyə və Pakistan dövlətlərinin iştirakı ilə yaradılmışdır. Bu təşkilatın inkişafında 1976-cı il Izmir sazişi əhəmiyyətli rol oynamışdır. Belə ki, sazişdə üzv ölkələr azad ticarət zonası ilə yanaşı, gömrük ittifaqının yaradılmasını da zəruri hesab etmişlər. 1992-ci ildə Istanbulda keçirilən xarici işlər nazirlərinin toplantısında IƏT-ə yeni üzvlər qəbul edildi: Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özəbkistan, Tacikistan və Əfqanıstan.

Bununla belə, üzv ölkələr 1996-cı il 14 may tarixli Türkmənistan zirvə toplantısında qarşılıqlı İqtisadi əməkdaşlığın canlandırılması istiqamətində müzakirələr aparmış, ticari-İqtisadi əlaqələrin öncül istiqamətləri müəyyənləşdirlmişdir. Üzv ölkələr arasında nəqliyyat-kommunikasiya xətlərinin birləşdirilməsi istiqamətində son dərəcə mühüm əhəmiyyətə malik olan Teceh – Sərəxs – Məşhəd dəmir yolu xəttinin açılışı olmuşdur.

Əməkdaşlığın öncül istiqamətlərindən biri kimi ticari-İqtisadi əlaqələrin inkişafına xüsusi fikir verilmişdir. Bu baxımdan aşağıdakılar üzrə razılığa gəlinmişdir:

- güzəştli tariflərlə ticarəti həyata keçirilən mal nomenklaturası 20% artırılsın;
- blokdaxili ticarətin liberallaşdırılması həyata keçirilsin və sərbəst ticarət-İqtisadi zonların yaradılması yolundan bütün maneələr aradan qaldırılsın;
- daimi fəaliyyət göstərən sərgilər təşkil edilsin;
- blokdaxili tranzit ticarət və viza qaydaları sadələşdirilsin;
- ticarət və nəqliyyat hesablaşmalarının vahid ödəmə mexanizminin yaradılması məqsədi ilə IƏT dövlətlərinin mərkəzi banklarının nümayəndələrindən ibarət komitə yaradılsın;
- yaxın gələcəkdə inteqrasiya blokunun inkişaf və ticarət bankı, sığorta şirkəti təşkil edilsin.

NIÖT (Neft ixrac edən ölkələr Təşkilatı - OPEK) – dövlətlərarası İqtisadi siyasi təşkilat olub, 1960-cı ildə Bağdad konfransında yaradılmışdır. Bu təşkilatın əsas nizamnaməsi 5 il keçdikdən sonra Karaasda qəbul edilmişdir. OPEK aşağıdakı əsas məqsədləri həyata keçirir:
- üzv ölkələrinin neft siyasətinin koordinasiyası və unifikasiyası;
- iştirakçı dövlətlərin maraqlarını qorumaq məqsədilə bir qədər səmərəli şəxsi və kollektiv vəsitlərin təyini;
- dünya neft bazarında qiymətlərin dəyişilməzliyinin qorunub saxlanılması üçün yolların axtarılıb tapılması;
- neft istehsal edən ölkələrin gəlirlərinin möhkəmliliyini təmin etmək;
- ətraf mühitin hərtərəfli qorunması üzrə tədbirlərin keçirilməsi;
- dünya neft qiymətlərinin sabitləşdirilməsi üzrə qeyri-üzv ölkələrələ əməkdaşlıq.

Hazırda OPEK-ə 12 dövlət daxildir: Əlcəzair, Venesuela, Qabon, Indoneziya, Iraq, Iran, Qatar, Küveyt, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı.

Bu dövlətlər dünya ölkələrində neftə olan tələbatı ödəməklə yanaşı, onun istehsalı, emalı və qiymət qoyulması sahəsində öz aralarında razılığa gəlirlər.

Azərbaycanın xarici İqtisadi təşkilatlarla əməkdaşlığının müasir vəziyyəti

Milli İqtisadiyyatın sivil təsərrüfatçılıq sisteminə inteqrasiya olunması, ticari-İqtisadi münasibətlərdə baş verən müsbət keyfiyyət və kəmiyyət dəyişikliklərinə, ilk növbədə, tam hüquqi-İqtisadi, idarəçilik baxımından qanunvericilik aktlarının qəbul edilməsi, bazar infrastrukturlarının formalaşdırılmasının və onların çevik fəaliyyət mexanizminin yaRadılması əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Respublikamızın ticarət əlaqələrinin genişləndirilməsində və dərinləşdirilməsində ölkənin bir çox beynəlxalq İqtisadi təşkilatlarda iştirakı, regional İqtisadi-ticarət əməkdaşlığa qoşulması və ayrı-ayrı ölkələrdə bağlanmış ticarət müqavilələri müstəsna əhəmiyyət kəsb edir.

IƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı) ilə Azərbaycan arasında əlaqələrin təhlili əsasən ticarət sferasında aparılır. Çünki Azərbaycan bu beynəlxalq təşkilata cəmi 14 ildir ki, üzv olmuşdur və ölkəni əhatə edən sazişlər nisbətən təzə qəbul edildiyi üçün (preferensial tariflər haqıqnda, tranzit ticarət haqqında və s.) onların praktiki nəticələri barədə danışmaq hələ tezdir, digər tərəfdən,

Azərbaycanın iştirak etdiyi bəzi IƏT layihələri (elmi fond, gəmiçilik təşkilatı, sığorta təşkilatı, ticarət və investisiya bankı və s.) bağlanmış niyyət protokolları şəklindədir. Tədqiqatda Azərbaycanın IƏT ilə əlaqələrinə, bu təşkilatın ixrac ehtiyatında yerinin öyrənilməsinə, ticarət əlaqələrinə və onun yaxşılaşdırılmasına üstünlük verilməsini məqsədəuyğun hesab etmək olar.

Qeyd etdiyimiz kimi, respublikamızın xarici ticarət dövriyyəisndə IƏT yeddinci yerdədir. Təhlil göstərir ki, 2005-ci ildə 1999-cu ilə nisbətən Azərbaycanın IƏT ilə ticarət dövryyəsi 286726,9 mln.dollar artmış (409306,1 mln.dollardan 696036 mln. dollara çatmışdır), Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində IƏT ölkələrinin payı isə 28,5% artmışdır. Ümumilikdə IƏT ölkələri ilə ticarət dövriyyəsi 30% artmışdır. Bu da Azərbaycanın IƏT üzv ölkələri ilə əlaqələrinin genişlənməsinin göstəricisidir.

2005-ci ilin yeknlarına görə IƏT Azərbaycanın idxalında 22% xüsusi çəki ilə IƏT (49,9%), Qara dəniz IƏT (37,8%), Asiya-Sakit Okeanı IƏT (36,6%), MDB (32%), Islam Konfransı Təşkilatı (26,1%), ixracında isə 8,7%, xüsusi çəki ilə IƏIT (71,7%), Avropa Birliyi (60,4%), Qara dəniz IƏT (19,3%), MDB (13,5%), Islam Konfransı Təşkilatından (9,76%) geri qalmaqla hər iki göstərici üzrə altıncı yerdə durur (G.Gənciyev: BIM: müasir vəziyyət və inkişaf problemləri).

Ölkənin 2001-2005-ci illər ərzində ixracında IƏT üzvü olan 5 dövlət (Türkiyə, Özbəkistan, Iran, Qazaxıstan, Türkmənistan), idxalında isə IƏT üzvü olan 4 dövlət (Türkiyə, Iran, Qazaxıstan, Türkmənistan) ilk 25 ölkə sırasnıda yerləşmişlər. IƏT üzvü olan ölkələrlə respublikamızın ticarət-İqtisadi münasibətlərinin dinamikasının təhlili və inkişaf meylləri aydın göstərir ki, bu dövlətlərin Azərbaycanın ixrac ehtiyatlarından istifadə edilməsində rolu getdikcə artır.

Azərbaycanla IƏT ölkələrinin İqtisadi əməkdaşlığının dərinləşməsinə təkan verəcək ən mühüm səbəblərdən biri onların çoxunun yüksəliş dövründə olması, arasıkəsilmədən orta və yüksək inkişaf templəri göstərməlildir. Həm də IƏT üzvlərinin makroİqtisadi göstəricilərinin xeyli hissəsinin yaxınlığı, İqtisadi durumlarının, problemlərinin oxşar olması müxtəlif sahələrdə (proteksionizm və ya təşkilat daxilində liberallaşma, antiinflyasiya, xarici ticarət, valyuta-kredit) uyğunlaşdırılmış İqtisadi siyasət yeridilməsini və çətinliklərin birgə aradan qaldırılmasını daha asanlıqla mümkün edir.

Respublikamızın bu ölkələrlə idxal-ixrac əməliyyatlarının strukturuna baxsaq görərik ki, Azərbaycanın IƏT ölkələrindən idxalında hazır məhsulların payı 26%-dən çox ldduğu halda, Azərbaycanın bu ölkələrə ixracında hazır məhsulların payı 5,9% təşkil edir. Onlardan ümumiyyətlə ölkəyə idxal olunan məhsulların əsas hissəsini elektrik ener**ci**si, buğda unu, un məmulatları, şəkər. sement, soyuducu, rabitə aparatları, onlara ixrac olunan məhsulların əsas hissəsini isə neft və neft məhsuları, alüminium oksidi, plastik kütlələr, pambıq lifi təşkil edir. IƏT ölkələrindən idxalın 8,6%-i, ixracın 1,5%-i istehsal təyinatlı avadanlıq və maşınlardır.

Eyni zamanda, Azərbaycanın hazırda istehsal etdiyi məhsulların əksəriyyətinin keyfiyyəti və rəqabət qabiliyyəti, dünya bazarlarında təklif olunan analo**ci** əmtəələrin keyfiyyəti, IƏT ölkələrinin bazarlarının tələbi, alıcılıq qabiliyyəti nəzərə alınarsa, bu təşkilatla inteqrasiya əlaqələrinin gücləndirilməsi ölkəmiz üçün daha cəlbedici olar. Çünki ölkəmizdə istehsal olunan məhsulların çoxu (xüsusilə qeyri-neft sektorunda) öz keyfiyyətinə görə əsasən IƏT-ə üzv dövlətlərin daxili bazarlarının tələblərinə cavab verməkiqtidarındadır.

Bütün bunları ümumiləşdirərək Azərbaycanın IƏT ilə əməkdaşlığının aşağıdakı 4 istiqamətini əsaslandırmaq olar:

1. İqtisadiyyatın müxtəlif sahələrində birgə müəssisələrin yaradılması.
2. Qarşılıqlı nəqliyyat-kommunikasiya və ticarətin bütün növlərinin inkişaf etdirilməsi üçün əməkdaşlıq.
3. Regional statusa malik azad İqtisadi zonaların yaradılması.
4. Elmi-texniki əməkdaşlıq.

Milli ticarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, bu sahədə İqtisadi-ticari əməkdaşlığının genişləndirilməsi baxımından beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır. Bu baxımdan Azərbaycan Respublikasının Ümumdünya Gömrük Təşkilatına üzvlüyü mühüm əhəmiyyət kəsb edir. 1992-ci ildən bugünə qədər Azərbaycanın xarici və daxili ticarət siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata keçirilməsi sayəsində ölkənin beynəlxalq əlaqələri daha da genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə çatmışdır. Ticarət qaydalarının sadələşdirilməsi məqsədilə Azərbaycanla ÜGT arasında XIF əmtəə namenklaturası (ƏN) əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsi, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi barədə razılaşmalar əldə edilmişdir. ÜGT-nin Baş Katibi Mişel Danenin müraciət məktubuna əsasən Azərbaycan «Malların təşkili və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya»-ya qoşulmaq barədə təklif almışdır. Bu təklif qəbul olunmuş və artıq ölkəmiz öz ticarət əlaqələrində bu konvensiyanın müddəalarını tətbiq edir. Fərəhləndirici haldır ki, 2001-ci ilin yanvarından respublikamız bu konvensiyaya qoşulan 101-cü dövlətdir. ÜGT-nin Brüssel şəhərində keçirilən sessiyalarında Azərbaycan ÜGT-nin Maliyyə Komitəsinə üzv seçilmişdir. ÜGT-nin bir sıra proqramları çərçivəsində DGK-nin əməkdaşları üçün narkotiklərin müəyyən edilməsi, riskin təyin edilməsi, yükün nəzarətdən keçirilməsi və gəmilərin yoxlanılması, hava və dəniz limanlarında, dəmir yolunda, gömrük sərhədlərində nəqliyyat vasitələrinə nəzarətə dair, nəzəri və praktiki seminarlar təşkil olunmuşdur. Artıq ölkəmiz ÜGT-nin Siyasi Komissiyasında təmsil olunur ki, bu da AR DGK-nin mühüm nailiyyətidir. 2000-ci il 6-8 iyulda ÜGT-nin sessiyasında təşkilatın mötəbər ali orqanı olan Siyasi Komissiyaya üzv seçilməsinin özü ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasının təzahürüdür. Məhz Siyasi Komissiyanın 17 üzvündən birini Azərbaycan Gömrük Təşkilatı təmsil edir. Bu isə həm milli, həm də

beynəlxalq sahədə tərəqqi və təkan olmaqla beynəlxalq əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi məqsədi ilə ölkəmizin artan nüfuzunun bariz nümunəsi kimi məqsədyönlü gömrük siyasəti aparmaqla ölkə İqtisadiyyatının İqtisadi suverenliyinə təminata, İqtisadi təhlükəsizliyə və beynəlxalq inteqrasiyaya xidmət edir. Bu baxımdan ÜGT Siyasi Komissiyasının 44-cü dekabr sessiyası öz fəaliyyəti dövründə ilk dəfə olaraq 5-8 dekabr 2000-ci il tarixində Bakı şəhərində keçirildi. Sessiyanın işində dünyanın 26 ölkəsindən gəlmiş 70-dən çox nümayəndə iştira etmişdir. Bu sessiyanın Bakıda keçirilməsi, ölkəmizin dünya təsərrüfat sisetminə inteqrasiya olunmasını sürətləndirmək, qədim «Ipək yolu»-nun bərpası, Xəzər dənizi hövzəsinin ener**ci** daşıyıcılarını, neft kəmərləri layihələrinin gerçəkləndirilməsi sahəsindəki regional İqtisadi əməkdaşlıq imkanlarını genişləndirmək, Azərbaycanın xarici ticarət əlaqələrinin tənzimlənməsində səmərəli fəaliyyət göstərən mexanizmlərin qurulmasına köməklik etməklə bərabər, ölkəmizin gömrük fəaliyyətinə verilən yüksək beynəlxalq qiymətdir.

Azərbaycanın ixracında əsasən neft və neft məhsulları üstün yer tutur. Məhz ixracın 80%-ni neft və neft məhsulları təşkil edir. Ixrac olunan neft dəniz və boru kəməri nəqliyyatı vasitəsilə dünya bazarına çıxarılır, Azərbaycan neftinin əsas idxalatçıları Avropa ölkələri, Yaxın Şərq ölkələri və Rusiyadır. Dövlət büdcəmizin böyük hissəsi məhz neft ixracından əldə edilən vəsait hesabına doldurulur. Buna görə də neftin qiymətinin dünya bazarında dəyişməsi birbaşa İqtisadi inkişafımıza təsir edir. Neftin dünya bazarında qiymətinin dəyişməsinə də əsasən OPEK ölkələri təsir edir. Belə ki, dünya neft istehsalı və ixracının 60-70%-i bu ölkələrin payına düşür. Bu ölkələr tərəfindən neftin qiymətinin dəyişməsi neftin dünya qiymətlərinə bilavasitə təsir göstərir və bu da Azərbaycanın ixrac etdiyi neftin qiymətinin dəyişilməsində özünü biruzə verir. Bu səbəbdən də dünya neft bazarında qiymətlərin dəyişilməzliyinin qorunub saxlanılması üçün yolların axtarılıb tapılması, neft istehsal edən və ixrac edən ölkələrin gəlirlərinin möhkəmliliyini təmin etmək, dünya bazarında neft qiymətlərinin sabitləşdirilməsi üzrə qeyri-üzv ölkələrlə əməkdaşlığında Azərbaycanın da öz yeri vardır.

Azərbaycan Respublikasının xarici ticarət-İqtisadi əlaqələrini şərti olaraq iki mərhələyə bölmək olar:

1) müstəqillik əldə olunanadək SSRI-nin tərkibində olan ticari İqtisadi əlaqələr;

2) müstəqil Azərbaycan Respublikasının ticarət-İqtisadi əlaqələri.

Birinci mərhələdə Azərbaycan ittifaq respublikaları ilə qarşılıqlı surətdə geniş ticarət-İqtisadi əlaqələrə malik idi. Lakin bu əlaqələr ittifaqdaxili səciyyə daşıyırdı, onlar ayrı-ayrı ittifaq respublikalarının İqtisadi mənafeyindən daha çox vahid xalq təsərrüfatı kompleksinin tələbləri baxımından qiymətləndirilirdi. Bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələrini inkar etmək olmazdı. Bu zaman ölkənin sənaye məhsullarının bir hissəsi xarici ölkələrə göndərilirdi. Bu işi yalnız ittifaq orqanlarının xarici İqtisadi əlaqələr strukturları həyata keçirirdi. Şübhəsiz, sərbəst ixrac-idxal balansı, hesablaşmalar aparan müstəqil valyuta

bankı, milli valyutası, idarəetmə strukturları və s. atributları olmayan respublikada müstəqil xarici ticarət siyasəti həyata keçirmək mümkün deyildi.

1992-1993-cü illərdə Azərbaycanın xarici ticarət əlaqələrinə kəmiyyət və keyfiyyət baxımından müəyyən dəyişikliklər baş vermişdir. Bu zaman həm keçmiş ittifaq respublikaları ilə, həm də başqa xarici ölkələrlə İqtisadi-ticari əlaqələr inkişaf edirdi. Respublikada keçən dövr ərzində yaradılmış sənaye potensialı onun bu ölkələrlə əməkdaşlığı üçün baza rolunu oynayırdı. Müstəqil dövlət kimi Azərbaycanın xarici ticarət əlaqələrinin vəziyyəti haqqında tam təsəvvür əldə etmək üçün 1995-2007-ci illərdə xarici ticarətin əsas göstəricilərinə diqqət yertirmək məqsədəuyğundur (cədvəl 2).

Cədvəl 2.1

Azərbaycan Respublikasının xarici ticarətinin əsas göstəricilərinin dinamikası (mln.dollar ilə)

	1995	2000	2003	2007
Ümumi Daxili Məhsul (ÜDM)	2415,2	4718,1	7276,0	29399,9
Adambaşına düşən ÜDM (ABŞ dolları ilə)	319,3	665,1	896,8	3473,9
Xarici ticarət dövriyyəsi	1304,9	2917,3	5216,5	11770,6
O cümlədən:				
Ixrac	637,2	1745,2	2590,4	6058,4
Idxal	667,7	1172,1	2626,1	5712,2
Xarici ticarət saldosu	-30,5	573,1	-35,7	346,2
Xarici ticarət kvotası (%-lə)	54,03	61,83	71,69	40,04
O cümlədən:				
Ixrac kvotası	26,38	36,99	35,60	20,61
Idxal kvotası	27,65	24,84	36,09	19,43
Xarici ticarət saldosunun ÜDM-də xüsusi çəkisi %-lə	-1,26	12,15	-0,49	1,18

Cədvəldəki məlumatlardan göründüyü kimi, 1995-2007-ci illər ərzində ölkə İqtisadiyyatı sürətli templərlə inkişaf etmişdir, İqtisadiyyatın funksional açıqlığını kifayətedici hesab etmək olar. Belə ki, 2007-ci ildə inkişaf etmiş ölkələrdə İqtisadiyyatın funksional açıqlıq dərəcəsi orta hesabla 15-18: arasında olmuşdur. Neft hasilatının artımı ilə əlaqədar olaraq, şübhə yoxdur ki, Azərbaycanın ixrac kvotası zaman-zaman yüksələcəkdir. İqtisadiyyatın açıqlığının institusional aspekti, tamamilə təbii olaraq inkişaf etmiş ölkələr səviyyəsində deyildir və çox ibrətedicidir ki, bu hal Azərbaycanı hal-hazırda davam etməkdə olan qlobal maliyyə böhranından qoruyan amillər sırasında həlledici əhəmiyyət kəsb edir.

Ixracın strukturunda neft və neft məhsullarının üstünlük təşkil etməsi keçid dövrünün doğurduğu məntiqi nəticə olmaqla yanaşı, hələ uzun müddət davam edəcəkdir.

Hal-hazırda ölkədə həyata keçirilən islahatlar kompleksinin hədəflədiyi əsas məqsədlərdən biri məhz ixracatın strukturunun modernləşdirilməsi, ixrac

prosesinin artan sürətlə gedişi və dayanıqlığının təminatı üzərinə düşür. Araşdırmalar göstərir ki, Azərbaycanın ümumilikdə xarici ticarətinin inkişafına mənfi təsir edən ilkin amillər sırasında əsasən, dünya təsərrüfatı ilə İqtisadi əlaqələrin zəif olmasını, İqtisadi əməkdaşlıq formalarının lazımi səviyyədə diversifikasiya olunmamasını, İqtisadiyyatın ümumi strukturunada hasilat sənayesinin xüsusi çəkisinin yüksək olması və aqrar sektorun investisiya tələbatının tam ödənilməməsini göstərmək olar. Konkret olaraq ixrac siyasətinə gəlincə, onun effektivliyini azaldan amillərə əsasən aşağıdakılar aid edilməlidir:

- əksəriyyət malların rəqabət qabiliyyətinin aşağı olması;
- yeni məhsul növlərinin istehsalına keçid prosesinin zəif sürətlə həyata keçirilməsi;
- sənaye məhsullarının keyfiyyətinin dünya bazarındakı analo**ci** məhsulların keyfiyyətindən aşağı olması;
- xarici ticarət sahəsi üzrə milli qanunvericiliyin DTT-nin bir çox tələblərinə və standartlarına cavab verməməsi.

Qeyd etmək lazımdır ki, 1995-ci ilə nisbətən 2000-2007-ci illərdə ticarət əlaqələri fəallaşmış, ticarət balansı aktiv olmuşdur. Bu, respublikanın xarici bazara işləyən neft-qaz, kimya, maşınqayırma və metal emalı, yüngül və yeyinti sənayeləri sayəsində olmuşdur.

Son illərdə İqtisadi subyektlər region ölkələri ilə əməkdaşlığa daha çox meyllidirlər. O cümlədən, 90-cı illərin axırlarında Azərbaycanın ixracının 80%-i, idxalının isə 60%-i regional təşkilatlarla ticarəi əməkdaşlığının payına düşür. Azərbaycanın regional təşkilatlarla əməkdaşlığında həm idxal, həm də ixrac üstünlük təşkil edir.

«Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» Qanunun qəbulu nəticəsində xarici ticarətdə mal dövriyyəsi xeyli artmışdır. Təbii ki, buna regional təşkilatların üzv dövlətləri ilə ticari əməkdaşlığının təsiri böyükdür.

Ölkəmizin regional İqtisadi əməkdaşlığında əsasən GÜÖAM, Qara dəniz IƏT, Islam Konfransı təşkilatı və s. fərqlənir.

1997-ci il 10 oktyabrda Avropa Şurasının Sammitində Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentləri GUAM adlı – İqtisadi-siyasi forumu yaratdıqlarını bəyan etdilər. Prezidentlər Avropa-Asiya nəqliyyat dəhlizinin yaradılmasında əməkdaşlığın vacibliyini vuğulayaraq ölkələr arasında dostluq və əməkdaşlığın, mövcud İqtisadi imkanların reallaşması üçün bu sahədə qarşılıqlı fəaliyyətin yaxşı təməl olduğunu bəyan etdilər. 1999-cu ildə Özbəkistanda GUAM-a daxil oldu. GUÖAM çərçivəsində qərarlar konsensusla qəbul edilir.

GUÖAM ölkələri arasında bəzi fikir ayrılıqları, o cümlədən azad ticarət zonasının yaradılması, təşkilatın genişlənməsinin predmet və subyektləri mövcud idi. Belə ki, konkret olaraq, GUÖAM ölkələri arasında İqtisadi əlaqələrin lazımi səviyyədə olmaması üzv dövlətlərin İqtisadi inkişafının aşağı səviyyədə olması ilə bağlıdır. GUÖAM ölkələrində xarici investisiyalar

əhalinin hər nəfəri üçün 5-15 ABŞ dolları (Azərbaycanda – 64 ABŞ dolları) səviyyəsindədir. Ölkələrin idxal-ixracında əsas yeri xammal, yarımfabrikat və ərzaq məhsulları tutur. Məhz buna görə də, GUÖAM ölkələri arasında əməkdaşlığın dərinləşməsi – ticarətin mərhələ-mərhələ sərbəstləşdirilməsi, milli İqtisadiyyatların struktur inkişaf konsepsiyalarının razılaşdırılması kimi tədbirlərdən çox asılıdır.

GUÖAM-ın daha səmərəli regional təşkilata çevrilməsinə zəmin yaradacaq bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir.

1. GUÖAM hüdudlarında azad ticarət zonalarının yaradılması üçün hazırlıq görülməsi;
2. Bir sıra sahələrdə razılaşdırılmış İqtisadi siyasətin aparılması;
3. Milli valyutaların qarşılıqlı dönərlilik şərtləri haqqında sazişin imzalanması;
4. Biznes strukturlarının İqtisadi, ticarəti, nəqliyyat, maliyyə, elm, informasiya və başqa sazişlərdə konkret layihələrə cəlb edilməsi ilə əməkdaşlığın prioritet istiqamətlərində ixtisaslaşmış orqanların yaradılması.

Azərbaycanın daxil olduğu regional İqtisadi təşkilatlardan biri də Qara dəniz IƏT-dir. MakroİqtisadI göstəricilərdən aydın olduğu kimi, dünya əhalisinin 6%-i, ərazisinin 5,23%-i QIƏT-nin payına düşür. QIƏT-nin dünya təsərrüfatının inkişafında layiqli yer tuta bilməsi üçün çox böyük potensial imkanları vardır:

1. Zəngin təbii resurslar – region öz-özünü mineral, kənd təsərrüfatı və ener**ci** resurslarına olan ehtiyaclarını tamamilə ödəyə bilər.
2. Əlverişli coğrafi mövqe – region bir tərəfdən Avropa ilə, digər tərəfdən Qərbi, Cənub Şərqi Asiya arasında əlverişli mövqe tutmuşdur.
3. Yüksək demoqrafik potensial-yüksək savadlılıqla xaratkerizə olunan ucuz əmək resursları.
4. Qarşılıqlı investisiyalar və birgə müəssisələr vasitəsilə rəqabət qabiliyyətli məhsullar buraxmağa imkan verən güclü istehsal imkanları.
5. Çox güclü ixrac potensialı.

1997-ci ildə QIƏT üzvlərinin yığıncağında QIƏT ölkələrinin neft və qaz eztiytalarının dünya bazarına çıxarılması məqsədilə yeni boru kəmərlərinin tikintisi üçün regional konsorsiumların yaradılması qərara alınmışdır.

Sonra QIƏT üzvlərinin nəqliyyat və kommunikasiya nazirlərinin görüşü zamanı bu sahədə on illik fəaliyyət proqramı qəbul edilmişdir. Proqram aşağıdakıları nəzərdə tutur:

a) regionda başlıca tranzit nəqliyyat marşrutlarında müxtəlif qeyri-fiziki maneələrin aradan qaldırılması;

b) Qərb-Şərq yollarının infrastrukturunun inkişafı;

c) QIƏT regionunda informasiya mübadiləsinin inkişaf etdirilməsi.

Eyni zamanda təşkilat vasitəsilə QIƏT üzvü olan ölkələrin biznesmenləri üçün icra re**ci**minin sadələşdirilməsi haqqında razılaşma imzalanmışdır. Qeyd edilən 2 razılaşma təşkilata daxil olan ölkələrin öz mallarının xarici bazarlara

nəqli zamanı bir-birinin ərazisindən rüsumsuz olaraq tranzit məqsədilə istifadə etməyə, beləliklə də onların nəqli xərclərini aşağı salmaqla dünya bazarında daha rəqabətqabiliyyətli olmağa imkan verir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ilk daxil olduğumuz Islam Konfransı Təşkilatıdır (IKT). Məhz ölkəimzi bu təşkilata daxil olan ölkələrlə mədəni, tarixi, dini ənənələrimiz bağlayır. Bir sıra qüvvətli islam ölkələrinin daxil olduğu bu təşkilatla ölkəimzin ticari-İqtisadi əlaqələri də geniş vüsət almışdır. Burada ölkəmiz əsasən Iran, Indoneziya, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Küveyt, Suriya və s. respublikalarla ticarət əlaqələrində iştirak edir.

Respublikamızın bütün IKT ölkələrindən idxal etdiyi məhsulların 19,6%-i, ixrac etdiyi məhsulların isə 1,5%-i Iranın payına düşür. Analo**ci** göstəricilər üzrə BƏƏ idxalda 6,7%, ixracda 2,5%, Pakistan – idxalda 0,7%, ixracda 1%, Indoneziya – idxal çox az təşkil edir, ixrac 1,9% və s. təşkil edir.

Təhlil göstərir ki, ixracda və idxalda Azərbaycanın regional İqtisadi-ticarəi əməkdaşlığı xüsusi çəkiyə malikdir. Bunu hər şeydən əvvəl, bu ölkələrin bir-birinə yaxın olmaları, nəqliyyat şəbəkəsinin yaxşı inkişafı, eyni zamanda uzun illər bir-biri ilə geniş ticarət-İqtisadi əlaqələrə malik olmaları şərtləndirmişdir.

Təbii iqlim və torpaq şəraiti, əhalinin sayı və tərkibi, mineral, xammal və yanacaq-energetika resursları ilə təmin olunma dərəcəsi, sənayenin və kənd təsərrüfatının inkişafı və ixtisaslaşdırılması əmək bölgüsünün xarakterini müəyyən edir. Bunun, nəticəsində istehsalçılardan hər biri mal göndərməklə, öz tələbatlarını ödəmək üçün digər mallar alırlar. Beləliklə, regional İqtisadi-ticari əməkdaşlıq tərəflər üçün qarşılıqlı fayda və yüksək İqtisadi səmərə verməklə İqtisadi zərurətə çevrilir.

2.4 Azərbaycanın Beynəlxalq ticarət əməkdaşlığın perspektivləri

Azərbaycan Respublikası dövlət suverenliyi əldə etdikdən sonra onun xarici İqtisadi fəaliyyət sahəsində sərbəst, müstəqil siyasət yeritməsi obyetiv zərurətə çevrilmişdir, digər tərəfdən isə bunun üçün zəruri zəminlər yaranmışdır. Ölkə SSRI-nin tərkibində olduğu illər ərzində xarici ölkələrlə, hətta sabiq müttəfiq respublikalarla öz mənafeyini, ehtiyac və imkanları baxımından müstəqil İqtisadi əlaqələr həyata keçirmək imkanına malik deyildi.

Azərbaycanın xarici ticarət əlaqələrinin təhlili göstərir ki, son illərdə başlanmış meyl – ticarət əlaqələrinin liberallaşdırılması, idxal və ixracın strukturu və coğrafiyasının genişləndirilməsi, ölkəmizin xarici ticarət təşkilatlarında iştirakı və bu təşkilatların qayda və metodlarını öz xarici ticarət siyasətinə tətbiqi və s. ticarət sferasında müsbət meyllər əmələ gəlmişdir. Azərbaycan, demək olar ki, dünyanın bütün qitələri ilə ticarət-İqtisadi əlaqələrə mlikdir. Lakin istehsal olunan məhsulların rəqabət qabiliyyətinin dünya bazarlarında aşağı olduğuna görə, respublika əsasən xammal ixrac edir. Son vaxtlarda dünya ölkələri arasında İqtisadi inteqrasiya güclənmişdir. Artıq hər

bir ölkənin İqtisadiyyatının inkişafı milli sərhədlərdən çıxaraq dünya İqtisadiyyatına qovuşur. Deməli, elə etmək lazımdır ki, ölkə dünya əmək bölgüsündə hazır məhsulla daha çox təmsil olunsun. Sənaye cəhətdən inkişaf etmiş ölkələr dünya bazarına əsasən hazır mhsul, qabaqcıl mütərəqqi texnologiya, daha çox elm tutumlu məhsullar çıxarır. Həmin texnologiyanı alan ölkələr isə tez bir zamanda onu tətbiq edərək, milli İqtisadiyyatın formalaşdırılması və inkişafını sürətləndirirlər. Azərbaycanın idxal və ixrac balansının təhlili göstərir ki, ölkəyə Avstraliya, Belçika, Bolqarıstan, Çin, Çexiya, Fransa, Almaniya, Macarıstan, Iran, Israil, Cənubi Koreya, Polşa, Isveçrə, Suriya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, ABŞ kimi güclü inkişaf etmiş ölkələrdən texniki tərəqqinin əsasını təşkil edən sənaye sahələrinin məhsulları ilə bərabər, Azərbaycanda inkişafı və istehsalı üçün bütün imkanlar və amillər olan sənaye və kənd təsərrüfatı məhsulları da gətirirlər. Yuxarıda göstərilən ölkələrdən Azərbaycana ət, süd məhsulları, quş əti, çay, düyü, günəbaxan yağı, tünd spirtli içkiləri, üzüm, alma, armud, kolbasa, qənnadı məmulatları, meyvə-tərəvəz şirələri, siqaretlər, makaron məmulatları, mineral sular, bir sıra tərəvəzlər, məişət mebelləri, xalça və xalça məmulatları, elektrik cihazları, telefon aparatları, ayaqqabı, pambıq parçalar, kauçuk və rezin məmulatları, elektrik naqilləri və kabellər, sintetik yuyucu vasitələr, boyalar və s. gətirilir. Halbuki, həmin məhsulların istehsalı üçün ölkəmizdə bütün imkanlar və amillər mövcuddur. Həmin məhsulların istehsalı uzaq məsafələrdən səmərəsiz yükdaşımaların qarşısını alar, istehsalın səmərəliliyinin artmasını təmin edər, sosial geriliyi azaldar, milli gəliri artırar. Bütün bunların hamısı birlikdə əhalinin yaşayış səviyyəsinin artmasını təmin edər.

Milli İqtisadiyyatımızın inkişafının əsas istiqamətlərindən biri də ictimai əmək bölgüsüdür ki, bunu da təbii-coğrafi, sosial-İqtisadi və milli amillər şərtləndirir. Ticarət əlaqələrinin inkişaf səviyyəsi, ictimai əmək bölgüsünün dərinləşməsi və cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə bilavasitə əlaqədardır. Ticarət əlaqələrinin dinamikliyi İqtisadiyyatın ayrı-ayrı sahələri, müəssiəslər arasında uzun müddətə sabit istehsal əlaqələrinin olmasını tələb edir.

Yükdaşımaların ümumi həcmində neft, qara metal, tikinti, meşə, yeyinti məhsulları yüksək xüsusi çəkiyə malikdir. Respublikadan kənara çıxarılan yüklərin strukturu ölkələrarası əmək bölgüsünün xarakterini müəyyən edir. Belə ki, Azərbaycandan kənara göndərilən yüklərin yarıdan çoxu neft məhsullarının payına düşür.

İqtisadi-ticari əməkdaşlıq və ictimai əmək bölgüsü ölkə miqyasında əmək məhsuldarlığının artmasının təmin olunması, məhsul istehsalına sərf olunan maddi və əmək məsrəflərini, həmçinin İqtisadiyyatın bütün sahələrində kapital qoyuluşunun və yüklərin nəql edilməsinə sərf edilən məsrəflərin ixtisar edilməsidir. Bu ictimai əmək bölgüsünün əsas məqsədi və istehsalın səmərəliliyinin əsas göstəricisidir. Ölkəmizin ticarət əlaqələri səmərəli əmək

bölgüsünə və istehsalın kooperasiyasına əsaslanmalıdır. Bunun nəticəsində istehsal məsrəfləri azalar və əmək məhsuldarlığı yüksələrsə, ölkələrarası mal mübadiləsi qarşılıqlı faydalı olar.

Xarici ticarət əlaqələrinin və onunla bağlı milli İqtisadiyyatın inkişafının tarixi xüsusiyyətləri, müxtəlif təbii və İqtisadi şərait, ölkənin əlverişli nəqliyyat-İqtisadi vəziyyəti ilə əlaqədardır. Azərbaycan Avropa ilə Asiyanın ksişməsində yerləşməklə, məhsuldar qüvvələrin inkişafı və səmərəli nəqliyyat-İqtisadi əlaqələr üçün olduqca əlverişli vəziyyətə malikdir.

Azərbaycan ildən-ilə digər ölkə və regionlar üçün nəzərdə tutulmuş məhsullar istehsalında öz xüsusi çəkisini artırır, eyni zamanda ictimai əmək bölgüsü və ölkələrarası əmək bölgüsü daha da dərinləşir, İqtisadiyyatın ixtisaslaşması və kompleks inkişafı güclənir. Azərbaycanın ticarət əlaqələrinin güclənməsi əmək bölgüsünün dərinləşməsi ilə üzvi surətdə əlaqədardır. Əmək bölgüsünün dərinləşməsi təbii sərvətlərin mənimsəNilməsini və müxtəlif sənaye sahələrinin yaranmasını təmin etməklə, məhsuldar qüvvələrin yerləşməsində güclü dəyişiklik etmiş, ticarət əlaqələrinin daha da təkmilləşdirilməsi üçün şərait yaratmışdır.

Azərbaycan öz tələbatının böyük hissəsini digər respublikalardan alınan xalq istehlakı malları hesabına ödəyir. Ümumiyyətlə, ərzaq məhsullarının 70 faizi digər regionlardan gətirilir. Xalq sənaye istehlak mallarından Azərbaycana avtomobillər, elektrik avadanlıqları, pambıq və yun parça, ayaqqabı və s. daxil olur, yüngül sənaye məhsullarına olan tələbatın 45%-i gətirmə məhsullarla ödənilir. Beləliklə, Azərbaycan ictimai əmək bölgüsünə, ixtisaslaşma və kooperativləşməyə, İqtisadi inteqrasiyaya aktiv daxil olur.

Hazırda Azərbaycan güclü inkişaf etmiş yanacaq-energetika, maşınqayırma, neft-kimya ölkəsidir ki, bu sənaye sahələrinin inkişafı bilavasitə neft və qazın çıxarılması ilə əlaqədardır. Digər tərəfdən isə, xalq təsərrüfatının tələbatını ödəmək üçün qara və əlvan metallurgiya inkiaşf etmişdir. Ildən-ilə müxtəlif təbii sərvətləri mənimsəməklə, onların istehsalı və ixracı üzrə ixtisaslaşırıq və bu da milli İqtisadiyyatımızın inkişafına gətirib çıxarır.

Azərbaycanın İqtisadi və təbii şəraiti, istehsalın və ərazi təşkilinin xüsusiyyətləri, mühüm məhsul növlərinin istehlakı, nəqliyyat sisteminin inkişafı və formalaşmasına əsaslı təsir edir. Göstrəmək lazımdır ki, vahid nəqliyyat sisteminin və ticarət əlaqələrinin inkişafı bir-biri ilə qarşılıqlı əlaqədardır. Bu onunla izah olunur ki, vahid nəqliyyat şəbəkəsi daşımaların həcm və keyfiyyət göstəricilərini müəyyən edir. Vahid nəqliyyat şəbəkəsi geniş ölkələrarası ticarət-İqtisadi əlaqələr yaratmaqla, istehsalın ixtisaslaşması və kooperativləşməsini təmin etməklə təbii sərvətlərdən, bütün təbii-coğrafi və digər ehtiyatlardan tam istifadə etməyə imkan verir.

Məhz buna görə də respublikamızda xarici ticarət əlaqələrinin genişləndirilməsi və İqtisadi fəaliyyətin səmərəliliyinin təmin olunması üçün aşağıdakı istiqamətlərdə ardıcıl iş aparılmalıdır:

- ölkənin ixrac potensialının düzgün qiymətləndirilməsi və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

- idxalın obyektiv tələbat həcminin tapılması;

- idxal əvəzedici sahələrin inkişaf imkanları və pesrpektivlərinin araşdırılması;

- xarici maliyyə-kredit resurslarının ölkəyə cəlb olunması;

- İqtisadi təhlükəsizlik konsepsiyasının işlənməsi və reallaşdırılması;

- inteqrasiya proseslərinin tənzim edilməsi və təkmilləşdirilməsi və s.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycanın xarici ticarət təşkilatlarında iştirakı imkanları genişlənir. Belə ki, hazırda Azərbaycanda sərbəst bazar İqtisadiyyatına keçid, mülkiyyətin çoxnövlüyü, İqtisadiyyatın tədricən liberallaşdırılması, xarici ticarətin və bütövlüklə xarici İqtisadi əlaqələrin sərbəstləşdirilməsi, «açıq qapı» siyasətinin həyata keçirilməsi, müxtəlif gömrük rüsumlarının və gömrük məhdudiyyətlərinin ləğv edilməsi və s. istiqamətində dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Bazar İqtisadiyyatı sahibkarlığın inkişafı, azad İqtisadi ticarət zonalarının təşkili, xarici ticarət üzərində dövlət inhisarının qaldırılması və beynəlxalq əmək bölgüsündə ölkənin müqayisəli üstünlüklərdən səmərəli istifadə etməsi üçün əlverişli şərait yaradır. Respublikamızda xarici İqtisadi fəaliyyət prinipcə yeni normativ hüquqi bazaya və dövlət tənzimlənməsi mexainzminə əsaslanmaqla, bazar İqtisadiyyatının tələblərinə cavab verməli, ölkənin dünya təsərrüfat sistemində inteqrasiyasını təmin etməlidir. Inteqrasiya da əsasən ölkənin beynəlxalq İqtisadi-ticari təşkilatlarda iştirakı ilə şərtlənir. Bu da beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinə, mövcud resurslardan səmərəli istifadə edilməsinə, elmi-texniki əməkdaşlığın həyata keçirilməsinə və əhalinin tələbatının hərtərəfli ödənilməsinə əlverişli şərait yaradır.

Keçid İqtisadiyyatı dövrünü yaşayan, inkişaf etməkdə olan ölkələrin və dövlətlərin beynəlxalq ticarət sistemində inteqrasiyası, onların inkişaf strategiyasının vacib komponenti olub, onların öz xarici ticarətini inkişaf etdirmək, öncədən bəlli və stabil ticarət mühiti yaratmaq hüququ var.

Xarici ticarətin beynəlxalq normalar səviyyəsində təşkilini təmin etmək məqsədilə Azərbaycan ÜTT-yə üzv olmaq niyyətindədir. 1998-ci ilin iyul ayında ölkəmiz ÜTT-də müşahidəçi statusu almışdır. Artıq Azərbaycan xarici ticarət re**ci**mi haqqında memorandum hazırlayıb ÜTT-yə təqdim etmişdir və yaxın vaxtlarda onun ÜTT-yə üzv olması gözlənilir. Azərbaycanın ÜTT-yə üzv olması, ölkəmizə aşağıdakı üstünlükləri qazandıra bilər:

1) ixrac-idxal əməliyyatları ilə məşğul olan şəxslər unifikasiyalanmış hüquqi əraziyə çıxış əldə edəcək;
2) xarici dövlətlərin tətbiq edə biləcəyi daxili vergilərin, aksizlərin, gömrük yığımlarının diskriminasiyasından qorunmaq imkanı qazanacaq, texniki maneələrin istifadəsindən qorunacaq, xarici ticarəti gələcəkdə daha səmərəli inkişaf edəcək;

3) ölkənin xarici ticarət və digər maraqlarını qorumaq üçün mübahisəli və münaqişəli məsələlərin həlli mexanizmindən istifadə hüququna malik olacaqdır.

Azərbaycan hökuməti üçün bu təşkilata üzv olmağın pozitiv və neqativ nəticələrindən bəhs etmək daha çox maraq doğurur. Lakin, bu zaman əldə olunacaq uduş və itkiləri ənənəvi olaraq ixracatçıların və idxalatçıların mövqeyindən qruplaşdırmaq məqsədəuyğundur. Təbii ki, hər iki kontekstdə cəmiyyətin də uduş və itkiləri olduğundan ona da ayrıca münasibət bildirmək olar.

Ixracatçıların uduşuna aşağıdakıları aid etmək mümkündür. Onlar: a) ÜTT institutları vasitəsilə geniş məkanlı və zəngin tərkibli informasiyaya çıxış əldə edir, eyni zamanda bu institutların köməyi ilə ticarət mübahisələrinin ədalətli həllinə nail olurlar: b) ÜTT-yə üzv olan bütün dövlətlərin bazarına təminatlı çıxış imkanlarına malik olurlar; c) çoxtərəfli ticarət danışıqlarında tam və bərabər hüquqlu üzv dövlət olaraq iştirak edir və dünya ticarət siyasətinə təsir imkanları qazanırlar.

Idxalatçıların uduşlarına isə aşağıdakıları aid etmək olar:

- idxal rüsumunun azaldılması nəticəsində milli bazarda rəqabət qabiliyyəti artır;

- istehlakçılar daha ucuz və keyfiyyətli mal alırlar;

- tariflərin aşağı düşməsi xammal və materialların yarımfabrikatların və komplekslaşdirici hissələrin ucuzlaşmasına gətirib çıxarır ki, onun da üzərində qurulmuş istehsalın nəticəsi olaraq buraxılmış məhsulun və görülmüş işin (xidmətin) maya dəyəri aşağı düşür, beləliklə də istehlakçıların xərci azalır.

Bütövlükdə cəmiyyətin uduşlarının siyahısı isə daha genişdir. Bu siyahıya aşağıdakıları daxil tmək olar:

- milli qanunvericiliyin beynəlxalq qanunvericiliyinə uyğunlaşdırıl-ması və bu sferada proqressiv ölkələrin standartlarının tətbiqi vasitəsilə İqtisadi inkişaf və daxili bazar islahatları sürətləndirilir;

- İqtisadiyyatın idarə olunmasında, xüsusən də xarici İqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin rolu aşağı düşür, bu isə xarici ticarət və investisiya əməkdaşlığını stimullaşdırır, bu sferada islahatları motivləşdirir;

- ölkəyə inam artır, onun investisiya və kredit cəlb ediciliyi riski azalır;

- ÜTT üzvü olan bütün ölkələrin ərazisindən təminatlı tranzit hüququ əldə olunur;

- xarici ticarət prosedurlarının sadələşdirilməsi, idxal və ixrac əməliy-yatlarının uçotu və hesabatı sisteminin şəffaflaşdırılması, süni bürokratik əngəllərin aradan qaldırılması nəticəsində gizli ticarət dövriyyəsinin və korrupsiyasının həcmi azalır.

Təbii ki, Azərbaycanın ÜTT vasitəsilə dünya İqtisadiyyatına inteqrasiyasından uduşlarla yanaşı itkilər də mümkündür.

Itkiləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- milli bazarda rəqabətin artımı nəticəsində rəqabətqabiliyyətli olmayan malların buraxılışı və xidmətlərin göstərilməsi sahəsində adaptasiya tənəzzülü baş verir;

- dövlət büdcəsinin gömrük rüsumları və vergiləri maddəsi üzrə daxil-olmaları azalır və onun mədaxilində qısamüddətli, bəzən isə orta müddətli dövr ərzində gərginlik yaranır;

- texnologiyaların idxalı üzrə patentlərdən istifadəyə görə komisyon haqların ödənişi sənayenin xərclərini artırır və onların qiymət rəqabətində uduşunu azaldır;

- dövlətin yerli sənayenin müdafiəsi məqsədilə birbaşa və dolayı subsidiyaları tədricən ləğv olunur və həmin sahələrin də adaptasiya böhranı yaranır;

- tənzimlənən qiymətlərin dünya bazar səviyyəsinə çatdırılması istehlakçıların xərclərini artırır və onun da sosial fəsadları keçid dövrünü yaşayan və siyasi cəhətdən kövrək olan milli hakimiyyətlər üçün təhlükə törədir;

- hazır məhsulun idxalının üstün gəlirliyi baxımından idxalı əvəz edə biləcək sahələrdə investisiya qoyuluşu səmərəliliyi aşağı düşür və nəticədə milli İqtisadiyyata ümumi investisiya qoyuluşu azalır.

Digər tərəfdən də ümid var ki, dünyanın aparıcı bankları və sığorta şirkətləri üzv-dövlətin İqtisadiyyatına sərmayə qoyacaq və nəhayət ki, normal maliyyə sektoru formalaşacaq, böyük pullar və uzunmüddətli kreditlər milli İqtisadiyyatların kapital problemlərini həll edəcək.

Lakin, çox güman ki, investisiyalar və kreditlər məhsul satışı sarıdan çətinlik çəkən sahələrə yönəlməyəcəyək. Buna görə də, bizim fikrimizcə, ilk növbədə İqtisadiyyatın özünü hazırlamaq və rəqabətli mühitdə fəaliyyətə uyğunlaşdırmaq vacibdir. Bunun üçün isə milli sənayenin dirçəliş proqramı işlənilməsi və həmin proqramın qeyri-neft sektoru üzrə reallaşdırılması tələb olunur.

Əslində bu gün müzakirələrin bu sual ətrafında aparılması və üzvlük məsələsinin belə qoyuluşu düzgün deyildir. Çünki, Azərbaycanın bu təşkilata üzvülük məsələsi artıq həll olunmuş hesab oluna bilər. Lakin, burada daha çox maraq doğuran və əhəmiyyət kəsb edən bu məsələ üzrə prosedurların nə vaxt başa çatmasıdır. Göründüyü kimi, bununla bağlı lehinə və əleyhinə kifayət qədər ciddi arqumentlər mövcuddur.

Azərbaycan hökumətinin ÜTT-yə üzvlük məsələsinə münasibəti bu qənaətə gəlməyə əsas verir ki, rəsmlər yaxın gələcəkdə bu təşkilata qəbula hazırlaşmırlar. Çünki, ÜTT-yə münasibətin formalaşmasında çox sadə bir formul qüvvədədir və bunu həmin təşkilata üzv olan ölkələrin təcrübəsi də sübut edir. Belə ki, ÜTT-yə üzvlük o ölkələr üçün daha faydalıdır ki, onlar hazır məhsul ixrac və xammal idxal edirlər. Çünki, həmin ölkələr ÜTT-yə minnətdar olmaqla onlar öz məhsulları üçün yeni satış bazarlarına və bunun müqabilində həm də ucuz təbii resurslara daha yaxşı çıxış əldə edirlər. Əgər nəzərə alsaq ki,

Azərbaycanın ixrac məhsullarının funksional tərkibində neft və neft məhsullarının xüsusi çəkisi 90%-dən, idxal mallarının strukturunda isə hazır məhsulun payı 70%-dən çoxdur, onda bir həqiqət inkar olunmazdır ki, aparıcı sənaye dövlətləri – Azərbaycan xammalının başlıca ixracatçıları sözsüz ki, Azərbaycan bazarının dünya ölkələrinin «üzünə» açılmasından udurlar. Bir məqamı da diqqətdən qaçırmaq olmaz ki, BVF və Dünya Bankından fərqli olaraq ÜTT-nin şərtləri daha standartdır və bu təşkilatla sövdələşmək imkanları məhduddur. Bu o deməkdir ki, ÜTT-yə üzv olduqdan sonra vəziyyəti dəyişmək imkanları bizim təsir dairəmizdən çıxır və biz mütləq qaydalara əməl etmək məcburiyyətində qalırıq. Buna görə də ÜTT-yə girməmişdən əvvəl Azərbaycan İqtisadiyyatı belə dəyişikliklərə hazır olmalıdır. Bunun üçün ilk növbədə milli İqtisadiyyatın daxili strukturu və ölkənin biznes-mühiti barəsində fikirləşməliyik. Bu istiqamətdə ən ağrılı yerimiz aqrar sahə hesab oluna bilər.

Azərbaycanla IƏT arasında əməkdaşlığın təkmilləşdirilməsinə düzgün yanaşma, bu əməkdaşlıq əlaqələrinin inkişafı problemlərinin müəyyənləşdirilməsi və onların həlli yollarının axtarılmasına əsaslanmalıdır. Azərbaycanın IƏT ilə əməkdaşlığının təkmilləşdirilməsində başlıca problemlər aşağıdakılardır:

1) IƏT çərçivəsində Türkiyə, Iran və Pakistan arasında liderlik uğrunda rəqabətin getməsi;
2) təşkilatın qəbul etmiş olduğu və respublikamızı da əhatə edən layihələrin reallaşdırılmasını ləngidən səbəblərdən biri də üzv ölkələrin İqtisadi inkişaflarının müxtəlif istiqamətliliyi.

Azərbaycanla IƏT arasnıda əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üçün təşkilat daxilində islahatlar üzrə IƏT komissiyasının yaradılması məqsədəuyğun olardı. Komissiyanın vəzifələri Aşağıdakıları təyin edə bilər:

- üzv ölkələrin İqtisadi islahatlar təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;
- üzv ölkələrin milli təsərrüfatlarının İqtisadi-hüquqi şəraitinin yaxınlaşdırılması və yaxşılaşdırılması üçün konkret təkliflərin hazırlanması;
- həmin təkliflərin regionda tətbiqi mexanizminin müəyyən edilməsi və nəticələrin proqnozlaşdırılması.

Respublikamızda ticarət təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi istiqamətləri aşağıdakılardır:

1. Inteqrasiya qruplaşmaları ilə qarşılıqlı əlaqələrin yaradılması və inkişaf etdirilməsində Azərbaycanın vasitəçi səlahiyyətlərində çıxış etməsinə nail olmaq. Əlbəttə, ölkəmizin vasitəçi rolunu yerinə yetirməsi mənafelərinin daha çox nəzərə alınması baxımından səmərəli ola bilər və ölkənin beynəlxalq aləmdə nüfuzunu xeyli qaldırar. Perspektivdə bu cür vasitəçilik əməliyyatları respublikamızın üzv olmadığı başqa təşkilatlarla (ASEAN, Ərəb Məqribi, SAPK) nəqliyyat və ticarət sahəsində vahid tariflərin əldə edilməsi üçün şərait yaradar.

2. Azərbaycanın xarici ticarət təşkilatları çərçivəisndə qarşılıqlı investisiya fondları mərkəzinin yaradılmasına nail olması.

3. Təşkilatlar daxilində elmi-texniki siyasətin tənzimlənməsi üzrə xüsusi komitənin yaradılmasına nail olması. Azərbaycan özünün neft, kimya, neft maşınqayırması, kənd təsərrüfatı sahələrindəki elmi potensialının yox olmasını gözləmədən, onları bu komitə çərçivəsində istifadə və inkişaf etdirmək məqsədi ilə belə qurumun yaradılmasında təşəbbüsçü olmalıdır.

Beləliklə, Azərbaycanın xarici ticarət təşkilatları ilə əlaqələrinin təkmilləşdirilməsi, bu təşkilatlarla əməkdaşlığın genişləndirilməsi imkanları və istiqamətlərinin müəyyənləşdirilməsi və onların reallaşdırılması mexanizminin hazırlanması və tətbiqi gələcəkdə ölkəmizin ticarət əlaqələrinin artmasına, ixrac potensialından səmərəli istifadə edilməsinə və dünya İqtisadiyyatına inteqrasiyasına müsbət təsir göstərəcəkdir.

2.5. Xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Azərbaycan İqtisadiyyatının dünya təsərrüfat sistemində iştirakı əsasən xarıci ticarət və kapitalın idxalı üzrə baş verir, xarici İqtisadi fəaliyyətin digər mütərəqqi formalarından (elmi-texniki əməkdaşlıq, xarici turizm, SIZ-lərdə əməkdaşlıq, konsessıya sazişləri əsasında əməkdaşlıq və s.) ya zəif istifadə olunur və yaxud ya heç istıfadə olunmur. Belə ki, neft və neft məhsulları istisna olmaqla, digər məhsullar üzrə xarici ticarətdə mənfi saldo ilbəil artır. Qeyri-neft sektorunda sağlamlaşdırma və yenidənqurma işləri gücləndirilməzsə yaranmış mənfi meylin davam edəcəyi gözlənilir.

Son dövrdə ixracda xammal və aralıq məhsulların xüsusi çəkisi 85%-i keçmiş, son məhsulların xüsusi çəkisi müvafiq olaraq azalmışdır. Idxalda isə, əksinə, son məhsulların, xüsusilə, istehlak mallarının, maşın və avadanlıqların xüsusi çəkisi artmışdır.

Qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da qənaətbəxş hesab etmək olmaz. Belə ki, 2008-ci ildə Azərbaycanın 150-ə yaxın dövlət ilə tıcarət əlaqəsinə girməsinə baxmayaraq, xarici ticarət dövriyyəsinin 75,0%-dən çoxu cəmi 10-dan az sayda dövlətin payına düşür. Bu isə müəyyən hallarda bu dövlətlərin ölkəmizə siyasi və İqtisadi təzyiq göstərməsinə imkan verir.

Azərbaycanın isə İqtisadiyyatının dünya bazarından asılılığı çox yüksəkdir. Xarici ticarət şərtləri hər il Azərbaycanın xeyrinə dəyişsə də, bunu birmənalı şəkildə müsbət hal kimi qiymətləndirmək olmaz. Belə ki, bu müsbət dəyişmə əsasən ölkə İqtisadiyyatının idxalyönümlülüyü nəticəsində idxal qiymətləri indeksının aşağı düşməsi, son illərdə isə neft və neft məhsullarının dünya bazar qiymətlərinin artması ilə əlaqədar olaraq ixrac qiymətləri indeksinin kəskin şəkildə artması hesabına olmuşdur.

Son illərdə ölkə İqtisadiyyatına xarici investisiya qoyuluşu ümumi investisiya qoyuluşunun əsas hissəsini təşkil etmişdir. Lakin bununla belə, bu investisiya qoyuluşunun mütləq əksəriyyəti neft sektorunu və qismən də xidmət sahələrini əhatə etmişdir.

Qeyd etmək lazımdır ki, son dövrdə istehsalın texniki və texnoloci səviyyəsinin dünya standartlarından xeyli aşağı səviyyədə olması ilə əlaqədar olaraq istehsal olunan malların istər dünya bazarında və istərsə də daxili bazarda rəqabətə davamlı olması istiqamətində xeyli işlər görülmüşdür. Bu baxımdan yeni texnika və texnologiyalar Azərbaycana gətirilir.

Ölkənin beynəlxalq əmək bölgüsündəki üstünlüklərinin reallaşdırılması, inteqrasiya və kooperasiya əlaqələrinin yaratdığı imkanlardan tam və səmərəli istifadə etmək üçün konkret proqramlar hazırlanması və həyata keçirilməsi istiqamətində işlər uğurla davam etdirilir.

Ölkədə həyata keçirilən İqtisadi inkişaf siyasətinin elmi əsaslarını hazırlayarkən nəzərə almaq lazımdır ki, müvafiq sahədə mütərəqqi dünya təcrübəsinə əsaslanaraq, bu qənaətə gəlmək olar ki, perspektiv dövrdə Azərbaycan Respublikasının xarici İqtisadi əlaqələr strategiyası müasir qloballaşma şəraitinin tələblərinə uyğun olaraq beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə, o cümlədən ÜTT-nin tələblərinə əsaslanmaqla yanaşı, ölkədə keçid dövrünün xüsusiyyətlərini və mövcud sosial-İqtisadi durumu nəzərə almalı və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmuş açıq milli İqtisadi sistemin formalaşdırılması məqsədinə xidmət etməlidir.

Belə hesab edirik ki, həmin strategiyanın həyata keçirilməsi üsulu kimi isə struktur-investisiya və xarici İqtisadi siyasətlərin sintezi çıxış etməlidir. Bu nöqteyi-nəzərdən ölkədəki mövcud durumun araşdırılması göstərir ki, aşağıdakı üç problemi eyni zamanda həll etmək zərurəti qeyd edilən strategiyanın reallaşdırılması baxımından Azərbaycanın qarşısında duran vəzifələri mürəkkəbləşdirir:

- sistem transformasiyasının həyata keçirilməsi zərurəti;
- dövlət müstəqilliyinin bərpası və bazar münasibətlərinə keçidlə əlaqədar olaraq İqtisadiyyatın struktur yenidənqurulmasının zəruriliyi;
- müasir dövrün tələblərinə uyğun olaraq milli İqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunmasının zəruriliyi.

Məlum olduğu kimi, artıq birinci və üçüncü problemlərin həlli istiqamətində müəyyən nailiyyətlər əldə edilmişdir. Sistem transformasiyasının həyata keçirilməsi istiqamətində xeyli işlər görülmüş və xarici İqtisadi fəaliyyətin liberallaşdırılması istıqamətində mühüm addımlar atılmışdır. Lakin bunun müqabilində struktur yenidən qurulması sahəsində isə, demək olar ki, nəzərəçarpacaq nailiyyətlər əldə olunmamışdır. Nəticədə həmin üç problemin həlli sürətlərinin müxtəlifliyinin təsirilə İqtisadiyyatdakı struktur disproporiya-

larının daha da dərinləşməsi baş vermiş, bu isə əvvəlki bölmələrdə göründüyü kimi ölkənin xarici İqtisadi əlaqələrində də öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanın dünya bazarlarında mövqelərinin zəifliyi əsasən milli istehsalın rəqabətqabiliyyətinin aşağı səviyyədə olması ilə yanaşı, ölkənin qeyri-neft sektorunda ixrac potensialının inkişafının və ixracın stimullaşdırılması üzrə məqsədyönlü və ardıcıl siyasət tədbirlərinin həyata keçirilməsinə də lazımi diqqət yetirilmir. Bu isə, xarici İqtisadi əməkdaşlıq sferasında vəziyyətin daha da mürəkkəbləşməsinə gətirib çıxara bilər. Belə ki, bu vəziyyət xarici investorlar üçün maraqlı olan yanacaq-xammal kompleksinin birtərəfli qaydada inkişafına, xarici İqtisadi əməkdaşlığın "müstəmləkə" strukturunun möhkəmlənməsinə yol aça bilər.

Qeyd etmək lazımdır ki, ixracın İqtisadi artıma stimullaşdırıcı təsiri əldə edilən gəlirlərin artım potensialı yüksək olan sahələrin canlandırılmasına və qabaqcıl texnologiyalı yeni istehsalların qurulmasına yönəldilməsi şərti daxilində baş verə bilər. Başqa sözlə desək, sırf xarici İqtisadi tənzimləmə tədbirləri vasitəsilə dünya təsərrüfatına inteqrasıyanın struktur problemlərinin həll edilməsi mümkün deyildir. Həmin vəzifənin icrası sahə-struktur prioritetlərinin reallaşdırılmasını hədəfləyən sənaye siyasətinə əsaslanmalıdır. Yəni, ölkəmizin qarşısında duran vəzifə nəyin bahasına olursa-olsun beynəlxalq İqtisadi əməkdaşlığı genişləndirmək deyil, mövcud potensialımıza uyğun olaraq dinamik müqayisəli üstünlüklərə əsaslanaraq, qlobal təsərrüfata üzvi şəkildə qovuşmaq olmalıdır.

Belə ki, müasir dövrdə xarici İqtisadi əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi problemi ölkə İqtisadiyyatının struktur yenidən qurulmasının həyata keçirilməsi ilə qarşılıqlı şəkildə həll edilməlidir. Həm də bu zaman struktur siyasəti daha ön mövqeyə çıxarılmalıdır.

Tamamilə aydındır ki, qısa və ortamüddətli dövrdə İqtisadi siyasətə bu cür yanaşma xarici İqtisadi fəaliyyətin tənzimlənməsinə proteksionizm elementlərinin daxil edilməsini zərurətə çevirmiş olur. Bu zaman İqtisadiyyatın sistem transformasiyasının başa çatdırılmasını da diqqətdən kənarda qoymaq olmaz. Məhz bu vəzifənin yerinə yetirilməsi əsl bazar və səmərəli rəqabət mühitinin formalaşmasını təmin edə bilər ki, bu da öz növbəsində düşünülmüş proteksionizm tədbirlərinə əsaslanan xarici İqtisadi siyasətin təsirini artırmış olur. Əks təqdirdə, daxili bazarın himayəsi yalnız səmərəsiz istehsal şəraitinin qorunmasına, ölkənin istehsal bazasının zəifləməsinə və yenə də xarici bazarlardan asılılığın güclənməsinə gətirib çıxara bilər. Çünki struktur prioritetləri düzgün müəyyənləşdirilmədiyinə görə inkişaf elementləri zəif olan sahələrə proteksionizm tədbirləri çərçivəsində maliyyə və digər yardımların edilməsi hər hansı bir effekt verməz və əksinə ağır nəticələrə gətirib çıxara bilər.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, bazar münasibətlərinə uyğun olaraq həyata keçirilən struktur yenidənqurulmasına təkcə indiki mərhələnin məqsədi kimi baxılmamalıdır. Bu proses sənayecə inkişaf etmiş bütün ölkələrdə

daimi xarakter daşıyır və müasir dövrdə İqtisadi tərəqqinin zəruri minimum şərti kimi çıxış edir. Mövcud durumu nəzərə alsaq, əsas diqqət, fikrimizcə, dünya təsərrüfatına struktur uyğunlaşma vəzifəsi üzərində cəmləşdirilməlidir. Məqsəd ayrı-ayrı rəqabətqabiliyyətli istehsalların qurulması deyil, özünüinkişaf qabiliyyətinə malik və bütövlükdə rəqabətqabiliyyətli milli təsərrüfat sisteminin formalaşdırılması olmalıdır. Dövlət tənzimlənməsi miqyasının azaldılması və xarıci İqtisadi əlaqələrin daha da liberallaşdırılması yalnız bu məsələ həll edildikdən sonra gündəliyə çıxarıla bilər.

Bu baxımdan, Asiyanın Yeni Sənaye Ölkələrinin təcrübəsini öyrənmək və nəzərə almaq əhəmiyyətli olardı. Belə ki, bu ölkələrin dünya İqtisadiyyatına inteqrasiyası idxalın liberallaşdırılması yolu ilə deyil, ixracın stimullaşdırılmasından başlanmışdı. Ixracatçılar mütəmadi olaraq mövcud duruma uyğunlaşdırılan bir sıra güzəştlərdən istifadə edirdilər. Perspektivdə ixrac istehsalının inkişafını təmin edəcək istehlak olunan idxal malları üçün güzəştli recim tətbiq olunur, yeridilən siyasət baxımından səmərəsiz hesab edilən idxal isə məhdudlaşdırılır və hətta birbaşa qadağan olunurdu. Bu ölkədə milli ixrac potensialının əsasını təşkil edən İqtisadiyyatın qabaqcıl sahələrinə aid bir sıra müəssisələr ilk mərhələdə, hətta, dövlət investisiyaları hesabına qurulur və sonradan tədricən özəlləşdirilirdi.

Ümumiyyətlə, bu ölkələrin İqtisadi inkişaf strategiyalarına xas olan ümumi cəhət məhz inkişaf səviyyəsinin yüksəlməsinə mütənasib şəkildə, tədricən ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması siyasətindən idxalın liberallaşdırılmasına keçid olmuşdur. Bundan başqa isə, birinci bölmədə müvafiq məlumatlar əsasında ölkənin təbii-İqtisadi potensialının qiymətləndirilməsini apararkən gördük ki, Azərbaycanın bir sıra təbii ehtiyatları və həmçinin sənaye sahələrinin potensial istehsal gücləri, ölkənin daxili bazarının istehlak imkanları müqabilində kifayət qədər böyükdür. Elə bu da ölkənin xarici İqtisadi siyasətinin, ilk növbədə, ixracyönümlü olmasını şərtləndirən ümumi faktor kimi (bunun ümumi faktor olduğunu xüsusilə vurğulayırıq) çıxış edir.

Idxal siyasətinin müəyyən edilməsi zamanı konkret malların nəinki istehsalındakı mövcud durum nəzərə alınmalı, eyni zamanda, həmin malların milli İqtisadiyyatın strukturundakı yeri və beynəlxalq əmək bölgüsü baxımından perspektivləri də nəzərə alınmalıdır.

Ayrı-ayrı mallara münasibətdə proteksionist recim konkret məqsəd daşımalı və bu məqsəd əldə olunduqca yumşaldılmalıdır. Investisiya resurslarımızın qıtlığı müvafiq siyasətin, bir qayda olaraq, artımın təkanverici qüvvəsi olan ixracın "lokomotivləri" olan sahələrə və istehsallara yönəldilməsini tələb edir. Bu öncül istiqamətlər isə dövlət orqanları ilə sahibkarlıq qurumlarının sıx əməkdaşlığı nəticəsində aşkara çıxarılmalıdır.

Bir sözlə, milli İqtisadiyyatın inkişafı üçün vasitə olan xarici İqtisadi əlaqələrin inkişafı problemlərinə ölkə İqtisadiyyatının kompleks inkişaf strategiyasının tərkib hissəsi kimi baxılmalıdır. Buna görə də hesab edirik ki, xarici

İqtisadi əlaqələrin inkişafı, ilk növbədə, bu sahə üzrə siyasətin sistemliliyinin təmin edilməsindən asılıdır. Bunun üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin görülməsi məqsədəuyğun sayılır:

1. Ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu müqayisəli üstünlüklər qiymətləndirilərək, bu əsasda həm ixracyönümlü və həm də idxalı əvəz edən istehsal və xidmət sahələri müəyyənləşdirilməli və beləliklə, ölkədə müstəqil İqtisadi sistemin tələblərinə uyğun struktur yenidənqurulmasının prioritet istiqamətlərinin müəyyən edilməsi (bu zaman ölkənin istehsal və xidmət sahələrinin qarşılıqlı surətdə inkişafının təmin edilməsi probleminə xüsusilə diqqət yetirmək vacibdir) və bu istiqamətlər üzrə proseslər;

2. Ölkədə struktur yenidənqurulmasının priorıtet istiqamətlərinə uyğun olaraq, elmi-texniki potensialın da üstün inkişaf etdirilməsinə diqqətin artırılması (belə ki, müasir dövrdə müqayisəli üstünlüklərin tədricən texnoloci yeniliklərə doğru dəyişdiyini nəzərə alaraq, ixracın əmtəə tərkibində emaledici sahənin, əsasən də elm və kapitaltutumlu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli hesab olunur. Əgər nəzərə alsaq ki, bu məqsədin reallaşması digər şərtlərlə yanaşı, ölkədə elmi-texniki potensialın inkişaf etdirilməsindən əsaslı şəkildə asılıdır, o halda, ölkədəki elmi-texniki potensialın ölkənin dünya təsərrüfat sistemində mövqeyinin möhkəmləndirilməsinin mühüm vasitəsi kimi, ümumiyyətlə, davamlı İqtisadi inkişafın təminatçısı kimi gücləndirilməsi zərurətini əsaslandırmağa ehtiyac qalmaz);

3. Milli İqtisadiyyatın struktur yenidənqurulmasının prioritetləri əsas götürülməklə, ölkənin sahəvi və regional kəsimdə investisiya xəritəsinin hazırlanması (o cümlədən, xarici investisiyaların stimullaşdırıldığı, qadağan olunduğu və az səmərəli hesab olunduğu sahələr müəyyənləşdirilməlidir) və investisiyaların prioritet verilən sahələrə cəlb olunmasının həvəsləndirilməsı.

Qeyd etmək lazımdır ki, ölkədə xarici İqtisadi əlaqələrin infrastrukturunun inkişaf etdirilməsində ixracın kreditləşdirilməsi və sığortalanması sisteminin inkişaf etdirilməsi və ixracın inkişafına yardımçı olan bazar (marketinq, reklam, konsaltinq, qiymətləndirmə, gömrük brokeri və s.) və texniki (gömrük nəzarəti, o cümlədən məhsulların keyfiyyətinə nəzarət, sertifikatlaşdırma və s.) infrastruktur sahələrinin inkişaf etdirilməsi olduqca vacibdir.

Bundan başqa, xarici İqtisadi proseslərlə bağlı (dünya əmtəə bazarlarının konyunkturu, onların proqnozu, xarici ölkələrin təsərrüfat qanunvericiliyi, gömrük recımi və s. ilə əlaqədar) informasiyanın toplanması, işlənməsi və yayılması sisteminin qurulması istiqamətində işlər aparılmalıdır.

Son dövrdə respublikada aparılan uğurlu islahatlar nəticəsində ölkə İqtisadiyyatına xarici investisiyaların portfel investisiyalar formasında da cəlb edilməsini canlandırmaq məqsədilə qiymətli kağızlar bazarının və fond bircasının fəaliyyətinin gücləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Bank sektorunun, xarici investorların cari və eləcə də digər maliyyə ehtiyaclarını vaxtında və əlverişli şərtlərlə ödənilməsi də nəzərə alınmaqla, inkişaf etdirilməsi məsələsinə xüsusi diqqət yetirilir.

Bundan başqa TMK-larla və digər iri beynəlxalq şirkətlərlə əməkdaşlıq sənayenin qeyri-neft bölməsində də inkişafa səbəb olmuşdur. Bu baxımdan, kimya və neft-kimya, maşınqayırma, xüsusilə də neftmaşınqayırması, cihazqayırma, yüngül və yeyinti sənayesi sahələrində belə əməkdaşlıq imkanları genişlənir.

Qeyd etmək lazımdır ki, bu problemlərin həllində milli İqtisadiyyatın rəqabət gücünün yüksəldilməsi məqsədilə ixrac qabiliyyətli və idxalı əvəz edə bilən mütərəqqi istehsal sahələrinin inkişafının stimullaşdırılması və qlobal proteksionizm meyllərinin ölkəmizə mümkün mənfi təsirlərini neytrallaşdırmaq məqsədilə sosial-İqtisadi, texniki-istehsal, elmi-texniki və ekoloji siyasətin həmin sahələrdə dünya standartlarına nail olunmasına yönəldilməsi olduqca vacibdir. Bundan əlavə, xarici İqtisadi fəaliyyətin milli tənzimlənmə sisteminin hüquqi-normativ bazasının beynəlxalq hüquq normaları və mütərəqqi dünya təcrübəsi, o cümlədən ÜTT-nin tələbləri əsasında tamamlanması və təkmilləşdirilməsi məsələlərinə xüsusi əhəmiyyət verilir.

Müasir dövrdə ölkənin xarici İqtisadi əlaqələrinin inkişafında regional və beynəlxalq İqtisadi birlik və təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsi də əhəmiyyətli rol oynayır.

Hazırda dünya üzrə çoxlu sayda beynəlxalq və regional İqtisadi birlik və təşkilatlar mövcuddur. Onların bəziləri böyük səlahiyyətlərə və resurslara malik olmaqla beynəlxalq və regional səviyyədə İqtisadi, o cümlədən valyuta-kredit və maliyyə münasibətlərinin tənzimlənməsini həyata keçirir, digərləri isə İqtisadi siyasət üzrə hökumətlərarası müzakirələrin təşkili, məsləhətləşmələrin aparılması və konsensus hazırlanması üçün forum kimi çıxış edir, üçüncülər isə aktual İqtisadi problemlər üzrə informasiya yığılmasını və statistik və elmi nəşrlərin hazırlanmasını təmin edir. Bəzi beynəlxalq və regional İqtisadi birlik və təşkilatlar isə öz səviyyələrində sadalanan bu funksiyaların bir neçəsi və ya hamısı ilə məşğul olur.

Eyni zamanda, müasir dövrdə ümumilikdə dünya və ayrılıqda konkret ölkələrin İqtisadiyyatlarının inkişafında beynəlxalq və regional İqtisadi birlik və təşkilatların rolu getdikcə artmaqdadır. Bu aşağıdakılarla şərtlənir:

Dünya ölkələrinin təcrübəsi göstərir ki, bazar İqtisadiyyatına keçən ölkələrdə İqtisadi transformasiyanı aparmaq, ölkə İqtisadiyyatının gələcək inkişafını təmin etmək, metodoloci çətinlikləri aradan qaldırmaq, mütərəqqi idarəetmə təcrübəsinə yiyələnmək və müasir texnika və texnologiyanı mənimsəmək üçün maliyyə və texniki yardıma böyük ehtiyac duyulur. Məlum olduğu kimi, ilk növbədə beynəlxalq maliyyə təşkilatları, xüsusən də BVF-lə əməkdaşlıq ölkəyə xarıci kapitalın axınına təkan verir. Bu da keçid İqtisadiyyatlı ölkələrin beynəlxalq və regional İqtisadi birlik və təşkilatları ilə əməkdaşlığını zərurı edir.

Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlar və birliklərlə əməkdaşlığının müasir dövrdəki xüsusiyyətlərinin təhlili göstərdi ki, bu əməkdaşlıq əsasən beynəlxalq təşkilatlarla əməkdaşlıq üzrə daha üstün

mövqeyə malik olmuşdur. Öz növbəsində, bu istiqamət üzrə əməkdaşlıq da daha çox islahatların dəstəklənməsi, maliyyə sabitliyinin təmin edilməsi, sosial və infrastruktua sahələrinin inkişafı problemlərinə yönəldilmiş texniki və maliyyə yardımları göstərilməsi ilə məhdudlaşmışdır. Buna görə də ölkəmizin bu qurumlarla əməkdaşlığının səmərəliliyinin daha da artırılması və bu əməkdaşlığın digər istiqamətlər üzrə də genişləndirilməsi, ümumiyyətlə, bu istiqamətdə görülən işlərlə ölkənin xarici İqtisadi əlaqələrinin digər formalarının inkişaf istiqamətləri üzrə görülən işlərin sıx əlaqələndirilməsinə ciddi ehtiyac duyulur.

Aparılan nəzəri və faktiki təhlilin nəticələrinə əsaslanaraq və dünya təcrübəsini nəzərə alaraq bu qənaətə gəlirik ki, hazırda Azərbaycanda davamlı İqtisadi artımın təmin olunması, İqtisadiyyatın struktur yenidənqurulması və dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından beynəlxalq və regional İqtisadi birlik və təşkilatlarla əməkdaşlığın potensial imkanlarından tam və səmərəli istifadə olunması üçün ölkədə bu sahədə aparılan siyasətin aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilməsi və inkişaf etdirilməsi məqsədəuyğun olardı:

- alınmış kreditlərin layihələr üzrə məqsədyönlü istifadə olunmasına operativ nəzarətin gücləndirilməsi;
- ölkə İqtisadiyyatının inkişafında mühüm rol oynayan sahələrə texniki və maliyyə yardımı göstərilməsi haqqında beynəlxalq və regional maliyyə təşkilatları ilə razılaşmalar əldə edilməsi;
- istehsal, xidmət və bazar infrastruktur sahələrinin dünya standartları əsasında modernləşdirilməsi və inkişaf etdirilməsi üçün beynəlxalq və regional maliyyə təşkilatlarının imkanlarından maksimum yararlanmaq;
- ölkənin Abşeron İqtisadi rayonu ilə yanaşı digər rayonlarında da İqtisadi həyatı canlandırmaq üçün bu rayonlarda səmərəli istehsal sahələrini müəyyənləşdirmək və bu sahələrə kreditlər cəlb etmək məqsədi ilə beynəlxalq maliyyə təşkilatları ilə məqsədyönlü iş aparılması;
- qeyri-neft sektorunda istehsalın səviyyəsi və səmərəliliyinin yüksəldilməsində gözlənilən nəticənin əldə olunmaması bu istiqamətdə aparılan islahatların dərinləşdirilməsini obyektiv zərurətə çevirir və beynəlxalq maliyyə təşkilatları ilə keyfiyyətcə yeni layihələr üzrə əməkdaşlığı aktuallaşdırır. Bu əsasda ikinci özəlləşdirmə proqramının qəbulu və həyata keçirilməsində BVF və DB qrupu ilə əməkdaşlıq mühüm rol oynaya bilər. BVF və DB qrupunun bu istiqamətdə qabaqcıl təcrübəsi özəlləşdirmənin daha səmərəli həyata keçirilməsinə və real sektorun inkişafına kömək edə bilər.

Qeyd etmək lazımdır ki, beynəlxalq İqtisadi təşkilatlarla əməkdaşlığın gələcəkdə daha da səmərəli olması üçün, BƏT-lə əməkdaşlığın uğurlu təcrübəsindən istıfadə etmək lazımdır. Bu təcrübədən xüsusilə ÜTT ilə əməkdaşlıq çərçivəsində istifadə etmək zəruridir. Məsələn, ölkəmizin ÜTT-yə perspektiv üzvlüyü istiqamətində görülən işlərin texniki, informasiya və s.

bazasının gücləndirilməsi məqsədilə bu qurumun müvafiq yardımlar etməsinə nail olmaq məqsədəuyğun hesab edilir.

Ölkənin MDB, GUÖAM, QDHÖT, IƏT, ITK kimi regional İqtisadi təşkilatları çərçivəsində fəallığının gücləndirilməsinin mühüm əhəmiyyəti vardır.

Dünya təcrübəsinin təhlili göstərir ki, müasir dövrdə beynəlxalq İqtisadi əməkdaşlıq sistemində mövcud olan normaların, qaydaların, işgüzar təcrübənin mənimsənilməsi zərurətini dərk etməyən, xarici İqtisadi fəaliyyətin tənzimlənməsinin hüquqi, inzibati-təşkilati və İqtisadi əsaslarının dünya təcrübəsi ilə unifikasıyasına cəhd göstərməyən istənilən ölkə, özü İqtisadi əməkdaşlıq potensialının tam şəkildə istifadəsinə əngəllər törətmiş olur. Məhz buna görə də, ölkəmizdə xarici İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin əsas istiqamətlərindən bırini istifadə olunan tənzimləmə tədbirlərinin dünya təcrübəsi ilə uyğunluğunun təmin edilməsi təşkil etməlidir.

Lakin bu zaman bir məqamı yaddan çıxarmaq olmaz ki, dünya təcrübəsinə görə, milli İqtisadiyyatdakı problemlərin kəskinləşdiyi, habelə dünya təsərrüfatının konyunkturunun pisləşdiyi dövrlərdə dövlətin tənzimləyici rolu mütləq şəkildə artır. Belə ki, 1946-57-ci illərdə Qərbi Avropa ölkələrində bərpa işləri aparılarkən və müasir bazar mexanizmləri qurularkən xarici ticarətin tənzimlənməsinin çoxşaxəli və təsirli sistemindən istifadə edilirdi. Sonralar da məsələn, 1980-90-cı illərin qovşağındakı İqtisadiyyatın böhranlı vəziyyəti "ticarət müharibələrinin" və proteksionizmin güclənməsinə təkan vermişdi.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, müasir dövrdə xarici İqtisadi fəaliyyətin tənzimlənməsində həm sərhəddə, həm də daxildə fəaliyyət göstərən, bir-biri ilə qarşılıqlı əlaqədə olan tənzimləmə vasitələrindən kompleks şəkildə istifadə edilməsi daha effektlidir. Bu zaman sərhəddəki, yaxud daxildəki tənzimləmə vasitələrinin rolu, habelə onların hər birində nəzərdə tutulan tədbirlər (inzibati, İqtisadi) arasındakı nisbət konkret vəziyyətdən asılı olaraq müəyyən edilir. Burada misal kimi, Avropa İqtisadi Birliyi çərçivəsində tənzimləmənin gücünün gömrük rüsumlarından vergi və valyuta siyasətinə keçirilməsini, Yaponiyada avtomobil idxalının sərhəddəki sərt tənzimlənməsindən daxili texniki maneələrə keçidi, ABŞ-da isə gömrük siyasəti ilə müqayisədə kredit siyasətindən daha fəal istifadə edilməsini göstərmək olar.

Bu zaman nəzərə almaq lazımdır ki, malların qiymətlərinə və bu yolla da tıcarət dövriyyəsinin həcminə təsir edən İqtisadi vasitələrin tənzimləyici imkanlarının müəyyən hüdudları mövcuddur. Onlar, bir qayda olaraq, növbəti şərtlər daxilində səmərəli fəaliyyət göstərə bilirlər: real və sabit valyuta məzənnəsi, daxili qiymətlərin dəyişməsinin aşağı və gözlənilə bilən templəri, ölkə bazarında tələblə təklif arasında ciddi disproporsıyaların (ilk növbədə, qıtlığın) mövcud olmaması, tədiyyə balansının normal vəziyyəti. Bu şərtlər, bəzən isə hətta onlardan biri belə təmin edilmədikdə dəyər tənzimləyicilərinin təsir qüvvəsi zəifləyir və inzibati tənzimləyıcılərdən istifadə zərurəti yaranır.

Hal-hazırda dövlətlər tənzimləmənin inzibati alətlərindən həddən artıq gərgin rəqabət mübarizəsi aparıldığı, yerli malların satışı sahəsində mürəkkəb vəziyyətin ortaya çıxdığı bazarlarda daha sərt şəkildə istifadə edirlər. Məsələn, İqtisadi cəhətdən inkişaf etmiş dövlətlər ixracın "könüllü" məhdudlaşdırılması, habelə xüsusi qoruyucu tədbirlər formasında kəmiyyət məhdudiyyətlərini avtomobil, məişət radıoelektronikası, qara metallar, toxuculuq malları, geyim, ayaqqabı və bir sıra digər bazarlarda fəal tətbiq edirlər. Bu isə həmin bazarlar üzərində birbaşa inzibati nəzarətin mövcudluğunu, daha dəqiq desək, dünyanın bir çox əmtəə bazarlarının inzıbati metodlar vasitəsilə bölüşdürüldüyünü əks etdirir.

Bir sözlə, əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin müasir xarici tıcarət siyasətinin düşünülmüş proteksionizm formasında həyata keçirildiyi artıq heç kəsdə şübhə doğurmur.

Dünyanın bir çox ölkələrində tənzimləyici dövlət orqanlarının sənayenin, kənd təsərrüfatının, xidmətlər sferasının və istehlakçıların maraqları haqqında xəbərdar edən mexanizmləri formalaşmış və səmərəli şəkildə fəaliyyət göstərməkdədirlər. Məhz bunların sayəsində də xarici ticarət sferasında sahibkarlar, habelə onlarla hakımiyyət orqanları arasında ziddiyyətlər və fikir ayrılıqları minimum həddə endırilmişdir. Bu da xarici İqtisadi siyasətin qarşısına qoyduğu vəzifələrin uğurlu həlli üçün əlverişli şəraiti təmin etmiş olur.

Göründüyü kimi, həm dünya ölkələrinin təcrübəsi, həm də həll edilməli olan məsələlərin mürəkkəbliyi ölkəmizdə xarici İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin kompleks və mərhələli xarakter daşımasını tələb edir.

Artıq qeyd etdiyimiz kimi, ölkəmizdə davamlı İqtisadi inkişafın təmin olunmasının optimal yolu xarici bazarlara istiqamətlənmiş inkişaf strategiyasına əməl edilməsindən ibarətdir. Bu isə ölkəmizdə xarici İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi mexanizmində ixrac istiqamətinə xüsusi diqqət yetirilməsini tələb edir. Həmin istiqamətdə əlaqədar orqanların fəaliyyəti bir tərəfdən ixracın stimullaşdırılması, digər tərəfdən isə onun inkişafının məqsədyönlü şəkildə tənzimlənməsi üzərində cəmləşdirilməlidir.

Məlum olduğu kimi, ixracın dövlət tənzimlənməsindən hazırda müxtəlif vəzıfələrin, o cümlədən İqtisadiyyatın predmetindən kənar məsələlərin (hərbi, insanların sağlamlığının qorunması, təbiətin, milli, mədəni, tarixi və arxeoloci dəyərlərin mühafizəsi və s.) həlli yolunda istifadə edilir. Baxılan aspektə ölkəmizdə qurulmuş ixracın tənzimlənməsi mexanizmini məqbul hesab etməklə, tədqiqatımızda əsas diqqəti tənzimləmənin İqtisadi məqsədləri və onlara çatma vasitələri üzərinə yönəldəcəyik.

Bu məqsədlərə, hər şeydən əvvəl, xammal şəklində məhsulların ixracını məhdudlaşdırmaqla ölkənin təbii ehtiyatlarından səmərəli istifadəni, habelə milli istehsalçıların həmin xammalla təchizatının öncüllüyünün təmin edilməsini, məşğulluq səviyyəsinin yüksəldilməsini və əhalinin yerli məhsullara

tələbatının münasib qiymətlərlə sabit şəkildə təmin olunmasını, valyuta gəlirlərinin artırılmasını və onun mədaxilinə nəzarət edilməsini aid etmək olar.

Tənzimləmə sisteminin təkmilləşdirilməsi istiqamətində görülməli olan tədbirlər arasında, ixrac olunan məhsulların və xidmətlərin qiymətləri üzərində nəzarət mexanizminin gücləndirilməsini də göstərmək olar. Həmin mexanizm əsasən iki vəzifənin həllinə - ölkənin valyuta mədaxilinin artırılmasına və yerli istehsalçıların dempinqdə günahlandırılmasına yol verilməməsinə yönəldilməlidir.

Dünya bazarlarında rəqabətin güclənməsi, istehlakçıların məhsulların keyfiyyətinə, təhlükəsizlik parametrlərinə münasibətdə tələbinin ciddiləşməsi "Azərbaycan malı" markasının məqbul imicinin formalaşdırılması, ona inamın artırılması və bu əsasda ixracımızın genişləndirilməsi məqsədilə xarici bazarlara göndərilən məhsulların keyfiyyəti və beynəlxalq standartlara uyğunluğu üzərində dövlət nəzarət mexanizminin tətbiqini qarşımızda duran mühüm vəzifələrdən birinə çevirir. Müvafiq mexanizmdən həm İqtisadi cəhətdən inkişaf etmiş (Yaponiya, ABŞ və s.), həm də ən geridə qalan ölkələrdə belə istifadə olunur. Məsələn, Banqladeşdə bu cür nəzarətə bir sıra kənd təsərrüfatı məhsulları və sadə elektronika məmulatları cəlb edilir.

Belə ki, baxılan mexanizmin rolu ölkəmizin ixracında dərin emal səviyyəli, mürəkkəb texniki xassələrə malik olan malların payının artmasına mütənasib olaraq güclənəcəkdir. Lakin qeyd etdiyimiz sonuncu məqam hazırkı dövrdə belə ona etınasız yanaşmanın yanlış olduğuna dəlalət edir.

Qeyd etmək lazımdır ki, tənzimləmə sisteminin təkmilləşdirilməsi istiqamətində atılmalı olan zəruri addımlardan biri də dərin emaldan keçmədən ixrac edilən məhsullara məqsədli vergilərin tətbiq edilməsi ola bilər. Bu vergilərin dərəcələri aşağı həddlərdə (təxminən 1,5-3%) müəyyən edilə bilər və toplanan vəsait xarici İqtisadi sferaya aid (məsələn, ixrac potensialının artırılması, ixracın keyfiyyət parametrlərinin sağlamlaşdırılması sahəsindəki) proqramların maliyyələşdirilməsinə yönəldilə bilər.

Azərbaycanın xarici İqtisadi fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi sahəsində atılan addımlar sırasında idxalın tənzimlənməsi istıqamətınə də xüsusi diqqət yetirilməlidir. Bu zərurət, hər şeydən əvvəl, idxalımızın keyfiyyət parametrlərinin uzunmüddətli inkişaf maraqlarımıza cavab verməməsi reallığından doğur.

Liberal ticarət-İqtisadi münasibətlərin hegemon olduğu dünya təsərrüfatına inteqrasiyanın ölkəmiz qarşısında duran başlıca vəzifələrdən bırınə çevrilməsi idxalın tənzimlənməsi mexanizmində əsas mövqelərə gömrük-tarif alətlərinin çıxarılmasının vacibliyini şərtləndirir.

Mövcud şəraitdə müvafiq gömrük-tarif siyasətinin başlıca məqsədi, idxalı milli İqtisadiyyatımızın emaledici sahələrinin rəqabət qabiliyyətinin artırılmasının, ixrac imkanlarının genişləndirilməsinin, daha dərindən baxdıqda isə, bütövlükdə İqtisadi artımın təsirli amilinə çevirməkdən ibarət olmalıdır. Hazırkı dövrdə bir tərəfdən milli İqtisadiyyatımızın modernləşdirilməsi məqsədilə

işgüzar və investisiya fəallığının artırılması üçün əlverişli şərait təmin edilməli, digər tərəfdən isə, öncül istehsalların yenidən qurulması müddətində proteksionizm tədbirlərindən rəqabət mühitinə xələl gətirmədən, zəruri hədlərdə istifadə edilməlidir.

Milli İqtisadiyyatın təşəkkülü prosesinin davam etdiyini, böhranın nəticələrinin tam aradan qaldırılmadığını, habelə ÜTT-yə üzvlüyün gələcək dövrdə qarşımızda duran vəzifələrdən biri olduğunu nəzərə alsaq, fikrimizcə, ölkəmizdə hazırkı mərhələdə baxılan strategiyaya əməl edilməsi məqsədəuyğun hesab edilə bilər. Dünya təcrübəsi də qeyd olunan strategiyanın həyatiliyinə dəlalət edir. Belə ki, İqtisadiyyatın inkişafının öncül vəzifələrindən asılı olaraq yerli istehsalçıların tarif müdafiəsinin sellektiv şəkildə aparılmasının xarakterik olduğu inkişaf etmiş ölkələr və daha sürətlə inkişaf etməkdə olan ölkələr məhz bu cür strategiyadan istifadə edirlər.

Genişmiqyaslı bazar islahatlarını həyata keçirən, o cümlədən böhranın nəticələrini aradan qaldırmağa müvəffəq olmuş keçid İqtisadiyyatlı ölkələr də son dövrlərdə əsasən sellektiv tarif siyasəti prinsiplərinə istinad edirlər. Bu ölkələrin əksəriyyəti (məsələn, Polşa, Çexiya, Macarıstan və s.) islahatların ilkin mərhələsində xarıci ticarət sferasının liberallaşdırılmasını ön plana çəkmiş, lakin sonralar düşünülmüş, sellektiv proteksionist siyasətə keçidin zəruriliyini dərk etmişlər.

Təəssüflər olsun ki, ölkəmizdə yerli istehsalın sellektiv tarif müdafiəsi sahəsindəki vəziyyət (o cümlədən tarif eskalasiyası prinsipinin tam şəkildə tətbiqi) heç də mövcud reallıqlara cavab vermir.

Milli tarif sistemimiz proteksionist deyil, əsasən fiskal funksiya daşıyır. Bu cür qeyri-qənaətbəxş vəziyyətin ildən-ilə dəyişməz qalmasının əsas səbəblərindən bıri kimi isə, fikrimizcə, məhz vergi ödəyicilərinin daxili vergilərin ödənilməsi sahəsindəki intizamının zəif olması çıxış edir. Təbii ki, belə bir şəraitdə idxal rüsumları dövlət büdcəsinin ən etibarlı və sabit mədaxil mənbəyi kimi nəzərdən keçirilir.

Hazırki mərhələdə baxılan yönümdə yeridilən tarif siyasəti çərçivəsində tarif dərəcələri sisteminin diversifikasiyası gücləndırilməlidir. Bu, bir tərəfdən, daha çevik proteksionist sıyasətini həyata keçirməyə, digər tərəfdən isə ÜTT-yə üzvlük istıqamətində aparılacaq danışıqların səmərəliliyini artırmağa imkan vermiş olar.

Bu məqsədlə advalor gömrük rusumlarının əsasən 5 faiz addımla dəyiş-məsinin mövcud qaydasından imtina edilməli və onların daha qısa intervalla fərqləndırilməsi təcrübəsindən istifadə edilməlidir.

Bütövlükdə İqtisadiyyatın total liberallaşdırılması dövründə qiymətlər sisteminin və real sektorun gəlirlilik mənzərəsinin təhrif olunması üzündən milli İqtisadiyyatın həqiqi öncül istiqamətlərini müəyyən etmək heç də həmişə mümkün olmurdu.

Bu da ölkədəki idxal tariflərinin diferensasiyası dərəcəsinin inkişaf etmiş ölkələrlə müqayisədə hazırda qat-qat aşağı olmasına gətirib çıxarmışdır. Məsə-

lən, mövcud advalor rüsumların dərəcələri məhdud sayda (əsasən 0, 5, 10, 15, 30%) rəqəmlərlə ifadə olunmaqdadır.

Qeyd olunan xarici ölkələrdə isə milli təsərrüfatın çevik struktur tənzimlənməsinin obyektiv tələblərinə cavab olaraq rüsum dərəcələrinin diapazonu kifayət qədər geniş müəyyən edilir.

ÜTT-yə daxil olduğumuz zaman tarif dərəcələri səviyyəsini bütövlükdə aşağı salmaq məcburiyyəti ilə üzləşəcəyimizin qaçılmaz həqiqət olması ölkəmizdə müvafiq dərəcələrin diversifikasiyasının gücləndirilməsinin zəruriliyini şərtləndirən əsas məqamlardan biridir.

Advalor dərəcələrin fərqləndirilməsinin hal-hazırda istifadə olunan prinsiplərinə (5 faiz addımla dəyişmə) bundan sonra da əməl edilməsi tarif siyasətimizin çevikliyinin azalmasına və tariflərin "bağlanması" üzrə danışıqlar prosesinin çətinləşməsinə gətirib çıxara bilər.

Hazırkı mərhələdə idxal tariflərinin fiskal funksiyasının güclü olması da milli tarif sistemimizdə göstərilən istiqamətdə islahatın keçirilməsini tələb edir.

Belə ki, perspektivdə bu tariflərin bir qismi (məsələn, xammal məhsullarına) ÜTT üzrə gələcək tərəf-müqabillərimizin təzyiqi altında heç də tamamilə ləğv olunmaya da bilər və sənayecə inkişaf etmiş ölkələrdə olduğu kimi 0,5% intervalında müəyyən edilə bilər.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, İqtisadiyyatın sabit inkişaf mərhələsinə qədəm qoyduğu dövr idxal tarifinin strukturunun sabitləşməsi qanunauyğunluğu müşahidə edılir ki, bu da tariflər sistemini nəinki mal mövqeləri üzrə, həm də mal qrupları çərçivəsində unifikasiya etməyə imkan verir.

Iri miqyaslı struktur yenidənqurulması aparıldığı bir şəraitdə isə İqtisadiyyatın səmərəli tənzimlənməsi vəzifələri idxal tariflərinin geniş şaxələnmiş sistemindən istıfadə edilməsini tələb edir.

Milli İqtisadiyyatımızın da struktur yenidənqurulmasının zəruriliyini nəzərə alsaq, idxal tariflərimizin dar nomenklaturda müəyyən edilməsini daxili bazarımızın səmərəli tənzimlənməsini və ölkədə mütərəqqi istehsalların qurulması və inkışafına proteksionist yardımı təmin etməyə imkan verməyəcəyini görə bilərik.

Ölkədə idxalın gömrük-tarif alətləri vasitəsilə tənzimlənməsinin səmərəliliyinin artırılması, daxili bazarın müdafiəsinin gücləndirilməsi məqsədilə, zənnimizcə, tarif dərəcələrinin eskalasiyası prinsipinə daha ciddi şəkildə riayət edilməlidir.

Təcrübədən göründüyü kimi, tarif eskalasiyası ölkə sənayesinin sellektiv proteksionist müdafiəsinin təmin edilməsinin təsirli alətlərindən biridir.

Qeyd etmək lazımdır ki, ÜTT-nin üzvü olan sənayecə inkişaf etmiş dövlətlər belə öz daxili bazarlarının qorunması üçün göstərilən alətdən çox fəal şəkildə istifadə edirlər.

Belə ki, ÜTT-nin üzvü olan ölkələrdə Uruqvay raundundan sonra son məhsullara gömrük idxal rüsumlarının orta dərəcələri xammala müvafiq rüsum dərəcələrini, demək olar ki, 8 dəfə üstələməkdədir.

Eyni zamanda, milli bazarın xarici rəqabətə açılan sektorlarının müdafiəsi üçün idxalın ÜTT-nin qaydaları ilə nəzərdə tutulan və bizim təcrübədə hələ ki, istifadə olunmayan bir sıra təsirli tənzimlənməsi metodlarından da zərurət yarandıqca istifadə edilməlidir. Bunların sırasında, ilk növbədə, xüsusi qoruyucu, antidempinq və kompensasiya tədbirlərini qeyd etmək olar. Bu isə, hər şeydən əvvəl, göstərilən tədbirlərin tətbiqinin ümumi prinsiplərini və xüsusiyyətlərini müəyyən edən mükəmməl normativ hüquqi bazanın işlənməsini tələb edir.

Idxalın tənzimlənməsi mexanizmində öncül mövqelərə gömrük-tarif vasitələrinin çıxarılmasının zəruriliyi daxili bazarımızın qorunmasının xarici tərəf-müqabillərimizi bir o qədər də qıcıqlandırmayan vasitələrindən biri olan tarif kvotasına (kvotalarına) xüsusi diqqət yetirilməsini tələb edir. Ticarət əməkdaşlığına cəlb olunan bütün tərəflərin maraqlarını səmərəli şəkildə uzlaşdırmağa imkan verən bu tənzimləmə vasitəsindən indiyə kimi istifadə edilməməsi yalnız təəssüf doğura bilər. Belə ki, tarif kvotası (kvotaları) bir tərəfdən xarici ixracatçıların bizim bazardakı maraqlarını nəzərə almağa, daxili bazarımızın çeşid zənginliyini, nümayiş effektini təmin etməyə, yerli istehsalçıların rəqabət qabiliyyətlərini yüksəltmək istiqamətindəki səylərini durmadan artırmağa, digər tərəfdən isə inzibati tənzimləmə vasitələrinə bir o qədər də çox müraciət etmədən və "açıq" İqtisadiyyatlı ölkə imicini saxlamaqla milli bazarı səmərəli şəkildə qorumağa imkan vermiş olar.

Qeyd etmək lazımdır ki, ölkədə ixracın hüquqi tənzimlənməsini həyata keçirən başlıca qanunvericilik aktı 1997-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Gömrük Məcəlləsidir. Bu məcəlləyə görə, ixrac Azərbaycan Respublikasında həyata keçirilən gömrük recimlərindən biri kimi təsbit olunmuşdur. Burada ixracın təşkilinin və ixraca nəzarətin hüquqi əsasları müəyyən olunmuşdur.

Məlum olduğu kimi, hər bir ölkədə ixracın tənzimlənməsində mühüm vasitələrdən biri gömrük tarifləridir. Bu baxımdan 1995-ci ildə "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanuna görə, gömrük tariflərinin əsas məqsədləri kimi, Azərbaycan Respublikasının ərazisinə malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətinin təmin edilməsi, valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarətin həyata keçirilməsi, habelə ölkə İqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaradılması məsələləri təsbit olunmuşdur ki, bu da ixracın tarif tənzimlənməsinin hüquqi aspektlərini əks etdirir.

Ixracın əsas İqtisadi tənzimləmə vasitələrindən biri valyuta tənzimlənməsidir. Belə ki, 1994-cü ildə qəbul olunan "Valyuta tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ixracın valyuta tənzimlənməsinin hüquqi əsaslarını müəyyən edir. Bu qanuna görə, həm hüquqi, həm də fiziki şəxs olan rezident və qeyri-rezidentlərin valyuta

sərvətlərini Azərbaycan Respublikasına köçürmək, gətirmək və göndərmək hüquqları təsbit olunur. Burada Azərbaycan Respublikasının Milli Bankı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ölkədə valyuta nəzarətini həyata keçirən orqanlar kimi müəyyən olunmuşdur.

2001-ci ildə qanunda edilən əlavə və dəyişikliklərlə ölkəyə valyuta vəsaitlərinin gətirilməsi, habelə ölkədən çıxarılması ilə bağlı bəzi dəqiqləşdirmələr aparılmışdır. Belə ki, dəyişikliklərdən sonra fiziki şəxslər tərəfindən əvvəllər nağd şəkildə ölkə ərazisinə gətirilmiş valyuta vəsaitlərinin ölkədən çıxarılması 50 min ABŞ dolları ekvivalentinə qədər məhdudlaşdırılmışdır. Həmçinin, yeni əlavələrə görə, fiziki şəxs olan rezidentlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta vəsaitlərinin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda, gömrük orqanları həmin vəsaitlərlə bağlı müvafiq məlumatları 7 gün müddətində Azərbaycan Respublikası Milli Bankına və müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir. Eyni zamanda, Azərbaycan Respublikasında qeyri-rezidentlərin valyuta əməliyyatlarını müəyyən edən maddəyə də dəyişikliklər olunmuşdur. Belə ki, qeyri-rezidentlər tərəfindən ölkə ərazisinə gətirilən və xaricə aparılan valyuta vəsaitləri 50 min ABŞ dolları ekvivalentinə qədər sərbəst, bundan yuxarı həcmdə vəsaitlər isə müəyyən gömrük rəsmiləşdirmələri vasitəsilə həyata keçirilməlidir. Digər bir düzəlişə görə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yerinə valyuta nəzarəti agentləri kimi əsas valyuta nəzarəti orqanı müvəkkil banklar təsbit edilmişdir.

Azərbaycan Respublikasında xarici ticarətin, o cümlədən ixracın hüquqi tənzimlənməsini həyata keçirən qanunverici sənədlərdən biri də 1996-cı ildə qəbul olunan "Standartlaşdırma" haqqında qanundur. Bu qanun ölkəyə gətirilən və ölkədən çıxarılan malların, işlərin və xidmətlərin müvafiq beynəlxalq, regional və dövlət standartlarına cavab verməsi ilə bağlı müddəaları təsbit edir. Azərbaycan Respublikasına gətirilən məhsulların, işlərin və xidmətlərin, o cümlədən ərzaq mallarının, dərman preparatlarının və əhali üçün nəzərdə tutulan digər məhsulların, işlərin və xidmətlərin müvafiq dövlət standartlarının məcburi tələblərinə uyğunluğunun təsdiq edilməsi və ya tanınması bu qanun əsasında müəyyən edilmiş qaydada həyata keçirilir.

1997-ci ildə Perezident tərəfindən imzalanan "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında"" Fərman eyni zamanda, ixrac əməliyyatları üzrə bazar İqtisadiyyatı tələblərinə cavab verən müasir qaydaları müəyyən edir. Burada Respublika ərazisində istehsal, emal, təkrar emal olunan malların ixracı, kreditlə ixrac əməliyyatları və müvəqqəti ixrac əməliyyatları üzrə qaydalar təsbit olunmuşdur.

"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 aprel 1998-ci il tarixli Qərarına görə ixrac olunan mallar, onların növlərindən asılı olmayaraq ixrac rüsumundan azad olunmuşdur.

Müasir dövrdə xarici ticarət əlaqələrinin tarif tənzimlənməsi "Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarı və sonrakı illərdə bu qərara edilmiş bəzi dəyişiklik və əlavələrlə tənzimlənir. Belə ki, bu qərara görə yalnız metallurgiya sənayesinin ilkin məhsulları (dənəvər və tozşəkilli məhsullar) hər ton üçün 5 ABŞ dollarından 15 ABŞ dollarına qədər həcmdə ixrac vergisinə cəlb edilir.

Bu qərarla hökumət yerli istehsalı stimullaşdırmaq üçün ölkədə istehsalı mümkün olan bir çox məhsulların idxalına gömrük rüsumlarını yüksəltmişdir. Belə ki, xarici ticarətə daxil olan 16672 əmtəənin 5235-i (və ya 31,4%-i) 15%-lik dərəcə ilə idxal rüsumuna cəlb edilir. Bununla yanaşı, 2757 əmtəədən (və ya 16,5%-dən) 0,5%-lik, 2098 əmtəədən (12,6%) isə 0%, 1%, 3%, 5% və 10%-lik dərəcə ilə idxal rüsumu tutulur. Yerdə qalan 6582 (və ya 39,5%) əmtəə spesifik gömrük rüsumuna cəlb edilir.

Həmçinin, həmin qərara görə, gömrük ixrac vergilərinin malların (işlərin, xidmətlərin) müqavilələrə əsasən satıldığı valyuta ilə ödənilməsi və Azərbaycan Respublikası Hökümətinin xarici ölkələrlə azad ticarət sazişi olduğu təqdirdə ikitərəfli razılığa əsasən malların idxalına və ya ixracına gömrük vergisi tətbiq olunmaması təsbit olunmuşdur.

Nazirlər Kabinetinin 12 oktyabr 1994-cü il tarixli 319 №-li qərarı ilə Azərbaycan Respublikasının ərazisindən kənara valyuta aparılmasının tənzimlənməsi məsələləri müəyyənləşdirilmişdir. Burada milli və xarici valyutanın ölkəyə gətirilməsi və ölkədən çıxarılması məsələləri təsbit olunmuşdur. Bu qanunvericiliyə görə, respublikadan xaricə gedən hər bir fiziki şəxs tərəfindən 1000 ABŞ dolları məbləğində (Milli Bankın müəyyən etdiyi məzənnə ilə bu məbləğə ekvivalent olan digər xarici valyuta) valyuta vəsaiti sərbəst çıxarıla bilər. 1000 ABŞ dollarından əlavə 4000 ABŞ dollarına qədər aparılan valyuta vəsaiti müvafiq müvəkkil bankların təsdiqedici sənədləri əsasında çıxarıla bilər. Bu sənədlər olmadığı təqdirdə, bu məbləğin 2%-i həcmidə gömrük haqqı ödənilmək şərtilə çıxarıla bilər. Eyni zamanda, qərara əsasən fiziki şəxslər tərəfindən ölkədən 5000 ABŞ dollarından artıq valyuta vəsaiti çıxarılması qadağan olunmuşdur. Həmçinin qərara görə, xarici valyutaların ölkəyə gətirilməsinə məhdudiyyət qoyulmaması təsbit olunmuşdur. Bununla yanaşı, milli vaylutanın minimum əmək haqqının 5 mislinə bərabər məbləğdən çox ölkədən çıxarılmaması təsbit olunmuşdur.

Azərbaycanda ixracın valyuta tənzimlənməsi istiqamətində mövcud olan qanunvericilik aktlarından biri də "Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyüta vəsaitlərinin ödənişinə nəzarət barədə" Təlimatdır. Təlimata görə, konsiqnasiya, barter, kreditlə ixrac, müvəqqəti ixrac əməliyyatları zamanı satışdan əldə olunan vəsaitlərin ölkəyə daxil olması məsələləri müəyyən olunmuşdur. Belə ki, təlimata əsasən konsiqnasiya yolu ilə ixrac zamanı satışdan əldə edilən vəsaitlər 10 bank günündən gec olmayaraq

ixracatçının ona xidmət edən müvəkkil bankdakı valyuta hesabına daxil olmalıdır. Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göndərilmiş mallar üzrə bağlanmış saziş məbləği 10 gün müddətində ixracatçının ölkədəki bank hesabına daxil edilməlidir. Habelə, sözügedən qanunvericilik aktının 1№-li əlavəsində ixrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarətin texnoloci sxemi müəyyən olunmuşdur.

Azərbaycan Respublikası hökuməti ilə bir sıra MDB ölkələri, o cümlədən Moldova, Gürcüstan, Qazaxıstan Respublikalarının hökumətləri arasında sərbəst ticarət haqqında saziş imzalanmışdır. Bu sazişə əsasən, tərəflər qarşılıqlı şəkildə malların ixracına və idxalına gömrük rüsumları, vergiləri və s. yığımları tətbiq etmirlər. Eyni zamanda, bu razılaşmalar tərəflərin mal ixracına və idxalına ayrıseçkilik münasibətlərindən, kəmiyyət məhdudlaşdırmalarından və onlara ekvivalent digər tədbirlrdən imtina etməsini təsbit edir. Tərəflər üçüncü ölkəyə münasibətdə razılaşdırılmış ixracat siyasəti həyata keçirmək məqsədilə mütəmadi olaraq məsləhətləşmələr keçirməli, səmərəli ixrac nəzarəti sisteminin yaradılması üçün qarşılıqlı razılaşdırılmış tədbirlər görməlidirlər.

Hazırda Azərbaycan Respublikası hökuməti ilə Belarus Respublikası, Qazaxıstan Respublikası və Gürcüstan Respublikası hökuməti arasında malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında sazişlər mövcuddur. Bu razılaşmalar qarşılıqlı şəkildə tərəflərin ərazisinə ixrac edilən malların (işlərin, xidmətlərin) vasitəli vergilərə cəlb edilməməsini nəzərdə tutur. Eyni zamanda, təsbit olunur ki, tərəflərdən birinin ərazisindən ixrac olunan və digər tərəfin ərazisinə idxal edilən malların (işlərin, xidmətlərin) vergiyə cəlb olunması zamanı tərəflər öz daxili bazarlarında istehsal olunan (satılan) analoci mallar (işlər, xidmətlər) üçün müəyyən olunmuş vergi dərəcələrini və hesablama qaydalarını tətbiq edəcəklər.

Valyuta və ixrac qanunvericiliyi sahəsində pozuntularla mübarizənin səmərəsinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan və Moldova Respublikası arasında valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş imzalanmışdır. Razılaşma, birgə analitik tədqiqatların aparılmasını, müvafiq istiqamətdə mütəxəssislərin hazırlanmasını, məlumat sistemlərinin yaradılmasını və digər məsələləri nəzərdə tutur.

2.6. Beynəlxalq ticarət sisteminin inkişafında Dünya Ticarət Təşkilatının rolu

Dünya Ticarət Təşkilatının yaranma tarixi ötən əsrin 40-cı illərindən başlayar. Həmin vaxtlar bu təşkilatın BMT təsisatı kimi, Beynəlxalq Ticarət Təşkilatı adı altında yaradılması nəzərdə tutulmuşdur. Lakin, əvvəldə qeyd etdiyimiz səbəblər üzündən bu ideyanın reallaşması yalnız 1994-cü ildə çoxtərəfli ticarət danışıqlarının Uruqvay raundu zamanı mümkün olmuşdur. Dünya ticarət sisteminə nəzarəti həyata keçirəcək təşkilatın müstəqil şəkildə – Dünya Ticarət Təşkilatı (DTT) adı ilə yaradılması qərara alınmışdır.

Həmin çoxtərəfli danışıqlar zamanı DTT-nin təsis edilməsi ilə bağlı 123 ölkə protokol imzalamışdır. Bu raundun nəticəsi olan sənədlərdə DTT-nin tərifi belə verilmişdir: DTT – beynəlxalq ticarətlə əlaqəsi olan, müəyyən mənada yeganə təşkilatdır. Beynəlxalq ticarətdə iştirak edən dünya dövlətlərinin əksəriyyəti tərəfindən bağlanılmış və imzalanmış DTT üzrə sazişlər onun əsasını təşkil edir. Bu sənədlər beynəlxalq ticarət üçün hüquqi əsaslar verir. Sazişlər mahiyyətcə, hökumətləri razılaşdırılmış çərçivələrdə öz ticarət siyasmətini aparmağa məcbur edir. Sazişlərin hökumətlər tərəfindən bağlanmasına və imzalanmasına baxmayaraq, onların məqsədi əmtəə və xidmət istehsalçılarına, idxalçılara və ixracatçılara öz bizneslərini aparmağa kömək etməkdən ibarətdir.

DTT, Tarif və Ticarət üzrə Baş Saziş - GATT sələfidir. O, 47 il dünya ticarət sistemində müvəqqəti şəkildə DTT-ni əvəz etmişdir. Ona görə də DTT-nin yaranması prosesini nəzərdən keçirmək məqsədə uyğun olardır.

DTT 1 yanvar 1995-ci ildən fəaliyyətə başlamışdır. 1948-ci ildən Tarif və Ticarət üzrə Baş Sazişin qaydaları ilə idarə olunan, hazırda DTT sistemi kimi tanınan ticarət sisteminin yarıməsrlik yubileyi 1998-ci ilin may ayında Cenevrə şəhərində nazirlərin ikinci görüşü zamanı bayram kimi qeyd olunmuşdur. Hazırda DTT-nin ticarət sistemi daha genişdir. GATT-ın əsasən əmtəə ticarətilə əlaqəsi olduğu halda, DTT və onun sazişləri indi xidmətlərlə ticarəti, eləcə də intellektual mülkiyyət hüquqlarının ticarət aspektlərini əhatə edir.

Bu gün DTT-nin qarşısında əsas üç məqsəd durur ki, onları aşağıdakı kimi izah etmək olar.

- Birincisi, arzuolunmaz kənar təsirlər olmadan ticarətin mümkün qədər azad gedişatına kömək etmək.

Yəni, DTT çərçivəsində beynəlxalq ticarətdəki maneələrin aradan qaldırılması istiqamətində fəaliyyət göstərilir. Bu məqsəd həm də onu nəzərdə tutur ki, ayrı-ayrı şəxsiyyətlər, kompaniyalar və hökumətlər bütün dünyada qüvvədə olan müəyyən qaydalara və ticarət siyasətinə arxalanaraq heç bir gözlənilməz dəyişikliklərin olmayacağına əmin olsunlar. Bir sözlə ticarət sisteminin qaydaları şəffaf və gələcəkdən xəbər verən olmalıdır.

- Ikincisi, ticarət danışıqlarına daimi forum kimi xidmət etmək.

Belə ki, beynəlxalq ti**c**arətin iştirakçısı olan dövlətlərin birliyi sazişləri adətən xeyli diskriminasiyalardan və ziddiyyətldərdən sonra işlənib hazırlanır və imzalanır. Buna görə də danışıqların səmərəli olması diskriminasiyaların tez bir zamanda aradan qaldırılması üçün çoxtərəfli danışıqlar üçün şərait yaradan beynəlxalq foruma böyük ehtiya**c** vardır.

- Üçün**c**üsü isə, mübahisələrin tənzimlənməsi.

Qeyd etmək lazımdır ki, DTT hə**c**minə görə böyük və məzmununa görə mürəkkəb təşkilatdır. Ona fəaliyyətin geniş spektrini əhatə edən hüquqi mövzular daxil edilmişdir. Onun sazişləri kənd təsərrüfatını, toxu**c**uluq və geyimi, bank və telekommunikasiya xidmətlərini, hökumət satınalmalarını, sənaye standartlarını, qida məhsullarının təhlükəsizliyinə sanitar nəzarəti, intellektual mülkiyyəti və bir çox başqa sahələri əhatə edir.

DTT-nin sazişlərində və müxtəlif sənədlərində bu təşkilatın beynəlxalq ti**c**arət üçün müəyyənləşdirdiyi prinsiplər öz əksini tapmışdır. Hansı ki, DTT-nin üzv dövlətlərinin hər biri bu prinsiplərə əməl etməyə bor**c**ludurlar. Həmin prinsipləri ümumiləşdirərək aşağıdakı kimi göstərmək olar:

I) ti**c**arət diskriminasiyasız olmalıdır; - bu özündə ən əlverişli ti**c**arət recimi və milli recim kimi adlanan iki prinsipi birləşdirir.

II) ti**c**arət daha azad olmalıdır;

III) gələ**c**əkdən xəbər verən olmalıdır;

IV) ədalətli rəqabətin inkişafına şərait yaratmalıdır və s. DTT-nin müxtəlif sənədlərinə və bir sıra alimlərin tədqiqatlarına əsaslanaraq qeyd edilən prinsiplərin şərhini aşağıdakı kimi verə bilərik.

Diskriminasiyasız ticarət. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, DTT üzvü olan hər hansı bir dövlət partnyorlardan heç birini diskriminasiyaya məruz qoymamalıdır. Üzvlərin hamısı bərabər şəkildə «daha çox kömək edəndir» və ya daha çox köməkçi recimə malikdirlər. Xari**c**i və milli məhsullar, xidmətlər arasında diskriminasiya olmamalıdır.

Daha azad ticarət. DTT-nin bu prinsipinə uyğun olaraq ti**c**arət danışıqlarının gedişatında maneələr azaldılmalıdır. Ti**c**arət tədri**c**ən, danışıqlar vasitəsilə daha da azadlaşdırılmalıdır. Ti**c**arət maneələrinin azaldılması – ti**c**arətə yardımın ən çox yayılmış vasitələrindən biridir. Belə manelər isə əsasən gömrük rüsumlarından və idxal üzrə kəmiyyət məhdudiyyətlərindən ibarət olur. Bəzən belə məsələlər inzibati əngəllər və mübadilə kurslarının müəyyən olunması siyasəti kimi də nəzərdən keçirilir.

Qeyd etmək lazımdır ki, GATT-ın qüvvədə olduğu müddət ərzində ti**c**arət maneələrinin aradan qaldırıldması üçün danışıqların səkkiz raundu olmuşdur. Ti**c**arət danışıqlarının birin**c**i raundunda diqqət idxal əmtəələri üzrə gömrük rüsumlarının azaldılmasına yönəldilmişdir. Sonrakı danışıqlar nəti**c**əsində 1980-**c**i illərin sonunda sənaye ölkələrində sənaye mallarına qoyulan tariflər təqribən 6,3 %-dək azaldılmışdır.

1980-ci illərdə danışıqların sferası genişlənmiş və əmtəələrlə ticarətin tarif-siz maneələri, eləcə də xidmətlərlə ticarət və intellektual mülkiyyət kimi yeni sahələri əhatə etməyə başlamışdır.

DTT bu prinsipi əsas götürür: bazarların açılışı mənfəət gətirə bilər, lakin o tənzimlənməlidir. DTT-nin sazişləri üzv-dövlətlərə «tərəqqiləşən liberalizm» prinsipi üzrə, mərhələlərlə dəyişikliklər etməyə imkan verir. Xüsusilə də, öz öhdəliklərini tam həyata keçirmək üçün inkişaf etməkdə olan ölkələrə DTT tərəfindən daha uzun müddət verilir.

DTT əsasən aşağıdakı prinsipləri əsas götürür:

Gələcəkdən xəbər vermə. Bu prinsipə uyğun olaraq, xarici kompaniyalar, investorlar və hökumətlər əmin olmalıdırlar ki, tarif və qeyri-tarif formasında olan ticarət maneələri gələcəkdə əsassız olaraq sərtləşdirilməyəcək.

Ədalətli rəqabətin inkişafı. Qeyd edək ki, DTT heç də «azad ticarət» təşki-latı deyildir. Ən azı ona görə ki, o, tariflərdən və müəyyən hallarda digər müdafiə formalarından istifadəyə yol verir. Buna görə də DTT-ni belə adlandırmaq daha məqsədəuyğun olar: o açıq və ədalətli rəqabətin inkişafı məqsədlərinə xidmət edən qayda və normalar sistemidir.

DTT çərçivəsində diskriminasiyasız tədbirlərə dair qaydalar, ən əlverişli ticarət recimi və milli recim ticarətdə ədalətli şərtlərin yaradılmasına istiqamətlənmişdir. Onun sənədlərindəki dempinqə və subsidiyalara aid normalar da eyni məqsədlərə xidmət edir.

DTT-nin əksər sazişləri kənd təsərrüfatında, xidmətlər və intellektual mülkiyyət sferasında ədalətli rəqabətə köməyə yönəlmişdir. Məhdud iştirakçı dairəsinə malik Hökumət tədarükləri üzrə Saziş rəqabətə aid qaydaların tətbiqini bir çox ölkələrdə minlərlə hökumət strukturlarının həyata keçirdiyi tədarüklərdə genişləndirir. Belə nümunələrin sayını daha da artırmaq olar.

Qeyd etmək lazımdır ki, DTT-nin fəaliyyətinin əsas məqsədi dünya ticarətinin liberallaşdırılması, beynəlxalq səviyyədə açıq ticarətin təminidir. Dünyanın ticarət təcrübəsi və II Dünya müharibəsindən sonrakı İqtisadi artım açıq ticarətin zəruriliyini göstərmişdir. DTT sisteminin fəaliyyətdə olduğu müddətdə sənaye malları üzrə tariflər addım-addım aşağı düşmüşdür və 1999-cu ilin yanvarında orta hesabla 4 %-ə yaxın olmuşdur. Müharibədən sonrakı ilk onillikdə dünyanın İqtisadi artımı təqribən 5 % təşkil edirdi, belə artımın səbəblərindən biri ticarət maneələrinin azaldılması idi. Sonrakı belə azaldılmaların nəticəsi olaraq dünyanın ticarət sistemi daha da artmış, ildə orta hesabla təqribən 8 % təşkil etmişdir.

DTT – təşkilat iştirakçılarının hökumətləri tərəfindən idarə olunur. Bütün vacib qərarları üzv-dövlətlər qəbul edir. Belə qərarlar iki ildə bir dəfədən az olmayaraq görüşən nazirlər tərəfindən, ya da müntəzəm olaraq Cenevrədə görüşən rəsmi nümayəndələr tərəfindən imzalanır. Adətən, DTT çərçivəsində qərarlar konsensusla qəbul olunur.

Bu baxımdan, DTT Dünya Bankı və BVF kimi təşkilatlardan fərqlənir. DTT-də səlahiyətli funksiyalar direktorlar şurasına ötürülür və təşkilatın

məmurları üzv-dövlətlərin ticarət siyasətinə təsir göstərmək imkanından məhrumdurlar.

DTT-nin qaydalarında dəyişikliklər etmək, sazişlərin şərhini vermək, yeni üzvləri qəbul etmək proseduralarını bilavasitə üzv-dövlətlərin özləri müəyyənləşdirirlər. Bəzi hallarda ticarət sanksiyalarının tətbiqi nəzərdə tutulmuşdur. Lakin sanksiyaları təşkilat deyil, yalnız üzv dövlətlər tətbiq edə bilərlər. Digər beynəlxalq təşkilatlardan əsas fərq də elə budur. Məsələn, BVF müstəqil olaraq dövlətə kredit verməkdən imtina edə bilər və ya digər sanksiya tətbiq edə bilər.

Nəzərə alsaq ki, bu gün DTT-nin 148 üzvü var, onda təsəvvür etmək çətin deyil ki, bu üzvlərlə konsensusa nail olmaq nə qədər çətindir. Lakin digər tərəfdən, belə formada qəbul olunmuş qərarların əhəmiyyəti çox böyükdür, çünki onlar bütün üzvlər üçün məqbuldur. Çətinliklərə baxmayaraq, DTT-də konsensus ilə müəyyən vacib razılaşmalara nail olunmuşdur. Bununla belə, vaxtaşırı olaraq Direktorlar Şurasına belə təkliflər verilir ki: müxtəlif qrup ölkələrin nümayəndələrindən ibarət yığcam icra orqanı yaradılsın.

DTT-nin idarəetmə strukturunda ən ali hakimiyyət Nazirlər Konfransıdır. Bu, iki ildə bir dəfədən gec olmayaraq keçirilir. Nazirlər Konfransı istənilən məsələlər üzrə qərarlar qəbul etmək səlahiyyətinə malikdir.

Daha sonra Baş Şura gəlir. DTT-ni təsis edən sazişə müvafiq olaraq Baş Şuraya təşkilatın bütün üzvləri daxildir. Nazirlər Konfransı adından müntəzəm surətdə yerinə yetirilən işdən əlavə Baş Şura həmçinin iki xüsusi formada fəaliyyət göstərir: mübahisələrin nizama salınması proseduralarının tətbiqinə nəzarət edən Mübahisələrin Həlli Orqanı kimi, həmçinin DTT-nin ayrı-ayrı üzvlərinin ticarət siyasətinin müntəzəm sürətdə xülasəsini hazırlamaq üçün Ticarət siyasətinin xülasəsi Orqanı formasında. Hər üç orqan Nazirlər Konfransına hesabat verməli və öz fəaliyyətləri haqqında məruzə təqdim etməlidirlər.

DTT-nin idarəetmə strukturunda üçüncü səviyyəni digər üç şura formalaşdırır. Baş Şura səlahiyyətləri özündən sonra bu orqanlara yönəldir. Onlar aşağıdakılardır:

- Əmtəə ticarəti Şurası.
- Xidmətlərlə ticarət Şurası.
- Intellektual sahibkarlığın ticarət aspektləri Şurası.

Adlarından göründüyü kimi, bu şuralar ticarətin müvafiq sahələri ilə əlaqədar olan sazişlərin realizasiyasına görə cavabdehdirlər. Onlar həmçinin tabeliklərində olan orqanlara malikdirlər.

Bilavasitə Baş Şuraya bir neçə komitə tabedir. DTT-nin bütün üzvləri komitələrin hər birində təmsil olunurlar. Onlar ticarət və inkişaf, ətraf mühit məsələləri ilə, regionlar üzrə ticarət sazişləri, tədiyə balansları, inzibati məsələlər, növbəti raundun danışıqlarının təşkili ilə məşğul olurlar. Bundan əlavə, Baş Şuraya bir neçə işçi qrup, həmçinin saziş üzrə məhdud saylı iştirakçıları olan komitələr tabedirlər.

DTT-nin idarəedilməsində dördüncü səviyyəni Əmtəə ticarəti Şurasına tabe olan 12 ixtisaslaşdırılmış komitə təşkil edir. Bu komitələrdə də DTT-nin bütün üzvləri təmsil olunurlar.

Mövcud qaydalara uyğun olaraq bütün üzvlər DTT-yə danışıqlar nəticəsində qəbul edilirlər. Buna görə də, üzvlük onların hüquq və vəzifələrinin balansı deməkdir. Bir sözlə, onlar digər dövlətlərin verdiyi bütün imtiyazları, həmçinin ticarət qaydalarına riayət olunmasına zəmanətləri əldə etməklə yanaşı, həm də öz bazarlarını açmaq və DTT qaydalarına riayət etmək üzrə öhdəliklər götürürlər.

Ümumiyyətlə, DTT-yə qəbul prosesini dörd mərhələyə bölmək olar:

Birincisi, təşkilata daxil olmaq haqda ərizə verən hökumət DTT-yə onun təşkilatın sazişlərinə aid ticarət və İqtisadi siyasətinin bütün aspektlərini açıqlayan memorandum təqdim edir. Məhz bu memorondum xüsusi işçi qrupunda təşkilata qəbul haqda ərizənin ətraflı nəzərdən keçirilməsi üçün əsasa çevrilir. Bu qrupun işinə DTT-nin bütün üzvləri cəlb edilə bilər.

Ikincisi, işçi qrupu ticarət və İqtisadi siyasət məsələləri üzrə müəyyən nəticələrə nail olduqdan sonra namizədin DTT-nin üzvlərilə ikitərəfli danışıqları başlayır. Bu danışıqlar ikitərəfli əsasda aparılır, çünki müxtəlif dövlətlərin müxtəlif ticarət maraqları vardır. Danışıqlar zamanı ərizə verənin əmtəəyə münasibətdə güzəştləri və öhdəlikləri, eləcə də onun xidmətlərə münasibətdəki öhdəlikləri müəyyən edilir. Belə danışıqlar həddən artıq mürəkkəb ola bilər. Bəzi hallarda onları az qala çoxtərəfli ticarət danışıqları raundu ilə müqayisə etmək olar.

Üçüncüsü, işçi qrupu ərizəçinin ticarət recimini nəzərdən keçirdikdən sonra bazara giriş haqda ikitərəfli danışıqlar sona yetir. Işçi qrupu təşkilata qəbulun əsas şərtlərindən ibarət məruzəni, eləcə də qəbul haqda protokol layihəsini və ikitərəfli danışıqların nəticələrinə əsasən hazırlanan öhdəliklərin və güzəştlərin razılaşdırılmış siyahısını məruzə şəklində hazırlayır.

Dördüncüsü isə, məruzədən, protokoldan və öhdəliklər siyahısından ibarət son paket Nazirlər Konfransına və ya Baş Şuraya baxılmağa çıxarılır. Əgər, DTT üzvlərinin 2\3-si «lehinə» səs verirsə, ərizə verən sənədin dövlət parlamenti və ya qanunvericilik orqanı tərəfindən ratifikasiya edilməsindən sonra protokol imzalayaraq təşkilata üzv olmaq hüququ qazanır.

- Qeyd etmək lazımdır ki, DTT-də ən böyük qrup Avropa Birliyidir (AB). İqtisadi inteqrasiyanın tarixən üç forması işlənib hazırlanmışdır: azad ticarət zonası, gömrük birliyi, ümumi bazar.

AB-yə daxil olan 15 ölkələrlə bərabər Avropa İqtisadi Birliyi də DTT-nin üzvüdür. AB praktiki olaraq, DTT-nin bütün iclaslarında öz üzvlərinin vahid razılışdırılmış mövqeyini ifadə edir.

Cənub-Şərqi Asiyanın ölkələri Assosiasiyasının üzvləri (ASEAN) az inteqrasiya edilmişdir. Bununla belə çox hallarda ümumi ticarət maraqlarına malik ASEAN dövlətləri öz mövqelərini razılıqla həll edir və onlar iclaslarda bir üzv kimi təqdim oluna bilər.

Bəzən ən çətin məsələlərin həlli üçün İqtisadi **c**əhətdən ən iri, dördlük adlanan DTT üzvlərinin qrupu tərəfindən ümumi mövqeyin hazırlanması böyük əhəmiyyət kəsb edir. Oraya Kanada, AB, ABŞ və Yaponiya daxildir.

DTT-nin idarəetmə strukturunda onun Katibliyi mühüm rol oynayır. DTT Katibilyi **C**enevrədə yerləşir. Burada 500-dən çox adam işləyir. Təşkilatın başında Baş direktor durur. Onun üç müavini var. Katibliyin vəzifələri danışıqların aparılmasına və sazişlərin həyata keçirilməsinə **c**avabdeh olan DTT orqanlarına xidmətdən ibarətdir. Katiblik inkişaf etməkdə olan, hər şeydən əvvəl, az inkişaf etmiş ölkələrə texniki kömək göstərir. DTT-nin İqtisadçıları və statistikləri ti**c**arət və ti**c**arət siyasətinin vəziyyəti haqqında mütəmadi olaraq analitik i**c**mal hazırlayırlar. Katibliyin hüquqşünasları isə DTT-nin qaydalarının izahı ilə bağlı tədbirlər görürlər və ti**c**arət mübahisələrinin həllinə kömək göstərirlər.

Katibliyin digər funksiyaları təşkilata yeni üzvlərin daxil olması haqda danışıqların aparılmasına və üzvlük məsələlri üzrə hökumətlərin konsultasiyadan keçirilməsinə köməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, DTT-nin fəaliyyət istiqamətlərindən biri də milli ti**c**arət siyasəti üzərində müşahidədir. DTT-nin bu işinin mərkəzi elementi ti**c**arət siyasətinin i**c**malı üzrə mexanizmdir. Təşkilatın bu istiqamətdə qarşıya qoyduğu məqsədlər müntəzəm monitorinq mexanizmindən istifadə etməklə aşağıdakılara nail olmaqdan ibarətdir:

- bu sahədə görülmüş tədbirlərin və ti**c**arət siyasətinin şəffaflığını və başa düşülməsini təmin etmək;
- ti**c**arət məsəlləri üzrə i**c**timal və hökumətlərarası diskusiyaların keyfiyyətinin qaldırılmasına kömək etmək;
- dünya ti**c**arət sisteminə bu milli ti**c**arət siyasətinin göstərdiyi təsirin beynəlxalq qiymətləndirilməsinin təmin edilməsi.

Milli ti**c**arət siyasətlərinin i**c**mallarının nəzərdən keçirilməsi müntəzəm, dövri əsasda həyata keçirilir. Dünya ti**c**arətinin dörd iri iştirakçısının - AB, ABŞ, Yaponiya və Kanadanın ti**c**arət siyasətləri iki ildə bir dəfə nəzərdən keçirilir. 16 ölkə də vardır ki, dünya ti**c**arətindəki paylarına görə bu dörd ölkəni izləyirlər, onların ti**c**arət siyasətləri dörd ildə bir dəfə, yerdə qalanlarınkı isə hər altı ildə bir dəfə müzakirə prosedurasını keçir. Bu zaman az inkişaf etmiş ölkələr üçün onların ti**c**arət siyasəti i**c**mallarının müzakirəsi prosedurasını nadir hallarda keçirmək nəzərdə tutulur.

I**c**malların müzakirəsi Ti**c**arət Siyasətinin I**c**malı Təşkilatı tərəfindən keçirilir. Bu təşkilat Baş Şuranın yaradıldığı səviyyədə təsis olunmuşdur. Təşkilata iki sənəd təqdim olunur: ti**c**arət siyasətinin əsas müddəaları verilən hökumətin rəsmi ərizəsi və DTT-nin xüsusi Katibliyilə hazırlanan ətraflı məruzə. Hər iki sənəd, elə**c**ə də ti**c**arət siyasəti i**c**malının müzakirəsi prtokolları i**c**las qurtardıqdan sonra çap olunur.

Yuxarıda şərh olunan proseduraya əlavə olaraq, DTT-nin digər sazişlərindən əksəriyyəti üzv-dövlət hökumətlərinin DTT Katibliyini yeni və ya

dəyişdirilmiş ti**c**arət tədbirləri haqda məlumatlandırmaq öhdəliklərindən ibarətdir.

DTT çərçivəsində dünyada ən əlverişli ti**c**arət reciminin yaranması və ti**c**arət mübahisələrinin həlli mexanizminin öyrənilməsi mühüm rol oynayır

GATT-ın III maddəsində qeyd olunanların məzmunu bundan ibarətdir: istənilən ölkənin daxili bazarında idxal əmtəələrinin istehsalı üçün elə bir recim tətbiq olunmalıdır ki, bu recim öz yerində istehsal olunan əmtəələrə münasibətdə möv**c**ud olan recimə nisbətən daha əlverişli təsir göstərsin.

Intellektual mülkiyyət hüquqlarının ti**c**arət aspektləri üzrə Saziş (TRIPS) bəzi istisnalarla ƏTR və MR göstərilməsi, o **c**ümlədən DTT-nin üzvləri tərəfindən intellektual mülkiyyət hüquqlarının qorunmasının təmin edilməsi tələblərindən ibarətdir. Xidmətlərlə Ti**c**arət üzrə Baş Saziş (GATS) isə öz növbəsində iştirakçılarına həm tədarükçülərin, həm də digər iştirakçıların xidmətlərinə münasibətdə ƏTR göstərməyi bir vəzifə olaraq tapşırır.

Bir sıra tədqiqatçılar Əlverişli Ti**c**arət Recimi (ƏTR-i) tarixini 23 yanvar 1860-**c**ı il Fransa və Böyük Britaniya arasında bağlanmış Kobden ti**c**arət razılaşmasından başlamaqla öyrənirlər. Uzun illər ərzində ƏTR ikitərəfli müqavilə və sazişlərin mövzusunu təşkil etmişdir. Ümumilikdə isə, dünya tə**c**rübəsində onun aşağıdakı formaları möv**c**ud olmuşdur:

- qarşılıqlı və qarşılıqsız formada ƏTR;
- şərti ƏTR;
- şərtsiz ƏTR və s.

1929-**c**u ilin mart ayında Milltlər Liqası Şurası çoxtərəfli əsaslarla ƏTR-in ilkin model formulunu qəbul etdi. 1946-1948-**c**i illərdə isə Beynəlxalq Ti**c**arət Təşkilatının nizamnaməsinin hazırlanması zamanı, onun XVI maddəsinə ƏTR, XVIII maddəsinə isə MR barədə yazıldı. Lakin, əvvəldə qeyd etdiyimiz kimi, ABŞ müxalifətinin fəaliyyəti nəti**c**əsində Beynəlxalq Ti**c**arət Təşkilatının yaranması mümkün olmamışdı. Bundan sonra, həmin ideya əsasında GATT yarandı ki, burada ƏTR (maddə 1) və MR (maddə 3) haqda fikirlər öz əksini tapmış oldu. Lakin bu saziş ƏTR və MR-i yalnız əmtəə ti**c**arətilə bağlı məsələlərdə önə çəkirdi.

GATT çərçivəsində 1973-1979-**c**u illərdə keçirilmiş çoxtərəfli ti**c**arət danışıqlarının Tokio raundunun gedişi zamanı Ti**c**arətdə texniki maneələr üzrə Saziş meydana gəldi ki, bu sazişdə ƏTR texniki normalara və standartlara münasibətdə öz əksini tapmışdı. Çoxtərəfli ti**c**arət danışıqlarının növbəti Uruqvay raundunun nəti**c**əsində isə Xidmətlərlə Ti**c**arət üzrə Baş Saziş (GATS) imzalanmış və burada ƏTR və MR beynəlxalq ti**c**arətin 160 növdən çox xidmətlərinə şamil edilmiş, onun hüquqi əsası formalaşdırılmışdır.

Transmilli korporasiyalar (TMK) çərçivəsində beynəlxalq investisiyalar və beynəlxalq istehsalat sxemləri sahəsində bir sıra çoxtərəfli sazişlərin meydana gəlməsi bu sahədə də ƏTR və MR-in yaranmasına səbəb olmuşdur.

Hazırda dünya ti**c**arətində möv**c**ud olan ƏTR GATT-dan qaynaqlanır. Digər çoxtərəfli və ikitərəfli sazişlər mahiyyət**c**ə, bu və ya digər formada GATT-ın müddəalarını təkrar edərək, özündə müxtəlif istisnaları birləşdirir.

Qeyd etmək lazımdır ki, GATT-ın 1-**c**i maddəsinə əsasən, bütün iştirak-çı ölkələr bir-birinə mütləq ƏTR göstərməlidir. Bu maddənin tələbinə əsasən ƏTR mütləq şəkildə aşağıdakılara şamil edilməlidir:

- idxal, ixra**c** və tranzit ti**c**arət əməliyyatlarına;
- idxal və ixra**c** əməliyyatları üzrə beynəlxalq ödəmələrə;
- xari**c**i ti**c**arət əməliyyatları ilə bağlı əldə edilən yığımlara və gömrük rüsumlarına, elə**c**ə də onlarla bağlı olan qaydalara;
- xırda təsərrüfatlara;
- daxili vergilərə və yığımlara;
- iştirakçı-ölkələrin daxili ərazilərində əmtəələrin alqı və satqısını tənzimləyən daxili qayda və qanunlara və s.
- GATT-ı imzalayan – DTT üzvü olan ölkələr bu maddəni tam hə**c**mdə tətbiq etməyə mə**c**burdurlar. GATT-1994-ün sözü gedən I maddəsinin əsas məzmunu belədir: «Gömrük rüsumlarına, ölkəyə daşınmaya, ölkədən daşınmaya və ya onlarla bağlı sərhəddən kənar idxal-ixra**c**a görə ödəmələrin köçürülməsi üzrə qoyulmuş müxtəlif növ vergilərə münasibətdə, ölkəyə və ya ölkədən daşınma ilə bağlı xırda təsərrüfatın bütün tənzimlənmə qaydalarına münasibətdə və GATT-ın III maddəsinin 2 və 4-**c**ü paraqraflarında göstərilmiş bütün məsələlərə münasibətdə istənilən üstünlük, köməklik, imtiyazlar və ya hüquq toxunulmazlığı istənilən başqa ölkə üçün nəzərdə tutulmuş istənilən əmtəəyə münasibətdə istənilən tərəfdən (saziş bağlamış) göstərilərəkən, bu elə həmin an və şübhəsiz bütün digər tərəflərin ərazisindən çıxan və ya bütün digər tərəflərin əraziləri üçün nəzərdə tutulmuş eyni əmtəəyə də göstərilməlidir». Bu mətndəki (DTT-ə daxil olan GATT-1994-dəki) «tərəflər» termini «DTT üzvləri» kimi oxunmalıdır.

Buradan aydın şəkildə görünür ki, GATT çərçivəsində əmtəələrin xari**c**i ti**c**arətilə bağlı bütün əməliyyatlarda ƏTR önə çəkilir. GATT-ın «Tranzit azadlığı» adlı V maddəsinə əsasən ƏTR tranzit daşınmalarda da qüvvədə olur. Bu maddənin 5-**c**i paraqrafında qeyd edilir: «Tranzitlə bağlı bütün vergilərə, qaydalara və xırda təsərrüfatlara münasibətdə hər bir müqavilə bağlayan tərəf, istənilən digər müqavilə bağlayan tərəfin (oxunmalıdır: istənilən DTT üzvü, istənilən digər DTT üzvlərinə) ərazisinə gedən və ya ondan çıxan tranzit daşınmalara elə bir recim göstərməlidir ki, o, istənilən üçün**c**ü ölkədən və üçün**c**ü ölkəyə olan tranzit daşınmalara göstərilən recimdən ən azı əlverişli olsun».

GATT-1994 çərçivəsində ƏTR əmtəələrin markalanması sahəsini də əhatə edir. Belə ki, onun IX maddəsində göstərilib ki: «… DTT üzvü olan digər ölkədən çıxan əmtəənin markalanmasına münasibətdə tələblər istənilən üçün**c**ü ölkəyə göstərilən recimdən ən azı əlverişli olmalıdır».

GATT-1994-ün XIII maddəsi «Kəmiyyət məhdudiyyətlərinin diskriminasiyasız tətbiqi» adlanır. Bu maddəyə uyğun olaraq, əgər əmtəələrin bütün üçüncü ölkələrdən idxalı və ya onların üçüncü ölkələrə ixracı qadağan edilməzsə və ya məhdudlaşdırılmazsa, onda DTT üzvlərinin heç biri hər hansı belə malın idxalına və ya ixracına qadağalar qoymamalıdır.

Qeyd etdiyimiz kimi GATT-ın I maddəsi ƏTR-in əsasən əmtəələrə tətbiqini göstərir. Bununla bərabər yuxarıda qeyd edilən nümunələr göstərir ki, ƏTR-in təsiri xeyli genişdir və sərhədləri sazişdə dəqiq müəyyənləşdirilməmişdir. Uzun illər bu GATT-ın işçi qrupları tərfindən nəzərdən keçirilən bir çox mübahisəli vəziyyətlərin mənbəyi kimi xidmət etmişdir.

DTT çərçivəsində ƏTR-lə bağlı bir sıra istisnalar vardır. Onlardan ən əsası qeyri-üzv ölkələrə verilən imtiyazları genişləndirmədən azad ticarət və gömrük birlikləri zonasını yaratmağa icazədir. DTT üzvü olan ölkələrdən bir qrupu öz aralarında saziş bağlayaraq gömrük birliyi, yaxud azad ticarət zonası yarada bilərlər. Bu halda onlar bu birlik və ya zona daxilindəki imtiyazları digər DTT üzvlərinə verməyə də bilərlər. Digər mühüm müddəa isə, inkişaf etməkdə olan ölkələrə daimi əsasda ƏTR prinsipindən istisnalar şəklində ticarət imtiyazlarının dörd kateqoriyasından istifadə etmək icazəsidir. Bu kateqoriyalar aşağıdakılardır:

- preferensiyaların ümumi sistemi üzrə tarif preferensiyaları;
- inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlərdə fəaliyyət göstərən tarif preferensiyaları;
- DTT-nin bir sıra sazişlərində xülasə edilmiş daha çox güzəştli diferensiallaşdırılmış şərtlər;
- az inkişaf etmiş ölkələrə münasibətdə xüsusi recim.

Qeyd etmək lazımdır ki, hal-hazırda BMT çərçivəsi daxilində qəbul edilmiş qərara əsasən inkişaf etmiş ölkələr tərəfindən az inkişaf etmiş dövlətlərdən (inkişaf etməkdə olan dünya dövlətlərinin inkişaf səviyyəsinə görə 44 ən kasıb dövlət) daşınan bir çox əmtəələr ümumiyyətlə gömrük rüsumlarına məruz qalmır.

Qeyd edilən preferensiyalar sistemi DTT çərçivəsi daxilində müvəqqəti preferensiyalar kimi nəzərdən keçirilir. Bu imtiyazlı rüsumlara münasibətdə təşkilatın sənədlərində belə bir fikir göstərilmişdir ki: «onların tətbiq olunması inkişaf edən dövlətlərin İqtisadi inkişafının daha aşağı səviyyəsilə bağlıdır. Həmin ölkələrin İqtisadi artımına əsasən bu sistemlər tədricən aradan götürüləcək».

Lakin inkişaf etmiş və etməkdə olan dövlətlərdə preferensiyaların tətbiqilə bağlı ƏTR-in təsirinin coğrafi sferasındakı məhdudiyyətlər beynəlxalq ticarət sistemində onun həlledici rolunu zəiflədir.

ƏTR-dən bəhs edərkən beynəlxalq səviyyədə birbaşa investisiyalar mövzusuna da geniş yer verilməlidir. ƏTR birbaşa xarici investisiyalara dair iki və çoxtərəfli sazişlər prinsiplərindən biri kimi istifadə olunur. Bu məsələ DTT çərçivəsində ən az işlənilmişdir. Əmtəələrlə ticarət sahəsində ƏTR-in təsir

sferası bir qayda olaraq, ölkənin gömrük sərhədinə təsir edən maneələri, imtiyazlar və üstünlüklərdən istifadəni əhatə edir. Investisiyalara münasibətdə isə ƏTR, adətən, ölkənin milli recimində ifadə olunur. Bu halda yaranan problem müxtəlif ölkələrdən olan investorlara oxşar rəqabət şərtlərinin təchizindən və yatırılmış investisiyalara münasibətdə olan oxşar recimdən ibarətdir. Başqa sözlə, ticarət sahəsindəki kimi investisiyalar sahəsində də ƏTR müxtəlif ölkələrdən olan xarici investisiyalara münasibətdə diskriminasiyasız recim təchiz etməldir.

Qeyd etmək lazımdır ki, hazırda xidmətlər sferasında idxaldan müdafiə, adətən, milli bazar daxilində xarici xidmətlərdən istifadə zamanı diskriminasiya şəraitinin yaradılması yolu ilə həyata keçirilir. Ona görə də xidmətlərlə ticarətdəki maneələr, adətən, ölkə daxilində qüvvədə olan milli qanunlar, inzibati sərəncamlar, müəssisə təlimatları, xarici ixtisaslaşdırılmış sertifikatların, diplomların təsdiqi və s. formasını alır. ƏTR-dən istifadəni yuxarıda qeyd edildiyi kimi bir amil də mürəkkəbləşdirir. Bu da ondan ibarətdir ki, xidmətlərin yalnız bir hissəsi sərhədləri keçmək yolu ilə göstərilir. Xarici və ya milli (əcnəbiyə satılan halda) xidmətlərin böyük hissəsi bilavasitə xidmətləri idxal və ya ixrac edən ölkənin milli ərazisində göstərilir.

DTT yaranana qədər 123 dövlət GATT-ın tam hüquqlu üzvü idi və 50-dən artıq dövlət müxtəlif formalarda olan sazişlərdə iştirak edirdilər. 1986-cı ildə Sovet Ittifaqı ilk dəfə olaraq, özünün GATT-a daxil olmaq fikrini bildirmiş və 1990-cı ilin may ayından müşahidəçi statusu qazanmışdır. Lakin Sovet Ittifaqının dağılmasından sonra müstəqillik əldə etmiş respublikaların ayrılıqda GATT-ya qoşulması məsələsi gündəliyə gəlmişdir. Indiyə qədər keçmiş sovet respublikalarından yalnız bir neçəsi DTT-yə üzv olaraq GATT-ya qoşulmuşlar. Rusiya, Qazaxıstan, Ukrayna və Azərbaycan kimi geniş İqtisadi potensiala malik ölkələr hələ də DTT-yə üzvlüklə bağlı danışıqlar prosesini keçirlər.

ƏTR-ə əsaslanan çoxtərəfli müqavilələr ikitərəflilər qarşısında hüquqi nöqteyi-nəzərdən bəzi üstünlüklərə malikdir, çünki o, əlverişlilik haqda bağlanan çoxsaylı ikitərəfli müqavilələrin zəruriliyindən azad edir. Tanınmış tədqiqatçı K.Hayder çoxtərəflilik ideyasını yüksək qiymətləndirərək, GATT haqda qeyd etmişdir ki: «Tarif və ticarət üzrə Baş Saziş beynəlxalq ticarət sahəsində ən çox əlverişlilik yaradan şərtlərə ümumi xarakter vermək cəhdində bir əsas dönüş nöqtəsidir».

Son 10 ilin təcrübəsi göstərmişdir ki, DTT sistemində mübahisələr GATT-da olana nisbətən daha yaxşı nizama salınır. ABŞ alimləri öz araşdırmalarının nəticəsi olaraq bildirmişlər ki, DTT-nin yaranması və onun tərkibində mübahisələrin həlli mexanizminin təkmilləşdirilməsi ABŞ-la AB arasında olan mübahisələrin həlli prosesini xeyli səmərəliləşdirMişdir. GATT mövcud olduğu dövrdə həm ABŞ, həm də AB mübahisələrin həlli orqanının qərarlarına müvafiq olaraq hərəkət etməyə meylli olmadıqları halda, DTT-nin yaranmasından sonra bu vəziyyət xeyli dəyişmişdir.

Tədqiqatçılar hesab edirlər ki, iddia edilən tədbirlərin siyasi və İqtisadi əhmiyyəti nə qədər çoxdursa, uduzan tərəfin DTT qərarına müvafiq olaraq hərəkət edəcəyi ehtimalı o qədər azdır. Bir neçə iddiaçının birlikdə verdiyi şikayətlərin də nəticəsinin belə olacağı ehtimalı çoxdur.

Artıq 10 ilə qədər DTT-də tətbiq edilən proseduralar ticarət mübahisələrinin həlli üçün məcburilik mexanizminin hamı tərəfindən qəbuluna imkan yaratmışdır. Bu prinsip beynəlxalq hüquq sistemində protoksionistləri intizama dəvət edən vacib yenilik kimi xarakterizə olunur.

2.7. Azərbaycanın Dünya Ticarət Təşkilatına qəbulu perspektivləri

Müasir dövrdə dünya ölkələri arasında inteqrasiya daha da sürətlə inkişaf edir. Bu isə öz növbəsində beynəlxalq ticarətin sürətli inkişafını şərtləndirir, onun miqyasını genişləndirir. Belə bir şəraitdə dünya ticarətinin tənzimlənməsi prosesi daha da mürəkkəbləşir. Bu funksiyanın əsas icraçısı olan DTT-nin də fəaliyyətinin təkmilləşdirilməsi, onun müasir tələblərə uyğunlaşdırılması zərurəti yaranır.

2004-cü ildə bütün dünya üzrə əmtəə ixracının dəyəri 9,1 trilyon dollar olmuş və əvvəlki ilə nisbətən 21 % artmışdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici 1993-cü ildə 3,7 trilyon dollar, 1983-cü ildə isə 1,8 trilyon dollar olmuşdur. Dünya ticarətində ciddi artımlar əsasən 2003-cü ildən başlanmışdır. Həmin ildə 17 % artım müşahidə edildiyi halda, əvvəlki illərdə belə artım orta hesabla 5 % olmuşdur.

Hazırda dünya ticarətinin əsas hissəsi inkişaf etmiş ölkələrin payına düşür. Belə ki, 10 inkişaf etmiş ölkə dünya ticarətinin 50 %-dən çoxuna nəzarət edir. Məsələn Almaniya və ABŞ-ın hər birinin dünya əmtəə ixracında payı 10 % təşkil edir, Fransa, Niderland, Italiya, B.Britaniya kimi ölkələrin hər biri isə 4-5 % paya malikdirlər.

Bu gün DTT dünya ticarət sisteminin alternativi olmayan tənzimləyici qurumu kimi fəaliyyət göstərir. DTT dünya ticarətinin 95 %-nə qədərinə nəzarət edir. Yeni üzvlərin qəbul edilməsi, həmçinin təşkilat çərçivəsində ticarətin inkişafı DTT-nin qeyd edilən payını ilbəil artırır. Məsələn, 1993-cü ildə onun dünya ticarətindəki payı 89 %, 1983-cü ildə isə 76 % olmuşdur. Nəzərə alsaq ki, yaxın bir ildə Rusiya və digər bir sıra MDB ölkələri də DTT-yə üzv olacaq, onda onun dünya ticarətindəki payı 98 %-ə yaxınlaşacaq.

Lakin təcrübə göstərir ki, DTT-nin dünya ticarətindəki payının artması, 100 %-ə yaxınlaşması heç də problemin həlli demək deyildir. Müasir dövrdə dünya ticarətinin müxtəlif çalarlar alması, yeni-yeni xüsusiyyətlərə malik olması onun səmərəli tənzimlənməsində DTT-nin əhəmiyyətini azaltmağa doğru meylləndirir.

Qeyd etmək lazımdır ki, DTT-nin əsas prinsiplərindən biri üzvlər arasında diskriminasiyasız ticarətin təminidir. Bu məqsədə uyğun olaraq onun ən

əlverişli ticarət recimi (ƏTR) adlı prinsipi fəaliyyət göstərir. DTT-nin ən əsas tələbi bundan ibarətdir ki, bütün üzvlər bir-birilərinə ƏTR göstərməlidirlər. DTT sazişlərini dövlətlər imzalayırlar. Bu sazişlər qarşısında yalnız dövlətlər öhdəlik daşıyırlar. Ancaq bu gün dünya ticarətinin böyük hisəsi heç bir dövləti təmsil etməyən TMK-ların payına düşür. TMK-lar isə DTT qarşısında heç bir öhdəliyə malik deyillər. Hətta elə TMK-lar mövcuddur ki, onların ticarət dövriyyəsi DTT üzvlərinin əksərinkindən dəfələrlə çoxdur. TMK-ların həyata keçirdikləri ixracın mənşəyini müəyyənləşdirmək, uçotunu aparmaq mürəkkəb məsələlərdən birini təşkil edir. Hazırda TMK-lar çərçivəsindəki ticarətin beynəlxalq səviyyədə tən-zimlənməməsi aktual problem olaraq qalır.

Müasir dövrdə inteqrasiya proseslərinin inkişafı dövlətlərin İqtisadi qruplaşmalarının yaranmasını şərtləndirir. Bundan başqa, daxilində azad qarşılıqlı ticarət həyata keçirilən dövlətlərarası azad ticarət zonaları və dövlətlərarası gömrük ittifaqları meydana gəlir. Bir sözlə, beynəlxalq ticarətin regionallaşması prosesi gedir. Bu da DTT-nin dünya ticarət sisteminin tənzimlənməsindəki rolunu azaldan amillərdən biridir. Beynəlxalq ticarətdəki regionalizmi ifadə edən belə birliklərə aşağıdakıları misal göstərmək olar:

- Avropa Birliyi (AB);
- Avropa Azad Ticarət Assosiasiyası (EFTA);
- Şimali Amerika Azad Ticarət Assosiasiyası (NAFTA);
- Cənubi Ümumi Bazar (MERCOSUR);
- Cənub-Şərqi Asiya Millətlərinin Assosiasiyası (ASEAN);
- Asiya Azad Ticarət Bölgəsi (AFTA);
- Şərqi və Cənubi Afrika Ölkələrinin Ümumi Bazarı (COMESA) və s.

Ümumiyyətlə, bugünə qədər GATT və DTT tərəfindən 250 regional ticarət razılaşması qeydə alınmışdır. Bu gün həmin razılaşmalardan 170-ə qədəri fəaliyyətdədir. Bu razılaşmaların 40-dan çoxu DTT-nin fəaliyyətdə olduğu son on ildə imzalanıb. Belə razılaşmaların sayının daha sürətlə artacağı proqnozlaşdırılır. Bu razılaşmalar çərçivəsindəki ticarətin əsas hissəsi ƏTR-dən istisna formasındadır. Bir sözlə DTT regional razıla-şmalar çərçivəsindəki ticarətə əhəmiyyətli müdaxilə etmək iqtidarında deyil. Lakin, buna baxmayaraq, regional razılaşmalar beynəlxalq ticarətin liberallaşmasında müstəsna rol oynayırlar.

AB-nin beynəlxalq ticarətdəki payı təqribən 40 % təşkil edir. Onun üzvü olan 25 ölkənin xarici ticarətinin 60 %-dən çoxu birlik daxilindədir. Müşahidələr göstərir ki, bu birlik daxilində ticarətin liberallaşması, diskiriminasiyasızlaşdırılması prosesi ümumilikdə DTT çərçivəsindəkindən daha sürətli gedir. Artıq AB-nin genişləndirilməsi planı mövcuddur, birliyə üzv olmaq üçün 3 ölkənin, o cümlədən Türkiyənin namizədliyi müzakirə edilir. Son bir neçə ildə birlik daxilində görülmüş tədbirlər (vahid valyutaya keçilməsi və s), qrupdaxili qarşılıqlı ticarətin payının artması belə deməyə imkan verir ki, AB-nin ticarəti gələçəkdə DTT tərəfindən yox, daha çox onun özü tərəfindən tənzimlənəcək.

Ikinci böyük azad ticarət birliyi NAFTA-dır. Bu birlik Şimali Amerikanın üç böyük dövləti ABŞ, Kanada və Meksika tərəfindən yaradılıb. Hazırda NAFTA dünya ticarətində 15 faizdən çox paya malikdir. 2004-cü ildə ticarətin 46 faizi qrup daxilində olmuşdur. Gələcəkdə onun AB-yə alternativ bir ticarət zonası olacağı proqnozlaşdırılır. 1994-cü ilin dekabrında Latın Amerikasını və Şimali Amerikanı təmsil edən 34 ölkə 2005-ci ildə Şimali və Cənubi Amerikanın Azad Ticarət Zonasının (ŞCAATZ) yaradılması haqda qərar qəbul etdilər. Bu razılaşma aşağıdakı məsələləri əhatə edəcək:

- əmtəə və xidmətlərlə qarşılıqlı ticarətə olan maneələrin liberallaşdırılması;
- kapitalın qarşılıqlı hərəkəti;
- energetika, elm, texnika, infrastruktur sferalarındakı siyasət;
- inteelktual mülkiyyət hüquqları və s.

Göründüyü kimi, bu məsələlər də göstərir ki, Şimali və Cənubi Amerikanı əhatə edəcək bu ittifaq Avrobirliyə oxşar bir ittifaqa çevrilə bilər. ŞCAATZ-nin potensial iştirakçıları olan 34 ölkədə 90-cı illərin ortalarında xarici ticarətin yarıdan çoxu qrup daxilində mövcud olmuşdur.

Eyni vəziyyət Asiya-Sakit Okean regionunda da yarana bilər. 1994-cü ilin noyabrında Asiya-Sakit Okean İqtisadi Birliyinin (ASIB) 18 üzv-dövləti bu regionda ticarətin və investisiyaların azad və açıq reciminin təmin edilməsi haqda uzunmüddətli tapşırıq qarşıya qoydular. Sənaye cəhətdən inkişaf etmiş dövlətlər bu məsələni 2010-cu ilə, inkişaf etməkdə olan dövlətlər isə 2020-ci ilə qədər həll etməlidirlər. Avstraliya, Honkonq, Tailand, Cənubi Koreya, Meksika, Sinqapur və bir sıra başqa ölkələr bu razılaşmaya qoşuldular.

Regional İqtisadi qruplaşmalar Afrikada, Mərkəzi Asiyada, Yaxın və Orta Şərqdə də artır. Şübhə edilmir ki, regional ticarət birliklərinin yaranması prosesi bundan sonra da davam edəcəkdir.

Qeyd etmək lazımdır ki, beynəlxalq ticarətin regionallaşdırılması ƏTR-in beynəlxalq İqtisadi mübadilədə və xüsusilə beynəlxalq ticarətdə yerini mühüm şəkildə dəyişir. Regionallaşma prosesləri fonunda ƏTR-ə arxalanan beynəlxalq ticarətin istina edilməsi tendensiyaları müşahidə edilir. Bu, Avropa Birliyinin (AB) ticarətində artıq baş vermişdir. Avrobirliyin üzv-ölkələrində xarici ticarətin demək olar ki, 2\3-i ƏTR sferasından çıxarılmalar şəraitində icra olunur.

Bu gün regional İqtisadi qruplaşmalara daxil olan ölkələrin xarici ticarəti iki xüsusi sektora ayrılır:

Birincisi, regional qrupun iştirakçı-ölkələrinin qarşılıqlı ticarəti; /gömrük və ticarətdəki bir sıra digər manelərdən azaddır.

Ikincisi, iştirakçı-ölkələr qrupunun yerdə qalan ölkələrlə ticarəti; (ticarətdəki bütün maneələr tətbiq olunur).

Hazırda bu praktika bütün inkişaf etmiş ölkələrin də daxil olduğu 70-dən çox dünya dövlətlərinin ticarət-siyasi sisteminə tətbiq edilməkdədir. Nəticədə ƏTR-in şərtləri bir çox regional İqtisadi qruplaşmaların (gömrük birliklərinin)

qaydaları üzrə fəaliyyət göstərir. Azad ticarət zonasına daxil olan ölkələr də ikili standartlardan istifadə edirlər. Qeyd edək ki, DTT-nin şərtlərindən biri belədir ki: «DTT-yə üzv ölkələr qəbul edirlər ki, gömrük birliyinin və ya azad ticarət zonasının məqsədi DTT-nin digər üzvləri və verilmiş ərazilər arasında maneələ-rin yaradılması deyil, onları təşkil edən ərazilər arasında ticarətin yüngülləşdirilməsi olmalıdır» [GATT-1994, maddə 24, par. 4]. Lakin DTT-nin bu qərarına baxmayaraq, əksər hallarda ƏTR bazasında yalnız xarici şərtlər genişlənir.

Bir sözlə, gələcəkdə DTT-nin dünya ticarətini tənzimləməsi funksiyası öz əhəmiyyətini itirə bilər və beynəlxalq ticarətin vahid mərkəzdən idarə edilməsi aradan götürülər. Bu isə ciddi problemlər vəd edir. Tədqiqatlar göstərir ki, bu problemin həlli üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin görülməsi vacibdir:

- beynəlxalq ticarətin regionallaşmasına səbəb olan azad ticarət zonaları, İqtisadi-gömrük birlikləri üçün dünya üzrə vahid standartların, tələblərin formalaşdırılması, beynəlxalq hüquqi bazanın təsisi, belə təsisatların tənzim-lənməsi üçün DTT, yaxud BMT çərçivəsində mərkəzi idarəetmə qurumunun yaranması;
- TMK-ların və iri şirkətlərin ticarət fəaliyyətlərinin beynəlxalq səviyyədə tənzimlənməsi mexanizminin formalaşdırılması. Belə qurumların vahid beynəl-xalq təsisatının formalaşdırılması və TMK-lar üzrə GATT-a bənzər sazişin əldə edilməsi;
- DTT-nin idarəedilməsi strukturunun beynəlxalq ticarətin müasir tələblə-rinə uyğunlaşdırılması;
- əksəri 1970-1980-ci illərdə hazırlanmış DTT sazişlərinin yenidən işlənil-məsi və spesifik sahələr üzrə yeni sazişlərin əldə edilməsi və s.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra DTT ilə əməkdaşlığa mühüm əhəmiyyət verdi. Belə ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikada bazar İqtisadiyyatına keçidin təmin edilməsi ən aktual məsələlərdən biri olmuşdur. Milli İqtisadiyyatın müxtəlif sahələrində bazar münasibətlərinin bərqərar edilməsi istiqamətində tədbirlərə başlanılmışdır. Lakin, bununla yanaşı, bir sıra sektorlarda yaranmış ciddi problemlər bazar İqtisadiyyatına keçidin təmin olunmasını xeyli çətinləşdirmişdir. Bu sahələrdən biri və ən əsası Azərbaycanın xarici-İqtisadi fəaliyyət sferası idi.

Sovet dövründə Azərbaycanın xarici İqtisadi əlaqələrinin planlı şəkildə qurulması, İqtisadi inteqrasiyanın əsasən postsovet və postsosialist məkanı çərçivəsində mövcudluğu müstəqillik illərində respublikamızın dünya İqtisadiy-yatına inteqrasiyası üçün ciddi problemlər yaratdı. Hətta, hər şeyin sıfırdan başlanması lazım gəldi. Həmin illərdə ölkənin xarici İqtisadi əlaqələr strategiyası hazırlanarkən iki əsas strateci istiqamətdən birinə üstünlük verilməsi üçün müzakirələr gedirdi.

Birincisi, milli İqtisadiyyatın əsas strukturlarının yenidən qurulması və bunun nəticəsində ixrac potensialının artırılması.

Ikincisi isə, milli İqtisadiyyatın müxtəlif sahələrində aparılan yenidənqurma və modernləşdirmə işləri hesabına idxalın azaldılması (əvəzolunması).

Lakin sonrakı elmi tədqiqatlar göstərmişdir ki, ölkənin İqtisadi inkişafının təminində xarici ticarət üzrə ixrac və idxal məsələlərinə kompleks yanaşılmalıdır. Bunlardan yalnız birinin əsas götürülməsi respublikanı qloballaşan dünya İqtisadiyyatından təcrid edə, müxtəlif İqtisadi problemlərə gətirib çıxara bilər.

Qeyd etmək lazımdır ki, ölkə İqtisadiyyatı xarici ticarət üçün kifayət qədər açıqdır və bu sahədə bazar İqtisadiyyatının atributları inkişaf etməkdədir. Ancaq buna baxmayaraq beynəlxalq təşkilatlarla əməkdaşlıq hələ də səmərəli şəkildə deyil, dünya İqtisadiyyatına inteqrasiyanın daha da sürətləndirilməsinə səbəb ola biləcək təşkilatlara üzvlük məsələsi problem olaraq qalır.

Beynəlxalq əmək resurslarının və beynəlxalq kapitalın hərəkətindən səmərəli istifadə etməklə milli İqtisadiyyatın sektorlarının inkişafını təmin etmək və onların ixrac potensialını artırmaq mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə əldə edilən nailiyyətləri müxtəlif cür qiymətləndirmək olar. Belə ki, ölkənin neft sektoruna xarici kapitalın cəlb edilməsi sahəsində yüksək nailiyyətlər əldə olunmuşdur. 1994-cü ildə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının işlənilməsi üzrə Hasilat Pay Bölgüsü Sazişi («Əsrin müqaviləsi») imzalandıqdan sonra ölkəmizin neft sektoruna iri həcmli xarici investisiyaların yatırılması prosesi başlanmışdır. Bugünə qədər «Əsrin müqaviləsi»ndən başqa digər 24 neft müqaviləsi də imzalanmışdır ki, bütövlükdə bu sazişlər çərçivəsində Azərbaycanın neft sektoruna 13 milyard dollar investisiya qoyulmuşdur. Hazırda fəaliyyət göstərən 3 ixrac bou kəməri ilə Azərbaycan nefti ixrac olunaraq dünya bazarlarına çıxarılır.

Qeyri-neft sektoruna gəldikdə isə, burada vəziyyət bir qədər fərqlidir. Bu sektorda inkişaf meylləri müşahidə edilsə də birbaşa xarici investisiyaların cəlbi lazımı səviyyədə deyildir. Burada beynəlxalq kapital axınından səmərəli istifadə etmək üçün bazar münasibətlərinə keçidin sürətləndirilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması, müəyyən dövlət güzəştlərinin təmini vacib və zəruridir.

Qeyd etdiyimiz kimi Azərbaycanın dünya İqtisadiyyatına inteqrasiyasında, respublika İqtisadiyyatının qloballaşmasında ikitərəfli əməkdaşlıq məsələləri də öz əhəmiyyətli təsirini göstərir. Bu istiqamətdə ölkəmizin xüsusilə DTT-də aparıcı rola malik olan, bazar İqtisadiyyatının inkişaf etmiş ölkələri ilə əməkdaşlığı diqqəti cəlb edir. ABŞ, Çin, Fransa, Almaniya və digərlərini buna misal göstərə bilərik.

Azərbaycan Respublikası ilə ABŞ arasında İqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə hər iki ölkənin hökumətləri tərəfindən ikitərəfli işçi qrupunun yaradılması ilə əlaqədar 20 yanvar 2000-ci il tarixdə əməkdaşlıq

memorandimu imzalanmışdır. Bugünə qədər işçi qrupunun 6 iclası keçirilmiş və aşağıdakı məsələlər müzakirə edilmişdir:

- İqtisadi yardım məsələləri;
- ticarət və DTT-yə üzv olma;
- makroİqtisadli məqsədlər;
- investisiya mühiti;
- özəlləşdirmə;
- təhsil sahəsində təcrübə mübadiləsi;
- sabit idarəçilik və s.

ABŞ hökuməti DTT-yə üzvlüklə bağlı ölkəmizə yardım göstərir. Hazırda ABŞ hökumətinin Azərbaycanın DTT-yə qəbuluna Texniki Yardım Layihəsi həyata keçirilir.

Iki ölkə hökumətləri arasında ticarət və DTT-yə üzv olma ilə bağlı aşağıdakı məsələlər müzakirə olunur:

- DTT-də Azərbaycanın statusu məsələsi;
- USDOC stantartları və sertifikatlaşdırma seminarı – Azərbaycan hökumətinin gələcək planları istiqamətində addımları;
- ABŞ tərəfinin Azərbaycanda gömrük tariflərinin təzələnməsi barədə xahişi;
- Gömrük əməkdaşlığı – WCO –da qarşılıqlı yardım Sazişinin imzalanması üçün planlar.

Ölkələr arasında İqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın gücləndirilməsi məqsədilə 1 dekabr 1997-ci ildə Azərbaycan-Fransa İqtisadi komissiyası yaradılmışdır. Bu komissiyanın fəaliyyəti müsbət nəticələr vermiş, iki ölkə arasında xarici ticarət və İqtisadi əlaqələrin inkişafına səbəb olmuşdur. Belə nəticələri ümumiləşdirərək aşağıdakı kimi təqdim edə bilərik:

- Fransa hökuməti inkişaf etməkdə olan ölkələrə yardım proqramı (PRE) çərçivəsində Azərbaycana dövlət krediti formasında 35 milyon avro vəsait ayırmışdır;

- Fransanın «Air France» şirkəti və Azərbaycan Hava Yolları Dövlət Konserni arasında təmsilçilik haqqında Saziş imzalanmışdır. Bu sazişə görə, «AZAL» şirkətinin rəsmi ofisinin olmadığı təqdirdə onu «Air France» şirkəti təmsil edəcəkdir;

- Fransanın «Eurokopter» şirkəti tərəfindən «AZAL» DK-ya 6 vertalyotun verilməsi ilə əlaqədar 52,27 milyon ABŞ dolları dəyərində müqavilə imzalanmış və icrasına başlanılmışdır;

- Fransanın «Castel» qrupu ilə şərabçılıq sahəsində əməkdaşlığa başlanılmışdır. Hazırda bu qrup Azərbaycan Respublikasının Cəlilabad rayonunda üzümçülüyün inkişafına yardım edir, həmçinin paytaxtda pivə istehsalı ilə məşğul olur;

- iki ölkə şirkətləri arasında ticarət və əməkdaşlıq sazişləri imzalanmışdır. Belə ki, neft və qaz sahəsində aparılan tikinti işlərində Azərbaycan şirkətləri subpodradçı kimi iştirak edirlər;

- Fransanın «Total» qrupu neft və qaz sahəsində 3 layihədə iştirak edir və Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-**C**eyhan konsorsiumuna daxil olub və s.

Hazırda DTT-nin aparı**c**ı üzvü olan Fransa Azərbay**c**anın ixra**c**ında 8 faizə qədər, idxalında isə 6 faizə qədər paya malikdir.

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında maliyyə və texniki əməkdaşlığa dair hökumətlərarası danışıqlar nəti**c**əsində çoxlu sayda texniki əməkdaşlıq layihələri həyata keçirilmiş, yaxud keçirilməsi nəzərdə tutulur ki, bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

- aqrar sektorun inventarizasiyası və aqrar siyasətin təkmilləşdirilməsi – 1 120 min avro;
- inteqrə edilmiş Ərzaq Təminatı Proqramı – 2 147 min avro;
- özəl sektorun inkişafı – 1 280 min avro;
- dövlət müəssisələrinin İqtisadi reabilitasiyası /özəlləşdirmə – 970 min avro;
- hüquq və məhkəmə islahatlarının dəstəklənməsi – 1 020 min avro;
- Tədqiqat və Mütəxəssislər Fondu – 720 min avro;
- Vərəmə qarşı mübarizə üzrə Regional Proqram – 1 738 min avro;
- Regional Ərzaq Təminatı Proqramı – 2 812 min avro;
- Aqrar təlimin və təhsilin dəstəklənməsi – 2 250 min avro;
- Regional Hüquqi Islahatlar – 2 000 min avro;
- Cənubi Qafqaz Regionunda İqtisadi əməkdaşlıq – 650 min avro;
- Qafqaz Regionunda Partnyor Şəhərlər arasında Əməkdaşlıq – 767 min avro;
- Azərbaycanda və Gürcüstanda Universal Bank Sisteminin qurulması – mln avro;
- Sosial Təsir – 1 350 min avro.

Hazırda aparı**c**ı DTT üzvü olan Almaniya Azərbay**c**anın idxalında 7 faizə qədər paya malikdir, lakin bu ölkəyə olan ixra**c**ımızın müvafiq göstəri**c**isi hələ ki, 0,3 faiz səviyyəsindədir.

Ikitərəfli əlaqələrlə bağlı daha çox nümunələr göstərmək olar: Çin, Italiya, Türkiyə, Israil, Böyük Britaniya, BƏƏ və s. Lakin bu bizi tədqiqat işinin mövzusundan uzaqlaşdıra bilər.

Əvvəldə qeyd edildiyi kimi Azərbay**c**anın dünya İqtisadiyyatına inteqrasiyası istiqamətlərindən biri də çoxtərəfli əməkdaşlıqdır. Azərbay**c**an bu əməkdaşlığı təmsil olunduğu bir sıra İqtisadi qurumlar çərçivəsində həyata keçirir. Bunlara Müstəqil Dövlətlər Birliyi (MDB), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QIƏT) və GUÖAM misal kimi göstərilə bilər.

Azərbaycan Respublikası QIƏT-in yaradılmasının ilk mərhələsindən başlayaraq təşkilatın fəaliyyətində, Bosfor Qətnaməsi və Istanbul Bəyannaməsinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan 1992-ci ildən bu təşkilatın üzvüdür. Respublikamızın QIƏT-də iştirakının əsas məqsədləri Təşkilatın əhatə etdiyi regionda malik olduğu rolunun möhkəmləndirilməsindən, Avropaya inteqrasiya siyasətini bütün ölçülərdə həyata

keçirilməsindən, Azərbaycanın tranzit potensialının gücləndirilməsindən, regionun dövlətləri ilə çoxtərəfli əməkdaşlıq mexanizminin qurulmasından ibarətdir.

Azərbaycan Respublikası Albaniya və Ermənistan istisna olmaqla yerdə qalan digər QIƏT ölkələri ilə Ticarət İqtisadi Əməkdaşlıq haqqında Sazişlər imzalamışdır. Həm QIƏT, həm də MDB üzvü olan ölkələr ilə (Gürcüstan, Rusiya, Moldova, Ukrayna) Azərbaycan Sərbəst Ticarət haqqında ikitərəfli Sazişlər imzalamışdır. Bu sazişlərdə gömrük rüsumlarının tətbiq edilməməsi, ixracat-idxalat əməliyyatlarının qeyri-tarif yollarla məhdudlaşdırılması vasitələrinin ləğvi nəzərdə tutulur.

GUAÖM təşkilatı Gürcüstan, Ukrayna, Azərbaycan, Özbəkistan və Moldova dövlətləri tərəfindən yaradılmış, adı da bu dövlətlərin baş hərflərindən formalaşmışdır. Təşkilat çərçivəsində üzvlər bir-biri üçün güzəştli gömrük və tranzit tarifləri razılaşdırmışlar.

Azərbaycanın dünya İqtisadiyyatına inteqrasiya olunmasında onun tranzit ölkə olması mühüm rol oynayır. Respublikamızın Asiya ilə Avropanın qovuşacağında yerləşməsi və Böyük Ipək Yolu layihəsinin reallaşdırılması onu dünya ticarətinin ayrılmaz hissəsinə çevirir. Heç şübhəsiz ki, ölkəmizin DTT-yə üzv olması məsələsində bu amil də nəzərə alınmalıdır. Bu marşurt üzrə tranzit tariflərinin müəyyənləşdirilməsi zamanı Azərbaycanın maraqları qorunmalıdır.

Avropa-Qafqaz-Asiya nəqliyyati dəhlizinin infrastrukturunun inkişaf etdirilməsi və yenidənqurulması işləri başa çatdırılmasa da, bu istiqamətdə yük daşımalarının həcmi artmaqda davam edir. Bu isə gələcəkdə respublikamızın bu sahədən əhəmiyyətli səviyyədə gəlirlər əldə edəcəyindən xəbər verir.

Ümumiyyətlə, respublika ərazisindən tranzit yüklər əsasən Gürcüstan, Italiya, Isveçrə, Kipr, Türkmənistan, Tacikistan, Türkiyə, Rusiya və Irana daşınmışdır.

Azərbaycan Respublikası neft ixracatçısıdır və bu ölkəmizin dünya İqtisadiyyatına inteqrasiyasının ən başlıca istiqamətidir. Hazırda Respublikamızın ixracının 82,3 faizini neft və neft məhsulları təşkil edir. Ölkəmizdən xam neft əsasən Avropanın inkişaf etmiş ölkələrinə (Italiya, Fransa və s.) – DTT-nin aparıcı üzvü olan ölkələrə ixrac olunur. Fikrimizcə, Azərbaycanın DTT-yə üzv olması prosesində neft amili də nəzərə alınmalı və dünya neft ölkələrinin bu istiqamətdəki təcrübələri tədiqiq olunmalıdır.

Karbohidrogen ehtiyatlarının hasilatı və ixracı inteqrasiya istiqaməti kimi təqdim olunarkən, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə xüsusi diqqət yetirilməlidir.

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uzunluğu 1770 km-dir. Nəzərdə tutulub ki, yaxın gələcəkdə hər il «Əsrin müqaviləsi» çərçivəsində hasil olunan 50 milyon ton Azərbaycan nefti bu kəmər vasitəsilə dünya bazarına çıxarılacaq. Üstəlik Qazaxıstan hökuməti də öz neftini bu kəmərlə nəql edəcəyini bəyan etmişdir.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri də istifadəyə verilib. Ilk növbədə Azərbaycanın «Şahdəniz» yatağından hasil olunan qaz bu kəmərlə Türkiyəyə ixrac edilir, digər Avropa ölkələrinə də ixrac imkanları yaranacaq.

Azərbaycanın xarici ticarət dövriyyəsinin regionlar üzrə göstəricilərinə diqqət yetirsək, görərik ki, burada bazar İqtisadiyyatı inkişaf etmiş ölkələrin bəziləri və Qərbi Avropa ölkələri böyük göstəricilərə malikdirlər. Lakin təhlillərimizi bir qədər də dərinləşdirsək görərik ki, bu əsasən neft amili ilə bağlıdır. Məsələn, Italiya ölkəmizin ixracında 44,7 faiz, idxalında isə cəmi 3 faiz paya malikdir. Odur ki, neft və neft məhsullarını nəzərə almadan Azərbaycanın xarici ticarət dövriyyəsinə diqqət yetirilməsi məqsədəuyğun olar. Belə olan halda biz görərik ki, milli İqtisadiyyatımızın real sektorları üzrə DTT üzvləri olan bazar İqtisadiyyatı inkişaf etmiş ölkələrə ixracın səviyyəsi qənaətbəxş deyil və onun genişləndirilməsi qloballaşma prosesləri fonunda ən aktual məsələdir.

Dünya İqtisadiyyatına inteqrasiya şəraitində Azərbaycanın başlıca maraqlarından biri ölkənin ixrac potensialının artması, respublikada istehsal olunan müxtəlif çeşidli məhsulların dünya bazarına çıxışının təmin edilməsidir. Ancaq təhlillər göstərir ki, bugünə qədər reallaşdırılan inteqrasiya prosesləri milli İqtisadiyyatın real sektorlarının ixrac potensialının artmasına arzuolunan təsiri göstərməyib. Ixracın artımında əsas rolu neft və neft məhsulları oynayıb. Buna görə də respublikamızın dünya İqtisadiyyatına inteqrasiyasının ən mühüm istiqaməti olaraq DTT-yə üzvlük məsələsi aktual məsələ kimi öndə durur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın bir sıra strateci məhsullar üzrə ixracının son illər üzrə dinamikasına diqqət yetirməyimiz, DTT-yə üzvolma ərəfəsində olan ölkəmizin ixrac potensialı haqqında daha dolğun təsəvvür formalaşdıra bilər. Hansı ki, respublikamızın dünya ticarət sisteminə sıx şəkildə qovuşmasında onun maraqlarının təmin olunması üçün bu əsas parametrdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, dünya İqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi, kapitalın beynəlxalq hərəkətindən səmərəli istifadə olunması, xarici İqtisadi fəaliyyətin genişləndirilməsi, ölkəmizin dünyada gedən qloballaşma prosesindən kənarda qalmaması üçün DTT-yə üzv olmaq Azərbaycanın qarşısında duran aktual məsələdir. Eyni zamanda, bu təşkilata üzv olarkən Azərbaycanın maraqlarının qorunması da ela o qədər aktualdır.

DTT dünyada baş verən qloballaşma, milli İqtisadiyyatların bir-birinə inteqrasiyası proseslərinin önündə duran təşkilat olaraq, yarandığı vaxtdan etibarən öz əhatə dairəsini ticarətlə yanaşı, həm də xidmət, əqli mülkiyyət, investisiya, mübahisələrin həlli və digər mühüm sahələrlə genişləndirmişdir. Bu proses indi də davam edir. Hal-hazırda DTT dünya ticarətinin 95 faizinə qədərinə nəzarət edir və 149 dövlət bu təşkilatın üzvüdür. DTT öz üzvləri üçün ümumi İqtisadi əməkdaşlıq prinsiplərinin qurulması və yeni ticarət qaydalarının formalaşdırılması üçün bir forumdur.

Azərbaycan Respublikası DTT-yə üzvlük üçün 1997-ci ildə müraciət etmişdir. Həmin vaxtdan etibarən ölkəmiz bu təşkilatda müşahidəçi kimi çıxış edir.

Respublikamızın DTT-də müşahidəçi statusu əldə etməsindən sonra, 1999-cu il 22 mart tarixində ölkənin xarici ticarət-İqtisadi fəaliyyətinin bütün aspektlərini əks etdirən "Azərbaycan Respublikasının Xarici Ticarət Recimi haqqında Memorandum" DTT Katibliyinə təqdim olunmuş və orada bu sənəd DTT-nin bütün üzvlərinə paylanmışdır. Bundan sonra, DTT qaydalarına uyğun olaraq üzv ölkələrin nümayəndələrindən ibarət Azərbaycan üzrə Işçi Qrupu yaradılmış və Almaniyanın beynəlxalq təşkilatlar yanındakı nümayəndəsi bu qrupunun rəhbəri təyin edilmişdir.

22 avqust 2003-cü ildə isə DTT-yə üzvolma məsələləri ilə bağlı yeni, 175s saylı sərəncamı imzalanmışdır. Bu sərəncamda Azərbaycan Respublikasının DTT-yə üzvolma prosesinin sürətləndirilməsi ilə əlaqədar müvafiq təkliflərin və DTT-yə təqdim olunacaq sənədlərin aidiyyatı orqanlarla razılaşdırılıb hazırlanması və DTT ilə aparılacaq danışıqlarda vahid İqtisadi siyasətin təmin edilməsi üçün əlaqələndirmənin həyata keçirilməsi öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, DTT Katibliyinə memorandum təqdim edildikdən sonrakı illərdə Azərbaycan üzrə Işçi Qrupuna daxil olan DTT üzvləri tərəfindən çoxsaylı suallar daxil olmuşdur. Avropa Birliyi, Avstraliya, Yaponiya və ABŞ tərəfindən təqdim olunmuş suallar Azərbaycan hökuməti tərəfindən cavablandırılmış və DTT Katibliyinə təqdim edilmişdir.

2002-ci ilin iyununda Cenevrədə Azərbaycan üzrə Işçi Qrupunun ilk Iclası keçirilmiş və bundan sonra Işçi Qrupunun üzvü olan bir sıra ölkələr tərəfindən (ABŞ, Avropa Birliyi, Isveçrə) Azərbaycanın xarici ticarət reciminə dair yeni suallar daxil olmuşdur.

Nazirlər Kabinetinin 175 nömrəli sərəncamında nəzərdə tutulan Azərbaycan Respublikasının DTT-yə üzv olmasına hazırlıq işləri üzrə komissiya yaradılmış və əlaqədar dövlət strukturlarının yüksək vəzifəli nümayəndələrindən ibarət olan komissiyanın müvafiq sahələr üzrə 9 Işçi Qrupu təsis edilmişdir.

ABŞ hökumətinin maliyyə dəstəyi əsasında həyata keçirilən və rezident müşavirin rəhbərlik etdiyi texniki yardım layihəsini üzvolma istiqamətində mühüm addım hesab etmək olar.

Qeyd etmək lazımdır ki, DTT-də dünyanın 149 dövləti təmsil olunur. Hazırda Azərbaycanın bu dövlətlərdən 73-ü ilə ticarət-İqtisadi əlaqəsi mövcuddur. Xam neft ixracını nəzərə almasaq, bunların sayı daha da az olar. Bunların da əksərinə Azərbaycandan ixracın səviyyəsi ümumi ixracda 0,01 faizdən də azdır. Göründüyü kimi Azərbaycanın DTT cərçivəsində xarici ticarətinin həm coğrafiyasının, həm də həcminin genişlənməsinə böyük ehtiyac var. Təşkilata üzvlük bu problemin həllinə yardımçı ola bilər. Unutmamalıyıq ki, hər hansı bir ölkədən Azərbaycana idxalın genişlənməsi də, öz növbəsində

əks əlaqənin, yəni Azərbaycandan həmin ölkəyə ixracın formalaşmasına şərait yaradır. Yəni, istər-istəməz Azərbaycana mal idxal edən xarici şirkət bu ölkədən öz ölkəsinə hər-hansı məhsulu ixrac edə bilməsi imkanlarını diqqətdən keçirir.

Respublikamızın DTT-yə qəbulunu zəruri edən digər amillər də vardır. Belə ki, Azərbaycanın qeyri-neft sektoru üzrə xarici ticarət əlaqələri əsasən MDB məkanı çərçivəsində inkişaf edib. Hazırda aparıcı MDB üzvləri DTT-yə üzv olmaq ərəfəsindədəirlər.

Qeyd etmək lazımdır ki, respublikamızın dünya ticarətində səmərəli iştirakını təmin etmək üçün strateci tərəfdaşların müəyyən edilməsi müstəsna əhəmiyyətə malikdir. Hazırkı vaxtda Azərbaycanın belə strateci tərəfdaşlarından biri Rusiya Federasiyasıdır. Belə ki, istər indi, istərsə də DTT çərçivəsində Rusiya ilə xarici ticarət əlaqələrinin səmərəli qurulması milli İqtisadiyyatımızın bir sıra strateci sahələrinin inkişafına kömək edə bilər. Istər DTT-yə üzv olarkən, istərsə də dünya İqtisadiyyatına inteqrasiyanın hər hansı formasından istifadə edərkən Rusiya ilə ölkəmiz arasında aşağıdakı uyğunluqlar, yaxud əlaqələr nəzərə alınmalıdır:

- ölkələr arsında mövcud olan üzunmüddətli və sıx İqtisadi əlaqələr;
- səmərəli infrastruktur əlaqələrinin mövcudluğu;
- hazırkı dövrdə ölkələr arasında miqrasiyanın yüksək səviyyədə olması;
- Azərbaycanda fəaliyyət göstərən iri sənaye qurğularının rus standartlarında olması;
- Rusiyanın Azərbaycandan iri həcmli kənd təsərrüfatı məhsulları idxalatçısı olması və s.

2004-cü ildə ölkələr arasında xarici-ticarət dövriyyəsinin həcmi 779, 2 milyon dollar təşkil etmişdir. Bunun 569,4 milyon dolları Rusiyadan idxal, 209,8 milyon dolları isə Azərbaycandan bu ölkəyə ixrac olmuşdur.

Belə ki, DTT-yə qəbul olarkən MDB ölkələri ilə, xüsusilə də Rusiya, Ukrayna və Qazaxıstan ilə ticarət əlaqələrinin inkişaf etdirilməsi və bu sahədə əldə edilmiş nailiyyətlərin qorunub saxlanılması üçün zəruri tədbirlər görülməlidir.

Qeyd etmək lazımdır ki, ABŞ hökumətinin Azərbaycanın DTT üzvlüyünə texniki yardım layihəsi icra olunmuşdur. Bu layihə çərçivəsində Azərbaycan Respublikasının İqtisadi Inkişaf Nazirliyi ilə ABŞ-ın Ticarət və Inkişaf Agentliyi arasında Azərbaycanın DTT-yə üzv olmasına texniki yardımın göstərilməsinə dair 7 mart 2002-ci ildə Qrant Sazişi imzalanmışdır. Iki il davam edən, 1 milyon dollar dəyərində olan layihə çərçivəsində müxtəlif sahələrdən olan əcnəbi ekspertlər Azərbaycana dəvət olunmuşlar və müvafiq sənədlərin hazırlanması ilə tanış olaraq öz rəylərini bildirmişlər.

DTT-yə qəbul ilə bağlı Azərbaycan bir neçə dəfə danışıq prosesini keçmişdir. 2004-cü ilin oktyabr ayında Cenevrə şəhərində keçirilmiş

danışıqlarda üzv ölkələr Azərbay**c**anı dəstəklədiklərini bəyan etmişlər və danışıqların növbəti mərhələsi 2005-**c**i ilin iyun ayında keçirilmişdir.

Qeyd edilməlidir ki, DTT-yə qəbul həm Azərbay**c**an tərəfindən, həm də təşkilatın digər üzvlərindən asılıdır. Azərbay**c**anın təşkilat qarşısında götürməyə hazır olduğu öhtəlik DTT-nin tələblərinə uyğunlaşdırıldıqdan sonra təşkilata qəbul gündəlik məsələyə çevrilə bilər. Hələ ki, Azərbay**c**an sual-**c**avab mərhələsindədir. Keçirilmiş görüşlərdə bir sıra sənədələr müzakirə olunmuş, üzv ölkələr tərəfindən verilmiş suallara **c**avab verilmişdir. Bu suallar əsasən aşağıdakı məsələləri əhatə etmişdir:

- kənd təsərrüfatının subsidiyalaşdırılması;
- ti**c**arətdə texniki maneələr;
- fitosanitar tədbirlər;
- əqli mülkiyyətə dair məsələlər;
- rüsumların yuxarı həddinin müəyyənləşdirilməsi və s.

Qeyd etmək lazımdır ki, müasir dövrdə Azərbay**c**anın DTT-yə qəbulunun İqtisadi səmərəsini azalda biləcək aşağıdakı problemlər mövcuddur:

- milli İqtisadiyyatın idxaldan asılılığının yüksək olması;
- xidmətlər bazarının zəif olması, bank, sığorta, digər maliyyə xidmətləri, turizm sahələrində yerli sahibkarlığın xari**c**ilərlə rəqabət səviyyəsində olmaması;
- qeyri-neft sektorlarında rəqabət qabiliyyətli məhsul istehsalının zəifliyi;
- daxili bazarın qorunması üçün qeyri-tarif maneələrindən geniş istifadə və s.

Bundan başqa, müasir dövrdə DTT qloballaşan dünya İqtisadiyyatında aparı**c**ı rola malikdir. Bu təşkilata üzvlükdən qazan**c**lar və itkilər isə birbaşa üzv olan ölkənin milli İqtisadiyyatının inkişaf xüsusiyyətlərindən, təşkilata üzv olmaq üçün aparılan danışıqlar prosesindən (razılışdırılmış güzəştlər, götürülmüş öhtəliklər və s.) və digər bu kimi amillərdən asılıdır. Odur ki, DTT-yə üzvlüklə bağlı beynəlxalq tə**c**rübənin öyrənilməsi, heç də ölkəmizin bu təşkilata üzvlüyünün zəruriliyini əsaslandırmağa kifayət etmir. Bunun üçün milli İqtisadiyyatın, xari**c**i-İqtisadi fəaliyyətin inkişaf xüsusiyyətlərinin, milli İqtisadiyyatın müxtəlif sahələrindəki köklü problemlərin dərindən tədqiqinə böyük ehtiya**c** vardır. Bu tədqiqat işi də bu istiqamətdəki **c**əhdlərdən biridir. Belə ki, respublikamızın DTT ilə əməkdaşlığı və bu təşkilata üzvlüyü zəruridir. Lakin, bununla yanaşı, ölkəmizin DTT-də təmsilinin optimal modelinin işlənməsi, strategiyanın hazırlanması və bunun üçün bir sıra amillərin nəzərə alınması qarşıda duran ən aktual problemlərdən biridir. Unutmamalıyıq ki, bu təşkilata üzvlük uzun bir prosesdir. Keçmiş sovet respublikalarının böyük əksəri Azərbay**c**andan əvvəl müra**c**iət etsələr də, hələ danışıqlar prosesini keçirlər. Tək**c**ə onu qeyd etmək lazımdır ki, namizədlərin imzalayaraq öhdəliklər götürdüyü sazişlərin sayı 18-ə çatır, əlavə olaraq isə 4 könüllü saziş mövcuddur. Hər bir sazişi imzalamaq üçün namizədlərə standart şərtlər

qoyulur. Bu standart şərtləri təmin etmək üçünsə, İqtisadiyyatda, xarici-İqtisadi fəaliyyətlə bağlı dövlət siyasətində ciddi islahatların aparılması tələb olunur. Bu isə öz növbəsində keçid İqtisadiyyatlı respublikamız üçün müəyyən zaman tələb edir:

- DTT üzvü olan ölkələr istehsalçı kimi təşkilata üzv olan digər ölkələrin bazarlarına ən əlverişli şərtlərlə çıxış imkanı qazanırlar, çoxtərəfli ticarət danışıqlarında tam və bərabərhüquqlu üzv dövlət olaraq iştirak edirlər, həmçinin DTT çərçivəsində əlverişli informasiya təminatı əldə edirlər və s;

- DTT üzvü olan ölkələr istehlakçı kimi, idxal rüsumunun azaldılması nəticəsində daxili bazarda rəqabət qabiliyyətini artırırlar, nəticədə istehlakçılar daha ucuz və keyfiyyətli mal alırlar və s.

Bundan başqa istehsalçı, yaxud istehlakçı olmasından asılı olmayaraq hər bir üzv ölkə aşağıdakı üstünlüklərə yiyələnir:

- xarici-İqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin rolu aşağı düşür, bu xarici ticarət və investisiya axını üçün bir stimul rolunu oynayır;

- DTT üzvü olan bütün ölkələrin ərazisindən əlverişli şərtlərlə tranzit hüququ əldə olunur;

- ölkənin kredit riski azalır və s.

Bir sıra alimlərin tədqiqatlarında Azərbaycanın hazırki İqtisadi durumla DTT-yə üzv olmasından çoxlu itkilər verə bilmə ehtimalları qiymətləndirilib və çoxsaylı variantlar da göstərilib. Bütün bu variantları ümumiləşdirərək və apardığımız araşdırmaların nəticələrinə əsaslanaraq itkilərlə bağlı aşağıdakı fikirləri söyləyə bilərik:

- Birincisi, DTT-yə üzv olduqdan sonra ölkədə istehsal üzrə rəqabət qlobal xarakter alacaq ki, bu da yerli istehsal üçün təhlükə yarada bilər. DTT-yə qəbul olduqda Azərbaycan xarici ticarətin tənzimlənməsinin qeyri-tarif metodlarından imtina etməli olacaq, bununla yanaşı, həm də idxal tariflərinin səviyyəsini də aşağı salmağa məcbur olacaqdır. Bununla da, daxili bazarın qorunmasının onsuz da əhəmiyyətsiz olan səviyyəsi heçə enə bilər. Nəzərə alsaq ki, yerli istehsalın əksər sahələrinin rəqabət qabiliyyətinin səviyyəsi xeyli aşağıdır, onda xarici istehsalçıların ekspansiyasının güclənməsi milli istehsalın bir sıra sahələrinin məhvinə gətirib çıxara bilər. Bu zaman, həmçinin, fiskal problemlər də yarana bilər. Belə ki, idxal rüsumlarından əldə edilən vəsait dövlət büdcəsi gəlirlərinin 24-25 faizini təşkil edir. Vergi yığımlarının lazımı səviyyədə olmaması şəraitində gömrük ödənişlərinin aşağı düşməsini konpensasiya etmək xeyli çətin ola bilər və s.

- Ikincisi, DTT-yə üzvlük ölkənin aqrar sektorunun inkişafı üçün problemlər yarada bilər; belə ki, hazırda respublikamızda idxal tarifləri vasitəsilə qorunan sahələrdən biri də kənd təsərrüfatı məhsulları bazarıdır. Həmin rüsumların ləğvi, yaxud azaldılması Azərbaycana qonşu olan ölkələrdən ucuz kənd təsərrüfatı məhsullarının idxalına stimul verər və ölkəmizdə aqrar sektorun inkişafını ləngidər. Qeyri-neft setorunun inkişaf etdirilməsinin aktual olduğu belə bir vaxtda, bu daha ciddi problemə çevrilə bilər. DTT kənd

təsərrüfatı məsələsi ilə bağlı müəyyən mülayimlik göstərsə də, kənd təsərrüfatı məhsullarının idxalını **c**iddi şəkildə sıxışdırmaq onun prinsiplərinə ziddir;

- Üçün**c**üsü, indiki məqamda DTT-yə üzvlük respublikamızda möv**c**ud olan xidmət bazarının da marağına toxunar. Bu, xüsusilə bank işi və sığorta bazarı sahəsində özünü daha kəskin şəkildə biruzə verə bilər. Bu fakdır ki, qeyd edilən sektor hələ ki, xari**c**i rəqabətlə mübarizə apara**c**aq səviyyədə deyil. Unutmamalıyıq ki, DTT-nin əasas şərtdlərindən biri də pul vəsaitlərinin və ona bərabər tutulan dəyərlərin sərbəst hərəkəti və maliyyə sektorunda liberallaşmanın aparılmasıdır.

İqtisadçı alimlər arasında Azərbay**c**anın DTT-yə üzvlüyü ilə bağlı daha nikbin düşünənlər də var. Elmi əsərlərdə qeyd edilən bu üç amilin gözlənilən mənfi təsirinin aradan qaldırılmasının bilavasitə danışıqlar prosesindən asılı olduğunun əsaslandırılmasına **c**əhd edilib. Göstərilənləri isə ümumiləşdirərək aşağıdakı kimi təqdim edə bilərik.

Birin**c**i amilə gəldikdə, belə əsaslandırılır ki, Azərbay**c**anda hazırkı vaxtda idxal rüsumları 0-dan 15 faizə qədərdir ki, bu çox aşağı səviyyədir. Hətta bir sıra DTT üzvlərinin hazırki müvafik göstəri**c**iləri ilə müqayisədə azdır. Məsələn, Polşada bu göstəri**c**i 0-22 faiz, ümumilikdə Mərkəzi və Şərqi Avropada isə 0-30 faizdir. DTT-yə qəbul olan vaxt Qırğızıstanın idxal rüsumları 0-50 faiz intervalında olub, orta göstəri**c**i 10,74 faiz təşkil edib. Təşkilata qəbul zamanı Qırğızıstan bu tarifləri 3 il müddətində 50 faiz saxlanılması güzəşti alıb. Ümumilikdə DTT-yə qəbul zamanı gömrük tariflərinin yenilənməsi üçün Latviyaya 9, Qırğızıstana 7, Gür**c**üstana 5, Moldovaya 4 il vaxt verilib. Yəni DTT-yə qəbul heç də o demək deyil ki, tariflər dərhal yenilənməlidir. Bir sözlə verilən güzəştli müddət milli İqtisadiyyatı bu prosesə hazırlamaq üçün kifayət qədər bəs edər. Həm də Azərbay**c**anda möv**c**ud tariflərin çox da yüksək olmaması bu prosesi asanlaşdıra bilər. Yəni rüsumların çox da kəskin azaldılması şərtləri qoyulmaya bilər.

ABŞ hökumətinin Azərbay**c**anın DTT-yə qəbuluna texniki yardım layihəsinin rəhbəri Iqor Kavvas bu problemlə bağlı qeyd etmişdir: «Azərbay**c**an DTT- yə qəbul olunandan sonra möv**c**ud tariflər aşağı salınmaya**c**aq. Bu daxili bazara o qədər də gü**c**lü təsir göstərməyə**c**ək. Ola bilsin ki, bəzi məhsullar üzrə tariflər aşağı düşsün. Bu da danışıqlar prosesində əldə edilən razılaşma əsasında mümkündür. Bu gün Azərbay**c**anda tariflər onsuz da aşağıdır. Əğər siz tariflər **c**ədvəlinə baxsanız görərsiniz ki, maksimum tarif dərə**c**əsi 15 faizdən yuxarı deyil. Əksər məhsullar üzrə tariflər ya 1, ya da 0,5 faizdir. Faiz dərə**c**əsi 15 olanlar çox azdır».

Əvvəldə qeyd etdiyimiz kimi, Azərbay**c**an Respublikasının Dünya Ti**c**arət Təşkilatına üzv olmaq konsepsiyası hazırlanmışdır. Bu konsepsiyanın VI fəslində qeyd edilib: «Mütəxəssislər arasında digər qızğın müzakirələrə səbəb olan məsələ, DTT-yə üzv olduqdan sonra qoruyu**c**u tədbirlərin istifadəsinin mümkünlüyüdür. Bununla əlaqədər olaraq qeyd etmək lazımdır ki, DTT-nin qaydaları protoksionizmi tamamilə qadağan etmir, gömrük tariflərinin

artmasına imkan verir, kəmiyyət məhdudiyyətlərini və lisenziyalaşdırmanı tamamilə qadağan etmir, müəyyən sahələrin subsidiyalaşdırılmasına i**c**azə verir. Lakin bunların hamısı bəzən konkret göstərilmiş, bəzən isə ümumi qaydalar və hüquqi normalarla müəyyən olunmuş əsaslarda həyata keçirilməlidir. Buna görə də Azərbay**c**anın DTT- yə qoşulması xari**c**i ti**c**arətin tənzimlənməsində dövlətimizin möv**c**ud olan imkanlarını zəiflətməyə**c**ək, əksinə, milli idxalçıların və ixra**c**atçıların maraqlarının qorunması üçün müasir hüquqi şərait yarada**c**aq və bir çox ölkələrin iştirak etdiyi çoxtərəfli ti**c**arət tə**c**rübəsinə keçidə imkan verə**c**əkdir.»

Qeyd etmək lazımdır ki, respublikada aqrar islahatların aparılmasından sonra kənd təsərrüfatı məhsullarının istehsalı üçün stimul formalaşsa da, digər köklü problemlərin möv**c**udluğu bu sahənin inkişafını əngəlləməkdə davam edir. Bu problemləri ümumiləşdirərək aşağıdakılar kimi göstərmək olar:

Texnikanın məhdudluğu; Sovet dövründən qalan aqrotexniki maşınlar və avadanlıqlar kəndli-fermer təsərrüfatlarının işinə yaramır, yaxud ümumiyyətlə onlar belə texnikadan məhrumdurlar. Bunun da nəti**c**əsində istehsal olunmuş məhsul köhnə texnika ilə, yaxud ümumiyyətlə əl ilə be**c**ərilir və yığılır ki, bu da məhsulun istehsal xər**c**lərinin yüksəlməsinə, bir sözlə onun rəqabət qabiliyyətinin azalmasına səbəb olur. Bu problemin həlli üçün, yəni texnika çatışmazlığının aradan qaldırılması üçün dövlətin dəstəyinə böyük ehtiya**c** vardır. Artıq bu istiqamətdə ilkin addımlar atılıb. Dövlət Aqro-Lizinq Xidməti yaradılıb və nəzərdə tutulub ki, ölkədə möv**c**ud olan 2400 kəndin hər birində 22 adda müxtəlif texnika və avadanlığı özündə birləşdirən aqrolizinq xidməti yaradılsın. Lakin bu layihənin yaxın illərdə tam həyata keçirilməsi mümkün deyil. Odur ki, DTT-yə qəbul olunmazdan əvvəl bu tədbirləri sürətləndirmək va**c**ibdir ki, kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyi artsın, onların rəqabət qabiliyyəti yüksəlsin.

Aqrar sahə ilə bağlı ikin**c**i aktual problem kredit resursları ilə təminatın çox zəif, hətta yox səviyyəsində olmasıdır. Belə ki, iri və məhsuldar torpaq sahələrinə malik olan kəndli fermerlər maliyyə çatışmazlığı üzündən ondan tam gü**c**ü ilə istifadə edə bilmirlər. Fikrimiz**c**ə, aqrar sektorun güzəştli və uzunmüddətli kreditlərlə təminatı sisteminin formalaşdırılması ölkəmizin DTT-yə qəbulu ərəfəsində kənd təsərrüfatının inkişafına təkan verə bilər.

Kənd təsərrüfatı məhsullarının satışı sisteminin səmərəsizliyi; hazırda kəndli-fermer təsərrüfatlarının problemlərindən biri hazır məhsulun satışı ilə bağlıdır. Tədqiqatlar göstərir ki, bu sahədə tənzimlənmə funksiyasının tamamilə bazarın öhtəsinə buraxılması səmərə vermir. Bu sektorda mükəmməl dövlət tənzimlənməsinə böyük ehtiya**c** vardır. Nəzərə almaq lazımdır ki, istehsal olunan kənd təsərrüfatı məhsullarının strukturunun formalaşması da bilavasitə satışla bağlıdır. Artıq tə**c**rübədə rast gəlinib ki, kəndli-fermerlər pambıq tarlalarını məhv edərək taxıl və digər məhsulların istehsalına üstünlük veriblər, bu da pambığın u**c**uz qiymətə alışı, yaxud ümumiyyətlə onun tədarük sisteminin möv**c**ud olmaması ilə bağlı olub. Hansı ki, bu potensial ixra**c** məhsuludur. Belə

nümunələrin sayını çoxaltmaq da olar. Fikrimizcə, kənd təsərrüfatı məhsullarının alışı ilə məşğul olan iri müəssisələrin yaradılmasına dövlət dəstəyinin göstərilməsi faydalı ola bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın DTT-yə üzvlük strategiyasının hazırlanması zamanı keçid dövrünün xüsusiyyətləri və mövcud İqtisadi durum nəzərə alınmalıdır. Keçid dövrünün xüsusiyyətlərindən çıxış etsək, bu strategiyanın əsas vəzifələrini aşağıdakı kimi göstərmək olar:

- İqtisadi potensialın mövcud vəziyyəti və daxili tələbat nəzərə alınmaqla milli İqtisadiyyatın mütərəqqi strukturunun formalaşdırılması;
- İqtisadiyyatın müxtəlif sahələrində dünya standartlarına nail olunması;
- yerli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi;
- investisiya mühitinin yaxşılışdırılması;
- milli valyutanın dönərliyinin təmin edilməsi;
- aqrar sektorun inkişafına naiml olunması və s.

Hesab edirik ki, bütün bu problemlərin həllindən sonra Azərbaycan DTT-nin tam və bərabərhüquqlu üzvü olmasından qazancəldə edə bilər. Ölkəmizin üzvlükdən qazanclarını aşağıdakı kimi təsnifləşdirə bilərik:

- Azərbaycan DTT-yə üzv olmaqla nəinki dünya ticarətində daha geniş şəkildə iştirak etmək imkanı qazana, həmçinin milli maraqlarımızı nəzərə almaqla onun inkişafında iştirak edə bilər;
- ölkəmiz ixrac üçün imtiyazlar əldə edəcək; tələblərə uyğun olaraq ölkəmiz beynəlxalq standartlara uyğun məhsullar istehsal edəcək və onun məhsullarına inam artacaq;
- DTT-yə üzv olduqdan sonra birbaşa xarici investisiyaların artmasına və ixracyönümlü sənayenin inkişafına stimul yaranacaq;
- Azərbaycana daha əlverişli şərait recimi aid ediləcək, bu ticarət əlaqələrimizin inkişafında yeni bir mərhələnin başlanması demək olardı;
- ixracatçı və idxalatçılarımız müxtəlif sazişlərə əsaslanan (GATT, GATS, TRIPS və s.) vahid hüquqi məkandan istifadə etmək imkanı qazana, həmçinin digər ölkələrlə ticarətdə beynəlxalq hüquqi müdafiə ilə təmin oluna bilərlər. Yəni ölkəmiz digər dövlətlərin əsassız ayrı-seçkilik addımlarından hüquqi cəhətdən qorunacaqlar;

- digər dövlətlərlə ti**c**arətdə və qeyri-tarif maneələrinin ölkə ixra**c**ına mənfi təsiri kəskin surətdə azala bilər;

- ölkəmizin beynəlxalq istehsal kooperasiyasına va beynəlxalq işgüzar əməkdaşlığın digər formalarına qoşulması üçün əlverişli zəmin, birgə müəssisələrin yaradılmasından tutmuş intellektual mülkiyyətin mübadiləsinə qədər əməkdaşlıq üçün geniş imkanlar yarana bilər. Bu əlaqələrə qoşulmaqla Azərbay**c**an dünya təkrar xari**c**i İqtisadi fəaliyyətə istiqamətlənmiş perspektiv istehsal sahələrinin daha da inkişaf etdirə bilər. Digər tərəfdən müasir istehsal və idarəetmə texnologiyalarının idxalı imkanları daha da genişlənə və ölkəmizə birbaşa investisiya axını gü**c**lənə bilər.

III FƏSIL. GÖMRÜK SIYASƏTI VƏ ONUN TƏKMILLIŞDIRILMƏSI

«Ölkəmizin İqtisadi mənafeyi
və təhlükəsizliyi etibarlı surətdə
qorunur»

İlham Əliyev

Milli İqtisadiyyatın inkişafında gömrük siyasətinin rolu və onun təkamülü

Respublikamızda İqtisadiyyatın sabit artım mərhələsinə daxil olması, sosial-iqtisai, demoqrafik, ekoloji problemlərin dinamik tarazlığına istiqamətlənən yeni tipli milli İqtisadiyyatın yaradılmasını tələb edir. Məhz son dövrdə Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar nəticəsində sosial-İqtisadi inkişafda böyük uğurlar qazanılıb. Belə ki, 2003-2008-ci illrədə Azərbacanda ümumi daxili məhsul 7,2 milyard manatdan 30,4 milyrd manata qalxmış, artım 4,2 dəfə olmuşdur.

Dünya ölkələrinin tarixi inkişaf təcrübəsinə əsaslanaraq beynəlxalq ticarət nəzəriyyəsi və beynəlxalq ticarətin çoxillik inkişaf tarixinə nəzər salsaq, görərik ki, azad ticarət həyata keçirilməklə beynəlxalq ixtisaslaşmanın ortaya çıxardığı bütün üstünlüklərdən faydalanmaq mümkündür. Lakin, tam sərbəst xarici ticarət yalnız nəzəri cəhətdən mümkündür. Təcrübədə isə dövlətlər xarici ticarətə bu və ya digər şəkildə müdaxilə edirlər. Bu isə xarici İqtisadi siyasətin mühüm tərkib hissəsi olan gömrük siyasətinin həyata keçirilməsini nəzərdə tutur.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük recimləri müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir. Onun əsas vasitəsini gömrük – tarif sistemi təşkil edir. Gömrük tarifləri-gömrük rüsumu alınan malların sistemləşdirilmiş siyahısından ibarətdir.

Beynəlxalq ticarət təcrübəsində azad ticarətin həm bütövlükdə dünya İqtisadiyyatında, həm də ayrı – ayrı ölkələrə bir çox faydalar bəxş etdiyi halda gömrük rüsumlarından istifadənin səbəblərini araşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Gömrük tariflərinin tətbiqi ölkənin ümumi İqtisadiyyatında, xüsusən də xarici İqtisadi fəaliyyətində bəzən mənfi nəticələr doğursa da, olduqca mühüm əhəmiyyətə malikdir və istər azad ticarət, istərsə də proteksionist ticarət siyasəti həyata keçirən ölkələrdə də onun tətbiqi labüddür.

Gömrük tariflərinin tətbiqinin ölkə İqtisadiyyatına, o cümlədən xarici İqtisadi fəaliyyətə (XIF) nə kimi təsirlər göstərdiyi və hansı nəticələrə gətirib çıxardığı barədə İqtisadçılar bir çox qənaətə gəlmişlər.

Gömrük tariflərinin tətbiq olunmasının mənfi və müsbət cəhətlərini təhlil edərək amerikan İqtisadçısı P.X.Lindert aşağıdakı nəticələrə gəlir:

1. Gömrük tarifləri ticarət edən ölkələrdə, o cümlədən onun təşəbbüsçüsü olan ölkədə rifah səviyyəsini çox vaxt aşağı salır.

2. Bir qayda olaraq tariflərin qoyulması ilə əldə edilən nailiyyətlərə başqa yollarla, özü də daha yaxşı nəticələrə nail olmaq mümkündür.

3. Sərbəst ticarət siyasətindən kənara çıxmaq isə aşağıdakı hallarda özünü doğruldur:

a) "Optimal tarif"dən istifadə olunduqda: əgər ölkə hər hansı bir malın dünya qiymətinə təsir göstərə bilirsə, tarifin elə bir səviyyəsini tapmaq olar ki, ölkə xalis mənfəət əldə etsin;

b) tarif ən optimal qərar kimi qəbul olunduqda: yəni, əgər ölkə İqtisadiyyatında daxili həll olunmaz problemlər mövcuddursa, tarifin tətbiqi bəzən mövcud İqtisadi passivlikdən faydalı ola bilir;

c) ayrı – ayrı xalis xarici ticarət problemləri həll edildikdə, bəzən gömrüklərin tətbiqi başqa İqtisadi tədbirlərdən daha səmərəli olur;

d) gömrük rüsumları idxalatla rəqabət aparan istehsalçılar üçün həmişə sərfəlidir, baxmayaraq ki, millətin ümumi rifah halı səviyyəsi bu zaman aşağı düşür.

Hər hansı bir ölkədə tariflərin doğurduğu iqtsadi nəticələri istər makroİqtisadi baxımdan, istərsə də bu və ya digər mal və yaxud da məlum bazar üçün araşdırıb meydana çıxarmaq mümkündür. Bu nəticələri daha aydın anlamaq üçün mühakimələrimizi yalnız bir mal üzərində aparaq. Bu zaman fərz edək ki, zövqlər, digər malların qiymətləri, istehlakçı gəlirləri, texnologiya və istehsal xərclərinə təsir edən amillər sabit qalır.

Fərz edək ki, idxala qoyulan gömrük tarifi malın ölkə daxilindəki qiymətini vergi miqdarı qədər yüksəldir. Onda gömrük vergisinin tətbiqi nəticəsində daxili qiymətlərin yüksəlməsi istehsalı tətbiq edəcək və daxili istehsal inkişaf edəcəkdir. Bütün bunların nəticəsindən isə idxalın həcmi müvafiq surətdə azalacaqdır.

Gömrük tariflərinin tətbiqinin bir nəticəsi də istehlakçılara olan təsirdən ibarətdir. Belə ki, onun tətbiqindən ilk növbədə istehlakçılar ziyan çəkə bilər. Istehlakçıların xarici malları satın alması onu göstərir ki, onlar məhz bu mallara üstünlük verirlər. Lakin, gömrüklərin qoyulması ilə əlaqədar olaraq istehlakçılar bu malların alınmasına daha çox pul sərf edəcəklər və yaxud onlardan az miqdarda satın almağa məcbur olacaqlar. Ona görə də gömrüklər istehlakı məhdudlaşdırır. Istehlakın azalması idxal olunan malın tələb elastikliyinə təsir göstərir və idaxlı da azaldır. Istehlakın azalması isə əhalinin rifah səviyyəsinə mənfi təsir göstərir. Nəzərə almaq lazımdır ki, idxal mallarının qiymətinin artması, son nəticədə yerli malların da qiymətinin artmasına səbəb olur.

Gömrük tariflərinin himayəçilik rolu. Gömrük vergilərinin idxal mallarının daxili qiymətlərini artırması yerli istehsalçıları xarici rəqabətdən qoruyaraq istehsalın genişlənməsi üçün şərait yaradır. Bunun nəticəsində daxili istehsalın miqdarı xeyli artır. Istehsalçılar maddi və mailyyə ehtiyyatlarını

İqtisadiyyatın başqa sahələrindən çıxararaq yüksək qiymətlərlə rəqabətə davam gətirə biləcək bu sahəyə kapital qoya biləcəklər.

Lakin, müasir İqtisadçıların əksəriyyəti hesab edir ki, sərbəst ticarətin maddi faydaları daha çoxdur. Himayəçilik milli istehsalçılara rəqabət təzyiqini azaldır və son nəticədə istehsalın səmərəliliyini də azaldır, məhdud mənbələrin israfçılığına yol açır. Çünki, hər bir vahid istehsal artımı daha yüksək real istehsal xərcləri ilə başa gəlir. Bundan başqa, əgər, himayəçilik siyasəti uzun müddət birtərəfli qaydada izafi tətbiq edilərsə, izafi qorunan müəssisələr gömrük divarları arasında istehsalın məhsuldarlığının artırılması qayğısına qalmır, onların yeni və ən yeni texnologiyanın tətbiqinə marağı azalır.

Onu da nəzərə almaq lazımdır ki, idxal ilə rəqabət vəziyyətində olan mal istehsal edən istehsalçılar tarifin tətbiqindən o zaman udurlar ki, tarif real olaraq idxalı azaltmış olsun. Istehlakçıya idxal malı nə qədər baha başa gəlirsə, o, bir o qədər çox yerli mala üz tutur. Bu zaman isə yerli istehsalçılar həm daha çox mal satışından, həm də yüksək qiymətlərdən faydalanırlar.

Lakin, ümumi ölkə miqyasında götürülərsə, tarif tətbiqindən istehlakçıların itkisi yerli istehsalçıların əldə etdiyi mənfəətdən daha çoxdur. Çünki, istehsalçılar yalnız yerli malların qiymətinin artmasından mənfəət əldə etdikləri halda, istehlakçılar həm yerli, həm də xarici malları yüksək qiymətlə satın almağa məcburdurlar.

Gömrük tarifləri dövlətin gəlir mənbəyi kimi. Tarifin idxalatçı ölkədə İqtisadi nəticələri yalnız istehsalçı və istehlakçıların vəziyyətinə təsiri ilə bitmir. Gömrük qadağanedici olmadıqda o, dövlətə gəlir gətirir və dövlətin mühüm gəlir mənbələrindən birini təşkil edir. Gömrük gəlirindən daxil olan verginin ümumi miqdarı idxal edilən malın miqdarının mal vahidinə qoyulmuş vergi məbləğinə vurulması yolu ilə hesablanır.

Qeyd etmək lazımdır ki, dünya ölkələrində "Optimal" gömrük tarifləri nəzəriyyəsi geniş yayılmışdır. Klassik xarici ticarət nəzəriyyəsi "optimal" gömrük tariflərinin tətbiq edilməsi ilə "sərbəst ticarət" ideyasından müəyyən qədər kənarlaşmağı mümkün hesab edirlər. Bunun mahiyyəti budur: əgər ölkə kifayət qədər böyükdürsə, o, idxal olunan malların qiymətini bu mallara olan tələbi azaltmaqla aşağı sala bilər. Bu halda həmin ölkə "ticarət şərtlərini" yaxşılaşdırmaq, yəni xarici satıcıları qiymətləri aşağı salmağa məcbur etmək üçün gömrük tarifləri qəbul edə bilər. Təcrübədə belə hal istehlakı az elastiklik səviyyəsinə malik olan kənd təsərrüfatı malları üçün xarakterikdir.

Bu halda xarici satıcı idxal rüsumu tətbiq edildikdən sonra mühüm ixracat bazarını itirməmək üçün qiymətləri aşağı salmağa məcbur olur.

Belə vəziyyət «Masler paradoksu"» adlanır və aşağıdakı qrafikdə öz əksini tapmışdır.



Qrafik 1.

Qrafikdə $ƏƏ_s$ xətti gömrük tarifi tətbiq edilənədək bazarda mala olan təklifin dinamikasını göstərir; $ƏƏ_s^n$ xətti T tarifi tətbiq edildikdə bazarda təklifin vəziyyətini göstərir ki, bu zaman xarici satıcı bazarı itirməkdən qorxaraq T tarifinin miqdarından çox, yəni P_1P_2 qədər aşağı saldılar; $ƏƏ_s^{n+t}$ xətti tarif tətbiq edildikdən sonra mal təklifini əks etdirir. Q_1, Q_2, Q_3 parametri alınan malların müvafiq miqdarını, DD_1 xətti isə qiymətdən asılı olaraq idxal malına olan tələbi göstərir.

Qrafikdən göründüyü kimi, qiymətlər aşağı düşdükcə istehlakçı məsrəflərinin həcmi satışın ümumi həcminin Q_1 – dən Q_2 – yə qədər birgə artması $P_3D_1Q_1O$ dördbucaqlısı əvəzinə $P_2D_2Q_2O$ dördbucaqlısının sahəsi ilə müəyyən ediləcək, istehlakçı faydası isə "a" dördbucaqlısı və "b" və "c" üçbucaqlısı miqdarında olacaqdır.

Nəzərə almaq lazımdır ki, ixracatçıların qiyməti aşağı salması üçün əsas şərt idxal edən və gömrük rüsumunu artıran ölkədə istehlakın böyük həcmdə olmasıdır.

Gömrük rüsumunun real himayəçilik səviyyəsi. Hər hansı bir mala qoyulan gömrük tarifi yalnız həmin malı istehsal edən firmaları himayə etmir. O, həmçinin, həmin firmada işləyən fəhlə və qulluqçuların gəlirlərini himayə edir.

Inkişaf etmiş sənaye ölkələrində gömrük tarifləri elə qurulur ki, vergiyə cəlb olunma səviyyəsi malın emalı dərəcəsi artdıqca çoxalır. Məsələn, emal olunmamış xam pambıq emalında gömrük rüsumu qoyulmadığı halda pmabıq parça ipliyi üçün bu tarif 7-9%, hazır məhsul üçün isə 20% səviyyəsində ola bilir.

Bununla da hər hansı bir ölkənin pambıq – parça məmulatı istehlakçısı rüsumsuz xarici pambıq satın alaraq real müdafiə səviyyəsinə malik olur ki, bu da gömrük rüsumunun nominal miqdarından xeyli çoxdur. Təcrübədə bu miqdar rüsumsuz və ya rüsumla idxal olunan xammalın xüsusi çəkisi nə qədər yüksəkdirsə, bir o qədər çox olur. Gömrük müdafiəsinin real səviyyəsi aşağıdakı formula ilə müəyyən edilir:

$$q = \frac{a_1 t_1}{t - a_1}$$

Burada : **t** – son məhsul idxalına qoyulan gömrük rüsumunun nominal səviyyəsi;

a_1 – gömrük rüsumu olmadığı halda son məhsulun qiymətində idxal olunan xammal dəyərinin payı;

t_1 – idxal olunan xammala qoyulan nominal tarif.

Formuladan aydın olur ki, müdafiə səviyyəsi yalnız xammal və hazır məhsula qoyulan rüsumun fərqi artdığı halda yüksəlmir. O, həmçinin malın emal səviyyəsi azaldıqca da artır. Şübhəsiz, inkişaf etmiş sənaye ölkələrinin belə siyasəti xammal ixrac edən inkişaf etməkdə olan ölkələrin ziyanınadır.

70 – ci illərdə aparılmış hesablamalar Avropa İqtisadi Birliyi (indiki Avropa Birliyi), ABŞ və Yaponiyada emal olunan malların gömrük müdafiəsinin həqiqi səviyyəsini üzə çıxartdı. Günümüzdə nominal və real tarif nisbətləri arasındakı fərqlər ciddi nəticələr doğurur. Inkişaf etmiş sənaye ölkələrində ən aşağı nominal tariflər xammala, ən yüksək tariflər isə sənaye məhsullarına tətbiq edilir. Belə vəziyyətdə sənaye məhsullarına tətbiq edilən real tariflər isə daha yüksəkdir ki, bu da inkişaf etməkdə olan ölkələrin sənaye ölkələrinə hazır mal ixrac etməsi yolunda maneçilikdir.

Qeyd etmək lazımdır ki, nəzəriyyəçilər arasında "sərbəst ticarət" tərəfdarları üstünlük təşkil etsə də, bəzən siyasətçilər arasında "himayəçilik" tərəfdarları çoxluq təşkil edir. Bu zaman onlar himayəçilik siyasətini müdafiə etmək üçün, adətən aşağıdakı arqumentləri irəli sürürlər:

Ölkə müdafiəsinin təmin edilməsi zərurəti. İqtisadi mahiyyətdən çox, hərbi – siyasi xarakter daşıyan bu arqument, ölkənin müdafiəsini təmin etmək üçün lazım olan strateci material və malları buraxan sahələrin gömrük rüsumu ilə himayə olunması məqsədini güdür. Bu ideyanın tərəfdarları göstərirlər ki, qeyri – sabit dünyada hərbi – siyasi məqsədlər (özünü müdafiə) İqtisadi məqsədlərdən (dünya ehtiyatlarının səmərəli yerləşdirilməsi) yüksək olmalıdır. Təcrübədə bu siyasətin həyata keçirilməsi və ehtiyatların strateci sahələrin xeyrinə bölüşdürülməsi milli təhlükəsizliyin təminatını yüksəldir, lakin istehsalın səmərəliliyini azaldır.

Daxili məşğulluğun artırılması. Ölkə daxilində iş yerlərinin sayını, xüsusən istehsalın durğunluq dövründə qoruyub saxlamaq məqsədilə də siyasətçilər bəzən bu və ya digər mal növlərinə rüsum qoyulmasını tələb edirlər. Bu tələb makroİqtisadi göstəricilərin təhlili nəticəsində meydana çıxır. Belə ki,

məlum olduğu kimi, açıq İqtisadiyyatda məcmu məsrəflər = istehlak xərcləri + kapital qoyuluşları + dövlət məsrəfləri + xalis ixracat. Burada xalis ixracat ixracatla idxalat arasında olan müsbət fərqdir. Belə bir şəraitdə idxalatın azaldılması nəticəsində məcmu məsrəflərin artması gəlirlərin və məşğuliyyətin əhəmiyyətli dərəcədə artmasına səbəb olaraq ölkənin daxili İqtisadi inkişafına müsbət təsir göstərir. Lakin, bu zaman başqa məsələləri də nəzərə almaq lazımdır:

1. Hər hansı bir məhsul növü üzrə idxalın azalması məşğuliyyətin strukturuna təsir göstərsə də onun ümumi səviyyəsini dəyişdirə bilmir, çünki məşğuliyyət bir sahədə artsa da, o biri sahədə azalır.

2. Məlumdur ki, bütün ölkələr idxal məhdudiyyəti qoyduqda eyni zamanda müvəffəqiyyət qazana bilməzlər. Bir ölkənin ixracı o biri ölkə üçün idxaldır. Ona görə də idxalın məhdudlaşdırılması ilə məşğuliyyət səviyyəsinin artırılması "qonşunu müflis etmək" siyasətidir.

3. Belə halda rüsumdan ziyan çəkən qonşu ölkə də cavab tədbiri görməyə məcbur olacaqdır. Bu isə ticarət sədlərinin yenidən artırılması kimi qorxulu meylin başlanmasına yol açа bilər.

Sabitlik naminə istehsalın diversifikasiyasının artırılması. Bu arqument belə bir müddəaya əsaslanır ki, yüksək ixtisaslaşmış İqtisadiyyatda (məsələn, Azərbaycanın neft İqtisadiyyatı və s.) gəlirlər dünya bazarında konyuktura görə gəlir dəyişmələrindən ciddi surətdə asılıdır. Ona görə də hesab olunur ki, sənayenin diversifikasiyasını (buraxılan məhsul çeşidlərinin sayının artırılması) təşviq etmək və xaricdən asılılığı azaltmaq üçün gömrük və ticarət sədlərinin qoyulması lazımdır. Bu yolla xarici siyasi və İqtisadi sarsıntılardan qorunmaqla daxili sabitliyin təmin olunması vacib hesab edilir.

İqtisadiyyatın yeni yaranmış sahələrinin qorunması. Ən çox istifadə olunan bu arqumentin mənası ondan ibarətdir ki, zəif inkişaf etmiş ölkələrdə İqtisadiyyatın yeni sahələrini müdafiə etmək üçün müvəqqəti tariflərin tətbiqi özünü doğruldur. Ona görə ki, həmin tariflər qüvvədə olduğu müddətdə yaradılan yeni sənaye sahəsi təcrübə toplayana və istehsal xərclərini xarici mal ilə gömrüyün köməyi olmadan rəqabət mübarizəsinə davam gətirə biləcək həddə qədər azaldanadək idxalı məhdudlaşdırır. Hesab olunur ki, bu himayəçilik növü yalnız həmin siyasəti yeridən inkişaf etməkdə olan ölkə üçün deyil, həm də, ümumiyyətlə, dünya təsərrüfatı sistemi üçün faydalıdır. Bu zaman əsas məsələ tarifin müvəqqəti olması arqumentidir.

Müasir mərhələdə yeni texnologiyanın tətbiqi ilə yeni – yeni istehsal sahələrinin vaxtaşırı meydana gəlməsi həmin siyasətin gələcəkdə də həyata keçiriləcəyinə dəlalət edir. Bu siyasətdən yalnız inkişaf etməkdə olan ölkələr deyil, bir sıra yüksək inkişaf etmiş sənaye ölkələri də (Yaponiya kimi) istifadə edir.

Həmin siyasətin əleyhinə aşağıdakı arqumentlər gətirilir:

1. Gömrük qanunlarını dəyişdirmək o qədər də asan olmadığı üçün müvəqqəti xarakter daşımaya bilər. Belə bir təhlükə qeyd olunur ki, gənc sahələr rentabelliyi təmin etmədən, gömrükdən əldə etdiyi mənfəətin bir

hissəsini həmin qanunların saxlanılması üçün rüşvət və s. şəkildə siyasi qüvvələrə sərf edə bilərlər.

2. Yeni yaranmış sahələrin müdafiəsi üçün digər İqtisadi tədbirlər (məsələn, birbaşa subsidiyalar) həyata keçirmək olar.

3. Tarif midafiəsi heç də həmişə səmərli ola bilməz.

Gənc dövlətlərin dövlət gəlirlərinin qorunması zərurəti. Idxaldan vergi alınması sosial problemlər içində boğulan zəif inkişaf etmiş ölkələr üçün bu problemləri həll etmək məqsədilə həyata keçirildikdə özünü doğruldur. Milli gəliri zəif inkişaf etmiş bu ölkələrin çoxunda gömrük gəlirləri büdcə gəlirlərinin 1/4 ilə 3/5 – ü (25 – 60%) arasında olur. Burada çox vaxt sosial problemlərin həlli İqtisadi səmərə məfhumundan üstün planda durur.

Himayəçi gömrük tarifinin tətbiqinə əks arqumnetlər. Sərbəst ticarətin İqtisadi çiçəklənməyə yol açdığı, himayəçiliyin isə əks nəticələr doğurduğu haqda aşağıdakı tarixi faktlar irəli sürülür:

1. ABŞ konstitusiyası ayrı – ayrı ştatlara rüsum tətbiq etməyi qadağan edərək Amerikanı nəhəng azad İqtisadi zonaya çevirmişdir. İqtisadçılar ABŞ – ın İqtisadi cəhətdən çiçəklənməsində bu məsələyə böyük əhəmiyyət verirlər.

2. XIX əsrin ortalarında Böyük Britaniyanın nisbətən azad beynəlxalq ticarət siyasəti yeritməsi onun sənayeləşməsində mühüm rol oynamışdır.

3. Avropa İqtisadi Birliyinin yaranması üzv ölkələr arasında gömrük rüsumlarının aradan qaldırılmasına yol açdı. İqtisadçılar yekdil olaraq göstərirlər ki, bu son onilliklərdə Qərbi Avropanın sürətli inkişafında vacib amil olmuşdur.

4. 30 – cu illərin ortalarından dünyada gömrük sədlərinin azalma meyli xüsusən II Dünya müharibəsindən sonra dünya İqtisadiyyatının sürətli inkişafına yol açmışdır.

5. Inkişaf etməkdə olan ölkələrin inkişaf yolunun təhlili göstərir ki, milli sənayeni müdafiə məqsədilə idxal məhdudiyyətini geniş tətbiq edən ölkələrin İqtisadi inkişaf sürəti nisbətən zəif, açıq İqtisadiyyat siyasəti yeridən ölkələrinki isə yüksək olmuşdur.

Beləliklə, bütün deyilənlərdən belə nəticəyə gəlmək olar ki, gömrük tariflərinin tətbiqi ölkənin ümumi İqtisadiyyatında, xüsusən də xarici İqtisadi fəaliyyətində bəzən mənfi nəticələr doğursa da, olduqca mühüm əhəmiyyətə malikdir və istər azad ticarət, istərsə də proteksionist ticarət siyasəti həyata keçirən ölkələrdə də onun tətbiqi labüddür.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra seçdiyi dövlət quruluşu və İqtisadiyyatın inkişaf istiqamətləri ölkə İqtisadiyyatını xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə dövlətin İqtisadi təhlükəsizliyini təmin edə biləcək orqanın yaradılmasını zəruri etdi. Keçid dövrünün ilk illərində müstəliq Azərbaycan dövlətinin idarəetmə sisteminin aparıcı elementlərindən biri – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. 1995-ci ildən başlayaraq Azərbaycan Respublikası gömrük orqanlarının fəaliyyətində köklü

dəyişikliklər baş verdi. Gömrük sistemi və infrastrukturu yenidən quruludu, bütövlükdə gömrük işinin məzmununa yenidən baxıldı. Inkişaf etmiş ölkələrin gömrük təcrübəsinin öyrənilməsi, beynəlxalq tələblərə cavab verən gömrük qanunvericiliyinin yaradılması və tətbiqi, Azərbaycan Respublikası gömrük xidmətinin və gömrük əməliyyatlarının təkmilləşdirilməsi kimi mühüm prinsiplər bu yeniləşmənin əsasını təşkil etdi.

Təşkilati tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasəti də formalaşdırıldı. Dövlətin gömrük siyasətinin başlıca məqsədi ölkədə güclü gömrük sistemi yaratmaq idi.

Azərbaycan dövləti keçid dövrünün ilk illərində respublikada güclü gömrük sisteminin formalaşmasına xüsusi diqqət yetirdi və buna qısa bir zamanda nail oldu.

Gömrük sistemi – ümumi anlayış olub, yalnız gömrük siyasətini həyata keçirən dövlət və digər icra hakimiyyəti strukturları deyil, habelə onların fəaliyyət formalarıdır.

Müstəqil Azərbaycan dövlətinin hazırda həyata keçirdiyi İqtisadi siyasətin mühüm tərkib hissəsini gömrük siyasəti təşkil edir.

Gömrük siyasəti – Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli İqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin İqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi, habelə beynəlxalq normalara uyğun gömrük işinin aparılmasıdır. Gömrük işinin hüquqi əsasını şərti olaraq 3 yerə bölürlər: konstitusiya normaları, gömrük işini tənzimləyən qanunlar, cari normativ-hüquqi aktlar.

Azərbaycan Respublikasında gömrük işini və gömrük siyasətini Dövlət Gömrük Komitəsi həyata keçirir.

Azərbaycan Respublikasının gömrük siyasəti müasir mərhələdə İqtisadiyyatın, maliyyənin, ümumi şəkildə desək, dövlətin daxili və xarici İqtisadi fəaliyyətinin əsasını təşkil etdiyindən bu siyasətin düzgün həyata keçirilməsi respublikamızda aparılan İqtisadi islahatlarla sıx surətdə bağlıdır. Yəni müxtəlif inkişaf mərhələlərində gömrük siyasəti dəyişikliklərə məruz qalsa da onun əsas məzmunu olan dövlətçilik həmişə öz mahiyyətini saxlamışdır.

Müasir mərhələdə gömrük siyasətinin əsas xüsusiyyəti yeni İqtisadi münasibətlərə keçidlə əlaqədar olaraq onun forma və məzmununda yeniliklər edilməsi, tarixən aqazınlmış müsbət keyfiyyətlərin qorunub saxlanılması və beynəlxalq təcrübənin nailiyyətlərindən istifadə olunması əsasında təkmilləşdirilməsidir.

Gömrük siyasətinin məqsədi xarici İqtisadi fəaliyyətin tənzimlənməsinin gömrük mexanizmini hərəkətə gətirən və dövlət büdcəsinin gəlir hissəsində əhəmiyyətli yer tutan rüsum və yığımların toplanmasını təmin edən strate**ci** məsələlərin həyata keçirilməsidir.

Gömrük siyasətinin inkişafı xarici İqtisadi fəaliyyəti tənzimləmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılması və milli İqtisadiyyatın maraqlarının dünyəvi qaydalar nəzərə alınmaqla müdafiəsi ilə bağlıdır.

Milli İqtisadiyyatı xarici mənfi təsirlərdən qorumaq, eyni zamanda daxili bazara keyfiyyətsiz malların idxalının qarşısını almaq məqsədilə hərtərəfli, düşünülmüş tədbirlər həyata keçirilməlidir.

Gömrük siyasətinin başlıca vəzifəsi – Azərbaycan dövlətinin İqtisadi maraqlarının və təhülkəsizliyinin təmin edilməsidir. Qaçaqmalçılıq, gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulması hallarına qarşı mübarizə aparılması, narkotik vasitələrin, silahların, Azərbaycan xalqının bədii və arxeolo**ci** sərvətlərinin, eləcə də intellektual mülkiyyətin, nadir fauna və flora nümunələrinin qeyri-qanuni daşınmasının qarşısının alınması hüquq-mühafizə fəaliyyətinin prinsipial müddəalarını əsas tutan gömrük orqanlarının ən ümdə vəzifəsidir.

Gömrük siyasətinin hüquq-mühafizə sahəsində səmərəliliyinin göstəricisi qaçaqmalçılığın ictimai təhlükəli mütəşəkkil formaların sistemli şəkildə aşkar edilməsi və qarşısının alınmasıdır.

Bu siyasətin dövlətin İqtisadi maraqlarının qournmasına yönəldilmiş əsas istiqamətlərindən biri xarici İqtisadi fəaliyyət iştirakçılarının valyuta əməliyatlarına mükəmməl nəzarət sisteminin yaradılmasıdır.

Müasir mərhələdə gömrük siyasətinin hazırlanması, onun ölkədəki İqtisadi vəziyyətin dəyişmələrinə reaksiyası və çevikliyi, milli maraqların qorunmasına istiqamətləndirilməsi, eləcə də bir sıra digər məsələlərə yeni münasibət formalaşdırılması zərurəti meydana çıxmışdır.

Bu problem, demək olar ki, bütün fəaliyyət sahəsini və bütün idarəetmə səviyyələrini əhatə edir və kompleks xarakter daşıyır.

Ilk növbədə xarici İqtisadi fəaliyyətin liberallaşdırılması və Azərbaycan Respublikasının beynəlxalq əmək bölgüsündə daha fəal iştirakı şəraitində onun tənzimlənməsinin və gömrük siyastəinin formalaşdırılmasının elmi əsasları hazırlanmalıdır. Bu zaman milli istehsalçıların səmərəli müdafiəsinin üsul və vasitələri nəzərdə tutulmalı və əsaslandırılmalıdır.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olmağa hazırlaşması, müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulması ilə əlaqədar olaraq öhdəliklər götürməsi gömrük siyasətinin, xarici İqtisadi fəaliyyətin tənzimlənməsi qaydalarının və proseduralarının beynəlxalq normalara uyğunlaşdırılması məsələsini ön plana çəkir. Bununla əlaqədar olaraq, xarici İqtisadi fəaliyyətin, qaçaqmalçılığa qarşı mübarizə üsullarının sərbəstləşdirilməsinin, milli istehsalçıların müdafiəsinin və ixracın stimullaşdırılmasının hüquqi təminatının təkmilləşdirilməsi zərurəti yaranır.

Gömrük siyasəti daxili və xarici siyasətlə bağlı olub dövlətin maraqlarını əks etdirir. Bu siyasətin özülü dövlətin İqtisadi əsasıdır. Müxtəlif inkişaf mərhələlərində o, dəyişikliklərə uğrasa da onun əsas məzmununu təşkil edən dövlətçilik dəyişməz qalır.

Azərbaycan Respublikasında gömrük işi hüquq-mühafizhə orqanları kimi vahid sistem təşkil edən gömrük orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini bilavasitə həyata keçirən orqanlar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən əsasnamələrə uyğun fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası gömrük orqanlarının vahid sisteminin müəyyən olunması, gömrük orqanlarının yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanı tərfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir.

Gömrük Məcəlləsi və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, heç kəsin Azərbaycana mal və nəqliyyat vasitələri gətirməsi və ya aparması hüququ əlindən alına və ya məhdudlaşdırıla bilməz.

Azərbaycan müstəqillik əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, İqtisadiyyatını öz milli mənafelərini əsas tutaraq demokratiya prinsipləri əsasında qurur. Bu da bütün İqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununula əlaqədar, Azərbaycan azad İqtisadiyyat, bazar İqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin uyğun gömrük re**ci**mləri müəyyən edilməklə dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən institutların məcmusu, həmçinin onun həyata keçirilmə metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi metodlarının istifadə qaydası gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.

Gömrük siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən edilir. Gömrük siyasəti xarici ticarət siyasəti ilə sıx bağlıdır:

-Azərbaycan dövləti xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata keçirilməsinə nəzarət; vahid valyuta nəzarəti sistemi; Azərbaycanın gömrük ərazisinin bütövlüyü, xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində İqtisadi tədbirlərə üstünlük verilməsi, xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və hər hansı formada ayrı-seçkiliyə yol verilməməsi; xarici ticarət fəaliyyəti iştirakçılarının hüquqi qanuni maraqlarının dövlət tərəfindən qournması, dövlətin və onun orqanlarının xarici ticarətə lüzumsuz müdaxiləsinin, onun iştirakçılarına və bütövlükdə ölkə İqtisadiyyatına zərər vurmasının qarşısının alınması və s. məsələləri təşkil edir və onları tənzimləyir.

Ölkədə aparılan gömrük siyasəti dövlətin İqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Belə ki, İqtisadi təhlükəsizlik məsələləri ölkənin İqtisadiyyatını, sosial-siyasi vəziyyətini, müdafiə qabiliyyətini və mətərəqqi inkişaf səviyyəsini təmin edə bilən vəziyyəti, tarazlaşdırma problemlərinin həlli yollarını, mümkün xarici və daxili təhlükələrə müqavimət və milli İqtisadi maraqların xarici maraqlardan mümkün qədər asılı olmamasını nəzərdə tutur.

Gömrük siyasəti onun həyata keçirilməsi üçün başlıca zəmin olan gömrük xidmətinin fəaliyyətinə arxalanır. Eyni zamanda, gömrük tənzimlənməsini yalnız gömrük orqanlarının fəaliyyəti ilə eyniləşdirmək olmaz. Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsi mürəkkəb proses olub hakimiyyətin hər üç qanadının – qanunvericilik, icra və məhkəmə hakimiyyətinin və həmçinin bu işdə maraqlı olan təsərrüfatçılıq və sahibkarlıq dairəsinin bilavasitə iştirakı ilə reallaşa biləcək bir məsələdir.

Gömrük siyasəti ölkənin İqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, respublikanın gömrük ərazisində mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən effektiv istifadə edilməsi ilə daxili bazarın müdafiəsi üçün ticari-siyasi məsələlərin həlli, milli İqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin İqtisadi siyasətinin əsas məsələlərinin həllinə təkan vermək məqsədi güdür.

Gömrük siyasətinin mahiyyəti öz əksini gömrük-tarif qanunvericiliyində, müxtəlif istiqamətli beynəlxalq gömrük birlikləri və münasibətləri yaradılmasında, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində tapır.

Gömrük siyasəti dövlətin İqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsidir və buna görə də hökumətin ümumi İqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır.

Ölkə İqtisadiyyatının inkişaf səviyyəsi və daxili istehsalçıların beynəlxalq rəqabət qabiliyyətindən asılı olaraq xarici İqtisadi siyasətin, o cümlədən də gömrük siyasətinin proteksionizm, yumşaq proteksionizm, yumşaq sərbəst ticarət və sərbəst ticarət (fritrederçilik) növləri tətbiq edilir. Bu istiqamətlər eyni zamanda ölkə İqtisadiyyatının xarici İqtisadi müdaxilələrə açıqlıq dərəcəsini nümayiş etdirir.

Proteksionist gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilir. Onun əsas məqsədləri idxal edilən mallara gömrük vergiqoymasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Proteksionist siyasətdən fərqli olaraq sərbəst ticarət siyasəti gömrük rüsumlarının daha aşağı – minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük rüsumları, yığımları (tarif və ya İqtisadi tənzimləmə), gömrük rəsmiləşdirilməsi və ömrük nəzarəti əməliyyatları, xarici ticarətin lisenziyalaşıdırlması və kvotalaşdırılması (qeyri-tarif və ya inzibati tənzimləmə) təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləri və rəsmiyyətidir.

Gömrük siyasəti müxtəlif hüquq normaları və gömrük qaydaları əsasında həyata keçirilməlidir və bu da gömrük hüququ məfhumunu meydana çıxarır.

Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırılması ilk növbədə ona görə vacibdir ki, sahibkarlıq və biznes fəaliyyətinin bu və ya digər istiqamətlərini imperativ tənzimləyərkən onun həyata keçirilməsi vasitələri istər-istəməz mülkiyyət siyasətinin xarici münasibətlərə təsiri üçün beynəlxalq-hüquqi xarakterli öhdəliklər yaratdığından onun normallaşdırılması zərurətini doğurur.

Gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Gömrük Məcəlləsindən, «Gömrük Tarifi» haqqında Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Gömrük Məcəlləsi və «Gömrük Tarifi» haqqında qanun gömrük münasibətlərinin hüquqi tənzimlənməsində baş müvqedə durur və gömrük praktikasında meydana çıxan bütün əsas hüquqi məsələləri əhatə edir. Hüquqi qüvvəsinə görə onlar yalnız Konstitutsiyadan geridə qalır və əsasında bütün gömrük qanunvericiliyinin qurulduğu və inkişaf etdirildiyi hüquqi bazanı təşkil edir.

Hal-hazırda respublikamızda gömrük münasibətlərini tənzimləyən qanun qüvvəli aktların aşağıdakı əsas növləri tətbiq edilməkdədir:

1. Kostitusiyanın 99-cu maddəsinə əsasən Azərbaycan Respublikasında Icra Haikmiyyətinin Prezidentə mənsub olması ilə əlaqədar olaraq xarici siyasətin, o cümlədən də onun tərkib hissəsi olan xarici İqtisadi və gömrük siyasətinin strate**ci** istiqamətlərinin müəyyənləşdirilməsi Prezidentin fərman və sərəncamları ilə öz həllini tapmış olur.

Keçid dövrünün ilk illərində Azərbaycan Respublikası Prezidentinin frəmanları və sərəncamları Gömrük Məcəlləsi və "Gömrük tarifi" haqqında qanun qəbul edilənə qədər gömrük münasibətlərinin əsas hüquqi və sosial cəhətləri Prezidentin fərmanları ilə tənzimlənirdi.

2. Nazirlər Kabinetinin qərarları ilə, adətən, gömrük siyasəti və gömrük hüququnun mühüm məsələləri tənzimlənir və daha yüksək statusa malik aktların icra mexanizmi müəyyən edilir.

3. Bir neçə dövlət orqanı tərəfindən bir qəbul edilən qanun qüvəli aktlar. Bu qəbildən olan aktlara nümunə kimi Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və Vergilər Nazirliyinin birgə təsdiq etdikləri, MDB ölkələri hüdudları kənarından respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisinin tətbiqi qaydaları haqqında məlumat və s. göstərmək olar.

4. Dövlət Gömrük Komitəsinin normativ aktları. Gömrük Məcəlləsinin 9-cu maddəsinə əsasən Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük orqanları, bütün başqa dövlət orqanları, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir.

Qeyd etmək lazımdır ki, dövlət müstəqilliyi hər dövlətin gömrük məsələlərinin birtərəfli qaydada daxili qanunvericiliklə tənzimlənməsi

zərurətini meydana çıxarır. Lakin, hər bir dövlətin geosiyasi mövqeyi və ayrı-ayrı dövlətlərlə əlahiddə münasibətləri bu məsələlərə xüsusi yanaşma metodları tətbiq edilməsini şərtləndirir. Eyni zamanda gömrük siyasətinin beynəlxalq əhəmiyyəti açıq-aşkardır və nəticədə bu məsələlər razılaşdırma tənzimlənməsinin mövzusuna çevrilir. Əgər hər hansı bir dövlət, gömrük məsələlərinin həlli zamanı digər dövlətlərin maraqlarını nəzərə almırsa və ya onların mənafeyinə zərbə vura bilən siyasət yericdirsə, xarici İqtisadi əlaqələri və bütövlükdə beynəlxalq əlaqələri mürəkkəbləşdirən konfliktlər meydana çıxa bilər.

Rusiya imperiyası ilə Hollandiya arasında, Böyük Britaniya ilə Fransa arasında mövcud olmuş «Gömrük Müharibələri» tarixi faktlardır.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq, həmçinin müasir gömrük tariflərinin mürəkkəbliyi, çoxsaylı gömrük rəsmiləşdirmələri qaydalarını gündəlik zərurət halına gətirilir.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq, ilk növbədə poçt göndərişlərinə gömrük nəzarəti – dəniz, dəmir yolu, hava, avtomobil yolları ilə və qarşılıqlı daşımalarda gömrük qaydalarının eyniləşdirilməsini; daimi yaşamaq üçün başqa ölkələrə gedən şəxslərin hüquqi statusunu; sərnişinlərdən ayrı gedən müşayiət olunmayan baqa**c**ın gömrük re**ci**mini əhatə edir.

Azərbaycan dövlətinin gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Gömryük Təşkilatı, MDB gömrük rəhbərləri şurası çərçivəsi, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsi, ikitərəfli münasibətlər əsasında ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə əməkdaşlıq formasında həyata keçirilir.

Gömrük sahəsində tətbiq edilən normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin, qüvvədə olan beynəlxalq müqavilələrin müddəalarına uyğunsuzluq hallarını istisna etməyə imkan verir.

Gömrük Məcəlləsinin 6-cı maddəsinə görə, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində müəyyən edilən qaydalar bu məcəllədə və gömrük işi haqqında Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, dövlətlərarası müqavilələrin qaydaları tətbiq edilir.

Milli İqtisadiyyatın formalaşdırılmasında bazar mexanizmi və dövlətin müdaxiləsi siyasətinin tədqiqini İqtisadi nəzəriyyənin aktual bir probleminə çevirmişdir. Belə bir şəraitdə ümumbəşəri inkişaf meylləri ilə spesifik milli inkişaf modellərini uzlaşdıraraq məhz respublikamıza xas səmərəli keçid və inkişaf konsepsiyasının işlənib hazırlanması və prosesdə dövlət tənzimlənməsinin yeri və rolunun düzgün müəyyənləşdirilməsi nəinki nəzəri, eləcə də əməli əhəmiyyət kəsb edir. Keçid dövründə bu problemlərin həlli respublikamızda həyata keçirilməsi nəzərdə tutulan transformasion dəyişikliklərin milli təkrar istehsal problemlərinin səmərliliyi ilə qarşılıqlı əlaqə və asılılıqda həll edilməlidir. Bu konkret problemlərlə yanaşı keçid mərhələsində respublikamızda işlənib hazırlanan inkişaf modelinin qarşısında

bir tərəfdən bazar İqtisadiyyatına keçidlə bağlı olaraq sosial-İqtisadi münasibətləri baza sisteminin tələblərinə uyğun yenidən qurmaq, digər tərəfdən isə Azərbay**c**anın suveren dövlətə çevrilməsi ilə əlaqədar olaraq təkrar istehsal prosesinin müstəqil xarakter daşıdığı müasir dövrdə ölkəmizin siyasi, İqtisadi müstəqilliyni reallaşdırmağa imkan verən sağlam milli İqtisadiyyatı formalaşdırmaq vəzifəsi dururdu.

Keçid dövründə formalaşan milli İqtisadiyyatı **c**əmiyyətdə sistem dəyişikliklərinin xüsusi şəraitinin, həyata keçirilən İqtisadi siyasətin, daxili və xari**c**i amillərin, habelə müxtəlif sosial-İqtisadi proseslərin nəti**c**əsi kimi formalaşır.

Milli İqtisadiyyat problemi öz əksini siyasi İqtisadiyyatın tarixi məktəbinin nümayəndələri olan Q.Şmoller, V.Zombart, M.Veber və A.Oykenin tədqiqatlarından götürür. Məlum İqtisadi ədəbiyyatda «milli İqtisadiyyat» anlayışına verilən başlı**c**a təriflərin araşdırılması onu aşağıdakı kimi dəyərləndirməyə imkan verir:

-milli İqtisadiyyat hər hansı bir təsərrüfat forması və ya formasiya ilə bağlı bir kateqoriya olmayıb, özündə **c**əmiyyətin, İqtisadiyyatın müxtəlif inkişaf pillələri, strukturu, xüsusiyyətlərini milli xüsusiyyətlər baxımından əks etdirir;

-milli İqtisadiyyat dedikdə, söhbət heç də bir millətə mənsub İqtisadiyyatdan getmir. Bu bütöv **c**əmiyyət, ümumdövlət səviyyəsində fəaliyyət göstərən və həmin **c**əmiyyətdə yaşayan bütün xalqa məxsus və onun mənafelərini əks etdirən İqtisadiyyatdır.

-milli İqtisadiyyat dedikdə, beynədxalq İqtisadiyyatla qarşılıqlı əlaqvə və asılılıq halında olan ayrı-ayrı ölkələrin inzibati ərazi sərhədləri üzrə təbii **c**oğrafi, sosial-İqtisadi və texniki-texnolo**ci** fərqlərinə görə bölünən müstəqil təsərrüfat sistemi başa düşülür.

-milli İqtisadiyyat bir-biri ilə qarşılıqlı asılılıqda olan müstəsna dərə**c**ədə mürəkkəb ümumİqtisadi, regional və ölkənin İqtisadi proseslərinin nəti**c**əsi kimi qiymətləndirilməlidir. Ümumən milli İqtisadiyyat anlayışlarına verilən bu xarakteristikalarla razılaşmaqla yanaşı, onu qeyd etmək lazımdır ki, milli İqtisadiyyat özünün daxili inkişaf qanunauyğunluqlarına malik hər hansı bir ölkənin hüdudları çərçivəsində fəaliyyət göstərən milli təkrar istehsalı əhatə edən institusional quruluş, milli dəyərləri, mentaliteti, əhalisinin İqtisadi təfəkkürü ilə fərqlənən, tarixi varisliyi özündə əks etdirən mürəkkəb bir sosial-İqtisadi təsərrüfat orqanizmidir.

Keçid dövründə formalaşın milli İqtisadiyyatın inkişaf səviyyəsini an**c**aq İqtisadi göstəri**c**ilərlə xarakterizə etmək qətiyyən düzgün olmazdı. Ümummilli Liderimiz Heydər Əliyev göətərirdi ki, «XX əsrdə Azərbay**c**an xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, Azərbay**c**anın müstəqil dövlətinin yaradılmasıdır… Məhz bu müddət ərzində Azərbay**c**an xalqı öz müstəqil dövlətminin konstitusiyasını qəbul etmişdir… yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər əldə edilmiş və islahatlar həyata keçirilmiş, bu proses bu gün də davam edir. Eyni zamanda son onillikdə makroİqtisadi

göstəricilərin dinamikasında çox müsbət nəticələr əldə edilmişdir». Eyni zamanda bu illərdə sosial-İqtisadi inkişafın elmi təhlili bu prosesləri birmənalı qiymətləndirməyə imkan vermir.

Bütün bunları nəzərə alaraq milli İqtisadiyyatın formalaşması gedişində respublikamızda baş verən sosial-İqtisadi prosesləri tədqiq edərkən müxtəlif İqtisadi məktəblərin inkişafa yanaşma metodologiyası və qiymətləndirməsi üsullarından kompleks istifadə etməyə çalışmaq lazımdır.

Qeyd etmək lazımdır ki, milli İqtisadiyyatlar inkişaf səviyyəsindən asılı olmayaraq müxtəlif quruluşa malik olurlar. Belə ki, məlum tarixi, İqtisadi, təbii və s. şərtlərdən asılı olaraq ayrı-ayrı ölkələr müxtəlif qrup məhsullar üzrə ixtisaslaşırlar. Buna uyğun olaraq, son nəticədə əmtəə, xidmət və kapitalların idxal və ixracının həcmi və quruluşu İqtisadiyyatın strukturundan, xüsusən, xarici İqtisadi əlaqələrin xarakterindən çox asılı olur. Bu məqsədlə milli İqtisadiyyatın xarakterinə beynəlxalq ticarətin təsirini aşkara çıxarmaq üçün aşağıdakı göstəricilərdən istifadə məqsədəuyğun hesab edilə bilər:

1. Ölkə əhalisinin beynəlxalq ticarətdən asılılıq əmsalı. Bu ölkə daxilində istehlak olunan bütün əmtəə və xidmətlərin xaricdən daxil olan əmtəə və xidmətlərin həcminə nisbəti kimi müəyyən olunur;

2. Idxal və ixraca meyllilik. Bu idxal və ixracın milli gəlirə nisbəti kimi müəyyən edilir;

3. Idxal və ixracın elastikliyinin, qiymətə və gəlirə nisbəti. Bu gəlir və qiymətin nisbi dəyişilməsindən asılı olaraq idxal və ixracın nisbi dəyişməsi və s.

Qeyd etmək lazımdır ki, keçən XX əsrin sonuncu qərinəsində dünyada baş verən proseslər nəinki artımın mərhələlərini, eləcə də onun amlilərinin nisbətini, hətta məqsədini mühüm dəyişikliklərə uğratdı.

Belə ki. 80-ci illərdə İqtisadi artımı inkişafın məqsədi elan edən dünya bankı 1991-ci ildə hazırladığı məruzədə yazılır: «…inkişafın məqsədi əhalinin həyat səviyyəsini yaxışlaşdırmaqdan ibarətdir. Orada qeyd olunur ki, həyatın keyfiyyətinin yaxşılaşdırılması, gəlirlərin səviyyəsinin artırılması ilə yanaşı təhsilin, sağlamlığın, ətraf mühitin yaxşılaşdırılmasını, imkanların bərabərliyini, şəxsi azadlığın genişləndirilməsini nəzərdə tutur».

Həmin konsepsiyaya uyğun olaraq inkişaf çoxplanlı bir proses olmaqla insanların davranışında, sosial strukturunda, ictimai institutlarda, həyat səviyyəsindəki qeyri-bərabərliyi yumşaldan, işsizliyi azaldan, İqtisadi artımı sürətləndirən bir prosesdir.

Dünyanın müxtəlif ölkələrində inkişafı təmin edən İqtisadi və qeyri-İqtisadi amilləri ətraflı təhlil edərək 1971-ci ildə Nobel mükafatı almış Saymon Kuznets İqtisadi artımın üç əsas cəhətini qeyd edir.

Dünyanın inkişaf etmiş öklələrinin təcrübəsi göstərir ki, İqtisadi artımın qeyd olunan üç əsas cəhəti və altı amilin fəaliyyətindən yüksək son nəticələr əldə olunması, bazar mexanizmi konsepsiyası daxilində müvafq İqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Bununla yanaşı

bir çox ölkələrin, xüsusən Yaponiya, **C**ənubi Koreya və digər Şərqi Asiya ölkələrinin, o **c**ümlədən, inkişaf konsepsiyası daha çox İqtisadi nəzəriyyənin milli sisteminə söykənən almaniyanın tə**c**rübəsi sübut edir ki, İqtisadi tərəqqiyə nail olmaq üçün ölkədə mütərəqqi İqtisadi siyasətin işlənib hazırlanması kifayət deyildir. Dünya ölkələrinin tə**c**rübəsi göstərir ki, **c**əmiyyətin inkişafının ümdə problemlərini həll edə bilmək ba**c**arığı an**c**aq düzgün seçilən İqtisadi siyasətlə müəyyən olunmur.

Hal-hazırda keçid mərhələsində müstəqil dövlətə çevrilən, eyni vaxtda yeni İqtisadi sistemə keçən, xüsusən, ərazisi Ermənistan tərəfindən işğal edilən Azərbay**c**anda milli mənafelər İqtisadi inkişafın xarakterinə gü**c**lü təsir göstərir. Keçid dövründə ölkəmizin qarşısında duran ən başlı**c**a makroİqtisadi məqsədlər, hər şeydən əvvəl, birin**c**isi, sosial-İqtisadi inkişafın vəhdətinin təmin edilməsi və respublika ərazisində vahid İqtisadi məkanın bərpa edilməsini; ikin**c**isi, milli İqtisadiyyatın İqtisadi təhlükəsizliyinin təmin edilməsini; üçün**c**üsü, milli İqtisadiyyatın mümkün qədər beynəlxalq miqyasda rəqabət qabiliyyətinin artırılmasını; dördün**c**üsü, **c**əmiyyətdə sosial sabitliyin təmin edilməsi ilə bağlı tədbirlər sisteminin həyata keçirilməsini tələb edir.

Hazırkı şəraitdə bazar İqtisadiyyatına keçid dövründə milli İqtisadiyyatın inkişaf konsepsiyasının işlənib hazırlanması hər şeydən əvvəl inkişafın üstünlüyü və milli prioritetlərin dəqiq müəyyənləşdirilməsini tələb edir. Dünya ölkələrində inkişaf üstünlüyünün formalaşmasının müxtəlif modelləri mövcuddur. Belə ki, sənaye**c**ə inkişaf etmiş ölkələrdə rəqabət üstünlüyü daha çox elmi-texniki tərəqqi, və texnolo**ci** təkmilləşmə əsasında əmək məhsuldarlığının yüksək səviyyəsi ilə təmin olunur. Bir qayda olaraq, bu da ölkə əhalisinin yüksək həyat səviyyəsinin təmin edilməsi ilə müşayət olunur. Eyni zamanda xüsusən, keçid dövründə olan ölkələrdə ilkin mərhələdə rəqabət qabiliyyətinin təmin edilməsi daha çox əhalinin aşağı həyat səviyyəsi və əmək haqqının təmin edilməsi hesabına əldə olunur.

Hazırkı şəraitdə Azərbay**c**anın yeni İqtisadi sistemə keçməsi respublikamızda ayrı-ayrı sahələrin və bütünlükdə ölkənin İqtisadiyyatının rəqabət üstünlüyünün yeni meyar və ölçülərə söykənməsini tələb edir. Bu isə, öz növbəsində, bir çox hallarda yeni müəyyənləşən İqtisadi inkişaf konsepsiyasında ənənəvi ilkin şərtlərindən və imkanlarından, amillərindən imtina edilməsini qarşıya qoya bilər. Keçid dövründə ölkəmizdə İqtisadiyyatın bazarın tələblərinə uyğun yenidən qurulması və onun rəqabət qabiliyyətinin təmin edilməsi, innovasiya proseslərinin kəskin gü**c**lənməsini tələb edir.

Qeyd etmək lazımdır ki, hər hansı bir sahənin rəqabət qabiliyyətinin artırılmasına və yaxud zəifləməsinə ölkədə seçilən milli üstünlüklər və İqtisadi tərəqqinin konsepsiyası da mühüm təsir göstərir. Belə ki, makroİqtisadi səviyyədə milli İqtisadiyyatın qurulşu əslində, ölkədə mövcud istehsal resurslarının istifadəsi nisbətində yaranmış faktiki vəziyyəti əks etdirir. Bu isə nəti**c**ədə i**c**timai əmək bölgüsü ilə müəyyən olunan resursların bölgüsü, milli gəlirin istehsalı, bölgüsü, mübadiləsi istehlakına mühüm təsir göstərir. Bu

baxımdan hər hansı bir ölkədə resurslar balansı, milli İqtisadiyyat və milli bazarın formalaşmasında mühüm rol oynayır. Bununla belə, əsas problem bu resurslardan necə istifadə olunması ilə bağlıdır.

Milli İqtisadiyyatın tamlığı və yetkinliyini xarakterizə edən üçüncü qrup meyarlar institusional amilləri, başqa sözlə İqtisadi siyasətin işlənib hazırlanmasını, bu proseslərdə dövlətin rolunun müəyyənləşdirilməsini, habelə bazar subyektlərinin hüquqi münasibətlərinin milli İqtisadiyyatın formalaşmasına və dərəcədə xidmət etməsini nəzərdə tutur.

Milli İqtisadiyyatın ümumdünya təsərrüfatında oynadığı rol və onun yeri, hər şeydən əvvəl, həmin dövlətin İqtisadi inkişaf səviyyəsi, məhsullarının dünya bazarında rəqabət apara bilmək bacarığı ilə yanaşı onun İqtisadi potensialının həcmi ilə müəyyən olunur. Hər bir ölkənin İqtisadi potensialı, orada istehsal olunan əmtə və xidmətlərin həcmi, quruluş və texniki səviyyəsi, milli məhsulun quruluşunda dünya bazarında rəqabət qabiliyyətli məhsulların xüsusi çəkisi, habelə ölkə daxilində və xaricində yığılmış maddi və digər sərvətlərin kəmiyyətəi ilə müəyyən olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın İqtisadi iknişaf səviyyəsini İqtisadi potensialını, həm də yaxın vaxtlarda hərəkətə gətirilə bilən imkanlar baxımından qiymətləndirmək məqsədəuyğun olardı.

İqtisadi inkişaf səviyyəsini müəyyn etmək üçün son illərdə BVF tərəfindən irəli sürülmüş müqayisəli göstəricilər sistemi geniş tətbiq olunur. Bu göstəricilər sistemi qiymətin və xərclərin səviyəsini inkişaf etmiş ölkələrin müvafiq göstəriciləri ilə müqayisə etmək üçün hazırlanır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər bir ölkədə milli İqtisadiyyatın formalaşmasında bu və ya digər amilin rolu müxtəlif ola bilər. Burada əsas məsələ mövcud İqtisadi potensialdan və subyektiv amillərdən mümkün qədər səmərəli və məqsədyönlü istifadə olunması məsələsidir.

Hazırki şəraitdə respublikamızın müstəqil dövlətə çevrilməsi nəticəsində, onun xarici İqtisadi əlaqələrinin xarakteri, prinsipləri və meyarları əsaslı surətdə dəyişmişdir. Müasir şəraitdə, Azərbaycan dünya bazarına sərbəst çıxmaq və kapitalların beynəlxalq hərəkətinə birbaşa müstəqil surətdə qouşlmaq imkanı əldə etmişdir. Odur ki, indiki şəraitdə xarici İqtisadi əlaqələrin saldosu və xarakteri İqtisadi artımın surətini və keyfiyyətini müəyyən edən mühüm bir amilə çevrilir. Artıq Azərbaycan İqtisadi artım tempinə görə bölgədə lider dövlətə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, kifayət qədər İqtisadi potensialın mövcudluğu hələ onun avtomatik reallaşdırılmasını, başqa sözlə, İqtisadi inkişafın yüksək səviyyəsini birbaşa təmin etmir. İqtisadiyyatda vaxtaşırı olaraq baş verən dəyişikliklər, son nəticədə mövcud texnoloci ukladın dəyişilməsinə səbəb olur. Bu zaman baza sahələrində baş verən elmi-texniki yeniliklər istehsalın miqyasının kəskin artmasına səbəb olmaqla yanaşı, eyni zamanda, İqtisadiyyatın strukturunun təkmilləşdirilməsini də stimullaşdırır. Bu öz növbəsində İqtisadi inkişafın dalğavari hərəkətinə səbəb olur.

XX əsrin 70-**c**i illərində BMT (Stokqolmda 1972-**c**i il) dünya birliyi qarşısında yeni bir istiqamətin davamlı inkişaf yolunu müəyyənləşdirdi. Daha sonra 1992-**c**i ildə Rio-de Caneyroda qlobal, regional və ekoloji problemlərin birgə həlli problemi irəli sürüldü və nəhayət 2002-**c**i ilin sentyabr ayında Yohannesburqda ümumdünya sammitində davamlı inkişafı təmin etmək üçün qlobal problemlərin həlli üzrə birgə fəaliyyət planı qəbul edildi.

BMT təlimatında «davamlı inkişaf» dedikdə, elə inkişaf başa düşülür ki, bugünkü problemlər həll edilərkən, gələ**c**ək nəsillərin mənafeyinə ziyan gətirilmir. Əlbəttə, problemin bu **c**ür xarakterizə edilməsi onun mahiyyətini tam dərk etməyə imkan vermir.

Bu baxımdan «davamlı inkişaf» problemi bərpa olunan resurslardan səmərəli istifadəni, başqa sözlə, gələ**c**əkdə onun kifayət hə**c**mdə təkrar istehsalını xarakterizə edən «davamlı istifadə» anlayışında nəzərdə tutulan məsələlərlə birgə həllini tələb edir. Həm də davamlı inkişaf İqtisadi sosial, ekoloji problemlərin müxtəlif səviyyələrdə birgə həllini tələb edir. Deməli. «davamlı inkişaf» İqtisadi artımın hər bir konkret halda İqtisadi sistemin potensial imkanlarının üstələməsini qəbul etmir.

Qeyd etmək lazımdır ki, mövcud problemlərin konkret həlli istiqamətləri BMT-nin davamlı mövcudluq strategiyasında öz əksini tapmışdır. Biz tədqiqat gedişində həmin istiqamətləri ümumbəşəri bir problem kimi qəbul etməklə yanaşı keyfiyyət baxımından qiymətləndirərkən, ölkəmizin qarşısında duran kəkin problemlərə üstünlük verə**c**əyik.

Qeyd etmək lazımdır ki, İqtisadi inkişaf çoxamilli, ziddiyyətli və əməli **c**əhətdən ölçülməsi çətin olan mürəkkəb bir prosesdir. Bütün bunları nəzərə alaraq, İqtisadçılar İqtisadi artımın dinamikasını əmtəə və xidmətlərin hə**c**minin dəyişməsini xarakterizə edən göstəri**c**ilərdən birinin timsalında təhlil edirlər. Onu göstərmək va**c**ibdir ki, İqtisadi artımın sürətli, sıfır və hətta mənfi səviyyəsi İqtisadiyyatın qənaətbəxş inkişafı və yaxud da böhran vəziyyətində olması haqqında tam fikir yürütməyə imkan vermir. Misal üçün, struktur irəliləyişləri nəti**c**əsində ölkədə bir qrup məhsulların istehsalının azalması və müvafiq surətlərdə digərlərinin artması, şəraitində onların dinamikası İqtisadi inkişafın xarakterinə uyğun gəlməyə bilər. Bu prosesə milli məhsulun fond, material və əmək tutumunun müxtəlif istiqamətdə dəyişməsi həlledi**c**i təsir göstərir.

Sonda belə bir nəti**c**əyə gəlirik ki, müstəqillik əldə etmiş və yeni İqtisadi sistemə keçən respublikamız üçün bütün bu problemlərin nəzəri **c**əhətdən tədqiqi və onun dövlətin İqtisadi siyasətində nəzərə artması mühüm əhəmiyyət kəsb edir. Lakin, burada nəzərə alınmamalıdır ki, məlum nəzəri dünya inkişaf modelləri nə qədər əhəmiyyətli olsa da, son nəti**c**ədə həmin prinsiplərin səmərəli reallaşdırılması onların İqtisadi sistemin konkret reallıqlarını, maddi mənafelərini nə dərə**c**ədə nəzərə almasından çox asılı ola**c**aqdır.

3.2.Gömrük siyasətinin normativ-hüquqi bazasının formalaşması

Dövlət suverenliyi hər dövlətin gömrük məsələlərinin birtərəfli qaydada daxili qanunvericiliklə tənzimlənməsi zərurətini meydana çıxarır. Lakin, hər bir dövlətin geosiyasi mövqeyi və ayrı-ayrı dövlətlərlə əlahiddə münasibətləri bu məsələlərə xüsusi yanaşma metodları tətbiq edilməsini şərtləndirir. Eyni zamanda gömrük siyasətinin beynəlxalq əhəmiyyəti açıq-aşkardır və nəticədə bu məsələlər razılaşdırma tənzimlənməsinin mövzusuna çevrilir. Əgər hər hansı bir dövlət, gömrük məsələlərinin həlli zamanı digər dövlətlərin maraqlarını nəzərə almırsa və ya onların mənafeyinə zərbə vura bilən siyasət yeridirsə, xarici İqtisadi əlaqələri və bütövlükdə beynəlxalq əlaqələri mürəkkəbləşdirən konfliktlər meydana çıxa bilər.

Gömrük sahəsində beynəlxalq-hüquqi əmakdaşlığı, həmçinin müasir gömrük tariflərinin mürəkkəbliyi, çoxsaylı gömrük rəsmiləşdirilmələri qaydaları gündəlik zərurət halına gətirilir.

Beynəlxalq ticarət dövriyyəsinin inkişafı, turist mübadiləsi, humanitar əlaqələr gömrük siyasətinin əsas istiqamətlərinin və müxəlif dövlətlərin eyni tipli normativ aktlarının koordinasiyasını nəzərdə tutan gömrük qanunvericiliyinin eyniləşdirilməsini labüd edir. Milli normaların yaxınlaşdırılmasına yardım edilməsi, beynəlxalq hüquq və əldə edilmiş hökumətlərarası razılaşmalar prinsipinə əsaslanan beynəlxalq gömrük reciminin yaradılması ön plana çıxır. Milli gömrük-hüquq sistemlərinin eyniləşdirilməsi beynəlxalq İqtisadi əməkdaşlığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşdirilməsi üçün əlverişli şərait yaradır.

Gömrük qaydalarının əsas eyniləşdirmə vasitələri beynəlxalq müqavilələrin və ixtisaslaşmış beynəlxalq təşkilatların tövsiyələridir.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına və Avropa Birliyinə daxil olmaq arzusu keçid dövrü ərəfəsində daxili qanunvericilikdə müvafiq dəyişikliklər edilməsini, tətbiq edilən hüquqi normaların beynəlxalq normalara yaxınlaşdırılmasını, rəsmiləşdirmə əməliyyatlarının sadələşdirilməsini, sürətləndirilməsi və eyniləşdirilməsini nəzərdə tutur. Son zamanlar qəbul edilmiş bir sıra qərarları bu istiqamətdə atılmış mühüm addımlar kimi qəbul etmək lazımdır. Vahid idxal gömrük rüsumunun tətbiqi, əlavə dəyər vergisi məsələlərinin çevikləşdirilməsi, bəzi mallara aksiz vergisinin tətbiqi bu qəbildən olan tədbirlərin vacib mərhələləridir.

Azərbaycan Respublikasında 1997-ci ildə «Gömrük Məcəlləsi» və 1995-ci ildə «Gömrük tarifi haqqında» qanunun qüvvəyə minməsi ilə gömrük işi sahəsində qanunvericiliyin hüquqi normativ bazasının əsası qoyuldu.

Azərbaycan Respublikasında gömrük-tarif tənzimlənməsi məsələləri, «Gömrük Məcəlləsi» və «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununda və digər qanunlarda nəzərdə tutulmuş hüquq normaları ilə həll olunur.

Gömrük Məcəlləsi «Gömrük işinin hüquqi, İqtisadi və təşkilati əsaslarını müəyyən edir, Azərbaycan Respublikasının İqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasına, Azərbaycan İqtisadiyyatının dünya təsərrüfatı ilə əlaqələrinin genişlənməsinə, gömrük işi sahəsində təsərrüfat subyektlərinin, fiziki şəxslərin və dövlət orqanlarının hüquqlarının müdafiəsinin təmin olunmasına, onların öz vəzifələrini yerinə yetirməsinə yönəldilmişdir».

Respublikada gömrük fəaliyyətini tənzimləyən gömrük qanunlarını, gömrük hüququnun mənbəyi kimi 2 şərti yarımqrupa bölmək olar:

a) bilavasitə gömrük məsələlərini tənzimləyən qanunlar;

b) dolayısı ilə gömrük məsələlərini tənzimləyən qanunlar.

Birinci qrupa «Gömrük tarifi haqqında» qanun, habelə bundan sonra bilavasitə gömrük işi ilə bağlı olaraq qəbul ediləcək digər qanunlar daxildir.

Ikinci qrupa isə «Azərbaycan respublikasının «Vergi Məcəlləsi», «Girov haqqında», «Valyuta tənzimi haqqında», «Istehlakçıların hüquqlarının müdafiəsi haqqında» və s. qanunları daxil etmək olar.

«Gömrük tarifi haqqında» qanun Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşması və tətbiqi, həmçinin ölkənin gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir.

Gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydası bu qanunda müəyyən edilmiş və əsas məqsədləri idxalın əmtəə strukturunu səmərəliləşdirmək, malların gətirilməsi və çıxarılması, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək, valyuta sərvətlərinin respublikanın gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək, əmtəə və xidmətləri istehsal etmək, istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaqdan ibarətdir. Bundan başqa respublika İqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq, İqtisadiyyatın dünya təsərrüfat ilə səmərəli inteqRasiyasına şərait yaratmaq məsələləri həyata keçirilir.

Gömrük rüsumunun dərəcəsi vahid olub, malları gömrük sərhədindən keçirən şəxslərdən, əqdlərin növlərindən, «Gömrük tarifi haqqında» qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla digər faktlardan asılı olaraq dəyişdirə bilməz.

Azərbaycan Respublikasının ərazisinə gətirilən gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir (GT maddə 3, b. 3).

Ixrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı, həmçinin xarici İqtisadi tənzimlənmənin qeyri-tarif tədbirləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycan Respublikasının əlverişli ticarət re**ci**mi tətbiq etdiyi ölkələrin

malları üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin olunur. Gömrük tari tənzimlənməsinin hüququnun əsas məqsədləri aşağıdakılardır:

1) gömrük işini həyata keçirmək, onun inkişafını və təkmilləşdirilməsini təmin etmək üçün, gömrük və digər müvafiq dövlət orqanlarına səmərəli fəaliyyət şəraiti yaratmaq;

2) gömrük siyasətinin həyata keçirilməsi üçün optimal, elmi cəhətdən əsaslandırılmış və dah çox demokratik dəyərlərə söykənmiş gömrük sistemi yaratmaq;

3) ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qanuni təminatı, onların birləşdiyi ictimai birliklərin gömrük işi ilə əlaqədar fəaliyyətləri zamanı, habelə, xarici vətəndaşlar və vətəndaşlığı olmayan fiziki şəxslərin, həmçinin hüquqi şəxslərin gömrük qanunvericiliyində nəzərdə tutulan bütün hüquqlarının qorunması üçün möhkəm, sabit hüquqi təminat yaratmaq;

4) Azərbaycan Respublikasının sosial-İqtisadi üstünlüklərini və maraqlarını qorumaq (ilk növbədə burada söhbət ölkəmizin İqtisadi suverenliyi və İqtisadi təhlükəsizliyindən, daxili bazarın qorunmasından, milli İqtisadiyyatın inkişafının stimullaşdırılmasından, həmçinin Azərbaycan İqtisadiyyatının beynəlxalq əlaqələrindən getməlidir).

Gömrük-tarif tənzimlənməsinin mühüm tərəflərindən biri də gömrük ödənişlərinin tutuşmasıdır. Bildiyimiz kimi gömrük ödənişləri «Gömrük Məcəlləsi»nin 108-ci maddəsində nəzərdə tutulub. Məcəllədə nəzərdə tutulmuş gömrük ödənişlərinə əlavə dəyər vergisi, aksizlər, gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları, saxlanmasına görə gömrük yığımları, malların gömrük müşayiətinə görə gömrük yığımları və s. aid edilir.

Mal və nəqliyyat vasitələrini keçirən şəxslərdən gömrük orqanı istənilən aldığı pul vəsaitləri gömrük ödəmələri adlanır.

Dövlətin öz xərclərini ödəmək və İqtisadi-sosial həyata müdaxiləsini təmin etmək məqsədi ilə, hüquqi və fiziki şəxslərdən qanunvericilik əsasında topladığı məcburi vəsaitlər vergilər adlanır.

Vergilər və gömrük ödəmələrinin hüquqi əsasını Azərbaycan Respublikası Gömrük Məcəlləsində nəzərdə tutulmuş müddəalar, habelə Azərbaycan Respublikasının müvafiq qanunları təşkil edir. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara əlavə dəyər vergisinin tətbiqi Gömrük Məcəlləsi və Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə uyğun həyata keçirilir.

Gömrük qanunvericiliyinə uyğun olaraq, idxal-ixrac əməliyyatlarında ƏDV və aksiz vergiləri tutulur.

ƏDV dolayı vergi olub, əhalinin xərclərindən tutulur. Çünki bu vergi istehsalda alqı-satqı prosesində yaranır. 1 yanvar 2001-ci ildən qüvvəyə minən «Azərbaycan Respublikasının Vergi Məcəlləsi»nə görə ƏDV 18% qəbul olunmuşdur. ƏDV-nin faiz dərəcəsi və hesablanması, vergitutma obyektləri müxtəlif ölkələrdə fərdi xarakter daşıyır. Azərbaycan Respublikasında da əlavə

dəyər vergisi haqqında qanun və təlimatlar qəbul olunmuşdur. 1992-ci ilə qədər ƏDV-nin dərəcəsi 28% olmuşdursa, 2001-ci ildən 18%-ə endirilmişdir. Sonda müqayisə üçün qeyd edək ki, ƏDV-nin dərəcəsi Ispaniya və Fransada 12%, Almaniyada 14%, Ingiltərədə 15%, Portuqaliyada 16% və s.-dir. Idxal olunan mallara ƏDV-nin tətbiqi iki funksiyanı yerinə yetirir:

1) xarici İqtisadi fəaliyyətinin tənzimlənməsi, daha doğrusu, daxili bazarda yerli və idxal mallarının arasındakı rəqabətin tənzimlənməsi;

2) dövlət büdcəsinin gəlir hissəsini doldurmaq üçün fiskal funksiyanı.

ƏDV-ni müəyyənləşdirərkən advalor dəyərdən istifadə olunur.

ƏDV müqavilədə göstərilən valyuta əsasında hesablanır, daha doğrusu, malın gömrük dəyəri hesablanan valyuta əsas götürülür.

ƏDV hesablanarkəq üç əsas dəyər elementinin cəmi əsas kimi götürülür:

- malın gömrük dəyəri;
- gömrük rüsumu (advalor, spesifik və kombinə edilmiş tariflərlə hesablanmış);
- aksiz kəmiyyət.

Azərbaycan Respublikasında 1995-ci ildən başlayaraq xarici ticarət mallarından əlavə dəyər vergisi tutulur. Idxal malları istehsal olunduğu ölkənin ərazisində əlavə dəyər vergisinə cəlb olunmadığı üçün, istehlakçı ölkələrdə həmin mallardan əlavə dəyər vergisi tutulur. Lakin Müstəqil Dövlətlər Birliyi ölkələri ilə xüsusi gömrük sistemi fəaliyyət göstərdiyindən, bu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə gətirilən malların əlavə dəyər vergisinə cəlb olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə tənzimlənir.

MDB ölkələrinə ixrac olunan mallardan ƏDV tutulur.

Qeyd etmək lazımdır ki, dolayı vergilərdən biri də aksizlərdir. Aksizlər istehlak mallarına və xidmətlərinə qoyulduğu üçün, bilavasitə alıcılar tərəfindən ödənilir. Aksizlərin faizi, Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Hal-hazırda aksiz faizləri 10%-dən (qiyməti metal və gümüş məmulatı) 90 %-dək (içməli spirt) dəyişir.

Qeyd etmək lazımdır ki, ixrac məhsullarına qoyulan ƏDV və aksizləri Azərbaycan Respublikası vergi orqanları, idxal olunan mallar üçün müəyyən edilmiş ƏDV-ni və aksizləri isə Azərbaycan Respublikasının gömrük orqanları toplayır.

Aksizləri advalor tariflərinə görə hesablandıqda malın gömrük dəyəri, gömrük rüsumu və gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımlarının miqdarı vergiqoymanın bazası kimi götürülür.

Mal qismində ölkənin gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin, habelə müşayiət olunmayan baqacda, beynəlxalq poçt göndərişlərində keçirilən, kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük

rəsmiləşdirilməsinə görə qanunvericiliklə müəyyən olunmuş miqdarda gömrük yığımları alınır.

Gömrük rəsmiləşdirilməsinə görə, gömrük yığımları, gömrük sisteminin xidməti xərcləri kimi qiymətləndirilir. Bu gömrük yığımları birbaşa büdcə vəsaiti hesab olunur.

Gömrük rəsmiləşdirilməsinə görə, alınan gömrük yığımları, mal və sənədlər gömrük rəsmiləşdirilməsinə təqdim olunana qədər, və ya həmin vaxt həyata keçirilir. Bu gömrük yığımları ödənilməsinin özünəməxsusluğu aşağıdakılardır:

1) gömrük yığımlarının ödənilməsi üçün hər bir vaxt alma və ya vaxt uzatma nəzərdə tutulmayıb;

2) gömrük rəsmiləşdirilməsinə görə alınmış gömrük yığımları geri qaytarılmır.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 112-ci maddəsinə görə gömrük rəsmiləşdirilməsi üçün yığımların miqdarını qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti, yəni Azərbaycan Respublikası Nazirlər Kabineti müəyyənləşdirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 saylı qərarı ilə gömrük rəsmiləşdirilməsinə görə aşağıdakı gömrük yığımlarının miqdarı müəyyən edilmişdir:

1) mal qismində ölkənin gömrük sərhədindən keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin (dəyəri 100 ABŞ dollarından az olduqda 10 ABŞ dollarından az olmayacaq), nəqliyyat vasitələrinin, həmçinin Azərbaycan Respublikası Milli Bankı tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda sifariş verilməklə gətirilən milli valyutanın gömrük rəsmiləşdirilməsinə görə gömrük dəyərinin, xarici valyuta sərvətlərinin isə nominal dəyərinin 0,15% miqdarında, Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımları alınır;

2) Azərbaycan Respublikasının gömrük sərhədindən qrant haqqında müqaviləyə əsasən qrant kimi alınan maddi yardım, humanitar və texniki yardım məqsədi ilə, habelə Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndələrinin rəsmi və nəqliyyat vasitələri, elektrik enercisinin qarşılıqlı ötürülməsi üzrə gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınır.

3) Gömrük Yük bəyamnaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məbləğində məzənnəyə görə manatla ödənc alınır.

4) Azərbaycan Respublikasının gömrük sərhədində tranzit gömrük recimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə Tranzit Yük Bəyamnaməsi üçün 10 ABŞ dolları miqdarında məzənnəyə görə gömrük yığımları alınır.

5) fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə: -

yük və minik avtomobilləri, mikro-avtobus və avtobuslar üçün – 20 ABŞ dolları; digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində məzənnəyə uyğun olaraq manatla ödənc alınır.

6) malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası orqanlarının iş vaxtından kənarda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Saxlanca görə gömrük yığımları. Gömrük anbarlarında və sahibi Azərbaycan Respublikası gömrük orqanları olan müvəqqəti saxlanc anbarlarında malların və nəqliyyat vasitələrinin saxlancına görə göstərilən xidmətlərin orta dəyərindən asılı olaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi miqdarda gömrük yığımları alınır (Gömrük Məcəlləsinin 113-cü maddə).

Malların gömrük müşayiətinə görə gömrük yığımları. Malların gömrük müşayiətinə görə, Azərbaycan Respublikası DGK-nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə müəyyən etdiyi miqdarda gömrük yığımları alınır.

Tətbiq olunan gömrük vergiləri, gömrük rüsumları və müxtəlif gömrük yığımları dövlət büdcəsi gəlirlərinin təxminən 10-25%-ə qədərini təşkil etsə də, gəlir gətirmədiyindən daha çox İqtisadi siyasət vasitəsi kimi əhəmiyyətə malikdir.

3.3. Gömrük siyasəti ilə İqtisadi təhlükəsizliyin təmin edilməsinin qarşiliqlı əlaqəsi

Gömrük xidməti ölkənin İqtisadi təhlükəsizliyinin keşiyində duran və nəticə etibarilə onun suverenliyinin qorunmasında fəal iştirak edən etibarlı qüvvədir. İqtisadi inkişafın dərinləşməsi, daxili bazarın yad təsirlərdən qorunması, dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında gömrük xidmətinin rolu böyükdür. Məlum olduğu kimi, Azərbaycan öz suverenliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradılmışdır. Lakin o zaman mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan verməmişdir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə bütün sahələrdə olduğu kimi, gömrük xidmətində də islahatlar aparılmış, Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yaranmışdır. Ulu öndərin sözlərilə desək, gömrük xidməti Azərbaycanın İqtisadı müstəqilliyinin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir.

Qeyd etdiyimiz kimi, Azərbaycanın İqtisadi inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan gömrük siyasətilə bilavasitə bağlıdır. Bütün bunlar nəzərə alınmaqla son 10 ildə Azərbaycanda uğurlu gömrük siyasətinin təməli qoyulmuş, gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır. Bununla belə, gömrük işi ölkədə və dünyada gedən ictimai-siyasi, İqtisadi-sosial proseslərdən geridə qala bilməz və daim təkmilləşdirilməlidir. Odur ki, ötən illərdə olduğu kimi, yola saldığımız 2008-cı ildə də bu sahədə görülmüş işlər davam etdirilmiş, kompleks tədbirlər həyata keçirilmişdir. Gömrük orqanlarının mühüm vəzifələrindən biri də fiskal funksiyanın – gömrük vergi və rüsumları üzrə proqnozun yerinə yetirilməsidir. Bildiyimiz kimi, son dövr Azərbaycanda mövcud olan siyasi sabitlik, həyata keçirilən İqtisadi islahatlar öz bəhrəsini verir. MakroİqtisadI göstəricilər yüksələn xətlə artır. Nəticədə dövlət büdcəsinin ölkə üzrə artım tempi dünya üzrə orta göstəricini qabaqlamışdır.

Bu gün dünyada vahid İqtisadi sistem ayrı-ayrı ölkələrin milli təsərrüfat sistemlərinin məcmusundan ibarət ümumdünya təsərrüfat sistemi formalaşır. Həmin sistemlər daim sıx əlaqədədirlər, ancaq eyni zamanda bir-birinə qarşılıqlı təsir edirlər. Azərbaycan da müstəqil dövlət kimi özünün milli təsərrüfat sistemini qurur. Bu sistemin formalaşması üçün isə onu xarici müdaxilədən qorumaq zəruridir. Çünki İqtisadi təhlükəsizlik hərbi təhlükəsizlik qədər vacibdir. Bunun təmin olunması, təbii ki, gömrük orqanlarının vəzifəsidir. Indi tam qətiyyətlə deyə bilərik ki, müstəqil Azərbaycanın müstəqil gömrük sistemi formalaşıb və qarşıya qoyulan funksiyaları kifayət qədər müvəffəqiyyətlə yerinə yetirir. Bu funksiyalar aşağıdakılardır:

I. Hüquq-mühafizə orqanı kimi gömrük xidməti təhlükəsizliyi təmin edilir, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparılır.

II. Fiskal funksiyalarının yerinə yetirilməsi, yəni dövlət büdcəsi gəlirlərinin təmin edilməsi. Bundan başqa, gömrük orqanları ölkədə yeni İqtisadi inkişaf mərhələsinin başlanmasına uyğun olaraq milli istehsalın qorunmasında proteksionist siyasətin həyəta keçirilməsinə də xidmət edirlər.

Büdcə gəlirlərinin yerinə yetirilməsində gömrük orqanları da mühüm rol oynayır. Təkcə onu qeyd etmək lazımdır ki, büdcə gəlirlərində gömrük vergi və rüsumlarının xüsusi çəkisi azalsa da, məbləği ilbəil artır. 2006-cı ilin yekunlarına əsasən, Dövlət Gömrük Komitəsi üzrə nəzərdə tutulmuş 505,4 milyon manta gömrük vergi və rüsumu əvəzinə büdcəyə 515,9 milyon manat vəsait köçürülmüş, proqnoz artıqlaması ilə təmin edilmişdir. Bir sözlə, büdcə daxilolmalarında, yəni vergi növlərində və strukturda dəyişikliklər aparılmadan maliyyə intizamı və qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, ümumiyyətlə, gömrük nəzarətinin daha effektiv təşkili və digər sahələrdə görülən tədbirlər nəticəsində Dövlət Gömrük Komitəsi hər il olduğu kimi, 2007-ci il üzrə müvafiq tapşırıqların öhdəsindən layiqincə gəlmişdir. Son illər Azərbaycan gömrük xidmətinin maddi-texniki bazası möhkəmləndirilmiş, qanunvericilik bazası təkmilləşdirilmişdir. Bunlar isə növbəti uğurlara əsaslı yol açır.

Ölkə İqtisadiyyatının inkişafında özünəməxsus yeri olan gömrük orqanları əvvəlki illərdə olduğu kimi, ötən hesabat ilində də fəallıq göstərərək, "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu ilə gömrük vergi və rüsumları üzrə müəyyən edilmiş proqnozun artıqlaması ilə yerinə yetirilməsini təmin etmişdir.

Məlum olduğu kimi, ölkədə yeni İqtisadi inkişaf mərhələsi başlayıb. Bundan əvvəl ölkəmiz iki inkişaf mərhələsi yaşadı. Siyasi stabilliyin təmin olunması mərhələsi 1996-cı ildə başa çatdı. Sonra start götürən makroİqtisadi stabilliyin təmin olunması 1996-2000-ci illərdə həyata keçirildi. Həmin dövrdə birinci özəlləşdirmə proqramını həyata keçirməklə yanaşı makroİqtisadi stabillik əldə olundu. Bu müddətdə milli valyutanın kursu, inflyasiya səviyyəsi, xarici valyuta ehtiyatlarının formalaşması müsbət istiqamətdə dəyişib. Bütün bunlardan sonra yeni bir inkişaf mərhələsi başlayıb. Gömrük orqanlarının vəzifələri də bu mərhələlərə uyğun olaraq dəyişir. Birinci mərhələdə gömrük orqanlarının fəaliyyətində əsas diqqət bilavasitə sərhədlərin tam şəkildə qorunması idi. Yəni sərhəddən ölkəyə hər hansı yad ünsür daxil olmasının qeyri-qanuni miqrasiyanın, qaçaqmalçılıq və narkotik vasitələrin dövriyyəsinin qarşısının alınması əsas məqsəd idi. Yəni ölkə daxilində həyata keçirilən siyasi stabillik proseslərinə kənar təsirlərin qarşısının alınması zəruri idi. Ikinci mərhələdə isə, əsas məsələ fiskal funksiyanın həyata keçirilməsi, yəni büdcənin gəlirlərinin proqnoz səviyyəsində təmin olunması idi. Amma indiki mərhələdə bu funksiyalar sırasına proteksionist funksiya da əlavə olunub. İqtisadi inkişafın

təmin olunması üçün yerli istehsalın qurulmasına ehtiyac var. Ölkədə daxili istehlak bazarının formalaşması və onun strukturunun dəyişməsində gömrük orqanları mühüm rol oynamalıdır. Istehlak bazarı iki hissədən ibarətdir: əhalinin istehlak bazarı və istehsal sahələrinin istehlak bazarı. Onların hər ikisində struktur dəyişdirilməli, istehlakda yerli və xarici xammalın həcmi müəyyənləşməlidir. Hesab edirəm ki, İqtisadi inkişafın təmin olunmasında təkcə DGK yox, İqtisadi Inkişaf Nazirliyi, bank qurumları, vergilər, maliyyə nazirlikləri birgə kompleks şəkildə fəaliyyət göstərməlidirlər. Bildiyiniz kimi, dövlət başçısı 2003-cü il üçün Dövlət Neft Fondu büdcəsinin formalaşması haqqında fərman imzaladı. Fərmanda Nazirlər Kabinetinə tapşırılıb ki, Neft Fondunun vəsaitlərindən səmərəli istifadə etmək üçün investisiya proqramları hazırlansın. Çox vacib olan bu məsələ onu göstərir ki, ölkədə yaranmış həm xarici valyuta resursları, həm də Neft Fondunun vəsaitləri hesabına yerli istehsalın inkşaf etdirilməsinə başlamaq lazımdır. Hazırda bu istiqamətdə iş aparılır. Qeyd etmək lazımdır ki, həmin investisiya proqramlarının təmin edilməsində idxal və ixrac əməliyyatları və hazırki fəaliyyətin təsirini mütləq nəzərə almaq lazımdır. Bu proseslərin səmərəliləşdirilməsi isə İqtisadçıların üzərinə düşür.

2006-cı il ərzində Azərbaycanın gömrük orqanları ölkənin İqtisadi mənafeyinin və təhlükəsizliyinin qorunması, qaçaqmalçılığa və gömrük işi sahəsində digər hüquqpozmalara qarşı mübarizə aparılması istiqamətində hüquq-mühafizə sahəsində fəaliyyətini gücləndirməklə kompleks tədbirlər həyata keçirmişdir. Hesabat dövründə gömrük orqanlarının əməliyyat bölmələrinin fəaliyyəti əsasən qaçaqmalçılığa qarşı mübarizənin aparılmasına, xüsusilə də qaçaqmalçılıq kanallarının aşkar olunmasına və ləğvinə, qabaqlayıcı, profilaktik və əməliyyat-axtarış tədbirləri vasitəsilə gömrük ödənişlərinin ödənilməsindən yayınmanın və digər hüquqpozmaların qarşısının alınmasına yönəlmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində həmin il 5326 hüquqpozma faktı aşkar edilmişdir. Bu faktlardan 181-i cinayət xarakterli faktlar olmuş, 185 nəfər (123 Azərbaycan, 62 xarici ölkə vətəndaşı) şübhəli şəxs qismində saxlanılmışdır. Gömrük orqanlarının işinin əsas istiqamətlərindən biri də idxal-ixrac əməliyyatları zamanı valyuta qanunvericiliyinin pozulmasına qarşı mübarizə təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş 2006-cı ilədək olan dövr üçün nəzərdə tutulan "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə gömrük orqanları tərəfindən digər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq şəraitində görülən tədbirlər nəticəsində 2006-cı ilin müvafiq dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 44 fakt aşkarlanmış, həmin faktlar üzrə 13 kq 322,56 qram narkotik, o cümlədən 3 kq 187,497 qram tiryək, 8 kq 717,57 qram marixuana, 62 qram həşiş, 854,893

qram heroin, 1364 ədəd psixotrop maddə (ampul, kapsul və həb şəklində) tutulmuşdur.

Hazırda DGK dünyanın 12 ölkəsi ilə gömrük fəaliyyətində qarşılıqlı əqalələr qurub. Bu əlaqələr əsasən informasiya mübadiləsi, narkotiklərin qeyri-qanuni dövriyyəsi, qaçaqmalçılığın qarşısının alınması, həmçinin gömrük dəyərləndirilməsinin düzgün həyata keçirilməsi istiqamətlərində qurulur.

Ildən-ilə artan ixrac-idxal əməliyyatlarının həcmi müvafiq texniki və proqram təminatını tələb edirdi. 1999-cu ildən başlayaraq Dövlət Gömrük Komitəsinin rəhbərliyinin diqqəti nəticəsində gömrük xidməti üçün çox vacib şəbəkələr və avtomatlaşdırılmış sistemlər yaradılmışdır.

Hazırda 57 gömrük orqanını birləşdirən və "on-line" recimində işləyən korporativ şəbəkə yaradılıb, 31 gömrük orqanında GRNAS-ın tətbiqi tamamlanır, 19 gömrük orqanında "Hüquqpozmaların uçotu və nəzarəti avtomatlaşdırılmış sistemi" tətbiq olunub, 29 gömrük orqanında informasiya mübadiləsini təmin edən "Çatdırma" proqram təminatı istifadə olunur.

Məlum olduğu kimi, ölkə İqtisadiyyatının dinamik inkişafı şəraitində gömrük xidmətinin də daim təkmilləşdirilməsi vacib amildir. O cümlədən, gömrük işinin tələb olunan səviyyədə təşkili, beynəlxalq normalara uyğun aparılması bu sahədə normativ bazanın təkmilləşdirilməsi və gömrük nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarının geniş tətbiqindən asılıdır. Artıq 10 ilə yaxındır ki, bu istiqamətdə Dövlət Gömrük Komitəsi Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramının ölkəmizdəki ofisi ilə əməkdaşlıq edir.

2006-cı ilin noyabrında təqdimatı keçirilən yeni Gömrük Məcəlləsi layihəsinin hazırlanmasında məqsəd də davamlı İqtisadi inkişafa müasir xidmət göstərmək, başqa sözlə, XXI əsrin yeni çağırışları əsasında çevik gömrük modelini formalaşdırmaqdır. Yeni Gömrük Məcəlləsinin hazırlanması Avropa Birliyi və Birləşmiş Millətlər Təşkilatı Inkişaf Proqramının birgə layihəsi olan – "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində həyata keçirilmişdir. Layihə çərçivəsində Avropa Birliyinə üzv olan Estoniya və Isveçin gömrük xidmətləri ilə yaxından tanışlıq və təcrübə mübadiləsi aparmaq üçün Dövlət Gömrük Komitəsinin mütəxəssislərindən ibarət bir qrup əməkdaş bu ölkələrə səfər etmişlər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin tətbiqinə dair Dövlət Gömrük Komitəsinin mövcud siyasət və prosedurlara tələb olunan əlavə və dəyişiklikləri ilə yanaşı, informasiya texnologiyalarının tətbiqi sahələrinin müəyyənləşdirilməsində mühüm rol oynayacaqdır. Ümumiyyətlə, Avropa Birliyinə üzv dövlətlərin gömrük işi ilə bağlı qanunvericilik aktlarının və qabaqcıl iş təcrübələrinin dərindən öyrənilməsi Azərbaycanın yeni Gömrük Məcəlləsinin layihəsinin beynəlxalq standartlara uyğun şəkildə işlənib hazırlanması işinə yaxından kömək göstərmişdir. Məlumat üçün onu da qeyd edim ki, "Azərbaycan Respublikasının Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində yeni Gömrük

Məcəlləsinin işlənib hazırlanması ilə bağlı Azərbaycanın müvafiq dövlət qurumlarının nümayəndələri və ölkəmizdə fəaliyyət göstərən sahibkarlarla görüşlər keçirilmiş və onlarla fikir mübadiləsi aparılmışdır. Bir sözlə, Azərbaycan gömrük xidməti bu dövr ərzində də öz fəaliyyətini beynəlxalq normalara, Ümumdünya Gömrük Təşkilatının prinsiplərinə, Azərbaycan Respublikasının qanunlarına, gömrük işinə dair normativ-hüquqi aktlara uyğun olaraq qurmuş, gömrük nəzarətini və gömrük işinə dair normativ-hüquqi bazanı təkmilləşdirmək, maliyyə intizamını möhkəmləndirmək, qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizəni gücləndirmək, şəxsi heyətlə aparılan işin səmərəsini artırmaq, gömrük orqanlarının maddi-texniki bazasını inkişaf etdirmək və beynəlxalq əlaqələri gücləndirmək istiqamətində məqsədyönlü iş aparmışdır.

Bunlarla birlikdə, gömrük orqanlarının əməkdaşları tərəfindən gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin səmərəli və operativ şəkildə həyata keçirilməsi, sərhəd keçid məntəqələrində sərnişin axınının sürətləndirilməsi və mal dövriyyəsinin artırılması məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən yerli gömrük orqanlarının müasir standartlara cavab verən texniki nəzarət vasitələri ilə təmin olunması işi davam etdirilir, yeni alınmış texniki nəzarət vasitələrindən düzgün istifadəni təmin etmək üçün mütəmadi kurslar təşkil olunur. Son illər ərzində gömrük statistikasının və bu sahədə informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirilmişdi. Ümumiyyətlə, gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı Dövlət Gömrük Komitəsinin daim diqqət mərkəzindədir. Gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı əsasən müxtəlif gömrük prosedurlarında informasiya texnologiyalarının geniş tətbiqindən asılıdır. Hazırda bu sahə üzrə DGK mal və nəqliyyat vasitələri dövriyyəsinin məlumatlarının yığımını təmin edən sistemin yaradılması, gömrük orqanlarıarası informasiya mübadiləsinin təmin olunması, gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılması, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizənin informasiya təminatının təşkili, gömrük inspektorlarının avtomatlaşdırılmış iş yerlərinin yaradılması, mərkəzi aparata gündəlik daxil olan məlumatların yoxlanılması və müvafiq məlumat bazalarının təşkili, eləcə də xarici-İqtisadi əlaqələrin təhlilinin avtomatlaşdırılmış recimdə aparılması istiqamətlərində işlə yekunlaşır. Eyni zamanda, DGK-da və sərhəd gömrük idarələrində videokonfrans avadanlıqları quraşdırılmışdır ki, bu da idarə rəhbərlərinə videokonfranslar vasitəsi ilə həlli çox vacib və təxirəsalınmaz məsələləri iş yerlərini tərk etmədən komitə rəhbərləri ilə canlı ünsiyyətdə müzakirə və həll etməyə, vacib qərarlar qəbul etməyə imkan yaradır.

Respublikada aparılan gömrük siyasətinin əsas istiqamətlərindən biri də gömrük rəsmiləşdirilməsi və nəzarətinin şəffaflığının təmin edilməsidir. Bu məqsədlə gömrük inspektorlarının avtomatlaşdırılmış iş yerlərinin yaradılmasına da böyük diqqət verilir. Belə ki, "Avtonəqliyyat", "Müvəqqəti yüklərə nəzarət" və «Gömrük mədaxil orderləri» proqram təminatları yaradılıb

və gömrük orqanlarında tətbiq olunub. Aparılan işlər nəticəsində Dövlət Gömrük Komitəsi mal və nəqliyyat vasitələrini təsvir edən məlumatları şəbəkə vasitəsilə yığır, yoxlayır və 4 – "Sərhəd", "Yük gömrük bəyannamələri", "Tranzit" və "Gömrük mədaxil orderləri" məlumat bazalarını yaradır. Göstərilən məlumat bazalarının emalı nəticəsində hər ay xarici-İqtisadi əməliyyatların makroİqtisadi təhlili aparılır və müvafiq icra orqanlarına təqdim olunur. Eyni zamanda, hər rüb üzrə "Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikası" bülleteni tərtib olunur və icra orqanlarına, beynəlxalq təşkilatlara, səfirliklərə və MDB ölkələrinə göndərilir.

Ötən müddətdə gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir avadanlıq və texniki vasitələrlə təchiz olunması istiqamətində başlanılmış iş davam etdirilmiş, əsaslı tikinti və təmir işləri aparılmışdır. Belə ki, Culfa, Şirvan, Sumqayıt gömrük idarələrinin və "Azterminalkompleks" Təsərrüfat Hesablı Xarici İqtisadi Birliyinin yeni inzibati binaları, eləcə də Bakı Baş Gömrük Idarəsinin "Ipək Yolu", Xaçmaz Gömrük Idarəsinin "Şirvanovka" gömrük postları istifadəyə verilmişdir. "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi» layihəsi üzrə Dövlət Gömrük Komitəsinə kömpüter avadanlıqları, ABŞ hökuməti adından isə digər texniki avadanlıqlar təqdim olunmuşdur. Bundan başqa, Dövlət Gömrük Komitəsində informasiya-sorğu mərkəzi və müasir server xidməti istifadəyə verilmişdir.

2006-cı ilin noyabr ayında Azərbaycan Respublikası Gömrük Məcəlləsinin yeni layihəsinin təqdimatı keçirilmiş, "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" hazırlanmış, "GUAM Ticarət və Nəql etməyə yardım layihəsinin həyata keçirilməsi üzrə Milli Plan" qəbul olunmuşdur.

Ölkədə korrupsiyaya və digər neqativ hallara qarşı mübarizəni gücləndirmək məqsədilə gömrük ödənişlərinin xüsusi ödəniş kartları vasitəsilə həyata keçirilməsi üçün Bakı və Hava Nəqliyyatında Baş Gömrük Idarələrində, habelə Sumqayıt və Avtonəqliyyat Gömrük Idarələrində, bir çox digər gömrük orqanlarında ödəniş post-terminalları artıq fəaliyyətə başlamış. Mal və nəqliyyat vasitələri üzərində gömrük nəzarəti və rəsmiləşdirilməsinin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində tədbirlər hesabat ilində davam etdirilmiş, bu sahədə avtomatlaşdırılmış sistemin ilk olaraq Bakı Baş Gömrük Idarəsinin "Ipək Yolu" gömrük postunda tətbiqinə başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, sahibkarlığın inkişafı, bu sahədə əsassız müdaxilə hallarının qarşısının alınması barədə sərəncam və göstərişlərinə uyğun olaraq ötən hesabat ilində Dövlət Gömrük Komitəsi ilə iş adamları arasında əlaqələndirici funksiyanı həyata keçirən Koordinasiya Şurasının fəaliyyəti gücləndirilmiş, sahibkarların fəaliyyətinə lüzumsuz müdaxilələrin qarşısının alınması, həmçinin daxili bazarı qorumaq və ixracı stimullaşdırmaq məqsədilə lüzumsuz tarif güzəştlərinin ləğvi yönümündə tədbirlər həyata keçirilmişdir. Beynəlxalq təşkilatların tövsiyələri nəzərə alın-

maqla hazırda tətbiq olunan gömrük idxal rüsumlarının çoxpilləli sistemdən azpilləli sistemə keçilməsi barədə müvafiq təkliflər hazırlanıb baxılmaq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. Gömrük statistikasının daha da təkmilləşdirilməsi, yeni, müasir informasiya texnologiyalarının tətbiqi işi davam etdirilir.

Dövlət Gömrük Komitəsi beynəlxalq gömrük əməkdaşlığının genişləndirilməsi, beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi istiqamətində işini davam etdirmiş, dünyanın bir çox qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə qarşılıqlı əməkdaşlığa dair sənədlər qəbul edilmiş, o cümlədən ası Maliyyə Mühafizə Xidməti arasında əməkdaşlıq haqqında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Macarıstan RespublikProtokol, "Moldova Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır.

1995-ci ildən qarşılıqlı əməkdaşlığa başladığımız Amerika Birləşmiş Ştatlarının Gömrük və Sərhəd Mühafizə Xidməti nümayəndə heyətinin bu mütamadi ölkəmizə səfəri Azərbaycan-Amerika gömrük xidmətlərinin əməkdaşlığında yeni mərhələ olmaqla gömrük məsələləri üzrə hökumətlərarası Sazişin imzalanmasını sürətləndirməkdədir. Ölkəmizin paytaxtında Ümumdünya Gömrük Təşkilatının xətti üzrə dünyanın bir sıra beynəlxalq təşkilatlarının və ən iri farmkompaniyalarının iştiraki ilə "Saxta dərman preparatları ilə mübarizə" mövzusunda Beynəlxalq Konfrans yüksək səviyyədə keçirilmişdir.

Beynəlxalq inteqrasiya ilə yanaşı milli İqtisadiyyatın inkişafını nəzərdə tutan xarici siyasətin məntiqi nəticəsi olaraq dövlətimizin İqtisadi əlaqələri ilbəil genişlənməkdədir. Artıq xarici investisiya qoyuluşları, ticarət əlaqələri və sair beynəlxalq əlaqələrə istiqamətlənmiş tədbirlər Azərbaycan dövlətinin İqtisadi-siyasi həyatında mühüm yer tutur. Dövlətimizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması isə xarici İqtisadi, o cümlədən, onun tərkib hissəsi olan ticarət əlaqələrinin regionun İqtisadiyyatındakı rolunun əhəmiyyətini daha da artırır. Xarici ticarət əlaqələrinin muxtar respublika ərazisində tənzimlənməsini həyata keçirən gömrük orqanları büdcənin formalaşdırılması ilə yanaşı, daxili bazarın qorunması ilə sahibkarlığın inkişaf etdirilməsində, süni qiymət dəyişmələrinin tənzimlənməsi ilə istehlakçıların hüquqlarının müdafiə edilməsində, gömrük qanun pozuntularına qarşı mübarizədə yaxından iştirak edirlər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük xidməti ölkənin İqtisadi maraqlarını və təhlükəsizliyini qoruyan çoxfunksiyalı bir kompleksə çevrilib. DGK indi öz işini müasir tələblərə uyğun quraraq müasirləşmiş, təşkmilləşmiş bir sistemdir.

Hazırda DGK-da müxtəlif beynəlxalq təşkilatların - Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və Ümumdünya Gömrük Təşkilatının yaxından köməyi ilə ciddi modernləşdirmə prosesi aparılır. Bu tədbirlərin görülməsində

əsas məqsəd bir tərəfdən ölkənin İqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük nəzarətinin daha da gücləndirilməsidirsə, digər tərəfdən də ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi, iş adamlarının gömrüklə bağlı vaxt itkisinə yol verməməsidir.

Hazırda ölkənin gömrük sistemində «Vahid pəncərə» sisteminin tətbiqi öz müsbət nəticələrini verməkdədir.

Beynəlxalq təşkilatlarla DGK-nın sıx əməkdaşlığı, eyni zamanda beynəlxalq layihələrin həyata keçirilməsində qarşılıqlı münasibətlərin dərinləşməsi bu sahədə müsbət nəticələr verir. TRACECA və TACIS proqramları çərçivəsində həyata keçirilən məqsədyönlü tədbirlər buna misal ola bilər.

DGK-nın BMT Inkişaf Proqramı ilə qarşılıqlı əlaqələri də öz müsbət nəticələrini verib. DGK-nın potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması istiqamətində 1999-cu ilin yanvar ayında imzalanmış layihənin 1-ci və 2-ci fazası uğurla yekunlaşdırılıb.

Gömrük təşkilatları ilə regional səviyyədə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsində göstərilən təşəbbüslər Bakıda Regional Tədris Mərkəzinin yaradılmasına təkan verib. Terrorizmin təzahürlərinin, nüvə, radioaktiv materialların yayılmasının qarşısını almaq yolunda DGK effektiv fəaliyyət göstərir. DGK bu məqsədlə Atom Enercisi üzrə Beynəlxalq Agentliklə (AEBA) fəal əməkdaşlıq edir. Gömrük orqanları tərəfindən sərhəd-keçid məntəqələrinin lazımi texniki-nəzarət vasitələri ilə təchiz edilməsinə dair hazırlanan layihə agentliyə təqdim edilib.

3.4. Keçid dövründə gömrük siyasətinin formalaşmasının səciyyəvi xüsusiyyətləri

Bazar İqtisadiyyatı yolu ilə gedən ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri xarici İqtisadi fəaliyyətin gömrük münasibətlərinin tənzimlənməsi idi. Belə ki, gömrük tənzimlənməsi dövlətin xarici ticarət dövriyyəsinə təsirinin əsas vasitələrindən biridir, onun köməyi ilə dövlət bir tərəfdən öz İqtisadiyyatının dünya təsərrüfatına azad çıxışını təmin edir, digər tərəfdən isə ayrı-ayrı malların ölkə ərazisinə gətirilməsi və çıxarılmasını tənzimləməklə müəyyən qadağalar və məhdudiyyətlər qoyulması, lisenziyalaşdırma, kvotalaşdırma və respublika istehlakçılarının maraqlarının təmin edilməsi məqsədilə digər tədbirlərin görülməsini təmin edir. Eyni zamanda xarici İqtisadi fəaliyyətin gömrük tənzimlənməsi İqtisadi təhlükəsizliyin müdafiəsi, ictimai qaydanın, insanların həyat və sağlamlığının, cəmiyyətin əxlaqi və mənəvi dəyərlərinin qorunması, həmçinin ölkənin sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı gömrük ödənişlərinin alınması yolu ilə dövlət büdcəsinin gəlir hissəsinin doldurulmasını təmin edir.

Bu münvalla, 1992-ci ilin yanvarın 30-da prezidentin 561 saylı fərmanı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Yarandığı ilk illərdə Komitənin həyata keçirdiyi ilkin sahələr əsasən təşkilati məsələlər, o cümlədən də gömrük xidməti fəaliyyətinin məqsədlərinin müəyyənləşdirilməsi, həmçinin onun strukturu və əməkdaşlarının sayı və s. bu kimi məsələlər təşkil edirdi.

Bir qayda olaraq, gömrük orqanlarının əhəmiyyətli funksiyası gömrük qanunvericiliyinin icrası, mal və xidmətlərin, o cümlədən də nəqliyyat vasitələrinin yerdəyişməsi (ölkəyə daxil olması və ya çıxarılması) üzərində nəzarətin təmin edilməsi yolu ilə ölkənin İqtisadi təhlükəsizliyinin təmin olunması, gömrük siyasətinin formalaşdırılması və təkmilləşdirilməsi kimi ölkə üçün həyati əhəmiyyətli məsələlərdən ibarətdir. Əsas məqsədlər sırasına isə ilk növbədə dövlət büdcəsinə gömrük rüsumlarından və ödəmələrindən yığımların daxil olmasını təmin etmək kimi prioritetlər daxildir.

Azərbaycan dövlətinin xarici ticarət-İqtisadi siyasətinin məqsədlərinə aşağıdakıları aid etmək olar: ötürülməsindən asılı olmayaraq malların gömrük qeydiyyatının aparılmasının təmin olunması; gömrük prosedurlarının sadələşdirilməsi və qeydiyyat müddətinin aşağı salınması; gömrük nəzarəti üçün müasir aparıcı gömrük texnologiyalarının tətbiq edilməsi; gömrük ödənişlərinin və onların büdcəyə daxilolmaları üzərində nəzarət texnologiyalarının təkmilləşdirilməsi; yük və yük yolayrıcıları haqqında əvvəlcədən məlumatın əldə edilməsi; qaçaqmalçılığın qarşısının alınması, narkotik maddələrin gətirilməsinin (və ya aparılmasının), o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə ölkə ərazisindən istifadə edərək narkotik maddələrin qeyri-qanuni tranzitinin qarşısının alınması; ixracdan əldə edilən gəlirlərin tam daxil olması, o cümlədən, barter və bank təminatlarının yerinə yetirilməsi üzərində tədbirlərin güclənməsi istiqamətində nəzarətin həyata keçirilməsi; gömrük sərhədinin tamamilə yenidən qurulması və gömrük nəzarətinin dünya standartına uyğun şəkildə yenidən quraşdırılması; gömrük sərhədindən yükün yerdəyişməsinin avtomatlaşdırılmış qeydiyyatının və yekun hesabatların təkmilləşdirilməsi; gömrük müayinəsinin təkmilləşdirilməsi; hissəvi identifikasiya müayinəsi texnologiyalarının tətbiqi və gömrük müayinəsinin dairəsinin genişləndirilməsi; beynəlxalq tələblər səviyyəsinə uyğun olaraq gömrük sənədlərinin uyğunlaşdırılması; boru nəqliyyatı və elektrik ötürücü naqillərinin vasitəsi ilə idxal və ixrac edilən mal və xidmətlər üzrə faktiki nəzarətin təmin olunması; tənzimlənmənin qeyri-tarif tədbirləri üzrə nəzarət texnologiyalarının təkmilləşdirilməsi; intellektual mülkiyyət obyeklərinin yerdəyişməsi üzərində nəzarətin həyata keçirilməsi və bununla əlaqədar təşkilati mexanizmlərin və təşkilati-hüquqi bazanın formalaşdırılması; gömrük tənzimlənməsinin tarif metodları kompleksinin səmərəli fəaliyyətinin təhlilinin həyata keçirilməsi və bununla əlaqədar tədbir-lər planının, o cümlədən təkmilləşdirilməsi istiqamətlərinin hazırlanması və həyata keçirilməsi; müəyyənləşdirilmiş zaman müddətində hesabatların müəyyənləşdirilmiş formada Gömrük Komitəsinə mə-

lumatların təhvil verilməsi və bununla əlaqədar kompleks fəaliyyətin keyfiyyət aspektlərinin yüksəldilməsi, məlumatın həqiqiliyinin yoxlanılması üçün mövcud olan əks-əlaqə mexanizmlərinin tətbiq edilməsi; komitənin təşkilati strukturunun təkmilləşdirilməsi məqsədilə gömrük xidmətinin ümumən və struktur vahidləri şəklində ayrı-ayrılıqda fəaliyyətinin periodik təhlili və s.

Azərbaycan dövlətinin gömrük siyasətinin uğurla həyata keçirilməsi öz növbəsində aşağıdakı prioritetlərin əldə edilməsini mümkünləşdirir:

– gömrük nəzarəti alətlərinin səmərəli istifadəsinin təmin olunması;
– respublikanın gömrük sərhədlərində əmtəə dövriyyəsinin tənzimlənməsi;
– daxili bazarı qorumaq məqsədilə ticari-İqtisadi məqsədlərin həyata keçirilməsi;
– milli İqtisadiyyatın inkişafının stimullaşdırılması;
– xarici bazar ekspansiyasından və qeyri-sivil rəqabətdən qorunmaq və s.

Bu mənada Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin üzərinə ölkə İqtisadiyyatının uzunmüddətli perspektivdə dayanıqlı inkişafı üçün böyük işlər üdşür. Bir qayda olaraq, ölkənin gömrük xidmətinin və bu xidməti həyata keçirən gömrük orqanlarının, xarici İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sistemində mərkəzi element funksiyasını yerinə yetirən gömrük sisteminin əhəmiyyəti müasir İqtisadi gerçəkliklər və dünya İqtisadiyyatında baş verən dəyişikliklər fonunda, o cümlədən müsbət meyllər zəminində daima artmaqdadır.

Ölkənin dünya birliyinə inteqrasiyasını sürətləndirmək və daha dayanıqlı sütunlar üzərində xarici ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq və əlaqələrin yaradılması, əlaqələrin inkişaf etdirilməsi, ölkəmizin milli maraqlarının təmini prosesində keyfiyyətcə yeni üfüqlərin açılmasında və ümumiyyətlə, Azərbaycanın xarici İqtisadi əlaqələrinin qurulması və tənzimlənməsində Dövlət Gömrük Komitəsinin fəaliyyətinin əhəmiyyəti yarandığı gündən bəri xeyli artmışdır. Bu mənada ölkənin xarici İqtisadi əlaqələrinin artan xətli nüfuzunun günü-gündən artması və bu istiqamətdə gömrük xidmətinin və onun ayrı-ayrı strukturlarının üzərinə düşən vəzifə və funksiyaları arzu olunan və dünya standartlarının tələblərinə müvafiq formada, müasir İqtisadi gerçəkliklərin prizmasından məqsədyönlü şəkildə yerinə yetirilməsində təbii ki, Dövlət Gömrük Komitəsinin rolu danılmazdır.

Müstəqilliyini yeni əldə etmiş və İqtisadiyyatının keçid dövrünü yaşayan Azərbaycan dövlətinin gömrük siyasəti ölkənin dünya birliyində nüfuzunun artmasına xidmət edən, İqtisadiyyatımızın inkişafına kömək edən və bununla yanaşı ölkəmizin beynəlxalq İqtisadi əlaqələr sferasında yerini möhkəmləndirən gömrük sisteminin yaradılması istiqamətində formalaşdırılmışdır.

Gömrük siyasətinə ölkə rəhbərliyinin yüksək səviyyədə önəm verməsi və respublikamızın dünya birliyinə sürətli inteqrasiyası Dövlət Gömrük Komitəsinin strukturuna yenidən baxmağı və bu strukturun iş mexanizminin, vəzifə və funksiyalarının təkmilləşdirilməsini zərurətə çevirmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu

ümummilli lider, respublika Prezidenti Heydər Əliyevin 26 oktyabr 1998-ci il fərmanı ilə təsdiqlənmişdir və bu gün də öz qüvvəsini saxlamaqdadır. Ümumdünya Gömrük Təşkilatının (ÜGT) mütəxəssisləri hesab edirlər ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mövcud strukturu digər Qafqaz dövlətlərinin – Gürcüstan və Ermənistan gömrük orqanlarının analoci strukturlarından daha çox proqressivdir və ÜGT- nin tələblərinə daha çox uyğun gəlir.

Azərbaycan Respublikasında gömrük xidməti ilə əlaqədar fəaliyyət qanunverici və normativ-hüquqi aktlar, Nazirlər Kabinetinin və Dövlət Gömrük Komitəsinin qərar, sərəncam və əmrləri, o cümlədən beynəlxalq müqavilələrlə tənzimlənir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda gömrük fəaliyyətini tənzimləyən ən mühüm qanun 10 iyun 1997-ci il tarixli qanun ilə təsdiq edilmiş və 6 avqust 1997-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikası Gömrük Məcəlləsidir. Gömrük Məcəlləsi Azərbaycanda malların və nəqliyyat vasitələrinin ölkənin gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtlərini, gömrük ödənişlərinin alınmasını, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrinin özündə cəmləşdirən maddələrlə əhatə edilmişdir və müasir dövrdə ölkənin dünya İqtisadiyyatına inteqrasiya olunmasında xarici İqtisadi əlaqələrin qurulmasını, təşkilini, dövlət tənzimlənməsinin, o cümlədən, gömrük siyasətinin təməl prinsiplərini özündə əks etdirən proqressiv qanundur. Onu da qeyd edək ki, bu qanun 14 bölmə, 61 fəsil və 450 maddədən ibarətdir.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən təsisatların məcmusu, həmçinin, onun həyata keçirilməsi metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi metodlarının qaydası gömrük siyasəti mexanizmində çulğalaşır. Buna görə də gömrük siyasəti dövlətin xarici İqtisadi siyasətinin əsas prinsipləri ilə müəyyənləşdirilir:

–xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimlənməsi sisteminin yaradılması və onun həyata keçirilməsinə nəzarət;

–vahid valyuta nəzarəti;

–azərbaycan Respublikasının gömrük ərazisinin bütövlüyü;

–xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və hər hansı formada ayrıseçkiliyə yol verilməməsi;

–xarici ticarət iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

–dövlətin və onun orqanlarının xarici ticarət fəaliyyətinə lüzumsuz müdaxiləsinə, xarici ticarət iştirakçılarına və bütünlükdə ölkə İqtisadiyyatına zərər vurulmasına yol verilməməsi.

Azərbaycan dövlətinin gömrük siyasəti formalaşdığı gündən bugünə qədər çoxsahəli və çoxşaxəli inkişaf yolu keçmiş və hər zaman dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməkdədir.

Qeyd etmək lazımdır ki, ölkənin İqtisadi təhlükəsizliyinin təmin edilməsi, daxili bazarı müdafiə etmək və ölkə istehsalına dayaq durmaq üçün gömrük siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Yalnız Azərbaycan sahibkarlarının beynəlxalq kooperasiyaya cəlb edilməsini stimullaşdıran və xarici sənayeçilər ilə yerli subyektlərin vicdanlı rəqabətinə kömək edən zəif proteksionizm tədbirlərini tarazlaşldırmağa cəhd etməklə iqtsadiyyatda müsbət dəyişikliklərə nail olmaq olar.

Məqsədyönlü gömrük siyasəti idxalın strukturunu yüksək keyfiyyətli əlaqələrin xeyrinə dəyişdirmək, təkcə idxal edilən məhsulun deyil, eyni zamanda yerli məhsulun qiymətinin aşağı salınmasına kömək etmək iqtidarındadır. Gömrük orqanlarının ən böyük funksiyaları ixrac nəzarəti və əmtəələrin keyfiyyətlərini qiymətləndirməkdir. Fiskal funksiya əvvəlki kimi gömrük xidməti fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Azərbaycanın İqtisadi təhlükəsizliyinə təhlükə törədən kifayət qədər çox amil mövcuddur: ixracda xammalın üstünlük təşkil etməsi və maşınqayırma, elektrotexnika, kimya və digər məhsulların bazarının itirilməsi, müxtəlif ölkələrin Azərbaycanın strateci cəhətdən mühüm xammal bazarı üzərində nəzarət qoymaq cəhdi, istehlak mallarının bir çox çeşidlərinin idxal edilməsindən durmadan artan asılılıq, xaricdən İqtisadi və siyasi təzyiq olacağı hallarda İqtisadiyyatın güclənən zəifliyi, Rusiya Federasiyasının və Iran Islam Respublikasının mövqelərinin sərtləşməsinə görə idxal-ixrac yüklənməsinin, daşınmasının çətinlikləri, respublikanın ərazisinin və İqtisadi potensialının 20%-nin itirilməsinə səbəb olan Ermənistan təcavüzkarlığının davam etməsi, İqtisadiyyatın yenidən qurulmasında, manevretmə imkanlarını məhdudlaşdıran xarici kreditlərdən ölkənin asılılığı, xarici İqtisadi fəaliyyətlə bağlı cinayətkar biznes.

Müasir şəraitdə ölkənin dünya İqtisadiyyatında vəziyyətini yaxşılaşdırmaq üçün ilk növbədə idxal və ixracın strukturunun yenidən qurulması, təşkilatların və firmaların xarici İqtisadi fəaliyyət şəraitinin yaxşılaşdırılması sahəsində mühüm işlər görülür. Müsətqillik qazandıqdan bu ilədək aparılmış xarici ticarət siyasəti və onun tərkib hissəsi olan gömrük siyasəti nəticəsində respublikanın idxal-ixrac dinamikasında xeyli irəliləyişlər olmuşdur.

Son dövrdə Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələri ilə ticarət İqtisadi əlaqələri genişlənmişdir. Bu isə idxal-ixrac əlaqələrinin artmasına səbəb olmuşdur.

Cədvəl 3.1

Azərbaycan Respublikasının ixrac və idxalında xüsusi çəkisi böyük olan ölkələr (2007-ci il)

Ixracda		
Ölkənin adı	**Dəyəri (min ABŞ dol.)**	**Ümumi ixraca nisb. %-lə**
Türkiyə	1056322,96	17,44
Italiya	940928,55	15,53
Rusiya	527052,32	8,70
Iran	434731,09	7,18
Indoneziya	390292,68	6,44
Israil	369845,76	6,10
Gürcüstan	343771,24	5,67
Fransa	258842,72	4,27
ABŞ	228196,15	3,77
Hindistan	144947,94	2,39

Idxalda		
Ölkənin adı	**Dəyəri (min ABŞ dol.)**	**Ümumi ixraca nisb. %-lə**
Rusiya	1001982,29	17,55
Türkiyə	624462,88	10,94
Almaniya	470852,58	8,25
Ukrayna	465530,50	8,15
B.Britaniya	410896,74	7,20
Yaponiya	294954,60	5,17
Çin	278790,86	4,88
ABŞ	268388,73	4,70
Qazaxıstan	222294,16	3,89
Finlandiya	151485,16	2,65

Mənbə: www.az-customs.net

Qeyd etmək lazımdır ki, respublikanın ixrac potensialı strukturunda əsas sahə neftçıxarma və neft məhsulları təşkil edir. 2000-2007-ci illərdə Azərbaycanın ixracatının 88%-ni neft və neft məhsulları təşkil etmişdir. Bu artım yalnız hasilatın yüksəlməsi ilə deyil, neftə daxili tələbatın dəyişməsi, həm də digər məhsulların ixracının kəskin azalması və xaricdə satılan neftin nisbətən yüksək qiyməti ilə izah olunur. Eyni zamanda, ümumi ixracda qeyri-neft

məhsullarının payı 37,6%-dən 8,1%-ə enməsi ilə xarakterizə olunur. Azərbaycanın neftdən başqa da böyük potensial imkanları vardır. Bura ilk növbədə əlvan metallurgiya, neft-maşınqayırması sənayesi neft-kimya və kənd təsərrüfatı məhsullarını aid etmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük siyasəti, ölkədəki İqtisadi və siyasi vəziyyətə təsir göstərən bütün amillər nəzərə alınmaqla qurulur. Bu gün ixracın inzibati tənzimetmə vasitələrinin demək olar ki, hamısı ləğv edilmişdir. Lakin, ixrac kvotalarının və rüsumlarının ləğvi o demək deyildir ki, gömrük orqanları ixrac sövdələşmələrinə fikir verməməlidir. Ölkədən kapital axınının qarşısını yalnız İqtisadi metodlarla almaq olmaz. Ixrac hasilatının qaytarılması problemi əvvəlki kimi mühüm problemlərdən biri olaraq qalır.

Istehsalın və istehlakın milli strukturunun xüsusiyyətlərini nəzərə almaqla ölkənin İqtisadi inkişaf səviyyəsi, eləcə də müxtəlif obyektiv və subyektiv amillərin təsiri xarici ticarət tənzimlənməsi sisteminə, onun icra edilməsi mexanizminə kompleks yanaşmanı tələb edir:

Birincisi, milli İqtisadiyyat yüksək dərəcədə xarici İqtisadi əlaqələrdən asılıdır.

Ikincisi, keçmiş SSRI respublikaları ilə tarixən yaranmış təsərrüfat əlaqələri bu sahədə prioteritetlərdən biri kimi, MDB çərçivəsində İqtisadi inteqrasiyanın inkişafını tələb edir.

Üçüncüsü, Azərbaycan, digər inkişaf etməkdə olan ölkələr kimi, İqtisadi inkişaf səviyyəsini yüksəltmək məsələsini və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya olunma məsələsini eyni vaxtda həll etmək məcburiyyətindədir.

Dördüncüsü, dünya ticarətinin mövcud müasir sistemi xarici İqtisadi siyasə-tin sərt tələb və məhdudlaşdırmalarını bütün dövlətlər üçün irəli sürür ki, onlar da inkişaf etməkdə olan ölkələr üçün, o cümlədən Azərbaycan üçün xüsusilə ağırdır.

Beşincisi, Azərbaycan İqtisadiyyatı özünün texnoloci səviyyəsini yüksəltməyə və dünya bazarında rəqabət qabiliyyətli istehsal komplekslərini yaratmağa imkan verə bilən struktur yenidənqurmanı həyata keçirməlidir.

İqtisadi islahatların ilk mərhələsindəki çətinliklər həm tarif sahəsində öz izini qoymuş, həm də gömrük tənzimlənməsində ixrac tariflərinin tətbiq edilməsinə səbəb olmuşdur. Xarici ticarət tənzimlənməsi, o cümlədən gömrük tənzimlənməsi ona yönəldilməlidir ki, İqtisadi inkişaf üçün xammal ixracının imkanlarından hər vasitə ilə istifadə etməklə, eyni zamanda, tədricən yüksək emal səviyyəli məhsulun ixracı potensialı artırılsın, ixracın əmtəə strukturu rəngarəng olsun.

Belə vəzifələrin yerinə yetirilməsi ixraca nəzarətin effetktiv sistemi olmadan mümkünsüzdür. Ölkənin dünya İqtisadi sisteminə tam daxilolma şərtləri ixracın rəngarəngliyi (diversifikasiyası), ixrac mallarının emal səviyyəsinin qaldırılması, beynəlxalq istehsal kooperasiyası sxeminə qoşulmalıdır. Problemin həlli İqtisadiyyatın fəal struktur tənzimlənməsində,

perspektivli sahələrin inkişafının məq-sədyönlü həvəsləndirilməsində, dünya təcrübəsində ixracı stimullaşdırmağın yol verilən vəasitələrdən istifadə edilməsində və xarici İqtisadi əlaqələrin həcminə və strukturuna tarif və qeyri-tarif metodları ilə təsir edilməsindədir. Keçid dövrü müddətində xarici İqtisadi və xarici ticarət siyasətinin müxtəlif vasitələrindən istifadə olunmaqla Azərbaycan İqtisadiyyatının qısa müddətdə dünya İqtisadi sisteminə müəyyən bilgi ilə inteqrasiya olunmasına imkan verə bilən sxemini hazırlamaq lazımdır. Xarici ticarət tənzimlənməsi struktur tənzimlənmənin tərkib hissəsi hesab olunur. Xarici ticarətin kəmiyyət məhdudiyyətlərindən tam imtina etmək vaxtından əvvəl və zərərli ola bilərdi. ÜGT-nin üzvü olan ölkələr indiyə qədər ayrı-ayrı əmtəələrin ticarətinə belə məhdudiyyətlər tətbiq edir. Belə vasitənin prinsipial tətbiqetmə imkanı ilə yaxın gələcəkdə də hesablaşmamaq olmaz.

Struktur tənzimlənmənin ümumi mexanizmində xarici ticarət vasitələrinin rolu aşağıdakılar olmalıdır:

–perspektivli sahələrin inkişaf etdirilməsi üçün zəruri olan məhsulların idxalına kömək etmək;

–inkişafın ilk mərhələsində perspektivli sahələrlə rəqabət aparan məhsulların idxalını məhdudlaşdırmaq; rəqabət qabiliyyəti olmayan sahələri tədrici struktur yenidən qurulması və belə yenidən qurulma iqtidarında olmayanların həmin prosesin neqativ sosial nəticələrini minimuma endirməyə tədricən ixtisar edilməsi üçün şərait yaratmaq;

–buna İqtisadi siyasətin digər qalan vasitələrinin köməyi ilə nail olmaq mümkün olmadığı halda, daxili bazarda əmtəəlrin kifayət qədər təklifini təmin etmək;

–tədiyə balansının münasib vəziyyətini təmin etmək;

–milli istehsalçılara xarici ixracatçıların vicdansız rəqabətindən müdafiə təminatı vermək;

Bu konteksdə müsbət nəticə tənzimləmənin tarif və qeydi-tarif metodlarının tarazlaşdırılmış tətbiqi ilə əldə edilə bilər.

İqtisadiyyatın struktur tənzimləməsi gömrük tarifinn mühün funksiyasıdır. Yüksək differensial tarif rüsumların orta mülahizə edilmiş səviyyəsini ona ilk növbədə ehtiyacı olan sahələrin müdafiəsini saxlamaqla azaltmaq yolu ilə təmin etmək iqtidarındadır.

Bu səbəbdən də tarif siyasətini struktur siyasətin tərkib elementinə çevirmək gərəkdir. Sənayenin ən mühüm sahələrinin hər birinə aid tərkib hissəsi gömrük rüsumları dinamikası ola bilən fəaliyyət proqramı işləyib hazırlamaq lazımdır.

Müəyyən müddət ərzində gücləndirilmiş müdafiədən Azərbaycanın ixrac potensialını möhkəmləndirə bilən yeni yaranan yeni sahələr, eləcə də struktur yenidənqurma prosesini keçirən böhranlı sahələr istifadə etməlidir. Bu sahələr möhkəmləndikcə tarif maneələri azaldılmalıdır. Əksinə, indiki vaxtda dünya

miqyasında rəqabət qabiliyyətli sahələrin və işçilərin sayı nisbətən çox da böyük olmayan perspektivsiz sahələrin tarif müdafiəsinə ehtiyacı yoxdur.

Gömrük tarifinin norma səviyyəsi həddindən artıq yüksək olmamalıdır. Onlar elə kəmiyyətdə olmalıdır ki, müvafiq məhsulun milli bazarının müdafiəsi üçün zəruri olsun. Yeni bir qayda olaraq idxal olunan malın qiymətini yerli qiymət səviyyəsinə qədər qaldırmağa və aksizli mallarda olduğu kimi büdcə məsələrərinin həlli üçün imkan versin. Rüsumların dəyişmə diaqnozunu elə müəyyən etmək lazımdır ki, onların kəmiyyət qaydasını təyin etmək tamamilə mümkün olsun və eyni zamanda hökumətə milli və dünya bazarnda konyunkturadakı dəyişikliyə reaksiya vermək imkanı versin.

Normaların kəmiyyəti hesablanarkən çıxış məlumatı kimi müvafiq sahələrdəki vəziyyəti haqqında Dövlət Statistika Komitəsinin, dünya bazar konyunkturasının vəziyyəti və dövlət büdcəsində və dövlət proqramlarında qeyd edilən milli İqtisadiyyatın inkişaf oriyentirləri haqqında məlumatlardan istifadə edilə bilər.

Hazırda tətbiq edilən xarici İqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XIFƏN) beynəlxalq normalara uyğundur. O, ahəngdar sistem əsasında hazırlanmışdır və MDB ölkələrində istifadə olunan XIFƏN-lə eynidir. Lakin, o, yerli məhsul və malların spesifikasını tam əks etdirmir, çünki qara kürü, yerli dərman bitkiləri, nadir vəhşi heyvanlar, quşlar və s. identifikasiya olunmur. Bu nomenklaturanı təkmilləşdirmək lazımdır. Nəzərdə tutmaq lazımdır ki, hər bir tarif pozisiyası birmənalı şəkildə bir XIFƏN kodu ilə müəyyən olunmalıdır.

Ona görə də nomenklatura hər hansı istehsal olunan, çıxarılan və ölkəyə idxal olunan əmtəənin hər bir növ müxtəlifliyinə müəyyən qədər uyğunlaşdırılmalıdır.

Tarif fiskal funksiyanı, ilk növbədə, aksizli mallara qoyulan rüsumlar hesabına yerinə yetirilməlidir. Lakin, daxilolmların azalmasına səbəb olmasın deyə bu rüsumları həddən artıq artırmaq lazım deyildir.

Indiki dövrdə maliyyə vəsaitlərinin büdcəyə daxil olmasının sabitliyini təmin etmək aktual vəzifələrdən biridir. Ixrac rüsumları ləğv edildikdən sonra idxal gömrük ödəmələri (rüsumlar, vergilər, yığmalar) xarici İqtisadi fəaliyyətdən büdcə vəsaitlərinin yeganə doldurulma mənbəyi olaraq qalır.

Idxal gömrük ödəmələrinin xarici İqtisadi fəaliyyətindən büdcə vəsaitlərinin yeganə doldurulma mənbəyi olması probleminin həlli qanunla nəzərdə tutulmuş ödəmələrin hesablanmasına və o cümlədən fiziki şəxslər tərəfindən ödənilməsinin düzgünlüyünə mövcud nəzarət sistemini, eləcə də onun həyata keçirilməsi texnikasının nə dərəcədə təkmilləşdiriləcəyindən asılıdır. Bu prosesdə aparıcı rol gömrük orqanlarına məxsusdur. Xarici İqtisadi fəaliyyətin dövlət tənzimləməsi sisteminin təkmilləşdirilməsi xarici İqtisadi əlaqələr sahəsində işlərin real vəziyyətini əks etdirən analitik-statistik tədqiqatlar olmadan mümkünsüzdür.

Beynəlxalq ticarət sistemi ilə qanuniləşdirilmiş qeyri-tarif tənzimləmə tədbirləri, yəni xarici malların idxalının kəskin artımı ilə milli İqtisadiyyata

vurulan zərərin müəyyən olunmuş qaydada qarşısının alınması və ya yüngülləşdirilməsi məqsədi güdən müdafiə tədbirləri mövcuddur. Eyni zamanda xarici ixracatçıların vicdansız rəqabətinin qarşısının alınmasına yönəldilən tədbirlər də tamamilə legitim xarakter daşıyır.

Vaxtilə istifadə olnunmuş bir çox materiallar indi qadağan edilmişdir. Idxala kəmiyyət məhdudiyyətləri tədiyə balansının pisləşməsi şəraitində kənd təsərrüfatı məhsuluna, alkoqollu içkilərə və tütün məmulatına, ölkədə istehsalı hələ inkişaf etməyən yeni məhsul növlərinə münasibətdə zəruri olmayan (məhsul) mallara münasibətdə tətbiq oluna bilər. Istehsalı ölkədə yenidən yaranan məhsulun idxalına qoyulan məhdudluğun müdafiə tədbiri kimi izah etmək lazımdır. Gömrük nəzarəti mexanizminin proseduralarının təkmilləşdirilməsi işində nəzarətin səmərəliliyini saxlamaqla gömrük proseduralarını sadələşdirməyə nail olmaq məqsədilə Ümumdünya Gömrük Təşkilatı (ÜGT) ilə, eləcə də Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və YUNKTAD ilə faydalı əməkdaşlığı qaydaya salmaq lazımdır. Xarici ticarətdə Azərbaycana tətbiq edilə biləcək ayrıseçkilik halında müdafiə, eyni zamanda cavab tədbirləri sistemini, eləcə də Azərbaycan ÜTT-yə hələ üzv olmadığı hallarda belə ölkənin mənafelərini müdafiə mexanizmini inkişaf etdirmək lazımdır. Lakin respublikamız Iqtsadi Əməkdaşlı Təşkilatının (IƏT) üzvüdür. Bu təşkilatın bir çox üzvləri, o cümlədən Iran və Türkiyə Respublikaları da eyni zamanda ÜTT-nin üzvüdür. Həmin təşkilat çərçivəsində imzalanmış sazişlər ÜTT-nin tələblərinə müvafiq olan qaydaların və üsulların tətbiqini nəzərdə tutur.

Hazırda gömrük siyasətinin başlıca istiqamətlərindən biri məhz Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qurulmasıdır ki, bundan həm bütövlükdə ölkə İqtisadiyyatı, həm də dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin. Bu baxımdan Azərbaycan Respublikasının yeni diferensiallaşdırılmış gömrük-tarif sisteminin qəbul edilməsi xüsusi əhəmiyyətli addım kimi qiymətləndirilə bilər. Yeni sistemin hazırlanması zamanı heç də gömrük tariflərinin qaldırılması başlıca vəzifə kimi qarşıya qoyulmamışdır. Əsas məsələ tariflərin yalnız büdcə mədaxilini təmin etmək funksiyasını deyil, eyni zamanda daxili istehsalı tənzimləmək funksiyasının da reallaşdırmasına nail olmaq idi. Bu sistem hazırki dövrdən Azərbaycanın ÜTT-yə üzv olduğu vaxta qədərdən bir müddət üçün optimal sayıla bilər.

Ölkəmizin ÜTT-yə daxil olması dünya təsərrüfat əlaqələrinə inteqrasiya olmağın bir mərhələsidir. ÜTT-yə daxil olmaqla Azərbaycan öz İqtisadiyyatının müqayisəli üstünlüklərini reallaşdıra bilmək imkanı qazanacaq, ticarət şəraitini yaxşılaşdıracaq, ixracın həcmini artıracaq və daha da rəngarəng edəcək, satış bazarlarını stabilləşdirəcək, onun coğrafiyasını geniləndirəcək və məhsulların keyfiyyətinin artırılmasının stimullaşdırılması üçün əlverişli şərait əldə edəcəkdir.

Azərbaycanın ÜTT-yə üzvlüyünün bir sıra müsbət cəhətləri vardır:

-Azərbaycan ÜTT-yə üzv olmaqla nəinki dünya ticarətində daha geniş şəkildə iştirak etmək imkanı qazanacaq, həmçinin milli maraqlarımızı nəzərə almaqla onun inkişafında iştirak edəcək;

-ixracatçı və idxalatçılarımıxz müxtəlif sazişlərə əsaslanaraq (QATT, QATS, TRIPS və s.) vahid hüquqi məkandan istifadə etmək imkanı qazanacaqlar, həmçinin digər ölkələrlə ticarətdə beynəlxalq hüquqi müdafiə ilə təmin olunacaqlar. Yəni ölkəmiz digər dövlətlərin əsassız ayrıseçkilik tədbirlərindən hüquqi cəhətdən qorunacaqlar;

-digər dövlətlərlə ticarətdə tarif və qeyri-tarif maneələrinin ölkə ixracına mənfi təsiri kəskin surətdə azalacaq. Ölkəmiz beynəlxalq istehsal kooperaisyasına və beynəlxalq işgüzar əməkdaşlığın digər formalarına qouşlması üçün əlverişli zəmin yaranacaq, birgə müəssisələrin yaradılmasından intellektual mülkiyyətin mübadiləsinə qədər əməkdaşlıq üçün geniş imanlar olacaqdır;

-bu sahədə mövcud ola biləcək mübahisə və ziddiyyətlərin həlli üçün real hüquqi əsas yaranacaq, yerli istehsalçıların sağlam beynəlxalq rəqabətə qoşulması onlar üçün stimullaşdırıcı rol oynayacaqdır.

Bütün bunlar Azərbaycanın dünya təkrar istehsal proseslərinə daha tez inteqrasiyasını təmin edəcək və bu əsasda da xarici İqtisadi fəaliyyətə istiqamətlənmiş perspektiv istehsal sahələri daha da inkişaf edəcəkdir. Digər tərəfdən, müasir istehsal və idarəetmə texnologiyalarının idxalı imkanları daha da genişlənəcək və ölkəmizə birbaşa investisiya axını güclənəcək.

Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan ÜTT-yə daxil olarkən nəyisə əldə etdiyi kimi, nədənsə də imtina etməlidir. O, təşkilatdaxili olarsa, ortaya bir sıra problemlər çıxacaqdır.

-ÜTT-yə daxil olarkən Azərbaycan xarici ticarətin tənzimlənməsinin qeyri-tarif metodlarından imtina etməli olacaqdır (ÜTT standartlarının icazə verdiyi sahələr istisna olmaqla) ki, bu da daxili bazarın qorunması səviyyəsini aşağı sala bilər;

-xarici ticarətdə qeyri-tarif vasitələrincən imtina etməklə yanaşı, Azərbaycan idxal tariflərinin səviyyəsini də aşağı salmağa məcbur olacaqdır. Bu da xüsusi ilə böhran vəxiyyətində olan İqtisadiyyat üçün ağrılı bir prosesdir. Nəzərə alsaq ki, yerli istehsalın əksər sahələrinin rəqabət qabiliyyətlilik səviyyəsi xeyli aşağıdır, onda xarici istehsalçıların ekspansiyasının kəskin güclənməsi milli istehsalın bir sıra sahələrinin məhvinə gətirib çıxara bilər;

-bu zaman, həmçinin fiskal problem də üzə çıxa bilər. Belə ki, idxal rüsumlarının götürülməsi, vergi yığımları ilə vəziyyətin lazımi səviyyədə olması şəraitində gömrük ödənişlərinin aşağı düşməsinin kompensasiya etmək xeyli çətin olacaqdır;

-digər bir problem isə yerli istehsalçıların dövlət tərəfindən dəstəklənməsi ilə bağlıdır. ÜTT bu məsələd kənd təsərrüfatı üzrə müəyyən qədər mülayimlik göstərsə də, ümumilikdə göstərilən bu və ya digər formada həyata keçirilməsi

ÜTT-yə görə digər üzv ölkələrə qarşı ayrı-seçkilikdir ki, bu da onun prinsiplərinə birbaşa ziddir;

-qarşıya çıxa biləcək digər bir problem isə milli qanunvericiliyin ÜTT-nin norma və qaydalarına uyğunlaşdırılmasıdır. Bu XIF, vergi, büdcə, gömrük və s. ilə bağlı qanunvericilik aktlarına toxunacaq və onlarda əsaslı dəyişikliklərin edilməsini tələb edəcəkdir.

Bütün bu deyilənlər onu göstərir ki, hər bir dövlət ÜTT-yə üzv olmaq üçün danışıqlara ciddi hazırlaşmalı və dəqiq startegiya işlənib hazırlanmalıdır. Artıq Azərbaycanın bu quruma üzvlüyünün müakirəsinin birinci mərəhələsinə başlanıb. Çox güman ki, yaxın gələcəkdə bu mərhələ başa çatacaq və ikinci və əsas mərhələyə – birbaşa danışıqlara keçiləcək. Məhz bu danışıqlar zamanı Azərbaycanın perspektiv gələcək üçün tarif siyasətinin sərhədləri müəyyən ediləcək. Bu zaman təbii ki, ÜTT-nin üzv ölkələri Azərbaycan bazarına daxil olmaq üçün ölkələrinə əlverişli şərait yaratmağa çalışacaqlar ki, bu da özünü tarif dərəcələrinin aşağı səviyyədə müəyyən edilməsi və qeyri-tarif maneələrinin aradan qaldırılması cəhdində göstərəcək. Azərbaycanın maraqları isə tamamilə əks strategiyanın həyata keçirilməsini tələb edir: bazar İqtisadiyyatına keçid şəraitində daxili bazarın mümkün maksimal qorunmasını təmin etmək, İqtisadiyyatın zəif vəziyyətində olan müxtəlif sahələrini modernləşdirilməsi üçün vaxt udmaq və bu əsasda onların rəqabət qabiliyyətini artırmaq.

Yaxşı olardı ki, danışıqlara hal-hazırda fəaliyyətdə olan tarif dərəcələrindən daha yüksək dərəcələrlə gedilsin. Bu isə özünü aşağıdakıları əldə etməyə imkan verir.

Birincisi, ilkin yüksək səviyyəli dərəcgələr sonrakı danışıqlar üçün «ehtiyat» rolunu oynayacaqdır. Danışıqlar zamanı şübhəsiz ki, Azərbaycan sərt pressinə məruz qalacaqdır. Lakin milli istehsalçıların maraqlarına zidd olan şərtlərlə ÜTT-yə üzv olmaq olmaz. Fikrimizi aydınlaşdırmaq üçün Çinin təcrübəsinə nəzər salsaq, Çin 10 ildən artıqdır ki, ÜTT-yə üzv olmaq üçün danışıqlar aparır və eyni zamanda İqtisadi tərəqqiyə əsaslanaraq güclü ixrac ekspansiyasını həyata keçirir. Danışıqlarda elə bir siyasət yeridilir ki, ölkə təşkilatına üzv olduğundan sonra mümkün İqtisadiyyatını minimuma endirə biləcək kompramislər işlənib hazırlansın və prinsipial məsələlər üzrə ölkənin mövqeləri qorunsun.

Ikincisi, Azərbaycan nə qədər İqtisadiyyatını «açıq» elan etsə də, proteksionizm siyasəti yeritməyə məcburdur. Əlbəttə ki, bu zaman kütləvi proteksionizmdən qaçmalı və selektiv proteksionizm siyasəti tətbiq etmək lazımdır.

Üçüncüsü, daxili bazarın qorunması üçün tarif vasitələrilə yanaşı ÜTT standartlarının yol verdiyi qeyri-tarif vasitələrindən də istifadə etmək olar. Bu zaman kəmiyyət məhdudiyyətlərindən, texniki standartlardan, sanitar və fotosanitar tədbirlərdən, həmçinin xüsusi növ rüsumlardan (antidempinq, kompensasiya) istifadə etmək olar.

Azərbaycan İqtisadiyyatı üçün digər güclü tədbir tarif dərəcələrinin eskolosiyasının prinsiplərinə əməl etmək olar. Tarif eskolasiyası sənayeyə münasibətdə həyata keçirilə bilən selektiv proteksionizm siyasətinin mühüm vasitəsidir.

ÜTT-yə daxil olarkən tarif siyasətinin çox vacib vəziyyətindən biri də mümkün ümumİqtisadi mənfi nəticələrin (sosial ziddiyyətlərin kəskinləşməsi, işsizliyin artması və maliyyə-büdcə problemlərinin yaranması) minimuma endirilməsidir. Bütün bunlar göstərir ki, Azərbaycanın ÜTT-yə üzv olması üçün onun dəqiq İqtisadi startegiyanı hazırlamaq lazımdır. Azərbaycan ÜTT-yə daxil olmağa tələsmədən nə qədər yaxşı hazırlaşsa, onun dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı durmaq şansı bir o qədər çox olacaqdır.

ÜTT-yə üzv olmağa hazırlıq xarici İqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafı və daha da təkmilləşdirilməsini tələb edir. Inkişaf etmiş ölkələrin təcrübəsi milli gömrük xidmətlərinin inkişaf və təkmilləşdirilməsini proqram-məqsədli yanaşma əsasında aparılmasının məqsəduyğunluğunu nümayiş etdirir. Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi proqramının yaradılmasna ehtiyac var. Respublikanın milli xüsusiyyətləri MDB ölkələri ilə idxal-ixrac əməliyyatlarının spesifikası, digər ölkələrdə xarici-İqtisadi əlaqələrin genişlənməsi gömrük sistemini müvəffəqiyyətə zəmanət verə biləcək prinsip və metodlar əsasında təkmilləşdirilməsini tələb edir. Gömrük fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin lazımi səviyyədə işləməsini təmin etmək üçün bütün çatışmazlıqlar taktiki və strateci tədbirlərlə aradan qaldırıla bilər.

Taktiki tədbirlərə aşağıdakılar aid edilir:

−gömrük proseduralarının sadələşdirilməsi (o cümlədən, yüklərin yoxlama müddətlərinin qısaldılması və yoxlamanın seçmə üsulu ilə aparılması, daşınma, anbarlaşdırma, saxlanc, rəsmiləşdirmə proseslərində lüzumsuz sənədləşmələrin ləğvi və rəsmiləşdirmə müddətinin azaldılması);

−gömrük informasiyalarının işlənməsinin avtomatlaşdırılmış sisteminin tətbiqi;

−gömrük və gömrükətrafı infrostrukturların inkişafı.

Xüsusilə qeyd edilməlidir ki, gömürük rəsmiləşdirilməsi proseduralarının təkminləşdirilməsi taktiki tədbirlər arasında əsas nöqtələrdən biridir və öz forma və məzmununa görə fasiləsiz, daimi fəaliyyətdədir. Bu zaman riskin dərəcə və qruplarının qiymətləndirilməsinə ciddi diqqət yetirilməlidir.

Strateci tədbirlərə ilk növbədə ÜGT-nin tövsiyələri aid edilməlidir. ÜGT-nin tövsiyələri aşağıdakı məsələlərin nəzərdə tutur.

- resurs potensialından (kadr, maddi, texniki, maliyə və s.) rasional istifadə:

- gömrükxanaların rəhbər orqanlarının möhkəmləndirilməsi;

- idarəetmə sisteminin təkmilləşdirilməsi;
- müvafiq sistem və strukturunun formalaşdırılması;
- daha səmərəli gömrük prosedurları və gömrük reciminin tədbirləri.

Gömrük xidmətinin inkişafının kompleks proqramının (GXIKP) tərtib edilməsində onun hazırlanmasının ümumi mərhələləri mühüm əhəmiyyət kəsb edir:

1) proqramın məqsədi və əhatə etdiyi məsələlər;
2) əldə edilməsi nəzərdə tutulan göstəricilər;
3) texniki və fəaliyyət təminatı;
4) proqramın müxtəlif növ resuslarla təmin edilməsi;
5) proqramın hazırlanması və həyata keçirilməsinin stimullaşdırılması;
6) proqarmın yerinə yetirilməsinin təşkili;
7) proqramın yerinə yetirilməsi effektivliyinin müəyyən edilməsi.

GXIPK-nın hazırlanmasının mühüm təşkilatı məsələsi ardıcıllıqdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi qanunverici hakimiyyətin hüquqi və normativ aktlarını Komitənin idarə təlimatlarında konkretləşdirməklə həyata keçirir. Gömrük xidməti öz mütəxəssisləri vasitəsilə bu sahənin tənzimlənməsi ilə bir başa və ya dolayı yolla bağlı qanunların, prezident fərmanlarının, hökumət qərarlarının hazırlanmasında, eləcə də xarici İqtisadi münasibətlər problemi üzrə hökumət və beynəlxalq komissiyaların işində iştirak edir.

Gömrük Komitəsinin normayaratma fəaliyyəti ilə Azərbaycana idxal olunan xarici malların təhlükəsziliyi üzrə nəzarət sisteminin təcrübə tədbiqi əsasları yaradılmış, gömrük tarifi haqqında, valyuta tənzimlənməsi haqqında qanun qəbul edilmişdir.

Səhvlərin üzə çıxarılmasında əldə olunan təcrübənin və dünya təcrübəsini nəzərə almaqla normativ hüquqi aktlara müvafiq düzəlişlər edilmişdir.

Xarici İqtisadi əlaqələrdə islahat aparılması üzrə iş davam etməkdədir.

Müasir şəraitdə gömrük xidmətinə xarici İqtisadi fəaliyyətin tənzim edilməsinin əsas istiqamətlərinin reallaşdırılmasına mühüm rol ayrılır:

- xarici ticarət sahəsində valyuta və vergi nəzarətini sərtləşdirmək məqsədi ilə dövlətin nəzarət funksiyalarının möhkəmləndirilməsi;
- milli əmtəə istehsalçıları xarici rəqabətdən və istehlakçıları isə keyfiyyətsiz məhsul idxalında müdafiə etməyin ticarət – siyasi metodlarının təkmilləşdirilməsi.

Bu, ixrac olunan malların yüklənmədən qabaq yoxlanılmasının, barter sövdələşmələri də daxil olmaqla ixrac və idxal əməliyyatlarının həyata keçirilməsi zamanı vəsaitlərin daxil olmaması və tam daxil olmaması faktlarının keyfiyyət təhlilinin, eləcə də malların idxalı və ixracı zamanı qiymət nəzarətinin aparılmasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və onun bölmələrinin fəaliyyətinin aktivləşdirməyi nəzərdə tutur.

Xarici İqtisadi fəaliyyətin tənzimlənməsində və xüsusən onun həyata keçirilməsinə nəzarət edilməsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rolu yaxın gələcəkdə də labüd olaraq artacaqdır.

3.5.Gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi

Azərbaycan Respublikasının gömrük xidməti, XIF-in tənzimlənməsi, gömrük siyasətinin həyata keçirilməsində mühüm institutdur. Ölkə İqtisadiyyatının idarə edilməsi və inkişafında göbmrük-tarif tənzimlənməsi vacib rol oynayır və çoxşaxəli funksiyalara malikdir. Gömrük-tarif tənzimlənməsi daxili bazarı qoruyur, İqtisadi təhlükəsizlik baxımından lazımi məhsulların istehsalı stimullaşdılır, valyuta ehtiyatlarından səmərəli istifadə olunur və ona nəzarət edilir, dövlət büdcəsinə gəlir gətirir. Gömrük tarifi və rüsumları dövlətin İqtisadi təhlükəsizliyinin, eləcə də xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin təmin edilməsində mühüm faktora çevrilir. Idxal gömrük tarifi adətən ayrı-ayrı milli İqtisadiyyat sahələrini müdafiə edir və fəal xarici ticarət siyasəti yürütməyə, milli əmtəələrin ixracının formalaşmasına imkan verir.

Bu baxımdan idxal-ixrac siyasətinin formalaşması, İqtisadi maraqlarla yanaşı sosial mənafelər və sosial inkişaf, İqtisadi təhlükəsizlik və daxili resursların İqtisadi dövriyyəyə cəlb olunması baxımından hazırlanır və tənzimlənir. Idxal strukturu istehsal və istehlak tələbatı və daxili istehsalın tələbatının ödənilməsində rolundan asılı olaraq formalaşır. Təbii ki, idxalın məhz istehlak xarakterli olması ölkədən valyutanın çıxarılmasına, ölkənin İqtisadiyyatının öz resursları hesabına inkişafının zəifləməsinə və İqtisadi müstəqilliyin və əmtəə və xidmət bazarının məhz idxaldan asılı olmasına gətirib çıxarır.

Idxal-ixrac siyasətinin konseptual əsasları gömrük siyasətini, idxalın və ixracın tənzimlənməsində gömrük orqanlarının vəzifələrini və mexanizmlərini müəyyən edir. Belə ki, daxili bazarın və istehlakçıların hüquqlarının qorunmasında optimal qərar qəbulu məhz elmi proqnozlara əsaslanan və səmərəli inkişaf baxımından seçilən düzgün gömrük vergiləri və rüsumları ilə tənzimlənir. Bilavasitə gömrük rüsumları və ödəmələri ölkədə qiymət siyasəti ilə, həmçinin, istehsal xərcləri və yerli sahibkarlarla xarici investorlar arasında bərabər şəraitin tənzimlənməsi ilə mümkün olur.

Hər bir dövlətin özünün inkişafında müəyyən mərhələlər var ki, bu mərhələyə uyğun İqtisadi siyasət həyata keçilir. Bu baxımdan gömrük siyasəti də həmin dövrün İqtisadi siyasətinə uyğunlaşdırılır. Azərbaycan Respublikasında gömrük tarif tənzimlənməsinin formalaşmasında 1997-ci ildən tətbiq olunan vahidləşdirilmiş tarif sistemi və 2001-ci ilin aprelin 16-da qəbul olunmuş diferensiallaşdırılmış tarif sistemi mühüm rol oynayır.

1997-ci ildə vahidləşdirilmiş tarif sisteminə keçilmişdir. Bu sistemə keçməkdə qarşıda duran əsas məqsədlər – gömrük rüsumlarından İqtisadiyyatın idarə edilməsinin bir elementi kimi istifadə etmək, dövlət büdcəsinin gəlirlər hissəsini təmin etməkdən ibarət idi.

Bildiyimiz kimi, 1997-ci ilin yanvarın 1-dən başlayaraq ölkəyə idxal edilən xarici mallara vahid unifikasiya edilmiş 15%-lik gömrük idxal rüsumu tətbiq edildi. Bu üst dərəcə idi. Konkret desək, respublikaya idxal olunan mal ya idxal rüsumundan azad idi, ya da 15%-lik gömrük idxal rüsumuna cəlb olunurdu. Sonradan bəzi mal qruplarına 10%-lik, 5%-lik, 3%-lik gömrük idxal rüsumları tətbiq olundu. Amma maksimum 15%-lik səviyyə saxlandı. Belə bir gömrük tarif sisteminin fəaliyyəti daxili istehsalın inkişafı üçün normal şərait yarada bilmirdi. 1997-ci ildə belə bir sistemin qəbul edilməsini normal qarşılamaq lazım idi. Çünki o zaman qarşıda dayanan əsas məsələ özəlləşdirmə prosesini başlamaq və onun birinci mərhələsini uğurla başa çatdırmaqdan ibarət idi. Sirr deyil ki, özəlləşdirmə prosesinin gedişində özəlləşdirilən müəssisələrin çoxu müəyyən dövrə bağlanan işlərin sayı arta biləcəkdi, belə olan təqdirdə əgər yenə də idxal olunan mallara yüksək rüsumlar tətbiq olunsaydı, o zaman sosial vəziyyət mənfi hallarla müşayiət oluna bilərdi. Ona görə də özəlləşdirmə prosesinin az mənfi sosial effektlə müşayiət olunması üçün hökumət unifikasiya edilmiş, vahidləşdirilmiş gömrük tariflər sisteminə keçdi və bu 1997-ci ilin 1 yanvarından tətbiq olunmağa başladı. Eyni zamanda gömrük ixrac rüsumları ləğv edildi ki, həm manatın kursunun dəyişməsi, həm də idxalın təmin olunması üçün ixracdan gələn vəsaitdən kifayət qədər istifadə oluna bilsin. Özəlləşdirmənin birinci proqramının əhatə etdiyi dövrlə belə siyasətin həyata keçirilməsi məqsədə uyğun idi və özəlləşdirmənin yəni, ikinci dövrünün başlanması ilə əlaqədar ona uyğun olaraq yeni gömrük tariflər sisteminə keçid vacib zərurət kimi ortaya çıxırdı. Ikinci tərəfdən, birinci özəlləşdirmə proqramının reallaşması nəticəsində özəlləşdirilmiş müəssisələrin çalışması və daxili bazarda onların rəqabət qabiliyyətinin yüksəldilməsinə köməklik göstərilməsi zəruridir. Bu köməklik isə çox aşağı faizlə kreditlər verməklə həmin müəssisələri dövriyyə vəasitləri ilə ətmin etmək, ya onları müəyyən dövr daxili vergi və rüsumlardan azad etmək, yaxud da onların istehsal edəcəkləri eyni adlı mallar kənardan Azərbaycana gətirilərkən həmin mallara yüksək rüsumlar qoymaqla müəyyən dövrdə ölkə bazarına İqtisadi baxımdan buraxmaq yolu ilə edilə bilər. Burada əsas meyar ölkə daxilində istehsal olunan məhsullar kənardan respublikaya gətirilən zaman onlara yüksək gömrük idxal rüsumu qoymaq və bu malların ƏDV-dən azad edilməsinə yol verməkdən ibarətdir. Bu da təbiidir. Əgər ölkə daxilində mal istehsal olunursa, o, qanunvericiliklə nəzərdə tutulmuş dərəcədə ƏDV-yə cəlb olunursa, nə üçün həmin mal kənardan Azərbaycana gətiriləndə ona əlavə dəyər vergisi tətbiq olunmasın. Belə olan təqdirdə daxili istehsalçı qarşısında idxalatçı rəqabət qabiliyyətini artırmış olur. Ona görə də Nazirlər Kabinetinin 124 saylı qərarında bu amil tamamilə nəzərə alınmışdır. Ölkə daxilində ayrı-ayrı məhsul növlərinin istehsal edilib-

edilməməsi məsələsi, yaxud bu imkanın olub-olmaması ciddi şəkildə araşdırılmış və qeyd edilən qərarda öz əksini tapmışdır. Bu qərardan belə nəticəyə gəlmək olar ki, idxal olunan mal Azərbaycanın özündə istehsal olunursa, həmin mallara idxal o zamanı ƏDV tətbiq edilməlidir. Amma əgər yerli istehsal Azərbaycanın həmin mala olan ehtiyacını ödəmirsə, bu zaman o, ƏDV-dən azad oluna bilər. Başqa sözlə, ölkə daxilindəki hər bir malın, xammalın istehsalçısına rəqabət qabiliyyətini artırmaq əsas meyar kimi götürülür. Eyni növ eyni cins bir-birini əvəz edə bilən malların Azərbaycan Respublikası ərazisində istehsalı varsa və yaxud belə bir istiqamətdə işləmək mümkündürsə, o zaman həmin malın idxalına yüksək idxal rüsumu tətbiq olunur. Bununla da daxili istehsalçılar üçün normal şərait yaranacaq. Bütün bunların zövqündə isə 15%-lik maksimal həddi ortadan qalxır. Amma o mallar ki, Azərbaycanda istehsal olunmur, onların gömrük idxal rüsumunu aşağı, sıfır dərəcəyə yaxın qoymaq lazımdır.

Qeyd edək ki, 1997-ci ilin 1 yanvarından bütün mallar üçün gömrük ixrac rüsumları tamamilə sıfıra endirilmiş, eyni zamanda bütün tarif və qeyri-tarif maneələri ləğv edilmişdir. Burada əsas məqsəd ölkədə valyuta ehtiyatlarının normal həddini təmin etmək üçün ixracın qarşısında olan bütün maneələri aradan qaldırmaq idi. Bu əsas götürülərək ixrac üçün tam real şərait yaradıldı. Ölkədə kifayət qədər valyuta ehtiyatları yaratmaq üçün ixracın artırılması labüd idi. Daxildə müxtəlif ərzaq və qeyri-ərzaq məhsullarının istehsalının həcmi çox kiçik olmaqla, bu məhsullara tələbat əsasən idxal hesabına ödənilirdi. Ona görə elə addımlar atılmalıydı ki, ixracdan gələn vəsait idxalın maliyyələşdirilməsindən artıq olsun və bu hesaba ölkənin maliyyə ehtiyatları yaradılsın.

Artıq 2008-ci ilin sonuna ölkədə valyuta ehtiyatlarının həcmi 17 milyard dollara çatmışdır. Gömrük işinin mühüm istiqamətlərindən biri də Azərbaycan Respublikasında gömrük orqanları tərəfindən həyata keçirilən valyuta nəzarətidir. Qeyd etmək lazımdır ki, valyuta nəzarəti dövlətin istər valyuta tənzimlənməsinin və istərsə də XİF-in gömrük tarif tənzimlənməsinin vacib elementlərindəndir. Yəni valyuta nəzarətini qurmadan, onu təkmilləşdirmədən və onun İqtisadi səmərəliliyini artırmadan dövlətin gömrük-tarif tənzimlənməsi tədbirlərini həyata keçirmək səmərəsiz olar.

Azərbaycan Respublikasının gömrük orqanları Azərbaycan Respublikasının gömrük sərhədindən mövcud valyuta əməliyyatlarından əldə edilmiş valyuta sərvətlərinin Azərbaycan Respublikasına qaytarılmasına nəzarəti təmin edir.

Azərbaycan kimi inkişaf etməkdə olan bazar İqtisadiyyatı tam təşəkkül tapmayan bir ölkədə gömrüyün əsas vəzifələri büdcə gəlirlərinin yaranmasında bilavasitə iştirak etmək, imkan düşdükcə milli İqtisadiyyatı xarici rəqabətin hər cür mənfi təsirindən qorunmaqdır. Bu gün Azərbaycanın gömrük siyasətində hər iki istiqamətində iş aparılır.

Bunun nəticəsidir ki, ölkə İqtisadiyatı dinamik inkişaf edir. Ümumi İqtisadi inkişafda yeni mərhələyə qədəm qoymuşdur. Büdcə gəlirlərinin formalaşması təmin edildikcə, büdcə kəsri azalır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün real zəmin yaranıb. Təbii ki, gömrük bu proseslərdən kənarda qalmayıb.

Qeyd etmək lazımdır ki, əgər 2001-ci ilin aprel ayının 16-na qədər Azərbaycanda gömrük orqanlarının həyata keirdiyi İqtisadi fəaliyyət birmənalı şəkildə yalnız dövlət büdcəsi gəlirlərinin doldurulmasına xidmət edirdisə, aprel ayında Azərbaycanın yeni gömrük-tarif sistemi qəbul edildi. Bu gömrük-tarif sistemi gömrük orqanları üçün yalnız fiskal funksiyaları deyil, eyni zamanda tənzimləyici və qoruyucu funksiyaları həyata keçirmək imkanı yaratdı. Beləliklə, 2001-ci ildə yeni tarif sisteminin qəbul edilməsi, gömrük orqanlarının İqtisadi yönümlü fəaliyyətində tamamilə yeni bir dövrün başlanğıcını qoydu.

Diferensiallaşdırılmış tarif sistemi heç də dövlət büdcəsinin gəlirlər hissəsinin artırılmasını nəzərdə tutmur. 1997-ci ildə qəbul olunmuş vahidləşdirilmiş tarif sistemi bu məqsədə xidmət edirdi.

Ölkə daxilindəki istehlakçıların marqlarının qorunması üçün cəmi 5 dərəcədən (0, 3, 5, 10, 15) ibarət olan differensiallaşdırılmış tarif sistemi qəbul edilmişdir. Bu ölkə daxilində istehsal edilən və ya istehsalını təşkil etmək mümkün olan mallara yüksək gömrük rüsumları, əksinə yerli istehsalı mümkün olmayan mallara isə aşağı gömrük rüsumları müəyyənləşdirilir. Amma bu uzun müddətli olmamalıdır. Hər bir ölkədə milli istehsalın inkişafının bir «uşaqlıq dövrü» və müdafiə tədbirləri var. Bu tariflər sistemi özəlləşdirmənin birinci mərhələsindən sonra yaranmış yeni milli istehsalımızın «ayağa durması», onun müdafiəsi üçün vacibdir. Proteksionist tarif sistemi dünyanın hər yerində əgər uzun müddət davam edərsə artıq mənfi nəticələrə gətirib çıxarır. Misal üçün qonşu Türkiyə Respublikasında vaxtı ilə avtomobil sənayesini «ayağa qaldırmaq» üçün protensionist tarif siyasəti həyata keçirməklə avtomobil sənayesini inkişaf etdirmək məqsədilə xarici avtomobillərin Türkiyəyə gətirilməsi zamanı dəyərin 100%-ə qədər gömrük idxal rüsumu tətbiq edilməyə başladı. Amma bu siyasətin əhatə etdiyi dövr uzandı. Nəticədə son vaxtlar buraxılan Türkiyə avtomobilləri öz keyfiyyətinə görə xarici ölkə avtomobillərinə uduzdular. Proteksionist siyasət yalnız 3-5 il üçün nəzərdə tutulmalıdır. Başqa sözlə, proteksionist siyasət total xarakter daşımalı, ölkənin İqtisadi təhlükəsizliyi baxımından xarici ticarət siyasəti aşağıdakı prinsiplər əsasında qurulmalıdır: tədricilik, diferensiallaşma və müddətlilik.

Tədricilik prinsipi daha çox xarici ticarətin liberallaşdırılmasına tətbiq edilməlidir. Bu sahədə Azərbaycanda müəyyən işlər görülmüşdür. Ixrac gömrük vergiləri ləğv edilmiş, idxal vergilərinin isə səviyyəsi aşağı salınmışdır.

Diferensiallaşdırma prinsipi dedikdə, milli İqtisadiyyatın sahələri özlərinin inkişaf səviyəsinə, daxili və xarici bazarda rəqabət qabiliyyətinə, ölkədəki məşğul əhalinin həmin sahələrdə iştirak səviyyəsinə, istehsalın və malların strate**ci** əhəmiyyət daşımasına görə, əhalinin zəruri istehlakında

malların oynadığı rola görə (xüsusi ilə ərzaq məhsulları) ayrılaraq qruplaşdırılması başa düşülür. İqtisadiyyatın hər hansı konkret sahəsində ölkədəki məşğul əhalinin iştirak payı yüksəldikdə və əhalinin zəruri istehlak mallarında həmin sahənin məhsulları mühüm paya malikdirsə və hələ də strate**ci** əhəmiyyət daşıyırsa, onda həmin mallara proteksionist siyasətdə, bu və ya digər məhsullara qarşı yeridilən proteksionist siyasətin uzun müddətli olmaması, konkret müddətinin göstərilməsi nəzərdə tutulur. Bu müddətdə həmin sahədə yaradılan əlverişli şərait sayəsində rəqabət qabiliyyətli sahələrə çevrilməlidir.

Beynəlxalq təcrübəyə uyğun olaraq XIF-in gömrük-tarif tənzimlənməsi tədbiri kimi diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq Azərbaycn Respublikasının gömrük tarifi müəyyən edilmiş, Nazirlər Kabineti ilə «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri», «Azərbaycan Respublikasından ixrac zamanı ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri» və «Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı» təsdiq edilmişdir.

Diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq bu gün bəzi məhsullara ixrac rüsumlarının tətbiq edilməsi məqsədəuyğun hesab edilmişdir. Müxtəlif istehsal sahələrinin yaranması, həm də belə müəssisələrin ölkə daxilindəki xammalla təmin edilməsi problemini ortaya qoyur. Məsələn, bu gün poladəritmə – «Bakı Steel Company», əlvan metaldan məmulatların hazırlanması istiqamətində müəyyən istehsal sahələri qurulmuşdur. Bunların isə yerli xammalla təmin olunması daha çox effekt verə bilər. Bütün bunlar nəzərə alınmaqla Nazirlər Kabinetinin qərarında yeni tarif sistemində ixrac rüsumlarının tətbiqi də nəzərdə tutulub. Bu iki adda məhsulu – qara metal qırıntıları və xammalını, əlvan metalları əhatə edir. Ölkədən ixrac ediləcək qara metalın hər tonuna 5 ABŞ dollarının manat ekvivalentində, əlvan metallar üçün də həm onların xammalı, həm də onlardan istehsal olunan məmulatlar üçün ixrac edilən zaman 15 ABŞ dollarının manat ekvivalenti həcmində gömrük ixrac rüsumları nəzərdə tutulmuşdur. Hələlik bu 2 qrup məhsullara gömrük ixrac rüsumu tətbiq ediləcəkdir. Zaman keçdikdə və müəyyən istehsal sahələrində normal istehsal və rəqabət qabiliyyətinə malik müəssisələr yarandıqca, ölkədə daxili bazarın tələbatını təmin etdikcə digər xammal növlərinin də ixracına belə rüsumların tətbiqi problemi aktuallaşa bilər.

Qeyd edək ki, hətta bizdən 1 il, 6 ay qabaq MDB dövlətlərinin əksəriyyətində ixrac rüsumlarının tətbiqinə başlanılmışdır.

2001-ci ilin aprelin 16-da qəbul olunan «Azərbaycan Respublikasının Gömrük tarifi» layihəsi nazirliklərə, şirkətlərə, özəl strukturlara göndərilmiş, onların rəyi alınmışdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən, Kənd Təsərrüfatı Nazirliyindən, «Azərkimya» Dövlət Şirkətindən layihəyə münasibət bildirilmiş, rəy verilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti xarici İqtisadi fəaliyyətin vahid əmtəə nomenklaturasının (XIFƏN) 27-ci

qrupuna daxil olan mallara idxal zamanı gömrük rüsumlarının Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsum dərəcələri haqqında» 22.04.1998-ci il tarixli 91 saylı və ona əlavə olunan 27.02.1999-cu il tarixli 25 saylı, 25.05.2000-ci il tarixli 94 saylı və 06.07.2000-ci il tarixli 112 saylı Qərarları ilə müəyyən edilmiş dərəcədə tətbiq edilməsini (xam neft və maye yanacaq istisna olaraq) təklif edərək idxal olunan xam neftə, tranzit və svop əməliyyatları zamanı gömrük rüsumuna cəlb edilməsi müvafiq olaraq ARDNS-in neft emalı zavodlarının və nəqliyyat vasitələrinin istehsalat güclərindən daha səmərəli istifadəsini və büdcəyə əlavə gəlir yaradılmasının mümkünlüyünü göstərməkdədir.

Kənd Təsərrüfatı Nazirliyinin verdiyi rəydə respublikada aqrar sənayeni inkişaf etdirmək üçün «Azərbaycan Respublikasının Gömrük Tarifi» layihəsində ayrı-ayrı qruplarda qeyd olunan kənd təsərrüfatı bitkiləri toxumlarının, hibridlərinin, ting və qələmlərinin, eyni zamanda buğda səpini və barama toxumlarına, mineral gübrələr və zəhərli-kimyəvi maddələrlə gömrük tarif dərəcəsini sıfır faiz təklif edərək yerli istehsalın inkişafını ön plana çəkmişdir. Ayrıca yerli istehsalı qorumaq baxımından 22-ci qrupda yer alan hər cür şərab növlərinə gömrük tarif dərəcəsini 50% təklif etmişdir.

«Azərkimya» Dövlət Şirkəti «Azərbaycan Respublikasının Gömrük Tarifi» layihəsində yerli müəssisələrdə istehsal edilən məhsulların tarif dərəcələrinin yüksəldilməsini, istehsal üçün lazım olan məhsulların gömrük tarif dərəcələrinin azaldılmasını təklif edərək, müdafiə edici bir siyasət həyata keçirməyin məqsədəuyğunluğunu göstərmişdir.

Yuxarıda verilən təkliflərdən aydın olur ki, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara gömrük rüsumlarının diferensiallaşdırılmış dərəcələrinin müəyyən edilməsi ölkəmizin İqtisadi təhlükəsizliyinin təminatında mühüm yer tutur.

Layihənin müzakirəsi zamanı beynəlxalq ekspertlər iştirak etmişlər. Beynəlxalq ekspertlər əvvəlki 15%-in maksimum rüsum dərəcələrindən yuxarı çıxmamaq şərti ilə, yəni 0-la 15% arasında variasiya etmək şərtilə bu dərəcələrdə dəyişiklik aparılmasının məqsədəuyğunluğu qəbul etdi. Bu prosesin başlanğıcında bir sıra hallarda beynəlxalq təşkilatların ekspertləri maksimum dərəcəsinin 15%-dən 12%-ə salınması məsələsini qoyurdular. Bu gömrük tarif sistemi qəbul olunandan sonra Azərbaycanda gömrük idxal rüsumlarının orta dərəcəsi 7-8%-ə bərabər oldu. Əlbəttə, bu rəqəm əvvəlki, yəni 6-7%-ə nisbətən irəliyə doğru bir addımdır. Lakin onu son həddi kimi qəbul etmək düzgün olmazdı. Ona görə də yaxın gələcəkdə, təbidir ki, gömrük siyasətinin həyata keçirilməsində bir sıra parametrlərə yenidən baxılması zərurəti ortaya çıxacaqdır.

Qeyd etmək lazımdır ki, bu gün artıq bu faktdır ki, idxalın artım tempi ildən-ilə aşağı düşür. 2008-ci ildə də idxalın strukturunda yüksək vergi və rüsumlu malların (ət və ət məhsulları, süd, un, yağ, şirniyyat, spirtli içkilər, dəri, kafel-metlax, dəmir, boya) xüsusi çəkisinin aşağı düşməsi davam etmişdir. Belə

ki, 2008-ci il ərzində ərzaq məhsullarının xüsusi çəkisi 2000-ci illə müqayisədə xeyli aşağı düşmüş, əkinə müqaisə olunan dövrdə istehsal təyinatlı avadanlıqların xüsusi çəkisi isə artmışdır.

Idxalın strukturunda baş verən əsas dəyişikliklərin səbəbi ölkədə əksər kənd təsərrüfatı məhsullarının, süd və ət məhsullarının, mebelin, tütün və spirtli içki məmulatlarının və s. tələbatın 90%-ə qədərini ödəyə biləcək səviyədə təşkil olunmuş müəssisələrin olmasıdır. Bu müəssisələrə Bakı Tütün Kombnatını, Azeri Kostel pivə zavodunu, Coca-Cola zavodunu, müxtəlif şirələr istehsal edən «SAF» şirkətini, «AZƏRSUN Holdinq» şirkətini, «Baku Steel Company» şirkətini və s. göstərmək olar.

Qeyd etmək lazımdır ki, diferensiallaşdırılmış tarif sisteminin özü malın hansı ölkədən gəlməsindən asılı olaraq aşağı və yuxarı gömrük idxal (ixrac) rüsumunun tətbiqini nəzərdə tutmur. 2000-ci ildə Azərbaycan Respublikası bütün dünyada qəbul olunmuş Malların kodlaşdırılmasının harmonikləşdirilmiş sisteminə qoşulmuşdur. Harmonik sistem əsasında tərtib edilmiş XIF Mal nomenklaturası əsas götürülməklə həmin nomenklatura üzrə bütün mal kodlarının qarşsında gömrük idxal rüsumlarının dərəcələri qeyd olunur. Bunlar advalor və spesifik rüSumlardır. Ayrı-ayrı ölkələr üçün mallara gömrük idxal rüsumlarının dərəcələri göstərilmir. Azərbaycan Respublikasının Vergi Məcələləsinin qüvvəyə minməsi ilə əlaqədar olaraq 2001-ci il yanvarın 1-dən etibarən vasitəli vergilərin «son təyinat» prinsipi ilə alınması qaydasına keçilmişdir.

Imzalanmış və ratifikasiya olunmuş Azad Ticarət sazişlərinə uyğun olaraq Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan və Gürcüstandan Azərbaycana, Azərbaycandan isə həmin ölkələrə idxal olunan mallardan gömrük idxal rüsumları alınmır. Qalan digər ölkələrdən gələn mallara gömrük idxal rüsumları tətbiq edilir. Əgər başqa ölkələrlə də belə müqavilə bağlasaq, onda qarşılıqlı şəkildə gömrük idxal rüsumlrı tutulmayacaq. Bütövlükdə hər bir ölkə ilə belə müqavilə bağlamaq olmaz. Məsələn, qonşu ölkələrdən Türkiyə ilə belə müqavilə bağlasaq, o zaman Iran tərəfi də belə çıxışdar edəcək. Belə müqavilələr bağlanarkən ilk növbədə həmin ölkələrlə Azərbaycanın ticarət əlaqələri təhlil edilməlidir. Əgər bu gün bizdən Türkiyəyə gedən malların dəyərindən azdırsa, onda belə bir müqavilənin bağlanmasından nə qazanırıq?! Axı ortada mənfi saldo var. Nəticə etbarilə bizdən mənfi saldonun həcmi qədər gömrük idxal rüsumları itiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sahibkarlığın inkişaf etdirilməsi məqsədilə son illər ərzində xüsusi dövlət proqramlarının qəbul edilməsi, sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilən tədbirlər respublikanın gömrük siyasətində də nəzərə alınmışdır. Sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması, xarici İqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraitinin yaradılması üçün, Azərbaycan Respublikası gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq spesifik rüsumların advalor rüsumlarla əvəz olunmasının 4 mərhələli qrafiki hazırlanmış

və həmin qrafikə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarı ilə 5 mal mövqeyi üzrə spesifik rüsumlar advalor rüsumlarla əvəz edilmişdir.

Hazırda gömrük siyasətinin başlıca istiqamətlərindən biri də məhz Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qoyulmasıdır ki, bundan həm bütövlükdə ölkə İqtisadiyyatı, həm də dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin. Bunun üçün isə respublikada diferensiallaşdırılmış tarif sisteminin tətbiqi mühüm rol oynayır.

Keçid dövründə respublikada yeni İqtisadi münasibətlərin təkamülü, onun beynəlxalqş əmək bölgüsnə və dünya təsərrüfat əlaqələri sisteminə qoşulması, Beynəlxalq Ticarət Təşkilatına üzv olmağa hazırlıq xarici İqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafı və təkmilləşdirilməsinin proqram-məqsədli yanaşma əsasında aparılmasını məqsədəuyğun nümayiş etdirir. Bu baxımdan respublikamızda gömrük sisteminin inkihafı və təkmilləşdirilməsi proqramının yaradılmasına ehtiyac var. Respublikanın milli xüsusiyyətləri, MDB ölkələri ilə idxal-ixrac əlaqələrinin genişlənməsi gömrük sisteminin müvəffəqiyyətə zəmanət verə biləcək prinsip və metodlar əsasında təkmilləşdirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, dünyada heç bir ölkə, hətta ən çox inkişaf etmiş ölkə yeni çoxobrazlı müasir malı səmərəli istehsal edə bilmir. Təbii ki, ayrı-ayrı ölkələr və ya ölkələr qrupu məhz elə nomenklatura məhsulları istehsal edirlər ki, onlar burada daha çox əlverişli şəraitə malikdirlər. Bunun əsasında ölkələrin ixtisaslaşması və kooperasiyası qurulur. Bu zaman onlar bu və ya digər malı elə həcmdə istehsal edirlər ki, o daxili bazarın tələbatını ödəsin və bundan sonra xarici bazara çıxarılır. Bunun bazasında isə əmtəə mübadiləsi yaranır və inkişaf edir, vahid dünya təsərrüfıatı formalaşır.

Bu mənada demək olar ki, beynəlxalq ticarət bir tərəfdən beynəlxalq əmək bölgüsünü şərtləndirir, digər tərəfdən isə onda iştirak edən ölkənin daxili İqtisadiyyatının səmərəliliyini artırır.

Azərbaycan Respublikası hazırda dünyanın 150-dan çox ölkəsi ilə beynəlxalq ticarət əlaqələri aparır. Beynəlxalq ticarətin İqtisadi əsasları müxtəlif malların istehsalı üzrə ixtisaslaşır və hər bir ölkədə digər ölkənin malına ehtiyac yaranır.

Beynəlxalq ticarət haqqında mülahizələr dərinləşdikcə göstərilən amillərin təsiri ilə xarici ticarətin əsasını təşkil edən digər amillər: yerli istehsalın kifayət etməməsi; malların qiymətinin beynəlxalq miqyasda fərqlənməsi; müxtəlif ölkələrdə fəqli mallar istehsalı da ortaya çıxır.

Qeyd etmək lazımdır ki, beynəlxaq əmək nəticəsində ölkələr konkret əmtəə və xidmətlər istehsalı üzrə ixtisaslaşmış və bir çox əmtəələr bəzi ölkələrdə ya istehsal edilmir, ya da az istehsal edilir. Bu isə son nəticədə beynəlxalq qiymətlərin fərqli olmasına səbəb olur.

Hələ vaxtı ilə klassik İqtisadi məktəbin nümayəndələrindən biri Adam Smit göstərirdi ki, sərvətin mənbəyi nə yalnız qiymətli daşlar, nə də yalnız

torpaqda becərilən kənd təsərrüfatı mallarıdır. Sərvət bütün istehsal amillərinin iştirakı ilə bütün sahələrdə (kənd təsərrüfatı, sənaye, ticarət) istehsal olunan malların ümumi miqdarı ilə müəyyən edilir. Istehsalda məhsuldarlığı əmək bölgüsü ilə ixtisaslaşma təmin edir.

Adam Smit özünün «mütləq üstünlüklər» nəzəriyyəsini iki ölkə və iki mal üzərində izah edir. Onun nəzəriyyəsinə görə, ticarət aparan hər iki ölkə İqtisadi səmərə əldə edir. Lakin bu zaman o hesab edirdi ki, xarici ticarətə dövlətlər mümkün qədər az müdaxilə etməlidirlər.

Mütləq üstünlüklər nəzəriyyəsinin cavab verə bilmədiyi sualları D.Rikardo «müqayisəli üstünlüklər» nəzəriyyəsi ilə aydınlaşdırmışdır. O,öz nəzəriyyəsi ilə sübut etmişdir ki, hər hansı bir ölkə bu və ya digər malın istehsalında istehsal xərcləri baxımından mütləq üstünlüyə malik olmadığı halda da ölkələr arasında xarici ticarət aparılır və bu ticarətdən hər iki ölkə mənfəət əldə edə bilir. Rikardoya görə, əgər, ölkələr arasında qiymətlərdə az da olsa fərq varsa, onda hər bir ölkə nisbi üstünlüyə malikdir. Yəni, bu ölkədə həmişə elə bir mal tapmaq mümkündür ki, mövcud istehsal xərclərinin nisbətində onun istehsalı digər ölkədəki istehsaldan daha sərfəli olsun. Həmin ölkə məhz belə malın istehsalı və ixracında ixtisaslaşmalıdır.

Qeyd etmək lazımdır ki, klassik İqtisadçılar ölkələr arasında istehsal funksiyaları və istehsal xərclərinin nə üçün olduğu səbəblrini izah etməmişlər.

Isveç İqtisadçıları F.Hekşer və B.Olin XX əsrin 30-cu illərində həmin suallara cavab verməklə beynəlxalq ticarət axınlarının istiqamətləri və strukturunun hansı amillərlə müəyyən edilməsi haqqında müasir anlayışların əsasını qoydular.

Hekşer və Olin nəzəriyyəsinə görə ölkələr arasında istehsal xərcləri arasındakı nisbi fərqin əsasını istehsal amillərinin dünyada qeyri-bərabər bölgüsü təşkil edir. Həmin nəzəriyyənin mahiyyəti aşağıdakından ibarətdir: hər hansı ölkə malik olduğu bol istehsal amillərindən intensiv surətdə istifadə olunan malların istehsalını təşkil etməklə üsütnlük qazanır. Digər tərəfdən, nisbətən az və ya çox olmayan istehsal amilləri intensiv istifadə edilən malların istehsalında isə üstünlüyə malik deyildir.

Ümumi olaraq Hekşer-Olin nəzəriyyəsinə görə, xarici ticarət o zaman səmərəli olur ki, o ayrı-ayrı dövlətləri eyni tip məhsul istehsalından imtina etməyə sövq edir, yəni istehsalın sahələrarası ixtisaslaşmasını artırır.

Lakin beynəlxalq ticarətin sonrakı inkişafı qarşıya yeni-yeni suallar qoyurdu və Hekşer-Olin nəzəriyyəsində irəli sürülən fərziyyələrin real həyatda özünü tam göstərdiyini demək mümkün deyildir. Yalnız onu göstərmək kifayətdir ki, bu nəzəriyyədə real həyatda güclü təsirə malik olan tələb amili nəzərə alınmamışdır. Halbuki, nəzəriyədə irəli sürülən əsas müddəalar ilə əldə edilən nəticələr tamamilə bu müddəaların əksinə ola bilər.

İqtisadiyyat üzrə sonradan Nobel mükafatına layiq görülmüş rus mənşəli V.V.Leontev Hekşer-Olin nəzəriyyəsinin nə dərəcədə real həyata uyğunluğunu 1947-ci ildə ABŞ-ın timsalında təhlil etmişdir. Təhlilin nəticələri kəskin elmi

mübahisələrə yol açmış, lakin ümumiyyətlə qəbul edilmiş və İqtisadi ədəbiyyata Leontev təzadı (ziddiyyəti) adı altında daxil olmuşdur.

Yuxarıda göstərildiyi kimi, Hekşer-Olin nəzəriyyəsinə görə, hər hansı bir ölkə nisbi üstünlüyə malik olduğu amildən intensiv istifadə etdiyi malın istehsalı və ixracı üzrə ixtisaslaşmalı, nisbi üstünlüyə malik olmadığı malı isə idxal etməlidir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya ölkələri ilə sərbəst idxal-ixrac əməliyyatları aparır və ölkəmizin bu sahədə əlaqələri genişlənir. Idxal-ixrac əməliyyatlarının aparılması gömrük işinin səmərəli təşkil edilməsi ilə sıx bağlıdır. Bu sahədə isə qarşıda duran bir sıra vaxtı çatmış problemlərin həlli qarşıda durur.

Gömrük fəaliyətinin səmərəliliyinin artırılması mexanizminin lazımi səviyyədə işlənməsini təmin etmək üçün bütün çatışmazlıqlar aradan qaldırılmalıdır. Belə ki, ölkədə aparılan gömrük siyasəti gömrük rəsmiləşdirilməsinə sərf edilən müddətin qısaldılması, gömrük prosedurlarının sadələşdirilməsi, gömrük informasiyalarının işlənməsinin avtomatlaşdırılmış sisteminin yaradılması, gömrük və gömrükətrafı infrastrukturların inkişaf etdirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, gömrük rəsmiləşdirilməsi proseduralarının təkmilləşdirilməsi faktiki tədbirlər arasında əsas məsələlərdən biridir və məzmununa görə fasiləsiz, daimi fəaliyyətdədir. Bu zaman riskin dərəcə və qruplarının qiymətləndirilməsinə ciddi diqqət yetirilməlidir.

Strate**ci** tədbirlərə, ilk növbədə, Ümumdünya Gömrük Təşkilatının tövsiyələri aid edilir. ÜGT tövsiyələrində resurs potensiallarından səmərəli istifadə, gömrükxanaların rəhbər orqanlarının möhkəmləndirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, müvafiq sistem və strukturların formalaşdırılması, daha səmərəli gömrük proseduraları və gömrük re**ci**mlərinin tətbiqi məsələlərinə xüsusi fikir verilir.

Respublikamızda gömrük xidmətini inkişaf etdirmək və təkmilləşdirmək üçün ilk növbədə dövlətin kompleks inkişaf proqramı olmalıdır. Bu proqram ardıcıl olaraq mərhələlər üzrə həyata keçirilməlidir.

Gömrük xidmətinin inkmşaf kompleks proqramının (GXIKP) tərtib edilməsində onun hazırlanmasının ümumi mərhələləri proqramın məqsədi və əhatə etdiyi məsələlər, əldə edilməsi nəzərdə tutulan göstəricilər texniki və fəaliyyət təminatı, proqramın müxtəlif növ resurslarla təmin edilməsi, proqramın hazırlanması və həyata keçirilməsinin stimullaşdırılması, proqramın yerinə yetirilməsinin təşkili, proqramın yerinə yetirilməsi səmərəliliyinin müəyyən edilməsi və s.

GXIKP-nin hazırlanmasında başlıca məqam proqrmın məsələləri və əldə edilməsi nəzərdə tutulan göstəricilərin, həmçinin gömrük xidmətinin yenidən qurulmasının konkret məsələlərini həll etməyə imkan verən mühüm istiqamətlərin dəqiq və aydın ifadə edilməsidir.

Gömrük xidmətinin inkişafının kompleks proqramının tərtib edilməsinə təsir edən amilləri üç əsas qrupda aşağıdakı xarakterlərə görə birləşdirmək olar:

Birinci qrup: ictimai-siyasi xarakterli amillər.

Müstəqillik əldə ediləndən sonra ölkədə gömrük xidmətinin formalaşmağa başlaması ölkənin siyasi həyatında ağır bir dövrlə və Azərbaycanın yaşayış məntəqələrinin Ermənistan tərəfindən işğal edilməsi ilə eyni vaxta düşür. Müxtəlif qruplaşmalar vəziyyətdən istifadə edərək əsas sahələrdə öz təsirini möhkəmləndirə bildilər. Çox vaxt bu qrupların mənafeləri bu regionda özlərinin geosiyasi planlarını təmin etməyə can atan xarici dövlətlərin maraqları ilə üst-üstə düşürdü. Belə ki, həmin dövrdə sərhədlər açıldı, bu da müəyyən olunmamış şəxslərin və yüklərin maneəsiz yerdəyişmələrinə kömək etdi.

Ikinci qrup: İqtisadi-hüquqi xarakterli amillər.

Keçid dövrünün ilk illərində birbaşa təsərrüfat əlaqələrinin qırılması, respublikalararası ödəmələr sisteminin dağılması və nəticədə satış bazarının itirilməsi ölkənin İqtisadiyyatını iflic vəziyyətinə gətirdi. Yaranmış vəziyyətdə tələbin ödənilməsi xeyli dərəcədə istehsal-texniki və istehlak təyinatlı əsas məhsulların idxalı yolu ilə mümkün idi. Vaxtı keçmiş ictimai-siyasi quruluşdan miras qalan qanunvericlik yeni problemlərin öhdəsindən gələ bilmədi. Gömrük vergiqoymasında dolaşıqlıq, aydın dövlət siyasətinin olmaması XIF-in tənzimlənməsində gömrük orqanlarının rolunu heçə endirmişdir.

Üçüncü qrup professional – etik xarakterli amillər.

Gömrük Komitəsi yaranan zaman müvafiq təcrübəyə və ixtisasa malik gömrük işçilərinin sayı çox az (yüz nəfərə yaxın) idi, indiki sayla müqayisə edilə bilməzdik. Ilk vaxtlarda respublikanın müxtəlif təsərrüfat, qismən də bilik və ixtisas səviyyəsi aşağı olan mütəxəssislər işə götürülmüşdülər. Gömrükçülərin cərgələrinə «asan qazanc» məqsədilə yaşayan adamlar da soxula bilmişdilər. Qanunvericilikdə boşluq və zəif dövlət idarəetməsi gömrük daxilolmalarının mütləq rəqəmlərində özünü göstərirdi.

Şübhəsiz, insan amili gömrük işində başlıca olaraq qalır. Hələ vaxtı ilə ümummilli liderimiz Heydər Əliyev gömrük işində yaranmış vəziyyəti xarakterizə edərək demişdir: «Təəssüf olsun ki, gömrük işçilərinin öz vəzifələrindən sui-istifadə etməsi halları, dövlət mənafeyini qorumayaraq öz mənafeyinə çalışması halları da var. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Mən hesab edirəm ki, əgər bütün gömrük məntəqələrində, gömrük orqanlarında işlərin hamısı qanunun yüksək tələblərinə uyğun, bütün qaydaların, bütün nizamnamələrin yüksək tələblərinə uyğun olsaydı, gömrük xidmətindən gələn gəlir xeyli artıq olardı, eyni zamanda respublikamızın İqtisadiyyatına zərər vuran hallar olmazdı».

Keçid dövrünün ilk illərində gömrük nəzarətinin texniki vasitələrinin çatışmazlığı sərhəd gömrük postlarında lazımi nəzarəti həyata keçirməyə imkan vermir və gömrük prosedurlarının aparılma vaxtını süni şəkildə uzadırdı.

Keçid dövrünün ilk illərinin çətinliklərini nəzərə alaraq Azərbaycan dövləti Azərbaycanın gömrük xidmətinin formalaşması prosesinə mənfi təsir

göstərən amillər və onun aradan qaldırılması üçün gömrük xidmətinin inkişafında kompleks proqramın hazırlanmasmı və həyata keçirilməsi işini öz üzərinə götürdü.

Dövlətin İqtisadi siyasətinin tələbləri baxımından Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən strate**ci** inkişaf proqramı işlənib hazırlandı. Bu proqramda keçirilmə üsulundan asılı olmayaraq malların tam gömrük rəsmiləşdirilməsinin təmin edilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və rəsmiləşdirilmə vaxtının qısaldılması, müasir mütərəqqi gömrük nəzarəti texnologiyalarının tətbiqi, gömrük ödəmələri texnologiyalarının və ödəmələrin büdcəyə daxil olmasına nəzarətin təkmilləşdirilməsi, yüklər və yükgöndərənlər haqqında ilkin informasiyanın alınması, gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, digər hüquq-mühafizə oraqnları ilə birgə narkotik maddələrin idxalının qarşısının alınması, respublikanın gömrük ərazisindən onların qanunsuz dövriyyəsinin tranzitinə yol verilməməsi, valyuta nəzarəti və s. məsələlər həll edildi.

Gömrük sisteminin infrastrukturunun yaradılması sahəsində mühüm addımlar atıldı.

Həlli vacbi olan təşkilati və idarəetmə probleləri arasında Azərbaycanın gömrük sisteminin bu gün üçün və uzunmüddətli perspektivdə keyiyyətcə yüksəlişini nəzərdə tutan şaxələnmiş, mürəkkəb gömrük infrastrukturunun yaradılması xüsusi rol onayır. Bu, bir çox amillərlə bağlıdır. Bu amillərin əsasında bazar İqtisadiyyatının inkişafı durur. Şübhəsizdir ki, inkişaf etmiş bazar infrastrukturu və onun digər tərkib hissələri, o cümlədən xarici İqtisadi əlaqələr və gömrük sahəsi olmadan bazar İqtisadiyyatı normal fəaliyyət göstərə bilməz.

Gömrük infrastrukturunun getdikcə artan rol və əhəmiyyətinə bir sıra amillər təsir göstərir:

-xarici İqtisadi fəaliyyətin tənzimlənməsi prosesində funksiyalarının, səlahiyyətlərinin və məsuliyyətlərinin artması ilə əlaqədar olaraq, gömrük orqanlarının fəaliyyətinin çətinləşməsi;

-gömrük rəsmiləşdirilməsi və mallara gömrük nəzarəti üzrə işlərin həcminin əhəmiyyətli dərəcədə artması, onların yerinə yetirilməsinin yeni texnologiyanın və texniki vasitələrin tətbiqindən birbaşa asılılığının güclənməsi;

-gömrük orqanlarının hüquq-mühafizə orqanı kimi yeni hüquq və vəzifələri, o cümlədən ölkənin İqtisadi təhlükəiszliyinin təmin edilməsi;

-gömrük təşkilatlarının kadr heyətinin keyfiyyətcə yaxşılaşdırılması və möhkəmləndirilməsi tələbatı, onların peşəkarlığının, bilik səviyyəsinin yüksəldilməsi, yüksək əxlaqi-etik keyfiyətlərin tərbiyə etdirilməsi, sosial sahənin geriliyinin aradan qaldırılmasının vacibliyi, gömrük əməkdaşları-nın sosial müdafiəsinin, normal həyat fəaliyyətinin təmin edilməsi, gömrüku işi sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi və dərinləşməsi prosesinin

Azərbaycanın gömrük orqanlarının infrastruktur təminatının beynəlxalq səviyyəyə qaldırılmasını tələb etməsi və s.

Qeyd etmək lazımdır ki, gömrük infrastrukturunun təşkili və inkişafı – gömrük orqanlarının vahid sisteminin ayrılmaz atributu, gömrük işinin həyata keçirilməsində onun səmərəli olmasını şərtlərindən əsas amillərdən biridir. Belə ki, infrastrukturn təminatı bu və ya digər səviyyədə mövcudluğu ilə gömrük işinin həyata keçirilməsinin prosedura və mərhələərini müşayiət etdirir.

Ənənəvi olaraq gömrük infrastrukturu məfhumunun müəyyən edilməsində əsas diqqət ona yönəldilir ki, infrastruktur dedikdə gömrük işinin həyata keçirilməsində, gömrük orqanlarının vəzifələrinin yerinə yetirilməsində tabeli, köməkçi rol oynayan gömrük müəssisəsilərinin şəbəkəsi nəzərdə tutulur.

Beləliklə, infrastruktur – gömrük orqanlarının normal fəaliyyətin göstərməsini təmin edən istehsal, qeyri-istehsal, elmi sahələr kompleksindir.

Gömrük infrastrukturuna xas olan ümumi və əlahiddə xüsusiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar:

-gömrük infrastrukturunu bütövlükdə milli İqtisadiyyatın infrastrukturundan təcrid olunmur, onun tərkibində yaradılır və fəaliyyət göstərir;

-gömrük sistemi bütövlükdə tənzimetmə, hüquqi, idarəetmə xaratkerli ifnrastrukturla sıx bağlı olan ümumi infrastrukturun tərkib hissəsidir. Bu keyfiyyətdə o xarici İqtisadi fəaliyyətin tənzimlənməsi sahəsinə və beləliklə də İqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir;

-gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinin təmin edilməsi kimi sahədaxili təyinatı var.

Bu baxımdan, gömrük sisteminin normal fəaliyyətini təmin edən infrastruktura təminatı elementlərini üç əsas qrupa ayırmaq olar.

Birinci qrupa mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbara emalı üçün, həmçinin sərnşinlərə xidmət etmək üçün şərait yaradan elementlər daxil edilir. Başqa sözlə, bu, gömrük orqanlarının maddi-texniki bazası (inzibati binalar, keçid-buraxılış məntəqələri, anbar təsərrüfatı, nəqliyyat vasitələri, sosial təyiantlı obyektlər, vağzal və hava limanlarında gömrük nəzarəti zonaları və s.) hesab edilir.

Ikinci qrupa gömrük əməliyyatlarının aparılmasını, prosesin gedişi və alınmış nəticələr barədə məlumatın ötürülməsini təmin edən sistem, vasitə və fəaliyyət növləri.

Gömrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahib avtomatlaşdırılmış məlumat sistemi, digər EHM və kompüter avadanlığı və s. daxildir.

Üçüncü qrupa gömrük orqanları kadrlarının normal həyat fəaliyyətinin bərpası üçün maddi, məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrastruktura aid edilir. Bu sfera gömrük işçisinin peşə hazırlığının və hərtərəfli inkişafının təmin edilməsi üçün qeyri-istehsal xarakterli tələbatın ödənilməsini təmin etməlidir.

Beləliklə, gömrük infrastrukturu dedikdə, xarici İqtisadi fəaliyyətin gömrük tənzimlənməsi şərtlərini, gömrük sisteminin bütövlükdə fəaliyyət göstərməsini təmin edən, gömrük nəzarəti, ekspertizası, rabitəsi, məlumat sistemi, gömrük orqanlarının maddi-texniki bazası, texniki vasitələr, institusional, sosial struktur və fəaliyyət növləri kompleksi başa düşülməlidir.

Hal-hazırda gömrük infrastrukturunun inkişaf etdirilməsi və təkmilləş-dirilməsi sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

-gömrük sərhədinin tam qaydaya salınması və təchizatı, yüklərin gömrük sərhədindən yerdəyişməsi uçotunun avtomatlaşdırılmasını təkmilləşdirmək üzrə işləri başa çatdırmaq;

-gömrük baxışı işlərinin təkmilləşdirilməsi, onun müxtəlif formalarından istifadə edilməsi, müstəqil identifikasiya və sənədli yoxlama texnologiyasının tətbiqi;

- boru kəməri nəqliyyatı və elektrik xətləri ilə yerdəyişən mallar üzərində faktiki nəzarətin təşkili;

-tənzimetmənin mülkiyyət obyektlərinin yerdəyişməsinə nəzarəti həyapta keçirmək üçün təşkilati-hüquqi zəminin yaradılması;

-gömrük tənzimlənməsinin tarif metodları kompleksinin fəaliyyət səmərəliliyinin təhlilini aparmaq və onların təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq;

-hesabatların qəbul olunmuş formalar üzrə verilməsi, onların dəqiqliyini və keyfiyyətini yüksəltmək üçün işlərin sistemləşdirilməsi.

Azərbaycan Dövlət Gömrük Komitəsinin qarşısında qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi Ümumdünya Gömrük Təşkilatının (ÜGT) tövsiyə etdiyi taktiki və strate**ci** tədbirlərin ardıcıl həyata keçirilməsindən çox asılıdır. Məsələn, taktiki tədbirlərə aşağıdakılar aid edilməlidir: gömrük rəsmiləşdirilməsi müddətlərinin azaldılması, gömrük proseduralarının sadələşdirilməsi, daşınma, saxlanma, anbarlara vurulma mərhələsində vacib olmayan sənədləşmənin aradan qaldırılması və məcburi olmayanın ixtisar olunması, gömrük informasiyasının avtomatlaşdırılmış işləmə sistemlərinin tətbiqi, gömrük və gömrükətrafı infrastrukturun inkişaf etdirilməsi.

Azərbaycan Respublikası gömrük orqanının mövcud strukturu aşağıdakı sxemdə təsvir olunmuşdur



Gömrük vəzifələrini uğurla həyata keçirmək üçün Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fondu təsis edilmişdir. Bu fond Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 398-ci maddəsinə uyğun olaraq yaradılır və Azərbaycan Respublikasında gömrük siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsini nəzərdə tutur. Gömrük sistemi inkişaf fondunun vəsaitləri Azərbaycan Respublikasında gömrük sistemi fəaliyyətinin təmin edilməsinə və inkişafına, sosial sahənin inkişafına, eləcə də tabeçilikdə olan elmi-tədqiqat təşkilatlarının, laboratoriyaların və ətədris müəssisələrinin saxlanması, maddi həvəlsəndirmə və və sosial inkişaf fondunun inkişaf etdirilməsinə yönəldilir.

Gömrük təşkilatları öz işində mövcud infrastrukturlara əsaslanmaqla gömrük rəsmiləşdirmələrinin prosedurlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirirlər.

Qeyd etmək lazımdır ki, gömrük rəsmiləşdirilməsi prosedurlarının təkmilləşdirilməsi formasına və məzmununa görə permament (fasiləsi), daimi fəaliyyətdə olan taktiki tədbirlər arasında mühüm mərhələlərdən biridr. Gömrük rəsmiləşdirilməsi proseduralarının təkmilləşdirilməsi üçün baza xarici İqtisadi fəaliyyət iştirakçılarının riskinin obyektiv qiymətləndirilməsi olmalıdır.

Strate**ci** tədbirlərə, fikrimizcə, ilk növbədə, ÜGT-nın dünyanın bütün gömrük sistemləri üçün hazırladığı metodiki tövsiyələrin tətbiqini aid etmək lazımdır. ÜGT müxtəlif ölkələrin milli gömrük sistemlərinə yardım göstərmək, xüsusən də resurs potensialından daha səmərəli istifadə etmək, müvafiq idarəetmə sistemlərini təkmilləşdirmək, daha effektiv gömrük re**ci**mlərini tətbiq etmək zərurətindən çıxış edir.

ÜGT-yə daxil olan ölkələrin öz fəaliyyətində rəhbər tutduqları strategiyanın əsasında aşağıdakılar dayanır:

-milli gömrük sisteminin islahat və modernləşdirilmə proqramları;

-gömrük konvensiyalarının, beynəlxalq qaydaların və normativlərin tətbiqi və genişləndirilmə təcrübəsi;

-milli gömrük sistemlərinin islahatı üzrə tədbirlərin dövlət rəhbərliyi trəfindən dəstəklənmə təcrübəsi;

-milli gömrük sisteminin kadr potensialının islahatına xərclərin strukturu.

Ümumdünya Gömrük Təşkilatı dünya gömrük sistemlərinin işinin əlaqələndirilməsi funksiyasını öz üzərinə götürmüşdür. Əksər ölkələrin gömrükxanalarının fəaliyyətini təhlil etməklə, ÜGT onların əsas fəaliyyət prinsiplərini işləyib hazırlamışdır. Bu prinsiplərdə, milli xüsusiyyətlərin nəzərə alınması mühüm rol oynayır. Bu o deməkdir ki, hər bir dövlət öz milli mentalitetindən, İqtisadi vəziyyətindən və s. irəli gələn inkişaf qanunauyğunluqlarından çıxış edir. Bu prinsiplə yanaşı bazislik prinsipinə xüsusi əhəmiyyət verilir.

Bazislik prinsipi ölkənin gömrük xidmətinin milli meyarını nəzərə almaq üçün əsas ÜGT-nin müddəaları, müəyyən tövsiyələri hesab edilir. Bu prinsiplərin reallaşdırılmasında həlledici rol dövlətə məxsusdur, əsas maliyyələşmə mənbəyi isə dövlət büdcəsidir.

Gömrük sistemi sahəsində aparılan uğurlu islahatlardan bütün vətəndaşlar faydalanır, onun həyata keçirilməsi ölkənin bütün İqtisadiyatına, onun gəlirlərinə faydalı təsir göstərir. Beləliklə, dövlət büdcəsi gəlirlərinin artması ilə bərabər bütövlükdə respublikanın gəlirlərinin, eləcə də proqramın həyata keçirilməsində iştirak edəcək strukturların gəlirlərinin artmasında da nəzərə almaq lazımdır. Büdcə gəlirlərini və bütövlükdə İqtisadiyyatın qarşılıqlı əlaqəsini də nəzərə almaq lazımdır. Ixrac gömrük rüsumları məhdudluğunun aradan qaldırılmasına və ləğv edilməsinə görə dövlət büdcəsinin bu mənbə hesabına gəlirləri azalmalıdır. Idxal rüsumlarının aşağı salınması da xarici

İqtisadi fəaliyyətdə büdcənin gəlirinin azalmasına səbəb olur.

Qeyd etmək lazımdır ki, o da unudulmamalıdır ki, gəlirlərin azalması digər amillər hesabına, məsələn, milli İqtisadiyyatın yüksəlişinə əsaslanan xarici İqtisadi dövriyyənin həcmlərinin artması hesabına kompensasiya ediləcəkdir.

Idxal rüsumlarının ümumi azalması zamanı məntiqi proteksionizm və ölkə əmtəə və xidmət istehsalçılarını müdafiə etmək siyasəti yürüdüləcəkdir.

Ümumiyyətlə, xarici ticarət dövriyyəsinin artımı, milli İqtisadiyyatın yüksəlişi, onun dünya təsərrüfat əlaqələri sisteminə üzvi şəkildə daxil olması nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsindən çox asılıdır. Bütün bunlar son nəticədə respublika İqtisadiyyatının inkişaf etməsi və xalqın maddi rifah halının yüksəlməsini təmin edəcəkdir.

3.6. Azərbaycanın beynəlxalq gömrük əlaqələri və gömrük ittifaqlarında iştirakının perspektivləri

Bazar İqtisadiyyatına keçid şəraitində Azərbaycanın gömrük təşkilatının beynəlxalq əlaqələri xeyli genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə qalxmışdır.

Beynəlxalq gömrük əməkdaşlığının inkişaf etdirilməsi və möhkəmləndirilməsi, inteqrasiyanın dərinləşdirilməsi məqsədilə bir çox beynəlxalq təşkilatlar və dünya dövlətlərinin gömrük xidmətləri ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquqi əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirir. Bu istiqamətlərdən biri də Ümumdünya Gömrük Təşkilatı ilə sıx əlaqələr müstəvisində fəaliyyət göstərməsidir. Təsadüfi deyildir ki, Azərbaycan Gömrük Təşkilatı ÜGT-nin strateci istiqamətlərinin formalaşdırılması, qlobal gömrük proseslərinin effektivləşdirilməsi və daha da müasirləşdirilməsində yaxından iştirak edir. Digər tərəfdən, ÜGT-nin fəal üzvü kimi dünyanın ən qabaqcıl ölkələrinin gömrük orqanları ilə sıx əməkdaşlıq edir.

Bu əməkdaşlıq ÜGT, MDB Gömrük Xidmətləri Rəhbərlər Şurası və ikitərəfli münasibətlər (ayrı-ayrı ölkələrinin gömrük orqanları ilə) çərçivəsində özünü büruzə verir.

ARDGK-nın ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərə üstünlük verməsi gömrük sisteminin təkmilləşdirilməsində öz bəhrəsini verir. Türkiyə, Iran Islam Respublikası, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Livan, Bolqarıstan respublikaları və Ukrayna gömrük orqanları ilə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. MDB Gömrük Xidmətləri Rəhbərlər Şurası çərçivəsində və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə çoxtərəfli sazişlər mövcuddur. Böyük Britaniya və Şimali Irlandiya Birləşmiş Krallığı hökumətləri ilə Azərbaycan Respublikası

hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardımı haqqında memorandum 7 iyul 1997-ci il tarixində imzalanmışdır.

DGK Müstəqil Dövlətlər Birliyi üzvü olan ölkələrin Gömrük Xidmətləri Rəhbərlər Şurasının iclaslarında fəal itirak edir. Bunun nəticəsidir ki, MDB üzvü olan ölkələrin Gömrük Xidmətləri Rəhbərlər Şurasının 20-ci iclası Bakı şəhərində keçirilmişdir. Dövlət Gömrük Komitəsi XIFƏN əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsini, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi də daxil olmaqla MDB üzvü olan ölkələrin gömrük siyasətinin əsas istiqamətləri üzrə təkliflərin hazırlanıb təqdim edilməsini təmin edir.

DGK, həmçinin, gömrük orqanları üçün kadrların hazırlanması, avtomatlaşdırılmış informasiya sistemi, gömrük statistikası, beynəlxalq əməkdaşlıq sahələrində MDB gömrük xidmətləri ilə əməkdaşlıq edir.

Ukrayna Dövlət Gömrük Xidmətindən daxil olmuş "Ukrayna Dövlət Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı yardım göstərilməsi qaydaları haqqında memorandum" layihəsinin ekspertizası aparılmış və Azərbaycan Respublikası hökuməti nümayəndə heyətinin Ukraynada səfəri zamanı 30 iyul 1999-cu il tarixində Kiyev şəhərində imzalanmışdır.

Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Mişel Danenin məktubuna əsasən Azərbaycan Respublikası "Malların təsviri və kodlaşdırılması üzrə hormonikləşdirilmiş sistem haqqında Beynəlxalq konvensiya"ya qoşulmaq barədə təklif daxil olmuşdur. Bu məqsədlə yuxarıda adı çəkilmiş konvensiya dövlətdaxili proseduralardan keçirilməsi üçün Nazirlər Kabinetinə və Xarici Işlər Nazirliyinə göndərilmiş və Milli Məclisdə ratifikasiya olunmuşdur.

Fərəhləndirici haldır ki, 2001-ci ilin yanvar ayından respublikamız bu konvensiyaya qoşulan 100-cü dövlət oldu.

ÜGT-nin Brüssel şəhərində keçirilən 93/94-cü sessiyalarında Komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmiş və sessiyanın işi zamanı Azərbaycan Respublikası ÜGT-nin Maliyyə Komitəsinə üzv seçilmişdir.

Avropa Ittifaqının TASIS proqramı üzrə Azərbaycan Respublikasının milli və dövlətlərarası proqramları və Avropa Ittifaqı Komissiyasının Texniki Yardım Proqramı çərçivəsində (1996-cı il oktyabr) Daşkənd şəhərində Avropa Gömrüyü və Azərbaycan Respublikası Dövlət Komitəsi arasında TASIS proqramı çərçivəsində "Təhsil", "Idarəetmə və təşkilat" layihələri üzrə müqavilələr imzalanmışdır.

DGK-nın Avropa Gömrüyü ilə apardığı intensiv danışıqlar nəticəsində TASIS proqramı çərçivəsində Avropa Gömrüyünün Orta Asiya respublikaları və Azərbaycan Respublikası üzrə koordinatları tərəfindən "Con Erik Platt" bağlanmış müqavilələrin həyata keçirilməsi barədə gömrük orqanalarının məsul

vəzifəli şəxsləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin rəyini öyrənmək üçün Bakıda görüşlər keçirilmişdir.

Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizinin inkişafına həsr edilmiş Beynəlxalq Konfransa hazırlıq üçün Bakı şəhərində keçirilən iştirakçı dövlətlərin işçi qrupları üzvlərinin iclasında gömrük əməliyyatları və sənədləşdirmələrinin aparılması üzrə əsas sazişin texniki əlavəsinin layihəsi hazırlanmışdır.

Burada TASIS və TRASEKA proqramları çərçivəsində həyata keçirilən sərhəd – keçid prosedurlarının sadələşdirilməsi, unifikasiya olunması və s. məsələlərin əksini tapmasıdır. Təbii ki, nəqliyyatın sərhədlərdən keçməsi üçün proqram iştirakçıları olan dövlətlərarası gömrük əməliyyatlarının genişlənməsi vacib məsələ kimi qarşıda dayanır. Azərbaycan gömrük orqanları sərhəd buraxılış məntəqələrində vacib dövlət xidməti orqanı kimi gömrük prosedurlarının hormonikləşdirilməsi və sadələşdirilməsi istiqamətində mühüm addımlar atırlar. Azərbaycan bununla bağlı bir sıra beynəlxalq konvensiyaya qoşulmuş. Dövlət Gömrük Komitəsi tərəfindən gömrük nəzarətinin təşkili, informasiya texnologiyalarının istifadəsi sahəsində səylərini xeyli artırmış, avtomatlaşdırılmış idarəetmə sisteminə keçilmiş, proqram təminatı və texniki baza yaradılmış və hazırda istismardadır.

TRASEKA layihəsi üzrə əsas çoxtərfli saziş imzalandıqdan sonra ölkəmiz tərəfindən bütün lazımi təşkilati işlər həyata keçirilmişdir və bu dəhlizin səmərəliliyinin artırılması və inkişaf etdirilməsi üzrə mühüm işlər görülmüşdür.

Ümumiyyətlə, respublikamıza gələn Avropalı ekspertlər gömrük orqanları tərəfindən həyata keçirilən işləri yüksək qiymətləndirmiş, sərhəd – keçid məntəqələrində yaradılan şəraitdən razı qaldıqlarını dilə gətirmişdilər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dəvəti ilə Iran Islam Respublikasının İqtisadiyyat və maliyyə nazirinin müavini, Gömrük idarəsinin prezidenti və Türkiyə Cumhuriyyətinin gömrük müstəşarı Azərbaycana rəsmi səfər etmişlər.

Iran Islam Respublikasının İqtisadiyyat və maliyyə nazirinin müavini, gömrük idarəsinin prezdentinin səfəri zamanı "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Iran Islam Respubilkası Gömrük idarəsi arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum" imzalanmşdır.

Azərbaycan Prezdenti İlham Əliyevin 2008-ci ildə Türkiyəyə rəsmi səfəri çərçivəsində iki ölkənin hökumətləri arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında imzalanan sazişi əməkdaşlığın genişləndirilməsi baxımından irəliyə doğru atılan müsbət addım kimi səciyyələndirmək olar.

Saziş imkan verəcəkdir ki, gömrük orqanları arasında gömrük qanunvericiliyinin pozulmasının hər iki ölkənin İqtisadi, maliyyə, ticarət və ictimai maraqlarına ziyan vurduğu nəzərə alınmaqla qarşılıqlı əməkdaşlıq genişləndirilsin.

Sazişin əsas məram və məqsədlərindən biri də tərəflərin zəruri məlumat və sənədlərin alınmasında bir-birinə yardım etməsidir. Eyni zamanda sazişin müddəalarına uyğun olaraq Türkiyə Cumhuriyyəti Gömrük Müstəşarlığı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi məqsədilə gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması üçün və bu hüquqpozmalara qarşı bütün zəruri tədbirləri görəcəklər.

Razılığa gələn tərəflər öz təşəbbüsləri ilə və ya sorğu əsasında öz milli qanunvericiliyinə uyğun olaraq birgə əməkdaşlıq edəcək, gömrük qanunvericiliyini pozan və ya pozması aşkara çıxan fəaliyyət və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarəti ilə məşğul olan bütün təzahürlərə qarşı birgə mübarizə aparacaqlar. Iki qardaş ölkənin gömrük xidmətləri əməkdaş və mütəxəssis mübadiləsi də daxil olmaqla aralarında bərabər təsirli əlaqələrin qurulması təhsil sahəsində qarşılıqlı proqramların hazırlanması, razılaşdırılan mövzularda birgə seminar və konfransların təşkili, gömrük qanunvericiliyi və tətbiqi sahəsində qarşılıqlıməlumat mübadiləsi sahəsində təcrübə aparacaqlar.

Məlumdur ki, beynəlxalq aləmdə nüfuza malik olan Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Mişel Dane respublikamıza ikinci dəfə (19 iyun 2000-ci il) işguzar səfər etmiş və faydalı fikir mübadiləsi aparmaqla perspektiv planların müzakirəsində iştirak etmişdir. Baş Katib tərəfindən Azərbaycan Gömrük Təşkilatının müsbət işi qiymətləndirilmişdir. Bu isə beynəlxalq aləmdə milli gömrük xidmətlərimizin layiqincə təmsil olunması və tanınmasının təzahürüdür.

Yeri gəlmişkən, 2002-ci ilin yanvar ayının 3-da ÜGT Baş Katibi Mişel Dane və DGK-nın sədri Kəmaləddin Heydərov arasında "Azərbaycan Respublikasının Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzinin təsis edilməsi haqqında" anlaşma memorandumu imzalandı. Memorandumda yaradılacaq həmin mərkəzdə regional tədris, texniki yardıma dair görüşlər və gömrüklə bağlı digər tədbirlərin keçiriləyəcəyi, DGK-nın onun sahibi və istifadəçisi olacağı özünün milli və beynəlxalq proqramlar üçün də istifadə edəcəyi əksini tapmışdır.

2000-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin gömrük orqanları rəhbərlərinin 7-ci iclasının Bakı şəhərində keçirilməsi beynəlxalq İqtisadi əməkdaşlığı, regional ticarət, nəqliyyat və kommunikasiya məsələlərinin həllinə yönəldilmiş üzv ölkələrin İqtisadi tərəqqisinə kömək etməklə gömrük sahəsində inteqrasiyanın dərinləşməsinə, beynəlxalq əlaqələrin genişlənməsinə xidmət edir.

ARDGK-nın nümayəndə heyətinin ÜGT-nin 95/96-cı sessiyasında (Brüssel, 6-8 iyul 2000-ci il) iştirakı və üzv ölkələrin təmsilçiləri tərəfindən dəstəklənəcək və mötəbər təşkilatların ali orqanı olan siyasi komissiyaya üzv seçilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun tanınmasının təzahürüdür.

Göründüyü kimi, son 10 ildə ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət, o cümlədən gömrük siyasəti nəticəsində respublikanın beynəlxalq gömrük əlaqələri xeyli genişlənmiş və hal-hazırda genişlənməkdə və inkişaf etdirilməkdədir.

IV FƏSIL. DÖVLƏTIN VERGI SIYASƏTI

Dövlət İqtisadiyyatın vergi yükünü müəyyən etməklə, vergi dərəcələrinin diferensiallığı ilə İqtisadi inkişafı stimullaşdıra və eləcə də bəzi sahələrdə antistimul yarada bilər.

İlham Əliyev

4.1. Vergilərin sosial-İqtisadi mahiyyəti.

Bazar İqtisadiyyatı şəraitində vergiqoyma metodu istehsal subyektlərinə stimullaşdırıcı metodlarla təsir göstərir, yəni istehsalın inkişafı stimullaşdırılır, onun artım tempi yüksəlir, beləliklə istehsal tənzimlənir. Bu metod müasir dövrdə bütün sivil ölkələrin tətbiq etdikləri, İqtisadi qanunlara əsaslanan qüdrətli bir metoddur. İqtisadiyyatın vergiqoyma (yaxud vergilər) metodu ilə tənzimlənməsi dövlətin maliyyə siyasətinin mühüm bir hissəsi olan vergi siyasəti vasitəsilə həyata keçirilir: cəmiyyət üçün faydalı olan sahələr stimullaşdırılır, dövrü keçmiş, yaxud zərərli olan sahələrin inkişafı isə ləngidilir, çətinləşdirilir (məsələn, cəmiyyət üçün az faydalı olan istehsal sahələri kimi). Başqa sözlə, bir halda vergilərin həcmi (yükü) azaldılır, imtiyazlar tətbiq olunur, digər halda isə onun həcmi artırılır, dərəcəsi yüksəlir. Məsələn, hazırda bazar İqtisadiyyatı sisteminə keçməkdə olan ölkəmizdə sahibkarlıq işi ilə məşğul olanlara istər vergi, istərsə də bank kreditlərinin verilməsində bir sıra güzəştlər edilir, bu yeni sistemin inkişafı stimullaşdırılır. Bu indiki İqtisadi siyasətimizin ən zəruri cəhətlərindəndir.

Vergilər vasitəsilə İqtisadiyyata tənzimləyici təsir göstərməyi dövlət istər büdcə vasitəsilə, istərsə də bilavasitə istehsala təsirlər göstərmək yolu ilə reallaşdırır. «Vergiqoyma maliyyə – büdcə münasibətlərində yenidən bölgü sahəsi kimi nəticə etibarilə İqtisadi stimul effekti daşıyaraq tənzimləyici təsirə malikdir. Əlbəttə fiskal funksiyada da meydanda stimullaşdırıcı əsaslar vardır».

Ölkəmizin «dünya birliyi çərçivəsinə tədricən daxil olmasının mühüm şərti, bütün başqa bərabər şərtlər ilə yanaşı İqtisadi cəhətdən əsaslandırılmış və strateci meyli olan vergi siyasətinin həyata keçirilməsidir».

Özünün vergi siyasəti və sahibkarlığa maliyyə təsiri göstərilməsi yolu ilə dövlət aşağıdakı əsas məqsədlərə nail olmağı qarşıya qoyur:

1) daimi və sabit İqtisadi artıma nail olmaq;

2) əsas mallara və xidmətlərə qoyulan qiymətlərin sabitliyinin təmin edilməsi;

3) əmək qabiliyyətli əhalinin mümkün qədər tam məşğuliyyətinə nail olmaq;

4) əhalinin müəyyən minimal gəlir səviyyəsinə malik olmasına nail olmaq;

5) vətəndaşların, o cümlədən (və xüsusilə) pensiyaçıların, əlillərin və çoxuşaqlı ailələrin sosial mühafizəsi sisteminin yaradılması;

6) sahibkarlığın inkişaf etməsinə şərait yaratmaq və onu stimullaşdırmaq;

7) xarici İqtisadi fəaliyyət sahəsində müəyyən tarazlıq və sabitliyin gözlənilməsi, bu fəaliyyətin stimullaşdırılması.

Bütün bu tədbirlər dövlətin İqtisadiyyatda mühüm tənzimləyici rolunun həyata keçirilməsini təmin edir.

Bu göstərilən məqsədlərə nail olunmasının əsas aləti isə maliyyə, xüsusilə vergilərlə təsir etmək metodlarıdır. Müasir tipli İqtisadiyyata malik olan ölkələrdə vergi siyasətinin başlıca qayğısı əsasən özəl sektorun inkişafı və xarici kapitalın cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması siyasətinin yürüdülməsidir. Bu məqsədlə sahibkarlıq fəaliyyəti üçün vergi güzəştlərinin edilməsi, onun hər vasitə ilə stimullaşdırılması ən mühüm şərtlərdəndir. Belə siyasət istər istehsal sahələri, istərsə də ərazi vahidləri baxımından həyata keçirilir. Digər ölkələrin təcrübəsi göstərir ki, İqtisadiyyatın tənzimlənməsi və inkişafı məsələlərində ən faydalı nəticələr inzibati yolla yox, məhz İqtisadi metodlarla, o cümlədən düzgün vergiqoyma siyasəti vasitəsilə əldə edilir.

Bütün müasir ölkələrin İqtisadi sisteminə aid olan və klassik bir fikir kimi ümumən qəbul edilmiş vergiqoymanın 4 başlıca prinsipi hələ XVIII əsrdə Şotlandiya İqtisadısı, maliyyə elminin yaradıcısı sayılan A.Smit tərəfindən formalaşdırılmışdır. Onun fikrincə, vergitutmanın tənzimləyici əhəmiyyəti olan məqsədyönlü təşkilinin prinsipləri aşağıdakı dörd qaydadı («maksimalar»):

1) vətəndaşlar gəlirlərinin həcminə uyğun olaraq vergi ödəməlidirlər;

2) verginin məbləği, üsulları və ödənilmə vaxtı vergi ödəyicisinə qabaqcadan məlum olmalıdır;

3) vergilər vergi ödəyicisi üçün ən əlverişli üsullarla tutulmalıdır;

4) hər bir vergi elə fikirləşilməli və həzırlanmalıdır ki, o dövlətin xəzinəsinə gətirdiyindən əlavə, xalqın cibindən mümkün qədər daha az götürsün.

Öz mahiyyəti etibarilə müasir dövr üçün də vacib olan bu prinsipal şərtlər təkcə dövlət xəzinəsinin doldurulması üçün yox, həm də istehsalın və istehsalçıların iş fəaliyyətinin, ictimai istehsalın tənzimlənməsi üçün də mühüm əhəmiyyət kəsb edir.

A. Smitin dövründən fərqlənən müasir şəraitdə İqtisadçı alimlər və mütəxəssislər vergiqoymanın indiki dövrün tələblərinə uyğun olan prinsiplər yaradaraq onları daha da inkişaf etdirmişlər. Belə ki, müasir dövrdə vergiyə cəlbetmənin qısa şəkildə aşağıdakı 3 əsas prinsipi fəaliyyət göstərir ki, bunlar da aşağıdakılardır: üstünlüyə malik olma prinsipi, vergilərin imkan çərvisəndə ödənilməsi prinsipi, vergilərin hazırlanmasının şəffavlığı və sadəliyi prinsipləri.

A. Smitdən sonra müasir maliyyə elminin əsasını qoyanlardan biri olan rus statistiki və İqtisadçısı, A.Smitin davamçısı olan N.I. Turgenyev «Vergi nəzəriyyəsinin təcrübəsi» kitabında göstərir ki, «əgər vətəndaşlar dövlət üçün heç nə etmirlərsə, dövlət də vətəndaşlar üçün heç nə edə bilməz». O, vergi dərəcəsinin vətəndaş və sahibkar üçün ədalətli həddini xalqın təhsil səviyyəsi ilə əlaqələndirirdi. N.I. Turgenyevin dediyinə görə, «xalqın təhsil səviyyəsi nə qədər yüksəkdirsə, vergi sistemini də bir o qədər təkmil hesab etmək olar».

Imkan daxilində ödəmə prinsipi: bəzi İqtisadi ədəbiyyatlarda buna ədalətlilik prinsipi deyilir. Bu prinsipə əməl olunmazsa, mövcud vergi sistemini heç də ədalətli hesab etmək olmaz. Həmin prinsip Azərbaycanın ictimai həyatında qabarıq şəkildə özünü biruzə verir. Bu prinsipə görə, ölkənin hər bir vətəndaşı dövlət xərclərinin maliyyələşdirilməsində öz gəlirlərinə və imkanlarına uyğun olaraq iştirak etməlidir. Bariz şəkildə desək, çox gəlirə malik olanlar vergi ödəməkdə çox, az gəlirə malik olanlar isə az iştirak etməlidirlər. Əhali təbəqələrinin gəlir səviyyəsi onların istehlakının xüsusiyyətində də özünü göstərir. Bu prinsipi ilk dəfə alman statistiki E.Engel bir qanunauyğunluq kimi formalaşdırmışdır.

Bu qanunauyğunluğa əsasən, əhali içərisində zəruri istehlak mallarının əldə edilməsinə, öz gəlirinin daha çox hissəsini xərcləməli olurlar. Varlı insanlar isə zəruri istehlak mallarının alınmasına yox, əsasən, zinət əşyalarının əldə edilməsinə daha çox vəsait sərf edirlər. Buradan belə bir nəticə çıxarmaq olar ki, vergilərin artırılması varlı təbəqini bəzi bahalı əşyaların alınmasından məhrum etdiyi halda, yoxsul təbəqələri zəruri həyat vasitəsi olan istehlak əşyalarının alınmasından məhrum edir, onların normal yaşamasını daha da çətinləşdirir. Engelin göstərdiyi bu qanunauyğunluğun rasionallığı ondadır ki, həqiqətən də zinət əşyalarından tutulan vergi məbləği ilə zəruri istehlak əşyalarından tutulan vergi məbləği arasında fərq mövcuddur. Məsələn, ayda 10 milyon manat gəliri olan şəxsdən 500 min manat vergi tutmaq onu yaşayış vasitələrindən və digər ən zəruri həyati tələbatların ödənilməsindən məhrum edə bilməz. Lakin aylıq gəliri 50 min manat olan şəxsdən 5 min manat vergi tutulduqda, bu şəxsin biznes işi və yaşayış vəziyyəti çox çətinləşər, çünki istehlakçılar öz gəlirlərini ilk növbədə ən zəruri istehlak mallarının alınmasına, sonra isə qalan gəlir hissəsini digər malların alımasına sərf edir. Bu prinsip ədalətli və rasionallıq prinsipdir. Lakin iş bundadır ki, hələ də ayrı – ayrı şəxslərin vergi ödəmək imkanları elmi cəhətdən tam dəqiqliklə hesablanmamışdır. Bu çatışmazlıq fiziki şəxslərin əmlakına qoyulan vergilərin tutulması zamanı daha aydın görünür. Burada ədalətlilik prinsipini tam bərpa etmək üçün yaxşı olardı ki, imkanlı fiziki şəxslərin əmlakına onun dəyərindən asılı olaraq mütərəqqi dərəcə ilə vergiyə cəlb edilsin. Lakin burada inkişaf etmiş ölkələrdə olduğu kimi vergiyə cəlb etmə zamanı vergiyə cəlb olunmayan sosial – minimal həddi müəyyən edilməlidir. Ona görə də həmin roblemi həll etmək və vergiqoymanı düzgün tənzimləmək üçün bələdiyyə (yerli hakimiyyət) orqanları yerlərdəki tikililər barəsində daha çox informasiyaya malik olduqları

üçün həmin sosial – minimal həddin onların özləri tərəfindən təyin edilməsi daha məqsədəuyğun olardı.

İqtisadiyyatın tənzimlənməsində daha yüksək rol oynayan vergiqoymanın özünün tənzimlənməsində əsas prinsiplərdən biri də vergilərin hesablanmasında şəffaflıq və sadəlik prinsiplərinin gözlənilməsidir. Həmin prinsiplərin mahiyyəti ondan ibarətdir ki, vergi sistemi mürəkkəb, anlaşılmaz olmayaraq, sadə tədbirlərə əsaslanmalıdır. Vergilərin hesablanması işində sadəlik, şəffaflıq hökm sürməlidir və nəzarət orqanlarının fəaliyyəti az xərclə həyata keçirilməlidir. Əgər vergi sistemində şəffaflıq və sadəlik prinsipi təmin edilməzsə, onda ölkədəki qanunlardakı anlaşılmazlıqlar nəticəsində bəzi xoşagəlməz hallar, sosial gərginliklər meydana çıxa bilər, İqtisadiyyatın tənzimlənməsi işi isə az səmərəli olar. Hazırda ölkəmizdəki vergiqoymanın təşkili prinsipləri inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrin təcrübəsinə əsaslanır. Lakin, büdcə vergi sistemindəki çatışmazlıqlar vergiqoymanın təşkili prinsiplərində çatışmazlıqlardan xəbər verir. Bizim fikrimizcə, vergiqoymanın prinsipləri işlənib hazırlanan zaman respublika İqtisadiyyatının və ölkənin milli xüsusiyyətləri, sahələr arasındakı nisbətlər və onların inkişaf mərhələsi kimi amillər nəzərə alınmalıdır. Vergiqoymanın ədalətlilik prinsipinin inkişafında və reallaşdırılmasında ölkədə tətbiq olunan Vergi Məcəlləsinin rolu çox böyükdür. Belə ki, qüvvədə olan vergi məcəlləsinin Vergi sistemi və vergiqoymanın prinsiplərinin praktiki baxımdan reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Sözün əsl mənasında aparılan vergi islahatları və Vergi Məcəlləsinin özü bilavasitə ədalətlilik prinsipinə əsaslanmalıdır, ayırmaların hesablanmasında gələcək dövrün xərclərinin uçotu, kreditə görə faizin və s. uçotun yeni qaydaları müəyyən edilməlidir. Lakin bu vergi sistemində, mühasibat uçotunda və maliyyə menecmentində dəyişiklikləri uyğunlaşdırmaq həmişə mümkün olmadığından, vergi yükünün müxtəlif variantlarını qiymətləndirmək üçün vergi məcəlləsi ilə yanaşı xərclərin tərkibi haqqında qanunun qəbul edilməsi də məqsədəuyğundur. Vergilərin tənzimləyici təsiri bunlardan çox asılı olur.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlətin fiskal siyasətində ən mühüm sistemləşdirilmiş qanunvericilik aktlarından biri kimi hüquqi və fiziki şəxslərin müxtəlif səviyyəli büdcələrə icbari ödənişlərinin hüquqi əsaslarını və şərtlərini müəyyən edilməsidir. Bu zaman məcəllənin konsepsiyası, onun maddələrinin əsaslandırılması, ölkədə formalaşmış İqtisadi fikirlərin kamilliyini, məhsuldar qüvvələrin inkişaf səviyyəsini və istehsal münasibətlərinin vəziyyətini xarakterizə edir. Bu qanunların toplusu olan Vergi Məcəlləsi iki hissədən ibarətdir: ümumi və xüsusi hissələr. Bunlar hər ikisi İqtisadiyyat ücün mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, ölkədə vergi sistemi dedikdə, Vergi Məcəlləsinə uyğun tətbiq olunan bütün vergi növlərinin məcmusu başa düşülür. Belə ki, dövlət quruculuğunun inkişafı və formalaşmasının dəyişməsi həmişə vergi sisteminin yeniləşməsi ilə müşayiət olunur.

Yuxarıda deyilənlərdən də göründüyü kimi, vergi sistemi ilə Vergi Məcəlləsi arasında yaxınlıq mövcuddur. Belə ki, Vergi Məcəlləsi dedikdə, hər şeydən əvvəl, vergi sistemini təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək və vergi hüququnun ən başlıca problemlərinin həllinə kompleks yanaşmanı təmin etmək üçün sistemləşdirilmiş qanunvericilik aktı başa düşülür. Daha doğrusu, vergi sistemi ümumilikdə götürüldükdə, qüvvədə olan Vergi Məcəlləsinin xüsusiyyətləri ilə müəyyən edilir və vergilərin növlərini, prinsiplərini, onların tətbiq edilmə üsullarını, dərəcələrini, vergi nəzarətinin həyata kecirilməsini və eləcədə vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilmə üsullarını əks etdirir. Bütün bunlar isə vergilərin tənzimləyici rolunu müəyyən edir.

Dünya ölkələrinin vergi sistemləri müəyyən prinsiplərə uyğun olaraq formalaşırlar. Onların bəziləri vergi münasibətlərinin əsasını məkan və zamandan asılı olmayaraq müəyyənləşdirirlər. Digərləri isə vergi sistemlərinin qurulması və fəaliyyət göstərməsinin əsaslarını konkret ölkə və konkret tarixi şəraitlə müəyyənləşdirirlər.

Ona görə də vergiqoymada əsas problemlərdən biri də müasir şəraitdə respublikamızın vergi sisteminin əsas prinsiplərinin müəyyən edilməsidir ki, buraya da aşağıdakılar daxildir:

- hər bir hüquqi və fiziki şəxs mövcud qanunvericiliyə əsasən vergi ödəməlidir; vergilər cəmiyyətin və dövlətin inkişafının maliyyə təminatı məqsədi ili tətbiq edilir;
- vergilər siyasi, ideoloci, etnik və digər kateqoriyalardan asılı olmayaraq tətbiq edilir;
- vahid İqtisadi siyasətə, məkana və Azərbaycan Respublikasının vergi sisteminə zidd olan vergilər təbiq edilə bilməz. Bu qaydaları pozan fiziki və hüquqi şəxslər cinayətə yol vermiş olurlar.

Hazırda ölkəmizdə tətbiq edilən vergi sisteminin prinsipləri dərin məzmunlu olmaqla, həm klassik fikirlərə, həm də beynəlxalq təcrübəyə əsaslanır. Vergi sisteminin müasir prinsiplərinin heç biri dini və milli ayrıseçkiliyə yol vermədən yalnız vahid İqtisadi amillərə əsaslanır. Halbuki, bəzi inkişaf etmiş və humanist hesab etdiyimiz ölkələrdə vergitutma və əmək haqqının hesablanmasında milli və etnik, dini baxımdan ayrıseçkiliyə yol verilir. Bir misal olaraq, Almaniyanın, Avstriyanın, Baltikyanı ölkələrin, ABŞ-ın bəzi ştatlarındakı və s. vəziyyəti göstərə bilərik.

Müasir şəraitə uyğun, səmərəli təşkil olunmuş və dəqiq fəaliyyət göstərən vergi sistemi İqtisadiyyatın inkişafında güclü stimul rolu oynamaqla, ölkənin bir çox sosial – İqtisadi problemlərinin həllinə kömək edir.

Belə ki, respublikadakı iri biznesin və fərdi şəxslərin əmanətlərinin investisiyaya yönəldilməsinə şərait yaratmaqla yeni iş yerlərinin acılması və işsizliklə mübarizə aparmaqda mühüm rol oynayır. Elmi – texniki tədqiqat işlərinin, fundemental tədqiqatların stimullaşdırılması yolu ilə respublikAda istehsal olunan məhsulların rəqabətliliyinin təmin edilməsi və proteksionist

siyasəti yeritməklə kapitalın sahə və ərazi axımını təmin edir. Bundan başqa, xari**c**i kapitalın iştirakı ilə müştərək müəssisələrin yaradılmasını təmin etmək və əhalinin bütün təbəqələrinin sosial tələblərinin ödənilməsinin təmin edilməsinə şərait yaradır.

Qeyd etmək lazımdır ki, hər bir ölkədə təbiq edilən vergi məzənnəsi **c**əlb olunma vahidindən tutulan vergi öl**ç**üsüdür. Vergi praktikasında tətbiq olunan məzənnələr müxtəlifdir. Onlar vergilərin növündən və aparılan vergi siyasətinin məqsədlərindən asılıdır. Tə**c**rübədə proqressiv, proporsional, reqressiv və digər analoci məzənnələr fərqləndirilir. Vergilərin hesablanması texnikasından asılı olaraq ortahesablı, orta**ç**əkili, yuvarlaqlaşdırılmış məzənnələr vardır. Bəzi vergi metodikaları vergilərin hesablanmasında xüsusi imkanların tətbiq edilməsinə əsaslanır: pilləli, sürüşkən, proqressiv və s. Onlarda vergi məzənnələri **c**əlbolunma obyektinin və vahidinin dəyişməsi ilə bağlıdır.

Ölkəmizdə sahibkarlığın inkişafı ü**c**ün əlavə dəyər vergisinin (ƏDV) xüsusilə mühüm əhəmiyyəti var. Onun dərə**c**əsinin səviyyəsini respublikAmız ü**c**ün bir **ç**ox **c**əhətdən normal hesab etmək olar. Bütün ölkələrdə möv**c**ud sosial – İqtisadi sistemdə vergilər xüsusi yer tutur, dövlət qarşısında duran vəzifələrin yerinə yetirilməsində, ölkənin daxili və xari**c**i təhlükəsizliyinin qorunmasında, maarifin, səhiyyənin və digər sahələrin infrastrukturunun inkişaf etdirilməsində vergi sistemi iki **c**əhətdən mühüm əhəmiyyət kəsb edir: 1) həmin məqsədlərə nail olmaq ü**ç**ün büd**c**ə vəsaiti fondlarının formalaşmasında; 2) bu sahələrin inkişaf etdirilməsinin stimullaşdırılmasında, əhalinin bunun ü**ç**ün həvəsləndirilməsində. Bu məsələlərin həlli vergi sisteminin xüsusiyyətlərindən, onun dərə**c**ələrindən hərtərəfli asılı olur. Dövlət vergi mexanizminin xüsusiyyətlərini elə se**ç**məli, onun işini, vergi intizamını elə tənzimləməlidir ki, həm xəzinənin gəlir hissəsi təmin olunsun, həm də istehsal və qeyri – istehsal (sosial – İqtisadi) sahələrin inkişafı həvəsləndirilsin; bütün hüquqi və fiziki şəxslərin öz biznes işini inkişaf etdirməklə yanaşı, ədalətli prinsiplər əsasında vergilər ödənilsin və həm də onların vergidən yayınmasının qarşısı alınsın.

Ölkə büd**c**əsinin formalaşması və qarşıda duran vəzifədəri həll etmək ü**ç**ün dövlətin düzgün siyasəti mühüm rol oynayır. Belə ki, dövlət öz fəaliyyəti nəti**c**əsində ölkənin sosial – İqtisadi və müdafiə xarakterli problemlərin həlli tədbirlərini maliyyələşdirmək ü**ç**ün büd**c**əyə kifayət qədər pul vəsaitinin toplanmasını təmin edir. Ölkənin İqtisadi strukturunun formalaşdırılması zamanı İqtisadiyyatın sosial yönümlü olması ü**ç**ün lazımi struktur dəyişikliklərini həyata ke**ç**irir. Bundan başqa, işgüzarlıq və sahibkarlıq işini stimullaşdırmaq, investisiyaların artması ü**ç**ün maddi maraq yaradılması məqsədilə vergi mexanizminin və vergi sisteminin tənzimlənməsi işində lazımi təkmilləşdirmələr aparır.

Inkişaf etmiş ölkələrin tə**c**rübəsi göstərir ki, hər bir verginin nisbətən az, lakin vergilərin **ç**oxnövlülü olması daha münasib bir formadır. Doğrudur, u**ç**ot işində bu **ç**oxnövlülük müəyyən **ç**ətinliklər yaradır, lakin sosial ədalət prinsipində və kəmiyyət**c**ə az olmasında daha əlverişli olmaqla, öz kəmiyyəti ilə

narazılıq yaratmır, verginin ağırlığı daha geniş tədiyəçilər üzərinə düşür, bununla da vergi yükü nisbətən azalmış olur.

Vergi sisteiminin və vergi siyasətinin mühüm amillərindən biri də optimal vergi yükünün seçilməsindən ibarətdir. Bu sahədə dünya vergi təcrübəsinin istifadə etdiyi «Laffer əyrisi»nin tələblərini yada salmaq diqqətəlayiqdir. XX əsrin ikinci yarısında prof. A.Laffer tərəfindən müəyyənləşdirilmiş bu riyazi qaydaya əsasən, vergi dərəcələrinin yalnız müəyyən həddə qədər yüksəldilməsi daxilolmaların artmasına imkan verir, bu həddin keçilməsi isə vergi daxilolmalarının azalmasına, bunun zorla çoxaldılması cəhdləri meydana çıxır, bu da öz növbəsində sosial gərginlik, narazılıqlar yaranmasına səbəb olur.

Keçid İqtisadiyyatı şəraitində vergi sisteminin formalaşması və təkmilləşdirilməsi elə istiqamətdə aparılmalıdır ki, ölkəmizdə bərqərar olan bazar İqtisadiyyatı sisteminin möhkəmlənməsinə xidmət göstərsin. Başqa sözlə, vergi sisteminin sosial – İqtisadi aspektinin dövlət tərəfindən tənzimlənməsi azad sahibkarlıq sisteminin möhkəmlənməsinə və təkmilləşdirilməsinə xidmət göstərməlidir. Çünki sahibkarlıq fəaliyyəti bu sistemin əsasını, bu fəaliyyətlə məşğul olan müəssisələr, kəndli (fermer) təsərrüfatları, müştərək və xarici investisiyalı müəssisələr, bircalar bu sisteminin atributiv elementləri hesab olunur. Ölkədəki vergi sistemi onların fəaliyyətini stimullaşdırmalı, yeni yaradılan müəssisələrdə keyfiyyətli məhsul istehsalına, lazım gəldikdə çeşidlərin dəyişdirilməsinə, yaxud genişləndirilməsinə İqtisadi stimul yaratmalıdır. Bu sahədə respublikamızdakı münasib orqanların istifadə edə bilməsi üçün geniş dünya təcrübəsi mövcuddur.

Hazırkı dövr üçün səmərəli hesab olunan vergi sisteminin mühüm mexanizmlərindən biri də vergilərin müxtəlif əlamətlərinə, xarakterik xüsusiyyətlərinə və növlərinə görə qruplaşdırılması, yaxud təsnifləşdirilməsidir. Vergilərin təsnifləşdirilməsi vergiyə cəlbolunmanı universallaşdırmaq, onu müqayisəli təhlil aparmaq məqsədi ilə dünya təcrübəsinə uyğunlaşdırmaq üçün vacib şərtdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, vergilər hər bir ölkənin İqtisadiyyatının tənzimlənməsində mühüm alət kimi çıxış edir. Vergiqoyma və alınması prosesində vergiqoyma obyektinin xüsusiyyətləri nə qədər düzgün nəzərə alınarsa, vergi və onun dərəcələri, ağırlığı əmlaka, gəlirə və s. nə qədər uyğun qoyularsa, onun yığılması və sosial nəticələri də o qədər müsbət olar, etiraz doğurmaz. Məsələn, ABŞ – da bu amilləri nəzərə alaraq, 1986 – cı ildə ölkə tarixində ən radikal vergi islahatı keçirildi ki, bu da o vaxta qədər mövcud olan vergi sistemindəki haqsızlıqları aradan qaldırdı. Çünki həmin əvvəlki sistemə əsasən varlıların müəyyən hissəsi müxtəlif hüquqi fəndlərdən istifadə edərək, vergi ödəməkdən boyun qaçırırdı. Göründüyü kimi, cəmiyyətdə vergisiz normal yaşamaq mümkün olmadığı kimi, verginin cəmiyyətdəki və İqtisadiyyatdakı tənzimləyici rolunu təkmilləşdirmədən, onu mövcud şəraitə getdikcə daha adekvat etməkdən də keçinmək olmaz. ABŞ kimi böyük dövlətin təcrübəsi də bunu bir daha sübut edir.

Rus İqtisadçısı A.S. Bulatov yazır ki, «Vergilərin tənzimləyici rolunun təkmilləşdirilməsi isə vergi dərəcəsinin, vergi yükünün (və növlərinin) konkret obyektə uyğunluğunun təmin edilməsini tələb edir. Bu tənzimləmə eynilə ikili vergiqoymaya da aiddir. Bir cox ölkələrin - ABŞ, Kanada, Yaponiya, Böyük Britaniya, Rusiyanın bu sahədəki təcrübələri daha çox ibrətamizdir».

4.2. Vergi mexanizmi və onun təkmilləşdirilməsi

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müasir vergi sistemi də bazar İqtisadiyyatına keçməyin qanunauyğun tələbləri əsasında inkişaf edərək formalaşmışdır. Belə ki, formalaşmış hesab edilə bilən vergi sistemimiz iki başlıca sosial – İqtisadi funksiyanı yerinə yetirir:

1) büdcə gəlirlərinin formalaşmasını təmin edilməsi;

2) ölkə əhalisinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölgü nəzərə alınmaqla, bütövlükdə İqtisadiyyatda və onun ayrı – ayrı sahələrində ictimai istehsalın və istehlakın tənzimlənməsi üçün şərait yaradır.

Keçid İqtisaddiyatı şəraitində vergi sisteminin əsasını dövlət vergiləri təşkil edir. Bu vergi ölkə ərazisində ödənilən bütün vergiləri nəzərdə tutur və vergiqoyma obyektlərinə, imtiyazların növlərinə və dərəcələrinə, vergi ödəyicilərinə və ödəmə qaydalarına, vergi normativ qanunvericilik aktlarına uyğun olaraq fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, ölkə ərazisində yerli vergilər (bələdiyyə vergiləri də) mühüm ümumi dövlət əhəmiyyəti kəsb edir. Bu vergilərdən istifadə işi müəyyən muxtariyyətə malik olmaqla, yerli qanunlara və şəraitə uyğun olaraq ödənilsə də, onları əsaslandıran qanun və normativ aktlar ümumi dövlət qanunlarına uyğun qaydada həyata keçirilir, ölkə büdcə gəlirlərinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Bu əhəmiyyət yerili büdcələr üçün daha yüksəkdir. Çünki yerli büdcələrin gəlirləri xüsusi gəlirlər, dövlət və ərazi tənzimləyici vergilərdən, rüsumlardan ayrılan hissələr hesabına formalaşır. Bütün bunlar haqda «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun V maddəsində məqsədli büdcə fondlarının yaradılması qaydası müəyyənləşdirilərkən göstərilir. Hər il üçün tərtib edilən «Azərbaycan Respublikasının» (2008-ci və əvvəlki illər) «Dövlət büdcəsinin icrası haqqında» adlanan dövlət Qanununda isə büdcə vəsaitlərinin istər sərf olunması, istərsə də formalaşması istiqamətləri göstərilir.

Hazırda Azərbaycan Respublikasında tətbiq edilən Vergi Məcəlləsi vergi sistemin təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək, vergi hüququnun başlıca problemlərinin həllinə kompleks yanaşmanı təmin etmək ücün sistemləşdirilmiş qanunvericilik funsiyasını lazımi dərəcədə yerinə yetirsə də, o hələ yenə də təkmilləşdirildməlidir.

Dünyanın İqtisadi cəhətdən inkişaf etmiş ölkələrində vergi sisteminin inkişafının başlıca prioritetlərindən və əsas istiqamətlərindən asılı olaraq

vergiqoyma prosesini tənzim edən aşağıdakı başlıca normaların tətbiqinə və büdcə gəlirlərinin formalaşmasını təmin edən vəzifələrin həllinə xüsusi fikir verilir:

- ölkə ərazisində sabit və vahid vergi sisteminin qurulması, vahid vergi məkanı çərçivəsində onun bütün ünsürlərinin qarşılıqlı təsir mexanizminin müəyyən edilməsi;
- ölkənin etibarlı müdafiəsinin və milli təhlükəsizliyinin təmin edilməsi;
- mülkiyyət formasından asılı olmayaraq milli istehsalın inkişafında, ölkə İqtisadiyyatı üçün həyati əhəmiyyəti olan, perespektivli sahə və istehsalların (xüsusilə emaledici sənayenin) himayə edilməsi daxili bazarın inhisarçılıqdan, ədalətsiz rəqabətdən qorunması;
- ölkənin gələcək inkişafının, onun İqtisadi potensialının əsası olan elm, texnika, təhsil, mədəniyyət, səhiyyə və s. kimi sahələrinin əlverişli şərtlərlə maliyyələşdirilməsinin təmin olunması;
- kiçik və orta sahibkarlığın inkişafına, onların investisiya fəaliyyətinin aktivləşməsinə, ölkənin milli sərvətlərinin artırılmasına və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradan, özəl sektorun mənafeyinin tarazlığını təmin edən səmərəli vergi sisteminin formalaşdırılması;
- vergilərin sayının və ümumi vergi yükünün azaldılması, vergi ödənişlərinin həcminin müəyyən edilmə qaydalarının sadələşdirilməsi, bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi;
- vergi ödəyiciləri ilə vergi orqanları arasındakı qarşılıqlı münasibət qaydalarının kodlaşdırılması, vergi pozuntularına görə məsuliyyət sisteminin təkmilləşdirilməsi;
- vergi xidməti və vergi inzibatçılığının sahələrində stimullaşdırma metodlarının tətbiqi.

Hər bir ölkədə vergi intizamının olması, yəni verginin vaxtında və qanun tələb etdiyi qaydada ödənilməsi və büdcə gəlirlərinin formalaşa bilməsi, beləliklə də büdcə öz xərclərini ödəyə bilməsi üçün ölkədə maliyyə vəsaitinin çatışması üçün əvəzedilməz əhəmiyyətə malikdir. Təəssüf ki, mövcud faktların təhlili göstərir ki, bu sahədə görülməli işlərimiz, yəni vergi intizamının tam formalaşması üçün hələ də çox işlər görülməlidir.

Son 7 ildə vergi ödənilməsi sahəsindəki makroİqtisadi göstəricilərin dinamikası aşağıdakı kimi olmuşdur:

Cədvəl 1

Azərbaycan Respublikasında vergi ödənilməsi sahəsində makroİqtisadi göstəricilər

N	Göstəricilər	2001	2002	2003	2004	2005	2006
1.	ÜDM mln.man.	5315,6	6062,5	7146,5	8530,2	12522,5	18037,1
1.1	ÜDM-un illik artımı%-lə	9,9	10,6	11,2	10,2	46,8	44,0
1.2	ÜDM-un hər nəfərə düşən miqdarı (manat)	665,2	752,9	880,8	1042,0	1513,9	2156,4
1.3	ÜDM-un qeyri-dövlət sektorundakı xüsusi **c**əkisi.	73,2	73,0	73,3	73,5	77,0	82,0
2.	Büd**c**ə gəlirləri	784,8	910,2	1220,9	1509,5	2055,2	3836,8
2.1	Büd**c**ə gəlirlərinin illik artımı %-lə	9,8	16,0	34,1	23,6	36,2	86,7
2.2	Büd**c**ə gəlirlərinin ÜDM-a nisbəti,%-lə	14,8	15,0	17,4	18,0	17,3	21,3
3.	Vergi daxilolmaları	579,6	680,0	823,4	1005,2	1427,7	2716,6
3.1	Vergi daxilolmalarının illik artımı,%-lə	13,6	17,3	21,1	22,1	42,0	90,3
3.2	Vergi daxilolmalarının ÜDM-a nisbəti,%-lə	10,9	11,2	11,7	12,0	12,0	15,1
3.3	Vergi daxilolmalarının büd**c**ə gəlirlərindəki xüsusi **c**əkisi,%-lə	73,9	74,7	67,4	66,6	69,5	70,8

Cədvəlin məlumatlarından da göründüyü kimi, vergi daxilolmalarının büd**c**ə gəlirlərindəki xüsusi **c**əkisi aşağıdakı kimi olmuşdur:

2001 – **c**i ildə 73,9%, 2004- **c**ü ildə 66,6%, sonralar isə bu göstər**i**ci artmış və 2006 – **c**ı ildə 70,8% təşkil etmişdir. Bunlar həm İqtisadiyyatımızın getdik**c**ə möhkəmləndiyini, həm də vətəndaşların vergi intizamının və vergi toplayan dövlət orqanlarının işinin keyfiyyət səviyyəsinin artdığını göstərir.

ÜDM – un büdçə gəlirlərinin və vergi daxilolmalarının artması dinamikası



Cədvəl 2

2000 – 2007 – cı illərdə Azərbaycan Respublikasında vergi daxilolmalarının son 6 ildəki artım dinamikası (%-lə)

	2000	2001	2002	2003	2004	2005	2006	2007
Vergidən olan bütün gəlirlər	100,0	113,5	117,3	121,0	122,0	142,0	190,2	4549,3
O cümlədən ƏDV	100,0	130,6	144,0	124,1	105,3	122,9	115,7	669,7
Mənfəətdən vergi	100,0	93,9	125,5	121,0	124,6	159,8	380,2	2459,2
Gəlir vergisi	100,0	100,7	115,8	137,1	147,2	144,0	129,1	596,6
Aksizlər	100,0	519,9	75,9	73,5	104,9	197,8	135,2	330,6
Əmlak vergisi	100,0	105,9	161,2	133,0	120,6	125,8	139,3	72,8
Yol vergisi	100,0	156,7	83,8	126,1	127,9	107,7	67,3	17,1
Dövlət rüsumu	100,0	107,6	126,6	108,8	115,8	132,2	93,8	50,1
Sadələşdirilmiş vergi		-	60,9	49,6	132,2	114,6	157,9	48,1
Digər daxilolmalar	100,0	28,5	120,9	151,2	76,2	420,2	111,7	154,6

Göründüyü kimi, 2000 – **c**i ildəki vəziyyətə nisbətən vergi daxilolmaları daim artmış, 2007 –**c**i ildə isə daha **ç**ox olmuşdur. Ən yüksək artım isə, mənfəət vergisi, ƏDV və gəlir vergisi üzrə olmuşdur.

Qeyd edək ki, 2006 –**c**ı il büd**c**ə gəlirlərinin (3868,8 mln. manat) müxtəlif vergilər hesabına formalaşan hissəsi 3006,8 mln. manat təşkil etmişdir ki, bu da ümumi büd**c**ə gəlirlərinin 77,7% - ni bərabərdir. Bu hissə əvvəlki ildəkinə nisbətən (84,1%) xeyli azdır, halbuki 2005 – **c**i ildə yığılan vergilərin miqdarı

2006 – **c**ı ildə olana (3006, mln. manat) nisbətən 1278,7 mln.manat azdır. Vergilər arasında ən böyük xüsusi **c**əkiyə malik olan – bütün əvvəlki illərdə əlavə dəyər vergisi olmuşdur - 7378,8 mln. manat və ya ümumi büd**c**ə gəlirinin 19,1% -i . 2006 – **c**ı ildə isə əvvəlki illərdən fərqli olaraq bu birin**c**ilik hüquqi şəxslərin mənfəət (gəlir) vergisinə məxsus olmuşdur – 1360,5 mln. manat və ya ümumi büd**c**ə gəlirlərinin 35,2% - i. 2006 – **c**ı ildə mənfəət vergisinin yığımının belə yüksək olması bir tərəfdən vergi orqanlarının daha yaxşı işləməsini və təsərrüfat subyektlərinin intizamının yüksəlməsini, digər tərəfdən isə burada gizlənən imkanların **ç**ox yüksək olduğunu göstərir. Halbuki bu imkanlar əvvəlki illərdə əsasən itirilmişdir. Son illərdə vergi yığımının artmasında və onların büd**c**əyə daxilolma faizinin (və vergi intizamının da yüksəlməsində) həm də vergi dərə**c**ələrinin bir **ç**ox hallarda yenidən tənzimlənərək azaldılması da təsirli bir amil kimi rol oynamışdır. Bu isə həm də vergi tənzimləyi**c**i orqanların sərişləsinin xeyli artmasını göstərir. Vergilərdən büd**c**əyə daxil olan gəlirlər, yuxarıda qeyd etdiyimz kimi, 2006 – **c**ı ildə, əvvəlki ilə nisbətən 1278,1 mln. manat, başqa sözlə, 1,7 dəfədən **ç**ox artmışdır. Bütün müsbət hadisələr bor**c**u olan vergi ödəyi**c**ilərinin sayının azalması, vergi ödəmək intizamının yüksəlməsinin nəti**c**əsidir. Məsələn, «Vergilər» qəzetinin 19 dekabr 2007 – **c**i il nömrəsindəki məlumata əsasən, «görülmüş tədbirlərin nəti**c**əsi olaraq, bu ilin 11 ayında 59983 vergi ödəyi**c**isinin bor**c**u ləğv edilmişdir». 2007 – **c**i il yanvarın 1 – nə «17658 vergi ödəyi**c**isinin bor**c**u olmuş, həm**ç**inin 2007 – **c**i ilin 11 ayında 58712 vergi ödəyi**c**isinin bor**c**u yaranmış, görülmüş tədbirlərin nəti**c**əsi olaraq bu günə bor**c**lu vergi ödəyi**c**ilərinin sayı 16387 – yə salınmışdır. Bu vergi ödəyi**c**ilərinin 36,3% - ni dövlət sektoruna, 63,4% - ni qeyri – dövlət sektoruna aiddir».

Əlbəttə, vergi bor**c**larının sayının belə azalması, hər şeydən əvvəl, vergi orqanlarının həmin sahədə apardığı **ç**oxtərəfli tələbkarlıq, əhali i**ç**ərisindəki izahatlar və s. kimi tədbirlərin nəti**c**əsidir. Vergi ödəyi**c**ilərinin intizamlılığı da nəti**c**ə etibarilə bununla bağlıdır.

Belə bir məsələni vurğulamaq lazımdır ki, vergi intizamının pozulması tək**c**ə verginin vaxtlı – vaxtında, lazımi hə**c**mdə ödəməməsi şəklində yox, məsələn, başqa bir ad altında bizneslə məşğul olmaq şəklində də baş verir. Ona görə də vaxtaşırı identifikasiya işi aparmaq lazım gəlir. Bu və bir sıra başqa metodlarla təsərrüfat subyektlərinin qayda – qanunlara riayət edib - etmədiyi, müəyyən faktın gizlədilib – gizlədilmədiyi aşkar edilir. Sonun**c**u identifikasiya işlərindən biri, məsələn, 2005 və 2006 – **c**ı illərdə aparılmış, onların nəti**c**əsi olaraq biznes sahəsində bir sıra gizli əməliyyatlar, qanun pozuntuları aşkar edilmiş, sahibkarlıq işində xeyli tənzimləməyə nail olunmuşdur. Aparılmış bu identifikasiyasının nəti**c**ələri göstərir ki, bu sahəyə bizdə qanun pozulması, məsələn, Rusiya kimi bir ölkəyə nisbətən yox dərə**c**əsindədir. Sahibkarlardan identifikasiya nömrəsi almaq ü**c**ün qəbul edilən ərazilərin vaxtı 1 iyula qədər olsa da bu qeyd olma prosesi iyulun sonunda da davam etmişdir. Ona görə də təsadüfi deyildir ki, «2004 – **c**ü il Dövlət

büdcəsinin gəlirlərinin formalaşması üzrə əsasən vergi dərəcələrinin aşağı salınması, yığım əmsalının artırılması və vergiqoyma bazasının genişləndirilməsi hesabına büdcə gəlirlərinin artırılması nəzərdə tutulurdu».

Vergi bazasının genişləndirilməsinə əsaslanan bu siyasət məhz vergi intizamının, vergi dərəcələri səviyyəsinin düzgün, optimal olduğu bir şəraitdə tam reallaşa bilir. Son illərin vergi toplanması, vergi ödəyicilərinin intizamının yüksəlməsi də bunu sübut edir.

Həm də vergi bazasının genişlənməsi vergiqoyma obyektlərinin ödəyicilərinin vergiyə cəlb edilməsi zamanı ədalətlilik, dəqiqlik və verginin adekvatlığı prinsiplərinə düzgün əməl edilməsini tələb edir, onu nəzərdə tutur. Vergi dərəcələrinin mümkün olan tərzdə aşağı salınması da çox zaman faydalı olur.

Vergidən əldə edilən gəlirlərin strukturuna nəzər salsaq, onda Vergilər Nazirliyinin xətti ilə yığılan hissəsinin xüsusi cəkisinin 66,7%, gömrük orqanları xətti ilə yığılanlarınkının 16,7% və sair daxilolmaların xüsusi cəkisininki isə 16,6% olduğunu görərik. Beləliklə, vergi yığılması və ödənilməsi intizamına nəzarət edilməsi işində başlıca məsuliyyət Vergilər Nazirliyinin üzərinə düşür.

Qeyd etmək lazımdır ki, vergi ödənilməsi intizamı, başqa sözlə, vətəndaşların vergi ödəmə sahəsində öz boclarını yerinə yetirməsi intizamı 90 – cı illərdə kifayət qədər aşağı səviyyədə olmuş, yalnız bu onilliyin sonunda və son illərdə xeyli dərəcədə yaxşılaşmışdır. Bunu Vergilər Nazirliyinin vergi borclarının həcminin illər üzrə dəyişməsi haqdakı məlumatları da göstərir. Həm də onu da nəzərə almaq lazımdır ki, hər bir ciddi dəyişiklik zamanı müəyyən müddət ərzində vergi ödənilməsi sahəsində müəyyən «intizam dəyişməsi» (əksər hallarda intizamın pisləşməsi) dövrü olur və əvvəlki vəziyyətə qayıdış yalnız tədricən bərpa olunur. Məsələn, 2006 – cı ilin əvvəlində yanacağa, enerci daşıyıcılarına qiymətlərin qaldırılması zəncirvari şəkildə bütün istehsal olunan məhsullara olan qiymətlərin də yüksəlməsinə səbəb oldu. Elə buna görə də əhali və sahibkarlar ücün ciddi çətinliklər yaranmışdır. Belə vəziyyət isə öz növbəsində, vergi ödənilməsi intizamı sahəsində pozuntuların və büdcəyə olan borcların miqdarının artması ilə nəticələnmişdir. Zənnimizcə, enerci daşıyıcılarının qiymətinin yüksəldilməsini, onun necə həyata keçirilməsini düzgün hesab etmək çox çətindir. Belə bir şəraitdə vergi intizamının pozulmasına qarşı ciddi tədbirlərin görülməsi isə sosial gərginliyi artıra, geniş narazılıqlar yarada bilər, - ona görə də burada ciddi ehtiyatla hərəkət etmək lazım gəlir. Digər tərəfdən, bu tələbkarlığı azaltmaq da büdcəyə çatmalı olan böyük məbləğ pul vəsaitindən əl çəkmək demək olardı. Ona görə də vergi siyasətində bu cəhətlər hamısı diqqətlə ölcülüb – biçilməli, nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, vergi ödəmə sahəsində ən çox intizam pozuculuğu əlavə dəyər vergisi (ƏDV) üzrə baş verir. Bu sahədə bir çox vətəndaşlar dəqiq hesabat blankı ələ keçirərək fırıldaq yollarla vergi ödəməkdən yaxa qurtarır. Son məlumatlara görə, 2001 – 2003 – cü illər ərzində ƏDV

sahəsindəki belə nozuntular nəticəsində büdcə 17 trilyon (denominalaşmamış) manat məbləğində pul vəsaitindən məhrum olmuşdur. Təkcə 2005 – ci ildə 181 müəssisəyə dair tədqiqat işi qaldırılmış və (o vaxtın hesabı ilə) 35 mlrd. manat pul büdcəyə qaytarıla bilmişdir. Ümumiyyətlə, vergi orqanı işçiləri tərəfindən aparılmış yoxlamalar nəticəsində özünü ƏDV ödəyiciləri kimi göstərən 1436 təşkilatın vergi intizamını pozması aşkar edilmişdir. Azərbaycan Respublikasında 2006 –cı ilin fevralından başlayaraq ƏDV – nin ödənilməsi sahəsində onu ödəməmək üçün müxtəlif fəndlər işlədən şəxslərə qarşı daha kəskin mübarizə aparılması qərara alınmışdır. Bu məqsədlə vergi ödənilməsini tənzimləyən kodeksin 58 – ci maddəsində dəyişiklik edilmiş, belə şəxslərə qarşı ödənilməyən ƏDV – nin 100% - i qədər cərimə tətbiq edilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, ölkə üzrə dövlət büdcəsi layihəsi tərtib edilərkən, vergilərin planlaşdırılan məbləği faktiki vergi yığılması əmsalı nəzərə alınmaqla müəyyənləşdirilir. Həmin əmsal layihələşdirilmiş vergitutma bazasından asılı olur və adətən müxtəlif vergi növləri üzrə 60-90% arasında dəyişir. Vergi ödəyicilərinin ümumi vergi yükünün göstəricisi vergilərin yığılması əmsalı - nəzərə alınmaqla bütün büdcəyə və büdcədənkənar fondlara ödəmələr üzrə ödənilməmiş vergi boclarının artım sürətinə uyğun qaydada düzəlişlər edilməlidir.

Beynəlxalq təcrübədə makroİqtisadi səviyyədə vergi yükünün müəyyənləşdirilməsi üçün tədiyyəçilərdən tutulan bütün vergilərin və digər məcburi ödənişlərin ümumi daxili məhsula nisbətin əsası kimi götürülür. Bununla əlaqədar, inkişaf etmiş müxtəlif ölkələr üzrə vergi və məcburi ayırmaların ümumi daxili məhsula olan nisbətini öyrənmək ücün aşağıdakı cədvələ nəzər salmaq maraqlıdır:

Cədvəl 3

Dünya ölkələrində vergilər və məcburi ödənişlərin ümumi daxili məhsulda payı (2002-ci il %-lə)

Ölkələr	Vergilərin payı	Vergi və məcburi öddənişlərin payı
Almaniya	23,1	42,9
Belçika	31,1	46,4
Danimarka	49,7	52,8
Fransa	24,9	46,3
Italiya	27,4	42,9
Niderland	26,6	44,8
Avstriya	29,9	45,5
Isveç	38,1	54,2
Böyük Britaniya	27,7	33,9

Ispaniya	21,7	35,5
Kanada	31,0	36,3
ABŞ	22,7	31,8
Yaponiya	18,2	28,6
Rusiya	23,1	31,8
Azərbaycan	11,5	15,4

Hər bir ölkədəki vergi sisteminin səmərəli fəaliyyətini qiymətləndirmək üçün ümumiləşdirilmiş göstərici kimi – vergi sisteminin elastikliyi göstəricisindən istifadə edilir və istər məcmu vergi gəlirlərinin, istərsə də ayrı – ayrı vergi növlərinin əvvəlki ilə nisbətən dəyişməsinin ümumi daxili məhsulun eyni vaxtda dəyişməsinə nisbəti kimi hesablanır. Əgər vergi sistemnin elastikliyi vahiddən artıq olarsa, deməli vergi gəlirləri ümumi daxili məhsulun kəmiyyətindən daha sürətli templə artmalıdır. Yəni, vergilərin ümumi daxili məhsulun məbləğinə görə xüsusi çəkisi də tədricən artmalıdır. Lakin onu da qeyd etmək lazımdır ki, vergi sisteminin elastikliyi hesablanarkən infilyasiyanın, korporativ qiymətlərin yaranması, İqtisadiyyatda insiharlaşma dərəcəsi və sair vacib amillər nəzərə alınmır.

Respublikada İqtisadiyyatın ayrı – ayrı sahələrində istər vergi yükünü, istərsə də vergi yığımını xarakterizə edən göstəricilər əhəmiyyətli surətdə fərqlənir. Bunun əsas səbəbi ilk növbədə, həmin sahələrə aid olan müəssisələrin həm vergi ödəmək qabiliyyətinin, həm də onların vergi ödəməkdən yayınma imkanlarının fərqli olması ilə bağlıdır. Müəssisələrin vergi ödəmək imkanını xarakterizə edən ən mühüm göstərici rentabellik və ya mənfəətlilikdir. 2001 – ci ildə sənaye müəssisələrinin 3,06 faizi, tikintidə – 31,3 faizi, nəqliyyat və rabitədə – 13,5 faizi, ticarət və ictimai iaşədə – 12,3 faizi zərərlə işləyir. Kənd təsərrüfatı müəssisələrinin əksəriyyətinin zərərlə işləməsi nisbətən inandırıcı olsa da, ticarət və ictimai-iaşə müəssisələrin əksəriyyətinin ziyanla işləməsi tam absurddur. Vergi ödəmələrindən bir qayda olaraq ən çox yayınanlar da ticarət və ictimai-iaşə müəssisələridir. Həmin müəssisələrin ümumi daxili məhsulda tutduğu payın indiki həcmi də (6,1 faiz) açıq-aşkar çox aşağıdır və həm də belə bir aşağı payda həmin sahədə yığılan vergilərin xüsusi cəkisinin cəmi 0,7 faiz olması da dediklərimizi əyani surətdə təsdiq edir.

Müasir şəraitdə başlıca əhəmiyyət kəsb edən sənaye, nəqliyyat və rabitə kimi sahələrdə vergi yükünün yüksək olması müəyyən obyektiv səbəblərlə əlaqədardır. Belə ki, bu sahələrdə əsas fondla silahlanma daha yüksək olduğu üçün əmlaka görə vergilərdən yayınmaq praktiki cəhətdən çox çətindir. Ona görə də çox zaman vergiqoyma obyekti olan əsas fondun özünü uçotdan yayındırırlar. Məhz ona görə də, artıq qeyd edildiyi kimi, təkcə 2005 – ci ildə fəaliyyəti yoxlanan 181 büdcəyə müəssisə vergi borcunu ödəməsi nəticəsində 35 mlrd. manatlıq zərər ləğv edilmişdir. Lakin ticarət və ictimai-iaşədə əsas

fondla təhcizat çox aşağı olduğu üçün və vergiqoymada bu amilin rolu demək olar ki, yoxdur.

Beləliklə, ölkədə İqtisadiyyatın ayrı – ayrı sahələrində vergi yükünün və onlarla əlaqədar amillərin belə ciddi fərqlənməsi, bəzi sahələri investorlar, xüsusən xarici investorlar üçün də cəlbedicilikdən məhrum edir. Məsələn, 2004 – cü ildə əsas kapitala yönəldilmiş 6234,5 mlrd. manat bütün maliyyə mənbələri hesabına İqtisadiyyata yönəldilmiş investisiyaların yalnız 0,9% - i kənd təsərrüfatına, ovçuluq və meşə təsərrüfatına yönəldilmişdir. Bu göstərici 2005 – ci ildə 0,7%, 1990 – cı ildə isə 14,0%, (1995 – ci il – 1,9%) təşkil etmişdir. Sənayedə isə bu göstərici 1990 – cı ildə 37,4%, 1995 – ci ildə – 46,4%, 2004 – cü ildə isə 75,0% təşkil etmişdir. Lakin sənayedə də əsas yeri hasilat sənayesi tutur. Doğrudur, burada vergi intizamı bir qədər müsbət görünür.

Göstərilənlərlə əlaqədar vergi yükünün İqtisadiyyatın sahələri üzrə bərabər bölgüsünün təmin edilməsi, istər büdcəyə vergi daxilolmalarının artırılması, istərsə də bütövlükdə ölkənin maliyyə sisteiminin və vergi intizamının sağlamlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Ölkədə müasir şəraitdəki vergi daxilolmalarının təhlili göstərir ki, son illərdə bu sahədə ciddi müvəffəqiyyətlər qazanılmış, vergi daxilolmaları artmış, borclu ödəyicilərin sayı xeyli azaldılmışdır. Keçirilən identifikasiya tədbirləri və başqa tədbirlər nəticəsində özünü ƏDV və başqa birbaşa vergi ödəyiciləri kimi göstərən, vergi intizamını pozan bəzi hüquqi və fiziki şəxslər aşkar edilmiş, büdcənin çoxlu miqdarda məhrum olduğu pul vəsaiti büdcəyə qaytarılmışdır. Bunlar təkcə birbaşa vergilər yox, dolayı vergilər, xüsusi vergilər və rüsumlar sahəsində də aşkar edilmiş, pozuntuların əsas hissəsi aradan qaldırılmışdır. Bu cür faktklar isə vergi orqanlarının işinin və bunun nəticəsi olaraq vergi ödəyiciləri intizamının yüksəldilməsi işinin düzgün istiqamətdə inkişaf etdiyini göstərir.

Vergi daxilolmaları sahəsindəki vəziyyəti xarakterizə edən amillrədən biri də vergilərin müxtəlif növlərinin büdcə gəlirlərinin formalaşmasındakı iştirakı faktıdır. Son illərdə bu sahədəki vəziyyət barədə aşağıdakı cədvəlin göstəricilərindən məlumat almaq olar:

Cədvəl 4

Azərbaycan Respublikasında dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergilərin xüsusi çəkisi

(yekuna nisbətən faizlə)

Vergi növləri	ILLƏR					
	2000	2003	2004	2005	2006	2007
Büdcənin gəlirləri cəmi	100,0	100,0	100,0	100,0	100,0	100,0
A. Birbaşa vergilər:						
1. Hüquqi şəxslərin	17,6	14,6	14,8	17,3	35,2	7,4
mənfəətdən	13,2	12,3	14,7	15,44	10,5	15,9
vergisi.	1,32	0,9	0,93	0,7	0,5	8,2
2.Fiziki şəxslərin gəlir						
vergisi.	8,9	7,6	6,7	10,0	3,6	5,9
3. Torpaq vergisi.	1,7	2,2	2,14	2,0	1,44	0,6
4.Xarici İqtisadi fəaliyyətilə bağlı vergilər.						
5.Əmlak vergisi.						
B.Vasitəli vergilər:	26,7	33,6	30,0	29,2	19,1	7,4
1.Əlavə dəyər vergisi	3,1	5,5	4,8	6,9	4,8	1,6
2.Aksizlər						
C.Rüsumlar və qeyri-vergi gəlirləri.	8,3	17,2	18,4	14,0	24,9	42,7

Cədvəlin məlumatlarından göründüyü kimi, hər üç vergilər qrupu: birbaşa, vasitəli və ya dolayı vergilər, xüsusi rüsumlar və rüsumlar büdcənin gəlirlərinin formalaşmasında iştirak edirlər. Ilk nəzərə çarpan cəhət gəlirlərin formalaşmasında son illər birbaşa vergilərin rolunun artması (xüsusən hüquqi şəxslərin ödədiyi mənfəət vergisi), vasitəli (dolayı) vergilərin xüsusi çəkisinin azalmasıdır. Bu cəhətdən neçə illər bütün büdcə gəlirlərinin üçdə birini təşkil etmiş əlavə dəyər vergisinin xüsusi çəkisinin sürətlə azalmasını qeyd etmək lazımdır. Belə ki, bu dolayı verginin xüsusi çəkisi 2000 – ci ildə 26,7%, 2003 – cü ildə 33,6%, 2004 – cü ildə 30,0%, 2005 – ci ildə 29,2% olduğu halda, 2006 – cı ildə onun xüsusi çəkisi 10% - dən çox azalmış və cəmi 19,1% təşkil etmişdir. Uyğun olaraq, aksizlərin xüsusi çəkisi də 2005 – ci ildəki 6,9% - dən 2006 – ci ildə 4,8% - ə enmişdir. 2007-ci ildə isə bu göstərici 1,6% olmuşdur. Vergi

daxilolmalarının ümumi həcmi isə 2006 – cı ildə 2714,7 mln. manat, 2007 – ci ildə 4549,3 mln. manat, 2008 – ci ilin ilk iki ayında isə 974,1 mln. manat təşkil etmiş, əvvəlki ilə nisbətən xeyli artmışdır. Bu, əlbəttə, təsadüfi xarakter daşımayaraq, vergi orqanlarının müsbət fəaliyyəti nəticəsində hüquqi və fiziki şəxslərin mənfəətdən vergi kimi mühüm vergi növlərininin ödənməsi sahəsində səmərəli nəticələr əldə edilməsi ilə əlaqədardır.

Hazırda qarşıda duran mühüm vəzifələrdən biri vergi mexanizminin təkmilləşdirilməsi məsələsidir.

Vergi mexanizminin təkmilləşdirilməsi həm İqtisadiyyatın və həm də sosial həyatın ən mühüm, dərin məsələlərini əhatə edir. O, həm ümumilikdə, həm də ayrı – ayrı vergi növləri üzrə hədd normasının müəyyən edilməsini, vergilərin İqtisadiyyata və sosial həyata ən çox stimullaşdırıcı təsir göstərməsinin ən optimal variantının müəyyən edilməsini nəzərdə tutur. Məlum olduğu kimi, vergilərin dərəcəsi və hədd norması vergi yükünün kəmiyyətini əmələ gətirən mühüm amillərdir. Əgər vergi dərəcəsi hər bir verginin vergiyə cəlb etmə obyektinin hər vahidindən tutulan vergini azalda bilsə, onda təsərrüfat subyektinin öz sahibkarlıq fəaliyyətini genişləndirmək üçün daha çox pul vəsaiti qalar, bu isə həmin fəaliyyəti stimullaşdırmış olardı.

Ona görə də vergi mexanizminin təkmilləşdirilməsi yollarından danışarkən nəzərə almaq lazımdır ki, müasir vergiqoyma nəzəriyyəsində ən mühüm problemlərdən biri vergiqoymanın optimallaşdırılması, bunların reallaşmasını müəyyənləşdirən və həyata keçirməyi təmin edən qanunvericiliyi və ona uyğun gələn vergi sisteminin özünü təkmilləşdirmək lazım gəlir.

Son illər respublikada həyata keçirən düzgün İqtisadi siyasət nəticəsində neft sektorunun strukturunun xüsusi çəkisinin aşağı düşməsi, qeyri – neft sektorunun xüsusi çəkisinin artması meylləri baş verir ki, bu meyllər də vergi siyasəti vasitəsilə stimullaşdırılmalıdır. Ölkənin İqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar olan sahələrin daha sürətlə inkişafı, məsələn, taxılçılığın inkişafı xüsusi əhəmiyyətə malikdir. Qazağıstanın taxıl ixracını azaltma siyasətinə keçməsi bu sahədə qarşıda ciddi xəbərdarlıqlar qoyur, taxılçılığın hər cür İqtisadi metodlarla stimullaşdırılmasını, o cümlədən bu sahəyə qoyulan vergi siyasətində ciddi imtiyazlar tətbiq edilməsini tələb edir. Bunun nə dərəcədə zəruri olduğunu dünya informasiya vasitələrinin ərzaq təşkilatlarının dünyada aclıq gözlənilməsi haqqındakı xəbərdarlıqdan da görmək olar. Halbuki 2006 – cı ildə bizdə taxıl istehsalı azalaraq, 2003 – cü ilin səviyyəsinə düşmüşdür.

Digər tərəfdən, vergi siyasətimiz ölkədə emaledici sənaye sahələrimizin hələ də zəif olduğunu nəzərə alaraq, ona ciddi düzəlişlər etməli və təkmilləşdirməlidir. Bu məqsədlə göstərilən sahələrdəki sahibkarlığın inkişafına vergi güzəştləri edilməli, həmin sahələrin inkişafı stimullaşdırılmalı, innovasiya fəaliyyəti üçün geniş şərait yaradılmalıdır. Məsələn, müəssisələr yeni texnologiyanın tətbiqi, yaxud yeni avadanlıq üçün «investisiya həyata keçirirsə, dövlət vergiyə cəlb edərkən gəlirlərdən, vəsait qoyuluşunun müəyyən hissəsini

çıxır. Bu çıxılan hissə yeni texnologiyanın tətbiqi sahələri üzrə differensiallaşdırılır və həmin bölgüdə qabaqcıl texnologiyanın payı daha çox hissəsini təşkil edir. Beləliklə, mütərəqqi sahələr üzrə investisiyalar çoxalırsa büdcəyə verilən vergi azalmış olur».

Azərbaycan Respublikasında «Yoxsulluğun azaldılması və İqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda göstərildiyi kimi, vergiqoyma siyasəti səmərəliliyin yüksəldilməsinə, «İqtisadiyyatın balanslaşdırılmış tənzimlənməsini təmin etmək üçün zəruri təsisatların formalaşmasına, ölkə İqtisadiyyatının qlobal İqtisadi sistemə səmərəli və bərabər hüquqlu inteqrasiyasını sürətləndirmək üçün beynəlxalq standartlara cavab verən baza yaradılmasına» yönəldilməlidir.

Həm də vahid bir meyara əsaslanmaq üçün vergitutmada mümkün qədər güzəştsiz vergi sisteminə keçmək, yəni bütün hüquqi və fiziki şəxslər üçün vergilərin eyni şərtlər daxilində, eyni rol və funksiyaları yerinə yetirməsi zərurətini nəzərə almaq lazım gəlir. Vergi güzəştləri olan hallarda vergilərin hesablanması və ödənilməsi zamanı çoxlu nöqsanlar buraxıldığını nəzərə alaraq, vergi qanunvericiliyində adi hallar üçün güzəştlərin maksimum azaldılmasına nail olmaq, ödəyicilərə vergi güzəştlərinin verilməsi səlahiyyətini yalnız etibarlı təşkilatlara həvalə etmək daha düzgün olardı.

Əlbəttə, vergitutma bazasını genişləndirmək və vergi dərəcələrinin aşağı salınması zəminində Azərbaycan Respublikası ərazisindəki təbii ehtiyatlardan, ölkənin insan resurslarından, maddi və intellektual potensialından və s.-dən daha dolğun istifadə etmək zəruridir. Lakin bu zaman iş elə düzgün prinsipə əsaslanmalıdır ki, bütün hüquqi və fiziki şəxslərin gəlirləri vergiyə cəlb edilsin və bu heç bir mübahisə doğurmasın. Bunun üçün isə bir sıra araşdırmalar aparılmalı, hazırki dövrə qədər vergilərdən kənar qalmış gəlirlər aşkar edilməli, onların hamısı eyni prinsip əsasında vergiyə cəlb olunması üçün müvafiq qanunvericilik aktları qəbul edilməlidir.

Məlum olduğu kimi, ölkəmizin müasir dövrdəki sosial – İqtisadi inkişaf proqramının əsas istiqamətlərindən biri – respublika İqtisadiyyatının milli mənafe baxımından yenidən qurulmasıdır. Ona görə dövlətin vergi siyasəti milli İqtisadiyyatın inkişaf etdirilə bilməsini hərtərəfli himayə etməlidir. İqtisadiyyatın yenidən qurulmasında mühüm əhəmiyyət kəsb edən radikal islahatların həyata keçirilməsi, cəmiyyətin İqtisadi tərəqqiyə doğru irəlləməsinə səbəb olur. Bu baxımdan, ölkədə özəlləşdirmə proseslərinin reallığı – azad rəqabətə, təsərrüfatçılığa, təşəbbüskarlığa şərait yaradır. Artıq Azərbaycanda azad sahibkarlığın inkişafı üçün İqtisadi mühit yaradılmışdır. Azad sahibkarlığın respublikada formalaşması, bir çox sənaye sahələrində struktur dəyişiklikləri aparmağa, İqtisadiyyatın inkişafına xarici investisiyaları cəlb etməyə, milli İqtisadiyyatı dirçəltməyə və əhalinin həyat səviyyəsini yüksəltməyə imkan yaradır. İqtisadi islahatlar şəraitində müstəqil dövlətimiz öz milli İqtisadiyyatını müasir tələblər səviyyəsində qurmaqdan ötrü, inkişaf etmiş xarici dövlətlərlə İqtisadi əlaqələrini genişləndirir. Xarici İqtisadi əlaqələrin daha da genişlənməsi nəticəsində xarici iş adamları, sahibkarlar sahələrdə vergi

kreditlərinin tətbiqi, yəni vergilərin tutulmasının təxirə salınması kimi metoddan da istifadə etmək məqsədəuyğundur.

Milli İqtisadiyyatımızın inkişafı isə həm İqtisadi, həm də sosial problemlərimizin həllinin ilkin şərtidir. O, əvvəla, həqiqi İqtisadi müstəqilliyimizi və İqtisadi təhlükəsizliyimizi təmin edərdi. Ikin**c**isi, məhz milli İqtisadiyyatımızın stimullaşdırılması və inkişafı sayəsində ölkəmiz dünyanın sivil ölkələri i**ç**ərisində mühüm yer tutar, digər ölkələrdən asılığını, başqa ölkələr ü**ç**ün sadə**c**ə xammal və satış bazarı yox, emaledi**c**i sənayeyə malik olan müstəqil ölkə kimi **ç**ıxış edərdi. Ü**ç**ün**c**üsü, milli İqtisadiyyatımızın inkişaf etdirilməsi işsizliyin, yoxsulluğun tədri**c**ən aradan qaldırılmasına, ərzaq təhlükəsizliyi kimi problemlərimizi həll etməyə kömək edərdi. Həmin sahələrdə artıq bir sıra mühüm addımlar atılmışdır, lakin əsas görülməli işlər hələ qarşıda durur.

4.3. Vergi sisteminin beynəlxalq təcrübəsi və vergi islahatları

Son dövrdə Azərbaycan Respublikasının vergi və gömrük sisteminin tam təkmilləşdirmək, dünya standartlarına uyğunlaşdırmaq və dünya təsərrüfatına inteqrasiyadan irəli gələn tələb və normalara cavab verməsi üçün böyük işlər görülür. Məhz bu baxımdan vergi sisteminin təşkilində Inkişaf Etmiş Ölkələrin (IEÖ) təcrübəsindən istifadə edilməsi çox vacibdir. Vergi dərəcələri sahəsindəki ümumi qanunauyğunluqlara baxmayaraq, dünya ölkələri arasında bu dərəcələr müxtəlifdir. Bu müxtəliflik, ilk növbədə, ondan irəli gəlir ki, vergi dərəcələri əslində dövlət büdcəsinin xeyrinə ayrılan vəsaitin miqdarını, kəmiyyət misbətini göstə-rir.

Vergi dərəcələrindəki ümumi qanunauyğunluq ilk növbədə, bütün ölkələrdəki mənfəət vergisindəki güzəştlərlə bağlıdır. Bu güzəştlərin məqsədi elmi-texniki tərəqinin, sahibkarlığın inkişaf etdirilməsidir. Bəzən isə əksər ölkələrdə vergi stimul rolunu oynayır. Belə ki, amortizasiya xərcləri vergidən azad edilməklə mənfəətin bir hissəsi istehsal xərclərinə daxil olur. Bir çox ölkələrdə isə (məsələn, Ingiltərə və Fransa)vergi və investisya krediti adlanan güzəştlər tətbiq edilir.

Ümumilikdə inkişaf etmiş ölkələrdə (IEÖ-də) vergi dərəcələrinin aşağı səviyəsi xarakterikdir. Bu ilk növbədə gömrük vergilərində özünü daha qabarıq götərir. Bu onunla bağlıdır ki, IEÖ-də büdcə gəlirləri kifayət qədər olduğundan gömrük vergiləri hesabına doldurmağa ehtiyac yoxdur. Lakin fərdi gömrük-gəlir vergisi IEÖ-də IEOÖ-yə nisbətən daha yüksəkdir.

Cədvəl 1

Dünyanın inkişaf etmiş ölkələrində vergi dərəcələri

Ümumi vergi daxilolmalarında əsas vergilərin xsüsusi çəkisi (faizlə)			
Ölkələr	Mənfəətdən vergi	Fərdi gəlir vergisi	Istehlakdan vergi
ABŞ	7	36.2	7.3
Ingiltərə	7.7	28.4	34.4
Kanada	7.1	41	14.2
Fransa	3.4	13.8	26.8
Avstriya	4.2	26.9	30.1
Almaniya	4.1	28	26.8
Italiya	11.6	27.1	26.9
Yaponiya	20.3	25.4	5.1
Ispaniya	6.4	23.7	28.5

Xarici ticarətin tənzimlənməsi üçün bütün dünya ölkələri həm tarif, həm də qeyri-tarif metodlarından istifadə edir. Lakin Ümumdünya Ticarət Təşkilatının tələblərinə görə, tarif tənzimlənməsi XIF-in əsas tənzimləmə vasitəsi olmalıdır. Qeyd etmək vacibdir ki, gömrük idaxal rüsumlarının aşağı salınması yolu ilə dünya ticarətinin maksimum liberallaşdırılması bu təşkilatın əsas prinsipidir. Həmçinin bunu da qeyd etmək vacibdir ki, dünyanın ən inkişaf etmiş ölkələri (məsələn ABŞ, Yaponiya və s) bu prinsiplər əsasında öz gömrük vergi siyasətini həyata keçirir. Bu ölkələrin dünya ticarət dövriyyəsində əsas paya malik olduqlarını nəzərə alsaq onların vergi və gömrük sisteminə nəzər salmağa dəyər.

ABŞ–ın idxal gömrük tarifi Ahəngdar Sistemin bazasında qurulmuş səkkiz mövqeli əmtəə nomenklaturasına əsaslanır. Bu nomenklatura ikisütunludur. Birinci sütun 1930 cu ildə qəbul olunmuş və bugünə qədər də dəyişməyən Tarif Qanununda əks olunan stavkalar (dərəcələr) ilə müəyyən olunur. Bu stavkalar ABŞ–la əlverişli ticarət sazişi olmayan ölkələrdən idxal olunan mallar üçün tətbiq olunur. Bu sistem əvvəllər keçmiş sovet ölkələrinə, 1992-ci ilə qədər Rusiyaya, eləcə də Əfqanıstan, Albamiya, Kuba və s. kimi ölkələr üçün qüvvədə idi. Bu sistemdə spesifik rüsumlar 25-60 %, bəzi mallara isə (məsələn, tekstil) 90%-ə qədər çatır (yeri gəlmışkən qeyd edək ki, ABŞ-la Əlverişli Ticarət Sazişi olan olkələrlə ticarət xüsusi recimdə-Əlverişli Ticarət Recimində (ƏTR) aparılır).

Birinci sütun özü də iki altsütundan ibarətdir:

1. **Ümumi stavkalar** – bu əlverişli ticarət sazişinin nəzərdə tutulduğu ölkələr üçün tətbiq olunur. Burada kənd təsərrüfatı məhsullarına 3%, sənaye mallarına 5% stavka tətbiq olunur. Belə ki, həmin ölkələrdə hər hansı xüsusi saziş və ya anlaşma yoxdur. Bəzi mallara isə yüksək spesifik rüsumlar tətbiq olunur (20%-ə qədər). Belə mallara tütün, tərəvəz, keramika, tekstil və s. göstərmək olar.

2. **Preferensial stavkalar –** bu Ümumi Preferensiya Sistemi (ÜPS) adlanır və ABŞ-da 1976 –cı ildən tətbiq olunur. 1993 –cü ildən isə təxminən ABŞ nomenklaturasının 4100 mal mövqeyini əhatə edir və 131 nisbətən inkişaf etmiş ölkələrə tətbiq olunur.

Ikinci sütun – ABŞ-ın Əlverişli Ticarət Sazişi baladığı ölkələrlə və ÜTT – in üzvlərinə tətbiq olunur. Bu sütun demək olar ki, bütün mallara aid edilir. Bu sistemdə ərzaq və kənd təsərrüfatı maları üçün 10-13% (orta göstərici 12.5%), qalan məhsullar üçün isə 25-70% (orta göstərici 47%) həcmində rüsum tutulur.

Qeyd etmək yerinə düşərdi ki, Ümumi Preferensiya Sistemi Yaponiyada da tətbiq olunur və Yapon sistemi əhatə etdiyi ölkələrin sayına görə dünyada ən genişi hesab olunur. O, 134 ölkəyə və 25 əraziyə aid edilir. 41 daha zəif ölkələrlə rüsumsuz və məhdudiyyətsiz ticarət aparılır.

IEÖ-in timsalında ABŞ və Yaponiyanın tarif tənzimləmə sisteminə nəzər salaraq bu nəticəyə gəlmək olar ki, QATT danışıqları çərçivəsində Beynəlxalq Gömrük Təşkilatının yaranması dünya ticarətində liberallaşma yolunda geniş üfüqlər açmışdır və deməli IEÖ-nün gömrük və vergi sistemi sahəsindəki təcrübəsinin Azərbaycanda tətbiqi onun dünya bazarına çıxışını asanlaşdıracaq və inteqrasiyasını sürətləndirəcək. Sözsüz ki, ÜTT-nin bütün tələblərini qeyd-şərtsiz yerinə yetirmək nəinki Azərbaycana xeyir gətirəcək, hətta daxili bazarı qorumaq baxımından ziyan da vura bilər.Ancaq ÜTT-yə üzv olmaq yolunda irəliləyən Azərbaycanda artıq dünya təcrübəsindən yararlanmaq baxımından müəyyən işlər və addımlar atılır. Rusiya, Ukrayna, Belarus, Qazağıstan, Qırğızıstan, Gürcüstanla bağlanan rüsumsuz idxala yol verən Azad Ticarət Sazişləri buna misal ola bilər.

Bu baxımdan beynəlxalq ticarət dövriyyəsində önəmli paya malik olan, yüksək İqtisadi inkişaf səviyyəsinə görə seçilən dövlətlərdə gömrük vergiləri daxili və xarici İqtisadi proseslərə təsiri, bu ölkələrdə gömrük vergilərinin optimaı dərəcəsinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, idxala vergi qoyan ölkə böyük ölkə, daha konkret desək, IEÖ olduqda xarici ticarət siyasəti beynəlxalq ticarət balansına pozucu nəticələr verir. IEÖ-nün gömrük vergisi qoyması ölkə rifahı baxımından bir-birinə zidd iki vəziyyət əmələ gətirir, ticarət həddində yaxşılaşması və ticarət həcmində azalma müşahidə olunur. Ancaq beynəlxalq ticarətin tələblərinə (ÜTT-in prinsiplərinə görə) görə, gömrük vergiləri minumuma endirilməlidir. Nəzərə alsaq ki, gömrük vergisi idxalı sıfıra endirmədiyi müddətdə büdcəyə gəlir gətirir ,bəs optimal gömrük vergisi dərəcəsi hansıdır? Belə halda aşağıdakı məsələlər optimal gömrük dərəcəsinin səviyyəsini müəyyənləşdirir:

- Elə gömrük vergi dərəcəsi olmalıdır ki, büdcəyə maksimum gəlir gətirməklə yanaşı ticarət həcminə minimum qədər azaldıcı təsir etsin.
- Ölkədə ticarət həddi maksimum şəkildə xeyirli olmaqla yanaşı (yəni bu ticarət nəticəsində maksimum gəlir götürmək), digər ölkənin də bu ölkəyə ticarətinə marağı olsun .

- Mümkün qədər beynəlxalq ticarət dövriyyəsində pay çox olmalı, bununla yanaşı, ölkənin beynəlxalq ticarət münasibətlərinə zərər vurmamalıdır.

Inkişaf etmiş ölkələrin beynəlxalq ticarət prosesindəki uğurlarını nəzərə alaraq Azərbaycanda da optimal gömrük rüsumu dərəclərini müəyyənləşdirməyin yuxarıda göstərilən prinsiplərdən yararlanmağı təklif oluna bilər.

V FƏSIL AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSININ FORMALAŞMASINDA VERGI VƏ RÜSUMLARIN ROLU

Dövlətin İqtisadiyyata təsir etməsinin ən güclü mexanizmi büdcə-vergi siyasətidir. Büdcə-vergi mexanizmləri vasitəsilə dövlətin yeritdiyi siyasətin İqtisadiyyata trans-formasiyası baş verir. Dövlətin siyasəti İqtisadi fəaliyyətə çevrilir.

İlham Əliyev

5.1. Vergilər büdcə gəlirlərinin formalaşdırılmasının əsasıdır

İqtisadiyyatın və sosial sferanın maliyyə əsasını büdcə təşkil edir. Büdcə sosial-İqtisadi proqramların həyata keçirilməsinə zəmin yaratmaqla, İqtisadiyyatın prioritet sahələrinin inkişafında, ətraf mühitin qorunmasının təmin edilməsində, struktur problemlərin həll edilməsində, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və dövlətin digər vəzifələrinin yerinə yetirilməsində mühüm rol oynayır. Bundan əlavə, ÜDM-ın bir hissəsinin yenidən bölgüsünün həyata keçirilməsi məqsədilə dövlət və istehsal subyektləri arasında yaranan pul münasibətlərini tənzimləyir.

Mərkəzləşdirilmiş fondun yaradılması və istifadə edilməsi ilə əlaqədar dövlətlə müəssisə, təşkilat və əhali, eləcə də dövlət hakimiyyət orqanları arasında yaranan pul münasibətlərinin məcmusu büdcə münasibətlərinin İqtisadi məzmununu, onun daxili strukturunu fomalaşdırır. Büdcənin mahiyyəti onun həyata keçirdiyi funksiyalarda öz ifadəsini tapır. Belə ki, büdcə mərkəz-ləşdirilmiş ümumdövlət pul vəsaiti fondunun yaradılması, bu fondun istifadə edilməsi və büdcə vəsaitlərinin hərəkətinə nəzarətin həyata keçirilməsi kimi mühüm funksiyaları yerinə yetirməklə cəmiyyətdə baş verən sosial-İqtisadi prosesləri tənzimləyir.

Ölkəmizdə həyata keçirilən sosial-İqtisadi islahatlar dövlət büdcəsində də kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Büdcənin gəlirlərdən ibarət olan hissəsi cəmiyyət üçün maliyyə-pul vəsaiti bazasıdırsa, xərclər bölməsi ümumdövlət ehtiyaclarının ödənilməsi üçün vasitədir. Büdcə vergilərdən və qeyri-vergi ödənişlərindən təşkil olunur ki, burada vergilərin xüsusi çəkisi üstünlük təşkil edir.

Vergilər cəmiyyətdə bölgü və yenidən bölgü münasibətlərini, yəni dəyərin onu yaradan subyektlərdən dövlətə doğru hərəkətini əks etdirən çox mühüm İqtisadi kateqoriyadır. Bu proses obyektiv münasibətlərə əsaslanır. Çünki mülkiyyətçilərin gəlirlərinin bir hissəsinin ümumdövlət istifadəsi üçün alınması, cəmiyyətin həyati əhəmiyyətli ehtiyaclarının təmin olunması zəruriliyindən yaranır.

Sosial-İqtisadi hadisə kimi, vergilər dövlət və yerli hakimiyyət orqanları

ilə vergi ödəyi**c**iləri (müəssisə, firma və ev təsərrüfatları) arasındakı qarşılıqlı prosesi əks etdirir. Vergilər vasitəsilə milli gəlirin bir hissəsi mə**c**buri qaydada dövlət büd**c**əsinə **c**əlb edilir. Onların bölgüsü və istifadəsi nəti**c**əsində dövlətin İqtisadi tələbatları təmin edilir, makro və mikro səviyyədə təkrar istehsal prosesinin tənzimlənməsi həyata keçirilir.

Dövlət xər**c**lərinin maliyyələşdirilməsi məqsədilə verginin i**c**timai istehsalın iştirakçılarına təsiri **c**əmiyyət üzvlərinin gəlirlərinin bölgüsündə və İqtisadi subyektlərin təsərrüfat davranışında baş verən dəyişikliklə sə**c**iyyələnir. Vergilərin İqtisadi məzmunu təsərrüfat subyektlərinin, habelə fiziki şəxslərin dövlətin maliyyə vəsaitlərinin formalaşdırılması sahəsindəki qarşılıqlı münasibətlərində ifadə olunur.

Ikin**c**i aspektə uyğun olaraq vergilər və onun strukturu elə qurulmalıdır ki, bunların köməyi ilə iştirakçılar tərəfindən formalaşdırılan gəlirlər dövlətin mənafeyinə uyğun olaraq yenidən bölüşdürülsün.

Digər tərəfdən vergilərin məzmunu onların funksional təyinatı ilə müəyyən edilir. Vergilər stimullaşdırı**c**ı, tənzimləyi**c**i, bölüşdürü**c**ü, fiskal, uçot-nəzarət, məhdudlaşdırı**c**ı funksiyaları yerinə yetirir ki, dövlət də onların vasitəsilə İqtisadi proseslərə təsir göstərir.

Vergi sistemi qanunveri**c**iliklə müəyyən edilmiş vergilərin mə**c**musunu, onların qurulma prinsiplərini və tutulması üsullarını özündə əks etdirir.

Vergitutmanın prinsipləri ilk dəfə olaraq A.Smit tərəfindən formalaşdırılmışdır. O qeyd edir ki, hər bir şəxsin ödəməli olduğu vergi dəqiq müəyyən edilməlidir. Ödəniş müddəti, ödəniş üsulu, ödəniş məbləği-vergi ödəyənlər və digər şəxslər üçün aydın olmalıdır. Hər bir vergi elə düşünülməli və hazırlanmalıdır ki, xalqdan dövlət xəzinəsinə ayrılan hissə mümkün qədər az olsun.

İqtisadçı alimlər S.Sismondi, F.Yutsi, M.Fridman, A.Vaqner də öz nəzəriyyələrində vergitutmanın prinsiplərinə toxunmuşlar. Alman alimi A.Vaqner tərəfindən vergitutmanın prinsiplərinin sistemli şərhi müasir dövrədək öz əhəmiyyətini itirməmişdir. Belə ki, o əsasən vergilərin elastikliyi, etik normalara uyğunluğu (ədalətlik prinsipi), vergilərin ümumiliyi, vergi tutulması ilə əlaqədar xər**c**lərin maksimum azaldılması kimi prinsiplərə əsaslanır.

Qeyd etmək lazımdır ki, ölkənin vergi sistemi i**c**timai istehsala, onun strukturuna, İqtisadi resursların səmərəli bölüşdürülməsinə, elmi-texniki tərəqqinin sürətləndirilməsinə İqtisadi təsir mexanizmi kimi çıxış edir.

Vergilər vasitəsilə, sahibkarlıq fəaliyyətinin bu və ya digər sahələrinin inkişafının stimullaşdırılmasına və əksinə onların istehsal fəaliyyətinin məhdudlaşdırılmasına, dünya bazarında yerli müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsinə, bir sözlə, səmərəli İqtisadiyyatın formalaşdırılmasına nail olunur.

Vergilər İqtisadiyyatın maliyyə tənzimlənməsinin mühüm vasitəsi kimi çıxış edir. Dövlət vergi sistemindən istifadə edərək İqtisadiyyata maliyyə təsirini həyata keçirir.

Vergi daxilolmalarından istifadənin istiqamətinə görə onların bölgüsü

vergitutmanın quruluşunu müəyyən etmək üçün zəruridir.

Vergitutmanın mənşəyinin aydınlaşdırılması əsasən aşağıdakılarla bağlıdır. Birinci, vergi sisteminin yaranması və inkişafı, dövlətin yaranması, onun təsərrüfat tələbatının və fəaliyyət istiqamətlərinin dəyişməsi ilə şərtlənir. Ikinci, vergilər, dövlətin mövcudluğunun və inkişafının, habelə milli və dünya bazarının formalaşmasının və fəaliyyət göstərməsinin şərtlərindən biri kimi çıxış edir. Üçüncüsü, vergilər bazar sisteminin əlaməti, ayrılmaz hissəsi olmaqla dövlət gəlirlərinin aparıcı mənbəyi və tənzimləmə vasitəsidir.

Deməli, vergi sisteminin islahatı dövlətin və İqtisadiyyatın inkişaf mərhələləri ilə şərtlənir. Onun formalaşdırılması vergi mexanizminin təşəkkülünün ümumi cəhətlərinə və təşkilati prinsiplərinə əsaslanır. Onlara aiddir: məcburilik, bərabərlik, ədalətlilik, ümumilik, inzibati sadəlik, çeviklik, sabitlik, səmərəlilik, ödəmə qabiliyyətlilik, mütərəqqilik və proporsionallıq, vergi tutulmayan minimum gəlirlər, vergilərin tutulması mexanizmi, siyasi məsuliyyət.

Bazar İqtisadiyyatı inkişaf etmiş ölkələrdə vergilərin quruluşunun təhlili onun metodoloci əsaslarının formalaşdırılmasına imkan vermişdir. Belə ki, vergilərin sayının və növlərinin, aparıcı formalarının müəyyən edilməsi konkret vaxtda onların funksional rolundan asılı olaraq həyata keçirilir. Çox səviyyəli büdcə sisteminin formalaşdırılması xüsusiyyətlərinə uyğun olaraq dövlət və yerli səviyyələrdə vergilərin quruluşunun və dərəcələrinin nisbətinin müəyyən edilməsi öz növbəsində büdcə sisteminin üfüqi və şaquli maliyyə tarazlığının təmin edilməsi zəruriliyini nəzərdə tutur.

Vergilər yalnız dövlət hakimiyyətinin atributu deyil, həm də dövlət siyasətinin tərkib ünsürü, tənzimləmə vasitəsidir. Milli və dünya təsərrüfatı çərçivəsində inkişaf edən İqtisadi, sosial və siyasi proseslər vergi sisteminin daim təkmilləşdirilməsinin obyektiv zəruriliyini şərtləndirir. Bu prosesləri idarə etmək üçün dövlət vergitutmanın qaydalarının dəyişdirilməsinə istiqamətlənən hökumət tədbirlərini özündə birləşdirən diskresion vergi siyasətini formalaşdırır. Bunun vasitəsilə dövlət makroİqtisadi sabitliyə, İqtisadi ehtiyatların və gəlirlərin yenidən bölgüsünə, tam məşğulluğun təmin edilməsinə təsir göstərir. Vergi siyasətinin məzmunu vergilərin funksional təyinatının dövlət tərəfindən reallaşdırma dərəcəsi və məqsədli istiqamətliliyi ilə şərtlənir.

Mikrosəviyyədə vergi tənzimlənməsinin məqsədi rəqabətqabiliyyətliliyin saxlanması və inkişafına, bazar strukturlarının formalaşdırılmasına, investisiyanın, elmi tədqiqat və təcrübə-konstruktor işlərinin stimullaşdırılmasına, İqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilməsinə, ödəmə qabiliyyətli tələbə və qiymətə təsir göstərməkdir. Deməli, mikrosəviyyədə vergilər başlıca olaraq stimullaşdırıcı rolu yerinə yetirir.

Makrosəviyyədə vergi tənzimlənməsi İqtisadiyyatın sabitləşdirilməsi və tənzimlənməsində, İqtisadi artımın və məşğulluğun təmin edilməsində, inflyasiya proseslərinə təsir göstərməsində, sosial infrastrukturun yaradılmasında özünü büruzə verir. Xarici İqtisadi fəaliyyət sahəsində bu,

dünya təsərrüfatına inteqrasiyalılığın səviyyəsinin yüksəldilməsini, xarici ticarətin, kapitalın və işçi qüvvəsinin miqrasiyasının tənzimlənməsi və stimullaşdırılmasını, innovasiya proseslərinin və ixracın inkişafını təmin etməkdən ibarətdir. Makrosəviyyədə büdcə siyasətinin ünsürü olan vergilər ilk növbədə fiskal vasitə kimi çıxış edir.

Vergitutma nəzəriyyə və təcrübəsində vergilərin formalaşdırılması, bölgüsü və istifadəsi prosesinə dövlətin təsir mexanizmini müxtəlif şəkildə şərh edən iki konseptual model-neokeyns və neoklassik model vardır.

Neokeynsçilər vergilərin səviyyəsinin dəyişdirilməsi və işgüzar fəallığı saxlamaq məqsədilə onların azaldılmasının, canlanma və yüksəliş dövründə onların artırılmasının, neoklassiklər isə yığımın yüksək səviyyəsini saxlamaq və vergi bazasını genişləndirmək üçün vergilərin ümumi səviyyəsinin genişmiqyaslı və məqsədəmüvafiq aşağı salınması əsasında vergi tənzimlənməsi mexanizminin formalaşdırılmasının zəruri olduğunu qeyd edirlər.

Vergi siyasətinin təkrar istehsal prosesinə səmərəli təsiri vergi tənzimlənməsinin seçilmiş forma və metodlarından da əhəmiyyətli dərəcədə asılıdır.

Dövlət milli İqtisadiyyata vergi təsirini onun inkişaf mərhələsindən və İqtisadi şəraitdən asılı olaraq birbaşa, vasitəli, stimullaşdırıcı və tənzimləyici vergi formaları vasitəsilə həyata keçirir. Bunlardan başqa, təcrübədə mikro və makrosəviyyədə İqtisadiyyatı tənzimləmək üçün bir sıra metodlardan da istifadə edilir:

-mövcud vergilərin dərəcəsinin yüksəldilməsi, yaxud yenilərinin tətbiq edilməsi;

-müəyyən vaxtda, yaxud müəyyən ərazidə vergi dərəcəsinin dəyişdirilməsi;

-vergilərin quruluşunun dəyişməsi;

-istehsal növləri üzrə differensiallaşdırılmış vergi dərəcələrinin tətbiq edilməsi;

-vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması;

-vergi ödəyicilərinə müəyyən vergi güzəştlərinin və əlavələrin tətbiq edilməsi;

-sürətli amortizasiya sisteminin tətbiq edilməsi;

-investisiya xarakterli vergi güzəştlərindən istifadə edilməsi;

-ayrı-ayrı sferalarda və regionlarda sahibkarlığı, işgüzar fəallığı, ixrac sisteminin inkişafını, elmi-tədqiqat və təcrübə-konstruktor işlərini stimullaşdıran müxtəlif xüsusi vergi güzəştlərinin tətbiq edilməsi.

Bazar mühiti və onun müvafiq institutlarının fəaliyyət göstərdiyi şəraitdə sabitləşdirici vergi siyasətinin reallaşdırılma dərəcəsi valyuta-maliyyə tənzimlənməsi də daxil olmaqla onun büdcə, pul-kredit siyasəti ilə qarşılıqlı əlaqələndirilməsini nəzərdə tutur.

Vergi və büdcə siyasətinin uzlaşdırılması zəruriliyi vergilərin və büdcə xərclərinin bir-birindən asılılığı ilə şərtlənir. Vergi daxilolmalarının həcmi

büdcəni formalaşdırarkən planlaşdırılan dövlət və transfert ödəmələrin məbləğindən birbaşa asılı olur. Ona görə də dövlət xərclərində nəzərdə tutulan dəyişikliyə uyğun olaraq vergitutma sisteminin quruluşuna da düzəlişlər edilir. Eyni zamanda büdcəni formalaşdırarkən vergilər dövlət xərclərinin formalaşdırılmasının məhdudlaşdırıcı alətlərindən biri kimi çıxış edir. Vergi daxilolmaları ilə müqayisədə dövlət xərclərinin kəmiyyətinin dəyişməsi ümumi tələbə, milli gəlirin həcminə, ümumi istehsala və əhalinin məşğulluğuna əks təsir göstərir. Bununla əlaqədar olaraq sabitləşdirici vergi siyasətinin təsiri dövlət transfert ödəmələrinin azaldılması və vergilərin yüksəldilməsinin düzgün uzlaşdırılmasından asılıdır. Bu ümumi tələbin arzu olunan səviyyədə və İqtisadi sistemin sabit vəziyyətdə saxlanmasını şərtləndirir.

İqtisadiyyata sabitləşdirici vergi siyasətinin təsir dərəcəsi həyata keçirilən pul-kredit siyasətindən birbaşa asılıdır. Yalnız vergilərlə manipulyasiya etmə pul kütləsinin həcminin, faiz normasının və valyuta məzənnəsinin dəyişməsinə səbəb olmaqla, ölkənin tədiyə balansının, milli gəlirin, investisiya qoyuluşlarının və ixracın həcminin dəyişilməsinə öz təsirini göstərir. Digər tərəfdən tədavüldə olan pulun miqdarının dəyişməsi vergi mexanizminin fəaliyyət formasını dəyişir ki, bu da faiz normasının, istehsalın həcminin və qiymətin real səviyyəsinə təsir göstərir. Bununla əlaqədar olaraq pul-kredit mexanizmi vasitəsi ilə milli İqtisadiyyatın qarşısında duran İqtisadi problemlərdən asılı olaraq diskresion vergi siyasətinin təsiri zəifləyə və ya güclənə bilər. Odur ki, dövlət stimullaşdırıcı və qoruyucu vergi tədbirləri ilə məhdudlaşdırıcı və genişləndirici pul-kredit siyasətini qarşılıqlı uzlaşdırmalıdır.

Respublikamızda vergi sisteminin təkmilləşdirilməsi, vergi bazasının möhkəmləndirilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, habelə vergi işinin beynəlxalq standartlara uyğun qurulması məqsədilə 30 avqust 2000-ci il tarixdə ölkəmizin hazırki sosial-İqtisadi durumuna uyğun vergi sistemini əks edən yeni «Vergi Məcəlləsi» qəbul edilmişdir. Məcəllə respublikada vahid, sabit vergi mexanizminin qurulması, onun hüquqi bazasının əsaslandırılması, proporsional vergi sisteminin yaradılması, vergi növlərinin müəyyən edilməsi, onların sayının azaldılması, vergi yükü ödəyicilərinin və dövlətin qarşılıqlı mənafeləri nəzərə alınmaqla azaldılması, vergilərin ödənilməsi və yığılması qaydaları, vergi xidməti orqanları, eləcə də vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi nəzarəti və digər məsələləri əhatə edir.

«Vergi Məcəlləsinə» əsasən, Azərbaycan Respublikasında vergilər dövlət vergiləri, muxtar respublika vergiləri və yerli vergilərə (bələdiyyə vergiləri) bölünür(8).

Ümumiyyətlə, Azərbaycan Respublikasının mövcud vergi sisteminin ümumi quruluşunu 1 saylı sxemdəki kimi vermək olar.

İqtisadiyyatın tənzimlənməsinin mühüm vasitəsi kimi çevik vergi sisteminin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər (yəni «Vergi Məcəlləsinin», «Büdcə sistemi» haqqında Azərbaycan Respublikası Qanununun və s. qəbul edilməsi) nəticəsində büdcənin gəlir və xərclərinin

dinamikasında onun İqtisadiyyata təsir miqyasının artmasında müsbət meyllər müşahidə olunmağa başlanmışdır .

Qeyd etmək lazımdır ki, son illərdə dövlət büd**c**əsinin gəlir və xər**c**lərinin ÜDM-da xüsusi çəkisi 14-18 faiz arasında tərəddüd edir. Belə ki, Dövlət büd**c**əsinin gəlirinin ÜDM-da xüsusi çəkisi 1995-**c**i ildə 14,9%, 2000-**c**i ildə 15,1 %, 2004-**c**ü ildə 18,0%, 2005-**c**i ildə isə 17,3% olmuşdur. Büd**c**ə xər**c**ləri üzrə bu göstəri**c**i müvafiq olaraq 20,1%, 16,2%, 17,6% 18,0% təşkil etmişdir. Son üç ildə ölkənin makroİqtisadi göstəri**c**ilərinin və büd**c**ənin artım sürəti əvvəlki illərin artım sürətini xeyli üstələmiş, ümumi daxili məhsül 2 dəfə, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşu 1,4 dəfə, büd**c**ənin gəlir və xər**c**ləri 2,9 dəfə artmışdır. Bu dövrdə büd**c**ə kəsirinin ÜDM-da xüsusi çəkisi 1996-**c**ı ildən etibarən 3 faizi ötməmişdir ki, bu da beynəlxalq meyarlara uyğun olaraq yol verilən səviyyədir. Aparılan təhlil göstərir ki, ölkədə istehsal edilmiş ÜDM-un daha az hissəsi gəlir şəklində büd**c**əyə **c**əlb edilir ki, bu da müəyyən dərə**c**ədə bazar münasibətlərinin inkişaf səviyyəsi ilə əlaqədardır.

Sxem 1

Azərbaycan Respublikasının Vergi Sisteminin Ümumi Quruluşu



Qeyd etmək lazımdır ki, vergi daxilolmalarının mühüm hissəsini əlavə dəyər vergisi təşkil edir. Son illərdə ƏDV üzrə daxilolmaların məbləği və xüsusi çəkisi dinamik olaraq artmışdır. Belə ki, ƏDV üzrə faktiki daxilolmaların həcmi 2005-ci ildə 1995-ci ilə nisbətən təqribən 19,6 dəfə, 2000-ci ilə nisbətən isə 3,1 dəfə artmışdır. Əgər 1995-ci ildə büdcə daxilolmalarında ƏDV-nin payı 9,6%, 2000-ci ildə 26,7%, 2004-cü ildə 30,0% olmuşdursa, 2005-ci ildə bu göstərici 29,2% səviyyəsində qərarlaşmışdı. 2000-2005-ci illərdə ƏDV üzrə daxilolmaların artımı ildə orta hesabla 25% təşkil etmişdir. Vergi Məcəlləsi ilə ƏDV-nin dərəcəsinin 18%-ə endirilməsinə baxmayaraq bu maddə üzrə daxilolmaların məbləği artmaqda davam etmişdir.

Büdcə daxilolmalarında öz çəkisinə görə mənfəət vergisi mühüm yerlərdən birini tutur. Belə ki, mənfəət vergisinin həcmi də müəyyən tərəddüd-

lərlə olsa da artmışdır. 2005-**c**i ildə bu maddə üzrə daxilolmaların həc**m**i 1995-**c**i ilə nisbətən 4,1 dəfə, 2000-**c**i ilə nisbətən 2,8 dəfədən çox artmış və 355,4 mlyn. manat təşkil etmişdir. 2005-**c**i ildə bu vergi üzrə daxilolmaların büd**c**ə gəlirlərində xüsusi çəkisi 17,3% təşkil etmişdir.

2005-**c**i ildə əhalidən tutulan gəlir vergisinin həc**m**i 1995-**c**i ilə nisbətən 13,9 dəfə, 2000-**c**i ilə nisbətən 3,4 dəfə artmışdır. 1995-2005-**c**i illərdə bu vergi üzrə artım ildə orta hesabla 25,0% təşkil etmişdir.

Ölkənin büd**c**ə gəlirlərinin formalaşmasında özünəməxsus rolu olan vergilərdən biri də aksizlərdir. 2000-**c**i illə müqayisədə 2005-**c**i ildə aksiz üzrə daxilolmaların həc**m**i 6,3 dəfə artmışdır.

2005-**c**i ildə ölkənin büd**c**ə gəlirlərinin 78,8%-i qeyd edilən beş (ƏDV, aksizlər, mənfəət vergisi, əhalidən gəlir vergisi, xari**c**i İqtisadi fəaliyyətdən daxilolmalar) vergi daxilolmalarının payına düşür.

2003-**c**ü illə müqayisədə dövlət büd**c**əsi 2008-**c**i ildə 10 dəfə artmışdır. Son beş il ərzində dövlət büd**c**əsinin belə sürətlə artması dünyada analoqu olmayan bir inkişafdır. 2009-**c**u ilin dövlət büd**c**əsinin gəlirləri 12 milyard 177 milyon manat, xər**c**ləri isə 12 milyard 355 milyon manat həc**m**ində təsdiqlənmişdir.

Belə bir faktı da göstərmək lazımdır ki, 2003-2008-**c**i illərdə Azərbay**c**anda ümumi daxili məhsul 4,2 dəfə artaraq 7,2 milyad manatdan 30,4 milyard manata çatmışdır.

Qeyd etmək lazımdır ki, ölkədə həyata keçirilən köklü sosial-İqtisadi dəyişikliklər nəti**c**əsində vergilər İqtisadiyyatın tənzimlənməsinin və idarə olunmasının başlı**c**a amilinə çevrilmişdir. Lakin onun İqtisadi artımın təmin edilməsinin rəqabətqabiliyyətli istehsalın formalaşdırılmasının və işgüzar fəallığın yüksəldilməsinin ən təsirli vasitəsinə çevrilməsi üçün respublikada həyata keçirilən vergi islahatına konseptuallıq xarakterinin verilməsi zəruridir.

Belə ki, bazar İqtisadiyyatına transformasiyanın sosial-İqtisadi problemləri vergi sistemində həyata keçirilən İqtisadi islahatlar, struktur dəyişiklikləri, istehsalın prioritet sferalarının stimullaşdırılması, ölkənin ixra**c**at potensialının genişləndirilməsi, yerli və xari**c**i sahibkarların investisiya fəallığının gü**c**ləndirilməsi kimi proseslərin vergi tənzimlənməsinin forma və metodlarının müəyyən edilməsinə tabe etdirilməsini tələb edir.

Son illər ölkəmizin vergi qanunveri**c**iliyində aparılan əsaslı dəyişikliklər, dövlətimizin yürütdüyü vergi siyasətini makroİqtisadi inkişafı stimullaşdıran səmərəli İqtisadi alətə çevirmiş, sahibkarlarla vergi xidməti əməkdaşları arasında münasibətlərin qarşılıqlı anlaşma əsasında qurulmasına səbəb olmuş, habelə vergi nəzarətinin təkmilləşdirilməsi vasitəsilə vergilərin vaxtında və tam həc**m**də büd**c**əyə alınmasının təmin olunması məqsədilə vergi orqanlarının inzibati strukturunda adekvat islahatların həyata keçirilməsini zəruri etmişdir. Bütün ölkələrdə olduğu kimi, respublikamızın da vergi sistemi özünəməxsus çalarlara malikdir. Ümumiyyətlə, müxtəlif ölkələrin vergi sistemi müəyyən xüsusiyyətlərinə - vergilərin strukturuna, növlərinə, onların tutulma qaydasına,

vergi dərəcələrinə, yerinə yetirdiyi fiskal funksiyanın səlahiyyət dairəsinə, vergi bazasına, vergi güzəştlərinə və s. görə bir-birindən fərqlənir. Əlbəttə ki, bu qanunauyğun haldır, çünki formalaşan hər bir vergi sistemi müxtəlif İqtisadi, siyasi və sosial şəraitə uyğunlaşaraq həmin ölkənin vergi recimini tənzimləyən qanunvericilik qüvvədir. Lakin beynəlxalq vergi sistemləri müəyyən prinsipial fərqlərə malik olsalar da, onlar arasında oxşar cəhətlər də mövcuddur.

Hazırda respublikamızın beynəlxalq standartlara uyğun sivil vergi sistemi qurulsa da dünya ölkələrinin bu sahədəki təcrübələrinin təhlili və öyrənilməsi, mövcud vergi sistemlərinin müqayisəsi ölkədə aparılan islahatları, görülən işləri daha dəqiq qiymətləndirməyə əsas verir.

Inkişaf etmiş dövlətlərin bir çoxu vergitutma sahəsində uzun tarixi yol keçmiş və hər biri demək olar ki, çevik vergi sistemi formalaşdırmışdır. Bu ölkələrdən bəzilərində, məsələn, ABŞ, Kanada, Yaponiyada və s. büdcə, 3 səviyyədə – federal (dövlət), regional və yerli vergilər tərtib və təsdiq edilir və bu sistemə uyğun olaraq vergilər müəyyənləşdirilir. Güclü İqtisadi bazaya malik olan ABŞ, həm də sivil bazar münasibətlərinə uyğun vergi sisteminə malikdir. Inkişaf etmiş Avropa ölkələrinin vergi sistemi də ABŞ-da olduğu kimi çoxşaxəli və müxtəlifdir. Bu ölkələrdə icbari ödəmələrin ÜDM-da xüsusi çəkisi belədir: ABŞ-da-30%, Kanadada-34%, Fransa, Avstriya, Danimarka, Belçika və Isveçdə- 40%, Almaniyada isə 38%-ə çatır. ABŞ-da federal büdcə bütün gəlir və xərclərin təxminən 80%-ni, ştatların büdcəsi-15%-ni, yerli vergilər isə 5%-ni təşkil edirsə, bu göstəricilər Kanadada müvafiq olaraq, 48%, 42% və 10% təşkil edir.

ABŞ-da federal vergilərin prioritet mövqe tutmasına baxmayaraq şəhər və digər yerli qurumların büdcəsinin formalaşmasında yerli vergilərin payı kifayət qədər yüksəkdir. Onlar federal və ştatların büdcələrindən ayrılan dotasiyalar və subvensiyalarla bərabər, həm də yerli büdcələrin gəlirlərinin formalaşmasında mühüm rola malik olmaqla öz xərclərinin 80%-ni ödəmək qabiliyyətinə malikdir. ABŞ-da müstəqil maliyyə bazasına malik olan 83 min yerli idarəetmə orqanı fəaliyyət göstərir. Təcrübədə bələdiyyələrin vəsaiti hesabına yerli təsərrüfat fəaliyyəti növlərinin inkişafına şərait yaradan xüsusi istehsal yerlərinin tikintisi də həyata keçirilir. Stimullaşdırıcı tədbir kimi buna müəssisələrin yerli vergilərdən birdəfəlik və ya müvəqqəti olaraq azad olunmasını göstərmək olar.

ABŞ-da və bir sıra Avropa ölkələrində federal vergilər büdcəyə, yerli vergilər isə müvafiq olaraq yerli büdcəyə daxil olur. Almaniyada isə əsas vergi mənbələri hesabına iki və ya üç büdcə formalaşır. Məsələn, fiziki şəxslərdən gəlir vergisi aşağıdakı qaydada bölüşdürülür: 43 faizi federal büdcəyə yönəldilir, 42 faizi müvafiq vilayətin sərəncamında qalır. 15 faizi isə yerli büdcələrdə saxlanılır. Korporasiyaların gəlirlərindən tutulan vergilər federal və vilayət büdcələrinə bərabər həcmdə daxil olur.

Almaniyanın vergi sistemində digər Avropa ölkələrindən fərqli daha bir cəhət vardır. Burada gəlirlərin bölgüsü yalnız üfüqi deyil, eləcə də şaquli

istiqamətdə tarazlaşdırılır. Belə ki, burada yüksək gəlir gətirən ərazilərin (Bavariya, Vyurtemberq, Şimali Reyn-Vestfal) maliyyə vəsaitlərinin bir qismini nisbətən zəif inkişaf etmiş (Saksoniya, Şlezviq-Qolşteyn) bölgələrə köçürürlər. Bu üsul AFR-nın vergi sisteminin uzunmüddətli təkamülü və inkişafı nəticəsində əldə etdiyi böyük nailiyyətidir.

Inkişaf etmiş ölkələrin vergi sistemində respublikamızdan fərqli olaraq birbaşa vergilər prioritetlik təşkil edir. Belə ki, Böyük Britaniyanın büdcəsində birbaşa vergilər 45,9%, vasitəli vergilər 31,4%, Ispaniya vergi sistemində isə bu göstəricilər müvafiq olaraq 47,2% və 40,3% təşkil edir.

Cədvəl 1

Azərbaycanda və bir sıra dünya ölkələrində mənfəət vergisinin, fiziki şəxslərdən tutulan gəlir vergisinin və əlavə dəyər vergisinin dərəcəsi (%)

Ölkələr	Mənfəət vergisi	Fiziki şəxslərin gəlir vergisi	ƏDV
ABŞ	34	15-39	3-8
Almaniya	42	19-53	16
Fransa	34	56	18
Isveç	28	20-57	25
Kanada	28	17-29	12
Italiya	36	10-50	19
Yaponiya	40	10-50	3
Böyük Britaniya	33	20-40	17
Avstriya	30	10-50	20
Türkiyə	33	15-40	18
Rusiya	24	13	20
Tacikistan	30	40	20
Türkmənistan	25	8-12	20
Özbəkistan	35	15-40	20
Qazaxıstan	30	5-30	20
Qırğızıstan	30	5-33	20
Gürcüstan	20	12-20	20
Azərbaycan	22	14-35	18

Inkişaf etmiş ölkələrdə fiziki şəxslərdən tutulan gəlir vergisi büdcənin mühüm gəlir mənbələrindən biri kimi çıxış edir. Son onillikdə bu vergidən yığılan vəsaitin həcminin ümumi vergi daxilolmalarındakı xüsusi çəkisi Almaniyada 23-27%, Böyük Britaniyada 25-30%, Yaponiyada 20-26%, ABŞ-da 30-40% arasında dəyişmişdir.

1998-2005-ci illərdə respublikamızda bu göstəricinin səviyyəsi təxminən həmin ölkələrdə olduğu kimi, yəni 17-24% olmuşdur .

Bu ölkələrin vergi sistemində korporasiyaların gəlir vergisi, sosial sığorta ayırmaları, ƏDV, aksiz vergisi və digər çoxsaylı vergilər tətbiq edilir.

Bir sıra ölkələrdə ABŞ, Avstraliya və Yaponiyada ƏDV tutulmur. Azərbaycanın vergi sistemində əlavə dəyər vergisinin xüsusi yer tutduğunu nəzərə alaraq bu verginin vətəni olan Fransanın vergi sisteminin təhlili daha böyük maraq kəsb edir. Bu ölkənin büdcə sisteminin aparıcı hissəsini ƏDV təşkil edir. Ölkədə tətbiq edilən vasitəli vergilərin 80%-i ƏDV-nin payına düşür. ƏDV ölkə ərazisində istifadə və istehlak olunan bütün mal və xidmətləri əhatə edən ümumi istehlak vergisidir. Xarici bazarla həyata keçirilən əməliyyatlar ƏDV-dən azaddır. Hazırda bu ölkədə tətbiq edilən ƏDV-nin dərəcəsi əsasən 18,6%-ə bərabərdir. Daha yüksək 22%-lik dərəcə bəzi mallara - avtomobil, tütün məmulatları, parfumeriya və qiymətli xəzlərə tətbiq olunur. Fransanın vergi sistemində gömrük rüsumları da mühüm yer tutur. Bu vergi növünün tətbiq edilməsində əsas məqsəd gəlir götürməkdən daha çox daxili bazarı - (milli sənayeni və kənd təsərrüfatını) qorumaqdır. O, dövlətin İqtisadi siyasətinin bir vasitəsi kimi çıxış etməklə, idxal olunan və daxildə istehsal edilən oxşar malların qiymətlərində tarazlıq yaratmağa xidmət edir.

Eyni zamanda, bu dövlətlər üçün ən xarakterik cəhət İqtisadi həyatın müxtəlif sahələrinə dövlət müdaxiləsinin səviyyəsidir (İqtisadiyyatın tənzimlənməsi). Məsələn, ABŞ-da müdaxilə səviyyəsi aşağı, Isveçdə yüksək, Yaponiya və Almaniyada isə bu ölkələrə nisbətən orta səviyyədədir. Dövlət, tənzimləmə aləti olan vergi siyasəti vasitəsilə vergi dərəcələrini aşağı sala və ya yüksəldə bilər. Bu tədbir bilavasitə dövlətin həyata keçirdiyi İqtisadi siyasətdən asılıdır. Yəni sosial yönümlü İqtisadiyyatı olan ölkələrdə dövlət vergilər vasitəsilə ÜDM-un daha çox hissəsini bölüşdürür ki, bunu da vergi dərəcələrinin artırılması hesabına həyata keçirir (məsələn, Isveçdə vergi ödəyiciləri gəlirlərinin 50 faizini və daha artıq hissəsini dövlət xəzinəsinə köçürürlər).

Azərbaycanda mövcud vergi dərəcələrinin səviyyəsinə gəldikdə isə cədvəldəki rəqəmlərdən göründüyü kimi ölkəmizdə bu göstəricilər aşağıdır. Belə ki, 1995-2005-ci illər ərzində mənfəət vergisinin dərəcəsi 35%-dən 22%-ə, əlavə dəyər vergisi 20%-dən 18%-ə endirilmiş, eyni zamanda fiziki şəxslərin gəlir vergisinin yuxarı həddi 55%-dən 35%-ə dək aşağı salınmışdır. Aylıq gəlirin vergi tutulmayan məbləği isə 60 min manatdan 100 min manatadək, 2004-cü ilin yanvar ayından 150 min manatadək artırılmışdır. 2007-ci ilin 01 yanvar tarixindən bu göstərici 30 manat təşkil edir.

Mənfəət vergisinin dərəcəsi inkişaf etmiş ölkələrlə müqayisədə xeyli aşağı, MDB-yə daxil olan dövlətlərlə müqayisədə isə orta səviyyədədir. Fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi Kanada və ABŞ istisna olmaqla digər inkişaf etmiş ölkələrdəkindən aşağıdır. Bu göstərici üzrə MDB üzvü olan ölkələrlə müqayisədə yalnız Özbəkistan və Tacikistan bizi qabaqlayır. Lakin keçmiş sovet respublikaları arasında ƏDV-nin aşağı dərəcəsi Azərbaycandadır.

Qeyd etmək lazımdır ki, vergi sisteminin mürəkkəbliyi isə inzibati idarəetmə xərclərinin artmasına, ayrı-ayrı vergi ödəyiciləri arasında olan vergi yükünün qeyri-bərabərliyi haqqındakı fikrin daha geniş yayılmasına səbəb olur. Deməli, vergitutma islahatının əsas xüsusiyyəti onun ölkənin mövcud İqtisadi

imkanından və əhalinin hüquqi şüurundan asılı olaraq həyata keçirilməsidir. Hüquqi məsuliyyət səviyyəsi aşağı olan vergi ödəyi**c**ilərinin gəlirlərini vergiyə tam **c**əlb etmək və onlar üzərində nəzarətin səmərəliliyini təmin etmək məqsədilə hökumət vergi ödəyi**c**ilərindən öz gəlirləri və ödənilən dividentləri barədə rəsmi məlumat verilməsini tələb edir. Onu da qeyd edək ki, islahatlar dövründə, vergidən yayınma və vergidən gizlədilmə hallarına da çox rast gəlinir. Bu zaman, vergiyə nəzarətin bu və ya digər metodlarından istifadə edilməsinə baxmayaraq, vergi orqanları pul vəsaitlərinin hərəkətinə və dövlətin bağlamış olduğu bütün vergi müqavilələrinə tam nəzarət edə bilmir. Bazar İqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə vergi sahəsində aparılan dəyişikliklər tədri**c**ən həyata keçirilir.

Vergi islahatının vaxtında aparılmamasından asılı olan problemləri beş qrupda birləşdirmək olar:

1.Vergi siyasətində aparılması zəruri olan dəyişikliklərin vaxtında dərk edilməməsi;

2.Vergi konsepsiyalarının tə**c**rübədə tətbiq edilməsindəki ge**c**ikmələr;

3.Vergi tə**c**rübələrinin fəaliyyət istiqamətinin və onların məzmununun düzgün seçilməməsi;

4.Vergi islahatından alınan səmərənin və onun vaxtının düzgün qiymətləndirilməməsi;

5.Vergi tə**c**rübələrindən alına bilən müsbət nəti**c**ələrə vaxtından əvvəl inam yaratmaq və möv**c**ud reallığının lazımi səviyyədə qiymətləndirilməməsi.

Vergi qanunlarının fəaliyyətində təzahür edən mənfi halların hökumətin vaxtında dərk etməsi bir neçə amillərdən asılıdır ki, bunlardan əsasən ikisinin nəzərə alınması mütləq lazımdır. Birin**c**isi, islahatçıların peşəkarlıq və etik hazırlığı, ikin**c**isi, onların İqtisadiyyatda həyata keçirilməsi zəruri olan dəyişikliyin qəbul etməsinə hazır olması. Bununla yanaşı vergi qanunveri**c**iliyində həyata keçirilən dəyişikliklərə İqtisadiyyatın ne**c**ə reaksiya verməsi probleminin aşkara çıxarılması da mürəkkəb vəzifələrdən biri hesab olunur. Bir-birini inkar edən iki variant mümkündür. Birin**c**i variantda, İqtisadiyyat ona təqdim edilən vergi stimullarını və qadağaned**i**ci sanksiyaları qəbul edir. Onun investisiya imkanları və istehlak tələbatı artır, habelə kapital sferaları arasında öz yerini dəyişməyə başlayır. Digər variantda isə təsərrüfat subyektləri vergidən yayınmanın digər yeni üsullarının tapılmasına **c**əhd göstərə**c**əkdir. Bu mümkün iki haldan birinin tam həlli heç bir dövlətə və hökumətə nəsib olmur. Vergi islahatının müvəffəqiyyəti onun aparılmasına çəkilən xər**c**in hə**c**mi və yeni vergi qanunu qəbul edilərkən qarşıya qoyulmuş məqsədə nə dərə**c**ədə yaxınlaşması ilə qiymətləndirilir. Ona görə də hər bir yeni vergi islahatı daha təkmilləşmiş vergi sisteminə yaxınlaşmanın başlanğı**c**ı deməkdir. Bazar İqtisadiyyatına keçid dövrünü yaşayan ölkələr, o **c**ümlədən Azərbay**c**an Respublikası bu sahədə daha böyük çətinliklərlə üzləşir. Belə ölkələrdə vergi islahatı problemini yalnız dövlət üçün zəruri olan maliyyə resurslarının səfərbər olunma üsullarının axtarışı ilə bağlamaq olmaz. Hal-

hazırda Azərbaycanda vergi problemi nəinki İqtisadi, həmçinin sosial-siyasi problemləri də üstələmişdir. Vergi metodu ilə səfərbərliyə alınan dövlət gəlirlərinin maddi bazası əsasən istehsal sferasında formalaşır. İqtisadiyyatın digər sferalarından daxil olan ödəmələr büdcə gəlirlərinin cüzi hissəsini təşkil edir. Ona görə də dövlət vergi dərəcələrini artırmadan istehsal sahələrində investisiya fəallığını yüksəltmək üçün maliyyə vəsaiti axtarışı problemi ilə qarşılaşır.

Azərbaycanda vergi sisteminin islahatı mühüm sosial-İqtisadi dəyişikliklər şəraitində baş verir.

Son dövrdə ölkədə İqtisadi şəraitin əlverişli olduğunu nəzərə alırlar, mövcud sosial-İqtisadi vəziyyətin sabitliyi, ölkənin İqtisadi inkişafının dinamikliyi, onun bazar və resurs potensialının cəlbedicilik dərəcəsi dinamik inkişafa şərait yaratmışdır. Görülən tədbirlərin nəticəsidir ki, son altı ildə ÜDM-in real artımı 2,5 dəfədən artıq olmuş, inflyasiyanın qarşısı alınmış, milli valyutanın məzənnəsi sabitləşmişdir. 2005-ci ilin sonunadək olan dövrdə investisiyaların ümumi həcmi 6733,4 milyon manat təşkil etmiş, əhalinin həyat səviyyəsi isə 2,5 dəfə yüksəlmişdir.

Hal-hazırda ölkədə fəaliyyət göstərən vergi sistemi investisiya qoyuluşu sahəsində daxili mənbələrin prioritetliyinin təmin edilməsinə imkan yaradır. Bunun üçün üç prinsipial mövqe nəzərə alınır. Birincisi, Azərbaycanın sosial-siyasi inkişafının spesifik xüsusiyyəti, onun İqtisadiyyatının bazar prinsipləri əsasında təşəkkülünün başlanğıc mərhələsində olması, maliyyə resurslarının dövlət büdcəsində həddindən artıq mərkəzləşməsi və s. Ikincisi, mülkiyyətə olan münasibətin dəqiq müəyyənləşdirilməsi zəruriliyi. Buna nail olmadan müəyyən ölkənin İqtisadi inkişafının sabit strategiyasını müəyyən etmək, bütün istehsal sferalarında, xüsusilə vergi sistemində islahatlar aparmaq olmaz. Üçüncüsü, bazar münasibətlərinə keçid şəraitində dövlət xərclərinin səmərəliliyi məsələsinə də ciddi fikir vermək lazımdır.

Ölkədə bazar İqtisadiyyatının tələblərinə uyğun çevik vergi sistemini, o cümlədən büdcə gəlirlərinin optimal nisbətini, büdcə xərclərinin səmərəli istiqamətlərini formalaşdırmaq üçün hökumət əsaslandırılmış büdcə-vergi siyasəti həyata keçirir.

Vergi islahatlarının həyata keçirilməsi zamanı qarşıya çıxan mühüm problemlərdən biri də dövlət büdcəsi ilə yerli büdcələr arasındakı optimal əlaqənin formalaşdırılmasıdır.

2000-2005-ci illər ərzində respublikamızın vergi sistemində həyata keçirilən çoxsaylı islahatların tərkib hissəsi kimi yeni vergi qanunvericiliyinin təbliği, vergi mədəniyyətinin yüksəldilməsi, sahibkarlar və vergi əməkdaşları arasında işgüzar münasibətlərin yaradılması məqsədilə 2000-ci ilin sonundan vergi orqanlarında vergi ödəyicilərinin məlumatlandırılması şöbələri yaradılmışdır. Bundan əlavə, dövlət büdcəsinə vergilər və digər daxilolmalar üzrə müəyyən edilmiş proqnoz tapşırığın yerinə yetirilməsi məqsədi ilə vergi yığımının sistemləşdirilməsi, vergi bazasının genişləndirilməsi üçün potensial mən-

bələrin müəyyənləşdirilməsi sahəsində irimiqyaslı tədbirlər həyata keçirilir, sahibkarlığın inkişafına süni maneələrin qarşısının alınması, onların fəaliyyətinə lüzumsuz müdaxilələrə son qoyulması, bir sözlə, sağlam vergi münasibətlərinin qurulması ilə bağlı məqsədyönlü iş aparılır.

Ölkəmizdə iş adamlarının maraqlarına mənfi təsir etdiyini nəzərə alaraq ayrı-ayrı ölkələrlə - Qazaxıstan, Moldova, Ukrayna, Gürcüstan, Özbəkistan, Belarus və bir sıra Qərb ölkələri- Böyük Britaniya, Norveç, Türkiyə ilə ikiqat vergiqoymanın aradan qaldırılması barədə sazişlər imzalanmış və digər ölkələrlə danışıqlar aparılır.

Inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da aparılan islahatların və vergi sisteminin təkmilləşdirilməsinin əsas prinsipi vergi yığımının sivil üsullarla aparılmasıdır.

Deməli, vergi islahatının keçirilməsi prinsiplərinin seçilməsi yalnız vergiqoymanın optimallaşdırılması məqsədindən deyil, həm də ölkədə islahatların sosial və İqtisadi imkanlarından çıxış etməlidir.

5.2. Dövlət büdcəsinin gəlirlərində gömrük vergi və rüsumlarının rolu

Dövlət büdcəsi İqtisadiyyatın idarə edilməsinin və tənzimlənməsinin mühüm vasitələrindən biridir. Araşdırmalar göstərir ki, hər bir ölkənin İqtisadi inkişaf səviyyəsi ilə onun büdcə-vergi mexanizmi arasında müəyyən asılılıq mövcuddur. Belə ki, əgər büdcə-vergi mexanizmi həm dövlətin, həm də vergi ödəyicilərinin mənafeləri nəzərə alınmaqla formalaşdırılırsa, İqtisadi yüksəlişə, sosial sferanın inkişafına və nəhayət milli İqtisadiyyatın dünya təsərrüfatına səmərəli inteqrasiyasına zəmin yaradır.

Son dövrdə respublikamızın dövlət büdcəsində böyük artım müşahidə olunur. Bunu aşağıdakı cədvəl məlumatlarından aydın görmək olar.

Cədvəl 1.

Azərbaycan Respublikasının dövlət büdcəsinin əsas göstəricilərinin dinamikası və ÜDM-də çəkisi, 1997-2007-ci illər (mln. manat)

Illər	Büdcə Gəliri	ÜDM-də çəkisi	Büdcə xərci	ÜDM-də çəkisi	Büdcə kəsiri (-) və profisit (+)	ÜDM-də çəkisi
1997	513,0	16,2	588,7	18,6	-75,7	2,4
1998	465,5	13,5	528,3	15,4	-62,8	1,8
1999	549,7	14,6	641,5	17,0	-91,8	2,4
2000	715,5	15,2	763,8	16,2	-48,3	1,0
2001	783,8	14,7	806,6	15,2	-22,8	0,5
2002	910,2	15,0	931,7	15,4	-21,5	0,4
2003	1225,5	17,1	1234,0	17,3	-8,5	0,2
2004	1481,2	17,4	1501,0	17,6	-19,8	0,2

2005	2055,2	17,3	2140,7	18,0	-85,5	0,7
2006	3881,2	21,9	3789,7	21,4	91,5	0,5
2007	6006,6	23,8	6059,5	24,0	-52,9	0,2

Azərbaycanda dövlət büdcəsinin formalaşmasının əsas ağırlığı vergi orqanlarının üzərinə düşür. Lakin son illərin göstəricilərinin təhlili büdcə gəlirlərinin formalaşmasında vergi orqanları ilə bərabər gömrük orqanlarının da əhəmiyyətli rol oynadığını qeyd etməyə əsas verir.

Qeyd etmək lazımdır ki, ümumilikdə vergi sisteminə daxil olan vergi növlərinin az hissəsi gömrük orqanlarının payına düşür.

Cədvəl 2

2008 ci ilin ilk aylarında gömrük vergilərinin statistikası

2008	Vergi və tədiyə növləri	Proqnoz	Daxilolma	Faiz	Fərq		
Gömrük vergiləri	ƏDV	65249.9	50751.3	77.8	-14498.6	Cəmi	38737.7
	Aksiz	24092	24358.7	101.1	266.7		
	Yol vergisi	17390.8	5602.5	322	3862.7		
	Dövlət rüsumu	3478.2	3705.3	106.5	227.1		
Vergi idarələrindən vergilər	Mənfəət vergisi	409446.2	579362.1	141.5	169915.9	Cəmi	48193.29
	Mədən vergisi	9044	13887.8	153.6	8191.3		
	Torpaq vergisi	1989.9	10181.2	511.6	8191.3		
	Əmlak vergisi	7283.1	17920	246	10636.9		
	Gəlir vergisi	49965.2	38275.5	76.6	-11689.7		
	Sadələşdirilmiş vergi	4204.5	6671.7	158.7	2467.2		
Digər	Sair daxilolmalar	13681.2	13855.2	101.3	174	Cəmi	13681
	Cəmi	5901173.39					

Göründüyü kimi, gömrük vergilərinin artım dinamikası qeyri sabitdir.

2008-ci illərin ilk ayları üçün büdcə daxilolmalarını (təbii ki, söhbət ancaq vergilərdən gedir) aşağıdakı diaqramda ifadə etmək olar.

Bütün bu göstəriciləri yekunlaşdıraraq, son illərin uzunmüddətli dövr üçün büdcəyə ödənilən vergilərin tərkibində gömrük vergilərinin payının dinamikasını aşağıdakı qrafiklə ifadə etmək olar.

1996-2008 dövrü üçün gömrük vergilərinin dinamikası



Müasir dövrdə bütün ölkələrin, o cümlədən respublikamızın dövlət büdcəsinin formalaşmasında vergilərin xüsusi çəkisnin prioritetliyi xarakterik haldır. Italiya, Fransa və bir sıra ölkələrdə birbaşa və dolayı vergilərin demək olar ki, bərabər nisbətdə olması, ABŞ-da isə birbaşa vergilərin üstünlüyü müşahidə olunur. Vergi sisteminin araşdırılması hər bir ölkənin İqtisadi inkişaf səviyyəsi ilə vergilərin strukturu arasında müəyyən asılılıq olduğunu göstərir. Əgər ölkə İqtisadiyyatı tam gücü ilə işləmirsə, yaxud yenidən qurulursa, əmtəə-pul münasibətlərinin, habelə xarici ticarətin inkişafi şəraitində vasitəli (yəni dolayı) vergilər büdcəyə vəsaitlərin cəlb edilməsi metodu kimi iştirak edir. Məlumdur ki, vasitəli vergilər kütləvi istehlak mallarına tətbiq edilən və mühüm tənzimləyici əlamətlərə malik olan məcburi ödənişlərdir.

Beləliklə, araşdırmalar göstərir ki, respublikanın sosial İqtisadi həyatında aparılan əsaslı islahatlar nəticəsində gömrük vergi və rüsumları hesablino ölkənin büdcə imkanları xeyli artmışdır. Bu da büdcə xərclərində investisiya və sosial yönümlülüyün artırılmasına, istehsal xarakterli proqramlara maliyyə dəstəyinin verilməsinə, büdcə vəsaitlərinin məhsuldar istehsalının təmin edilməsinə, bir sözlə, İqtisadiyyatda dinamik meyllərin möhkəm təmələ əsaslanmasına zəmin yaradır. Bunun davamlı olması, habelə əhalinin və respublikanın bir çox İqtisadi və sosial problemlərinin həll edilməsi üçün dövlətin İqtisadi imkanlarının artırılmasına gətirib çıxaran səmərəli gömrük tarif tənzimlənməsinin həyata keçirilməsi olduqca vacibdir.

İqtisadiyyatımızın qloballaşma prosesində dünya təsərrüfatına getdikcə daha da çox inteqrasiya olunduğunu nəzərə alsaq, əminliklə demək olar ki, dövlətin İqtisadiyyata məhz İqtisadi yolla (daha dəqiq desək, İqtisadi vasitələrlə) təsiri daha aktual məsələdir. Dövlətin İqtisadiyyata təsiriniin əsas istiqamətlərindən biri də Xarici İqtisadi Fəaliyyətin gömrük –tarif tənzimlənməsidir.

Gömrük vergi sisteminin İqtisadiyyata təsirindən və onun İqtisadi tənzimləmədəki rolundan danışarkən təbii ki, ilk növbədə gömrük tarifi yada düşür.Gömrük tarifi – xarici ticarətin dövlət tənzimlənməsinin qiymətəməlgətirmə mexanizmi ilə fəaliyyət göstərən əsas vasitəsidir.

İqtisadi tənzimlənmə vasitəsi kimi gömrük tarifi iki funksiyanı yerinə yetirir:

1. **Proteksionist funksiya-**bu funksiya gömrük tarifinin daxili istehsalı və istehsalçıların mənafeyinin üstün tutulması ilə səciyyələnən tədbirlərlə bağlıdır. Belə ki, idxal mallarına gömrük rüsumlarının tətbiqi son nəticədə bu malların Azərbaycan bazarında yerli mallara rəqabət qabiliyyətini aşağı salır. Yəni rüsumlar idxal malın qiymətini artırır, buna görə də alıcların daha ucuz olan yerli mallara tələbi yüksəldikcə bu malların istehsalına stimul yaranmış olur ki, bu da öz növbəsində yerli istehsalın genişlənməsinə şərait yaradır.

2. **Fiskal funksiya-**bu funksiya dövlət büdcəsinin doldurulması ilə bağlıdır. Belə ki, gömrük tarifi həm də dövlət büdcəsinin mədaxil hissəsinin təmin edilməsi üçün istifadə olunur. Gömrük vergi və rüsumlarının dövlət büdcəsindəki rolu əvvəlki fəsildə kifayət qədər araşdırıldığından bu mövzuya qayıtmağa ehtiyac yoxdur.

Bu göstərilən istiqamətlərdən başqa gömrük tarifindən xarici ticarətin gömrük tənzimlənməsi vasitəsi kimi ayrı-ayrı ölkələr tərəf müqabillərdən ticarət – İqtisadi və siyasi güzəştlər əldə etmək üçün də istifadə edirlər. Belə güzəştlərə misal olaraq, müəyyən məqsədlərlə hər hansı ölkə mallarına idxal rüsumlarının aşağı salınması, qeyri-tarif məhdudiyyətlərinin zəiflədilməsini göstərmək olar. Belə güzəşlər adətən ikitərəfli və çoxtərəfli razılaşmalar hesabına əldə edilir və bunun nəticəsində əhəmiyyətli üstünlüklər qazanılır.

Gömrük tarifinin xarici ticarət münasibətlərinin və bütövlükdə İqtisadiyyata təsirinin xüsusiyyətləri dövlət orqanlarından rüsum stavkalarının təyin edilməsi prosesində xüsusi məsuliyyət tələb edir. Bu sahədə oxşar inkişaf yolu keçmiş ölkələrin təcrübəsindən istifadə edilməsi bir sıra yanlışlıqlardan qaçmağa imkan verər. Belə ki, müxtəlif ölkələrin tətbiq etdiyi tarif tənzimləmələrində ümumi xüsusiyyətlər çoxdur.

Araşdırmalar onu göstərir ki, gömrük rüsumları stavkası ilə ölkənin inkişaf səviyyəsi arasında qarşılıqlı əlaqə mövcuddur. Əksər hallarda ölkənin inkişaf səviyyəsi nə qədər yüksək olarsa, gömrük vergi və rüsumlarının dərəcələri bir o qədər aşağı olur. Bunun əsas səbəbi aşağıdakılardır;

- IEÖ-in istehsal etdiyi mallar dünya bazarında eləcə də daxili bazarda yaxşı rəqabət qabiliyyətinə malik olduqları üçün dövlətin milli istehsalı və istehsalçıları qorumaq üçün elə də ciddi proteksionist tədbirlər həyata keçirməyə ehtiyac qalmır.
- IEÖ-in büdcələri kifayət qədər gəlirli olduğu üçün onu gömrük vergiləri hesabına doldurmaq nüfuzuna xələl gətirə bilər.
- ÜTT və bir sıra digər təşkilatların üzvlərinin əksəriyyəti IEÖ-dir ki, belə təşkilatların tələblərindən biri də aşağı vergilərdir.

Ədəbiyyatlarda, daha doğrusu mənbələrdə göstərilir ki, IEOÖ qrupuna rüsumların dərəcələri 20-50% arasındadırsa, IEÖ –də bu 10%-dən aşağıdır[1].

[1] **QEYD:** Hətta bəzi mal növləri üzrə İEOÖ -də gömrük rüsumları 50, bəzən də 100 faizdən artıq olur.

Onu da qeyd etmək yerinə düşərdi ki, ölkəmizdə dəbeynəlxalq mal mübadiləsinə qoşulmaq , daha çox inteqrasiya etmək üçün rüsumların azaldılması, bəzən də tam imtina olunması siyasəti aparılır.

Ümumilikdə gömrük vergiləri və rüsumları İqtisadiyyata necə təsir edir və tənzimləmə mexanizmi kimi gömrük vergilərindən necə istifadə edilir? Bu suallara cavab vermək üçün ilk növbədə gömrük vergilərinin məqsədlərinə nəzər salmaq lazımdır ki, bu da gömrük tarifinin məqsədləri ilə üst-üstə düşür.

Gömrük tarifinin **məqsədləri** aşağıdakılardır;

1. Azərbaycan Respublikası gömrük ərazisinə idxalın əmtəə strukturunun səmərəliləşdirmək.
2. Idxalın və ixracın, eləcə də valyuta gəlirinin və xərclərinin əlverişli nisbətini təmin etmək.
3. Valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və çıxarılması üzərində nəzarət
4. Azərbaycanda malların istehsalı və istehlakının stukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq.
5. Azərbaycan Respublikasında İqtisadiyyatı xarici rəqabətin mənfi təsirindən qorumaq.
6. Azərbaycan Respublikası İqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Yeri gəlmişkən onu da qeyd edək ki, türk ədəbiyyatlarında gömrük vergilərini məqsədlərinə görə iki istiqamətə bölürlər[2];

- Əsasən büdcəyə gəlir gətirmək məqsədi güdən vergilər. Belə vergilər adətən xalqın daha çox istehlak etdiyi mallara tətbiq edilir.
- Qoruma məqsədli vergilər. Bu vergilər idxal mallara ölkə içərisindəki yüksək qiymətlə daha aşağı dünya bazarındakı qiymət arasındakı fərq qədər qoyulur və idxalın qarşısını almağa yönəlir.

Gömrük vergilərinin İqtisadi təsirlərini nəzəri olaraq araşdırdıqdan sonra bu təsirin mexanizmini və dinamikasını praktik cəhətdən əsaslandırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, gömrük vergisinin əsasən istehsala, istehlaka, xari**c**i ti**c**arətə, gəlirlərə və yenidən bölgüyə qoyulması təsiri özünü büruzə verir.

1. Istehsala təsir—gömrük vergiləri idxal malın Azərbaycan bazarında qiymətlərini yüksəldir, bununla da xarici rəqabətdən qorunan daxili istehsal artır. Bu vəziyyət daxili resursların israfolunmasına səbəb olur, nəticədə yerli istehsalçılar idxala rəqib malları istehsal etmək üçün lazımı resursları ixracdan kəsir. Qeyd etmək lazımdır ki, Azərbay**c**anda resurslar kifayət qədər olduğundan ixra**c** bir o qədər təsirə məruz qalmır. Istehlaka təsir—gömrük vergiləri daxili qiyməti yüksəldərək bir yandan yerli istehsalı stimullaşdırarkən, digər tərəfdən istehlakın azalmasına səbəb olur.

[2] Mənbə: "Gümrük Tarifeleri"/altıncı bölüm/Ankara 2000/ sayfa 3

2. Xarici ticarətə təsiri—istehsaldakı artım və istehlakdakı azalış nəticəsində idxaldakı daralma, yəni xarici ticarət təsiri KS+UR qədərdir.

3. Gəlirlərə təsiri-gömrük vergiləri idxalat həcmini sıfıra endirəcək qədər yüksək olmadıqca büdcəyə gəlir verir.

4. Yenidən bölgüyə təsirləri-gömrük vergiləri gəlirlərin istehlakçıdan istehsalçıya doğru yenidən bölgüsünə səbəb olur.

Ölkə İqtisadiyyatı ümumi daxili məhsulun və burada özəl bölmənin xüsusi çəkisinin artımlı, inflyasiyanın idarə olunan səviyyədə saxlanması və büdcə kəsirinin azalması, xarici ticarət dövriyyəsində müsbət saldonun mövcudluğu, ölkənin valyuta ehtiyatlarının, İqtisadiyyata investisiya qoyuluşunun həcminin artması və tətbiqi sahələrinin genişlənməsi, habelə özəlləşmə proqramının uğurla həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə bazar münasibətlərinin qurulması və bütövlükdə İqtisadi islahatlar yüksələn xətlə gedir.

Bütün bunlar İqtisadi siyasətdə yeni bir mərhələnin başlandığını göstərir. Bu isə sərt monetar siyasətin tədricən yumşaldılmasını, ikincisi, özəl sektora təsir edən başlıca vasitələr-vergi və gömrük mexanizmindən istifadə edilərək sahibkarlığın inkişafı, daxili bazarın və yerli istehsalçıların maraqlarının qorunması və onların məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi, ixracın stimullaşdırılması və bununla da büdcə gəlirlərinin başlıca hissəsinin daxili vergilər hesabına formalaşmasının təmin edilməsini, üçüncüsü, orta və böyük özəlləşmənin qəbul edilmiş proqrama uyğun aparılması və mövcud idarəetmə sisteminin daha da təkmilləşdirilməsini, dördüncüsü isə neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna da qoyulan ticarət və investisyaların artırıması məqsədilə rəqabət mühitinin yaxşılaşdırılmasını labüd edir.

Xarici ticarət əlaqələrinin liberallaşması və İqtisadiyyatın açıqlığı gömrük tarif tənzimlənməsi mexanizminin reallaşmasına şərait yaratmışdır. İqtisadiyyatın tənzimlənməsində, sosial-İqtisadi proseslərin idarə edilməsində gömrük vergilərinin yeri və rolunu qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə etmək məqsədəuyğundur;

1. Gömrük ödəmələrinin idxal və ixracdan asılılığını xarakterizə edən **gömrük daxilolmalarının səviyyəsi**.Bu aşağıdakı formula il hesablanır:

$$GDS = \frac{\text{GD}}{\text{İX} + \text{İD}} \cdot 100$$

Burada: GDS-gömrük daxilolmalarının səviyyəsi; GD-daxilolmaları-nın həcmi, IX-ixracın həcmi; ID-idxalın həcmidir.

2. Ümumi daxili məhsula görə **gömrük daxilolmalrının elastikliyi.** Bu göstərici aşağıdakı şəkildə hesablanır:

$$E = \frac{GD1 - GD0}{GD0} \div \frac{UDM1 - UDM}{UDM0}$$

Burada: E-Ümumi daxili məhsula görə, gömrük daxilolmalarının elastikiliyni, GD0 və GD1-müvafiq olaraq cari və əsas dövrdə Ümimi daxili məhsulun həcmini göstərir.

3. Gömrük vergilərinin keyfiyyət dəyişikliyini səciyyələndirən **gömrük dərəcəsinin həddi**.Bu göstərici aşağıdakı şəkildə ifadə olunur.

$$GDH = \frac{GD1 - GD0}{(İX1 + İD1) - (İX0 + İD0)} * 100$$

Bu göstəriciləri qarşılıqlı əlaqədə və dinamikada təhlil etməklə gömrük vergilərinin İqtisadiyyatın digər sosial –İqtisadi göstəricilərinə təsirini qiymətləndirmək olar.

5.3. Büdcə gəlirlərində gömrük vergilərinin təkmilləşdirilməsi istiqamətləri

İqtisadi təhlükəsizliyin və İqtisadi suverenliyin təmin edilməsi İqtisadi və inzibati metodlarla, habelə xarici ticarətin tam liberallaşdırılmasına əsaslanan tarif və qeyri-tarif üsulu ilə həyata keçirilir. İqtisadi metodlarla dövlət tənzimlənməsi xarici İqtisadi siyasət sahəsində İqtisadi vasitələrin öyrənilməsinə və tətbiqinə əsaslanır. Bu üsulları tətbiq etməklə, dövlət xarici İqtisadi fəaliyyətlə məşğul olan subyektlərin maraqlarına əhəmiyyətli dərəcədə təsir göstərir.

Inzibati üsullar – cəmiyyətin maraqlarına uyğun olaraq dövlətin qəbul edilmiş qanun və müəyyən edilmiş normativlərə əsasən xarici İqtisadi fəaliyyət subyektlərinə təsiridir.

Tarif metodu - xarici İqtisadi fəaliyyətin əsas tənzimləmə vasitəsidir. İqtisadi tənzimləmə metodlarından fərqli olaraq gömrük - tarif tənzimlənməsi istisna hal kimi qiymətləndirilir. Tarif tənzimlənməsi daxili bazarın xarici rəqabətdən müdafiəsinə yönəldilir və bu prosesdə idxal rüsumları həlledici rol oynayır.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin digər bir üsulu qeyri-tarif tənzimlənməsidir.

Beynəlxalq aləmdə xarici İqtisadi fəaliyyətin qeyri-tarif tənzimlənməsinin 50-dən çox üsulu vardır. Bunlara müxtəlif vergi və yığımların, xarici İqtisadi fəaliyyətin kəmiyyət məhdudiyyətlərinin reqlamentləşdirilməsi, lisenziyalaşması, təhlükəsizliyin milli standartları, ekoloji normaları və s. aid edilir.

Xarici ticarət kvotası müəyyən bir dövrə ayrı-ayrı məhsul və xidmət növü, habelə ölkələr və ölkələr qrupu üzrə idxalın (ixracın) həcminə tətbiq edilən məhdudiyyətlərdir.

Kvotalaşdırma proteksionist tarif tədbirindən fərqli olaraq tədiyə balansı kəsirinin azaldılmasında daha səmərəli vasitədir. Gömrük tarifindən fərqli olaraq kvotadan istifadə idxalın (ixracın) həcminin məhdudlaşdırılmasının daha dəqiq həyata keçirilməsinə şərait yaradır. Məsələn, idxal rüsumlarının

artırılması ödənişlərin ümumi məbləğinin artmasına səbəb ola bilər. Lakin bu artım idxalın həcminə təsir etməyə bilər, idxala kvotanın tətbiqi isə onun azalmasına təminat verir. Digər tərəfdən idxala kvotanın tətbiq edilməsi daxili bazarda həmin məhsula rəqabət olduqda müsbət səmərə verə bilər. Əks halda daxili bazarı inhisarlaşdıran müəssisə yüksək qiymətlərin saxlanmasına və süni şəkildə həmin məhsulun qıtlığının yaradılmasına maraqlı olacaqdır.

Dünya bazarına nisbətən ölkə daxilində hər hansı bir əmtəənin qiyməti aşağı olduğu halda ixracın kvotalaşdırılmasından istifadə edilir. Ixracа məhdudiyyətlər tətbiq edilmədiyi halda daxili bazarda həmin məhsulun çatışmazlığı müşahidə edilə bilər.

Demək olar ki, xarici İqtisadi fəaliyyətin tənzimlənməsi metodları bütün dünya ölkələrində eynidir. Yalnız müəyyən bir ölkənin beynəlxalq aləmdə nüfuzuna, tutduğu mövqeyə, onun daxili və xarici siyasətinə, məqsəd və vəzifələrinə əsasən bu metodlar bir-birindən fərqlənir.

Xarici İqtisadi fəaliyyətdə gömrük siyasəti əsasən gömrük - tarif tənzimlənməsi metodu ilə həyata keçirilir. Bazar prinsipləri əsasında İqtisadiyyatını inkişaf etdirən Azərbaycan Respublikası da beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən bəhrələnərək müxtəlif dövlətlərlə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi sahəsində mühüm addımlar atır. Bu baxımdan daxili istehsala daha münbit şərait yaradılması, ölkə İqtisadiyyatının xarici rəqabətin mənfi təsirindən qorunması, habelə xarici və yerli sahibkarların mənafeyinin müdafiəsini təmin etmək məqsədilə respublikamızda bir sıra gömrük-tarif tənzimlənməsi metodları həyata keçirilmiş, xarici İqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraitinin yaradılması məqsədilə gömrük orqanları tərəfindən bir sıra işlər görülmüşdür.

Bu tədbirlərə gömrük işi sahəsində mövcud qanunvericiliklə müəyyən edilmiş rüsum və vergilərin tətbiqi, onların səmərəliliyinin yüksəldilməsi, dövlət büdcəsinə alınması mexanizminin təkmilləşdirilməsi aiddir. Eyni zamanda, müxtəlif mal qrupları üzrə gömrük idxal rüsumlarının azaldılması, ölkədə istehsal edilən bəzi mal qrupları üzrə isə əksinə yüksəldilməsi, ölkəyə gətirilən müəyyən malların gömrük rəsmiləşdirilməsinin sadələşdirilmiş sisteminə keçirilməsi, müxtəlif ölkələrlə işgüzar əlaqələrin artırılması, ölkələrarası ticarət əlaqələrinin daha da intensivləşdirilməsi məqsədilə bir sıra yeni gömrük məntəqələrinin qurulması və s. kimi məsələlərin həlli obyektiv zərurətə çevrilmişdir.

Gömrük tarifləri bütün ölkələrdə tətbiq edilən və bütün mal qruplarını əhatə edən xarici ticarət münasibətlərinin yeganə İqtisadi tənzimləmə vasitəsidir. Idxalın və eləcə də ixracın səmərəli şəkildə tənzimlənməsində gömrük tariflərinin rolu böyükdür. İqtisadi inteqrasiya proseslərinin nəticəsi olaraq gömrük tarifləri İqtisadi birlik ölkələrinin xarici ticarət münasibətlərinin ümumi qaydada tənzimlənməsində tətbiq edilir.

Gömrük tariflərinin mühüm funksiyası kompleks vasitələr tətbiq etməklə İqtisadiyyatı tənzimləməkdir. Bu vasitələrin tərkibində gömrük rüsumları mühüm əhəmiyyət kəsb edir. Tə**c**rübədə gömrük rüsumları aşağıdakı kimi qiymətləndirilir: idxal gömrük rüsumu, ixra**c** gömrük rüsumu, tranzit gömrük rüsumu.

Idxal gömrük rüsumu ölkəyə xari**c**i malın idxalı zamanı alınır. Onun tətbiqi ölkə daxilində xari**c**i malların qiymətlərinin qalxmasına səbəb olur və yerli mallarla müqayisədə onların rəqabət qabiliyyətini aşağı salır;

Ixra**c** gömrük rüsumu ölkə mallarının xari**c**ə aparılması ilə əlaqədar alınan rüsumdur. Belə rüsumun alınması xari**c**i İqtisadi fəaliyyət hesabına dövlət büd**c**əsi gəlirlərinin artırılmasını təmin edir və ixra**c**da mənfəətin azalması hesabına daxili bazara malların gətirilməsini stimullaşdırır.

Tranzit gömrük rüsumu ölkə ərizisindən keçirilən xari**c**i mallara görə alınan rüsumdur.

Beynəlxalq tranzit istiqaməti və son məntəqələri ölkə xari**c**ində olan daşımalardır. Belə daşımalardan daxil olan gəlir dövlət büd**c**əsinin aktiv maddələridir. **C**oğrafi yerləşməsinə görə hazırda mühüm tranzit ölkələr Almaniya, Isveçrə, Rusiya və s. hesab olunur.

Gömrük rüsumları vasitəsilə qiymət nisbətlərini tənzimləmək üçün aşağıdakı növ rüsumlar tətbiq oluna bilər:

- xüsusi rüsumlar; antidempinq, kompensasiya rüsumları, mövsümi rüsumlar.

Xüsusi rüsumlardan külli miqdarda idxal olunan və bununla da eyni adlı malların istehsalı ilə məşğul olan yerli istehsalçıların mənafeyinə zərər vurmaq ehtimalı olan hallarda müdafiə tədbiri kimi istifadə olunur. Bu rüsumdan rezidentlərin maraqlarına xələl gətirən və digər fövqəladə hallarda dövlətlərə və ya dövlətlər birliyinə qarşı **c**avab tədbiri kimi istifadə olunur.

Antidempinq rüsumlar - idxal edilən malların üzərinə qoyulan əlavə rüsumlardır. Bu **c**ür rüsumlar dünya bazarında tətbiq edilən normal qiymətlərdən aşağı və ya idxal olunduğu ölkənin daxili qiymətlərindən aşağı qiymətlər üzrə gətirilən mallara tətbiq edilir. Belə malların gətirilməsi eyniadlı yerli malların istehsalçılarına və ya həmin malların istehsalının təşkilinə və genişləndirilməsinə zərər vurursa və ya zərər vura bilərsə onda qeyd edilən rüsumlardan istifadə edilir.

Kompensasiya gömrük rüsumları - yüksək hədlərdə tətbiq olunan rüsumlardır. Bunlar daxili istehsal və idxal mallarının qiymətlərindəki fərqi kompensasiya etmək məqsədilə tətbiq edilir.

Ölkə ərazisindən çıxarılan və buraya gətirilən ayrı-ayrı malların operativ surətdə tənzim edilməsi məqsədi ilə mövsümi gömrük rüsumları tətbiq olunur. Mövsümi rüsumların dərə**c**ələri Azərbay**c**an Respublikası Nazirlər Kabineti tərəfindən tətbiq olunur. Bu rüsumlar ilin altı ayı ərzində qüvvədə olur. Bu halda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumu dərə**c**ələri tətbiq olunmur.

Gömrük tarifləri dövlətlərarası beynəlxalq ticarət sazişlərinin prinsipləri və normativ aktlarına uyğun olaraq işlənilir. Xarici İqtisadi fəaliyyətin tənzimlənməsində gömrük tariflərinin yerinə yetirdiyi funksiyalar aşağıdakılardan ibarətdir:

- gömrük tarifi daxili bazarı proteksionist üsullarla qoruyur. Belə ki, proteksionizm xaricdən gətirilən mallara tələbi azaldır, yerli istehsalçılar tərəfindən istehsal edilmiş məhsulların satışını stimullaşdırır. Bu isə müəssisələrin müflisləşmə təhlükəsini azaldır, eləcə də işsizliyin qarşısının alınmasına səbəb olur;
- gömrük tarifi milli istehsalın və ixracın inkişafına stimul yaradır;
- yerli istehsalçılara münbit şərait yaratmaqla qiymətə birbaşa təsir edir.

Gömrük tarifi rəqiblərlə ticarət-siyasi razılaşmaların əldə edilməsi vasitəsi kimi istifadə edilir. Bu, rüsumların qarşılıqlı azaldılması, yaxud da idxala məhdudiyyətlərin yumşaldılması formasında həyata keçirilir;

- gömrük tarifi ixracın inkişaf etdirilməsi maraqlarına uyğun olaraq müəyyən ixrac məhsullarının hazırlanması üçün nəzərdə tutulmuş mal və avadanlıqların idxalına birtərəfli rüsumsuz gömrük mühiti yaradılması zamanı tətbiq edilir;
- yüklərin gömrük sərhəddindən keçirilməsi zamanı ciddi dövlət nəzarətinin təmin edilməsi vasitəsi kimi gömrük tariflərindən istifadə edilir;
- gömrük tarifləri bütün ölkələr üçün xarakterik olaraq fiskal funksiyanı həyata keçirməklə, dövlət büdcəsinə pul vəsaitlərinin daxil olması mənbəyi kimi çıxış edir.

Respublikamızın müstəqillik əldə etdiyi 10 ildən artıq müddət ərzində ictimai - siyasi proseslərin nəticəsi olaraq xarici ticarətin liberallaşdırılması və xarici İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi prosesi müəyyən qədər ləng getmiş, 1995-ci ildə «Gömrük tarifi haqqında» AR-nın qəbul edilmiş qanunu yalnız 1997-ci ildə qüvvəyə minmişdir ki, bu da bazar münasibətlərinin inkişafına mənfi təsirini göstərmişdir. Hazırda respublikamızda gömrük-tarif tənzimlənməsi İqtisadiyyatın inkişafına, daxili bazarın xarici rəqabətin mənfi təsirindən qorunmasına yönəldilmişdir. Lakin inkişaf etmiş ölkələrin təcrübəsinin təhlili onu göstərir ki, bazar İqtisadiyyatı şəraitində istehsalın səviyyəsini gömrük tariflərinin azaldılması və ya artırılması ilə deyil, sağlam rəqabətin təmin edilməsi ilə yüksəltmək olar. Elmi-texniki tərəqqinin müasir inkişaf səviyyəsi fasiləsiz olaraq əmtəənin keyfiyyətinin artırılması və təkmilləşdirilməsini, istehsal məsrəflərinin isə azaldılmasını tələb edir. Əks halda, köhnəlmiş texnoloci avadanlıqlar artan tələbi ödəmək qabiliyyətində olmadığı üçün bu və ya digər məhsula alıcı marağı azalır, ayrı-ayrı istehsal sahələri rəqabətə davam gətirmədiyindən istehsalını dayandırır. Müasir dövrdə ölkəmizdə geniş istehlakçı kütləsinin yüksək keyfiyyətə malik mallara ehtiyacı vardır. Bu isə əsasən xaricdən idxal olunan mallar hesabına təmin edilir. Belə bir vəziyyət azrentabelli istehsal sahələrinin fəaliyyətinin dayandırılmasına, işsizliyin artmasına, sosial gərginliyin güclənməsinə səbəb olur. Bu baxımdan,

dövlət yerli bazarın və milli istehsalçıların mənafeyini qorumalıdır. Əgər bu proses bazar qanunlarına uyğun aparılmazsa istehlakçıların keyfiyyətli xammal və məhsullarından məhrum edilməsinə, İqtisadiyyatın yüksək səviyyədə inhisarlaşdırılmasına gətirib çıxara bilər.

Müasir dövrdə proteksionizmin bir neçə forması yaranmışdır:

- selektiv (seçmə) proteksionizm - hər hansı bir ölkə və ya əmtəəyə qarşı yönəldilir;
- sahəvi proteksionizm - İqtisadiyyatın müəyyən sahələrinin müdafiəsinə istiqamətlənir;
- kollektiv proteksionizm - hər hansı bir quruma, birliyə daxil olan ölkələrin digər quruma üzv olan ölkələrə, yaxud da həmin birliyə daxil olmayan ölkələrə qarşı yönəldilir;
- gizli proteksionizm - ölkədaxili İqtisadi siyasətdə nəzərdə tutulan metodlarla həyata keçirilir. Bu metodlarla İqtisadiyyatın tənzimlənməsinə, əsasən inkişaf etməkdə olan ölkələr daha çox üstünlük verir.

Proteksionizmdən fərqli olaraq azad- bazar siyasəti xarici malların ölkəyə minimum gömrük rüsumları ilə idxalına istiqamətlənir ki, bu da müəyyən növ məhsul istehsalçıları arasında rəqabəti kəskinləşdirir.

«Gömrük Tarifi haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən ölkəmizdə 3 növ gömrük rüsumları tətbiq edilir; advalor, spesifik və kombinə edilmiş rüsumlar.

Advalor rüsum malların gömrük dəyərinə görə müəyyən faizlə, spesifik rüsumlar mal vahidinə görə müəyyən edilmiş dəyərlə, kombinə edilmiş rüsumlar isə hər iki növü birləşdirməklə hesablanır.

Beynəlxalq praktikada advalor üsul müəyyən müsbət xüsusiyyətlərə malik olmaqla daha çox tətbiq edilir.

Əvvəla, malın gömrük dəyəri neçədirsə, rüsumlar da ona uyğun hesablanır. Ikincisi, advalor rüsum növü İqtisadiyyatda baş verən prosESlərə adekvat reaksiya göstərir. Belə ki, hesablanan rüsumda inflyasiya faizi avtomatik olaraq nəzərə alınır.

Spesifik rüsum mal vahidinə görə hesablanır ki, bu da əsasən keçid İqtisadiyyatlı ölkələr üçün xarakterik haldır. Bu rüsum növünün tətbiqi qaçqalmalçılıq, gömrük qaydalarının pozulması, malın gömrük dəyərinin düzgün müəyyən edilməməsinin qarşısının alınmasına yönəldilir.

Kombinə edilmiş rüsumlar yuxarıda adları çəkilən iki rüsum növündən istifadə etməklə alınan rüsumlardır. Belə rüsumlar malın gömrük dəyərindən müəyyən faizlə, lakin malın hər ədədinə görə, müəyyən edilmiş sabit ölçüdən az olmamaq şərtilə alınır. Kombinə edilmiş rüsumlar idxalçılar tərəfindən gömrük dəyərinin aşağı salınmasında meydana çıxan itkilərin qarşısının alınması üçün tətbiq edilir. Belə rüsumlardan avtomobillər, televizorlar, xəz-dəri məmulatları, mebel, saatlar və s. üçün istifadə edilir.

Ölkəmizdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 fevral 1998-ci il tarixli qərarı ilə bir sıra mallara, o cümlədən spirtli və spirtsiz içkilərə,

işlənmiş avtomaşınlara kombinə edilmiş rüsum növü tətbiq edilir. Lakin daha sonra beynəlxalq təcrübəyə müvafiq olaraq ölkənin İqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük-tarif tənzimlənməsi tədbiri kimi differensiallaşdırılmış tarif sisteminə uyğun gömrük tarifi müəyyən edilmiş, Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli, 80 saylı qərarı ilə «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri» və «Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı» təsdiq edilmişdir. Bu qərarlara uyğun olaraq kombinə edilmiş rüsum növünün tətbiqi ləğv edilmiş, qeyd edilən çeşiddə mallara spesifik rüsumun tətbiqinə başlanmışdır. Bildiyimiz kimi, respublikamızda sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması və tətbiq edilən gömrük - tarif sisteminin təkmilləşdirilməsi məqsədilə gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planı işlənib hazırlanmışdır. Bu məqsədlə 4 mərhələli qrafik hazırlanmışdır ki, bu qrafikə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarı ilə 5 mal mövqeyi üzrə spesifik rüsumlar advalor rüsumlarla əvəz edilmişdir. Bu planın əsas mahiyyəti, 2004-cü ilə qədər respublikada tətbiq edilən bütün rüsum növlərinin tədricən advalor rüsumlarla əvəz edilməsidir.

Azərbaycan Respublikasının ərazisində tətbiq olunan gömrük dəyərinin müəyyən olunması sistemi üzrə normativ baza, ölkənin gömrük siyasətinə uyğun olaraq hazırlanmış və bu günün tələblərinə tam şəkildə cavab verir. Çünki gömrük siyasəti beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldiyi kimi, gömrük dəyərləndirilməsi üzrə normativ sənədlərin hazırlanması da hamılıqla qəbul edilmiş beynəlxalq normalara və təcrübələrə əsaslanmışdır. Belə ki, «Gömrük Tarifi haqqında» Azərbaycan Respublikası Qanununun gömrük dəyərləndirilməsi ilə bağlı 3-4-cü fəsilləri və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları» Tarif və Ticarət üzrə Baş Sazişin VII maddəsinin ümumi prinsiplərinə uyğun olaraq hazırlanmışdır.

Bu qaydalara əsasən ölkələr arasında ixrac-idxal əməliyyatları zamanı malların dəyərini müəyyən etmək üçün 6 dəyərləndirmə üsulu və beynəlxalq təcrübədə tətbiqi nəzərdə tutulan şərtlər qəbul olunmuşdur. Bir sözlə, malların idxalı və ixracı zamanı gömrük dəyərinin müəyyən edilməsinin beynəlxalq prinsipləri qəbul edilmişdir.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və beynəlxalq normalara əsasən 1979-cu il aprelin 12-də Cenevrədə imzalanmış «Gömrük qiymətləndirilməsi qaydaları»na uyğun olaraq 6 üsul öz ifadəsini tapmışdır. Onların tətbiqi şərtləri «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan

malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları»nda nəzərə alınmışdır:

- Gömrük orqanları arasında informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı üzrə «Azərbay**c**an Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gü**c**ləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması» layihəsinə əsasən qurulmuş «On-line» recimindən faydalanaraq Komitənin Statistika və Informasiya Texnologiyaları Idarəsi ilə qarşılıqlı əlaqələrin qurulması nəti**c**əsində gömrük dəyərləndirilməsi üzrə yerli gömrük orqanları ilə mərkəzi aparatın operativ əlaqə və zəruri koordinasiya mərkəzi yaradılmışdır. Bu da öz növbəsində yerli gömrük orqanlarında gömrük rəsmiləşdirilməsindən keçmiş malların və nəqliyyat vasitələrinin gömrük dəyərinə nəzarət olunmasına imkan verir.

Qeyd etmək lazımdır ki, ixra**c**-idxal sövdələşmələri bağlanılarkən düzgün istiqamətin seçilməsi zəruri şərtdir. Məsələn, buğda üçün «nüfuzlu dünya bazar dəyəri» Kanadanın ixra**c** dəyəri, neft üçün «Brent» birca dəyəri, əsas əlvan metallara – London metal bircasının qiymətləri və s. götürülür.

Əgər xammal, yana**c**aq, metal və sair yarımfabrikatlar üzrə dünya bazar qiymətləri anlayışı kifayət qədər müəyyənlik xarakteri daşıyırsa da, bunu hazır sənaye məhsullarına nisbətdə demək bir qədər çətindir. Belə ki, onların çoxluğu və müxtəlifliyi, komplektləşdirilməsində, texniki və keyfiyyət xarakteristikasındakı fərqlər, çeşidlərin qısa müddət ərzində yeniləşdirilməsi və bir çox başqa amillər bu mallara müəyyən edilmiş qiymətlərin müqayisə edilməsi prosesini olduq**c**a çətinləşdirir və bu halda hazır məhsula dünya bazar qiymətləri özlüyündə şərti xarakter daşıyır. Bununla belə bu sahədə dünya bazar qiymətləri qismində bu bazara hazır məhsulun konkret tip və növlərinin istehsalçılarının və tə**c**hizatçılarının ixra**c** qiymətlilərinin hesab olunması qəbul edilmişdir. Hazırda bu bir qayda olaraq sənaye **c**əhətdən inkişaf etmiş ölkələrin iri firmaları, transmilli korporasiyalardır.

Yuxarıda qeyd olunan beynəlxalq prinsiplər və Gömrük Qiymətləndirmə Məlumatlarının Mübadiləsinə həsr olunmuş Beynəlxalq Gömrük Təşkilatı (12-13 sentyabr 2002-**c**i il Pretoriya, **C**ənubi Afrika) Konfransının yekun qərarına uyğun olaraq, malların gömrük dəyərinin müəyyən olunmasında istifadə olunan məlumat xarakterli qiymət-məlumat bazası və birca dəyərləri işlənib hazırlanmışdır.

Hazırda qüvvədə olan Azərbay**c**an Respublikasının Gömrük Mə**c**əlləsinin 115-**c**i maddəsinə əsasən, gömrük rüsumunun, aksizlərin və gömrük yığımlarının hesablanması üçün «Gömrük Tarifi haqqında» Azərbay**c**an Respublikası Qanununa uyğun olaraq müəyyən edilən malların və nəqliyyat vasitələrinin gömrük dəyəri əsas götürülür. Deməli, gömrük məqsədləri üçün vergitutma bazasının müəyyən olunmasında əsas vəzifələrdən biri malların və nəqliyyat vasitələrinin gömrük dəyərinin düzgün müəyyən edilməsidir.

Respublikamızda idxal olunan malların gömrük qiymətləndirilməsinin normativ bazası sistemi «Gömrük Tarifi haqqında» Azərbay**c**an Respublikası Qanunu, «Azərbay**c**an Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları», elə**c**ə də «Azərbay**c**an Respublikasının gömrük ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan olunmasının qayda və şərtləri haqqında Əsasnamə» və «Gömrük dəyər bəyannaməsinin doldurulmasına dair Təlimat»-dan ibarətdir.

«Gömrük tarifi haqqında» Azərbay**c**an Respublikası Qanununun 12-**c**i maddəsinin 1-**c**i bəndinə əsasən, gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük dəyəri deklarant tərəfindən ərazi üzrə yerləşdiyi gömrük orqanlarına bəyan edilir. Birmənalı şəkildə demək lazımdır ki, malların gömrük dəyəri mövcud qanunveri**c**iliyə uyğun olaraq deklarant tərəfindən müəyyən olunur. Həmin maddənin 4-**c**ü bəndinə əsasən, Azərbay**c**an Respulikasının gömrük orqanları deklarant tərəfindən qanunda nəzərdə tutulmuş üsullara uyğun olaraq müəyyən edilən gömrük dəyərinin düzgünlüyünə nəzarət edir. Qeyd etmək lazımdır ki, deklarant tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyəti təyin oluna bilən sənədlərlə təsdiq edilməlidir.

Bəyan edilmiş gömrük dəyərinin dəqiqləşdirilməsi və ya gömrük orqanına əlavə məlumatların təqdim edilməsi ilə bağlı xər**c**lər deklarant tərəfindən ödənilməlidir.

«Gömrük tarifi haqqında» Azərbay**c**an Respublikası Qanununun 19-**c**u və 20-**c**i maddələrinə əsasən, eyni və eyni**c**insli malların sövdələşmə qiyməti üsulları, yəni 2-**c**i və 3-**c**ü üsullar tətbiq edilərkən müqayisə üçün analoqların seçilməsində malların mənşə ölkəsi mühüm rol oynayır. Təbii ki, başqa üsulların tətbiqi zamanı malların bu və ya digər ölkədə istehsal olunması onların dəyərinin formalaşması baxımından araşdırılmalı və gömrük qiymətləndirilməsinin obyektiv və neytral olması üçün mütləq nəzərə alınmalıdır. Avropa mənşəli mallarla digər regionlarda istehsal olunmuş malların gömrük dəyərinin strukturu, istehsal və daşınma xər**c**ləri baxımından müxtəliflik mövcuddur.

Qeyd etmək lazımdır ki, Azərbay**c**an Respublikası Hökuməti, Rusiya Federasiyası, Ukrayna, Gür**c**üstan və Qazaxıstan Respublikaları Hökumətləri arasında Azad ti**c**arət zonası yaradılması haqqında Dövlətlərarası Saziş bağlanmış və həmin Sazişlərdə və «Gömrük tarifi haqqında» Azərbay**c**an Respublikası Qanununun 35-**c**i maddəsində nəzərdə tutulduğu kimi, bu dövlətlərdən idxal olunan mallar gömrük rüsumlarından azad olunmuşdur. Digər MDB respublikalarında isə idxal olunan mallara gömrük vergi və rüsumları ümumi qayda ilə hesablanır.

Qeyd etmək lazımdır ki, ölkənin İqtisadi təhlükəsizliyinin və milli təsərrüfatın səmərəli müdafiəsinin təmin edilməsində gömrük-tariflərinin əhəmiyyətli rolu vardır. Bu problemin uğurlu həllinin ən mühüm şərtlərindən biri gömrük-tarif tənzimlənməsinin təşkilati-İqtisadi mexanizminin hazırlanmasıdır. Bü-

tün bunları nəzərə alaraq bazar İqtisadiyyatının tələblərinə uyğun olaraq ölkənin gömrük-tarif tənzimlənməsinin təşkilati-İqtisadi mexanizminin ümumi sxemini aşağıdakı kimi vermək olar .

Sxemdən göründüyü kimi, gömrük – tarif tənzimlənməsinin təşkilati-İqtisadi mexanizmi bu işin təşkili ilə başlanır. Eyni zamanda burada gələcək dövr üçün gömrük tariflərinin proqnozlaşdırılması və planlaşdırılması və bunun xarici İqtisadi fəaliyyətlə bilavasitə bağlılığı məsələləri gömrük-tarif tənzimlənməsi sisteminin fəaliyyətinə nəzarətin təşkili ilə qarşılıqlı surətdə əlaqələndirilir. Əlbəttə ki, bundan sonra gömrük-tarif tənzimlənməsinin forma və metodları seçilir, gömrük ödənişlərinə güzəştlər nəzərə alınmaqla xarici İqtisadi fəaliyyətin stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Nəzarət prosesində isə malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi, onlara gömrük nəzarəti və gömrük ödəmələrinin vaxtında və tam ödənilməsi üzərində nəzarət həyata keçirilir. Həyata keçirilən proses büdcə gəlirlərinin formalaşmasına və xarici İqtisadi fəaliyyətə birbaşa təsir göstərir.

Sxem 2

Gömrük tarif tənzimlənməsi sistemi



Sxemdən göründüyü kimi, gömrük-tarif tənzimləmə sistemində tənzimləmənin əlverişli forma və metodlarının seçilməsi, nəzəri müddəaların işlənməsi, planlaşdırılması, proqnozlaşdırılması, səmərəli nəzarət sisteminin tətbiqi büd**c**ə gəlirlərinin formalaşmasına, xari**c**i İqtisadi fəaliyyətin stimullaşdırılmasına zəmin yaradar.

İqtisadiyyatın, xüsusilə idxal-ixra**c** əməliyyatlarının tənzimlənməsinin ən geniş yayılmış və mühüm vasitəsi kimi gömrük tarifləri çıxış edir. Onu da qeyd edək ki, son dövrlərdə İqtisadi **c**əhətdən inkişaf etmiş Ölkələrdə gömrük tariflərinin rolunun xeyli azalmasına baxmayaraq, İqtisadi dayaqları yeni**c**ə formalaşan gən**c** ölkə üçün gömrük-tarif tənzimlənməsinin müxtəlif formalarından istifadə edilməsi olduq**c**a va**c**ibdir.

İqtisadi **c**əhətdən inkişaf etmiş ölkələrin tə**c**rübəsi göstərir ki, əvvəllər idxal rüsumları əsasən fiskal funksiya yerinə yetirmiş və vergi daxil olmalarının xeyli hissəsini təmin etmişdir. Məsələn, XIX əsrin sonlarında ABŞ-da büd**c**ə

daxilolmalarının 50 %-ə qədərini idxal rüsumları təşkil etmişdir. Müasir dövrdə bu göstəri**c**i 1,5-2% arasında tərrəddüd edir. Deməli, İqtisadi inkişaf səviyyəsi aşağı olan və ya inkişaf etməkdə olan ölkələrdə idxal rüsumları əsasən fiskal funksiyanı yerinə yetirir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, İqtisadi inkişaf səviyyəsi bir-birindən əhəmiyyətli dərə**c**ədə fərqlənən dünya dövlətləri müxtəlif məqsədlərə (yerli istehsalın müdafiəsi, məşğulluğun zəruri səviyyəsinin saxlanması, yeni rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılması və s.) nail olmaq üçün bu və ya digər səviyyədə himayədarlığın həm tarif, həm də qeyri-tarif formalarından fəal istifadə edir. Odur ki, İqtisadi sistemini bazar münasibətlərinə trans-formasiya edən Azərbay**c**anın yerli istehsalı stimullaşdırmaq və məşğulluğun səviyyəsini artırmaq, yeni istehsal sahələrini müdafiə etmək, ölkənin İqtisadi təhlükəsizliyini təmin etmək, İqtisadi inkişafı tənzimləmək üçün gömrük tariflərinin bu və ya digər formasından geniş istifadə etməsi məqsədəuyğundur.

«Azərbay**c**an Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixra**c**ı zamanı kontrakt qiyməti ilə (ixra**c** xər**c**ləri çıxılmaqla) respublika daxili müəssisənin topdansatış qiyməti arasındakı fərqin büd**c**əyə alınması hissəsinin müəyyən edilməsi haqqında» Azərbay**c**an Respublikası Nazirlər Kabinetinin 10 aprel 1999-**c**u il tarixdə 64 saylı qərarı olmuşdur.

Qərarda göstərilir ki, «Ixra**c**at vergisi» haqqında Azərbay**c**an Respublikası Qanunun qüvvədən düşməsi və yeni qanunun tətbiq edilməsi haqqında Azərbay**c**an Respublikası Prezidentinin 1998-**c**i il 19 avqust tarixli 756 saylı fərmanına uyğun olaraq, Azərbay**c**an Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixra**c**ı zamanı kontrakt qiyməti ilə, respublikadaxili müəssisənin topdansatış qiyməti arasındakı fərqin 25,0 faizi dövlət büd**c**əsinə alınmalıdır.

Bundan başqa, «Azərbay**c**an Respublikasının ərazisində istehsal edilən və qiymətləri tənzimlənən məhsulların bəzi vergilərə **c**əlb edilməməsi haqqında» Azərbay**c**an Respublikasının Milli Mə**c**lisinin 23 iyun 1998-**c**i il tarixdə olan qanunu qüvvəyə minmişdir.

Konsiqnasiya yolu ilə ixra**c** əməliyyatları aparan xari**c**i hüquqi şəxslər və sahibkarlar bağlanmış müqavilələrə əsasən, respublika hüdudlarından kənarda satışı müəyyən müddət ərzində aparılan malların ixra**c**ını həyata keçirirlər.

Dövlət Gömrük Komitəsi bütün idxal-ixra**c** əməliyyatları üzrə, hər ayın hesabat dövründən sonrakı ayın 15-dən ge**c** olmayaraq – Azərbay**c**an Respub-likasının Nazirlər Kabinetinə, İqtisadi Inkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Milli Banka müəyyən edilmiş formada məlumatlar təqim edir.

«Azərbay**c**an Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə **c**əlb edilməsi haqqında» Azərbay**c**an Respublikası Nazirlər Kabinetinin 02 sentyabr 1997-**c**i il tarixli 101 saylı qərarı, 1997-**c**i ilin sentyabr ayının 15-dən qüvvəyə minmişdir.

Qərarda göstərilir ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin hüdudlarından kənarda istehsal edilmiş və Azərbay**c**an Respublikasına gətirilən, istehsal buraxılış tarixindən asılı olmayaraq, həmin avtomobillərin gömrük dəyərinin 15 faizi məbləğində aksiz vergisi tətbiq edilir. MDB üzvü olan ölkələrin istehsalı (mənşə sertifikatı) olan minik avtomobilləri, MDB ölkələri hüdudları kənarından gətirildikdə, aksiz vergisinə **c**əlb olunmurlar.

Azərbay**c**an Respublikasının ərazisinə gətirilən Müstəqil Dövlətlər Birliyinin hüdudlarından kənarda istehsal edilmiş mallar 01 sentyabr 1994-**c**ü il tarixdən etibarən əlavə dəyər vergisinə **c**əlb edilirlər.

Əlavə dəyər vergisi, sərbəst dönərli valyuta və ya manatla respublikanın dövlət büd**c**əsinə ödənilməlidir.

Ölkənin İqtisadi inkişafını sürətləndirmək məqsədilə xari**c**i investisiyaların respublikaya **c**əlb edilməsi mühüm vəzifələrdən biri kimi qarşıda durur. Kifayət qədər vəsaitə və müasir texnologiyaya ehtiya**c** olduğu üçün, inkişaf etmiş bir sıra dövlətlərin neft və qaz sənayesinin qabaq**c**ıl şirkətləri ilə Azərbay**c**anın yeraltı sərvətlərinin birgə istismarı barədə razılığa gəlinmişdir.

Son gövrdə respublikamız xari**c**i şirkətlərlə 25 müqavilə imzalamışdır. Bu müqavilələr üzrə investisiyaların gözlənilən məbləği 60 milyard dollara çatdırıla**c**aqdır. Bu gün Azərbay**c**an Respublikası xari**c**i şirkətlərlə birlikdə nefti «Azəri», «Çıraq», «Günəşli» yataqlarından çıxarır. Onların real ehtiyatı 600 milyon tondan çox hesab edilir. «Şahdəniz» qaz yatağının ehtiyatı isə 1 trilyon kubmetr hesab edilir. Istər podratçı, istərsə də subpodratçı tərəf kimi çıxış edən belə müəssisələrin vergiyə **c**əlb edilməsi üzrə olan bütün məsələlər bağlanmış kontraktlardakı xüsusi müddəalarla tənzimlənir. Azərbay**c**an Respublikasının «Vergi Mə**c**əlləsi» tətbiq edilməyən belə müəssisələr - xüsusi vergi recimli müəssisələr adlanırlar.

Qeyd etmək lazımdır ki, son dövrdə respublikanın xari**c**i İqtisadi əlaqələri genişlənmiş, xari**c**i iş adamlarının Azərbay**c**ana olan marağı artmışdır. Belə ki, xari**c**i sahibkarlar tərəfindən respublikada müştərək və xari**c**i investisiyalı müəssisələr yaradılmış və respublika İqtisadiyyatının inkişafına xari**c**i investisiya qoyuluşu artmışdır.

Bu baxımdan bazar İqtisadiyyatına keçid şəraitində vergi qanunveri**c**iliyində xari**c**i İqtisadi fəaliyyət sahəsində hüquqi və təşkilati məsələlərin təkmilləşdirilməsi məsələsi müstəsna rol oynayır.

Fikrimiz**c**ə, bu istiqamətdə həyata keçiriləcək tədbirlər sistemi kimi, gömrük keçid məntəqələrində «0» dərə**c**ə ilə ixra**c** olunan mallar xari**c**ə aparılarkən qeyri-rezidentlər tərəfindən həmin məhsulun alınması zamanı ödənilən ƏDV-nin qaytarılması və tətbiqi; malların təyinatından asılı olaraq ƏDV-nin differensial faizlərə keçilməsi - maksimum 15% olmaqla; gömrük vergi və rüsumlarının advalor sisteminə keçirilməsinin başa çatdırılması; daxili istehsalı qorumaq və stimullaşdırmaq məqsədilə yerli mallara analoci olan

mallar respublikaya gətirilərkən onlara yüksək gömrük vergisinin tətbiqi məqsədəuyğundur.

Hazırda Azərbay**c**anda da xari**c**i İqtisadi fəaliyyət sferasının vergi tənzimlənməsi mexanizminin hüquqi tənzimlənməsi prosesi gedir. Müasir dövrdə bu prosesi tənzimləyən normativ aktların strukturunu sxem kimi vermək olar.

Sxem 2

Azərbaycan Respublikasında xarici İqtisadi fəaliyyəti tənzimləyən hüquqi aktların quruluşu



Sxemdə təqdim olunan qanunveri**c**ilik aktları ilə yanaşı Azərbay**c**anda xari**c**i İqtisadi əlaqələrin səmərəli təşkili üçün əlverişli mühit formalaşdıran və XİF-in tənzimlənməsində mühüm rol oynayan digər qanunlar paketi də qəbul edilmişdir. Bunlardan «Müəssisələr haqqında», «Səhmdar **c**əmiyyət haqqında», «Sığorta fəaliyyəti haqqında», «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında», «Torpaq islahatı haqqında» Azərbay**c**an Respublikasının Qanunlarını və digərlərini göstərmək olar. Hal-hazırda «Müəssisələr haqqında», «Səhmdar **c**əmiyyət haqqında» qanunlar qüvvədən düşmüşdür.

Bütün bunlarla yanaşı, XİF-in hüquqi bazası üzrə Azərbay**c**an Respublikasının beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün əsas istiqamətlər də işlənilmişdir. Bu məqsədlə respublikamızın xari**c**i İqtisadi fəaliyyət sferasında

başqa dövlətlərlə İqtisadi münasibətlərin aşağıdakı başlıca prinsipləri də müəyyənləşdirilmişdir:

- dövlətlərin bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə riayət olunması;
- dövlətlərarası əlaqələrin qarşılıqlı fayda əsasında qurulması və əlverişli İqtisadi əməkdaşlığın formalaşması;
- beynəlxalq müqavilələrin və beynəlxalq hüquq normalarının ümumi prinsiplərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi.

Müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu prinsiplər əsasında xarici İqtisadi siyasət yeritməsi müəssisə və təşkilatların, firma və şirkətlərin sərbəst və bərabər hüquq şəraitində digər dövlətlərlə vasitəçi olaraq İqtisadi əlaqə və münasibətlər yaratmaq, təsərrüfat subyektlərinin İqtisadi maraqlarının təmin və eləcə də bütün bunların öz növbəsində xarici tərəf müqabildən tələb edilməsi baxımından önəmlidir.

Qəbul edilmiş qanunlarla o da təsbit olunmuşdur ki, dövlət idarəetmə orqanlarının xarici İqtisadi əlaqələrin iştirakçı subyektlərinin fəaliyyətinə müdaxilə etmək hüququ yoxdur. Onların vəzifəsi XIF subyektlərinin fəaliyyətini tənzimləməkdən ibarətdir. Bu məqsədlə XIF-in dövlət tənzimlənməsinin kompleks sistemində:

- XIF-in iştirakçılarının qeydiyyat şəhadətnaməsi;
- dövlət sərhədi vasitəsilə aparılan və gətirilən əmtəələrin və digər əmlakın gömrük bəyannamələşdirilməsinə;
- əmtəələrin idxal və ixrac qaydalarına baxılır.

Bu sistemin XIF-in bütün növləri və iştirakçılarına tətbiqi qaydalarına əsasən Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq, XIF-in fiziki və hüquqi şəxs timsalında bütün iştirakçılarının fəaliyyətin bu və ya digər növü ilə məşğul olmaq, həcmini və istiqamətini sərbəst olaraq müəyyənləşdirmək hüququ mövcud qanunericilik aktları ilə rəsmiləşdirilmişdir. Bir sözlə, qanunların mərkəzində əsasən XIF subyektlərinin maraq və hüquqlarının təminatı və müdafiəsi məsələləri qoyulmuşdur.

Azərbaycan Respublikası XIF-in inkişaf modelinin əsası kimi MDB üzvü olan ölkələrlə və qonşu Türkiyə, Iran dövlətləri ilə xarici İqtisadi əlaqələrin geniş inkişafını məqsədəuyğun sayır. Belə ki, bu məqsədlə Azərbaycanın Rusiya, Ukrayna, Belorus, Qazaxıstan, Türkiyə, Iran və sair dövlətlərlə ikitərəfli müqavilələr imzalanmasını təqdirəlayiq hal hesab etmək olar.

Qeyd etmək dazımdır ki, Azərbaycanda xarici İqtisadi fəaliyyətin hüquqi tənzimlənmə elementlərindən geniş istifadə olunması xarici İqtisadi əlaqələrin qarşılıqlı formalarının mürəkkəb elementinin, həmçinin daxili və ölkə xarici İqtisadi sferanın əlamətlərini qaydaya salmağa imkan verir. Bundan başqa, yaradılmış hüquqi mexanizm öz xüsusiyyətləri ilə dövlətin həm milli və həm də millətlərarası səviyyədə hüquqi tənzimlənməsinin müxtəlif mənbələrinin mövcudluğuna şərait yaratmaqla bərabər beynəlxalq əlaqələrin inkişafında gömrük vergilərinin səmərəli tətbiqi milli İqtisadiyyatın təhlükəsizliyinin təmin

edilməsinə, qiymətlərin tənzimlənməsinə, yerli istehsalın stimullaşdırılmasına və ixra**c**ın artırılmasına gətirib çıxara**c**aqdır.

Azərbay**c**anda xari**c**i İqtisadi fəaliyyət strategiyasının formalaşmasında dünya tə**c**rübəsi ilə yanaşı, milli İqtisadiyyatın spesifik xüsusiyyətləri, beynəlxalq əmək bölgüsünün tələbləri, yaxın və uzaq xari**c**i ölkələrlə ti**c**arət reciminin optimallığı da nəzərə alınmalıdır.

Belə ki, respublikamızda xari**c**i İqtisadi fəaliyyətin səmərəli strategiyası bir tərəfdən liberal İqtisadiyyatın, normal gömrük və valyuta reciminin formalaşmasına, ölkənin ixra**c** potensialının artırılmasına xidmət edir. Digər tərəfdən bu strategiya milli bazarın formalaşdırılmasını sürətləndirməklə yanaşı, həm də onun rəqabət qabiliyyətini yüksəldə**c**əkdir.

Bu məqsədlə, respublikada yerli məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində müəssisələrdə rəqabət qabiliyyətli məhsul istehsalı sahəsində xeyli iş görülməlidir. Istehsal potensialı genişləndirilməli, müasir elmi-texinki tərəqqinin imkanlarından istifadə edilməli, xari**c**i kapitalın milli bazara **c**əlb edilməsi sürətləndirilməli, sənayenin inkişafı hesabına maksimum dərə**c**ədə ixra**c** stimullaşdırılmalı, xari**c**i investisiya, kredit və yardımlardan istifadə olunması mexanizmi təkmilləşdirilməli, gömrük brokeri, gömrük anbarları sistemi yaradılmalı, istehsal təyinatlı avadanlıqlar və sosial təyinatlı bəzi mallar idxal vergilərindən azad edilməlidir.

Nəhayət, ən mühüm məsələ idxal vergilərinə, rüsumlarına hər rüb baxılaraq ona mövsümi dəyişikliklər edilməsidir. Belə ki, «Gömrük Mə**c**əlləsi» təkmilləşdirilir. «Vergi Mə**c**əlləsi»ndə dəyişikliklər aparılır. Ixra**c**dan daxil olan valyuta gəlirlərinə üç səviyyəli – müvəkkil banklar, İqtisadi Inkişaf Nazirliyi və gömrük orqanları vasitəsilə qarşılıqlı surətdə normal nəzarət sistemi təşkil edilir və valyuta əməliyyatlarına nəzarət etməklə ölkəmizin İqtisadi təhlükəsizliyi təmin olunur.

Qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində vergi tənzimlənməsi məsələsinə qanunveri**c**ilikdə xüsusi yer verilir.

Hazırda bazar İqtisadiyyatı yolu gedən müstəqil respublikamızda vergidən yayınmanın qarşısının alınmasında xari**c**i dövlətlərin tə**c**rübəsindən istifadə etməyi məqsədəuyğun hesab etmək olar.

Respublikada bazar İqtisadiyyatı şəraitində vergidən yayınmanın qarşısının alınması nəti**c**əsində dövlət büd**c**əsinə daha çox miqdarda vəsait daxil ola**c**aq və həmin vəsaitdən əhalinin maddi və mənəvi səviyyəsinin yüksəldilməsinə istifadə oluna**c**aqdır.

Keçid dövründə həyata keçirilən vergi siyasəti bazar İqtisadiyyatının xarakterinə uyğun olmalı, onun ən mühüm subyektlərinin, birin**c**i növbədə, yeni yaradılan təsərrüfat strukturlarının investisiya qoyuluşlarına olan bugünkü marağının xeyli artması da nəzərə alınmaqla, dövlət orqanları ilə istehsal əmək kollektivlərinin qarşılıqlı əlaqə və mənafelərini özündə əks etdirməlidir.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, vergilərin növləri, sayı və dərəcələri aşağı salındıqca ölkənin İqtisadi həyatında fəallaşma başlayır. Burada gizli kapital leqallaşmağa cəhd göstərir, maliyyə-bank əməliyyatları və onların dövriyyəsi sürətlənir, müəyyən vaxtdan sonra büdcəyə daha çox vəsaitlər daxil olmağa başlayır.

Ona görə də, vergilərin növlərini azaltmaqdan, onların dərəcəsini aşağı salmaqdan çəkinmək lazım deyildir. Əslində isə, vergi siyasətinin həyata keçirilməsinə ümumxalq nəzarətini gücləndirmək lazımdır.

«Malların gömrük nəzarəti altında Azərbaycan Respublikası ərazisindən tranziti zamanı gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi üzrə sığorta şirkətlərinin zəmanətlərinin gömrük orqanları tərəfindən qəbul edilməsi qaydalarına uyğun olaraq» Beynəlxalq Sığorta Şirkəti MMS ilə Dövlət Gömrük Komitəsi arasında müqavilə imzalanmış və 2002-ci il oktyabr ayının 1-dən tətbiq edilir.

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmaqla Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən təsdiq edilmiş «Gömrük ödənişlərinə sadə veksel vasitəsi ilə zəmanət verilməsinin müvəqqəti qaydaları» Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçirilmiş, icra və işdə rəhbərlik üçün yerli gömrük orqanlarına göndərilmişdir.

Hazırda MDB ölkələrinin ticarət-İqtisadi əlaqələrinin əsasını «Sərbəst ticarət haqqında» sazişlər təşkil edir. Azərbaycan ilk belə sazişi Rusiya Federasiyası ilə 1992-ci ildə imzalayıb. Sonrakı illərdə ölkəmiz Ukrayna, Gürcüstan, Türkmənistan, Özbəkistan və Qazaxıstanla gömrük rüsumlarının tətbiqinə dair ikitərəfli sazişlərə qol çəkib. Hazırda Qırğızıstan və Belorus ilə oxşar sazişlərin layihələri tərəflər arasında razılaşdırılmaq üçün müzakirəyə verilib. Həmçinin, Azərbaycan Rusiya Federasiyası, Qazaxıstan və Özbəkistanla «Sərbəst ticarət recimində istisnalar haqqında» protokol imzalayıb ki, bu da daxili bazarın qorunması məqsədilə bəzi məhsulların idxal və ixracını məhdudlaşdırır.

Azərbaycanın xarici ticarət dövriyyəsində MDB-yə üzv dövlətlərin (Ermənistandan başqa) ticarət-İqtisadi əlaqələri mühüm yer tutur. Eyni zamanda, onların inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Məsələn, üzv dövlətlər arasında sadələşdirilmiş vergi və gömrük tariflərinin tətbiqi istehsal edilən məhsulların MDB bazarına daha geniş miqyasda çıxarılmasını, həmçinin yeni əməkdaşlıq əlaqələrinin yaranmasını təşviq edir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2005-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 8558,4 min.dollar təşkil etmişdir ki, bunun da 2354,9 min. dolları, yaxud 27,5 faizi MDB dövlətləridir. Bu 2004-cü illə müqayisədə 30,0 faiz çoxdur. 2005-ci ildə MDB ölkələri ilə idxalın həcmi 1449,5 min. dollar, ixracın həcmi isə 905,4 min. dollar təşkil etmişdir. MDB ölkələrilə ticarət dövriyyəsində saldonun mənfi qalması müşahidə olunsa da üzv dövlətlərdən altısı (Moldova, Özbəkistan, Qazaxıstan, Rusiya, Türkmənistan, Ukrayna) üzrə ölkəmiz ixracın həcmində irəliləyiş əldə edib. Bunu

Azərbaycanda istehsal olunan məhsulların ənənəvi bazarlarının bərpa olunmasının nəticəsi kimi qiymətləndirmək olar. Belə ki, sözügedən ölkələrə meyvə-tərəvəz, fındıq, çay, pambıq mahlıcı və yağı, kimya məhsulları, aviakerosin, geofiziki alət və cihazlar ixrac olunmuşdur.

Qeyd edək ki, Azərbaycanın MDB üzrə əsas partnyorlarının ötən il ümumi ticarət dövriyyəsindəki xüsusi çəkisi belə olub: Rusiya – 9,8 faiz, Qazaxıstan- 4,2 faiz, Türkmənistan – 3,3 faiz, Gürcüstan – 2,4 faiz, Ukrayna – 2,5 faiz.

Azərbaycanın xarici ticarət dövriyyəsində MDB dövlətləri ilə İqtisadi əlaqələrin yüksək olması bu ölkələrlə münasibətdə İqtisadi qanunvericiliyin, o cümlədən vergi münasibətlərinin qurulmasını zəruri edir.

2003-2005-ci illərdə Azərbaycan xarici ticarət sferasında inkişaf etmiş dövlətlərlə də böyük nailiyyətlər əldə etmişdir. Respublikamızın İqtisadi Əməkdaşlıq Təşkilatı dövlətləri ilə ticarət əlaqələri müvafiq olaraq 2003-cü ildə 787 mln.dollardan 2004-cü ildə 1247 mln.dollara qədər artmşdır. Uyğun olaraq 2004-cü ildə ümumi xarici ticarətin həcmində idxalın 20 faizi, ixracın 15 faizi IƏT dövlətləri ilə həyata keçirilmişdir.

Dövlətlərarası münasibətlərdə vergi qanunvericiliyi ilk növbədə ikiqat vergitutmanın aradan qaldırılması, gəlirlərdən və kapitaldan vergilərdən yayınmanın qarşısının alınması haqqında sazişlərdə, həmçinin ikitərəfli qarşılıqlı əməkdaşlıq sazişlərində öz əksini tapır.

Azərbaycan indiyə qədər 38 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlərin hazırlanması üzrə danışıqlar aparıb. 12 ölkə üzrə həmin sazişlər qüvvəyə minib. Bunlar Böyük Britaniya, Norveç, Türkiyə, Avstriya, Rusiya, Ukrayna, Moldova və s. ölkələrdir. Bunun da 7-si MDB üzvü olan dövlətlərdir.

Xatırladaq ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər bir qayda olaraq investorlar üçün əlverişli vergi mühiti yaratmaqla yanaşı, müəssisənin sabit vergi planlaşmasını aparmağa, maliyyə xərclərini uzunmüddətli proqnozlaşdırmağa imkan verir.

Vergilər Nazirliyi xarici dövlətlərlə təkcə ikiqat vergitutmaya dair deyil, həm də vergi məsələləri üzrə qarşılıqlı yardım haqqında sazişlər imzalayır. Maraqlıdır ki, indiyə qədər belə sazişlər əsasən MDB dövlətlərilə bağlanıb. Bu günə Azərbaycan 5 dövlətlə (Qazaxıstan, Özbəkistan, Gürcüstan, Rusiya Federasiyası və Belorus) vasitəli vergilərin tutulması barədə, 5 dövlətlə isə (Rusiya Federasiyası, Gürcüstan, Moldova, Özbəkistan, Qazaxıstan) vergi məsələləri üzrə qarşılıqlı yardım haqqında sazişlər imzalayıb. MDB dövlətlərinin vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasında MDB ölkələrinin vergi xidmətləri arasında qarşılıqlı yardım haqqında konvensiya layihəsi üzrə saziş qarşılıqlı İqtisadi münasibətlərdə çoxtərəfli əməkdaşlıq imkanlarını genişləndirməyə xidmət edir.

Ölkədə ixracın həvəsləndirilməsi və daxili bazarın qorunmasını təmin edən gömrük rüsumlarının tətbiqi, sərbəst gömrük zonasının və gömrük

anbarlarının yaradılması, eləcə də qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi və sahibkarlıq fəaliyyətinə gömrük orqanları tərəfindən qanunsuz müdaxilələrin qarşısının alınması barədə müddəaların həyata keçirilməsi məqsədilə gömrük orqanlarının bu istiqamətdəki işini yenidən qurmaq üçün ciddi tədbirlər həyata keçirilir. Hazırda Dövlət Gömrük Komitəsində müxtəlif beynəlxalq təşkilatların – Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və Ümumdünya Gömrük Təşkilatının yaxından köməyi ilə ciddi modernləşdirmə prosesi aparılır. Bu proses nəticəsində müstəqil gömrük brokerləri sisteminin formalaşdırılması, ölkədən tranzit keçən yüklər üzrə gömrük ödənişlərinin sığortalanması, gömrük vergi və rüsumlarının ödənilməsində müvafiq banklar tərəfindən aval edilmiş veksellərdən istifadə qaydasının təsdiqi, bütün gömrük orqanlarını əhatə edən informasiyanın ötürülməsinin «on-line» sisteminin qurulması və sairəni göstərmək olar. Bütün bu tədbirlərin əsas məqsədi, bir tərəfdən, ölkənin İqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük nəzarətinin daha da gücləndirilməsidirsə, digər tərəfdən isə, ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi proseduralarının sadələşdirilməsi, iş adamlarına sağlam rəqabət şəraiti yaradılması, gömrük rəsmiləşdirilməsi prosesində xarici ticarətlə məşğul olan sahibkarlarla gömrük işçilərinin birbaşa təmas imkanlarının aradan qaldırılmasıdır.

Ölkə İqtisadiyyatında ümumi daxili məhsulun və burada özəl bölmənin xüsusi çəkisinin artımı, inflyasiyanın idarə olunan səviyyədə saxlanması və büdcə kəsirinin azalması, xarici ticarət dövriyyəsində müsbət saldonun mövcudluğu, ölkənin valyuta ehtiyatlarının, İqtisadiyyata investisiya qoyuluşunun həcminin artması və tətbiqi sahələrinin genişlənməsi, habelə özəlləşmə proqramının uğurla həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə bazar münasibətlərinin qurulması və bütövlükdə İqtisadi islahatlar yüksələn xətlə gedir.

Cədvəl 1

1996-2005-ci illərdə Azərbaycan Respublikasında ÜDM-in, xarici ticarət dövriyyəsinin və gömrük vergi və rüsumlarının dinamikası (mln.dollar)

Illər	ÜDM	Ixrac	Idxal	Gömrük vergi və rüsumları
1996	3180,8	631,2	960,6	63,4
1997	3960,9	781,3	794,3	107,7
1998	4446,6	606,1	1076,5	145,2
1999	4583,6	929,7	1035,9	161,6
2000	5272,6	1745,2	1172,1	160,7
2001	5707,8	2314,2	1431,1	176,6
2002	6236,1	2167,4	1665,6	189,6
2003	7276,3	2590,4	2626,4	215,6
2004	8521,8	3615,4	3515,9	265,8
2005	12908,3	4347,2	4211,2	408,9

Bu göstəriciləri qarşılıqlı əlaqədə və dinamikada təhlil etməklə gömrük vergilərinin İqtisadiyyatın digər sosial İqtisadi göstəricilərinə təsirini qiymətləndirmək olar. Cədvəl məlumatlarından görünür ki, 1996-2005-ci illərdə İqtisadiyyatın bəzi əsas makroİqtisadi göstəricilərinin dinamikasında sabit artım müşahidə olunmuşdur

Qeyd etmək lazımdır ki, bazar İqtisadiyyatına keçid şəraitində İqtisadiyyatın dirçəldilməsində, xarici İqtisadi fəaliyyətin stimullaşdırılmasında, büdcə gəlirlərinin formalaşdırılmasında gömrük vergi və rüsumlarının mühüm rolu olmuşdur. Bununla yanaşı daxili bazarın müdafiəsinə və ixrac potensialının yüksəldilməsinə yönəldilən gömrük tarif tənzmlənməsindən tam istifadə olunmamışdır.

Beləliklə, müasir mərhələdə səmərəli fəaliyyət göstərə bilən gömrük-tarif tənzimləmə mexanizmi fəal və çevik gömrük siyasətinin həyata keçirilməsinin, həmçinin Azərbaycan Respublikasının İqtisadi təhlükəsizliyinin təmin edilməsinin və İqtisadi maraqlarının qorunmasının əsas şərtidir.

Beynəlxalq aləmdə xarici ticarətə müdaxilə etmək üçün istifadə olunan ən mühüm vasitələrdən biri gömrük tarifləridir. Gömrük tarifləri xarici İqtisadi siyasətin, o cümlədən xarici ticarət siyasətinin ən qədim və geniş yayılmış vasitələrindən biridir. Gömrük tarifləri gömrük rüsumu alınan malların sistemləşdirilmiş siyahısı kimi çıxış edir.

Gömrük rüsumları həm proteksionist, həm də fiskal xarakterə malikdir. Gömrük tariflərinin proteksionist funksiyası istehsalçıların mənafeyinin müdafiəsi ilə bağlıdır. Deməli, ölkə İqtisadiyyatının idarə edilməsində və tənzimlənməsində, İqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük tənzimlənməsi vacib rol oynayır və çoxsahəli funksiyalara malikdir.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, müasir mərhələdə liberal xarici ticarət beynəlxalq ticarətin ana xəttini təşkil edir və qloballaşdırma qarşısıalınmaz bir prosesə çevrilir. Ona görə də proteksionist siyasət qısamüddətli xarakter daşımalıdır. Başqa sözlə desək, ölkənin İqtisadi təhlükəsizliyi baxımından xarici ticarət siyasəti aşağıdakı prinsiplər əsasında qurulmalıdır: tədricilik, diferensiallaşdırma və müddətlilik.

Tədricilik prinsipi daha çox xarici ticarətin liberallaşdırılmasına tətbiq edilməlidir. Bu sahədə Azərbaycanda müəyyən işlər görülmüşdür. Ixrac gömrük vergiləri ləğv edilmiş, idxal vergilərinin səviyyəsi isə aşağı salınmışdır.

Differensiallaşdırma prinsipi dedikdə, milli İqtisadiyyatın sahələrinin özlərinin inkişaf səviyyəsinə, daxili və xarici bazarda rəqabət-qabiliyyətliliyinə, ölkədəki məşğul əhalinin həmin sahələrdə iştirak səviyyəsinə, istehsalın və malların strateci əhəmiyyət daşımasına görə, əhalinin zəruri istehlakında malların oynadığı rola görə (xüsusilə ərzaq məhsulları) fərqləndirilərək qruplaşdırılması başa düşülməlidir.

İqtisadiyyyatın hər hansı konkret sahəsində ölkədəki məşğul əhalinin iştirak payı yüksəkdirsə və əhalinin zəruri istehlak mallarında həmin sahənin məhsullları mühüm paya malikdirsə və həm də strateci əhəmiyyət daşıyırsa, onda həmin mallara proteksionist (himayədarlıq) siyasəti yeridilməlidir.

Müddətlilik prinsipi dedikdə, bu və ya digər məhsullara qarşı yeridilən proteksionist siyasətin uzunmüddətli olmaması, konkret müddətinin göstərilməsi nəzərdə tutulur. Bu müddətdə həmin sahələr yaradılan əlverişli şərait sayəsində rəqabətqabiliyyətli sahələrə çevrilməlidir.

VI FƏSIL. PUL-KREDIT SIYASƏTI

Pul-kredit siyasəti dövlətin İqtisadi funksiyalarının reallaşmasında büdcə-vergi siyasətindən sonra ən güclü alətdir. Burada dövlət pula tələbatla pul təklifi arasındakı nisbətləri tənzimləmə, İqtisadi artıma maliyyə təminatı yaradır və İqtisadi inkişafa təsir edir.

İlham Əliyev

6.1. Müasir şəraitdə bank sisteminin fəaliyyəti

Bank sistemi dövründə bank və kredit müəssisələrinin, kredit bazarında peşəkarlıq səviyyəsində fəaliyyət göstərən təşkilatların məcmusu. Bank sistemi ümumİqtisadi prinsiplərin (iyerarxiklik, peşəkarlıq, universallıq) və bu ölkənin tarixinə, siyasi sisteminə, əhalinin mentalitetinə və s. xas olan xüsusi amillərin təsiri altında formalaşır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə bank sisteminin təşkili və formalaşmasının böyük bir tarixi vardır. Belə ki, pul tədavülünün xarakteri və pul-kredit siyasəti xeyli dərəcədə hər bir konkret ölkənin bank sisteminin institusional xüsusiyyətlərindən asılıdır ki, bu da öz növbəsində tarixi, coğrafi, milli, İqtisadi, siyasi və s. bu kimi amillər kompleksinin təsiri altında formalaşır və inkişaf edir.

Bank sistemi-ölkədə tarixən formalaşmış və qanunvericilik baxımından möhkəm ixtisaslaşdırılmış kredit müəssisələrinin fəaliyyətinin təşkili formasıdır. Bank sisteminin müasir modeli, bir qayda olaraq, ikili səviyyədən ibrətdir.

Bank sisteminin birinci səviyyəsi ölkənin Mərkəzi bankı ilə təmsil olunur. Bu emissiya bankı olmaqla dövlətin idarəetmə və İqtisadi siyasə-tinin xüsusi orqanı sayılır. Mərkəzi bank müstəqil sayılsa da dövlətin nəzarəti altında olan kredit təşkilatıdır. O, dövlətin pul-kredit siyasətinin həyata keçirilməsini və ölkənin bank sisteminin səmərəli fəaliyyətini təmin edir.

Qeyd etmək lazımdır ki, nə parlament, nə də maliyyə nazirliyi bank sisteminə aid edilməsələr də onun fəaliyyətinə müəyyən təsir göstərirlər. Banklar üzərində nəzarət idarəsi də bir qədər şərt daxilində bank sisteminə aid edilir. Məsələn, ABŞ-da bu, depozitlərin sığortası üzrə Federal korporasiya, Almaniyada banklara nəzarət üzrə Federal idarə, Fransada Milli Kredit şurası, Kredit müəssisələri və Bank komissiyası Komitəsi, Italiyada Kreditlər və əmanətlər nazirliklərarası komitədir.

Bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq Azərbaycan dövlətinin İqtisadi siyasətinin prioritet istiqamətlərindən biri bazarın tələblərinə adekvat bank–kredit sisteminin formalaşdırılması olmuşdur. Ümumiyyətlə, ölkədə fəaliyyət göstərən banklar bir və iki səviyyəli sistem şəklində təşkil oluna bilər.

Birsəviyyəli variant o vaxt real ola bilər ki, ya ölkədə Mərkəzi bank olmasın, ya da yalnız Mərkəzi bank olsun. Bu halda bank sistemi haqqında danışmaq olmaz. Sivilizasiyalı bazar İqtisadiyyatının ünsürü kimi bank sistemi yalnız ikisəviyyəli – Milli Bank, kommersiya bankları ola bilər. Bu zaman Mərkəzi Bank ölkənin pul – kredit sisteminin başlı**c**a həlqəsi kimi çıxış edir. Müasir dövlətin maliyyə sistemində Mərkəzi Bankın xüsusi yeri və rolu bazar münasibətlərinin inkişaf səviyyəsi və xarakteri ilə müəyyən olunur. Mərkəzi Bankın rolunun müəyyən edilməsi ikipilləli bank sisteminin formalaşdırılması üçün ilkin şərtdir.

Ikipilləli bank sisteminin yaradılması zəruriliyi bazar münasibətlərinin - ziddiyyətli xarakteri ilə şərtlənir. Bir tərəfdən, onlar azad sahibkarlığı və şəxsi maliyyə vəsaitlərinin istifadəsini tələb edir ki, bu da aşağı səviyyənin ünsürləri - kommersiya bankları ilə təmin edilir. Digər tərəfdən, müəyyən tənzimləmə, nəzarət və məqsədəmüvafiq təsir zəruridir ki, bu da Mərkəzi Bank şəklində xüsusi institut tələb edir. Pul – kredit münasibətlərinin tənzimlənməsini həyata keçirən Mərkəzi Bankın yaradılması azad sahibkarlığı saxlamaqla bazarın kortəbiliyinin qarşısını səmərəli şəkildə almağa imkan verir.

Qeyd etmək lazımdır ki, Milli Bankın sadalanan funksiyaları ölkənin bütün pul – kredit sisteminin və İqtisadiyyatın tənzimlənməsinə real zəmin yaradır. Belə ki, pul – kredit sisteminin tənzimlənməsi və bank nəzarəti Milli Bankın mühüm funksiyalarıdır. Bazar islahatlarının həyata keçirilməsinin ilk mərhələsində ölkənin Milli Bankının qarşısında həll edilməsindən islahatların uğuru daha çox asılı olan xüsusi vəzifələr dururdu. Bunlara birin**c**isi, milli valyutaya inamın möhkəmləndirilməsi, ikin**c**isi, antiinflasiya siyasətinin həyata keçirilməsi və milli valyutanın ali**c**ılıq qabiliyyətinin təmin edilməsi aiddir. Bu məsələlərin real uğuru Milli Bankın antiinflyasiya siyasətinin ardı**c**ıl həyata keçirilməsi imkanlarından, hazırlığından və qabiliyyətindən asılı idi. Bununla əlaqədar olaraq Milli Bankın müstəqilliyi, bankların restrukturizasiyası, onların ödəməqabliyyətliyinin bərpası və bazar şəraitində bank sisteminin tənzimlənməsi problemləri ön plana çıxır.

Qeyd etmək lazımdır ki, Milli Bank müstəqil olaraq pul-kredit siyasəti yeridən bir qurumdur. Bir çox dünya ölkələrində Milli Bank pul- kredit siyasətinin məqsədlərinin seçilməsi müstəqilliyindən məhrumdur və onlar hökumətlə birgə müəyyən edilir. Hökumətlə Milli Bankın məqsədləri – İqtisadi artım və qiymət sabitliyi – bir - biri ilə ziddiyyət təşkil etmədikdə belə, pul – kredit siyasətinin istiqamətlərinin seçilməsi azadlığının olmaması arzu olunan nəti**c**ələrə gətirib çıxarmır.

Monetar siyasətin vasitələrinin seçilməsində Milli Bankın müstəqilliyinin səmərəli pul – kredit siyasətinin həyata keçirilməsi baxımından olduq**c**a böyük əhəmiyyəti vardır. Mühüm problem faiz dərə**c**əsinin və kreditlərin səviyyəsi üzərində Milli Bankın tam nəzarətinin olmasından ibarətdir. Söhbət Milli Bankın hökuməti kreditləşdirilməsindən gedir. Faiz dərə**c**əsi və kreditlərin səviyyəsi üzərində Milli Bankın tam nəzarəti halında büd**c**ə kəsirini

maliyyələşdirmək üçün hökumətin pul emissiyasından istifadə ehtimalının minimum olduğunu hesab etmək olar və ondan borcların maliyyəşdirilməsi sahəsində ölçülüb-biçilmiş siyasət gözləmək olar. Bu vəziyyətdə Milli Bank pul tədavülünə tam nəzarət edir və milli valyutanın alıcılıq qabiliyyətinin saxlanmasına təminat verir.

Onu da qeyd edək ki, Milli Bankla hökumətin qarşılıqlı münasibətlərinin müxtəlif modelləri mövcuddur və onların hər birinin müəyyən üstünlüyü və nöqsanı vardır. Buna baxmayaraq əsas məsələ ondan ibarətdir ki, Milli Bankın müstəqilliyi deklarativ xarakter daşımasın, ona pul-kredit sistemi üzərində nəzarəti real həyata keçirməyə və qəbul edilən qərarların məsuliyyətini daşımağa imkan versin.

Kommersiya bankları bank sisteminin ikinci səviyyəsini təşkil edir. Kommersiya bankları bank sisteminin əsas həlqəsidir. Müasir kommersiya bankları öz müştərilərinə (müəssisə və təşkilatlara, ev təsərrüfatlarına və s.) birbaşa xidmət göstərən banklardır. Bazar İqtisadiyyatı şəraitində kommersiya bankları İqtisadiyyatı pul resursları ilə etibarlı və vaxtında təmin etmək iqtidarında olmalıdır. Bu İqtisadi artımın mühüm şərtidir. Mülkiyyət formasından (dövlət, səhmdar, kooperativ) asılı olmayaraq onlar İqtisadiyyatın müstəqil subyektləridir. Müştərilərlə onların münasibəti kommersiya xarakteri daşıyır. Kommersiya banklarının fəaliyyətinin əsas məqsədi maksimum mənfəət əldə etməkdir.

Müvəqqəti sərbəst pul vəsaitlərini səfərbər etmək və onları kapitala çevirmək funksiyasını yerinə yetirərək banklar depozit formasında əmanətləri və pul vəsaitlərini toplayır. Toplanmış əmanətlər müəssisələrə və sahibkarlara kredit vermək üçün bankların istifadə etdiyi borc kapitalına çevrilir. Borc alanlar vəsaitləri istehsalın genişləndirilməsinə, daşınmaz əmlakın və istehlak mallarının alınmasına yönəldir. Son nəticədə bankların köməyi ilə əmanət kapitala çevrilir.

Müəssisə, dövlət və ev təsərrüfatlarının kreditləşdirilməsi funksiyasının mühüm İqtisadi əhəmiyyəti vardır. Bank kreditləri hesabına sənayenin, kənd təsərrüfatının, ticarətin, İqtisadiyyatın digər sektorlarının maliyyələşdirilməsi həyata keçirilir ki, bu da istehsalın genişlənməsi ilə nəticələnir. Kommersiya bankları istehlakçılara uzun müddət istifadə olunan mallar əldə etmək üçün borclar verir ki, bu da onların həyat səviyyəsinin yüksəldilməsinə səbəb olur. Bəzən gəlirlər dövlət xərclərini ödəmir və ona görə də banklar hökumətin maliyyə fəaliyyətini kreditləşdirir.

Bankların İqtisadiyyata təsiri çox yüksəkdir. Banklar kredit verərək İqtisadiyyata və onun inkişafına kömək edir. Lakin bazar İqtisadiyyatına keçid dövründə bankların İqtisadi davranışı düzxətli deyil, daha mürəkkəb forma kəsb edir.

Müasir dövrdə kommersiya bankları bütün tip müştərilərin maliyyə tələbatlarını təmin etmək üçün müxtəlif əməliyyatlar (depozit hesabların

aparılması, müxtəlif kreditlərin verilməsi, qiymətli kağızların alqı-satqısı, etibarnamə üzrə əməliyyatları, qiymətlilərin saxlanması və s.) yerinə yetirir.

Bunların nəti**c**əsində kommersiya bankları təkrar istehsal prosesinin praktiki olaraq bütün həlqələri ilə daimi və sıx əlaqədə olur.

Müasir şəraitdə bank xidmətlərinin çoxalması və yayılmasını, artan rəqabəti, tənzimlənməni, maliyyələşdirmə məsrəflərinin artmasını, texnolo**ci** təkmilləşməni və müasir elektron sistemlərin tətbiqinin genişlənməsini, bankların birləşməsini, böyüməsini və **c**oğrafi genişlənməsini müasir bankların inkişaf meylləri kimi xarakterizə etmək olar.

Bank sisteminin ikinci səviyyəsi adətən aşağıdakı institutlardan ibarətdir:

1. Dövlət bankları-dövlətə məxsus (Mərkəzi Banka, hökumətə, regional hakimiyyətə məxsus) səhmdar kapitalın nəzarət paketinə malik kredit təşkilatlarıdır. Bu kredit institutları daha çox və ya daha az sərt dövlət nəzarəti altında bank fəaliyyətini həyata keçirir, lakin yüksək etibarlılıq zəmanətinə malikdirlər. Ona görə də yüksək inam səviyyəsi əldə edirlər. Bütün və ya demək olar ki, bütün bank əməliyyatlarını həyata keçirən kredit müəssisələridir. Kommersiya və investisiya fəaliyyətlərini əlaqələndirməklə onlar ixtisaslaşmış banklara nisbətən daha çox sabitdirlər. Bu cür banklar 100-dən 300-ə qədər əməliyyat növləri yerinə yetirirlər

2. Universal kommersiya bankları praktiki olaraq İqtisadiyyatın bütün sferaları ilə əlaqədardırlar.

3. Ixtisaslaşmış kommersiya bankları bir və ya bir neçə növdə bank fəaliyyətini həyata keçirirlər. Funksional, sahəvi, ərazi və texnoloci ixtisaslaşma fərqləndirilir. Bir sıra ölkələrdə son vaxtlara qədər universal banklar yox idi. Qanunvericiliklə bank ixtisaslaşması təsdiq edilən ölkələr sırasına ABŞ, Kanada və Yaponiyanı aid edirlər.

Ixtisaslaşmış banklar arasında invesitisiya bankları böyük əhəmiyyət kəsb edir ki, bunlar da qiymətli kağızların emissiyası və yerləşdirilməsinin təşkili funksiyalarını yerinə yetirirlər. Onlar öz resurslarını, öz qiymətli kağızlarını buraxmaq yolu ilə formalaşdırırlar. Investisiya bankları anderrayterlər rolunda çıxış edə bilirlər. Bunun üçün onlar firmanın qiymətli kağızlarının yerləşdirilməsinin tam və ya cüzi olmaqla müvafiq mükafata görə öz üzərlərinə götürürlər və müvafiq risklər daşıyırlar. Investisiya bankı firmalara və dövlətə kreditlər verə bilər, lakin əmanət qəbul etmirlər və hesablaşma-kredit əməliyyatları aparmırlar.

Əmanət bankları (ssuda-əmanət bankları)-əhalinin əmanətlərini toplayır və istehlak ehtiyaclarına ssuda verirlər. Bu cür banklar həm özəl, həm də dövlət bankları olurlar. Əmanət banklarının bu forması Almaniya və Fransa əmanət kassaları şəklində son dərəcə inkişaf etmişdir. Bu banklar başlıca olaraq orta siniflə və yerli əhaliyə kredit verməklə aztəminatlı əhali ilə işləyirlər.

Ipoteka bankları-daşınmaz əmlak girovu altında kreditlərin, daha doğrusu, ipoteka kreditlərinin verilməsində ixtisaslaşırlar. Bu bankların resurslarının formalaşması uzunmüddətli qiymətli kağızların-ipoteka müqaviləsinə görə

qoyulmuş daşınmaz əmlak təminatlı girov vərəqələrinin buraxılışı vasitəsilə baş verir. Girov vərəqələri öz sinfinə görə kapital bazarının təsbit olunmuş faizinə malik qiymətli kağızlara aid edilirlər. Həmin kifayət dərəcədə qiymətli kağızlar qiymətli kağızların təkrar bazarında satılır, yəni onları istənilən almaq və satmaq olar. Ipoteka bankları dövlətin himayəsi və köməyi şəraitində fəaliyyət göstərirlər ki, bu da kredit risklərini xeyli aşağı salır.

Innovasiya bankları-elmi tədqiqatla bağlı uzunmüddətli proqramları kreditləşdirir. Bu zaman bank ekspertləri innovasiya layihəsinin perspektivliyini və bunun əsasında ssudanın həcmini, verilmə şərtlərini və qaytarılma müddətini müəyyən edirlər.

Innovasiya banklarının əsas tipi vençur bankları sayılır ki, bunlar da xüsusilə də riskli elmi-texniki layihələrin kreditləşməsi üçün yaradılır. Vençur bankının kreditlə resursları xeyli dərəcədə dövlətin hesabına (xüsusilə ABŞ-da) və firma və fərdi şəxslərin sponsor köməyi ilə (Yaponiya üçün xarakterikdir) formalaşır.

Sahəvi ixtisaslaşmış banklar-İqtisadiyyatın müəyyən sahə və sferalarının inkişafını stimullaşdırmaq məqsədilə formalaşır. Bu banklar əsasən mənzil tikintisi, aqrar sektor, kiçik və orta biznes, xarici ticarət, xarici investisiyalar üçün kreditlər verirlər. Onlar da, bir qayda olaraq, hərdən kifayət qədər xeyli kömək almaqla dövlətin himayəsi altında fəaliyyət göstərirlər.

4. Bank olmayan kredit təşkilatları (BOKT) və ya bank tipli kredit müəssisələri bir sıra xüsusiyyətlərə malikdirlər. Həmin kredit müəssisələri məcmu bank əlamətlərinin tərkibində tam kompleksdə olmasa da bir və ya bir neçə bank əlamətlərini həyata keçirən kredit müəssisələridir. BOKT təşkilatlanmanın xüsusi forması ilə səciyyələnir, yəni o, bir qayda olaraq, kooperativ başlanğıca (həm pay iştirakı ilə, həm də pay haqqı olmadan) əsaslanır. Payçılar sırasına konkret yerin sakinləri, şəhər, müəssisə, bir-birini şəxsən tanıyan insanlar daxildir.

Qeyd etmək lazımdır ki, respublikada bütöv bank sistemi daim hərəkətdədir, inkişaf edir və təkmilləşir. 2004-cü ilin dekabrında qəbul edilmiş "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Qanunu və 2004-cü ilin martında qəbul edilmiş "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və bəzi normativ aktlara görə ciddi qanunverici-normativ baza yaradıldıqdan sonra bankların sayı azaldıldı və fəaliyyətdə olan kredit təşkilatları yeni keyfiyyət əldə etdilər.

Dinamiklik əlamətinə malik olmaqla yanaşı, bank həm də qapalı sistemdir. Belə ki, o öz fəaliyyətinin bir çox cəhətləri haqqında sirləri qoruyub saxlayır və qanunvericiliklə nəzərdə tutulan hallardan başqa heç cür onların yayılmasına imkan vermir.

Bank sistemi özünütənzimləyən bir sistem olmaqla ölkədə qeyri-stabillik və İqtisadi böhran hallarında istehsala uzunmüddətli investisiyaları məhdudlaşdırır, kreditləşmənin müddəti qısalır, bəzən də tam dayandırılır.

Ölkədə İqtisadi sabitlik formalaşan kimi banklar yenidən risklərin azalmasını hiss edərək topladığı faizlər hesabına mənfəət əldə edir.

Azərbay**c**an Respublikasının müasir bank sistemi keçid dövrü sistemidir. Bu sistem bazar modeli şəklində təzahür edərək iki pilləyə ayrılmışdır. Birin**c**i pilləyə ölkədə emissiya, yəni pulun dövriyyəyə buraxılması, manatın sabitliyini təmin etmək, onun alı**c**ılıq qabiliyyətini və məzənnəsini tənzimləmək, kommersiya banklarının fəaliyyətinə nəzarət etmək və s. vəzifələrini yerinə yetirən Milli Bank daxildir. Ikin**c**i pilləyə müəssisələrə, şirkətlərə və ev təsərrüfatlarına müxtəlif növ xidmətlər – kreditləşmə, hesablaşma, kassa, valyuta və s. əməliyyatları göstərən çoxsaylı müxtəlif formalı banklar daxildir. Keçən əsrin 90-**c**ı illərinin əvvəllərindən başlayaraq Azərbay**c**anda çoxlu sayda kommersiya bankları yaranmış, onların sayı 1993-**c**ü ildə 171, 1994-**c**ü ildə 211, 1995-**c**i ildə 240, 1996-**c**ı ildə 180 olmuşdur. Bu banklar iri kapitala malik olmadıqlarından İqtisadi həyatda əhəmiyyətli rol oynaya bilməmişlər. Onların çoxu həm rəqabət, həm də nizamnamə kapitalını lazımi səviyyədə toplaya bilmədikləri və digər səbəblərdən sıradan çıxmış, 2006-**c**ı ilin əvvəlinə onların sayı 44-ə enmişdir. Bazar İqtisadiyyatında əhalinin hər 100000 nəfərinə 10-50 bankın düşməsi normal səviyyə hesab edilir .

Azərbay**c**anın bank sistemi keçid dövrünü yaşayır. Bu sistemdə eyni zamanda həm institusional siyasət, həm də onun özünün transformasiyası həyata keçirilir. Hal-hazırda sistemin fəaliyyətində bazar əlamətləri görünsə də, o, hələ tam inkişaf etməmişdir. Perspektivdə bank sisteminin ünsürləri və onların qarşılıqlı əlaqəsi tam şəkildə bazar İqtisadiyyatının tələblərinə uyğunlaşdırılmalıdır.

Belə bir məsələni vurğulamaq lazımdır ki, Bank sistemi keyfiyyət baxımından qiymətləndirilərkən tək**c**ə onun nə səviyyədə kapitala malik olması deyil, onun istehsala sərmayə qoyuluşu, göstərilən xidmətlərin kəmiyyət və keyfiyyət səviyyəsi və elə**c**ə də İqtisadi proseslərə təsir dərə**c**əsi nəzərə alınmalıdır.

6.2 Azərbaycanda pul-kredit sisteminin tənzimlənməsi istiqamətləri

Bazar İqtisadiyyatına keçid şəraitində ölkənin Milli Bankı düzgün monitar siyasətin həyata keçirilməsinə xüsusi əhəmiyyət verilir. Dünya təcrübəsi göstərir ki, Milli Bank monetar siyasəti öç istiqamətdə aparır. Belə ki, pul təklifinə nəzarət, faiz dərəcəsinə nəzarət bank krediti həcmlərinin səmərələşdirilməsi istiqamətlərində həyata keçirilir.

Qeyd etmək lazımdır ki, ölkədə aparılan bank sisteminin islahatlarına uyğun olaraq daha yüksək uzunmüddətli faiz dərəcələrindən başqa hökumət daha hansı yolla bankları kreditləşmə həcmlərini artırmaqdan və müvafiq olaraq daha aşağı likvidlik əmsalını yerinə yetirməkdən saxlaya bilər. Bunun üçün pula uzunmüddətli tələbin qarşısı alınmalıdır. Ona görə ki, tələb adətən uzunmüddətli faiz dərəcələrinin yüksək səviyyədə saxlanmasına səbəb olur. Lakin bu tədbir də öz növbəsində valyuta məzənnəsini yuxarı qaldırmaqla firmaların ixrac fəallığını çətinləşdirər.

Xaricdən vəsaitlərin axını yalnız o halda meydana çıxa bilər ki, hökumət dünya valyuta bazarında milli valyutanı satmağa davam etməklə valyuta məzənnəsini tarazlıq səviyyəsindən aşağı saxlamış olsun. Hökumət bunu uçun müddət ərzində edə bilmədiyindən bu, pul kütləsinin həddən artıq artımının uzunmüddətli mənbəyi ola bilməz.

Bir qayda olaraq hökumət borclanmaları pul təklifinin artmasına gətirib çıxarma meylinə malikdir. Bunu aradan qaldırmaq üçün dövlət sektorunun vəsaitlərə xalis tələbatı(PSNCR) istiqrazların satışı hesabına maliyyələşdirilməlidir. Bu, bank sektoru tərəfindən aktiv olaraq alına bilən və pul təklifinin artmasına kömək edən veksellərə qarşı yönəlmişdir. Lakin əlavə istiqrazları satmaq üçün hökumət daha yüksək faiz dərəcələri təklif edə biləcəklər. Bu, özəl sektorda faiz dərəcələri üçün sarsıdıcı nəticələrə malik olacaqdır. Beləliklə, dövlət borclanmaları özəl sektorun borclanmalarını və investisiyalarını sıxışdıracaqdır. Əgər hökumət pul kütləsinin artımını azaltmaq və bununla da maliyyə sıxışdırılmasının effektindən qaçanmaq istəsə, onda o, buna müvafiq olaraq PSNCR-in səviyyəsini azaltmalıdır. Ingiltərədə 1980-ci ildə öz yüksək nüfuzunun zirvəsinə çatmış monetaristlər təsdiq edirlər ki, hökumətə öz ortamüddətli və uzunmüddətli pul-kredit strategiyasının mərkəzi hissəsində PSNCR-də ixtisarlar aparılması vacibdir. Bu yalnız dövlət xərclərinin ixtisarına (vergilərin artmasının əksinə) səbəb olduğuna görə deyil, həm də İqtisadiyyatın ictimai sektoruna nisbətən özəl sektorun payını artırmaq baxımından pul təklifi artımının məhdudlaşdırılması vasitəsi olduğuna görə arzuolunan təklifdir.

Qeyd etmək lazımdır ki, monetaristlər məhz özəl sektora istehsalın və məşğulluğun uzunmüddətli artımının başlıca mənbəyi kimi baxırlar. Böyük Britaniyada 1980-ci ildə mühafizəkarların hökuməti tərəfindən qəbul edilən ortamüddətli maliyyə strategiyası məhz yuxarıda qeyd edilən tədbiri həyata

keçirməyə cəhd etdi. Pul kütləsi artımı üçün məqsədli oriyentirlər müəyyən etməklə o, həm də PSNCR ÜDM-dən faizlərlə kontral rəqəmlər verdi.

Dünya təcrübəsində pul təklifi üzərində nəzarətə aşağıdakı iki yanaşma mövcuddur. Birincisi, bank sistemində likvidlik səviyyəsini dəyişməkdən ibarətdir ki, bunun da əsasında kredit yaradılır. Məsələn, tutaq ki, banklar 10%-lik sərt nəğdlik əmsalı ilə fəaliyyət göstərir və yalnız iki aktiv növünə:nəğd pul və kreditə malikdirlər. Həmçinin fərz edək ki, hakimiyyət banklarda nəğd pulun həcmini 1 mln. manat azaltmaq iqtidarındadır. Belə ki, bank multiplikatoru 10-a (=1/nağd vəsaitlərin əmsalı) bərabərdir, kreditlər 9 mln. manata qədər, pul təklifi isə müvafiq olaraq 10 mln. manata qədər ixtisar olunmalıdır.

Ikinci yanaşma ehtiyatların həcminin depozitlərə nisbətini dəyişməklə bank multiplikatorunun kəmiyyətini dəyişdirməkdən ibarətdir. Beləliklə, əgər bank multiplikatorunu azaltmaq mümkün olarsa, onda istənilən bu ehtiyat bazasında kreditin həcmi də ixtisar olunmalıdır.

Qeyd etmək lazımdır ki, bankların etibarlı və sağlam fəaliyyətinin təmin edilməsinə nail olmaq üçün onların zəruri həcmdə resurslara malik olması son dərəcə vacibdir. Etibarlı bank sisteminin formalaşması zəruriliyi isə manatın sabitliyinin təmin olunması, rəsmi qızıl-valyuta ehtiyatlarının azalmasına imkan verilməməsi, bank əmanətçilərinin maraqlarının müdaifə olunması, eləcə də etibarlı hesablaşma sisteminin və kassa xidmətinin təşkili ilə şərtlənir.

Ölkədə pul tədavülü mexanizmini formalaşdırarkən əsas məsələ İqtisadi artımın təmin edilməsi üçün ölkə İqtisadiyyatına nə qədər və hansı pulların lazım olmasını müəyyən etməkdən ibarətdir. Bu zaman pul kütləsi artımının tənzimlənməsinin və maliyyə-pul sisteminin fəaliyyətinin məqsədli istiqamətlərinin seçilməsi əsas xətt kimi götürülməlidir. Son illərin əsas makroİqtisadi göstəricilərinin dinamikasının təhlili göstərir ki, pul kütləsi həcminin İqtisadiyyatın tələbatına uyğunluğu problemini həll etmədən İqtisadi artımın dayanıqlı olması problemini də sona qədər həll etmək mümkün deyildir. Lakin belə bir arqument gətirmək olar ki, əmtəə-pul tarazlığının təmin edilməsi üçün pul kütləsinin həcmi bütün əmtəə və xidmətlərin dəyərinə uyğun olmalıdır, yəni dövriyyədə əmtəə və xidmətlərin dəyəri həcmində pul olmalıdır. Elə bu müddəadan da başlıca paradoks yaranır. Əgər pul kütləsi qiymətlərin artım sürətinə uyğun nisbətlərdə artırılarsa, onda İqtisadi mexanizm sürətlə hiperinflyasiya spiralına daxil olacaqdır. Lakin dövriyyədəki pulun həcmi artırılmazsa, onda aşağı inflyasiya şəraitində istehsalın uzunmüddətli və dərin tənəzzülü baş verəcəkdir. Milli bank tədavül üçün zəruri olan pul kütləsinin (miqdarının) düzgün müəyyən edilməsinə xüsusi əhəmiyət verilir.

Tədavül üçün zəruri olan pul kütləsinin (miqdarının) pul tarazlığı düsturu aşağıdakı kimidir:

$$M=PY/V,$$

burada P- qiymət indeksi, Y- məhsul həcmi; V- dövriyyə sürəti.

Pulun miqdar nəzəriyyəsinə, daha dəqiq desək, mübadilə tənliyinə görə pul kütləsi pulun dövriyyəsi sürətindən asılıdır: bütun digər bərabər şəraitlərdə

(qiymətlərin səviyyəsi və ÜDM-in real həcmi) pulun dövriyyə sürəti nə qədər yüksək olarsa, illik ÜDM istehsalına xidmət üçün bir o qədər az pul kütləsi lazım olacaqdır.

Dövriyyə sürəti özündə il ərzində pul kütləsi dövrlərinin sayını əks etdirir və hər bir dövr gəlirlərinin xərclənməsinə xidmət edir. Ona görə də P. Samuelson belə hesab edir ki, pulun dövretmə sürəti gəlirin dövretmə sürətini göstərir. Pulun dövriyyə sürəti maliyyə sistemindəki fasilələrdən, gələcək vərdiş, mülahizə və məqsədlərdən, eləcə də müxtəlif təşkilat növləri və müxtəlif gəlirli əhali qrupları arasında pul kütləsinin bölüşdürülməsindən asılı olaraq dəyişir.

Pulun döv

riyyə sürəti amillərinin çoxluğu və onların qarşılıqlı asılılığı haqqında İqtisadi ədəbiyyatda çoxlu mübahisələrə rast gəlinsə də qeyd etməliyik ki, bu göstəricinin dinamikasına xeyli sayda təkcə obyektiv deyil, həm də subyektiv amillər təsir göstərir. Beynəlxalq müqayisələrdə pulun dövriyyə sürəti müəyyən vaxt, məsələn, il ərzində pul vahidi ilə xidmət göstərilən transaksiyanın miqdarı (daha dəqiq desək, ÜDM vahidinin miqdarı) kimi müəyyən edilir.

P. Samuelson ABŞ-ın 1939-1960-cı illərinin statistik məlumatları əsasında pulun dövriyyə sürətinin dinamikasını tədqiq edərək aşağıdakı nəticəyə gəlmişdir: "Tarixən müşahidə olunur ki, uzun müddət ərzində V, yəni pulun dövriyyə sürəti real gəlirin artımı həddində bir qədər aşağı düşməklə azaldıcı amil kimi çıxış edir. Qısamüddətli dövri tərəddüdlər ziddiyətli xarakterə malikdir. Belə ki, istehsal və real gəlirlər artdıqca bir qayda olaraq, V də qısa müddət ərzində qalxır; istehsal azaldıqda isə V də enir".

M. Fridmen öz tədqiqatlarında ABŞ üçün daha qəbul edilən pul kütləsinin artım templərinə pul dövriyyəsi sürətinin bir qədər aşağı salınması nöqteyi-nəzəri meylindən yanaşmışdır. Onun fikrincə, ABŞ və bəzi Qərbi Avropa ölkələri üçün pul kütləsinin orta illik artım tempi 4- 5% cuvarında götürülməlidir. İqtisadçı alim konkret olaraq ABŞ üçün real ÜDM artımını 3% və pul kütləsinin dövretmə sürətinin bir qədər azaldılmasını təklif etmişdir.

2005-ci ildə müdaxilə nəticəsində artan pul kütləsinin inflyasiya yaradan hissəsi notlar vasitəsilə sterilizasiya edilmiş, habelə bank sisteminin qısa-müddətli likvidliyinin tənzimlənməsində REPO əməliyyatlarından istifadə olunmuşdur. Nəticədə pul bazası 2005-ci il ərzində cəmi 7,5 faiz artmışdır ki, bu da 2005-ci ilin müvafiq göstəricisindən 30,8 faiz bəndi azdır.

Qeyd etmək lazımdır ki, respublikamızda monetizasiya səviyyəsi (6,7%) İqtisadi təhlükəsizliyin beynəlxalq səviyyədə qəbul edilən astana kəmiyyətindən (50%) xeyli (43,3 faiz bəndi) geri qalır. Inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, pul kütləsinin ÜDM- ə nsibətinin müvafiq təhlükəsizlik indikatorundan xeyli aşağı olması İqtisadi proseslərin gedişində xoşagəlməz halların formalaşması mənbəyi kimi çıxış edir.

AR Milli Bankının hesablamalarına görə, uzunmüddətli investisiya qoyuluşlarının mühüm mənbəyi olan "uzun pulların" cəmi pul kütləsində payı

(uzunmüddətli depozitlərin M3- də xüsusi çəkisi) 2003- cü ildə 2002- ci ilə nisbətən 2,5 dəfə artaraq 12,3%- ə, 2004- cü ildə isə 2003-cü ilə nisbətən 1,6 faiz bəndi artaraq 13,6%- ə çatmışdır. Onu da qeyd edək ki, bu proseslərin sürətlənməsinə təsir edən ən mühüm amillərdən biri də tədricən ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşmasıdır. Belə ki, əgər 2003- cü ildə əhalinin nominal pul gəlirləri 14,1%, orta aylıq əmək haqqı 21,4% artmışdırsa, bu göstəricilərin 2004- cü ildə müvafiq olaraq 20,7% və 26,2% təşkil etməsi ölkədə pul kütləsinin yığım bazasının xeyli genişlənməsini təmin etmişdir.

2005-ci ildə isə pul gəlirləri 2004-cü illə müqayisədə 27,0%, orta aylıq əmək haqqı 24,3%, adambaşına düşən pul məbləği isə 25,7% artmışdır. Beləliklə, 2005-ci ildə adambaşına pul məbləğinin sürətli artımı nəticəsində həmin məbləğ 4,7 mln. manat təşkil etmişdir ki, bu da orta hesabla aya 392,2 mln manat, günə isə 13 min manat (2,7 dollar) düşdüyünü göstərir. Nəticədə əhalinin pul gəlirlərinin artım sürəti inflyasiyanın səviyyəsini 2,8 dəfə üstələyir. Bu isə o deməkdir ki, 2005-ci ildə əhalinin pul gəlirlərinin real artımı 16% təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 31 may 2005- ci tarixli Fərmanı ilə ölkənin Mərkəzi Bankına tapşırılmışdır ki, dövriyyədə olan pul kütləsinin həcmini tənzimləmək, qiymətli kağızlar bazarını genişləndirmək və ona məxsus notların satışını artırmaq məqsədilə əlavə tədbirlər keçirsin. Bununla yanaşı, manatın xarici dönərli valyutalara nisbətən məzənnəsinin müəyyənləşdirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə tədbirlərin görulməsi, habelə, əhalinin mənzil şəraitini yaxşılaşdırmaq və sərbəst pul kütləsini daşınmaz əmlak bazarına yönəltmək məqsədilə ipoteka kreditinin yaradılması və inkişafı üzrə dövlət proqramının işlənib hazırlanması nəzərdə tutulmuşdur. Bundan əlavə, ölkədə həyata keçirilən alqı-satqı əməliyyatlarında, o cümlədən ticarət şəbəkələrində xarici valyutalarla hesablaşmaların qarşısını almaq məqsədilə hüquqi, inzibati və təşkilati tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zərurəti əsaslandırılmışdır.

Beləliklə, yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ölkədə İqtisadi artım sürətinin dayanıqlı olmasını təmin etməyin əsası ÜDM- in pul kütləsinin həcminə uyğunluğunun tənzimlənməsindən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, dövriyyədəki pul kütləsi həcminin dəyişməsinə ani müddətdə reaksiya verən qiymətlərin nəzarətsiz yüksəlişi şəraitində pulun dövretmə sürətinin nizamlanması tədbirləri yalnız qısamüddətli səmərə verə bilər. Yaddan çıxarmaq olmaz ki, İqtisadi artım yalnız tədiyəqabiliyyətli tələbin səviyyəsinin əmtəə təklifinə uyğunluğu şəraitində mümkündür. Əgər tələb davamlı olaraq təklifdən geri qalarsa, onda bizim son vaxtlar şahidi olduğumuz əmtəə təklifi də ixtisar olunacaqdır.

Odur ki, ölkədə pul kütləsinin tənzimlənməsi və dövlətin maliyyə-pul sisteminin təhlükəsizliyinin möhkəmləndirilməsi üçün pul tədavülünün normallaşdırılması, ölkədaxili qarşılıqlı ödəmələrin "bağlanması", mərkəzdə

və yerlərdə səmərəli və dayanıqlı fəaliyyət göstərən kredit- hesablaşma bazasının yaradılması və İqtisadiyyatın monetizasiyası sahəsində tədbirlərin həyata keçirilməsi zəruridir.

6.3. İqtisadiyyatın inkişafında bankların rolunun artırılması

Respublikada aparılan uğurlu islahatlar nəticəsində son illər ərzində ölkədə yüksək makroİqtisadi dinamika və işgüzar fəallıq İqtisadiyyatda kreditə olan tələbatı artırmış, artan tələbata uyğun şəkildə bank sistemi kredit resurslarının təklifini xeyli genişləndirmişdir.

Kreditlər üzrə orta faiz dərəcələri nisbətən sabit qaldığına görə, 2006-cı il ərzində kreditlərin həcmi 65% artmışdır ki, bu da 2005-ci ildəki müvafiq artım tempindən 10,1 faiz bənd çoxdur. Ölkənin kredit bazarında uzunmüddətli kreditlərin həcmi 2005-ci illə müqayisədə 2006-cı ildə 2,3 dəfə artmış və onun cəmi kredit portfelində payı 14 faiz bəndi yüksələrək bütövlükdə kreditlərin 50,6 faizinə bərabər olmuşdur. Əslində bu hal neft gəlirlərinin qeyri-neft sektorunun kapitalizasiyasına sürətlə transformasiya olunmasının nəticəsidir.

Qeyd etmək lazımdır ki, bankların kredit aktivliyinin artması məcmu tələbin maliyyələşməsində bank sisteminin iştirakının daha da artmasının nəticəsi olmaqla bank sisteminə inamın tədricən bərpa olunmasının əyani nümunəsidir. Son illər ölkə əhalisinin real gəlirlərinin artması, bank sektorunun davamlığının möhkəmlənməsi, kreditorların və əmanətçilərin hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi nəticə etibarilə əhalinin əmanətlərinin sürətli artımına səbəb olmuşdur. Belə ki, 2005-ci ildə əhalidən cəlb olunmuş əmanətlərin məbləği 1997- ci ilə nisbətən 15,7 dəfə, 2000-ci ilə nisbətən 6,2 dəfə artaraq 2006-cı ilin əvvəlinə 2,5 trilyon manata yaxın olmuşdur. 2006-cı ilin on bir ayında əhalinin pul gəlirlərinin istifadəsi strukturunda yığıma sərf olunan vəsaitlərin payı 18,3% təşkil etmişdir ki, bunun da nəticəsində əhalinin əmanətləri 55,5%, o cümlədən uzunmüddətli əmanətləri 36,5% artmışdır.

2005-ci ildə 1997- ci ilə nisbətən əhalidən cəlb olunmuş əmanətlərin məbləği dövlət banklarında 12,1 dəfə, özəl banklarda isə 20,2 dəfəyə yaxın artdığı halda, 2000-ci illə müqayisədə bu artım tempi dövlət banklarının xeyrinə dəyişməklə, müvafiq olaraq 6,1 dəfə və 6,4 dəfə təşkil etmişdir. Nəticədə əhalidən cəlb olunmuş əmanətlərin ümumi məbləğində dövlət banklarının xüsusi çəkisi 2005- ci ildə 2003- cü ilə nisbətən 58,5%- dən 43,8%- ə enmiş, özəl bankların xüsusi çəkisi isə 41,5%- dən 56,2%- ə qalxmışdır. Bunun əsas səbəbi özəl banklarda xarici kapitalın iştirakı ilə əhalidən cəlb olunmuş əmanətlərinin məbləğinin həmin dövrdə birdən- birə 2 dəfədən çox yüksəlməsi olmuşdur.

Bununla yanaşı, kredit qoyuluşlarının strukturunda özəl bankların payının artımı müşahidə olunur. Belə ki, kredit qoyuluşlarında özəl bankların payı əgər 1995- ci ildə 19,9% təşkil edirdisə, 2000- ci ildə bu göstərici 34,5%-

ə, 2005-ci ildə isə 46,6%-ə çatmışdır. Lakin bununla belə, 2004-2005-ci illərdə özəl bankların kredit qoyuluşlarının ümumi həcmində xüsusi çəkisi 2003-cü ilin səviyyəsinə (51,1%) nisbətən bir qədər azalmış və müvafiq olaraq 46,6% və 45,3% təşkil etmişdir.

Onu da qeyd edək ki, 2004-2005-ci illərdə Azərbaycanda İqtisadi artımın sürətlənməsi, İqtisadi agentlərin maliyyə potensialının güclənməsi, investisiya fəallığının artması kredit qoyuluşları üzrə tələb və təklifin artmasına səbəb olmuşdur. Bununla əlaqədar olaraq həmin illərdə banklar tərəfindən İqtisadiyyata kredit qoyululşlarının yüksək artım dinamikası müşahidə olunmuşdur.

Son dövrün məlumatları göstərir ki, kredit qoyuluşlarının artmasının başlıca mənbəyi olan əmanət və depozitlərin məbləği 2005-ci ildə 25,6% artaraq 6440,1 mlrd. manat təşkil etmişdir. Bununla yanaşı İqtisadi agentlərin beynəlxalq aləmdə reytinqinin yüksəlməsi nəticəsində ölkəyə daxil olan xarici kapital (o cümlədən Azərbaycan banklarının xaricdən aldıqları kreditlər), habelə bank kapitalının artması kredit qoyuluşlarının sürətli artımına şərait yaratmışdır.

2005-ci ildə kredit qoyuluşunun 97,3%-ni banklar tərəfindən verilən kreditlər, 2,7%-ni isə qeyri-bank kredit təşkilatlarının kreditləri təşkil etmişdir. Qeyri-bank kredit təşkilatlarının kredit qoyuluşunda "Aqrarkredit" qeyri-bank kredit qurumunun payı 29,7% təşkil etmişdir (cəmi kredit qoyuluşunda 0,8%). 2006-cı ilin əvvəlinə kredit qoyuluşlarında özəl bankların payı 45%-i ötmüşdür.

AR Milli Bankının hesablamalarına görə, maliyyə vasitəçiliyinin inkişafının mühüm göstəricisi olan və bank sisteminin pul yaratmaq qabiliyyətini xarakterizə edən pul multiplikatoru 2005-ci illə müqayisədə 2006-cı ildə 12,2% artaraq 1,3-ə bərabər olmuşdur. Bununla da bank sistemi Milli Bankın yaratdığı hər 1 manat pulu 1,3 manat yeni pula çatdırmışdır.

Makroİqtisadi sabitliyin qorunmasına yönəldilmiş sterilizasiya əməliyyatları maliyyə bazarının genişlənməsinə səbəb olmuş, dövlət qiymətli kağızlar bazarının ümumi həcminin 70 faizə qədəri Milli Bankın notlarının payına düşür. Bu isə o deməkdir ki, 2006-cı ildə Milli Bankın dövriyyədə olan notlarının həcmi 2005-ci illə müqayisədə 3 dəfədən çox artmışdır.

Son illər ölkədə İqtisadi fəallığın daha da artması fond bazarının durumuna da müsbət təsir göstərmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2006-cı ildə ölkənin ilkin səhm bazarında buraxılmış səhmlərin həcmi 2005-ci ilə nisbətən 1,3 dəfə, korporativ istiqrazların həcmi isə 11 dəfə artmışdır. Hazırda korporativ istiqrazların emissiyasının 84%-i kommersiya banklarının payına düşür.

İqtisadi islahatlar şəraitində yüksək makroİqtisadi dinamika və bank sisteminin inkişafı maliyyə sabitliyinin diqqət mərkəzində saxlanmasına gətirib çıxarmışdır. Baza inflyasiyanın təkrəqəmli səviyyəsinə nail olmasına yönəlmiş pul və məzənnə siyasəti ölkədə maliyyə sabitliyinin qorunmasını təmin etmişdir. Bundan başqa, bankların kapitallaşması və aktivlərin keyfiyyətinin tənzimlənməsi bankların maliyyə dayanıqlığının artırılmasına şərait yaratmışdır.

Banklarda səmərəli korporativ idarəetmə standartlarının tətbiqi isə sistem üzrə risklərin daha effektiv idarə olunmasına imkan vermişdir. Bank sisteminin əhatə dairəsinin regionlara doğru xeyli genişlənməsi və əhalinin bank sisteminə inamın artması İqtisadiyyatın maliyyə sağlamlığının yüksəlməsinə səbəb olmuş və 2006-cı ildə bank aktivlərinin qeyri-neft ÜDM-də xüsusi çəkisi 2005-ci ilə nisbətən 7 faiz artaraq 39 faizə çatmışdır.

Gələcəkdə də bank sisteminin maliyyə sabitliyinin qorunması məqsədilə bankların kapital bazasının möhkəmləndirilməsinə, bank sisteminin institusional bazasının, o cümlədən korporativ idarəetmə sisteminin, xüsusilə də risk menecmentinin daha da genişləndirmək məqsədilə maliyyə sisteminin institusional inkişafı istiqamətində tədbirlər davam etdirilməlidir.

Azərbaycan Respublikasında bütün maliyyələşmə mənbələri üzrə istifadə edilmiş investisiyaların dinamikası

	İ L L Ə R						2005-ci il 2000-ci ilə nisbətən
	2000		2002		2005		
	mln. manat	yekuna görə, faizlə	mln. manat	Yekuna görə, faizlə	mln. manat	yekuna görə, faizlə	faizlə
Əsas kapitalla investisi-yalar, cəmi	967,8	100,0	2107,0	100,0	5769,9	100,0	596,2
O cümlədən: müəssisə və təşkilatla-rın öz vəsaitləri	689,2	71,2	1746,7	82,9	4767,0	82,6	691,7
əhalinin xüsusi vəsaiti	45,5	4,7	86,4	4,1	331,8	5,7	729,2
bank kreditləri	131,6	13,6	164,3	7,8	372,1	6,4	282,7
büdcə vəsaitləri	28,4	2,9	48,5	2,3	193,6	3,4	681,7
Başqa təşkilatların borc vəsaitləri	12,2	1,3	–	–	–	–	–
Budcədən-kənar fondların vəsaitləri	8,3	0,9	44,3	2,1	72,7	1,3	875,9
sair vəsaitlər	52,6	5,4	16,8	0,8	32,8	0,6	62,4

Cədvəldən göründüyü kimi 2005-ci ildə 2000-ci ilə nisbətən əsas kapitala investisiyaların tərkibində müəssisə və təşkilatların öz vəsaitlərinin artım tempi (6,9 dəfə) bank kreditlərinin artım tempini (2,8 dəfə) 2,5 dəfəyə yaxın üstələdiyinə görə, əsas kapitala investisiyalarda bank kreditlərinin xüsusi çəkisi 2000- ci ildəki 13,6%- dən 6,4%- ə enmişdir.Inkişaf etmiş ölkələrdə əsas kapitala investisiyanın tərkibində bank kreditinin payı 80%- ə yaxın olduğu halda Azərbaycanda bu göstərici 27-30% civarındadır. Müqayisə üçün qeyd edək ki, Rusiyada bütün növ bank kreditlərinin həcmi ÜDM- in 10-12%- ni, Qərbi Avropa ölkələrində 80-120%- ni təşkil edirsə, Azərbaycanda bu göstərici 2,7-3,2 arasında tərəddüd edir.

Bank sisteminin inkişaf etdirilməsi, onun sabitliyinin və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görüləcək bütün tədbirlər, habelə ölkə Prezidentinin sahibkarlığın inkişafı ilə bağlı bütün fərmanların həyata keçirilməsi bank sistemini möhkəmləndirməklə onun İqtisadiyyatdakı rolunun yüksəldilməsində, sahibkarlığa maliyyə dəstəyinin daha da artırılmasında və səmərəli maliyyə sisteminin formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Bu məqsədlə İqtisadiyyatın inkişafı üçün şəraitin və maliyyə resurslarının təminatı xeyrinə daxili kreditin yenidən bölüşdürülməsi və struktur cəhətdən yenidən qurulması, istehsalın və ticarətin investisiyalaşdırılmasına yönəldilən daxili kredit payının artırılması və hökumətin qeyri-investisiya məqsədləri üçün həddən artıq şişirdilmiş borc maliyyələşməsi payının ixtisar edilməsi meyli aydın ifadə olunmalıdır.

Qanunvericilik bazasının möhkəmləndirilməsi hesabına kredit bazasının genişləndirilməsi, daşınmaz əmlak və torpaq üzərində uzunmüddətli ipoteka kreditləşməsi və mövsümi xərclər üzrə ənənəvi ssudaların bir hissəsinin məhsul girovu üzrə kreditlərə transformasiyası mexanizmlərinin işlənib hazırlanması. Ipoteka kreditləşməsinə İqtisadiyyatda tələbin kreditləşməsi kimi baxmaq olar, çünki burada müəyyən əmtəə və xidmətlərin istehlakçıları kreditləşdirilir.

Azərbaycanın bank sistemində xarici kapitalın iştirak dərəcəsinin artırılması məsələsinə xüsusi diqqət yetirilməkdədir. Bu məqsədlə kredit-bank sisteminin formalaşması və möhkəmləndirilməsi üzrə milli proqramın işlənib hazırlanması və qəbul edilməsi, əmanətlərin sığortalanması sisteminin təşkili, bank sistemində rəqabət mühitinin təmin edilməsi, mikromaliyyələşdirmə institutlarının inkişaf etdirilməsi, olduqca vacibdir.

6.4. Azərbaycanda pul, valyuta, kapital bazarlarının problemləri və inkişaf perspektivləri

Azərbay**c**an Respubilkasının maliyyə bazarı, qiymətli kağızlar bazarından əlavə kredit və valyuta bazarı kimi sektorları da özündə birləşdirir. Bütün İqtisadiyyatın, o **c**ümlədən, maliyyə bazarının tam, kompleks şəkildə inkişaf edə bilməsi üçün bu seqmentlər hamısı inkişaf etməli, bütün imkanlardan istifadə edilməlidir.

İqtisadi ədəbiyyatda «Kredit və valyuta bazarı» terminləri ilə yanaşı çox zaman «pul və kapital bazarı» terminləri də işlədilir.

Kredit bazarının problemlərindən danışarkən, topdansatış kredit bazarının (yəni banklararası kredit bircaları vasitəsilə həyata keçirilən əməliyyatlar) və pərakəndəsatış kredit bazarının (yəni kreditorlar və müştərilər arasında yaranan alqı-satqı münasibətləri) problemlərini araşdırmaq lazım gəlir.

Kredit bazarının müasir vəziyyətini araşdırarkən, onun gələ**c**ək pesrpektivdə hansı problemlərinin həll edilməli olduğunu da nəzərdən keçirdik. Bu yenə də kredit resurslarının tapılması, alqı-satqı prosesini qanuniləşdirən

normativ-hüquq qaydalarının dəqiqiliyi, kredit risklərinin azaldılması ilə əlaqədar tədbirlər və s. kimi problemlərdir.

Azərbay**c**an Respublikasında keçid İqtisadiyyatı şəraitində yaxın dövr üçün məqsəd xari**c**i kreditlərin **c**əlb edilməsindən ibarət olmalıdır. Bunun üçün kredit vəsaitləri istər milli, istərsə də xari**c**i valyutada yerləşdirilməsinə şərait yaratmaq lazım gəlir. Son illərdə bu sahədə bir sıra müvəffəqiyyətli addımlar atılmış və onun davam etdirilməsi lazım gəlir.

2005-2006-**c**ı illərdə BBVB-də banklararası kredit sövdələşmələrinin göstəri**c**ilərindən görünür ki, bu illər ərzində kredit bazarında dinamik artım olmuşdur. Belə ki, banklararası kredit bazarında illik faiz 2005-**c**i ildəki 7,70 %-dən 2006-**c**ı ildə 9,16 %-ə yüksəlmişdir. Bu ilk növbədə kredit bazarında tələbin artması prosesi ilə izah edilir.

2006-**c**ı ilin ilk 9 ayı ərzində BBVB-nın dövriyyəsi 1,7 milyard manatı keçmişdir ki, bu da onun fəaliyyəti dövründə ən yüksək nəti**c**ə kimi qiymətləndirilir. Bu 9 ayın dövriyyəsi bütövlükdə 2004 və 2005-**c**i illərin göstəri**c**ilərindən yüksək olmuşdur.

Cədvəl 1.

BBVB-də banklararası kredit auksionunun göstəriciləri

Ticarətin tarixi		**Illik %**	**Məbləğ (AZN)**
2005	Yanvar	7,00	1 680 000
	Fevral	7,00	3 260 000
	Mart	7,00	14 850 000
	Aprel	7,00	4 710 000
	May	7,38	1 200 000
	Iyun	7,50	6 222 000
	Iyul	8,00	5 400 000
	Avqust	8,00	6 400 000
	Sentyabr	8,00	12 700 000
	Oktyabr	9,00	1 900 000
	Noyabr	9,00	2 200 000
	Dekabr	9,00	4 900 000
	2005	**7,70**	**65 022 000**
2006	Yanvar	9,00	3 180 000
	Fevral	9,00	6 900 000
	Mart	9,00	14 900 000
	Aprel	9,00	1 100 000
	May	9,00	4 850 000
	Iyun	9,00	6 900 000
	Iyul	9,50	10 300 000
	Avqust	9,50	6 700 000
	2006	**9,16**	**54 830 000**

Sənayecə inkişaf etmiş ölkələrdə müasir pul bazarı 70-ci illərin ortalarından başlayaraq inkişaf etməyə başlamışdır. Həm də qızıl standartdan əl çəkilməsi və ölkələrin çoxunun sərbəst («üzən») valyuta kursuna keçməsi bu prosesin inkişafına təkan vermişdir. Azərbaycan Respublikasının bazar İqtisadiyyatına keçməsi ilə əlaqədar pul bazarı ölkəmizdə də inkişaf etməyə başladı. Deməli, pul və valyuta bazarının perspektiv inkişafı həmin meyllərin davam etdirilməsini tələb edir.

Məlum olduğu kimi, tarixən birca ticarəti özü bircadankənar formanın tənzimlənən formaya tərəf inkişafı nəticəsi olaraq meydana gəlir. Ona görə də 2000-ci ildə BFB-nın yaradılması maliyyə bazarının, o cümlədən qiymətli kağızlarla birca ticarətinin mədəni formasının formalaşmasında mühüm mərhələ olmuşdur. Bu inkişaf meylinə əsaslanaraq qeyd etmək olar ki, bizdə bircanın, o cümlədən kredit, pul və kapital bazarlarının inkişafı xeyli dərəcədə qeyri-müntəzəm xarakter daşıyan bircadankənar ticarət formalarının öz yerini getdikcə tənzimlənə bilən sivil birca ticarətinə verməsi, bu sonuncunun rolunun və əhəmiyyətinin getdikcə artması istiqamətində baş verməlidir.

Lakin bircadankənar ticarət formasının getdikcə aradan çıxdığını güman etmək də səhv olardı. Görünür, müəyyən bircadankənar ticarət özü də yeni şəraitə uyğunlaşır, inkişaf yolu tapır. Ona görə də inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrdə maliyyə alətlərinin tədavülündə fond bircalarının əhəmiyyətli rol oynamasına baxmayaraq, bazar alətlərinin alqı-satqısı üzrə bircalarının xüsusi çəkisi hətta azalmaq meyli göstərir. Kompüter texnikası və rabitə şəbəkəsindən istifadəyə əsaslanın yeni formalı bircadankənar təşkilatların maliyyə bazarı alətləri ilə ticarəti dövriyyəsi genişlənmək meyli göstərir.

Bircadankənar ticarətin artmasına əsas verən mühüm amillərdən biri də bircaya dair qanunların hələ təkmil olmaması və ticarətçilərin mühasibat uçotu aparmaq istəməsidir. Bu səbəblərə görə hətta hecerlər də bircadankənar ticarətə əl atırlar.

Hazırda Azərbaycan Respublikasının Milli Bankı tərəfindən yeridilən pul-kredit siyasəti nəticəsində kreditlərdən istifadə səmərəliliyinin yüksəldilməsi üçün əlverişli şərait yaranmışdır. Təsadüfi deyildir ki, 2006-cı ildə İqtisadiyyata 2362,7 milyon manat kredit qoyulmuşdur və bu ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 64 %-ə qədər çox olmuşdur. Verilmiş kreditlərdən 48,3 %-i qısamüddətli, 51,7 %-i isə uzunmüddətli olub. 2000-ci ildə isə bu göstərici müvafiq olaraq 72 % və 28 % olmuşdur.

Göründüyü kimi, uzunmüddətli kredt qoyuluşlarının xüsusi çəkisi artmışdır. Bu İqtisadi inkişaf prosesi ilə, bank sisteminin inkişafı ilə əlaqələndirilir. Statistik məlumatlara görə, 1 yanvar 2006-cı il tarixə bankların müştərilərə vermiş olduqları qaytarılmamış kreditlərin məbləği 1268,88 mln. manat, 1 yanvar 2007-ci il tarixə isə bu 2128,6 milyon manat olmuşdur. Qeyd edilən bu bir il ərzində ölkədə bank aktivlərinin həcmi 2251,98 mln. manatdan 3778,0 mln. manata çatmışdır. Qeyd etmək lazımdır ki, son dövrdə bank aktivlərin bütün elementləri üzrə ciddi dəyişiklik baş vermişdir, maliyyə

sektoruna qoyulmuş kreditlərin həcmi 95,6 milyon manatdan 151,4 milyon manata çatmışdır, bu şübhəsiz ki, həm də maliyyə bazarının inkişaf göstəricisidir.

Cədvəl 2.

Bank aktivlərinin strukturu

	01.01.2006		01.05.2006		01.01.2007	
	Mln. manat	**yekunda %-lə**	**mln. manat**	**yekunda %-lə**	**mln. manat**	**yekunda%-lə**
Nağd vəsaitlər	109,7	4,87	139,6	5,5	214,9	5,7
Müxbir hesablar	462,46	20,54	382,0	15,1	727,6	19,3
Maliyyə sektoruna verilmiş kreditlər və depozitlər	95,54	4,25	301,0	11,9	151,4	4,0
Müştərilərə kreditlər	1268,88	56,35	1340,5	53,1	2128,6	56,3
Investisiyalar	111,76	4,96	116,5	4,6	230,6	6,1
Digər aktivlər	203,54	9,04	246,1	9,7	324,7	8,6
Cəmi aktivlər	2251,98	100,0	2525,7	100,0	3778,0	100,0

Mənbə: AMB, Bülleten, №4, aprel 2007

Belə bir məsələni göstərmək lazımdır ki, uzunmüddətli kredit qoyuluşlarının xüsusi çəkisinin az olmasını şərtləndirən mühüm amillərdən biri də bu sahədə kredit risklərinin hələ də yüksək olmasıdır. Gələcəkdə bu risklərin azalması, investorların öz işini daha inamla görməsi maliyyə bazarının, xüsusilə bircanın informasiya sistemi ilə təmin olmasından asılı olacaq.

Informasiya sisteminin mövcud olması və lazımi qaydada işləməsi təkcə fond bircası, pul, valyuta, kredit bazarları üçün yox, ümumiyyətlə sahibkarlıq fəaliyyəti üçün zəruri bir şərtdir. Xarici ölkələrin təcrübəsinə əsaslanaraq, Azərbaycanda sahibkarlığın, o cümlədən maliyyə bazarı seqmentlərinin gələcəkdə lazımi informasiya ilə təmin olunmasını sahəsində xeyli iş görülməlidir.

Qarşıdakı məqsədlər konkret sahələrdən asılı olaraq müxtəlif olsa da, onların hamısı bir çox cəhətdən öz formasına görə bu işdə daxili və xarici, əlverişli və etibarlı, İqtisadi, hüquqi və elmi cəhətdən əsaslandırılmış informasiyaların çatdırılmasında mühüm rol oynayır.

Belə ki, burada informasiyanın hansı mənbə hesabına əldə edilməsi, sahibkarlıq qarşısında qoyulan tələblər kimi məsələlərin düzgün həll edilməsi zərurəti ortaya çıxır. Şübhəsiz ki, gələcək perspektivdə bu tələblər daha çox

artacaq və sərt şəkildə qarşıya qoyulacaq (bu rəqabətin kəskinləşməsi, işlərin keyfiyyət parametrlərinə tələbkarlığın artması kimi amillərlə əlaqədar olacaq).

Öz mənbəyinə görə pul, valyuta və kapital bazarlarına xidmət etməli olan informasiyalar perspektivdə xarici və daxili mənbələrdə şəxsi sahibkarların verdiklərindən ibarət olmalıdır. Məsələn, belə daxili informasiya mədaxili, gəlir və zərər, pul, valyuta, kredit və kapital dövriyyəsi, məsrəflər və s. haqda olmalıdır. Xarici informasiya tədqiq olunan ölkə, region, yaxud sahədəki İqtisadi vəziyyət, istehlakçılar, rəqabət, istehsalçılar, beynəlxalq aləmdə baş verən hadisələr və s. haqda əldə edilməlidir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, düzgün idarəetmə işi üçün son dərəcə zəruri olan bu informasiya məqsədyönlülük və yüksək keyfiyyətlilik tələbatlarına tam cavab verməzsə, onlar az yararlı olurlar.

Qeyd etmək lazımdır ki, pul və kredit bazarlarının səmərəli işləyə bilməsi üçün onların üç əsas meyara malik olmaları zəruridir: yüksək likvidlik; aydın və uzun müddət dəyişməyən ticarət qaydalarının olması; kifayət qədər anlaşılan göstəricilər dinamikasına malik olması.

Bu problemlərin heç birini respublikamızda artıq həll edilmiş hesab etmək olmaz. Onların hər üçü xeyli dərəcədə müəyyənləşmiş, formalaşmışlar, lakin bu proses hələ getməkdədir.

Azərbaycanda maliyyə bazarının hələ tam «ayağa qalxa» bilməməsinin bir əlaməti və nəticəsi (hətta müəyyən mənada səbəbi) də onun xeyli dərəcədə xaricilərdən asılı olmasıdır. Belə ki, respublikamızda fəaliyyət göstərən 44 kommersiya bankının 2-si dövlət, 42-si isə özəl bank olmaqla, bu sonuncuların 21-də xarici kapital mühüm rol oynayır. Əlbəttə, xarici kapitalın cəlb edilməsi hazırda İqtisadiyyatımız üçün zəruridir. Lakin inkişafımızın əsas istiqamətini və xüsusiyyətlərini öz mənafeyimiz müəyyən etməlidir.

Kredit bazarına mənfi təsir göstərən, kredit riskini yüksəldən amillərdən biri də ölkəmizdə qaytarılmayan kreditlərin, başqa sözlə, kredit riskinin xeyli dərəcədə böyük olmasıdır. Məsələn, son illərdə o bütün kredit qoyuluşunun 21,7%-ni, yəni beşdə birdən də çoxunu təşkil etmişdir. Bu bir tərəfdən bu sahədə, xüsusən girov işində qanunvericiliyin təkmil olmaması, digər tərəfdən isə mövcud qanunların tam işləməməsi, yerinə yetirilməməsi ilə əlaqədardır. Əlbəttə, əhalinin bəzi təbəqələrinin nisbi yoxsulluğu, çox zaman kreditin qaytarılması imkanının olmamasını da unutmaq olmaz. Bu üç səbəbin heç birinə biganə yanaşmaq olmaz və bunlar ölkəmiz qarşısında duran çox ciddi problemlərdəndir.

Ölkənin daxili valyuta və pul bazarının inkişafının təmin edilməsi və təkmilləşdirilməsi, özünü tənzimləyə bilən valyuta və pul bazarının yaradılması respublikanın Milli Bankının həyata keçirdiyi valyuta siyasətinin başlıca məqsədlərindən biridir. 2000-2006-cı illər ərzində ölkədəki valyuta bazarının həcmi daim artmışdır.

Daxili valyuta bazarını tənzimləmək və onda sabitlik saxlamaq üçün Milli Bank müntəzəm olaraq alqı-satqı metodu vasitəsilə valyuta məzənnəsinə təsir

göstərir, valyuta bazarındakı tələb və təklifi nisbətən sabit saxlayır, lazım gələrsə, ona təsir göstərir. Bu metod gələcəkdə də öz gücünü saxlamalıdır.

Perspektivdə maliyyə bazarının daha da inkişaf etməsi ilə əlaqədar valyuta alış və satışlarının həcmi xeyli dərəcədə artacaqdır. Bu prosesin düzgün idarə edilə bilməsi üçün valyuta bazarının dinamikasının mövsümi və aylar ərzindəki dəyişmələri dəqiq təhlil olunmalı, onun nəticələri praktikada tətbiq edilməlidir. Məsələn, bir sıra illər üzrə daxili valyuta bazarının aylar üzrə təhlili göstərir ki, yanvar-may aylarında valyuta bazarının həcmi başlıca olaraq artmaq meyli göstərmişdir. Belə dəyişikliklər ölkədəki İqtisadi fəallıqla əlaqədar olunduğundan, onun bütün illərdə eyni cür olmasını mütləq bir qanunauyğunluq hesab etmək olmaz. Bundan əlavə, valyuta alış-satışı dinamikasına xarici ticarət əlaqələrinin artıb-azalması da təsir göstərir. Məsələn, xarici ticarətin həcminin artması, xarici valyuta dövriyyəsinin artmasına səbəb olur və əksinə. Bu sahədə müəyyən planlaşdırma (və ya proqnozlaşdırma) apararkən nəzərdə tutmaq lazımdır ki, yay mövsümünün başlanması ilə əlaqədar, bir qayda olaraq, işgüzarlıq fəallığı (istirahət və s. ilə əlaqədar) aşağı düşür ki, bu da öz əksini yayda valyuta bazarında dövriyyə həcminin azalmasında tapır. Əksinə, digər mövsümlərdə onun həcmi yaydakına nisbətən artır. Eynilə, xarici valyutanın dövriyyəsi sahəsində də həmin meyl görünür.

Kredit bazarının gələcəkdəki daha geniş inkişaf etməsi formalarından biri də lizinq icarə formasının inkişafından ibarətdir. Lizinq xırda və orta sahibkarlar üçün daha münasibdir, çünki o az bir xərclə lazımi texnikaya sahib olmağa və işgüzar fəaliyyətlə məşğul olmağa imkan verir. Ona görə də lizinqin gələcəkdə inkişaf etdirilməsi xırda və orta biznesin inkişafına köməyə bərabər olur. Hazırda kənd təsərrüfatı və digər sahələrdə lizinq xidmətinin canlanması hiss olunur.

ABŞ kimi elmi-texniki və sosial-İqtisadi cəhətdən inkişaf etmiş bir ölkədə özünə geniş yer tutmuş bir investisiya metodunun bizdə də geniş yer tutmasının tam əsası vardır. Təsərrüfat subyektləri üçün çox münasib olan və asan başa gələn lizinq formasının geniş yayıla bilməsi üçün lazım gələn başlıca şey onu tənzimləyən qanunların, normativ-hüquq qaydalarının öz şəraitimizə uyğun şəkildə işlənib hazırlanmasıdır. Halbuki hazırda bizdə mövcud olan bu qaydaları hələ tam təkmilləşmiş hesab etmək olmaz.

Lizinqin inkişafında Azərbaycan Respublikasının 2001-ci ildə qəbul etdiyi Vergi Məcəlləsindəki maliyyə lizinqi haqqındakı qərar mühüm rol oynamışdır. Bir sıra başqa xidmətlərlə yanaşı lizinqi vergidən azad edən bu qanun lizinq üçün geniş imkan yaratsa da, o kifayət etmir. Bununla yanaşı əsas məsələ kiçik və orta biznesə digər maliyyə yardımının da göstərilməsi mühüm əhəmiyyət kəsb edir. 2004-cü ilin 1 yanvarında Vergi Məcəlləsinə edilmiş başqa bir əlavəyə əsasən, 1 yanvar 2004-cü ildən etibarən lizinq yenə də maliyyə xidmətləri sırasına daxil edilmiş və bu əsasda ƏDV-dən azad edilmişdir.

«Azerbaican Leasinq Development Procect» (AZDP) nəzdində Azərbaycan Lizinq Assosiasiyası yaradılmışdır, bu qurum ölkəmizdə lizinqin daha geniş yayılmasında mühüm rol oynaya bilər.

Qeyd etmək lazımdır, maliyyə bazarının müxtəlif seqmentlərinə nəzər saldıqda, onların inkişafında bir sıra müvəffəqiyyətlərə nail olunmasına baxmayaraq, bu inkişafı ləngidən maneələrin, çatışmazlıqların da olduğunu görürük. Bu çatışmazlıqlar içərisində ən mühümləri və perspektivdə təcili həll edilməli məsələlərdən maliyyə bazarları seqmentlərindəki təşkilat və idarələrin, bircaların informasiya sisteminin, onların maddi-texniki bazasının, onlardakı biznes işinin təşkilinin inkişafı və təkmilləşdirilməsi, qabaqcıl xarici ölkələrin təcrübəsinin yaradıcılıqla mənimsənilməsi zərurətini və s. göstərmək olar.

Indi də bazardakı valyuta, əmtəələr, qiymətli kağızlar və faiz dərəcələrinin qiymətlərinin daim dəyişməsi ilə əlaqədar bu dəyişikliklərdən bacarıqla istifadə etməyi nəzərdə tutan hecerləşmənin inkişaf etdirilməsinin və respublikamızın regionlarında (Bakı Fond Bircasından əlavə) yeni fond bircaları yaradılmasının zəruri və məqsədəuyğunluğuna nəzər salaq.

Hecerləşmənin meydana gəlməsi və inkişafı bazar konyunkturasında qiymətlərin, tələb və təklifin dəyişməsi ilə əlaqədar mənfi nəticələrdən öz mənfəətini qorumaq, bu perspektiv dəyişmələrdən öz xeyrinə istifadə etmək zərurəti ilə əlaqədardır. Bütün inkişaf etmiş ölkələrdə hecerləşdirmə praktikasına ciddi fikir verilir, o sahibkarların ən mühüm iş və təşkilatçılıq qabiliyyətlərindən biri hesab edilir. Onun mahiyyəti haqda birinci fəsildə artıq söhbət getmişdir. Burada isə risklərin mümkün olan mənfi nəticələrindən qorunmaq üçün bu mühüm metodun inkişaf perspektivlərindən danışılacaq.

Əgər müddətli bazarda aparılan əməliyyatların növlərini yada salsaq, onların hər üçünün Azərbaycanda inkişaf etdirilməsinin zəruriliyini qeyd etmək olar: möhtəkirlik, arbitrac və hecerləşdirmə. Hecerləşdirmə isə aydındır ki, özünün hər iki metoduna görə seçilib və onların da hər ikisinin inkişaf etdirilməsi zəruridir (qiymətlə əlaqədar): yüksəltmək üçün hecerləşdirmə və aşağı salmaq üçün hecerləşdirmə.

Bu proses zamanı, məlumdur ki, müddətli müqavilələrin və opsionların satın alınması üzrə birca əməliyyatları aparılır. Lakin hecerləşdirməni təkcə qiymətli kağızlarla aparılan əməliyyatlardan ibarət hesab etmək səhv olardı (bu haqda birinci paraqrafda danışmışıq). Çünki bazar İqtisadiyyatı şəraitində hər şey alınıb-satılır, bu isə mənfəət almaq xatirinə edilir. Ona görə də ölkəmizdə yeni formalaşmaqda olan sahibkarlar və menecerlər zümrəsi gələcəkdəki qiymətlərin yüksəlməsindən, yaxud aşağı düşməsindən öz mənfəəti üçün istifadə etməyi öyrənməli, təcrübəli hecerlər olmalıdır.

Ölkəmizin və digər ölkələrin İqtisadi inkişafına dair göstəricilərin təhlili göstərir ki, yaxın və uzaq gələcəkdə bazardakı konyunktura və qiymətlər sahəsində tez-tez dəyişilmələr olması bir qayda olacaq. Neft sahəsindəki dünya bazarında neyt hasilatı və qiyməti sahəsində sabitliyin pozulması da buna dəlalət edir. Belə bir şəraitdə hecerləşdirmənin əhəmiyyəti getdikcə artacaq,

sahibkarlıqda, o **c**ümlədən maliyyə bazarında mənfəətlə işləyə bilmək üçün müxtəlif manevrlər etmək, he**c**erləşdirmə əməlimyyatlarını geniş tətbiq etmək lazım gələ**c**ək.

He**c**erləşdirmənin ba**c**arıqla tətbiqi həmişə yüksək müsbət nəti**c**ələr verir və ümid etmək olar ki, o gələ**c**əkdə rəqabətin və bazardakı qeyri-stabilliyin arta**c**ağı bir şəraitdə çətin vəziyyətlərdən çıxmağa imkan verə bilə**c**ək.

Lakin müvəffəqiyyətli he**c**erləşdirmə maliyyə bazarının informasiya sisteminin inkişaf etməsini, ölkənin müxtəlif regionlarında da bircalar yaradılmasını tələb edir.

Qeyd etmək lazımdır ki, maliyyə bazarının inkişafında, ona dair qanunların və normativ aktların təkmilləşdirilməsində mühüm mərhələ 1998-**c**i il qiymətli kağızlar bazarının dövlət tərəfindən tənzimlənməsi funksiyalarını həyata keçirən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaradılması, sonra isə səhmdarların 15 fevral 2000-**c**i il tarixdə keçirilmiş ilk ümumi yığın**c**ağında Azərbay**c**anda hələlik yeganə fond bircası olan Bakı Fond Bircasının yaradılması oldu. Əvvəllər ona dair bəzi funksiyaları (xüsusilə sərt monetar və fiskal siyasətin tərkib hissəsi kimi büd**c**ə kəsrinin dövlət istiqrazları vasitəsilə maliyyələşdirilməsi çərçivəsində dövlət istiqrazlarının yerləşdirilməsi) Bakı Banklararası Valyuta Bircası vasitəsilə həyata keçirilirdi. 2000-**c**i ilin sentyabrından sonra isə bu funksiyalar BFB-nın özü tərəfindən i**c**ra edilməyə başlayır.

Qeyd etmək lazımdır ki, son dövrlər maliyyə bazarının inkişafının bir sıra **c**əhətlərdən ləngiməsi haqda danışmaq olar ki, bu da əsasən iki səbəbdən baş verir. Bu səbəblərdən birin**c**isi ölkədə özəlləşdirmə prosesinin özünün məntiqi ikin**c**i mərhələsinə keçməsinin müəyyən dərə**c**ədə ləngiməsi, iri müəssisələrin yenidən qurulması ilə əlaqədar risk səviyyəsinin yüksək olmasına görə onların emissiya etdikləri qiymətli kağızlara olan tələbin azalması kimi amillərlə əlaqədardır.

Bu **c**əhətdən ikin**c**i bir səbəb kimi postsovet ölkələrində İqtisadi müstəqillik qazandıqdan sonra yaranmış çətinliklərlə və qiymətlərin liberallaşması adlandırılan İqtisadi siyasətlə və bir sıra yaranmış bankların müflisləşməsi ilə əlaqədar əhalidə olan pulların qiymətdən düşməsi, bunun isə əhalidə müəyyən inamsız psixologiyası yaratmasını göstərmək olar. Bu ikin**c**i səbəblər dövlət və korporativ qiymətli kağızlara qarşı əhalidə müəyyən dərə**c**ədə inamsızlıq yaratmış, həmin kağızlara tələbat da azalmışdır. Çünki risk nisbətən yüksək olan hallarda bu belə olur.

Həmin çatışmazlıqların aradan qaldırılması və müasir qaydada fəaliyyət göstərə bilən maliyyə bazarının, hər şeydən əvvəl onun maddi texniki bazasının və infrastrukturunun yaradılmasını, xüsusilə də bircaların və digər maliyyə bazarı müəssisə və təşkilatlarının lazımi informasiya bazası ilə təmin olunmasını tələb edir. Bu haqda yuxarıda artıq kifayət qədər söhbət getmişdir.

Qeyd etmək lazımdır ki, maliyyə bazarının, o **c**ümlədən qiymətli kağızlar bazarının inkişafı problemlərindən biri də yeni yaradılan səhmdar **c**əmiyyətlərin

nizamnamə kapitalının minimal həcminin nə qədər ola bilməsidir. Hazırda bu limit, məlum olduğu kimi, 1 milyon manatdır ki, buna da özəlləşdirmə proqramı çərçivəsində müəssisələrin yalnız 10-15%-i cavab verə bilir.

Digər tərəfdən, nizamnamə kapitalının belə minimal həcminin aşağı salınması təklifini də düzgün hesab etmək olmaz, çünki az nizamnamə kapitalına malik olmaq, müəssisənin (cəmiyyətin) likvidlik səviyyəsini aşağı salar, emitentlərə inamı da azaldardı.

Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin məlumatına görə, 1997-ci il ölkəmizdə iri və orta müəssisələr əsasında 407 səhmdar cəmiyyət yaradılmış və onların nizamnamə kapitalının həcmi 1015,8 mlrd. man təşkil etmişdir. Bir il sonra bu göstəricilər 547 və 924,7 mlrd. man., 1999-cu ildə – 104 ədəd və 393,5 mlrd. manat olmuşdur. Göründüyü kimi, hər bir yaradılmış cəmiyyətin nizamnamə kapitalının həcmi 2,5 mlrd. man., 1998-ci ildə – 1,7 mlrd. man., 1999-cu ildə – 9,8 mlrd. man., 2000-ci ildə isə 3.8 mlrd. man. təşkil etmişdir. Yəni likvidlik cəhətdən vəziyyətin ən pis olduğu 1998-ci ildə, ən yaxşı olduğu il isə 1999-cu il olmuşdur. Lakin nizamnamə kapitalının kəmiyyətcə böyük olması, heç də mexaniki olaraq yüksək likvidlik yaratmır – burada cəmiyyətdə menecmentin, informasiya sisteminin təşkili səviyyəsi və s. də əhəmiyyətə malkidir, bunlar kompleks şəkildə təşkil olunmalıdır.

Mövcud materialların təhlili isə respublikadakı səhmdar cəmiyyətlərin təqribən 90%-nin fond bircası tələblərinə cavab vermədiyini göstərir. Doğrudur, bircaların ilk inkişafı mərhələsində onlara qarşı olan tələblərin bir qədər yumşaldılması (məs., nizamnamə kapitalı həcmi limitinin bir qədər azaldılması və s.) məqsədəuyğun hesab oluna bilər. Lakin işin əvvəlcədən daha etibarlı təməl üzərində qurulması tələbini də unutmaq olmaz. Bir sözlə, burada hər bir konkret hal üçün daha əlverişli olan variantın seçilməsi korporativ qiymətli kağızlarla aparılan əməliyyatların və bütün işlərin daha faydalı olmasını təmin edərdi. Yəni həm işin keyfiyyəti, həm də kəmiyyəti (emitentlərin sayının artırılması və s.) tələblərini nəzərə almaq zəruridir.

Göstərilən vəzifələrin yerinə yeitirlməsinin, maliyyə bazarı və fond bircalarının müasir tələblərə uyğun vəziyyətə gətirilməsinin əsas vəzifələrindən biri də beynəlxalq analitik-informasiya mərkəzlərinin təcrübəsindən istifadə edərək, lazımi riyazi-metodlar vasitəsilə ölkəmizdəki İqtisadi vəziyyəti əks etdirən indekslərin hesablanılması işinin mənimsənilməsindən ibarətdir. Hazırda inamla qeyd etmək olar ki, bizdə ümumilikdə götürsək, İqtisadi vəziyyəti müsbət qiymətləndirmək olar. Ona görə də göstərilən indeksin hesablanması İqtisadiyyatımızı da müsbət cəhətdən xarakterizə etmiş olardı.

MDB ölkələrindən hazırda təkcə Rusiyada hesablanan birca indeksləri ölkəyə xarici investisiya axınına kömək edər, İqtisadiyyatımızı daha sürətlə dirçəltməyə kömək edərdi.

Şübhə etməmək olar ki, belə fond indekslərin hesablanması başlıca olaraq neft hasilatı sektorunun inkişafı vəziyyətinə əsaslanacaq. Sonralar digər əlaqədar sahələrin (birinci növbədə emaledici sənaye sahələrin) inkişafı ilə

əlaqədar onların da işi bu fond indeksinin hesablanması işinə qoşular, ümumi İqtisadi vəziyyət haqda daha ətraflı məlumat əldə edilərdi.

Fond indeksinin hesablanması işinin mənimsənilməsi nəti**c**əsində milli və xari**c**i investorlar vəziyyəti daha dəqiq qiymətləndirə bilmək üçün real əsas əldə edər, naməlum risq vəziyyətindən xilas olardılar.

Məlum olduğu kimi, fond indeksləri bir qayda olaraq ölkədə əsas rol oynayan sahələr, yəni ən yüksək səviyyəli listinq vərəqinə daxil edilmiş qiymətli kağızlar əsasında hesablanır. Lakin İqtisadi perspektivin olduğu şəraitdə uzunmüddətli perspektivdən və fond bazarlarının gələ**c**ək inkişafına inamla yanaşmaq üçün də əsasımız ola bilər. Belə optimist fikrə hələlik neft hasilatı sənayesi **c**avab verirsə, bir neçə illik inkişafdan sonra bu siyahıya neft emalı, neft maşınqayırması, pambıq be**c**ərilməsi və təmizlənməsi və s. kimi başqa istehsal sahələrinin də işi əlavə edilə bilər. Çünki hətta ABŞ-ın özündəki Dou-**c**ons indeksi özü belə heç də bütün dövrlərdə eyni sayda müəssisələrin işinin təhlilinə əsaslanmır. Fond indeksinin hesablanmasına əsaslanan İqtisadi sahələrin sayı və əhəmiyyəti zaman keçdik**c**ə dəyişir.

VII FƏSIL. ÖLKƏNIN MALIYYƏ SABITLIYININ TƏMIN EDILMƏSI

Külli miqdarda valyuta idxalı tələb-təklif nisbətlərini dəyişdirə, ölkə İqtisadiyyatına inflyasiya gətirə bilər. Dövlət gəlirlərin yaranması, bölgüsü və istifadəsində aşkarlıq, şəffaflıq olması və ya az olması isə daha ağır sosial-İqtisadi nəticələrə gətirib çıxara bilər.

İlham Əliyev

7.1. Azərbaycanda maliyyə sabitliyinin formalaşması prosesi

İqtisadi inkişafın səviyyəsi artdıqca, dövlətin İqtisadiyyatı tənzimlənməsinin inzibati üsullarının rolu azalır, İqtisadi tənzimlənmənin əhəmiyyəti isə yüksəlir. Qeyd etmək lazımdır ki, bazar mexanizmi qeyri-təkmil xüsusiyyətə malik olduğu üçün, dövlət müdaxiləsinin varlığı zəruridir. Çünki əslində bazarın əbədi olaraq qeyri-təkmil xarakterli olması İqtisadiyyatı fəallaşdırır və səmərəli fəaliyyətini şərtləndirir, eyni zamanda stimullaşdırır.

Ingilis filosofu Ceremi Bentama görə: «… sabitlik prinsipi – istənilən obyektin ləzzət, fayda və xoşbəxtlik gətirmək və ya ağrıdan, əzabdan və yamanlıqdan qorumaq xüsusiyyətidir».”

Dünya İqtisadiyyatında gedən liberallaşdırma prosesi və SSRI-nin dağılması ilə əlaqədar olaraq respublikların dövlət suverenliyi əldə etməsi XIF-in hüquqi tənzimlənməsi sahəsində köklü dəyişiklikləri zəruri edib.

Belə olan halda keçid dövründə bütün müstəqil dövlətlərdə xarici İqtisadi əlaqələrin tənzimlənməsinin milli qanunvericilik bazası işlənməyə başlandı. Şübhəsiz ki, XIF-in miqyasları müstəqil dövlətlərin ərazilərində müəyyən olunmuş hüquqi normaların, onların fəaliyyətinə verilən İqtisadi təminatların çərçivəsində həyata keçirilməlidir. Bu çərçivədə Azərbaycanda da XIF sferanın hüquqi tənzimlənməsi prosesi gedir.

Azərbaycanda bazar münasibətlərinin təşəkkülü və bu münasibətlərə əsaslanan xari**c**i İqtisadi əlaqələrin inkişafı hər şeydən əvvəl işgüzar fəaliyyət üçün zəruri ilkin şərtlərin yaradılmasını tələb edir ki, bunun da ən vacib tərkib hissələrindən biri İqtisadiyyatın bazar modelinə uyğun hüquqi mexanizminin yaradılmasıdır. Bundan başqa, məqsəd respublikamızda ilk növbədə xüsusi mülkiyyətə əsaslanan özəl bölmə üçün dəqiq və geniş qanunvericilik bazasının formalaşması, iş adamlarının, təsərrüfat subyektlərinin, xarici investorların sahibkarlıq fəaliyyəti üçün hüquqi təminatın yaradılması, habelə sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin və maliyyə sabitliyinin möhkəmlənməsinin hüquqi əsaslarının qorunmasıdır.

Azərbay**c**anda xarici investisiya qoyuluşunun bazasının formalaşdırılması sahəsində dünya təcrübəsinə və ölkəmizin spesifik şəraitinə əsaslanaraq

son dərəcədə əhəmiyyətli işlər görülmüşdür. Milli Məclis tərəfindən İqtisadi islahatlarla bağlı çoxlu qanunlar, müvafiq qanunvericilik sənədləri qəbul edilmişdir ki, bunların da xeyli hissəsi xarici İqtisadi fəaliyyət və xarici İqtisadi əlaqələr ilə bu və ya digər səviyyədə əlaqədardır.

Xarici İqtisadi əlaqələr və sahibkarlıq fəaliyyəti ilə bağlı olan qanunlara «Antiinhsar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «Girov haqqında», «Investisiya fəaliyyəti haqqında» və digər qanunları aid etmək olar.

Xarici İqtisadi əlaqələrin iştirakçıları olan sahibkarlıq subyektlərinin fəaliyyətin tənzimləyən qanunlar: «Müəssisələr haqqında», «Səhmdar cəmiyyətləri haqqında», «Banklara və bank fəaliyyəti haqqında», «Kəndli-fermer təsərrüfatı haqqında» və s. Bundan əlavə, bu qrupa sahibkarlıq subyektlərinin İqtisadi fəaliyyətinin nəticələri ilə bilvasitə əlaqədar olan «Müflisləşmə və iflas» haqqında qanunu da aid etmək olar.

Ölkədə əmtəə bircalarının yaradılması, həmçinin qiymətli kağızlar bazarının formalaşması xarici İqtisadi əlaqələrin inkişafının zəruri şərtlərindən biridir. Bu baxımdan «Əmtəə bircası haqqında». «Qiymətli kağızlar və fond bircaları haqqında» qanunlar da sözü gedən hüquqi bazaya aid edilməlidir.

Son illər Azərbaycanda xarici İqtisadi əlaqələrin bir forması olaraq beynəlxalq lizinq sürətlə inkişaf edir. Xüsusi ilə aqrar sektorda, tikinti sektorunda iri şirkətlər xarici ölkələrdən idxal edilmiş texnika və avadanlıqları uzunmüddətli lizinqə təklif edirlər. Bu fəaliyyəti isə «Lizinq xidməti haqqında» qanun tənzimləyir.

Xarici İqtisadi fəaliyyətin tənzimlənməsində vergi qanunvericiliyi də mühüm rola malikdir. Bu istiqamətdə xüsusilə «Vergi Məcəlləsi», «Hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər haqqında», «Fiziki şəxslərdən gəlir vergisi haqqında», «Əlavə dəyər vergisi haqqında», «Aksizlər haqqında» və s. qanunlara diqqət yetirilməlidir.

Qeyd edilən qanunlar sistemində elələri də vardır ki, respublkada xarici İqtisadi fəaliyyəti tənzimləmək baxımıdan fundamental xarakter daşıyırlar, yəni digər xüsusi qanunlar üçün fəaliyyət həddini, normativ sərhədləri müəyyənləşdirirlər. Bizim fikrimizcə, belə qanunlara hər şeydən əvvəl, «Sahibkarlıq fəaliyyəti haqqında», «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında». «Müəssisələr haqqında», «Torpaq islahatı haqqında», «Investisiya fəaliyyəti haqqında» və bir sıra belə xarakterli hüquqi sənədləri aid etmək olar.

Milli qanunvericilik aktlarının qəbulu xarici İqtisadi fəaliyyətin hüquqi bazasının konseptual əsaslarını təşkil edir. Bu əsaslar əsasən aşağıdakı tələblər üzərində qurulmuşdur:

- Azərbaycan Respublikasının xarici-İqtisadi, o, cümlədən valyuta-kredit siyasəti;
- valyuta-gömrük tənzimlənməsi qaydaları;
- xarici İqtisadi fəaliyyətlə məşğul olan xarici investisiyalı müəssisə və birliklərin, onların filiallarının, nümayəndəliklərinin, birgə müəssisələrin yaradılması və qeydiyyat prosedurası;

- xif-lə məşğul olan Azərbaycan Respublikasının müəssisə və təşkilatlarının, vətəndaşlarının maddi maraqlarının təminatı;

- respublika ərazisində fəaliyyət göstərən XIF-lə məşğul olan xarici investorların əmlak, mülkiyyət və investisiya hüquqlarının nəzərə alınması və s.

Müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu prinsiplər əsasında xarici İqtisadi siyasət yeritməsi yerli müəssisə və təşkilatların, firma və şirkətlərin sərbəst və bərabər hüquq şəraitində digər dövlətlərə vasitəsiz olaraq İqtisadi əlaqə və münasibətlər yaratmaq, təsərrüfat suybektlərinin İqtisadi maraqlarının təmin və eləcə də bütün bunların öz növbəsində xarici tərəf müqabilindən tələb edilməsi baxımından önəmlidir.

Azərbaycanda xarici İqtisadi fəaliyyət strategiyasının formalaşmasında dünya təcrübəsi ilə yanaşı, milli İqtisadiyyatın spesifik xüsusiyyətləri, beynəlxalq əmək bölgüsünün tələbləri, yaxın və uzaq ölkələrlə ticarət reciminin optimallığı da nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda xarici İqtisadi fəaliyyət strategiyası bir tərəfdən sərbəst İqtisadiyyatın, normal gömrük və valyuta reciminin formalaşmasına xidmət etməklə ölkənin ixracat potensialının artırlmasına istiqamətlənməlidir. Bu strategiya milli bazarın formalaşdırılmasını sürətləndirməklə yanaşı, həm də onun rəqabət qabiliyyətini yüksəldə bilər.

Belə ki, istehsal potensialının genişləndirilməsi və onun texniki modernləşdirilməsinə nail olmaq üçün xarici kapitalın milli bazara cəlb edilməsinin kompleks sistemini formlaşdırmaq lazımdır.

Bundan əlavə, idxalı əvəzə edən yerli istehsalın təşkili sahəsində idxalın səmərəliliyini yüksəltməklə idxal siyasəti İqtisadiyyatın tələblərinə uyğunlaşdırılırmalı və xarici investisiya, kredit və yardımlardan istifadə olunmasının mexanizm yaradılırdır.

Respublikamızda maliyyə sabitliyinin birqərar olması və möhkəmləndirilməsi yönəmində aparılan tədbirlər sırasında valyuta tənzimlənməsi istiqamətində aparılan işləri xüsusi qeyd elmək lazımdır.

Məlum olduğu kimi Azərbaycan Respublikasında valyuta tənzimlənməsinin hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu, Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanunu, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər müvafiq nomrativ aktlar təşkil edir.

Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu 21 oktyabr 1994-cü ildə qəbul edilmişdir. Haqqında danışılan qanun Azərbaycan Respublikasında valyuta əməliyyatlarınnı həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarını səlahiyyətlərini və funksiyalarını tənzimləyir. Bundan əlavə, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini təsbit edir. Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanun eyni zamanda valyuta

qanunvericiliyinin pozulmasına görə məsuliyyəti də müəyyən edir. Göründüyü kimi nəzərdən keçirilən qanun valyuta tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının ən əsas qanunlarındandır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə valyuta əməliyyatları valyuta sərvətlərinə mülkiyyət hüququn və digər hüquqların keçməsi ilə əlaqədar əməliyyatlar, o cümlədən ödəniş vasitəsi kimi xarici valyutadan və xarici valyutada ödəniş sənədlərindən istifadə edilməsinə deyilir. Bundan əlavə, valyuta əməliyyatlarına valyuta sərvətlərinin ölkəyə gətirilməsi və göndərilməsi, eləcə də çıxarılması və göndərilməsi daxil edilir.

«Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu»nda xarici valyuta sərvətləri ilə aparılan əməliyyatlar cari və kapitalın hərəkəti ilə bağlı valyuta əməliyatlarına bölünür. Bu tədiyə balansının müvafiq hesablarına uyğun olaraq edilmişdir. Belə ki, Azərbaycan Respublikasının valyuta qanunvericiliyə görə malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə 180 gündən artıq müddətdə ödəniş möhlətinin verilməsi və alınması kapital hərəkəti ilə bağlı valyuta əməliyyatlarına aid edilir.

Bütün bunlarla yanaşı, əsas anlayışlar maddəsində müvəkkil banklar anlayışı da müəyyənləşdirilmişdir. Qanuna görə müvəkkil banklar valyuta əməliyyatlarının aparılması üçün Milli Baknın lisenziyasını almış banklar və digər kredit təşkilatlarıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının ərazisi vahid valyuta ərazisidir və bu ərazidə milli valyuta kimi manatın alıcılıq qabiliyyəti möhkəmləndirilməsini təmin edən pul-kredit və valyuta siyasətini yeridilir. Azərbaycan valyuta ehtiyatları isə dövlət büdcəsinin valyuta gəlirləri və sabitləşdirmə fondunun hesabına formalaşır.

Valyuta məhdudiyyətlərinə gəldikdə göstərmək lazımdır ki, bu qanuna görə hüquqi şəxs olan rezidentlər tərəfindən cari valyuta əməliyyatlarının həyata keçirilməsi üzrə heç bir məhdudiyyət qoyulmur. Fiziki şəxs olan rezidentlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda gömrük orqanları müvafiq məlumatı Milli Banka təqdim etməlidir.

Valyuta tənzimlənməsi sahəsində böyük əhəmiyyətə malik olan digər qanun Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanunudur. Bu qanun 10 iyun 1996-ci ildə qəbul edilmişidr. Qanunda göstərir ki, Milli Bankın əsas funksiyalarına başqa funksiyalarla yanaşı pul-kredit və valyuta münasibətləri sahəsində dövlət siyasətini yetirmək, valyuta tənzimlənməsini həyata keçirmək, xarici dövlətlərlə hesablaşmaların aparılması qaydasını müəyyənləşdirmək və xarici valyuta ehtiyatlarını idarə etmək daxildir. Bundan əlavə, Milli Bankın valyuta münasibətləri sahəsində əsas vəzifələrinə manatın sabitliyini təmin etmək, onun alıcılıq qabiliyyətini və xarici valyutaya nisbətən məzənnəsini tənzimləmək üçün tədbirlər görmək aiddir. Qanunun 15-ci maddəsində göstərilir ki, Milli Bankın pul-kredit siyasətinin əsas metodlarından biri vayluta müdaxiləsi və mübadilə məzənnələri siyasətinin həyata keçirilməsidir.

Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanunun V fəsli tamamilə valyuta tənzimlənməsi və beynəlxalq ehtiyatların idarə olunmasına həsr olunmuşdur. 23-cü maddəyə görə Milli Bank lisenziyası olan hüquqi şəxslərdən ayrılıqda hər valyuta üçün öz valyuta mövqeyi barəsində Milli Banka müntəzəm məlumat verməyi tələb edir. Bu fəsildə göstərilir ki, Milli Bank aşağıda göstərilmiş aktivlərdən ibarət beynəlxalq ehtiyatlar yaradır və yerləşdirir:

1. Qızıl.

2. Xarici valyutada kağız və metal pul, yaxud xarici banklardakı valyuta hesablarının qalıqları.

3. Beynəlxalq aləmdə qəbul olunmuş ehtiyat aktivləri.

4. Xarici valyuta ilə ödənilməli olan köçürmələr və adi veksellər.

5. Xarici dövlətlərin, mərkəzi bankların və ya beynəlxalq maliyyə təşkilatlarının buraxdığı, yaxud təminat verdiyi qiymətli borc kağızları, sonra geri satın alınmaqla xarici valyutada ifadə olunmuş və ödənilməli olan satış haqqında forvard kontraktları. Son dövrə Azərbaycanda həyata keçirilən uğurlu islahatlar onunla nəticələnib ki, bu da respublikanın valyuta ehtiyatlarının 17 milyard dollara çatmasına səbəb olub.

Qeyd etmək lazımdır ki, valyuta tənzimlənməsinin hüquqi bazasının bir hissəsini Gömrük Məcəlləsi təşkil edir. Mövcud qanunvericilikdə rezident və qeyri-rezidentlərin valyuta hüquqi münasibətlərini, valyuta məhdudiyyətlərini reqlamentləşdirən normativ bazanın olması valyuta əməliyyatlarının həyata keçirilməsi zamanı bu qanunvericiliyiə əməl edilməsinə nəzarət məqsədi ilə şəraitin yaradılması üçün inzibati idarəetmə mexanizmini şərtləndirir. Bu məqsədlə valyuta nəzarəti sistemi yaradılmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında valyuta nəzarətini həyata keçirən digər qurum Dövlət Gömrük Komitəsidir. Beynəlxalq təcrübə göstərir ki, xarici İqtisadi fəaliyyətə bağlı əməliyyatlara səmərəli valyuta nəzarəti yalnız bu işdə gömrük orqanlarının fəal iştirakı ilə mümkündür. Belə ki, malların gömrük sərhədindən qanuni keçirilmə faktı və onun şərtləri, həmçinin xarici ticarət müqavilələrində öz əksini tapmış digər məsələlər gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin gedişində aşkarlanır. Gömrük rəsmiləşdirilməsi zamanı valyuta nəzarətinin hərtərəfli və səmərəli həyata keçirilməsi üçün şərait yaranmış olur. Onun fəaliyyətini isə Gömrük Məcəlləsi tənzimləyir.

Qeyd etmək lazımdır ki, idxal edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət bir neçə mərhələdə həyata keçirilir: 1. Ilkin nəzarət; 2. Məlumat-analitik nəzarət; 3. Bitkin sənədli nəzarət. Belə nəzarət sistemi imkan verir ki, hər bir valyuta əməliyyatının qanunvericiliyinə uyğun olmasına nəzarət edilsin, qaytarılmamış valyuta qazancının həcmi qiymətləndirilə bilinsin, ödənişin şərtləri qaydaya salınsın, gömrük orqanlarının və bankların operativ məlumat mübadiləsi təmin edilsin, valyuta nəzarəti məqsədləri üçün bank və gömrük orqanlarının imkanlarından maksimum istifadə edilsin.

Bütün yuxarıda deyilənlərlə yanaşı valyuta tənzimlənməsi sahəsində müxtəlif illərdə ayrı-ayrı valyuta tənzimlənməsi orqanları tərəfindən normativlər də qəbul edilmişdir. 1995-ci ilin martında «Azərbaycan Respublikası rezidentlərinin xarici valyutada valyuta əməliyyatlarının aparılması qaydaları» haqqında Milli Bankın normativi verildi. Bu qaydalara görə 3 mart 1995-ci ildən Azərbaycan Respublikasının rezidentləri mülkiyyət formasından və fəaliyyət sahəsindən asılı olmayaraq özünün xarici valyuta gəlirinin 30% BBVB-də satmalıdır. 1996-cı ilin martında bu qədəm 50%-ə kimi qaldırıldı. 1996-cı ilin 1 iyununda büdcə qarşısında borcu olmayan təşkilatlar üçün bu öhdəlik ləğv olundu.

28 iyul 1997-ci il tarixdə Milli Bank tərəfindən qəbul edilmiş təlimata görə Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri müvəkkil banklara müraciət edərkən özünün valyutalarını BBVB-də mütəşəkkil alınmaqla mübadilə edilə bilər. Limitlər aşağdakı kimi olmuşdur: əgər bankın nizamnamə fondu 1,5 mln ABŞ dollarını aşmırsa onda bir gün müddətində o, 15 min dollar limitində bankdaxili valyuta mübadiləsi həyata keçirə bilər; əgər bankın nizamnamə fondu 1,5 ABŞ dolları aşırsa onda bir gün müddətində o, 30 min dollar limitində bankdaxili valyuta mübadiləsi həyata keçirə bilər.

Milli Bankın 1997-ci il 26 avqust tarixli məktəbuna əsasən 30 avqust 1997-ci il tarixdən Mütəşəkkil Banklararası Valyuta Bazarı fəaliyyətə başlamışdır. MBVB-da gün ərzində əməliyyatlarının aparıldığı məzənnə BBVB-dəki məzənnənin 0,5% çərçivəsindən çıxmamalıdır. Bundan başqa, Milli Bankın Idarə Heyətinin 1 iyul 1998-ci il tarixli qərarına görə bankdaxili valyuta mübadiləsinə qoyulan məhdudiyyətlər ləğv edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında valyuta tənzimlənməsini həyata keçirən ən əsas orqan Milli Bankdır. Bundan başqa, göstərilən sahədə əhəmiyyətli və əvəzedilməz fəaliyyətə Dövlət Gömrük Komitəsi malikdir. Bütün bu qurumlarla yanaşı valyuta tənzimlənməsi sahəsində digər dövlət orqanları da müəyyən rola malikdir. Bunlara misal olaraq Nazirlər Kabinetini, Milli Məclisi göstərmək olar. Belə ki, Azəraycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunun 12-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisinin valyuta siyasətinin ümumi prinsiplərini, xarici dövlət borcunun limitini, xarici ölkələrə verilən kreditlərin həcmini, Azərbaycan Respublikası büdcəsinin tərkib hissəsi kimi valyuta planını müəyyən edir, valyuta tənzimi və nəzarəti məsələlərinə dair qanunvericilik aktları qəbul edir.

Qiymətli kağızlar bazarı, maliyyə bazarının tərkib hissəsidir və maliyyə sabitliyinin formalaşmasında işitrak edən ən mühüm vasitələrdən biridir. Maliyyə bazarının digər hissəsi kredit bazarıdır. Bu iki bazar bir-birilə sıx əlaqədardır və qarşılıqlı fəaliyyət göstərir. Məsələn, banklar qiymətli kağızlar bazarı iştirakçılarına qiymətli kağızları buraxan emitentlərə kredit verir, digər tərəfdən özləri emitent kimi çıxış edir və yaxud digər emitentlərin buraxdığı qiymətli kağızların böyük partiyalarla sonradan salmaq üçün alırlar. Dünya dövlətlərinin

əksəriyyətində qiymətli kağızlar bazarında vasitəçilik rolunu iri kommersiya bankları həyata keçirirlər.

«Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikasının Qanununa görə peşəkar iştirakçılara broker, diler, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət, klirinq, depozitari fəaliyyəti, qiymətli kağız sahibinin reyestrinin aparılması və ticarətinin təşkili üzrə fəaliyyət aiddir.

Qiymətli kağızlar bazarı çox mürəkkəb sistem olduğundan onun səmərəli idarə olunmasının təmin edilməsi bütövlükdə bazar İqtisadiyyatının ahəngdar fəaliyyətinin mühüm şərtlərindən biridir. Təsadüfi deyil ki, bütün qabaqcıl ölkələrdə qiymətli kağızlar bazarının idarə olunmasının özü də ayrıca bir sistem təşkil edir. Bu sistem fond bazarının fəaliyyətinin və inkişafının tənzimlənməsi üzrə konkret və metodların toplusu çıxış edir.

Qiymətli kağızlar bazarının idarə edilməsi sistemi bu bazarın infrastrukturunun funksional, texniki təşkilatı yarımsistemləri ilə yanaşı qiymətli kağızlar bazarının fəaliyyətini təmin edir. Qiymətli kağızlar bazarının tənzimlənmə sistemi onun məqsədləri strategiyası və vəzifələrinə uyğun qurulur və iki yarımsistemindən – idarəedici olan subyekt və idarə edilən obyekt olan yarımsistemlərdən ibarətdir.

Qiymətli kağızlar bazarının tənzimlənməsi daxili və xarici istiqamətdə yerinə yetirilir. Daxili tənzimləmə qiymətli kağızlar bazarını hər hansı bir sahəsinin öz fəaliyyətində normativ sənədlərinə, nizamnamələrinə, bütövlükdə sahənin və onun ayrı-ayrı bölmələrinin, işçi heyətin fəaliyyətini təyin edən digər daxili normativ sənədlərinə tabeçilliyini təcəssüm etdirir. Xarici tənzimləmə qiymətli kağızlar bazarının öz fəaliyyətində dövlətin, beynəlxalq razılaşmaların normativ sənədlərinə tabeçiliyini əks etidirir.

Qiyməti kağızlar bazarının idarə olunması prosesindən danışarkən qeyd edilməlidir ki, dünya praktikasında qiymətli kağızlar bazarının tenzimlənməsində əsas olaraq iki modeldən istifadə olunur:

- qiymətli kağızlar bazarının dövlət tərəfindən tənzimlənməsi;
- qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən tənzimlənməsi.

Qiymətli kağızlar bazarı müəyyən mənada bazarın müstəqil infrastrukturlarından biridir. Lakin buna baxmayaraq bazarın böyük hissəsi dövlətin birbaşa təsirlərinə məruz qalır. Dövlət əlində mövcud oan bəzi İqtisadi və inzibati riçaqlardan itifadə etməklə bazarın fəaliyyətini tənzimləyir.

Azərbaycan Respublkasında qiyməti kağızlar bazarının dövlət tənzimlənməsini Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir. Bu komitənin iş fəaliyyəti «Azərbaycan Respublkası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmini haqqında» Azərbaycan Respublikası Prezidentnin 26 iyul 1999-cu il tarixli 161 saylı fərmanına əsaslanaraq həyata keçirilir. Komitə qiymətli kağızlar bazarında dövlət siyasətinin işlənib

hazırlanması ilə yanaşı bazar iştirakçılarının, emitentlərin, fond bircalarının fəaliyyəti üzərində nəzarəti də həyata keçirir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda qiymətli kağızlar bazarının yaradılması və eyni zamanda onun idarə olunmasına dair bir çox qanunlar və normativ aktlar qəbul olunmuşdur. 14 iyul 1998-ci ildə qəbul olunan «Qiymətli kağızlar haqqında» Azərbaycan Respubilkasının Qanununda qiymətli kağızlar, onların emissiyası, tədavülü, qiymətli kağızlar bazarı və onun dövlət tənzimlənməsi, fond bircası və onun fəaliyyəti və digər məsələlər öz əksini tapmışdır. Qanunda qiymətli kağızlar bazarının dövlət tənzimlənməsinə dair bir çox məsələlərin həlli nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, 2002-ci il Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafının yeni mərhələsini açmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qarşısında duran ən mühum məsələlərdən qiyməti kağızlar bazarının infrastrukturunun inkişafını, o cümlədən broker və dilerlərin bazarda baş verən proseslərdə daha fəal iştirak etməsini, emitentlər tərəfindən investorların hüquq və maraqlarının riayət edilməsinin təmin edilməsi, korporativ idarəetmə normalarına və emitentlər tərəfindən məlumatın lazımi şəkildə açıqlanmasına riayət olunmasının təmin edilməsini, mütəşəkkil borc bazarının formalaşmasını, lotereya bazarınınn şəffaflığının və mütəşəkilliyinin təmin edilməsini qeyd etmək olar. Hal-hazırda ölkənin qiymətli kağızlar bazarının xüsusiyyətlərini səciyyələndirən amillərdən qiymətli kağızlar bazarının iştirakçılarının peşəkar mütəxəssislərlə təmsil olunmasını, bazarını infrastrukturunun dünya standartlarına uyğun şəkildə qurulmasını, İqtisadiyyatın digər sektorları ilə müqayisədə qiyməti kağızlar üzrə öhdəliklərin icrası intizamının yüksək səviyyələ olmasını, bazarda qiymətlərlə manipulyasiya məqsədini güdən və ya digər qeyri-sağlam xarakteri daşıyan əməliyyatların aparılmasının müşahidə olunmamasını göstərmək olar.

Bütün bu amillər ölkədə qiymətli kağızlar bazarının dinamik şəkildə inkişaf etməsi üçün zəmin yaradaraq, bazarın yüksək potensiala malik olduğuna dəlalət edlir.

Qiymətli kağızlar bazarında qiyməti kağızların alınıb satılması və digər əməliyyatların aparılması əsasən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən həyata keçirilir. Peşəkar fəaliyyətin əsas növləri qiymətli kağızlar haqqında qanunvericiliyinə əsasən broker, diler, qiymətli kağızların idarə edilməsiə üzrə fəaliyyət, klirinq, depozitari fəaliyyət, qiymətli kağızlar bazarında ticarətin təşkili üzrə fəaliyyət hesab edilir. Hal-hazırda peşəkar fəaliyyətinə məşğul olan hüquqi və fiziki şəxslər qarşısında yeni xüsusi taləblər qoymuşdur ki, bunlar da investorların hüquqlarının qorunmasına yönəldilmişdir.

Son zamanlar Azərbaycan İqtisadiyyatında əldə edilmiş makroİqtisadi sabitlik, İqtisadi artım və struktur dəyişiklikləri, respublikada bazar İqtisadiyyatının mühüm atributlarından biri olan qiymətli kağızlar bazarının

tezliklə yaradılması zərurətini meydana çıxarır. Özəlləşdirmə prosesindən sonra müəssisələrin sonrakı inkişafını qiymətli kağızlar bazarı yaratmadan təsəvvür etmək qeyri-mümkündür. Bu bazar həm də kapitalın sərbəst axınını təmin etməklə ayrı-ayrı sahələrin inkişafında geriləmələri aradan qaldıracaq və müəssisələrin, əhalinin və dövlətin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır. Respublkada özəlləşdirmə prosesinin məntiqi nəticəsi kimi, müəssisələrin səhmdar cəmiyyətlərinə, əhalinin böyük hissəsinin isə səhmdarlara çevrilidyi bir şəraitdə qiymətli kağızlar bazarının inkişafı geniş vüsət alacaqdır. Bütün bü prosesləri tənzimləmək, onlara nəzarət etmək və qiymətli kağızlar bazarının formalaşmasını düzgün istiqamətləndirmək üçün ən yüksək səviyyədə Qiymətli kağızlar və Fond Bazarı üzrə Komitə yaranmışdır.

Qeyd etmək lazımdır ki, müstəqillik qazanıldıqdan bir müddət sonra Ümumi Milli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda İqtisadi inkişafın möhkəm təməli qoyulmuşdur. Məhz bu dövrdən etibarən Azərbaycanda siyasi, sosial-İqtisadi sabitlik əldə edilmiş, bu da öz növbəsində İqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli zəmin yaratmışdır. Böyük səylə işlənib hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən islahatlar qarşıya qoyulan məqsədlərin icra edilməsinə, həmçinin makroİqtisadi, eləcə də maliyyə sabitliyinin və struktur dəyişikliklərin təmin olunmasına, İqtisadi artıma və əhalinin maddi rifahının yüksəldilməsinə xidmət edir.

Ölkənin İqtisadi inkişaf səviyyəsini müəyyən edən əsas göstəricilərdən biri onun beynəlxalq əmək bölgüsündə iştirak səviyyəsidir. Dünya təcrübəsi göstərir ki, ölkənin İqtisadi inkişaf səviyyəsi nə qədər yüksək olarsa, onun xarici İqtisadi əlaqələri də bir o qədər fəal və müxtəlif formalara malik olur. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı, ilk növbədə xarici ticarət, kapitalın beynəlxalq hərəkəti və birgə istehsal fəaliyyəti ilə müəyyən olunur.

Bu ötən illər ərzində respublikamızın dünya İqtisadiyyatına inteqrasiyası, beynəlxalq qurumlarla əməkdaşlıq istiqamətində xeyli işlər görülmüşdür. Bu sahədə əldə edilmiş nəti**c**ələr yüksək qiymətləndirilməlidir.

Hazırda Azərbay**c**an Respublikası Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və Inkişaf Bankı, Asiya Inkişaf Bannkı, Islam Inkişaf Bankı, Qara Dəniz Ti**c**arət və Inkişaf Bankı və digər maliyyə institutları ilə əməkdaşlıq edir.

Dünya Bankı bu günə qədər Azərbay**c**ana 22 layihə üzrə 585 milyon ABŞ dolları məbləğində kredit ayırmışdır. Bunun 392 milyon ABŞ dolları artıq layihələr çərçivəsində istifadə olunmuş, qalan 193 milyon ABŞ dolları isə hazırda i**c**rada olan layihələr çərçivəsində istifadə olunur.

Azərbay**c**an Respublikası 18 sentyabr 1992-**c**i ildə Beynəlxalq Valyuta Fondunun üzvü olmuşdur. Fonda üzv qəbul edilərkən respublikamızın ilkin kvotası 117 milyon SDR (168 milyon ABŞ dolları) olmuş, 2000-**c**i ilin yanvar ayının 28-dən isə artırılaraq 160,9 milyon SDR-ə çatdırılmışdır.

Azərbaycan Respublikasında BVF-nin yaxından iştirakı ilə 6 müxtəlif proqram hazırlanaraq həyata keçirilmişdir ki, bu proqramlar çərçivəsində respublikamıza 546,7 milyon ABŞ dolları kredit verilmişdir.

Beynəlxalq maliyyə institutlarının, xüsusilə də BVF-nin Azərbaycanla əməkdaşlığının mühüm bir istiqamətini neft gəlirlərindən səmərəli istifadə məsələsi təşkil edir ki, bu da hazırda Azərbaycan hökumətinin qarşısında duran ən aktual məsələdir. Neft gəlirlərindən səmərəli istifadənin təşkili, məşhur holland sindromu təhlükəsinin aradan qaldırılması məqsədilə Neft Fondunun yaradılması da məhz BVF-nin ideyası və tövsiyəsi olmuşdur. BVF Neft Fondu mexanizmini neft ölkələri olan Nigeriya və Venesuelada baş vermiş böhrandan sonra təklif etmiş, Norveç, ABŞ və digər bir sıra ölkələrdə bu mexanizmin həyata keçirilməsinə nail olmuşdur.

Hazırda respublikamız böyük neft gəlirləri əldə edir və bu gəlirlər əsasən Azəri-çıraq-Günəşli və Şahdəniz yataqlarının işlənməsini nəzərdə tutan sazişlər üzrə əldə edilir. Bakı-Tbilisi-Ceyhan neft ixrac-boru kəmərinin 2006-cı ildə işə düşməsi ilə Azərbaycanda hasil edilən neftin həcminin artırılması üçün zəmin yaranmışdır. 2010-cu ildə respublikamızda neft hasilatı 60-65 mln. tona çatacaq və bunun təxminən 50-55 mln. tonu «Əsrin müqaviləsi» çərçivəsində əldə ediləcək.

Hesablamalara görə Açərbaycanın 2030-cu ilə qədər «Əsrin müqaviləsi» çərçivəsində toplanan gəlirləri 250 mlrd. ABŞ dollarına qədər ola bilər. Bu gəlirlər əsasən Dövlət Neft Fonduna, dövlət bödcəsinə və Dövlət Neft Şirkətinə yönələcək. Dövlət Neft Fonduna toplanan gəlirlər ölkənin ömumi neft gəlirlərinin təxminən 92%-ni təşkil edəcəkdir.

Nəzərə almaq lazımdır ki, neft ixracı Azərbaycanın xarici İqtisadi əlaqələrinin ən mühüm istiqamətidir və o maliyyə sabitliyinini möhkəmlənməsində müstəsna rol oynayır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası son dövrdə dünyanın bir sıra maliyyə qurumlarından məqsədli kreditlər də almışdır. Bu kreditlər isə İqtisadiyyatın əsas sahələrinin inkiaşfına yönəldilmişdir.

Cədvəl 1.

Beynəlxalq maliyyə qurumlarının kreditləri
(mln. ABŞ dolları, 01.01.2006)

Təşkilatlar	Alınmış kreditlər	Ondan istifadə edilmişdir
Beynəlxalq Valyuta Fondu	562,5	448,7
Dünya Bankı	448,1	251,3
Avropa Yenidənqurma və Inkişaf Bankı	54,5	22,7
Islam Inkişaf Bankı	148,0	105,9

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dünya İqtisadiyyatına inteqrasiyasının mühüm göstəricilərindən biri də xarici ticarət dövriyyəsinin vəziyyəti və buradakı dinamik dəyişikliklərdir. Bu gün respublikamız 150-dən çox ölkə ilə ticarət əlaqəsi aparır. 2007-ci il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən bu ölkələr ilə aparılmış ticarət əməliyyatlarının həcmi 10957,9 mlrd. ABŞ dolları olmuşdur. Bu müddət ərzində 5265,1 mln. ABŞ dolları dəyərində mal ixrac, 5692,8 mln. ABŞ dolları dəyərində idxal olunmuş, ixrac-idxal əməliyyatları üzrə saldo –427,7 mln. ABŞ dolları təşkil etmişdir.

Azərbaycanın xarici İqtisadi əlaqələrinin və dünya İqtisadiyyatına inteqrasiyasını özündə əks etdirən göstəricilər sistemindən biri də tədiyə balansıdır.

Cədvəl 2.

Azərbaycanın tədiyə balansının əsas göstəriciləri

	2004		2005	
	Mln. $	ÖDM-də %-lə	Mln. $	ÖDM-də %-lə
I. Cari əməliyyatlar hesabının saldosu	**-2589.2**	**-30.4**	**167.3**	**1.3**
Xarici ticarət balansı	161.3	1.9	3299.1	26.3
Xidmətlər balansı	-2238.4	-26.3	-1970.0	-15.7
Gəlirlər balansı	-700.6	-8.2	-1645.6	-13.1
Cari transfertlər balansı	188.5	2.2	483.8	3.8
II. Kapitalın və maliyyənin hərəkəti Hesabının saldosu	**2973.2**	**34.9**	**440.4**	**3.5**
Birbaşa investisiyalar	2329.7	27.3	458.2	3.6
Neft bonusu	21.6	0.3	1.0	-
Kreditlər və digər investisiyalar	621.9	7.3	-18.8	-0.1
III. Tədiyə balansının ümumi saldosu	**384.0**	**4.5**	**607.7**	**4.8**

Cədvəldən göründüyü kimi, tədiyə balansının **c**ari əməliyyatlar üzrə saldosu 2005-**c**i ildə müsbət 167,3 milyon dollar təşkil etmişdir. Təhlillər göstərir ki, bu müsbət saldonun formalaşmasında xari**c**i ti**c**arət balansındakı dinamik dəyişikliklərin mühüm rolu olmuşdur ki, bu da xüsusilə ölkənin neft sənayesindəki inkişafla bağlı olaraq ixra**c**ın yüksəlməsi ilə izah edilir.

Tədiyə balansının Kapitalın və maliyyənin hərəkəti bölməsində 2005-ci ildə ölkə İqtisadiyyatında istifadə olunmuş xarici kapitalın ömumi həcmi 4,9 mlrd. dollar təşkil edərək əvvəlki ilin göstəricisindən 7,1% çox olmuşdur. əvvəlki dövrlərdə ölkə İqtisadiyyatında istifadə olunmuş birbaşa investisiyaların repatriasiyası və xarici İqtisadiyyata yönəldilmiş birbaşa investisiyaların ümumi məbləği 4,1 mlrd. dollar təşkil edərək əvvəlki ilin göstəricisindən 70% çox olmuşdur. Bu artım əsas etibarilə "əsrin müqaviləsi" ilə bağlı neft-qaz sektorunun xarici öhdəliklərinin azalması hesabına xarici ölkələrin iri neft şirkətləri tərəfindən Azərbaycana yönəldilmiş birbaşa investisiyaların repatriasiyasının həcminin artması ilə bağlıdır. Belə ki, 2004-cü ildə neft-qaz sektoru üzrə repatriasiya olunmuş investisiyaların həcmi 1,2 mlrd. dollara yaxın məblğədə olduğu halda, 2005-ci ildə bu göstərici 2,4 dəfə artaraq 2,8 mlrd. dollara çatmışdır.

2005-**c**i ildə respublika İqtisadiyyatında istifadə olunmuş xarici sərmayələrin ümumi həcminin 17,6%-ni birbaşa dövlət və dövlət təminatlı kreditlər, özəl sektora cəlb olunan kredit və ssudalar, depozitlər və s. kapital axınları təşkil etmişdir. Il ərzində tədiyə balansında əks etdirilmiş bu göstəricilərin ümumi məbləği 861,8 mln. dollara bərabər olmuş və 2004-**c**ü illə müqayisədə 2,4 dəfə artmışdır. Həmin məbləğin 33,4%-i (287,9 mln. dolları) beynəlxalq neft-qaz kontraktları çərçivəsində ölkə ərazisində görülən işləri maliyyələşdirmək üçün ssuda şəklində beynəlxalq maliyyə təşkilatlarından cəlb edilən vəsait olmuşdur. 282,1 mln. dolları isə birbaşa dövlət və dövlət təminatı əsasında cəlb olunmuş kreditlərdir: bundan Beynəlxalq Valyuta Fondu – 19,7 mln. dollar.

Qeyd etmək lazımdır ki, ölkənin bank sektorunun xalis beynəlxalq investisiya mövqeyi 2006-cı ilin 01 yanvar tarixinə müsbət 957,6 mln. dollar təşkil etmişdir. Bu isə öç növbəsində ölkənin beynəlxalq investisiya mövqeyi üzrə yaranmış mənfi saldonun müəyyən qədər açalmasına təsir göstərmişdir. Ölkənin xalis beynəlxalq investisiya mövqeyinin mənfi saldosunun 4,0 mlrd. dolları digər investisiyalar kateqoriyasına daxil olan depozitlər, kreditlər, debitor borcları və digər öhdəliklərdir. Bunun da 42%-i, yəni 1,65 mlrd. dolları birbaşa dövlət və dövlət təminatına əsasən ölkəyə cəlb olunmuş kreditlərlə əlaqədar yaranmış dövlət borcunun payına düşür. Bu öhdəliklərin ÜDM-in həcmində xüsusi çəkisi keçən illə müqayisədə 5,5% açalaraq cəmi 13,1%-ə bərabər olmuşdur. Nəticədə əgər 2004-cü ilin yekunları üzrə xarici dövlət borcunun ölkənin strateci valyuta ehtiyatlarına nisbəti 77,5%-ə bərabər idisə, 2005-ci ilin yekunlarına görə bu göstərici 64,2%-ə qədər azalmışdır. Xarici

dövlət borcunun ümumi həcmi ölkənin strateci valyuta ehtiyatlarından 922 mln. dollar az olmuşdur.

Azərbay**c**anın xari**c**i İqtisadi əlaqələri bank sektoruna da **c**iddi təsir göstərmişdir. Bank sektorunda xari**c**i investisiyaların çəkisi əhəmiyyətli dərə**c**ədə artmışdır. Bu faktor maliyyə sabitliyinin möhkəmlənməsində xüsusi rola malik olmuşdur. **C**ədvəldən göründüyü kimi 1999-2006-**c**ı illər ərzində xari**c**i kapitallı bankların sayı 13-dən 20-ə yüksəlmişdir.

Cədvəl 3.

Azərbaycanda xarici kapitalla fəaliyyət göstərən banklar haqqında ümumi məlumat

	1999	**2000**	**2001**	**2002**	**2003**	**2004**	**2005**	**2006**
Banklar	70	59	53	46	46	44	44	44
o **c**ümlədən								
dövlət bankları	4	3	2	2	2	2	2	2
özəl banklar	66	56	51	44	44	42	42	42
xarici kapitallı banklar	**13**	**16**	**16**	**15**	**17**	**15**	**18**	**20**
ümumidə xüsusi çəkisi, %-lə	18,6	27,1	30,1	32,6	36,9	34,0	40,9	45,4

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın milli İqtisadiyatının formalaşdırılması, milli maraqlar nəzərə alınmaqla onun regionda İqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsi, dünya İqtisadiyyatı sisteminə rasional inteqrasiya olunması və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilməsi qarşıda duran ən mühüm vəzifələr kimi dəyərləndirilir. Bu məqsədlə Azərbaycan bir tərəfdən İqtisadiyyatın bütün sahələrində əsaslı struktur dəyişiklikləri həyata keçirir, digər tərəfdən isə bir sıra regional İqtisadi inteqrasiya qruplaşmalarında iştirak etməklə dünya təsərrüfat əlaqələri sisteminə fəal surətdə qoşulur.

Azərbaycanın neft strategiyasının başlıca elementlərindən biri Xəzərin karbohidrogen resurslarının Avropa və dünya bazarlarına nəqli üçün ixrac boru kəmərlərinin xüsusi rol oynaması, Bakı-Novorossiysk və Bakı-Supsa ixrac kəmərləri vasitəsilə Xəzər neftinin ixracında və 1999-cu ildə Istanbulda imzalanan Bakı-Tiflis-Ceyhan əsas neft ixrac kəmərini çəkilişində yaxından iştirak etməsi, eləcə də tezliklə, Bakı-Tiflis-Ərzurum qaz boru kəmərinin çəklişi layihəsinin reallaşdırılmasında əməkdaşlığın genişləndirilməsidir. Şübhəsiz Azərbaycanda bu strateci layihələrin həyata keçirilməsi regionun yalnız İqtisadi deyil, həmçinin siyasi, sosial, demokratik inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Azərbaycan, Gürcüstan və Türkiyə, eləcə də dünyanın bir sıra aparıcı neft kompaniyalarının iştirakı ilə həyata keçirilən bu mühüm layihələr Xəzər və Qara dəniz hövzələri arasında İqtisadi əməkdaşlığın daha da dərinləşməsinə səbəb olacaqdır.

Neft strategiyasının reallaşması Azərbaycanın region dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Dövlət əmlakının özəlləşdirilməsi, torpaq islahatı, neft müqavilələrinin imzalanması və azad sahibkarlıq mühitinin yaradılması xarici investorların Azərbaycan İqtisadiyyatına sərmayə qoymaq marağını xeyli gücləndirmiş və bununla da ölkədə maliyyə sabitliyinin möhkəmlənməsi üçün şərait yaratmışdır.

Təqdirəlayiq haldır ki, Azərbaycana üz tutan xarici iş adamları arasında qeyri-neft sektoruna sərmayə qoyanların sayı getdikcə artır. Nəticədə xarici investisiyaların ümumi həcmində qeyri-neft sektorunun xüsusi çəkisi ilbəil çoxalır.

Cədvəl 4.

Azərbaycan İqtisadiyyatına yönəldilən investisiyalar

	1995	**2001**	**2002**	**2003**	**2004**	**2005**	**2006**
Bütün investisiya qoyuluşları:							
Mln.manat	480.7	1454.5	2718	4249.2	5820.4	6309.1	7270.3
Mln.dollar	544	1561.8	2796.6	4326.4	5922.7	6669.6	8130.8
Xarici investisiyalar:							
Mln.manat	331.4	1016.8	2172	3310.9	4496.4	4204.2	4514.2
Mln.dollar	375.1	1091.8	2234.9	3371	4575.5	4444.3	5052.8
Dinamika (%-lə)	**-**	**191**	**104.6**	**50.8**	**35.7**	**-2.9**	**13.7**
o cümlədən maliyyə kreditləri:							
Mln.dollar	220.4	192	223	238.3	293	698.4	983.5

Hazırda Azərbaycan Respublikasında dünyanın iri neft şirkətlərindən– BP, LUKOYL, Statoyl, Ekson, Itoçu, Yunokolla yanaşı, «Baku Stell Co», «Evropean-Tobako», «Azərsun», «Goytürk», «Katel», «Azercell», «Bakcell» və s. xarici sərmayə ilə işləyən müəssisələri də yaxşı tanıyırlar. Hətta bu şirkətlərin çoxu indi təkcə Azərbaycanın daxili bazarı üçün məhsullar istehsal etmir, onların istehsal etdikləri bir çox sənaye məhsulları yaxın və uzaq xarici ölkələrə ixrac olunur.

Azərbaycan Respublikası bir sıra beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradıb, bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulub, MDB, İqtisadi Əməkdaşlıq Birliyi, Qara dəniz sahili ölkələr birliyi, Xəzərsahili dövlətlərin birliyi, Ümumqafqaz evi, GUAM kimi İqtisadi birliklərə daxil olub. Beləliklə, ölkənin xarici İqtisadi əlaqələri dinamik inkişaf edir, dünya İqtisadi sisteminə qovuşması prosesi sürətlənir.

Cədvəl 5.

2001-2006-cı illərdə MDB ölkələri ilə xarici ticarətin əsas göstəriciləri

	2001	2002	2003	2004	2005	2006	Artım
Ixrac *(mln. dollar)*	**222,8**	**243,72**	**333.9**	**614,3**	**905,4**	**929,6**	**4,2 dəfə**
Xüsusi çəkisi, *%-lə*	9,6	11,2	12,8	16,9	20,8	14,6	**5,0 %**
Idxal *(mln. dollar)*	**445,2**	**650,6**	**850,7**	**1200,5**	**1449,5**	**2100,0**	**4,7 dəfə**
Xüsusi çəkisi, *%*	31,1	39,1	32,4	34,1	34,5	39,9	**8,8 %**

Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin imzaladığı «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» 28 sentyabr 2002-ci il tarixli fərman sahibkarlığın inkişafı istiqamətində bir sıra islahatların aparılmasına təkan vermişdi. Aparılan genişmiqyaslı, uğurlu islahatlar nəticəsində 2008-**c**i ilin altı ayı ərzində ölkə İqtisadiyyatına 4,4 milyard ABŞ dolları hə**c**mində investisiya qoyulmuşdur ki, bunun da 3,1 milyard dolları daxili investisiyadır.

Azərbay**c**an Respublikasının Prezidenti İlham Əliyev tərəfindən investisiya fəaliyyətini genişləndirmək və investorların maraqlarını qorumaq məqsədi ilə bir sıra tədbirlər, islahatlar həyata keçirilmiş və Neft Fondundan transfer olunan vəsait hesabına yeni «Dövlət investisiya şirkəti» yaradılmışdır. Investorların fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə bir çox infrastruktur layhələr həyata keçirilmişdir.

Bazar münasibətləri əsasında milli İqtisadiyyatın formalaşması və inkişafında, maliyyə sabitliyinin bərqərar olmasında daxili bazarın yerli xammala əsaslanan məhsullarla zənginləşməsində, yeni iş yerlərinin açılmasında, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, sağlam rəqabət mühitinin yaradılmasında və digər sosial-İqtisadi problemlərin həllində sahibkarlıq fəaliyyəti çox böyük rol oynayır. Son illər Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı böyük miqyaslı və strateci əhəmiyyətli tədbirlər həyata keçirilib. Belə ki, əsas makroİqtisadi göstərici olan ümumi daxili məhsul 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz, 1999-cu ildə 7,4 faiz, 2000-ci ildə 11,1 faiz, 2001-ci ildə 9,9 faiz, 2002-ci ildə 10,6 faiz, 2003-**c**ü ildə 11,2 faiz, 2004-**c**ü ildə 7,0 faiz, 2005-**c**i ildə 26,4 faiz, 2006-**c**ı ildə 37,1 faiz, 2007-**c**i ildə isə 25,0 faiz artmışdır.

Cədvəl 6.

1997-2007-ci illərdə idxal və ixracın dinamikası (milyon ABŞ dolları)

Illər	Ümumi dövriyyə	Dinamika, %-lə	Idxal	Dinamika, %-lə	Ixrac	Dinamika, %-lə	Saldo
1997	1575,6	-1,1	794,3	-17,3	781,3	23,8	-13,0
1998	1682,6	6,8	1076,5	35,5	606,1	-22,4	-470,3
1999	1965,1	16,8	1035,9	-3,8	929,2	53,3	-106,6
2000	2917,3	48,5	1172,0	13,1	1745,2	87,7	573,1
2001	3745,3	28,4	1431,1	22,1	2314,2	32,6	883,0
2002	3833,0	2,3	1665,6	16,4	2167,5	-6,3	501,9
2003	5218,1	36,1	2626,4	57,7	2591,7	19,6	-34,7
2004	7131,4	36,7	3515,9	33,7	3615,5	39,5	99,5
2005	8547,2	19,8	4200,4	19,5	4346,9	20,2	146,5
2006	11637,2	36,1	5265,1	25,3	6372,1	46,6	1107,0
2007	10957,9	- 5,9	5692,8	8,1	5265,1	-17,4	-427,7

Hal-hazırda Azərbaycan dövləti beynəlxalq İqtisadi münasibətlər sisteminə daxil olmuş və dünyanın bir sıra ölkələri ilə sərbəst şəkildə geniş miqyaslı İqtisadi əlaqələr qurmağa başlamışdır. Beynəlxalq İqtisadi əlaqələr sistemində Azərbaycanın yerini müəyyənləşdirərkən onun inkişaf təcrübəsi, resurs potensialı, geosiyasi vəziyyəti və s. amillər əsas götürülür. Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakı strategiyasını hazırlayarkən milli İqtisadiyyatın prioritet sahələrinin üstün inkişaf etdirilməsi və daxili bazarın zərərli xarici təsirlərdən qorunması nəzərə alınmalıdır.

7.2. Maliyyə sisteminin səmərəli fəaliyyətində bankların maliyyə sabitliyinin təmin edilməsi

Son illər ölkəmizdə bank sisteminin inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində bankların aktivləri və kapitalı yüksək templə artmış, resurs bazası isə xeyli genişlənmişdir. Belə ki, 2006-cı ilin əvvəlinə banklarda kreditlərin ÜDM-ə nisbəti 2004-cü ilin müvafiq dövründəki 8,3%-dən 11,8%-ə, cəlb edilmiş depozitlərin nisbəti isə uyğun olaraq 10,5%-dən 12,1%-ə çatmışdır. Onu da qeyd edək ki, 2004-cü ildə 2003-cü ilə nisbətən bank aktivlərinin artım tempi ÜDM-in artım tempini 5-6 dəfə üstələdiyinə görə, bank aktivlərinin ÜDM-də xüsusi çəkisi 14,2%-dən 19,9%-ə qalxmışdır. 2005-ci ildə isə bank aktivlərinin artım tempi 2004-cü illə müqayisədə bir qədər zəifləmiş və nəticədə 2006-cı ilin əvvəlinə onun ÜDM-ə nisbəti 19,0% təşkil etmişdir. 2005-ci ildə

bank sisteminin kapitalının ÜDM-ə nisbəti isə 2004-cü illə müqayisədə 0,1faiz bəndi artaraq 2,9%-ə çatmışdır.

Respublikanın bank sisteminin inkişafında baş verən müsbət meyllər son illərdə bankların kapitallaşma dərəcəsinin, apardıqları əməliyyat növlərinin və həcminin artırılması və s. hesabına daha da güclənmiş, ölkə İqtisadiyyatında bankların vasitəçilik rolu xeyli artmışdır.

AR Milli Bankının hesabat məlumatlarına görə, 2005-ci ildə bank aktivləri 2004-cü illə müqayisədə 577 milyon manat və ya 34,5% artaraq 2006-cı ilin əvvəlinə 2252 milyon manata çatmışdır.

Araşdırmalar göstərir ki, bankların kredit əməliyyatlarının inkişafında mühüm meyl istehlak kreditlərinin həcminin kəskin artımı olmuşdur. Belə ki, 2004-cü ildə fiziki şəxslərə verilmiş kreditlərin həcmi 81,7% artaraq 274,4 mln. manat, 2005-ci ildə isə 44,7% artaraq 369,5 mln. manat təşkil etmişdir. Qeyd edilənlərdən göründüyü kimi, son vaxtlar əhalinin kreditləşməsi bank xidmətlərinin mühüm hissəsinə çevrilməkdədir. Belə ki, 2004-2005-ci illərdə bu kreditlər cəmi kredit portfelinin 26-28 faizi civarındadır.

Bank sisteminin inkişafının digər mühüm istiqamətlərindən biri ticarət və xidmət sektoru ilə əlaqələrin xeyli güclənməsidir. 2005-ci ildə bu kreditlərin həcmi 66,4 faiz artaraq 2006-cı ilin əvvəlinə 361,2 mln. manat təşkil etmişdir ki, bunun da nəticəsində cəmi bank kreditlərində ticarət və xidmət sektoruna verilmiş kreditlərin payı müvafiq olaraq 24%-dən 25,8%-dək artmışdır.

Son vaxtlar banklar tərəfindən real sektora yönəldilmiş kreditlərin həcmi də əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, təkcə 2005-ci ildə energetika, kimya və təbii ehtiyatlar sektoruna verilmiş kreditlərin məbləği təxminən 8 dəfə artaraq 2006-cı ilin əvvəlinə 181,4 mln. manat təşkil etmişdir. Həmin kreditlərin cəmi kredit qoyuluşlarında xüsusi çəkisi isə müvafiq olaraq 2,5%-dən 12,9%-dək artmışdır. Aqrar sahəyə yönəldilmiş kreditlərin həcmi 2004-cü illə müqayisədə 2 dəfəyə yaxın artmaqla 94,8 mln. manat təşkil etmişdir.

Onu da qeyd edək ki, bankların və bütövlükdə maliyyə sisteminin mövcudluğunun əsasını bankların likvidlik göstəricisi, onların hansı səviyyədə ödəmə qabiliyyətli olması sayılır. Likvidlik bankın passivlər üzrə pul formasında öz öhdəliklərinin yerinə yetirilməsini təmin etmək qabliyyətidir. İqtisadi ədəbiyyatda likvidlik anlayışına fərqli baxışlar mövcuddur. Bəziləri likvidliyi hesablaşmalar və depozitlər üzrə cari əməliyyatları həyata keçirmək üçün zəruri olan pul ehtiyatı, bəziləri az likvidli aktivlərin daha likvidli aktivləri çevrilməsini təmin edən pul axınları, digərləri isə bankın aktiv əməliyyatlarınn riskli dərəcəsi üzrə qiymətləndirilmiş axınlar kimi şərh edirlər.

Bankın maliyyə sabitliyinin idarəedilməsi pul axınlarının likvidliyi və onların yerləşdirilməsi, gəlirliliyin idarəedilməsi ilə bağlıdır. Təcrübədə bankın maliyyə sabitliyinin idarəedilməi dörd nəzəriyyəyə, daha doğrusu, kommersiya borcu, yerləşdirmə, gözlənilən gəlir və passivlərin idarəedilməsi nəzəriyyəsinə əsaslanır.

Fikrimizcə, bazar İqtisadiyyatı şəraitində bankın maliyyə sabitliyinin idarəedilməsi maliyyələşdirmə mənbələrinin və öhdəliklərin balanslaşdırılmış sistemli qiymətləndirilməsini, pulun hərəkəti və gəlirliliyin artımı baxımından risklərin diversifkasiyasını tələb edir.

Likvidlik əmsalları normal səviyyə çərçivəsində müddəti üzrə resursların yerləşdirilməsini və təminatlılıq dərəcəsini göstərir. Bankın maliyyə vəziyyətini normallaşdırmaq məqsədilə qəbul edilən qərarların əsaslandırılması üçün bu göstəricilərin təhlili zəruridir. Belə ki, verilmiş kreditlər və cəlb edilmiş vəsaitlərin nisbətinin təhlili bankın kredit siyasətinin xarakterini müəyyən edir. Əgər bunun qiyməti vahiddən kiçik olarsa onda bank konservativ kredit siyasəti həyat keçirir, vəsaitləri fəal kreditə yönəltmir ki, bu da faiz gəlirlərinin aşağı düşməsinə gətirib çıxara bilər. Digər halda qeyd edilən əmsalların dinamikada təhlili pul axınlarının idarə edilməsinin daha dəqiq və çevik strategiyasnı işləyib hazırlamağa kömək edir.

Müasir şəraitdə bankın maliyyə vəziyyətinin möhkəmləndirilməsi üzrə aktiv və passivlərinin idarəedilməsinin balanslaşdırılmıs strategiyası likvidli aktivlərin və cəlbedilmiş passivlərin proporsionallığını tələb edir.

Aktiv və passivlərin balanslaşdırılmış idarəedilməsi metodu pul resurslarına məcmu tələb və təklifin təhlilinə əsaslanır. Bu isə öz növbəsində İqtisadi inkişafın vəziyyətindən, bankların xidmət göstərdiyi İqtisadiyyat sektorlarının və sahələrinin, bankların iri müştərilərinin perspektiv inkişafından asılıdır. Banklar inkişaflarının strate**ci** planını işləyib hazırlayarkən ölkənin sosial – İqtisadi inkişaf strategiyanı əhalinin gəlirlərindəki, maliyyə bazarındakı mümkün dəyişiklikləri nəzərə almalıdırlar.

Araşdırmalar göstərir ki, bankın maliyyə sabitliyini onun kapitallaşma səviyyəsi, mənfəətliliyi və likvidliyi müəyyən edir. Bankın xüsusi kapitalı onun aktiv əməliyyatlarının artırılmasının əsasıdır. O, bankın maliyyə sabitliyinə və mənfəətliliyinə, İqtisadiyyat sahələrinin kreditləşdirilməsinin investisiya potensialına təminat verən amillər məcmusunda mühüm rol oynayır.

Kapitalın artım mənbələri ötən ildəki bölüşdürülməmiş mənfəət, bankın ehtiyatları, əlavə emissiya edilmiş qiymətli kağızların yerləşdirilməsi ola bilər. Bankın əldə etdiyi mənfəət nə qədər çox olarsa, onun kapitallaşma səviyyəsi də bir o qədər yüksək olur. Kapitalın artımının ikinci mənbəyi bank idarələrinin emissiya fəaliyyəti və açıq bazar əməliyyatlarıdır.

Respublikamızda İqtisadi islahatların uğurla həyata keçirilməsi üçün əsas problemlər arasında bank sisteminin sabitliyinin təmin edilməsi, milli valyutanın möhkəmləndirilməsi, daxili ehtiyatlardan maksimum istifadə edilməsi, bank sektorunun real İqtisadiyyatın kreditləşdirilməsinə istiqamətləndirilməsi mühüm yer tutur. Bu zaman bankların möhkəmləndirilməsi vasitəsilə bank sisteminə inamın artırılması və tənzimləmək yolu ilə onların fəaliyyət səmərəliliyinin yüksəldilməsi vacibdir. Eyni zamanda bank fəaliyyətinin tənzimlənməsi vasitələri dövlətin pul-kredit siyasətinin vasitələri

kimi qəbul edilir. Respublikada bank sisteminin tənzimlənməsinin normativ hüquqi bazasının formalaşdırılmasının müəyyən səviyyəsinə nail olunmuşdur.

Belə bir məsələyə diqqət yetirilməlidir ki, gələcəkdə bank sisteminin sabitliyini təmin etmək və investorların inamını yüksəltmək məqsədilə bankların tənzimlənməsinə dair çevik strategiyanın və adekvat pul - kredit siyasətinin həyata keçirilməsi zəruridir.

Müasir dövrdə bankın sabitliyinin möhkəmləndirilməsi və bank sisteminə inamı yüksəltmək üçün daxili resursların cəlb edilməsi prioritetlik təşkil etməlidir. Deməli, şəxsi kapitalın və onun adekvatlığının qiymətləndirilməsi üsulları, likvidlik göstəriciləri və digər normativlər bank fəaliyyətinin tənzimlənməsinin çevik vasitələridir.

Ölkədəki ümumi siyasi və İqtisadi vəziyyət bank əməliyyatlarının inkişafına və bank sisteminin uğurlu fəaliyyətinə zəmin yaratmaqla, bankların fəaliyyətinin sabit İqtisadi əsasını təmin edir, yerli və xarici investorların banklara inamını möhkəmləndirir. Zəruri şərtlər olmadan banklar sabit depozit bazası yaratmağa, əməliyyatların rentabelliyinə nail olmağa, öz aktivlərinin keyfiyyətini yüksəltməyə, idarəetmə sistemini təkmilləşdirməyə qadir deyil.

«Milli Bank haqqında» Azərbaycan Respublikasının Qanunu kredit təşkilatlarının fəaliyyətini və likvidliyini tənzimləmək üçün bir sıra İqtisadi normativlərin (nizamnamə kapitalının minimum həcmi; kapitalın kifayətlilik normativi; likvidlik normativləri; bir borcluya yaxud, borclular qrupuna düşən riskin maksimum həcmi; iri kredit risklərinin maksimum həcmi; bir kreditora riskin maksimum həcmi; əhalidən cəlb edilən pul əmanətlərin (depozitlərin) maksimum həcmi və s.) tətbiqini nəzərdə tutur.

Beləliklə, bankların maliyyə sabitliyinin idarəedilməsi gəlirliliyin və bütün mümkün risklərin idarəedilməsi ilə sıx bağlıdır. Perspektivdə ölkənin İqtisadi artmının maliyyələşdirilməsi əhəmiyyətli dərəcədə daxili əmanətin və investisiyanın vəziyyətindən asılı olacaqdır. Milli əmanətin yüksək norması İqtisadiyyatın real sektorlarının qısamüddətli və uzunmüddətli kreditləşdirilməsini təmin edəcəkdir. Bu isə əhəmiyyətli şəkildə bankların maliyyə sabitliyi ilə şərtlənir.

Belə bir məsələyə diqqət yetirmək lazımdır ki, Azərbaycan kommersiya banklarının investisiya fəaliyyəti təcrübəsində risk probleminin xüsusi əhəmiyyəti, verilən investisiya krediti alıtnda likvid girovunun tələb olunması investisiya layihələrini kreditləşdirən bank riskinin minimuma endirilməsinin daha əlverişli yollarından birinə çevrilməkdədir. Lakin bu zaman riskin minimumlaşdırılmasının məhz bu yolundan istifadə ilə əlaqədar obyektiv məhdudiyyətlər mövcuddur. Belə ki, müəssisələrin çox az qismi bankın tələblərinə cavab verən girov təqdim etmək vəziyyətindədir.

Hal-hazırda dövlət tərəfindən dövlət qiymətli kağızlarına qoyuluşun gəlirliliyinin məhdudlaşdırılması siyasətinin aparılmasına başlandığı, eləcə də ölkənin kommersiya bankları üçün valyuta məzənnəsinin nisbətən sabitləşdirilməsi şəraitində dövlət qısamüddətli istiqrazlarına(DQI) qoyuluşlar və

valyuta alverçiliyi hesabına gəlirin alınması imkanlarının xeyli azaldılması. Bu vəziyyətdə özündə məhz həm sərmayələri, həm də yüksək səmərəli investisiya layihələrini birləşdirən əsaslandırılmış kredit portfeli banklar tərəfindən dayanıqlı gəlirin alınmasının əsas mənbələrindən birinə çevrilir.

Kommersiya banklarının investisiya kreditləşdirilməsi sahəsində investisiya fəallığının yüksəldilməsi, yenidən maliyyələşdirmə dərəcəsinin aşağı salınması, DQI-yə və digər dövlət qiymətli kağızlarına gəlirliliyin aşağı salınmasından xeyli asılıdır.

Qeyd etmək lazımdır ki, korporativ qiymətli kağızlara vəsaitlər qoymaq yolu ilə investisiya siyasətinin reallaşdırılması sahəsində kommersiya banklarının investisiya fəallığının yüksəldilməsi üçün, yuxarıda qeyd edilənlərlə yanaşı, aşağıdakı hallar da mühüm əhəmiyyət kəsb edir.

Burada əsas vasitələrdən biri səhmlərə, istiqrazlara və konkret layihənin reallaşması altında buraxılan qiymətli kağızlara qoyuluş vasitəsilə investisiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb olunması sayılır. Bundan əlavə, dövlətin prioritetləri sisteminə daxil olan investisiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb edilməsi məqsədilə emitentləşdirilən qiymətli kağızlar (səhm və istiqrazlar) üzrə dövlət zəmanətləri sisteminin inkişafı olduqca vacibdir.

7.3. Xarici İqtisadi əlaqələrin tənzimlənməsi ilə maliyyə sabitliyinin təmin edilməsinin qarşılıqlı əlaqəsi

Bazar İqtisadiyyatı yolu ilə gedən Azərbaycanda həyata keçirilən uğurlu islahatlar dünya dövlətləri ilə xarici İqtisadi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Ötən illər ərzində Azərbaycanda həyata keçirilən xarici ticarət siyasətinin obyektiv nəticəsi kimi ölkə beynəlxalq mübadilə sferasında yalnız kəmiyyət baxımından müəyyən irəliləyişlərə nail olmuşdur. Bundan başqa, milli İqtisadiyyatın inkişafı xarici amillərdən yüksək dərəcədə asılı olduğu üçün ÜDM-də daxili bazarın rolu getdikcə azalır.

Son illərdə həyata keçirilən idxal-ixrac əməliyyatlarının əmtəə strukturunu nəzərə alsaq, ixracda xammal və yarımfabrikatların, daha doğrusu, yanacaq-enerci məhsullarının, idxalda isə ərzaq və yüksək səviyyəli emal məhsullarının, maşın və avadanlıqların üstünlük təşkil etdiyini görərik. Idxal-ixrac siyasətindəkit bu cür meyl Azərbaycan İqtisadiyyatının mövcud strukturu ilə bağlıdır.

Respublikada ixracın əmtəə strukturunun təhlili aşağıdakı nəticələr çıxarmağa imkan verir:

Azərbaycanın ixracında yanacaq-enerci məhsulları və kənd təsərrüfatı xammallarının xüsusi çəkisi tərəddüdlə artmaqda davam edir ki, bu da dünya ixracının inkişaf meylləri ilə tam ziddiyyət təşkil edir.

1. Hazır məhsul ixracında müəyyən qədər sabitləşmə müşahidə olunur (3-5%) ki, bu da dünya ixracının əmtəə strukturuna uyğun gəlmir.

2. Ölkə ixrac etdiyindən daha çox ərzaq malları idxal edir. Bu isə o deməkdir ki, ərzaq mallarına olan daxili tələbatın ödənilməsi üçün potensial imkanlardan istifadə olunmur.

Azərbaycanın ixrac strategiyasının formalaşma xüsusiyyəti haqda danışarkən xarici investisiyaları mütləq nəzərə almaq lazımdır. Belə ki, ixrac siyasətinin təhlili zamanı neft amilinin rolunu xüsusi qeyd etmək lazımdır. Neft sərmayələri respublikanın dünya İqtisadiyyatına inteqrasiyasının başlıca amilidir. Xarici investisiyalar təkcə maliyyə resurslarının fiziki axını olmayıb, bu həm də qabaqcıl texnologiya, nou-hou, idarəetmənin ən yeni təcrübələri və potensial bazarlara çıxış deməkdir.

Neft amliinin ixrac siyasətinə digər təsiri valyuta reciminin liberallaşdırıması və valyutaların sərbəst köçürülməsinə şərait yaradılması ilə əlaqədardır.

Neft amili ixrac strategiyasının təkmilləşdirilməsində mühüm rol oynasa da, ölkənin potensial imkanları nöqteyi-nəzərindən bu sahədəki çatışmazlıqlar hələ də çoxdur. Bu ən əsası ölkənin ixrac siyasətində neftin üstün rola malik olması ilə əlaqədardır. Ixracın strukturunda yanacaq-enerci, xüsusilə, neft və neft məhsullarının xüsusi çəkisinin yüksək olması xarici ticarət kəsirinin dünya yanacaq bazarındakı qiymət dəyişmələrindən asılılığına səbəb olmuşdur. Bu özünü 1998-ci ildə daha kəskin şəkildə bildirdi. Ixracın neftlə bağlılığı illər üzrə artaraq 2001-ci ildə 78,7% olmuşdur. Digər mənfi hal ixracda xam neftin xüsusi çəkisinin yüksək olması ilə bağlıdır.

Ümumiyyətlə ölkənin ixrac strategiyasında neftin rolu aşağıdakı səbəblərlə izah edilir:

-respublika bu məhsulların hasilatı və emalı üzrə kifayət qədər müqayisəli üstünlüyə malikdir;

-neft sektorunun texnoloci bazası digər sahələrə nisbətən müasir vəziyyətdədir.

Sənaye istehsalının nisbətən cüzi hissəsi xarici bazarlarla təmasda olur. Milli sərhədlər çərçivəsindən kənara çıxmayaraq belə istehsal sahələrinə maşınqayırma, yüngül və yeyinti sənayesi aiddir. Inteqrasiya proseslərində yaxından iştirak edən və ixracda xüsusi payı yüksək olan sahələr neft hasilatı və emalı sənayesidir.

Onu da qeyd etmək vacibdir ki, ölkənin emal sənayesinin beynəlxalq əmək bölgüsü prosesində iştirakı müəyyən qədər sahələrarası səviyyədə həyata keçirilir. Yəni, respublika özünün milli əmtəə bazarlarının tədricən daha çox hissəsini xarici istehsalçılara vermək məcburiyyətindədir.

Azərbaycan Respublikasının ixrac strategiyasının indiki vəziyyətini belə izah etmək olar:

- ixracda yüksək inhisarlaşmanın ləğv olunması, ixracla məşğul olan subyektlərin sayının artması;

- ixracın tənzimlənməsində İqtisadi rıçaqların (vasitələrin) gömrük tariflərinin rolunun ön plana çəkilməsi;

- ixracın dövlət maliyyələşdirilməsinin rolunun azalması, ixracın valyuta-kredit hesablaşmalarına kommersiya banklarının (həm milli, həm də xarici valyuta ilə) rolunun artması.

Bütün bunlara baxmayaraq ölkədə xarici ticarətin liberallaşdırılması və dünya İqtisadi sisteminə inteqrasiyasının təmin olunması istiqamətində mühüm addımların atılmasını inkar etmək olmaz. Son 3-4 ildə xarici ticarətin tənzimlənməsində əsas ağırlıq mərkəzi inzibati metodlardan gömrük-tarif tənzimlənməsinə yönəldilmişdir. Əgər 1992-ci ildə ixracı lisenziyalaşdırılan malların sayı 30-dan çox idisə, hazırda bu tədbir 3-4 mal üçün, həm də icazə şəklində tətbiq olunur. Mərkəzləşdirilmiş nəzarət ayrı-ayrı orqanların nəzarəti ilə əvəz olunmuşdur. Bütün bunlar isə, xarici ticarətin liberallaşdırılması, sərbəst bazar İqtisadiyyatına keçid istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissələridir.

Qeyd etmək lazımdır ki, Azərbaycan kimi keçid dövründə olan ölkələrdə idxalı əvəzetmə siyasətinə daha böyük ehtiyac vardır. Azərbaycanda idxal əvəzləyici və ixracın genişləndirilməsi siyasətinin həyata keçirilməsi bir sıra məsələlərin həlli ilə birbaşa əlaqəlidir:

1. Sənaye istehsalı üçün gərəkli olan maliyyə vasitələri hansı mənbələr hesabına əldə ediləcək və əsas istehsal gücləri məhz hansı - dövlət, yaxud özəl bölmədə yaradılacaq;

2. Xarici investisiyalar bu sahələrə hansı şərtlər əsasında cəlb olunacaq;

3. Sənayeləşmə prosesi sosial-İqtisadi strukturda hansı irəliləyişlərlə müşayiət olunacaq;

4. Investisiya resurslarının səmərəli nisbəti (daxili və xarici mənbələr) necə müəyyən olunacaq.

Respublikanın xarici ticarət siyasətində idxaləvəzləyici, yaxud ixracın genişləndirilməsi istiqamətlərinə üstünlük verilməsi aşağıdakı amillərin komlpeks uçotunu tələb edir:

- ölkənin İqtisadi inkişafının ümumi səviyyəsi;

- İqtisadiyyatın maliyyə-material resursları ilə təmin olunma dərəcəsi;

- peşəkar kadrların mövcudluğu;

- xarici sərmayədarlar tərəfindən maddi-texniki yardımın perspektivləri.

Hazırda Azərbaycanın bu və ya digər inkişaf strategiyasının seçimi hər iki istiqamət üzrə müəyyən əlverişli və əlverişsiz cəhətlərlə səciyyələnir. Həm idxaləvəzləyici, həm də ixracyönümlü sənaye kompleksi yaratmaqdan ötrü ölkə aşaığdakı üstünlüklərə malikdir:

- zəngin təbii ehtiyatlar;

- yaxın qonşularla uzun illərdən bəri mövcud olmuş təsərrüfat əlaqələri;

- ucuz əmək resurslarının mövcudluğu.

Beynəlxalq təcrübədə ixrac yönümlü istehsalın inkişafının stimullaşdırılması məqsədilə müxtəlif dövlət tədbirləri sistemi istifadə olunur. Müasir şəraitdə müxtəlif maliyyə güzəştləri sistemi formalaşmışdır, bu güzəştlər sistemi yerli istehsalçılara daxili və xarici bazarlarda rəqabət qabiliyyətliliyin yüksəldilməsi məqsədilə təqdim edilir. Onlara ixrac mükafatları formasında birbaşa dotasiyaları aid etmək olar.

Bundan başqa, ixracın stimullaşdırılmasının digər üsullarına güzəştli şərtlərlə ixrac kreditlərini, dövlət sığortasının, müxtəlif zəmanətlərin təqdimi, müxətlif vergi güzəştləri və s. aid etmək olar.

Dövlət səviyyəsində maliyyə resurslarının səfərbər olunmasında və maliyyə sabitliyinin yaranmasında dövlət büdcəsinin xüsusi rolu vardır. Azərbaycanda da dövlət büdcəsinin gəlir hissəsi formalaşdıqca, gəlirlərin həcmi artdıqca İqtisadi inkişafın səviyyəsi durmadan artır, inflyasiyanın səviyyəsi azalır. Məhz maliyyə resurslarının səmərəli təşkil olunmasından asılı olaraq dövlət öz üzərinə düşən funksiyaların yerinə yetirilməsi səviyyəsini müəyyən edir.

Azərbaycanda bazar münasibətləri tələblərinə uyğun dayanıqlı və tarazlı İqtisadiyyatın formalaşması respublika İqtisadiyyatının dünya İqtisadiyyatına səmərəli inteqrasiya etməsi üçün öncə ölkədə maliyyə sabitliyinin təmin olunması lazımdır. Bununla əlaqədar olaraq istehlak bazarında tələb və təklifin tarazlaşdırılması məqsədilə İqtisadi durumun dayanıqlılığına və ümumi sabitliyə, o cümlədən, inflyasiyanın qarşısının alınması və milli valyutanın möhkəmlənməsinə nail olunması belə amillərdəndir. Bu göstərilənlərlə bərabər maliyyə sabitliyinin yaradılmasının mühüm məsələlərindən biri də büdcə kəsirinin (yaxud xərclərin gəlirlərlə örtülməyən hissəsinin) aradan qaldırılmasına nail olunmasıdır.

Inkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, büdcə kəsiri Ümumi Daxili Məhsulun (ÜDM) 7,0%-ə qədəri olduqda həmin ölkənin büdcəsi normal hesab olunur. Bu göstərici Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə yüksək olsa da, məsələn, 1994-cü ildə 10,3% təşkil etdiyi halda, sonralar respublikada aparılan əsaslı islahatlar, məqsədyönlü büdcə siyasəti, qiymətlərin liberallaşması, özəlləşdirmə və sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması nəticəsində 2007-ci ildə 0,2% təşkil etmişdir.

2003-2008-**c**i illərdə Azərbay**c**anda ümumi daxili məhsul 4,2 dəfə artaraq 7,2 milyard manatdan 30,4 milyard manata çatmışdır. Adambaşına düşən ÜDM-in hə**c**mi 2003-**c**ü ildə 888 manat olduğu halda, 2008-**c**i ildə 3554 manat təşkil etmişdir. Bu illər ərzində dövlət büd**c**əsi 10 dəfədən çox artmışdır.

Azərbay**c**anın dünya İqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın intensivləşdirilməsində Dünya Ti**c**arət Təşkilatına (DTT) qəbul xüsusi rol oynaya bilər. Bu təşkilat beynəlxalq İqtisadi qurumdur və BMT institutudur. Ona üzvlük ölkə ilə əməkdaşlıqda nəzərə alınan ən başlı**c**a tituldur. DTT üzvü olma İqtisadiyyatın

liberallaşdırılması, bazar münasibətlərinin inkişaf etdirilməsi göstəricisi kimi çıxış edir.

Hazırda DTT dünyada baş verən qloballaşma, milli İqtisadiyyatların bir-birinə inteqrasiyası proseslərinin əsas təkanvericisi qüvvəsi hesab edilir. Hal-hazırda DTT dünya ticarətinin 95 faizinə qədərinə nəzarət edir və 150-də çox dövlət bu təşkilatın üzvüdür. Azərbaycan Respublikası isə DTT-yə üzvlük üçün 1997-ci ildə müraciət etmiş və həmin vaxtdan etibarən bu təşkilatda müşahidəçi kimi çıxış edir. ÜTT-də müşahidəçi statusu əldə etdikdən sonra, 1999-cu il 22 mart tarixində ölkənin xarici ticarət-İqtisadi fəaliyyətinin bütün aspektlərini əks etdirən «Azərbaycan Respublikasının Xarici Ticarət Recimi haqqında Memorandum»" ÜTT Katibliyinə təqdim olunmuş və orada bu sənəd təşkilatın bütün üzvlərinə təqdim edilmişdir. Bundan sonra, üzv ölkələrin nümayəndələrindən ibarət Azərbaycan üzrə Işçi Qrupu yaradılmış və Almaniyanın beynəlxalq təşkilatlar yanındakı nümayəndəsi bu qrupun rəhbəri təyin edilmişdir.

22 avqust 2003-cü ildə DTT-yə üzvolma məsələləri ilə bağlı 175s saylı sərəncam imzalanmışdır ki, bu sərəncamda Azərbaycan Respublikasının DTT-yə üzvolma prosesinin sürətləndirilməsi ilə əlaqədar müvafiq təkliflərin və təşkilata təqdim olunacaq sənədlərin aidiyyatı orqanlarla razılaşdırılıb hazırlanması, DTT ilə aparılacaq danışıqlarda vahid İqtisadi siyasətin təmin edilməsi üçün əlaqələndirmənin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

DTT-yə qəbul istiqamətində respublikamızda xeyli işlər görülmüşdür. Guman edilir ki, Azərbaycan növbəti ildə bu təşkilata üzv qəbul edilə bilər. Lakin bununla yanaşı, Azərbaycanın bu beynəlxalq İqtisadi təşkilata qəbulu sahəsində bir sıra problemlər də mövcuddur.

Qeyd etmək lazımdır ki, bazar İqtisadiyyatı dövründə maliyyə sisteminin təşkilində dövlətin funksiyalarının ixtisarı, milli gəlirin bölgüsündə və yenidən bölgüsündə dövlətin rolunun azalması müşahidə olunur. Maliyyə sisteminin həlqəsi olan müəssisələrin maliyyəsi sərbəst təşkil olunur. Sığorta işində dövlətin rolu qismən azaldılır, lazımi təyinatlı büdcədənkənar fondlar yaradılır. Dövlət büdcəsi isə bütün dövrlərdə olduğu kimi bazar münasibətləri şəraitində də aparıcı mövqeyə malik olur.

Azərbaycanda müasir maliyyə sistemi tam formalaşmamışdır. Yəni bu istiqamətdə bir sıra çatışmazlıqlar var və bunu da başlıca olaraq müəssisə və təşkilatların fəaliyyətində görmək olar. Hazırda aparılan özəlləşdirmə prosesi ləngiyir. Bunun da əsas səbəblərindən biri yığılıb qalan borclardır. Bu borcları müəssisələrin yeni sahibləri əldə etdikləri gəlir hesabına ödəməli idilər. Lakin indi bu borcların silinməsi haqqında qərar qəbul edilmişdir.

Əvvəl sahibkarlara qoyulan yüksək vergi dərəcələri onların fəaliyyətinə mənfi təsir göstərir və kapital qoyuluşuna imkan vermirdi. 2001-ci il yanvarın 1-dən qüvvəyə minmiş, Vergi Məcəlləsində vergi dərəcələri bir qədər aşağı salınmışdır. Yüksək vergi dərəcələri həmçinin vergidən yayınma hallarına da gətirib çıxarır. Bu da dövlət büdcəsi gəlirlərinin aşağı düşməsinə səbəb olur.

Bütün ölkələrdə vergidən yayınma halları baş verir. Lakin respublikamızda bu çox böyük məbləğ təşkil edir. Ona görə də vergi işinin təşkilində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi və mükəmməl vergi siyasətinin formalaşması çox vacibdir.

Dövlət büdcəsində vəsaitin artırılması üçün respublikamızda istehsal və satış həcminin artırılması vacibdir. Dövlət büdcəsinin gəlirlərini artırmaq üçün ona daha çox gəlir gətirən və gəlirləri artıracaq sahələr inkişaf etdirmək, bu sahələrə böyük həcmdə investisiya ayırmaq lazımdır. Büdcə xərclərinin istiqamətlərini müəyyən edərkən onların daha səmərəli və qənaətlə istifadəsi üçün tədbirlər görülməlidir.

Dövlət büdcəsi xərcləri istiqamətində sosial-mədəni xərclər, investisiya xərcləri artırılmalıdır. Dövlət aparatı və idarəetmə xərcləri azaldılmalı, zərərlə işləyən sahələrə dotasiyalar verilməsinin qarşısı alınmalıdır.

Gəlirli sahələrin inkişaf etdirilməsi üçün dövlətimiz dövlət büdcəsinin vəsaitlərindən başqa xarici investisiyalardan, beynəlxalq kreditlərdən istifadə edir. Lakin bu kreditlər çox zaman lazımi istiqamətdə istifadə edilmir. Nəticədə borclanma prosesi davam edir və onların qaytarılması gecikir. Bu istiqamətdə dövlət nəzarəti gücləndirilməli və bu zaman İqtisadi ekspertlərin tədqiqatlarına üstünlük verilməlidir.

Dövlət əldə etdiyi vəsaitləri səmərəli istifadə etməli və kreditin vaxtında geri qaytarılmasını təmin etməlidir. Azərbaycanın maliyyə bazarında dövlət borclanması minimuma endirilməli və büdcə kəsiri aşağı salınmalıdır.

Maliyyə siyasəti işlənib hazırlanarkən vəsaitlərin İqtisadiyyatın ayrı-ayrı sahələri arasında bölüşdürülməsi nisbəti, dövlət gəlirlərinin təşkilində əhalinin iştirak səviyyəsi, resursların müəyyən məqsədlərə yönəldilməsi, İqtisadi inkişafa, onun daim təkmilləşdirilməsinə xidmət edən uyğun maliyyə mexanizminin hazırlanması başlıca məqsəd və vəzifələrdən hesab edilməlidir.

Azərbaycanda yeni İqtisadi sistemin formalaşmasında mühüm İqtisadi mexanizmlərdən biri də dövlətin yeni pul-kredit siyasətinin həyata keçirilməsidir.

Dövlətin pul-kredit siyasəti istiqamətində aparılan əsaslı islahat olmadan başlıca sosial-İqtisadi vəzifələri həyata keçirmək mümkün deyildir. Bununla belə, maliyyə, bank, kredit sistemində aparılan struktur dəyişiklikləri bazar İqtisadiyyatının yeni formalaşan strukturuna uyğun olmalıdır.

Dövlət yeni pul-kredit siyasətini həyata keçirərkən pul tədavülünü tənzimləmək məqsədilə monetar siyasətin üstünlüklərindən istifadə edir. Bu məqsədlə açıq bazarda pul resurslarının sərbəst hərəkətinə şərait yaradır, bank sistemində pul resursları üzərində ciddi nəzarəti həyata keçirir, bank sistemində faiz dərəcələrinin stimullaşdırma rolunu və pul resurslarının ehtiyat normalarını artırır və onların hərəkətini tənzimləyir.

Bundan başqa, dövlət kredit sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirləri həyata keçirir. Belə ki, qısamüddətli kredit formalarından istifadə olunmasına üstünlük verir, beynəlxalq bank və təşkilatlarının kredit

imkanlarından səmərəli istifadə edir. Bundan əlavə, aqrar bölmədə kredit ittifaqları vasitəsilə kredit əməliyyatlarının aparılmasına üstünlük verir, istehlak və kommersiya kredit formalarından daha geniş istifadə olunmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, dövlətin pul-kredit siyasətində əsas istiqamətlərindən biri də qiymətli kağızlar bazarının formalaşmasına əlverişli şərait yaratmaq və tədavül üçün lazım olan pulun kütləsini tənzimləməkdir, xüsusilə, pul aqreqatı mexanizmi vasitəsilə dövriyyədə olan pul resurslarının hərəkətini nizamlamaqdır. Bu prosesin düzgün həyata keçirilməsi istehsalla bazar arasında nisbətin (müvazinətin) tarazlaşmasına əlverişli şərait yaradacaqdır.

Azərbaycanda xarici ticarətin liberallaşdırılması ölkədə İqtisadi artıma, maliyyə sabitliyinin möhkəmlənməsinə, makroİqtisadi göstəricilərin inkişafına zəmin yaradan bir vasitədir.

Bazar münasibətlərin formalaşdırıldığı hazırkı mərhələdə Azərbaycan Respublikasının xarici İqtisadi strategiyasının mühüm istiqamətlərini onun ixrac imkanlarının artırılması, tək ixrac deyil, həm də idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, dünya bazarına rəqabətqabiliyyətli məhsullarla çıxılması təşkil edir.

Bütün bu proseslər isə ölkənin maliyyə durumunun yaxşılaşması, ölkə İqtisadiyyatının inkişafı, maliyyə sabitliyinin möhkəmlənməsi üçün şərait yaradır.

Hazırda ixracın strukturunun 85%-ni xammal və yarımfabrikatlar təşkil edir. Ixracın belə quruluşu səmərəli hesab oluna bilməz. Dünya bazarında xammalın qiymətlərinin qeyri-stabil və aşağı düşmə meylinə malik olmasını nəzərə alsaq, bu vəziyyətin qənaətbəxş olmadığını görmək olar. Bu xarici ticarət əməliyyatlarının effektivliyini azaldır və ölkənin ticarət balansının vəziyyətini pisləşdirir. Buna görə də əmtəə ixracı siyasətinin dəyişdirilməsi, xammalın işlənməsi dərəcəsinin artırılması, hazır məhsul istehsalının və onların ixracdakı xüsusi çəkisinin artırılması obyektiv zərurətə çevrilmişdir. Bu problem istehsalın strukturunun dəyişdirilməsi, onun son fazaya müasir hazır məhsul istehsalına çatdırılması nəticəsində aradan qaldırıla bilər. Bütün bunlar həm daxili resurslar, həm də xarici maliyyə və texniki yardımın cəlb olunması ilə həyata keçirilə bilər.

Buna görə də xarici bazara rəqabətqabiliyyətli məhsullar çıxa bilən sahələrə müəyyən dövlət yardımları göstərilməlidir. Bu yardım həm birbaşa yardım, başqa sözlə, dotasiyalar, güzəştli kreditlər və s. eləcə də vasitəli vergi güzəştləri, ixracın sığortalanması, ixrac mükafatlarının verilməsi və digər formalarda ola bilər. Məsələn, dövlət ixracyönümlü müəssisələr üçün kadr hazırlanmasını üzərinə götürə bilər. Onların xaricdə fəaliyyəti üçün siyasi və İqtisadi şərait yarada bilər. Lakin hazırda respublikamızın həm ölkə daxilində, həm də xaricdə fəaliyyət göstərən milli istehsalçıların maraqlarının müdafiəsi haqqında qanunu yoxdur. Bütün bunlar xarici İqtisadi fəaliyyət sahəsində dəqiq

milli siyasətin formalaşdırılmadığını, ölkənin xarici bazarlardakı maraqlarının müəyyən olunmadığını və xarici İqtisadi strategyanın işlənilmədiyini göstərir.

İxracın imkanlarının artırılması və ixracın stimullaşdırılması ilə yanaşı, respublikanın idxal siyasətinə də xüsusi diqqət verilməlidir. Çünki idxal ölkənin xarici İqtisadi strategiyasında az rol oynamır. Praktiki cəhətdən, idxal siyasəti daxili İqtisadi siyasətlə sıx bağlıdır və ölkənin ümumi inkişaf strategiyasını əks etdirir. Azərbaycanın idxalının strukturunun analizi göstərir ki, onun tərkibində ərzaq məhsulları və istehlak malları əhəmiyyətli xüsusi çəkiyə (40%) malikdir.

Qeyd etmək lazımdır ki, idxalın strukturunun təkmilləşdirilməsində əsas məsələ optimal gömrük dərəcələrinin tətbiqi və vergi siyasətidir. Elm tutumlu və istehsal təyinatlı məhsulların idxalının optimallaşdırılması və diversifikasiyası üçün İqtisadi inkişafın müəyyən dövründə bu məhsullar yüksək rüsum və vergilərə cəlb olunmamalıdır. Azərbaycan hazırda belə bir spesifik dövrdədir. Istehsalın yüksəlməsi və ÜDM-in artırılması üçün Azərbaycanın geniş həcmli xarici kapitala və xarici dəstəyə ehtiyacı vardır. Məlum olduğu kimi Uruqvay raundu çərçivəsində imzalanmış qərarların icra edilməsi nəticəsində dünya ticarətində gömrük tarifləri 1947-ci ildəki 40%-dən 1999-cu ildə 4%-ə enmişdir. Bundan başqa, 70-ci illərdən başlayaraq 100-dən çox ölkə valyuta nəzarəti recimini aradan qaldırmış, 160 ölkə isə investisiyaların tənzimlənməsi haqqında 1300-dən çox ikitərəfli müqavilələr imzalanmışdır. Xarici İqtisadi əlaqələrin bu cür liberallaşdırılması dünya ticarətinin inkişafının və beynəlxalq investisiya proseslərinin intensivləşməsinin əsas amili olmuşdur.

Ixrac yönümlü strategiyanın tərəfdarları hesab edirlər ki, xarici ticarətin liberallaşdırılması İqtisadi artımın sürətləndirilməsini şərtləndirir. Ayrı-ayrı hallarda azad ticarət həqiqətən də ÜDM-un müvəqqəti artmasını təmin edə bilər. Artıq qeyd edildiyi kimi xarici mübadilə ölkənin İqtisadi inkişafının mühüm amillərindən biri hesab olunur. Lakin xarici ticarətin liberallaşdırılması strategiyasının düzgün müəyyən edilməməsi böyük itkilər də verə bilər: optimallaşdırma, milli İqtisadiyyatın bir çox, xüsusilə də zəif sahələrinin məhvinə səbəb ola bilər. Buna görə də ixrac və idxalın diversifikasiyasına müraciət edilməsi davamlı İqtisadi artımın təmin olunması məqsədi daşıyır.

Hazırda inkişaf səviyyəsindən asılı olmayaraq hər bir dövlət bu və ya digər məqsədlər üçün ölkədaxili və ölkəxarici mənbələrdən borc vəsaitləri cəlb edir ki, bu da dövlət borcu münasibətlərini formalaşdırır. Dövlətin cəlb etdiyi borc vəsaitlərinin bir qismi də dövlət büdcəsinin boşluqlarına yönəldilir. Dövlət büdcəsinin boşluqları dedikdə isə büdcə kəsri və büdcənin kassa icrası zamanı meydana çıxan vəsait boşluğu, yəni dövri olaraq büdcə daxilolmalarının cari büdcə xərcləmələrini ödəyə bilməməsi başa düşülür. Sadalanan istiqamətə yönəldilən borc vəsaitlərinin bir hissəsini də xarici mənbələrdən cəlb edilən birbaşa kreditlər təşkil edir.

Bazar münasibətlərinin inkişaf etdiyi dünya ölkələrində böyük həcmdə xarici borc vəsaitlərindən istifadə odlunmasına baxmayaraq (məs, ABŞ-da 700

mln.$, Almaniyada 350 mln. $) bu vəsaitlərin böyük əksəriyyəti bilavasitə investisiya layihələrinin reallaşmasına xidmət edir. Buna səbəb isə həmin dövlətlərdə büdcə imkanlarının yüksək olmasıdır ki, bu da bilavasitə hökumətin məqsədləri üçün cəlb edilən borc vəsaitlərinin azlığına gətirib çıxarır.

Təkmil bazar münasibətlərinin hələ formalaşmadığı, xüsusilə keçid İqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda isə xarici dövlət borclarının ən böyük hissəsi bilavasitə hökumətin məqsədləri üçün, yəni qeyri-investisiya istiqamətlərinə yönəldilir. Belə ki, Azərbacanda xarici dövlət borclarının 36%-dən çoxu bilavasitə hökumətin məqsədlərinə yönəlmişdir.

Azərbaycanda fiskal ehtiyaclara yönəldilən birbaşa xarici kreditlər bir qayda olaraq büdcə kəsrinin maliyyələşdirilmsinə xidmət edir. Hazırda dövlət büdcəsi kəsrinin əsas hissəsi birbaşa xarici kreditlər hesabına maliyyələşdirilir ki, bu da həm müasir dünya təcrübəsi, həm də elmi nəzəri baxımdan məqbul hesab oluna bilməz.

Dövlət büdcəsi kəsrinin maliyyəlşdirilməsində xarici kredit vəsaitlərindən istifadənin təkmilləşdirilməsi probleminin əsasında bir neçə amil durur ki, bunlardan biri də bu istiqamətli vəsaitlərin ümumi dövlət büdcəsi kəsrində payı ilə bağlıdır. Yüksək inkişaf səviyyəsinə malik dölətlərdə dövlət büdcəsi kəsrinin əksər hissəsi (demək olar ki, bütünlüklə) daxili maliyyə-borc mənbələri hesabına ödənilir. Belə ki, sözügedən dövlətlərdə dövlət büdcəsi kəsrinin maliyyələşdirilməsi istiqamətində birbaşa xarici kreditlərdən çox dar çərçivədə istifadə olunmasının əsas səbəbi mövcud daxili dövlət borc öhdəlikləri bazarının inkişafıdır.

Dövlət büdcəsində yaranan boşluqların aradan qaldırılması, o cümlədən büdcə kəsrinin maliyyələşdirilməsi və büdcənin kassa icrasının tarazlaşdırılması (gəlir və xərc tarazlığının təmin edilməsi) üçün daxili borc vəsaitlərindən istifadə olunur. Bu istiqamətdə cəlb edilən daxili borc vəsaitləri normasına görə 2 qrupa bölünür:

1. Ölkədaxili maliyyə-kredit qurumları, xüsusilə Mərkəzi Bank tərəfindən təqdir olunan birbaşa kreditlər.

2. Hökumət tərəfindən buraxılan (yerləşdirilən) borc öhdəlikli dövlət qiymətli kağızları üzrə cəlb edilən vəsaitlər.

Bazar İqtisadiyyatı münasibtlərinə yenicə qədəm qoyan gənc dövlətlər kimi Azərbaycanda da dövlət qiymətli kağızlar bazarının hələ formalaşmadığı dövrlərdə dövlət büdcəsində yaranan boşluqlar əsasən Milli Bankın birbaşa kreditləri hesabına ödənilirdi. Məhz, sonrakı illərdə ölkə İqtisadiyyatında, xüsusilə də maliyyə-büdcə sistemində əldə edilən əsaslı nailiyyətlərdən biri də o olmuşdur ki, fiskal boşluqların maliyyələşdirilməsində istifadə olunan birbaşa daxili kreditlər dövlətin borc öhdəlikli qiymətli kağızları ilə əvəz olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan İqtisadiyyatında maliyyənin sabitləşdirilməsi və böhrandan çıxma tədbirlərini işləyib hazırlayarkən belə bir cəhəti nəzərə almaq lazımdır ki, ölkəmizin İqtisadiyyatı uzun illər boyu ümumittifaq əmək bölgüsünün tələblərinə uyğun olaraq formalaşmışdır. Digər

cəhətdən də keçmiş ittifaq daxilində vahid elmi-texniki siyasət yeridildiyindən istehsalın maddi-texniki bazası dünya standartlarına qətiyyən uyğun deyildir. Elə buna görə də hazırda respublikada istehsal olunan məhsullar dünya standartına cavab vermir. Bu səbəbdən də bizim dünya bazarına tam hüquqlu istehsalçı kimi çıxmaq imkanımız yoxdur.

Deməli, respublikanın İqtisadiyyatında inkişafa nail olmaq, İqtisadiyyatın sabitləşdirilməsi və dünya bazarına tam hüquqlu istehsalçı kimi çıxa bilməsi həlledici dərəcədə həyata keçirilən investisiya siyasətindən asılıdır. Ilk mərhələdə struktur irəliləyişləri istehsalın həcminin aşağı düşməsinin qarşısının alınmasına və maddi-maliyyə sabitliyinin təmin olunması üçün zəruri ilkin şərtlərin yaradılmasına yönəldilməlidir.

Bu isə öz növbəsində investisiya qoyuluşunun daha çox istehsal bölməsinə sərf edilməsini tələb edir. Belə bir inkişaf yolu bütünlükdə istehsalın fond-material tutumunu aşağı salmağa şərait yaratmaqda, kapital qoyuluşunun səmərəliliyini qısa dövrdə artırmağa imkan yaratmış olardı.

Sonrakı dövrdə investisiya siyasəti daha çox İqtisadi artımın tarazlığının təmin edilməsinə və bazar münasibətlərinə keçid üçün zəruri olan ilkin maddi şərtlərin yaradılmasına istiqamətləndirilməlidir. Burada məşhur amerikan İqtisadçısı Con Meynard Keynsin sözlərini xatırlamaq lazımdır. Keyns yazırdı: «… əgər investisiyalar hökumət xərclərinin artdığı miqdarda azalsa idi, fiskal siyasət tamamilə qeyri-səmərəli olardı».

Investisiya fəallığın artırılması istehsalın fond və material tutumunun aşağı düşməsi ilə müşahidə olunmazsa, onda belə bir investisiya fəallığı müəyyən dövrdən sonra İqtisadi inkişaf üçün «ağır yükə» çevriləcəkdir. Buna görə də ölkəmizdə bazar İqtisadiyyatına keçmək üçün qısa dövrdə struktur-investisiya siyasətində cəmiyyətin tələbatını və ən başlıcı isə perspektiv inkişafı mümkün qədər tez və yaxşı ödəməyə şərait yaradan istiqamətlərə üstünlük verilməlidir.

Xarici investorların cəlb edilməsindən ötrü ilk növbədə təminat olmalıdır. Bunu nəzərə alaraq Milli Məclis «Xarici investisiyaların qorunması haqqında» qanun qəbul etmişdir.

Xarici investisiyaların cəlb edilməsində məqsəd respublika İqtisadiyyatının sahə strukturunun yenidən qurulmasına, işsizliyin ləğv edilməsinə, təbii ehtiyatlardan daha səmərəli istifadə olunmasına, ağır sənayenin inkişafına, xalq istehlakı məhsullarının istehsalının sürətləndirilməsi üçün mütərəqqi texnika və texnologiyanın cəlb olunması, habelə ekoloji mühitin yaxşılaşdırılması problemlərinin həllini təmin etməkdir. Belə bir faktı göstərmək lazımdır ki, təkcə neft-qaz sektoruna son 13 ildə (1995-2008) 30 milyard ABŞ dollarından artıq investisiya qoyulmuşdur.

Respublikada bazar münasibətlərinin formalaşması, bazar infrastrukturunun yaradılması, vergi və kredit mexanizminin ona uyğun qurulması, qiymətli kağızlar bazarının yaradılması kimi problemlərin həllində, habelə ölkədə sosial problemlərin, xüsusən də əmək ehtiyatlarının və əhalinin ən zəruri

yaşayış vasitələri və xidmət əşyaları ilə təmin olunması xarici investisiyaların cəlb olunmasında mühüm əhəmiyyət kəsb edir.

Azərbay**c**an hökumətinin İqtisadi strategiyasının səmərəliliyinin Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının dövlət tənzimlənməsinin keyfiyyəti və dünyanın 181 ölkəsində onun kiçik və orta biznesə təsiri haqqında **«Doing Business-2008»** adlı sonun**c**u məruzəsi də təsdiq edir. Islahatların həyata keçirilməsi sürətinə görə Azərbay**c**an «dünyanın ən islahatçı ölkəsi» elan edilmişdir. Buna səbəb respublikamızın keçən ilki İqtisadi islahatların göstəri**c**isinə görə 64 pillə yüksələrək 97-**c**i yerdən, bütün MDB dövlətlərinin və Avropanın bir neçə inkişaf etmiş ölkələrini geridə qoyaraq, 33-**c**ü yerə qalxmışdır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər hansı İqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rola malikdir. Bu baxımdan dövlətlə İqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin İqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xarici bazarlardan idxal asılılığının getdikcə güclənməsi fonunda bazar İqtisadiyyatına keçidlə əlaqədar olaraq meydana çıxan problemlərin həlli imkanlarının mürəkkəbləşməsi, hər şeydən əvvəl milli İqtisadiyyatın formalaşması və ölkənin beynəlxalq əmək bölgüsünə layiqli yer tutması başlıca olaraq respublikanın xarici İqtisadi fəaliyyətinin eləcə də, xarici ticarət əlaqələrinin genişləndirilməsi və inkişafından bilavasitə asılıdır.

Azərbaycan Respublikasının potensial imkanları baxımından «kiçik ölkə» olduğu qəbul edilir, yəni nəinki dünya bazarında, hətta regional bazarlarda belə mövcud vəziyyətə onun təsir etmək imkanı yoxdur, əksinə, özünün bütövlükdə İqtisadi fəaliyyətinin təşkili və inkişafında real vəziyyətə uyğunlaşmaq məcburiyyəti qarşısındadır. Bu baxımdan ölkənin xarici ticarət əlaqələrinin formalaşdırılmasında göstərilən cəhətləri nəzərə almaq və onu müasir qloballaşma şəraitində inkişaf meyllərini araşdırmaq lazımdır.

Məlum olduğu kimi bazar İqtisadiyyatının formalaşmasında və inkişafında xarici İqtisadi əlaqələrin getdikcə gücləndirilməsi elmi və praktiki əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycanın MDB ölkələri ilə İqtisadi-əlaqələrinin təkmilləşdirilməsi və bu əsasda açıq bazarın genişləndirilməsi xüsusi önəm daşıyır. Inkişaf etmiş dünya ölkələrinin çoxəsrlik təcrübələrindən məlum olduğu kimi ölkələr arası İqtisadi münasibətlərin inkişafında xarici ticarət əlaqələri böyük əhəmiyyətə malikdir.

Araşdırmalar göstərir ki, 90-cı illərdən başlayaraq MDB dövlətləri arası İqtisadi əlaqələrin, o cümlədən ticarət əlaqələrinin zəifləməsi və bu əlaqələrin lazımi səviyyədə tənzimlənməməsi mövcud siyasi-İqtisadi stabilliyin pozulması ilə nəticələnərək əsasən bir sıra amillərlə əlaqədar olmuşdur.

Belə ki, MDB ölkələrində yaranan böhran nəticəsində istehsal qabiliyyətinin kəskin azalması idxal-ixrac əməliyyatları həcminin güclü ixtisarına səbəb oldu.

Idxalçıların ödəniş qabiliyyətinə malik olmaması və ya ödənişlərin uzun müddət gecikdirilməsi, müqavilə öhdəliklərinin, əsasən də ödəmə intizamının xroniki pozulması, qiymətlərdəki qeyri-müəyyənlik, inzibati-özbaşınalıq kimi hallar və ümumilikdə keçid dövrü üçün maliyyə vəziyyətinin pisləşməsi müəssisələrin barter əməliyyatlarının müxtəlif formalarından aktiv istifadə etməyə məcbur etdi ki, bu da respublikalararası mal göndərilişlərində digər əməliyyat növlərinə nisbətən barter əməliyyatlarının üstünlük təşkil etməsində öz əksini tapdı;

Postsovet respublikalarının xarici ticarətinin coğrafı quruluşunda baş verən dəyişikliklər, həmçinin xarici İqtisadi əlaqələrin coğrafiyasının genişlənməsi və diversifikasiyalaşması da respublikalararası ticarət əlaqələrinə öz neqativ təsirini göstərdi. Müstəqilliyin ilk illərindən Azərbaycanın Avropa Birliyi, Türkiyə, Iran və digər dövlətlərlə ticarət-İqtisadi əlaqələrə girməsi çox önəmli oldu;

Qeyd etmək lazımdır ki, MDB ölkələri ərazisində olan daha proqressiv və iş tutumlu sənaye sahələrinin dünya bazarlarında məhdud ticarət praktikasına malik olması və gərgin rəqabət, həmçinin maliyyə və material ehtiyatları çatışmazlığı ilə üzləşməsi birlik ölkələri ərazisindəki ənənəvi istehlak bazarlarını itirməsi və həmin bazarların MDB dövlətləri və xarici ölkə hökumətləri tərəfindən dəstəklənən xarici kompaniyalar tərəfindən aktiv zəbt olunması ilə nəticələndi.

Bundan başqa, İqtisadiyyatın yenidən qurulması, etnik və regional konfliktlər, MDB çərçivəsində İqtisadi əlaqələrin dezinteqrasiyası kimi hallar MDB ölkələrində makroİqtisadi göstəricilərin kəskin azalmasına səbəb oldu ki, bu da öz növbəsində idxal-ixrac əməliyyatlarının həcminin kəskin dəyişməsi ilə nəticələndi.

Azərbaycanla MDB ölkələri arasında əsasən ticarət-İqtisadi münasibətlərin inkişafına yönəldilmiş və istehsal-İqtisadi, inteqrasion və təsərrüfatlararası əlaqələrin yeni prinsiplərlə inkişafı və yenidən qurulması yolunda atılan ilk addım 1993-cü ildə Azərbaycanla birgə 11 respublikanın da qoşulduğu «İqtisadi birlik haqqında saziş» oldu. İqtisadi ittifaqın formalaş-dırılmasında növbəti addım 1994-cü ilin aprelində imzalanmış Azad Ticarət Zonasının yaradılması haqqında razılaşma oldu və bu razılaşmaya əsasən tərəflər gömrük rüsumlarından, vergi və yığımlardan, həmçinin qarşılıqlı ticarətdə miqdarı məhdudiyyətlərdən get-gedə imtina etməli eyni zamanda mal və xidmətlərin sərbəst hərəkətinə olan digər maneələr aradan qaldırılmalıdır. Bundan əlavə, MDB çərçivəsində 2 tərəfli və çoxtərəfli razılaşmalar əsasında Azərbaycanın əksər respublikalarla ticarət və İqtisadi əlaqələrin hüquqi bazasını təşkil edən sazişlər və qərarlar mövcuddur. Qeyd etmək lazımdır ki, MDB-yə daxil olan ölkələrin ümummilli maraqları çərçivəsində bir neçə

regional birliklər yaranmışdır ki, bu da həmin birliklərə daxil olan respublikaların ümumi məqsədlərinin mövcudluğundan, inteqrasion və regional əməkdaşlığın inkişaf etdirilməsi arzusundan irəli gəlir. Formalaşdırılmış inteqrasion birliklər içərisində GUÖAM regional İqtisadi bloku Azərbaycan üçün daha da maraq doğurandır. GUÖAM ölkələri ilə mövcud İqtisadi əlaqələrin formaları içərisində ticarət əlaqələri Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Lakin son illər GUÖAM ölkələrinin Azərbaycanla ticarət dövriyyəsinin həcmi ilbəil azalır.

Müstəqillik qazandıqdan sonra Azərbaycanın Avropa Birliyi və İqtisadi Inkişaf və Əməkdaşlıq Təşkilatı ölkələri ilə idxal-ixrac əməliyyatlarının istər həcminə, istərsə də əmtəə strukturuna görə ticarət əlaqələri genişlənir. Bu isə Azərbaycanın dünya ölkələri ilə (xüsusilə inkişaf etmiş ölkələrlə) İqtisadi əlaqələrinin ikitərəfli əsasda inkişaf etdirilməsinə şərait yaradır. Maraqlısı isə budur ki, bütün bunlar MDB ölkələri ilə zəifləyən ticarət əlaqələrinin fonunda baş verir.

Bütün bu yuxarıda deyilənlərə baxmayaraq MDB məkanının bir çox ölkələri Azərbaycanın yaxın və stabil tərəfdaş ölkələri kimi çıxış edirlər və bizə belə gəlir ki, bu əməkdaşlığın daha da genişləndirilməsi üçün hər cür şərait mövcuddur. Qloballaşma prosesinin Azərbaycanı və eləcə də MDB ölkələrini əhatəsinə aldığı bir dövrdə hal-hazırkı vəziyyət bizi heç cür qane edə bilməz. Belə ki, İqtisadiyyatımızın gələcəyi üçün yeni bazarların tapılması və kəşf edilməsi nə qədər əhəmiyyətlidirsə, ənənəvi tutumlu bazarların itirilməsi daha da ağırdır və MDB dövlətlərinin daxili bazarlarının Azərbaycan üçün əhəmiyyəti və İqtisadi perspektivi çox böyükdür. MDB məkanında Azərbaycan yalnız Ermənistanla məlum səbəblər üzündən heç bir sahədə İqtisadi əməkdaşlıq etmir, lakin digər respublikalarla bir çox sahələrdə həmçinin ticarət sahəsində sıx əlaqələr mövcüddür. Azərbaycanla MDB ölkələri arasında idxal-ixrac əməliyyatlarının strukturuna nəzər salarkən aydın olur ki, son illər, Azərbaycanla MDB ölkələrinin ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1/3-dən az hissəsini təşkil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-İqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» imzaladığı 24 noyabr 2003-cü il tarixli fərmana əsasən regionların sosial-İqtisadi inkişafı üzrə müvafiq dövlət proqramı hazırlanıb həyata keçirilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbay**c**an Respublikasında regionların inkişaf etdirilməsi üzrə Dövlət Proqramına (2004-2008-**c**i illər) uyğun olaraq müvafiq İqtisadi islahatlar, paytaxtda və regionlarda sahibkarlığın inkişaf etdirilməsi üzrə əsaslı işlər görülmüş və stimullaşdırı**c**ı tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkədə işsizliyin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. 2003-2008-**c**i illərdə respublikada 730 mindən artıq yeni iş yerləri açılmışdır. Bütün bunlar Azərbay**c**an Prezidenti İlham Əliyevin həyata keçirdiyi İqtisadi inkişaf strategiyasının bəhrələridir.

7.4. Beynəlxalq maliyyə institutlarının Azərbaycan iqtitsadiyyatının inkişafında rolu və bu qurumlarla əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətləri

Azərbay**c**an müstəqillik əldə etdikdən sonra, respublikamızda İqtisadiyyatın bazar İqtisadiyyatı yolu ilə inkişaf etdirilməsi, bazar münasibətlərinə keçidin təmin edilməsi ən aktual məsələlərdən birinə çevrildi. Bazar münasibətlərinə keçidin təmin edilməsi və milli İqtisadiyyatın inkişaf etdirilməsi üçünsə investisiya resurslarının **c**əlb edilməsi zəruri idi. Lakin bunun yalnız daxili imkanlar hesabına edilməsi mümkünsüz idi. Bunun üçün xari**c**i investisiyaların ölkəyə **c**əlb edilməsinə böyük zərurət yaranmışdır.

Xari**c**i investisiyaların **c**əlb edilməsinin sürətləndirilməsi üçünsə milli İqtisadiyyatın dünya İqtisadiyyatına inteqrasiyası səmərəli qurulmalı, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq təşkil edilməli idi.

Artıq ötən illər ərzində respublikamızın dünya İqtisadiyyatına inteqrasiyası, beynəlxalq qurumlarla əməkdaşlıq istiqamətində xeyli işlər görülmüş və müsbət nəti**c**ələr əldə edilmişdir. Tədqiqatlar göstərir ki, Azərbay**c**an Respublikası İqtisadiyyatının dünya İqtisadiyyatına inteqrasiyasında aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət kəsb edir:

- beynəlxalq maliyyə institutları və beynəlxalq İqtisadi təşkilatlar ilə əməkdaşlıq;
- müxtəlif ölkələr ilə ikitərəfli əməkdaşlıq;
- müxtəlif qurumlar çərçivəsində çoxtərəfli əməkdaşlıq;
-Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi kimi İqtisadi inteqrasiya və s.

Qeyd etməliyik ki, Azərbay**c**anın dünya İqtisadiyyatına Inteqrasiyasında, beynəlxalq maliyyə institutlarının hökumətimizlə əməkdaşlığa maraq göstərməsində 1994-**c**ü ildə Xəzər dənizinin Azərbay**c**ana məxsus sektorunda yerləşən bir sıra yataqların işlənilməsi üzrə Hasilat Pay Bölgüsü Sazişinin («Əsrin müqaviləsi») imzalanması və onun i**c**rasına başlanılması müstəsna rol oynamışdır. Bu saziş çərçivəsində Azərbay**c**anın neft sektoruna 30 il ərzində 60 milyard dollar investisiya qoyulması razılaşdırılmışdır. Neft sənayesinə belə irihə**c**mli sərmayənin yatırılması qeyri-neft sektoruna da digər şirkətlərin investisiya yatırmalarını, həmçinin maliyyə qurumlarının irihə**c**mli kredit tranşları açmalarını stimullaşdırmışdır.

Cədvəl 1.

Azərbaycan İqtisadiyyata yönəldilən investisiyalar

	1995	2000	2001	2002	2003	2004	2005
Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):							
Mln.manat	480.7	1289.8	1454.5	2718	4249.2	5820.4	6309.1
Mln.dollar	544	1441.4	1561.8	2796.6	4326.4	5922.7	6669.6
Xarici investisiyalar:							
Mln.manat	331.4	829.5	1016.8	2172	3310.9	4496.4	4204.2
Mln.dollar	375.1	927	1091.8	2234.9	3371	4575.5	4444.3
Daxili investisiyalar:							
Mln.manat	149.3	460.3	437.7	546	938.3	1324	2104.9
Mln.dollar	168.9	514.4	470	561.7	955.4	1347.2	2225.3

Cədvəldən görünür ki, 2005-**c**i ildə neft sektoruna 4,07 milyard dollar xari**c**i investisiya yatırılmış, eyni zamanda 281,8 milyon dollar maliyyə kreditləri alınmışdır ki, bu da əsasən qeyri-neft sektorunda müxtəlif sahələrin inkişafına sərf edilir. 1995-**c**i ildə isə neft sektoruna 139,8 milyon dollar sərmayə qoyulmuş, maliyyə kreditləri isə 220,4 milyon dollar təşkil etmişdir. Burada sual oluna bilər ki, İqtisadiyyatın bütün sahələrində inkişaf gedir, xari**c**i investisiyaların da hə**c**mi ilbəil sürətlə artır, bəs maliyyə kreditləri niyə artmır? Məlumdur ki, 1995-1996 və ondan sonrakı bir neçə illər ərzində də Azərbay**c**an hökumətinin infrastrukturla bağlı, İqtisadiyyatın bir çox mühüm sahələri ilə bağlı strateci layihələri maliyyələşdirmək imkanı məhdud idi. Ona görə də həmin dövr üçün beynəlxalq maliyyə qurumlarının kreditləri müstəsna əhəmiyyətə malik idi. Bu gün isə respublikamız neft sektorundan irihə**c**mli gəlir əldə edir, bu vəsaitlər Dövlət Neft Fondunda toplanılır. Artıq bir sıra strateci layihələri büd**c**ə gəlirlərinin və Neft Fondunun vəsaitlərinin hesabına reallaşdırılması imkanları açılmışdır. Hökumət müxtəlif sahələrdə bu imkanlardan istifadə edir. Bu baxımdan da maliyyə qurumlarından alınan kreditlərin hə**c**minin artırılmasına zəruriət yoxdur. Lakin buna baxmayaraq, bu qurumlar respublikamız üçün strateci tərəfdaş kimi öz əhəmiyyətini saxlamaqdadır.

Cədvəl 2.

Azərbaycan İqtisadiyyatına yönəldilən xarici investisiyaların strukturu (mln. ABŞ dolları)

	1995	**2000**	**2001**	**2002**	**2003**	**2004**	**2005**
Cəmi xarici investisiya	**375.1**	**927**	**1091.8**	**2234.9**	**3371**	**4575.5**	**4444.3**
o cümlədən:							
maliyyə kreditləri	**220.4**	**262.9**	**192**	**223**	**238.3**	**293**	**281.8**
neft sənayesinə	139.8	546.1	820.5	1693	2972.4	4088.1	4074.4
birgə müəssisələr və xarici firmalar	14.9	118	79.3	318.9	45.4	104.2	87.1
ondan:							
Türkiyə	6.8	31.6	11.8	55.6	17.1	80.1	17.6
ABŞ	2.1	11.2	16.9	41.4	4.9	8.4	14.5
Iran	0.9	2.9	-	2.7	-	-	-
Almaniya	1.2	1.7	1.2	1.7	-	2.1	5.3
Rusiya	0.7	-	1.4	0.7	1.2	1.8	0.5
Böyük Britaniya	0.7	6.8	15.1	108.1	9	4.2	12.8
Bolqarıstan	0.1	-	-	-	-	-	-
Birləşmiş Ərəb Əmirlikləri	0.7	2.8	0.7	0.2	4.4	4.4	26.1
Isveçrə	1.2	-	8.3	-	-	-	-
Fransa	-	39.3	7.6	25.7	2.2	2.2	0.3
Norveç	-	-	-	31.6	-	-	-
Yaponiya	-	16.4	4	23.7	-	-	-
Sair ölkələr	0.5	5.3	12.3	27.5	6.6	1	10
Neft bonusu	-	-	-	-	58.6	21.6	1
Digər investisiyalar					56.3	68.6	-

Hal-hazırda Azərbay**c**an Respublikası Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və Inkişaf Bankı, KWF Bankı, Asiya Inkişaf Bankı, Islam Inkişaf Bankı, Qara Dəniz Ti**c**arət və Inkişaf Bankı və digər maliyyə institutları ilə əməkdaşlıq edir.

Dünya Bankı bu günə qədər Azərbay**c**ana 22 layihə üzrə 585 milyon ABŞ dolları məbləğində kredit ayırmışdır. Bunun 392 milyon ABŞ dolları artıq layihələr çərçivəsində istifadə olunmuş, qalan 193 milyon ABŞ dolları isə hazırda i**c**rada olan layihələr çərçivəsində istifadə olunur. Dünya Bankı 1995-**c**i ildən başlayaraq Azərbay**c**an Respublikası ilə əməkdaşlıq edir və bu əməkdaşlıq əsasən aşağıdakı istiqamətləri əhatə edir:

- bazar İqtisadiyyatına keçidlə bağlı islahat proqramlarının həyata keçirilməsi;
- makroİqtisadi stabilləşdirmə və neft gəlirlərinin idarə edilməsi;
- qaçqınların və mə**c**buri köçkünlərin problemlərinə yardım;
- infrastrukturun bərpa edilməsi;
- təhsil və səhiyyə;
- enerci sektoruna investisiyaların **c**əlb edilməsi;
- dövlət sektorunda islahatlar;
- kənd təsərrüfatında və ümumiyyətlə qeyri-neft sektorunda artım, yeni iş yerlərinin açılması və s.

2003-**c**ü ilin fevral ayında Dünya Bankı tərəfindən Azərbay**c**ana 2003-2005-**c**i illər üçün yardım strategiyası təsdiq olunmuşdur. Bu strategiya çərçivəsində 65 milyon ABŞ dolları hə**c**mində kredit sazişi imzalanmışdır.

Bu strategiyanın tərkib hissəsi olan «Yoxsulluğun azaldılmasına yardım krediti» adlı layihə yoxsulluğun azaldılması və İqtisadi inkişaf üzrə dövlət proqramında nəzərdə tutulan tədbirləri maliyyələşdirmək və struktur islahatlarını davam etdirmək məqsədilə həyata keçirilmiş və 60 milyon ABŞ dolları dəyərində olmuşdur (hər il 20 milyon dollar olmaqla).

Bundan başqa, Azərbay**c**an Respublikası Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə də əməkdahlıq edir. BMK-nın fəaliyyəti əsasən özəl sektorda **c**əmləşmişdir. Korporasiya bu sektora ümumilikdə 136,3 milyon ABŞ dolları kredit ayırmışdır. Bununla yanaşı bu korporasiya Bakı-Tbilisi-**C**eyhan boru kəmərinin tikintisində Azərbay**c**anın payını maliyyələşdirmək məqsədilə 300 milyon dollar kredit vermişdir.

Azərbay**c**an Respublikasında BVF-nin yaxından iştirakı ilə 6 müxtəlif proqram hazırlanaraq həyata keçirilmişdir ki, bu proqramlar çərçivəsində respublikamıza 546,7 milyon ABŞ dolları kredit verilmişdir.

Bu günə qədər Azərbay**c**an hökuməti ilə BVF arasındakı əməkdaşlıq əsasən aşağıdakı istiqamətləri əhatə etmişdir:

- Hesablama Palatasının yaradılması;
- Büd**c**ə Sistemi haqqında Qanunun qəbul edilməsi;
- Neft Fondunun yaradılması və onun şəffaflığının təmin edilməsi;
- Vergi və gömrük idarəetmə sistemlərinin təkmilləşdirilməsi və s.

Hal-hazırda da respublikamızın BVF ilə əməkdaşlığı davam etdirilir.

Beynəlxalq maliyyə institutlarının, xüsusilə də BVF-nin Azərbay**c**anla əməkdaşlığının mühüm bir istiqamətini neft gəlirlərindən səmərəli istifadə məsələsi təşkil edir. Hansı ki, bu hazırda Azərbay**c**an hökumətinin qarşısında duran ən aktual məsələdir. Neft gəlirlərindən səmərəli istifadənin təşkili, məhşur holland sindromu təhlükəsinin aradan qaldırılması məqsədilə Neft Fondunun yaradılması da məhz BVF-nin ideyası və tövsiyəsi ilə olmuşdur. BVF Neft Fondu mexanizmini neft ölkələri olan Nigeriya və Venesuelada baş vermiş böhrandan sonra təklif etmiş, Norveç, ABŞ və digər bir sıra ölkələrdə bu mexanizmin həyata keçirilməsinə nail olmuşdur.

Hazırda respublikamız böyük neft gəlirləri ərəfəsindədir. Bu gəlirlər əsasən Azəri-çıraq-Günəşli və Şahdəniz yataqlarının işlənməsini nəzərdə tutan sazişlər özrə əldə ediləcək. Bakı-Tbilisi-Ceyhan neft ixra**c**-boru kəmərinin 2006-cı ildə işə düşməsi ilə Azərbaycanda hasil edilən neftin həcminin artırılması üçün zəmin yaranmışdır. 2010-cu ildə respublikAmızda neft hasilatı 60-65 mln. tona çatacaq və bunun təxminən 50-55 mln. tonu «əsrin müqaviləsi» çərçivəsində əldə ediləcək.

Hazırda ölkədə qazın illik hasilatı 5 mlrd. kubmetr təşkil edir, 2008-ci ildə isə bu göstərici 13-14 mlrd. kubmetrə çatacaq, sonrakı illərdə isə daha sürətlə artacaq. Hasil edilən qaz Bakı-Tbilisi-ərzurum qaz boru kəməri ilə Türkiyə

bazarına və daha sonra Yunanıstan, Italiya və digər Avropa ölkələri bazarlarına çıxarılaraq respublikamızın bu sahədə irihəcmli gəlirlər əldə etməsini şərtləndirəcək.

Mütəxəssislərin apardıqları hesablamalara görə Azərbaycanın 2030-cu ilə qədər «Əsrin müqaviləsi» çərçivəsində toplanan gəlirləri 150 mlrd. ABŞ dollarına qədər ola bilər. Bu gəlirlər əsasən Dövlət Neft Fonduna, dövlət büdcəsinə və Dövlət Neft Şirkətinə yönələcək.

Hazırda Dövlət Neft Fondunun gəlirləri bu mənbələr hesabına formalaşır: dövlətin payına düşən mənfəət neftinin satışından; bonuslardan; akrhesabı ödənişlərdən; tranzit tariflərindən; icarə ödənişlərindən və sair.

Dövlət Neft Fonduna toplanan gəlirlər ölkənin ümumi neft gəlirlərinin təxminən 92%-ni təşkil edəcəkdir.

Hazırda BVF mütəxəssisləri bu irihə**c**mli gəlirlərin idarəedilməsi ilə bağlı mövc**u**d problemlərin tədqiqində və onların aradan qaldırılması istiqamətlərinin öyrənilməsində Azərbay**c**an hökumətinə kömək edir.

Son illərdə hökumət tərəfindən bir sıra vacib qərarlar qəbul edilməsi BVF tərəfindən müsbət qiymətləndirilmişdir. Bunlara holland sindromu təhlükəsi qarşısının alınması, neft və qaç gəlirlərinin idarəedilməsi üzrə uzunmüddətli strategiyanın hazırlanması və İqtisadiyyatın neft amilindən asılılığının açaldılmasına yönələn tədbirlər aiddir.

Hazırda beynəlxalq maliyyə institutlarının Azərbay**c**anla əməkdaşlığında İqtisadi qanunveri**c**iliyin, o **c**ümlədən neft gəlirlərinin səmərəli istifadəsində mühüm rol oynaya**c**aq qanunveri**c**ilik aktlarının hazırlanmasına, təkmilləşdirilməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına böyük diqqət yetirilir.

Tədqiqatçılar neft gəlirlərinin əldə edilməsinə dair əsas normativ aktları əsasən iki qrupa ayırırlar: Dövlət Neft Şirkətinin fəaliyyətini tənzimləyən aktlar və xarici şirkətlərlə imzalanan neft sazişləri.

Dövlət Neft Şirkətinin fəaliyyətini tənzimləyən əsas normativ akt ölkə prezidentinin 23 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiqlənmiş şirkətin əsasnaməsidir. Şirkətin fəaliyyətini tənzimləyən digər normativ aktlar isə bütün hüquqi şəxslərin müxtəlif istiqamətlər üzrə fəaliyyətini tənzimləyən qanun, fərman və sərənccamlardır. Misal üçün, mühasibat uçotu, vergi Məcəlləsi və sair haqqında qanun.

Xarici şirkətlərlə imzalanan neft sazişləri Milli Məclisdə təsdiq edildikdən sonra qanun gücünü alır və Azərbaycan qanunvericiliyinin tərkib hissəsinə çevrilir. Bu saziş-qanunlarda neft gəlirlərinin əldə edilməsinə və dövlətlə şirkətlər arasında bölüşdürülməsinə dair müvafiq normalar var. Mütəxəssislər hesab edirlər ki, neft gəlirləri baxımından bu sazişlərdə nəçərdə tutulan şərtləri podratçının necə gözləməsi məsələsi ölkənin neft gəlirləri baxımından nəzarətdə saxlanan məsələ olmalıdır. Dünya təcrübəsi göstərir ki, nəzarət zəif olduqda transmilli neft şirkətlərinin yerli menecerləri əlavə qazanc məqsədilə düzgünlük prinsiplərini, hətta şirkətin etik davranış qaydalarını poza bilərlər.

Neft gəlirlərinin saxlanması və istifadəsinə dair normativ aktları da iki hissəyə bölünür: neft gəlirlərinə birbaşa aid olan normativ aktlar; ümumiyyətlə, dövlət gəlirlərinin saxlanması və istifadəsinə dair aktlar.

Birinci qrupa bunları aid etmək olar: ölkə prezidentinin Dövlət Neft Fondunun yaradılması haqqında 29 dekabr 1999-cu il tarixli fərmanı; Dövlət Neft Fondunun ölkə prezidentinin 29 dekabr 2000-ci il tarixli fərmanı ilə təsdiqlənmiş əsasnaməsi; ölkə prezidentinin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiqlənmiş Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar; ölkə prezidentinin 27 sentyabr 2004-cü il tarixli fərmanı ilə təsdiqlənmiş «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya».

Ikinci qrupa isə bunlar aid edilir: «Büdcə sistemi haqqında» qanun; büdcədənkənar fondların idarə edilməsi və xüsusilə də bu fondlarda cəmlənən vəsaitlərdən istifadəni tənzimləyən aktlar; dövlət maliyyə vəsaitlərinin xərclənməsini və ümumiyyətlə, dövlət qulluğunu tənzimləyən aktlar.

Qeyd etmək lazımdır ki, hazırda BVF və DB bu aktların, həmçinin Dövlət Neft Fondunun idarəedilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı hökumətə tövsiyə və təkliflərini verirlər.

BVF mütəxəssislərinin və ölkəmizdə neft sənayesi ilə bağlı tədqiqatlar aparan bir sıra mütəxəssislər qeyd edilən təkmilləşdirmələrin əsasən aşağıdakı istiqamətlərdə aparılmasını məqsədəuyğun hesab edirlər:

- dövlət qulluğunu, büdcə prosesini və büdcədənkənar fondların fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi;
- dövlət şirkətlərinin maliyyə fəaliyyətini tənzimləyən normativ aktların təkmilləşdirilməsi;
- Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsinin səmərəliliyini artıra**c**aq aktların təkmilləşdirilməsi və s.

Cədvəl 3.

AYIB-in MDB ölkələri və Azərbaycan üzrə investisiyaları (mln. avro)

	2004	2005	1 yanvar 2006-cı ilə qədər cəmi
Rusiya Federasiyası	**1238,5**	**1089,1**	**7224,7**
Ukrayna	**267,4**	**528,8**	**2188,3**
Qazaxıstan	**245,9**	**279,6**	**1374,4**
Azərbaycan	**213,6**	**245,1**	**686,0**
Gürcüstan	**77,5**	**87,2**	**339,2**
Belarus	**23,6**	**32,1**	**198,8**
Moldova	**11,8**	**20,7**	**208,5**
Ermənistan	**5,3**	**17,6**	**116,0**
Qırğızıstan	**29,6**	**15,1**	**174,1**
Tacikistan	**6,7**	**17,6**	**48,8**
Türkmənistan	**0,1**	**0,8**	**133,1**
Özbəkistan	**34,0**	**35,4**	**598,7**

Avropa Yenidənqurma və Inkişaf Bankı 2006-**c**ı ilə qədər respublikamızda 21 layihəyə bütövlükdə 686,0 milyon avro vəsait ayırmışdır. Bu layihələr əsasən infrastruktur, nəqliyyat, energetika, maliyyə, təbii sərvətlərin hasilatı və digər sahələri əhatə etmişdir.

2003-**c**ü ildə AYIB ilə İqtisadi Inkişaf Nazirliyi arasında Azərbay**c**an Beynəlxalq Bankının Yenidən kapitallaşdırılması və özəlləşdirilməsi ilə bağlı Anlaşma Memorandumu imzalanmışdır.

Hazırda AYIB ölkəmizdə fəaliyyət göstərən Mikromaliyyələşdirmə Bankının səhmdarı kimi 23,75 faizlik paya malikdir.

Cədvələ diqqət yetirsək görərik ki, Azərbay**c**an MDB ölkələri arasında AYIB-dən alının kreditlərin hə**c**minə görə Rusiya, Ukrayna və Qazaxıstandan sonra dördün**c**üdür.

Digər maliyyə qurumu Islam Inkişaf Bankı ilə Azərbay**c**an Respublikasının əməkdaşlığı isə 4 iyul 1992-**c**i ildən başlanmışdır. 1 yanvar 2004-**c**ü ilə qədər IIB Azərbay**c**ana 19 layihə çərçivəsində 98 milyon ABŞ dolları dəyərində vəsait ayırmışdır. Həmçinin 2004-2007-**c**i illəri əhatə edən üçillik fəaliyyət proqramı çərçivəsində isə bank tərəfindən 150 milyon ABŞ dolları dəyərində vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Qara Dəniz Ti**c**arət və Inkişaf Bankı 1998-**c**i ildə Qara Dəniz regionuna daxil olan 11 ölkə tərəfindən təsis olunmuşdur. Bankın nizamnamə kapitalı 1 milyard SDR-dir və bunun 2 faizi Azərbay**c**an Respublikasına məxsusdur. Bu bank tərəfindən Azərbay**c**an Beynəlxalq Bankına 6,5 milyon ABŞ dolları kredit xətti açılmışdır. Həmçinin bank Azərbay**c**an Mikromaliyyələşdirmə Bankında 23,75 faiz paya malikdir.

Almaniyanın KFW Bankı müxtəlif layihələr üzrə ümumilikdə respublikamıza 111 milyon avro vəsait ayırmışdır. Bu vəsaitin 96,5 milyon avrosunu

güzəştli kreditlər, 14,5 milyon avrosunu isə qrantlar təşkil etmişdir. KFW Bankı da Azərbaycanda fəaliyyət göstərən Mikromaliyyələşdirmə Bankında 23,75 faizlik paya malikdir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın dünya İqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın intensivləşdirilməsində Dünya Ticarət Təşkilatına (DTT) qəbul xüsusi rol oynaya bilər. Çünki bu təşkilat da beynəlxalq İqtisadi qurum olmaqla BMT institutudur və ona üzvlük ölkə ilə əməkdaşlıqda nəzərə alınan ən başlıca tituldur. DTT üzvü olma İqtisadiyyatın liberallaşdırılması, bazar münasibətlərinin inkişaf etdirilməsi göstəricisi kimi çıxış edir.

Beynəlxalq maliyyə qurumları tərəfindən Azərbaycana verilmiş kreditlər 1995-2005-ci illər (mln. ABŞ dolları)



Azərbaycan Respublikası DTT-yə üzvlük üçün 1997-ci ildə müraciət etmiş və həmin vaxtdan etibarən bu təşkilatda müşahidəçi kimi çıxış edir. ÜTT-də müşahidəçi statusu əldə etdikdən sonra, 1999-cu il 22 mart tarixində ölkənin xarici ticarət-İqtisadi fəaliyyətinin bütün aspektlərini əks etdirən "Azərbaycan Respublikasının Xarici Ticarət Recimi haqqında Memorandum" ÜTT Katibliyinə təqdim olunmuş və orada bu sənəd təşkilatın bütün üzvlərinə təqdim edilmişdir. Bundan sonra, üzv ölkələrin nümayəndələrindən ibarət Azərbaycan üzrə Işçi Qrupu yaradılmış və Almaniyanın beynəlxalq təşkilatlar yanındakı nümayəndəsi bu qrupun rəhbəri təyin edilmişdir.

Respublikamızın dünya İqtisadiyyatına inteqrasiyasının mühüm səviyyə göstəricilərindən biri də xarici ticarət dövriyyəsinin vəziyyəti və buradakı dinamik dəyişikliklərdir. Bu gün artıq Azərbaycan RespublikAsının 140 ölkə ilə ticarət-İqtisadi əlaqəsi mövcuddur. 2006-cı il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən bu ölkələr ilə aparılmış ticarət əməliyyatlarının həcmi 11637,2 mlrd. ABŞ dolları olmuşdur. Bu müddət ərzində 6372,1 mln. ABŞ dolları dəyərində 2242 adda mal ixrac, 5265,0 mln. ABŞ dolları

dəyərində 5935 adda mal isə idxal olunmuş, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 1107,0 mln. ABŞ dolları təşkil etmişdir. O cümlədən, - respublikaya 38345,5 min ABŞ dolları dəyərində 23020,8 ton əmtəə dövlət, hökumət və beynəlxalq təşkilatların xəttilə təmənnasız kömək, humanitar yük və texniki yardım kimi daxil olmuşdur.

2005-ci ilə nisbətən 2006-cı ildə ixrac əməliyyatlarının həcmi 46,58% (2024,9 mln. ABŞ dolları), idxal əməliyyatlarının həcmi isə 24,76% (1044,7 mln. ABŞ dolları) artmışdır.

Cədvəl 4-ün göstəri**c**iləri də Azərbay**c**anın dünya İqtisadiyyatına inteqrasiya göstəri**c**isi kimi təqdim edilə bilər. Respublikamızın ixra**c**ında birin**c**i yeri Avropa ölkələri, ikin**c**i yeri isə Asiya ölkələri tutur. Şübhəsiz ki, bu da müstəqillik əldə edildikdən sonra dünya İqtisadiyyatına inteqrasiyanın təzahürüdür.

Həm BVF-nin, həm də digər maliyyə qurumlarının Azərbay**c**anla əlaqələrinin əsas parametri kimi ölkənin tədiyə balansındakı dəyişikliklər nəzərə alınır. Bu qurumlar da fəaliyyətlərinin əsas məqsədi kimi ölkənin tədiyə balansındakı kəsirin aradan qaldırılmasına yardımı, tövsiyələrin verilməsini göstərirlər.

Son bir ne**ç**ə ildə Azərbay**cc**anda İqtisadi artımın yüksək tempinin müşahidə edilməsi, tərəfdaş ölkələrdə İqtisadi artımla bağlı milli məhsullara xarici tələbin artması, investisiya mühitinin daha da yaxşılaşması şəraitində kapital axınının genişlənməsi, dünya bazarlarında neftin qiymətinin yüksəlməsi kimi amillər tədiyə balansı parametrlərinin əhəmiyyətli şəkildə yaxşılaşmasını şərtləndirmişdir.

Ölkənin tədiyə balansı aşağıdakı əsas iki komponenti özündə birləşdirir:

-Birin**c**isi, **c**ari əməliyyatlar hesabı;

-Ikin**c**isi isə kapital və maliyyənin hərəkəti hesabı.

Xari**c**i ti**c**arət balansı, xidmətlər balansı, gəlirlər balansı və **c**ari transfertlər balansı ümumilikdə birin**c**i komponenti formalaşdırır. Ikin**c**iyə isə bunlar aiddir: Birbaşa investisiyalar, neft bonusu, kreditlər və digər investisiyalar.

2004-**c**ü ilə qədər Azərbay**c**an Respublikasının tədiyə balansında böyük hə**c**imdə kəsirlər mövcud olub. BVF və digər beynəlxalq maliyyə institutları respublikaya bu problemin həlli üçün istər maliyyə, itərsə də konsultasiya xidmətləri göstərmişlər.

Cədvəl 4.

Azərbaycanın ticarət dövriyyəsinin göstəriciləri
(1991-2005-ci illər, mln. ABŞ dolları ilə)

Illər	Dövriyyə	Idxal	Ixrac	Saldo
1991	4002,2	1881,3	2120,9	**239,7**
1992	2423,8	939,8	1483,9	**544,1**
1993	1353,5	628,8	724,6	**95,8**
1994	1430,6	777,9	652,7	**-125,2**
1995	1304,9	667,6	637,2	**-30,4**
1996	1591,9	960,6	631,2	**-329,4**
1997	1575,6	794,3	781,3	**-13,0**
1998	1682,6	1076,5	606,1	**-470,3**
1999	1965,1	1035,9	929,2	**-106,6**
2000	2917,3	1172,0	1745,2	**573,1**
2001	3745,3	1431,1	2314,2	**883,0**
2002	3833,0	1665,6	2167,5	**501,9**
2003	5218,1	2626,4	2591,7	**-34,7**
2004	7131,4	3515,9	3615,5	**99,5**
2005	8547,2	4200,4	4346,9	**146,5**

2004-**c**ü ildə tədiyə balansının **c**ari əməliyyatlar üzrə kəsiri 2589,2 milyon ABŞ dollarına çatmışdır ki, bu da ÜDM-in 30,4 faizi qədər olmuşdur. Bu baxımdan 2005-**c**i ili Azərbay**c**anın tədiyə balansı üçün dönüş ili kimi qiymətləndirmək olar. Həmin ildə tədiyə balansının ümumi saldosu müsbət olmuş, ötən illə müqayisədə 384 milyon dollardan 1,6 dəfə artaraq 607,7 milyon dollara çatmış və ÜDM-in 4,8%-ni təşkil etmişdir. Ölkədə yüksək templi İqtisadi artım strategiyasının, o cümlədən onun vacib tərkib hissəsi olan neft-qaz strategiyasının uğurla reallaşdırılması ölkənin ixrac potensialının artmasını şərtləndirmiş, əvvəlki dövrlərdən fərqli olaraq 2005-ci ildə daxili yığım norması investisiyaları üstələmiş və tədiyə balansının cari əməliyyatlar hesabında profisit yaranmışdır.

Tədqiqatlar göstərir ki, Azərbay**c**an Respublikasının ixra**c** poten-sialının artırılmasında beynəlxalq maliyyə qurumları ilə əməkDaşlıqdan səmərəli istifadə xüsusi rol oynaya bilər. Təsadüfi deyildir ki, AYIB və BVF-nin kreditlərinin verilməsində əsas prinsiplərdən biri də yerli istehsalın rəqabət-qabiliyyətinin və ixra**c** potensialının artırılmasıdır. Bu qurumların Azərbay**c**anda reallaşdırılmış bir sıra layihələri də məhz qeyri-neft sektorunda sahibkarlığın dəstəklənməsinə, onların ixra**c** qabiliyyətli məhsullar istehsal etmələrinə yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, bu günə qədər beynəlxalq maliyyə qurumları Azərbay**c**anda İqtisadiyyatın müxtəlif sahələrində strateci layihələri, xüsusilə də İqtisadi və sosial infrastrukturun inkişaf etdirilməsi istiqamətində möv**c**ud olan layihələri maliyyələşdi-rmişdirlər.

Respublikamızda yaşayış məntəqələrinin su tə**c**hizatının və kanalizasiya sistemlərinin yenidən qurulması beynəlxalq maliyyə institutlarının irihə**c**mli kreditlər ayırdığı sahələrdən biridir. Belə ki, uzun illər bu sektorun qeyri-rentabelli olması buraya irihə**c**mli vəsaitin yönəldilməsinə problemlər yaratmışdır. Azərbay**c**an müstəqillik əldə etdikdən sonra, ötən əsrin 90-**c**ı illərinin əvvəlində bu sektorda **c**iddi problemlər yaranmışdır. Bu da əsas təmizləyi**c**i qurğu və regional nasos stansiyalarının uzun müddət profilaktika aparılmadan və əsaslı təmir edilmədən istismar edilməsi ilə bağlı idi. Əsası 1917-**c**i ildə qoyulmuş su kəmərləri sistemindən biri tamamilə yararsız hala düşmüşdür.

1997-**c**i ildə Dünya Bankının ekspertləri respublikamızın su tə**c**hizatı sisteminin yenidən qurulması üçün zəruri layihələrin qiymətləndirilməsini apa-raraq belə qənaətə gəlmişlər ki, bu sektora 2 milyard dollar investisiyanın yönəldilməsi tələb olunur.

DB-nin hazırladığı «Böyük Bakı su tə**c**hizatı sisteminin bərpa edilməsi» layihəsinə 94,9 mln. ABŞ dolları vəsait yönəldilmişdir. Bu vəsaitin 61 mln. dollarını DB-nin krediti, 23 mln. dollarını AYIB-in krediti, 10,9 mln. dollarını isə Azərbay**c**an Hökumətinin yönəltdiyi vəsait təşkil etmişdir.

Bu layihənin əsas məqsədi aşağıdakılardan ibarət olmuşdur:

- Bakı şəhərində əhalinin i**ç**məli su ilə tam təmin olunması məqsədilə su tə**c**hizatı sistemində qısamüddətli tə**c**ili bərpa işlərinin intensivləşdirilməsi;
- ümumilikdə paytaxtın su tə**c**hizatı sisteminin yaxşılaşdırılması;
- uzunmüddətli bərpa işlərinin aparılması üçün fundamental texniki və İqtisadi əsasların formalaşması və s.

Bu layihənin reallaşdırılması aşağıdakı istiqamətləri əhatə etmişdir:

- yaşayış məntəqələrinin su kəmərlərində, kranlarda və bunun kimi digər su ötürü**c**ü avadanlıqlarda təmir işlərinin aparılması, su sayğa**c**larının quraşdırılması, proqressiv su tariflərinin təyin edilməsi proqramı ilə yaşayış məntəqələrinin müntəzəm olaraq su ilə təminatı;
- emalatxanaların, texniki avadanlıqların əldə edilməsi, tədqiqat işlərinin aparılması proqramı ilə su anbarlarından paylaşdırılan suyun hə**c**minin artırılması yollarının müəyyənləşdirilməsi;
- su tə**c**hizatı şəbəkəsinin davamlılığının təmin edilməsi və s.

Bu kredit layihəsinin reallaşdırılması nəti**c**əsində Bakı şəhərinin su tə**c**hizatı sisteminin əsas təmizləyi**c**i qurğular və 25 regional nasos stansiyası yenidən qurulmuş, 9 sənaye bazası tikilmiş, 5 min məişət və 91 sənaye su sayğa**c**ı quraşdırılmış, magistral boruların yararsız hala düşənləri yenilənmiş, su tə**c**hizatı sisteminin maddi-texniki bazası möhkəmləndirilmiş və nəhayən

paytaxtın su təchizatı və kanalizasiya sisteminin 2025-ci ilədək baş sxemi hazırlanmışdır.

Digər maliyyə qurumu – Almaniyanın KfW Bankının 40 il müddətinə, güzəştli şərtlərlə ayırdığı 3,7 mln. avro dəyərində kredit Imişli şəhərində su təchizatının yaxşılaşdırılmasına sərf edilmişdir. «Kommunal infrastruktura təcili texniki yardım» adlanan bu layihə çərçivəsində şəhərin 14 km-dənq uzun boru kəməri şəbəkəsinin 60 %-ə qədəri yenilənmiş, 1600-dən çox evin su təchizatı yenidən qurulmuş, sayğaclar quraşdırılmışdır.

Mütəxəssislər hesab edirlər ki, respublikanın su təchizatı sisteminə cəlb edilən kreditlərin səmərəli istifadəsi üçün bu sektorda yenidənqurma işlərinin strateci baş planının hazırlanması vacib və zəruridir.

Beynəlxalq maliyyə qurumlarının daha çox maraq göstərdiyi sahələrdən biri yanacaq-energetika kompleksidir. Bu da kreditorların bu sahədə reallaşdırdıqları layihələrin öz xərcini çıxaracağına inamın mövcudluğu ilə əlaqələndirilir.

Statistika göstərir ki, beynəlxalq maliyyə qurumlarının Azərbaycana yönəltdiyi investisiyaların 70 %-ə qədəri məhz yanacaq-energetika sektorunda cəmləşmişdir. Bu bölgüdə ikinci yeni nəqliyyat sahəsi tutur, xarici kreditlərin 6 %-i bu sahəyə yönəldilib.

DB (BMK-nın timsalında) və AYIB yanacaq-energetika sektoruna ümumilikdə 1,5 milyard dollardan artıq investisiya yönəldiblər. Bu kreditlər əsasən aşağıdakı layihələri əhatə etmişdir:

- «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının işlənilməsi;
- Bakı-Tbilisi-Ceyhan ixrac-boru kəmərinin tikintisi;
- «Şahdəniz» qaz-kondensat yatağının istismara verilməsi;
- Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi.

Bu sektorda dövlət zəmanəti ilə alınan kreditlərin əsas hissəsi «Azərenerci» ASC-nin podratçı olduğu layihələrə yönəldilmişdir. Hazırda dövlət qurumu olan «Azərenerci» ASC ölkədə elektrik enercisinin istehsalı və bölüşdürülməsi ilə məşğuldur. Onun tabeçiliyində 5 SES və 4 IES mövcuddur. Bu stansiyaların ümumilikdə gücü 5000 Mvt qiymətləndirilir. Ümumilikdə elektrik enercisinin 85 %-i IES-lərin, 15 %-i isə SES-lərin payına düşür.

Qeyd etmək lazımdır ki, elektrik enercisi istehsalının milli İqtisadiyyatın inkişafında hansı strateci əhəmiyyətə malik olduğunu izah etmək, eləcə də beynəlxalq maliyyə qurumlarının kreditlərinin bu sektorun inkişafında oynadığı rolunu müəyyən etməyə ehtiyac yoxdur.

Rəsmi məlumatlara görə «Azəreneci» ASC bu günə qədər ümumilikdə 400 mln. dollar kredit almışdır.

1996-cı ildə səhmdar səmiyyəti AYIB ilə 1985-ci ildə tikintisinə başlanılmış, lakin quraşdırma işləroi yarımçıq qalmış Yenikənd SES-in yenidən qurulması üçün kredit sazişi imzalamışdır. Belə ki, layihənin ümumi dəyəri 72,2 mln. dollar idi və AYİB bunun 53,2 milyon dollarlığını maliyyələşdirmişdir.

Nəticədə 2000-ci ildə bu SES-də 2 enerci bloku istismara verilmiş və bunların gücü 112,5 Mvt olmuşdur.

Yaponiyanın Xarici Ölkələrlə İqtisadi Əməkdaşlıq Fondu 1998-ci ildə «Şimal» RSES-in yenidən qurulması üçün Azərbaycan Hökumətinə 170 mln. dollar dəyərində kredit ayırmışdır. 40 il müddətinə və illik 0,75 %-ə verilən bu kredit məbləginə 1999-cu ildə bank tərəfindən 150 mln. dollar əlavə edilmişdir. Ümumi məbləgi 320 mln. dollara çatan bu kredit layihəsi çərçivəsində «Şimal» RSES-də mövcud olan 15 MVt-lıq buxar-qaz qurğusu 400 MVt gücündə yeni qurğu ilə əvəzlənməlidir.

«Azərenerci» ASC-nin 1999-cu ildə bu layihənin icrası üçün operatorun seçilməsi üzrə keçirdiyi tenderdə Yaponiyanın Mitsui/Mitsubishi şirkətlər alyansı qalib gəlmiş və 2000-ci ildə layihənin icrasına başlanılmışdır. Həmin il dekabr ayının 19-da prezident Heydər Əliyev buxar-qaz qurğusunun təməlinin qoyulması mərasimində iştirak etmişdir.

Bu layihənin ikinci hissəsi uzunluğu 90 km-ə çatan, 700-1000 mm diametrli Qaradağ-Digah-«Şimal» RSES qaz kəmərinin çəkilməsindən ibarət olmuşdur. Bu kəmərlə RSES-ə sutkada 5 mln. kubmetr qaz nəql edilməlidir.

Mütəxəssislər hesab edirlər ki, bu qaz kəmərinin tikintisi həm də Bakı və Sumqayıt şəhərlərinin, bütövlükdə Abşeron yarımadasının qaz təchizatını daha da yaxşılaşdıracaq. Belə ki, kəmərin gücü sutkada 8-10 mln. kubmetrdir. Yəni RSES-ə lazım olandan əlavə sutkada 3-5 mln. kubmetr qaz nəql edilə bilər ki,, bu kəmər də Bakı və Sumqayıt şəhərlərinin yaxınlığından keçir.

Layihəyə əsasən Qaradağda 11 MVt gücündə qaz-kompressor stansiyasının 2 aqreqatı (biri ehtiyat üçün) olmalıdır. 2000-ci ildə «Azəriqaz» QSC bu layihə üzrə tender elan etmiş və tenderin son mərhələsində Yaponiya şirkətləri tərəfindən təsis edilmiş 8 konsersium iştirak etmişdir. Nəticədə Mitsui/Toyo konsersiumu qalib olmuşdur.

Ekspertlərin fikrincə, bu layihənin reallaşdırılması ildə Abşeron yarımadasında elektrik enercisi istehsalı təşkil olunacaq ki, bu da elektrik enercisinin Mingəçevirdən alınması zamanı baş verən itkilərin azalmasına gətirib çıxaracaq.

AYIB və Islam Inkişaf Bankı «Mingəçevir enerci sisteminin yenidən qurulması» layihəsini maliyyələşdirmişdir. 4 sinxron generatorun, 4 turbinin və digər bir sıra avadanlıqların dəyişdirilməsini nəzərdlə tutan layihəyə AYIB 1997-ci ildə 21,5 mln. dollar, IIB isə 1998-ci ildə 12,5 mln. dollar vəsait ayırmışdır.

Layihə çərçivəsində aşağıdakı tədbirlər görülmüşdür:

- iki hidroblokun montacı (Rusiyanın «Edektrosila» şirkəti tərəfindən, dəyə-ri 630 min ABŞ dolları);
- generator və turbinin quraşdırılması (Hindistanın BHEL şirkəti tərəfindən, 4,8 milyon ABŞ dolları dəyərində);
- 330 KVt gərginlikli Ağcabədi-Goranboy elektrik xəttinin çəkilməsi (Almaniyanın Siemens şirkəti tərəfindən, 4,8 mln. ABŞ dolları dəyərində);

- Mingəçevir SES-də qlobal kompüter şəbəkəsinin quraşdırılması (Rusiyanın «Paritet» və «Inteqral LTD» şirkətləri, 340 min ABŞ dolları dəyərində);

- SES-də xüsusi nəzarət sayğaclarının quraşdırılması (Schlumberger transmilli korporasiyası);

- Konsaltinq xidmətinin göstərilməsi (Italiyanın Electroconsult şirkəti);

- 330 KVt gücündə Ağcabədi yarımstansiyasının yenidən qurulması və Bərdə yarımstansiyasının gücünün 10 KVt-dək artırılması (Türkiyənin STRA şirkəti).

Bu layihənin reallaşdırılması 2003-cü ilin əvvəlində başa çatdırılmışdır.

Almaniyanın KFW Bankının maliyyələşdirdiyi «Enerci ötürmə qabiliyyətinin bərpa edilməsi layihəsi» üzrə 30 mln. Almaniya markası məbləğində kredit illik 0,75 %-lə 40 il müddətinə verilmişdir. Layihənin podradçısı Almaniyanın Siemens şirkəti olmuşdur. 2000-ci ildə layihənin reallaşdırılması başa çatdırılmışdır.

Bu layihə nəticəsində mərhələli olaraq Abşeronda yenidən qurulmuş elektrik stansiyaları istismara verilmiş, 14 yarımstansiyanın fəaliyyəti bərpa edilmişdir.

Layihənin icrası zamanı bankın kreditindən 2,5 milyon markaya qənaət edilmişdir ki, bu da «Azərenerci» ASC üçün bir sıra zəruri avadanlıqların alınmasına sərf edilmişdir.

Bu işlər başa çatdıqdan sonra KFW bankı ilə ikinci kredit sazişi imzalandı. Bu sazişlə alınmış 15 mln. marka Abşeronda yerləşən yarımstansyaların bərpa işlərinin davam etdirilməsinə, Bakının Xətai və Səbail rayonlarında yeni yarımstansiyaların tikintisinə sərf edilmişdir.

Energetika sektorunda dövlət zəmanəti ilə alınan kreditlərin bir hissəsi də «Azəriqaz» QSC-nin operatoru olduğu layihələrə yönəldilmişdir. Bu qurum da 100 % dövlət kapitalı ilə fəaliyyət göstərir.

Ekspertlərin fikrincə, «Azəriqaz» QSC-nin tabeliyində olan infrastrukturun, istehsal sahələrinin yenidənqurulmasına daha böyük ehtiyac var. Belə ki, il ərzində təbii qazın alınması, saxlanılması və paylaşdırılması zamanı təxminən 80 milyon kubmetr qaz itkiyə gedir.

Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Inkişaf Assosasiyası «Azərbaycanın qaz sisteminin bərpası» layihəsini maliyyələşdirmişdir. 20,2 mln. dollar dəyərində kredit qazdan istifadəni artırmaq, onun qeyri-texniki itkilərini azaltmaq, ölçmə avadanlığını və qaz istehlakının uçot sistemini təkmilləşdirmək məqsədilə verilmişdir. 35 il müddətinə verilən borcun illik faizi 0,75 % təşkil etmişdir.

Beynəlxalq maliyyə qurumları tərəfindən Azərbaycanın təhsil sektoruna da investisiyalar yönəldilmişdir. Bu sıradan ilk saziş 1999-cu ildə Beynəlxalq Inkişaf Assosasiyası ilə imzalanmışdır. «Təhsil islahatı» adlanan layihədə tədris planının təkmilləşdirilməsi, pedaqoqların təkrar hazırlığı, bu sahədə görülən işlərin monitorinqi və qiymətləndirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Layihənin reallaşdırılması üçün Bakı, Sumqayıt, Gənc**ə**, Naxçıvan və Lənkəran şəhərlərində fəaliyyət göstərən 22 orta məktəb, Bakıda Redaqoci kadrların Bakı Ixtisasartırma və Yenidənhazırlanması İnstitutu və onun Lənkəran filialı, Gənc**ə** və Naxçıvanda Müəllimlərin İxtisasartırma Institutları, Təhsil Problemləri üzrə Elmi-Metodiki Mərkəz və Elmi-Tədqiqat Institutu pilot variantlar kimi seçilmişdir.

1999-2003-**c**ü illərdə bu pilot məktəb və institutların pedaqoqları ABŞ-da, Böyük Britaniyada, Almaniyada və digər xaric**i** ölkələrdə ixtisasartırma kursları keçmişlər və Hollandiyanın SITO mərkəzinin əməkdaşları seminarlar aparmaq üçün respublikaya dəvət edilmişlər.

Layihə çərçivəsində 2000-2003-**c**ü illərdə bütün pilot məktəblər və institutlar üçün 466 kompüter, 64 printer, 93 televizor, 208 stereomaqnitafon, 91 videomaqnitafon, 184 multimedia və diaproyektor, 29 surətçıxarma aparatı, 27 faks aparatı, 27 videokamera, 6 min ədəd məktəb partası, 470 yazı lövhəsi, 1900 ədəd akt zalı üçün kreslo və başqa avadanlıqlar alınmışdır.

BIA tərəfindən layihəyə ayrılmış 5 mln. dolların 97,08 %-i, yaxud 4,972 mln. dolları xər**c**lənmişdir. Bunun 1,154 mln. dolları məqsədli işlərə, 1,816 mln. dolları məsləhət xidmətlərinin haqqının ödənilməsinə, 622,577 min dolları treyninqlərə, 1,307 mln. dolları materialların alınmasına sərf edilmiş, 70,860 min dolları isə əməliyyat xər**c**ləri təşkil etmişdir.

Bu layihə başa çatdıqdan sonra BIA Azərbay**c**anın təhsil sistemində yeni və iri bir layihənin reallaşdırılmasına qərar verdi. 2003-**c**ü il sentyabrın 19-də BIA ilə Azərbay**c**an Hökuməti arasında kredit sazişi imzalandı. «Azərbay**c**anın təhsil sistemində islahatın aparılması» adlı bu layihə 3 mərhələdən ibarətdir: 2003-2007-**c**i illər, 2007-2010-**c**u illər və 2010-2013-**c**ü illər.

10 il müddətində həyata keçiriləc**ə**k bu layihə məktəblilər, müəllimlər və təhsil sahəsində çalışan məmurlar daxil olmaqla 1,6 milyon nəfəri əhatə edəc**ə**k və onun ümumi dəyəri 60 mln. dollar təşkil edir.

Layihənin i**c**rasında əsas məqsəd kimi aşağıdakı göstərilir:

- tədris proseslərinə yeni standartlar tətbiq etməklə mövc**u**d tədris sistemini təkmilləşdirmək əsasında Azərbay**c**anda ümumi və orta təhsilin keyfiyyətini yüksəltmək.

Layihənin I mərhələsində – 2007-**c**i ilin sonuna qədər həyata keçiriləc**ə**k tədbirlər beş istiqamətdə quruplaşdırılmışdır. Onlar aşağıdakılardır:

- ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi;
- təhsilin maliyyələşdirmə sisteminin səmərəliliyinin artırılması və islahat işlərinin sürətləndirilməsi;
- məktəblərdə qrant proqramlarının reallaşdırılması;
- idarəetmə, planlaşdırma və monitorinq işlərinin təşkili;
- layihənin kordinasiyasının və monitorinqin həyata keçirilməsi.

Birinc**i** istiqamət üzrə aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- kurrikumların islahatı – 1,28 mln. ABŞ dolları;

- hazırlıq, müəllimlərin təkrar hazırlığı və onların ixtisasının artırılması – 2,57 mln. ABŞ dolları;

- məktəblərin mütaliə materialı ilə təmin edilməsi və dərsliklərin yaradılması – 3,27 mln. ABŞ dolları.

Ikin**c**i istiqamət üzrə həyata keçiriləcək «Maliyyələşdirmə və büdcə islahatları» tədbirlərinə 450 min ABŞ dolları, məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə 8,42 mln. dollar vəsait xərclənməsi nəzərdə tutulub. Bu layihənin üçüncü istiqamətidir.

Dördüncü istiqamətə aşağıdakı tədbirlər aiddir:

- şagirdlərin biliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi – 1,12 mln. ABŞ dolları;

- təhsilin idarə edilməsi üzrə informasiya sisteminin qurulması – 700 min ABŞ dolları;

- idarəetmə və planlaşdırma imkanlarının artırılması – 510 min ABŞ dolları.

Təhsilin idarə edilməsinin informasiya sisteminin qurulması birinci mərhələdə Təhsil Nazirliyini, rayon təhsil şöbələrini, ali və orta ixtisas məktəblərini, ikinci mərhələdə isə respublikanın bütün məktəblərini əhatə edəcək. Bununla təhsil sisteminin vahid informasiya bazası yaradılacaq ki, bunun vasitəsi ilə hər bir şagird və müəllim haqqında zəruri məlumatları almağa,, müxtəlif məktəblərin, yaxud rayon və regionların təhsildəki uğurlarının statistikasını əldə etməyə imkan olacaq.

Beşinci istiqamət üzrə isə 1,87 mln. ABŞ dollarının xərclənməsi planlaşdırılıb.

DB-nin kreditinin 1,7 mln. ABŞ dolları 846 min nüsxə «Uşaq ensiklopediyası» nəşr edilmiş və 2005-ci ildə ölkənin bütün məktəblərində paylanılmışdır.

2003-cü ilin avqust ayında Səudiyyə Inkişaf Fondu Azərbaycanda, Bakı şəhərində 5 min 948 yerlik beş müasir ümumtəhsil məktəbinin tikintisi üçün 9,75 mln. ABŞ dolları kredit ayırmışdır. Fond bu krediti 20 il müddətinə, illik 2 %-lə vermişdir.

Mütəxəssislərin fikrincə, beynəlxalq maliyyə qurumlarının təhsil sisteminə ayırdığı kreditlər Azərbaycan üçün ona görə sərfəlidir ki, ayrılan vəsait təhsil sisteminin inkişafına yardım edən mühüm vəzifələri vaxtında həll etməyə, həm də krediti uzun illərdən sonra qaytarmağa imkan verir.

Təhsil Nazirliyinin mütəxəssislərinin hesablamalarına görə Azərbaycanın təhsil sistemində islahatların aparılması üçün 250 mln. dollar vəsait tələb olunur. Bunun üçünsə beynəlxalq maliyə qurumlarının kreditdləri mühüm əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, təhsil daim islahat tələb edən sahədir. Təhsil ölkənin gələcəyi, inkişaf perspektivlərini müəyyən edən ən başlıca amildir. Dövlət büdcəsindən bu sahəyə vəsaitin qoyuluşu ilbəil artaraq 1,1 milyard manata çatmışdır. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili,

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmizdə təhsilin inkişafına böyük qayğı göstərir. Respublikamızda 1400 yeni məktəb tikilmiş, kompüterləşdirilmiş, 2008-**c**i ildə isə birin**c**i sinfə gedən bütün şagirdlərə pulsuz dərs vəsaitləri təqdim olunmuşdur. 2005-2008-**c**i illər ü**c**ün Dövlət Proqramına (Elektron Azərbay**c**an) uyğun olaraq «Elektron hökumət»in, «Elektron məktəbin»in və bilik İqtisadiyatının formalaşması prosesləri inkişaf etdirilir və genişləndirilir.

BIA Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hazırladığı, ümumi dəyəri 24,5 mln. ABŞ dolları olan «Təxirəsalınmaz ekoloji investisiyalar layihəsi»nin maliyyələşdirilməsi üçün 20 mln. ABŞ dolları dəyərində kredit ayırmışdır.

Layihə çərçivəsində aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur:

- Neftçalada yeni balıqyetişdirmə zavodunun inşası hesabına körpə nərələrin çoxaldılması işinin bərpası – 9,1 mln. ABŞ dolları;
- Hədsiz çirklənmiş bir ərazinin zərərsizləşdirilməsi hesabına **c**ivə təmizləmə texnologiyası və metodikasının nümayişi, Sumqayıtda radiaktiv tullantıların basdırılması üçün poliqonun tikilməsi – 8,0 mln. ABŞ dolları;
- Abşeron yarımadasında bir sahilyanı neft yatağında çirklənmənin mövc**u**d səviyyəsinin aşağı salınması – 5,1 mln. ABŞ dolları;
- Ekoloji idarəetmənin hüquqi və nizamlayı**c**ı bazasının yenidən nəzərdən keçirilməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin potensialının inkişafı.

Neftçalanın Xıllı qəsəbəsində yerləşən, sözügedən zavod layihə çərçivəsində müasir texnologiya ilə tə**c**hiz edilmiş və 2003-**c**ü ilin oktyabr ayında işə salınmışdır. Bu zavodda ildə 15 mln. körpə nərə balığı yetişdirilməsi gü**c**ü təmin olunmuşdur. 2004-**c**ü ildə bu zavodda nərəkimilər **c**insindən 5,8 mln. körpə balıq yetişdirilib dənizə buraxılmışdır.

Layihə çərçivəsində Sumqayıt şəhərində fəaliyyət göstərən, «Azərkimya» Dövlət Şirkətinin tabeliyində olan Səthi Aktiv Maddələr Zavodunun **c**ivə ilə çirklənmiş ərazilərinin zəhərli tullantılardan təmizlənməsi həyata keçirilmiş, tullantıların basdırılması üçün 50 hektarlıq sahədə poliqon tikilmişdir.

Quruda neftlə çirklənmiş ərazilərin yeni pilot metodlarla təmizlənməsi və həmin metodların sınaqdan keçirilməsi üçün Abşeron yarımadasında fəaliyyət göstərən Tağıyev adına NQÇI-nin «Buzovna-Maştağa» yatağında 10 hektar ərazi pilot sahə kimi seçilmişdir. Bu tədbirin əsas məqsədi pilot təmizləmə metod və texnologiyalarının Azərbay**c**an üçün rentabelliyini, həm də ekoloji **c**əhətdən yararlılığını aşkarlamaqdır. Layihə çərçivəsində yaradılmış qurğu neftlə çirklənmiş torpaqların 95-97 faizini rekultivasiya etməyə imkan verir.

Layihənin reallaşdırılması zamanı DB-nin (BIA-nın) vəsaitinin əsas hissəsi aşağıdakı istiqamətlərə xər**c**lənmişdir:

- xari**c**i istehsalçılardan avadanlıqların alınması – 13,253 mln. ABŞ dolları;
- ə**c**nəbi mütəxəssislərə konsultasiya xidmətlərinin haqqının ödənilməsi – 572 min dollar.

Tədqiqatçılar Neftçalada Xıllı Balıq Zavodunun fəaliyyətə başlamasını, **c**ivə tullantılarının basdırılması üçün poliqonun inşasının başa çatmasını, ekoloji mene**c**ment sistemində institusional islahatların həyata keçirilməsini layihənin əsas müsbət nəti**c**əsi kimi qiymətləndirmişlər.

Göründüyü kimi, beynəlxalq maliyyə qurumlarının infrastrukturla, ekologiya ilə, sosial sahə ilə bağlı yalnız bir hissəsini təqdim etdiyimiz layihələri bu sahələrin inkişafında, onların problemlərinin həllində əhəmiyyətli rol oynamışdır.

Qeyd etmək lazımdır ki, keçid İqtisadiyyatı şəraitində təbii ki, hər bir ölkə üçün beynəlxalq maliyyə qurumları ilə, elə**c**ə də digər kreditorlarla əməkdaşlığın yarada bilə**c**əyi başlı**c**a problem xari**c**i bor**c**un artması və onun milli İqtisadiyyat üçün ağır yükə çevrilməsidir. Buna görə də bu mövzuda tədqiqat işi yerinə yetirilərkən xari**c**i bor**c**lanma məsələsinə diqqət yetirilməsi va**c**ibdir.

Ümumiyyətlə, xari**c**i bor**c**lanmada dövlətin iştirakı əsasən iki formada olur. Birin**c**i variantda dövlət kredit vəsaitinin alı**c**ısı kimi bilavasitə çıxış edir. Ikin**c**i halda isə dövlət bor**c** vəsaitinin alınması üçün yalnız zəmanətçi rolunu oynayır. Bu baxımdan Azərbay**c**anın beynəlxalq maliyyə qurumları və digər maliyyə təsisatları ilə münasibətdə yaranmış xari**c**i dövlət bor**c**unu iki qrupa ayırmaq olar: birin**c**isi, bilavasitə hökumətin aldığı kreditlər, ikin**c**isi isə hökumətin zəmanəti ilə müxtəlif təşkilatlar tərəfindən alınan kreditlər.

Adətən beynəlxalq maliyyə qurumları tərəfindən hökumətin (dövlətin tim-salında) bilavasitə aldığı kreditlər əsasən aşağıdakı istiqamətlərə xər**c**lənir:

- büd**c**ə kəsirinin maliyyələşdirilməsi;
- vaxtı keçmiş dövlət bor**c**larının ödənişi;
- tədiyə balansında tarazlığın təmin edilməsi;
- İqtisadi subyektlərin kredit ehtiya**c**larının ödənilməsi və s.

Dövlət zəmanət verdiyi kredit üzrə əməliyyatda üçün**c**ü tərəf kimi iştirak edir. Bu zaman dövlət ilə kreditor arasında zəmanət sazişi bağlanır. Bir qayda olaraq dövlət zəmanəti ölkənin İqtisadi inkişafı baxımından strateci hesab edilən sahələrdə fəaliyyət göstərən müəssisələrin aldığı kreditlərə verilir.

Beynəlxalq maliyyə qurumundan alınmış kreditlərə verilən dövlət zəmanəti əsasən aşağıdakı şərtlər əsasında təqdim olunur:

- maliyyə orqanı ilə təsərrüfat subyektinin hesablaşma və ya depozit hesablarından vəsaitləri çıxarmaq hüququ verən qarşılıqlı müqavilənin bağlanılması;
- subyektlər arasında girov müqaviləsinin bağlanılması;
- müvafiq i**c**ra hakimiyyəti orqanlarına təsərrüfat subyektinin bank hesab-larına şərtsiz nəzarət etmək hüququnu verən razılaşmanın həyata keçirilməsi;
- təsərrüfat subyektinin onun maliyyə vəziyyətinin qiymətləndirilməsi məqsədilə tələb olunan bütün məlumatları təqdim etməsi.

Son illər Azərbay**c**anda dövlət zəmanəti ilə alınmış kreditlərdə sahə və isti-qamətlərin xüsusi çəkisinə görə ardı**c**ıllığı belə olmuşdur: I – İqtisadi

islahatların və struktur dəyişikliklərinin maliyyələşdirilməsi, II – yanacaq-enerci sektorunda yenidənqurma işlərinin həyata keçirilməsi, III – nəqliyyat xidmətinin keyfiyyətinin yüksəldilməsi, IV – sair işlərin maliyyələşdirilməsi, V – irriqasiya drenac işlərinin görülməsi, VI – kimya sənayesi sahəsində rekonstruksiya, VII – kənd təsərrüfatı və aqrar sənaye sahəsi və s.

Tədqiqatçıların fikrincə, Azərbaycanın xarici borcunun makroİqtisadi xarakteristikası onu deməyə imkan verir ki, bu borcun dövlət büdcəsi və qızıl-valyuta ehtiyatı üçün yük səviyyəsi beynəlxalq standartların məqbul hesab etdiyi həddədir. Həmçinin bu borcun parametrləri MDB ölkələrinin, Şərqi-Avropa ölkələrinin göstəriciləri ilə müqayisədə daha yaxşıdır.

Azərbaycanın xarici borcu barədə aşağıdakıları qeyd etmək olar:

- bu günə qədər Azərbaycanın beynəlxalq maliyyə qurumlarından, eləcə də digər kreditorlardan aldığı kreditlərin ümumi həsmi 1,6 mlrd. dollardan çoxdur;

- xarici borcun 30 %-ə qədəri İqtisadi islahatların həyata keçirilməsinə, 70 %-ə qədəri isə investisiya layihələrinin reallaşdırılmasına sərf edilmişdir;

- istifadə olunmuş xarici kreditlərin 47 %-dən çoxu yanacaq-energetika kompleksinin, 8 %-i kənd təsərrüfatı və meliorasiyanın, 12 %-i nəqliyyat sektorunun payına düşmüşdür;

- kreditlərin valyuta strukturunda ABŞ dollarının payı 20 %-dir, qalan hissəni isə SDR və Avropa dövlətlərinin valyutaları təşkil edir;

- dövlət zəmanətilə cəlb edilmiş kreditlərin böyük hissəsi uzunmüddətlidir – 35 ildən 40 ilə qədər;

- beynəlxalq maliyyə qurumlarının kreditləri 1 mlrd. dollara yaxındır və onlar illik 1,75-1,5 %-lə verilmişdir;

- kreditlərin qaytarılması məqsədilə 2006-cı ilin dövlət büdcəsindən 201,4 mlrd. manat vəsait ödənilmişdir, bu 2005-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 6 dəfədən də çox olmuşdur və s.

Qeyd etmək lazımdır ki, 1993-2005-ci illər ərzində respublikamızın xarici borcu dinamik şəkildə artmışdır. Beynəlxalq standartlara görə xarici borcun ÜDM-ə nisbətən 40-60 % təşkil etməsi normal qəbul edilir. Ancaq diqqət yetirsək görərik ki, Azərbaycanda bu göstərici 2000-ci ildə maksimum həddə olmuş və 23,7 % təşkil etmişdir.

Ancaq borcun ixracla müqayisəsi vəziyyətin qənaətbəxş olmadığını göstərir. 2004-cü ildə bu göstərici ixracın 80 %-dən çoxdur. Bu da ixracın artım tempinin arzuolunan şəkildə olmaması ilə bağlıdır.

Diqqət yetirsək görərik ki, xarici borcların sürətli artım tempi 1995-1999-cu illərdə müşhidə edilmişdir. Bu 5 il ərzində xarici borc 14 dəfədən çox artmışdır. 1993-2004-cü illərdə isə belə artım 26,7 dəfə olmuşdur.

Şübhəsiz ki, ölkənin borclanması özündə bir riski təcəssüm etdirir. Bu riskin səviyyəsini isə bir sıra amillər xarakterizə edir. Bu amillərə əsasən aşağıdakı məsələləri aid etmək olar:

- ***Bazar münasibətlərinə keçidlə bağlı struktur dəyişikliklərinin başa çatdırılmaması;*** Azərbaycan Hökumətinin əsasən 1995-ci ildən başlayan

struktur islahatları hələ də davam edir və qarşıda daha böyük vəzifələr durur. Əsas problem də ondan ibarətdir ki, hələ də İqtisadiyyatda dövlətin inhisarçılığı qalmaqdadır. Iri müəssisələrin dövlətin inhisarında olması isə onların rentabelliyinin yüksəldilməsini, rəqabət qabiliyyətinin artırılmasını əngəlləyir. Kreditlərin də böyük bir hissəsi bu müəssisələrin payına düşür.

- ***Qeyri-neft sektorunun rəqabət qabiliyyətinin zəifliyi;*** Beynəlxalq təcrübəyə əsasən borclu ölkədə bazardakı payını müstəqil genişləndirməyə qabil, tez artan, dəyişilən və rəqabət qabiliyyətli ticarət sektorunun mövcudluğu müsbət hal sayılır. Azərbaycanda isə vəziyyət fərqlidir. İqtisadiyyat daha çox neft sənayesi ilə bağlıdır, qeyri-neft sektoru zəif inkişafı ilə diqqəti çəkir. Yəni xammal hasilatı və ixracatı sürətlə inkişaf etsə də, emal sənayesində vəziyyət fərqlidir. Belə ki, ölkədə sənaye istehsalının 50 %-ə qədəri, dövlət büdcəsi gəlirlərinin 40 %-ə qədəri, ixracatın isə 80 %-indən çoxu məhz neft sənayesinin payına düşür. Emal sənayesi məhsullarının isə böyük əksəri rəqabət qabiliyyətli deyil. Dövlətin bu sektordakı subsidiyaları aradan qaldırıldıqca məhsulların rəqabət qabiliyyəti daha da aşağı düşür.

- ***Əhali gəlirlərinin səviyyəsinin aşağı olması;*** Statistik göstəricilərə görə Azərbaycan əhalisinin 15 %-dən çoxu yoxsulluq vəziyyətində yaşayır. Bu da əhalinin ödəniş qabiliyyətinin zəifliyini şərtləndirir ki, nəticədə qeyri-neft sektorunda istehsal və xidmətlərin inkişafına problem yaradır. Təbii ki, bu da borclanma üçün risk hallarından biri hesab edilə bilər.

- ***İqtisadi artım tempi və onun xarakteri***; Azərbaycan İqtisadiyyatında yüksək artım tempi müşahidə edilsə də, bu bilavasitə neftin dünya bazarındakı qiymətinin artımı ilə bağlıdır. Hələ də İqtisadi artımda başqa mənbələrin rolu diqqəti cəlb etmir.

- ***Xammalın dünya bazar qiymətlərinin dəyişkən olması;*** Əvvəldə qeyd edildiyi kimi Azərbaycanın əsas ixrac məhsulu xam neftdir. Xam neftin dünya bazarındakı qiyməti isə idarəolunmazdır, proqnozlaşdırılmayan şəkildə dəyişilir. Yəni perspektiv imkanları xam neftin yüksək qiyməti ilə hesablayıb borclanmaq əhəmiyyətli risk hesab olunur.

Azərbaycanın xarici borcunun artmasının risk amillərinin sırasını daha da genişləndirmək olar.

Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqdan danışarkın ilk növbədə bu əməkdaşlığı və maliyyə-İqtisadi əlaqələri tənzimləyəcək hüquqi baza, mövcud normativ aktlar diqqət mərkəzinə çəkilməlidir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığının əsas problemləri aşağıdakılardan ibarətdir:

- Kredit alan müəssisə və təşkilatlar kredit təşkilatları və banklardan borc alarkən bu borcu qaytaracaqları barədə Azərbaycan Hökumətinin zəmanətini alırlar. Bu təşkilatlara konkret olaraq Dövlət Neft Şirkəti, «Azəriqaz» QSC, «Azərenerci» ASC, «Azərsu» SC, Təhsil Nazirliyi kimi qurumları misal göstərə bilərik. Hökumət zəmanət verdiyi kreditin büdcə vəsaitindən

qaytarılacağına təminat verir ki, bu da həmin qurumlarda arxayınlıq yaradaraq kreditin səmərəli istifadəsinə və qaytarılmasına marağı azaldır.

- Beynəlxalq maliyyə institutları müəssisə və təşkilatlara kreditləri hökumətdən zəmanət aldıqdan sonra, yəni bu kreditin dövlət büdcəsi hesabına ödəniləcəyinə təminat aldıqdan sonra verirlər. Bu da bu maliyyə qurumlarının kredit layihələrinin səmərəli icra edilməsinə nəzarət etmələrini stimullaşdırmır. Maliyyə təşkilatları borc alan qurumun yox, dövlətin borcu qaytara bilmə qabiliyyətini qiymətləndirir.

Beynəlxalq maliyyə qurumlarından alınan kreditlərin səmərəli istifadəsi və onların yönəldildiyi sahələrin problemlərinin effektli şəkildə həlli üçün perspektivdə aşağıda göstərilən istiqamətlərin nəzərə alınması vacib və zəruridir:

- Qeyri-neft sektorunun prioritet sahələrində bazar İqtisadiyyatı atributlarının gücləndirilməsi və beynəlxalq maliyyə qurumlarının investisiya resurslarından bu sahələrdə istifadəyə üstünlük vermək;

- Beynəlxalq maliyyə institutlarının kreditlərinindən ölkənin ixrac potensialının artırılmasında, bu sahədə innovasiya tədbirlərinin görülməsində, beynəlxalq mütərəqqi təcrübənin ölkəyə idxalında mühüm rol oynayacaq layihələrdə istifadəsi;

- Strateci layihələrə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitləri ilə beynəlxalq maliyyə institutlarının resurslarının birgə cəlb edilməsi;

- Azərbaycanın ÜTT-yə üzv olma prosesinin sürətləndirilməsi məqsədilə, bu istiqamətdə görülən tədbirlərin intensivləşdirilməsi;

- Kənd təsərrufatının inkişafı məqsədilə aqrolizinq xidmətinin təkmilləşdirilməsi üçün beynəlxalq maliyyədən istifadə məsələlərinə baxılması;

- Beynəlxalq maliyyə qurumlarının təhsil sektoruna daha böyük diqqət yetirdiklərini nəzərə alaraq bu institutların investisiyalarının daha çox İqtisadiyyatın peşəkar kadrlara olan ehtiyacının ödənilməsi üçün təhsil və təkmilləşdirmə proqramlarına yönəltmək. Nəzərə alınmalıdır ki, bu sektora yönəldilən investisiyaların səmərəliliyi artıq beynəlxalq təcrübədə sübuta yetirilmişdir;

- Dövlət Neft Fondunun vəsaitləri hesabına reallaşdırılan strateci infrastruktur və digər layihələrin reallaşdırılmasında beynəlxalq maliyyə institutlarının konsultasiya xidmətlərindən istifadə etmək, bu qurumların ekspertlərinin layihələrdə iştirakına şərait yaratmaq;

- Beynəlxalq maliyyə qurumlarının dövlət sektoruna ayrılan kreditlərindən səmərəli istifadə etmək üçün beynəlxalq tenderin keçirilməsi və müsətqil operatorun seçilməsi və layihələrin icrasında ictimai nəzarətin təşkili;

- Kreditlərin gələcəkdə konkret olaraq sərf edilmiş layihə hesabına ödənilməsini təmin etmək;

- Beynəlxalq maliyyə qurumlarının investisiyalarından istifadə ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi və s.

Qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq maliyyə qurumlarının vəsaitləri hesabına strateci infrastruktur layihələrini (dəmir yolları, su kəmərləri, limanlar və s.) həyata keçirməsi faydalı ola bilər. Belə ki, son illərin təcrübəsi göstərir ki, belə layihələrin dəyəri sürətlə bahalaşır. Bir sözlə, təxminən beş il öncə 100-150 milyon dollara reallaşdırıla bilən bir infrastruktur layihəsi bu gün 250-300 milyon dollara başa gəlir. Proqnozlar göstərir ki, növbəti beş ildən sonra bu məbləğ iki dəfə də yüksələ bilər.

VIII FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİK VƏ ONUN TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

Biz İqtisadi cəhətdən təmin olunmuş ölkəyik. Özümüzü əksər kənd təsərrüfatı məhsulları ilə, demək olar ki, yüz faiz təmin edə bilirik. Beləliklə, biz ərzaq təhlükəsizliyi, ener;i təhlükəsizliyi və hər bir ölkə üçün son dərəcə vacib olan nəqliyyat təhlükəsizliyi baxımından yaxşı vəziyyətdəyik. Biz güclü ölkə olmaq üçün bütün bu illər çalışdığımız kimi, hələ çox iş görməliyik.

İlham Əliyev

8.1. Yeni İqtisadi şəraitdə İqtisadi təhlükəsizlik sisteminin formalaşması xüsusiyyətləri

Dünya ölkələrinin təcrübəsi göstərir ki, müasir dünyada qloballaşan İqtisadiyyatın sərt tələblərinə cavab verə bilən milli İqtisadiyyatın formalaşması xeyli dərəcədə ölkənin sosial – İqtisadi inkişaf göstəricilərinin optimal səviyyəsinin təmin edilməsindən asılıdır. Məhz bu mənada Azərbaycanın milli-İqtisadi təhlükəsizlik sisteminin formalaşdırılmasında ölkənin sosial-İqtisadi inkişaf göstəricilərinin, İqtisadi təhlükəsizliyin beynəlxalq təcrübədə sınaqdan çıxmış müvafiq astana kəmiyyətləri ilə müqayisə olunması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə əvvəlcə, respublikamızda İqtisadi təhlükəsizliyin təmin olunmasının müasir vəziyyəti təhlil edilməli və onların indikatorları qiymətləndirilməlidir.

İqtisadi təhlükəsizlik indikatorlarına aiddir:

1). ölkə İqtisadiyyatının sabit artım qabliyyətini xarakterizə edən indikatorlar;

2). bütün maliyyələşmə mənbələri hesabına əsas kapitala investisiyaların həcmini xarakterizə edən indikatorlar;

3). maliyyə – bank sisteminin təhlükəsizlik indikatorları;

4). sosial sferanın təhlükəsizliyini xarakterizə edən indikatorlar;

5). ölkənin xarici ticarət strukturunun səmərələşdirilməsini ifadə edən indikatorlar.

Son illər Azərbaycan İqtisadiyyatında müsbət meyllər daha da güclənmiş və İqtisadi artım tempi ən yüksək həddə çatmışdır. Nəticədə makroİqtisadi sabitlik daha da möhkəmlənmiş, yüksək sosial – İqtisadi artıma nail olunmuşdur.

Belə ki, 2003-2008-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 4,2 dəfə artaraq 7,2 milyard manatdan 30,4 milyard manata çatmışdır.

Ölkə İqtisadiyyatında struktur islahatlarının aparılması, özəlləşdirmə və torpaq – aqrar islahatlarının uğurla reallaşması, İqtisadiyyatın tarazlı inkişafı üçün qeyri – neft sektorunun inkişafı nəticə etibarilə ölkənin müstəqil İqtisadi dayaqlarının daha da möhkəmlənməsinə gətirib çıxarmışdır. Dayanıqlı İqtisadi artımın təmin edilməsində həlledici rol oynayan mühüm daxili amil kimi ölkədə sahibkarlıq fəaliyyəti daha da canlanmış və dövlətin sahibkarlıq fəaliyyətinə hərtərəfli dəstəyi xeyli güclənmişdir. Bütün bunların nəticəsində bazar münasibətlərinin əsas daşıyıcısı olan özəl sektorun ÜDM-də payı əhəmiyyətli dərəcədə artaraq 85,0 faiz təşkil etmiş, qeyri-neft sektorunun resurs potensialının səmərəli reallaşması üçün münbit institusional zəmin yaranmış, bu sahədə investisiya mühiti xeyli yaxşılaşmışdır.

Respublikada biznes və sahibkarlıq fəaliyyətinin eləcə də məhsul istehsalı həcminin genişlənməsində daxili tələbin artması da mühüm rol oynamışdır. Eyni zamanda bütün komponentlər üzrə daxili tələbin artımı da öz növbəsində İqtisadiyyatın bütün sahələrində İqtisadi fəallığın canlanmasına şərait yaratmışdır.

Milli İqtisadiyyatın yüksək artım tempinin saxlanmasında daxili amillərdən əlavə, keçən illərə nisbətən dünya İqtisadiyyatının canlanması, ölkə İqtisadiyyatının sabit inkişafı üçün xarici İqtisadi şərtlərin, xüsusilə də neftin dünya qiymətlərinin əlverişli olması mühüm əhəmiyyət kəsb etmişdir.

Ölkədə aparılan məqsədyönlü və balanslaşdırılmış makroİqtisadiyyat, yəni məcmu tələblə məcmu təklifin tarazlaşması və stimullaşdırılması siyasəti nəticəsində ÜDM-in həcmi 2006-ci ildə 1995-ci ilə nisbətən 8,5 dəfə, 2000-ci ilə nisbətən 3,8 dəfə, 2002-ci ilə nisbətən, 3,0 dəfə, 2005-ci ilə nisbətən isə 44,0% artmışdır. Onu da qeyd edək ki, 2006-ci ildə istehsal olunmuş ÜDM-in həcmi 18,04 mlrd. manat (12,6 mlrd. ABŞ dolları) təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 5,5 mlrd. manat çoxdur. Adambaşına düşən ÜDM – in həcmi isə 2006-ci ildə 2413,7 ABŞ dolları təşkil etməklə 2002-ci illə müqayisədə 33,1 dəfə, 2005-ci ilə görə isə 50,8% yüksək olmuşdur.

Adambaşına düşən ümumi daxili məhsul istehsalının həcmi beş il əvvəl 888 manat olduğu hala, 2008-ci ildə 3554 manat təşkil etmişdir. Bu dövrdə dövlət büdcəsi 10 dəfədən çox artmışdır.

Lakin 1995-2008-ci illərdə ölkə İqtisadiyyatının sabit artım qabliyyəti üzrə faktiki indikatorların İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətləri ilə müqayisəsi göstərir ki, Azərbaycan üzrə ÜDM-in həcmi orta dünya səviyyəsinin yalnız 64,6%-nə, əhalinin hər nəfərinə görə astana kəmiyyətinin isə 71,1%-nə bərabərdir.

Son illər ölkədə istehlak tələbinin artması istehlak bazarının daha da canlanmasını şərtləndirmişdir. Belə ki, 2006-cı ildə 1995-ci ilə nisbətən pərakəndə əmtəə dövriyyəsinin həcmi 5,4 dəfə, 2000-ci ilə nisbətən 2,7 dəfə,

2002-ci ilə nisbətən 2,1 dəfə artmışdır. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi üzrə həmin göstəricilər müvafiq olaraq 8,4 dəfə, 2,9 dəfə və 2,6 dəfə təşkil etmişdir. Lakin bununla belə, isətər pərakəndə əmtəə dövriyyəsi həcminin, istərsə də əhaliyə göstərilən pullu xidmətlərin həcminin ÜDM-də xüsusi çəkisi təhlil olunan dövrdə nisbi də olsa, azalmağa doğru meyllidirlər.

Qeyd etmək lazımdır ki, ÜDM-in artımı məhsul istehsalının demək olar ki, bütün sahələr üzrə genişlənməsi hesabına təmin olunmuşdur ki, bu da İqtisadiyyatın sahəvi diversifikasiyası prosesini daha da sürətləndirmişdir.

Aparılan hesablamalar göstərir ki, 1997-ci ildən başlayaraq sənaye məhsullarının artım tempinin təmin olunmasına baxmayaraq, onun ÜDM-də xüsusi çəkisi 2002-ci ilə kimi xeyli azalmışdır. Yalnız 2003-cü ildən etibarən bu vəziyyət dəyişilmiş, sənaye məhsulunun həcmi artaraq, onun ÜDM-də xüsusi çəkisi də yüksəlmişdir. Belə ki, 2006-cı ildə 1995-ci illə müqayisədə sənaye məhsulunun həcmi 8,8 dəfə, 2000-ci ilə nisbətən isə 4,3 dəfə, 2002-ci ilə nisbətən 3,9 dəfə artmasına baxmayaraq ümumi sənaye məhsulunun ÜDM-də payı müvafiq olaraq 2000-ci ildə 83,9%-dən 77,1%-ə enmiş, 2006-cı ildə isə yenidən xeyli qalxaraq 86,0%-ə bərabər olmuşdur. Bununla yanaşı ümumi sənaye məhsulunda hasilat sənayesi, xüsusilə də yanacaq – energetika sənayesi önəmli yer tutmaqla davam edir. Belə ki, hazırda ümumi sənaye məhsulunun 60 faizdən çoxu yanacaq–energetika kompleksində istehsal olunur. Nəticədə emal sənayesi ümumi sənaye məhsulunun həcmində yalnız 27,7%-lə təmsil olunur ki, bu da İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətinin səviyyəsindən (70%) xeyli aşağıdadır. Eyni zamanda maşınqayırma və metal emalı sənayesinin ümumi sənaye məhsulunda xüsusi çəkisi 2006-cı ildə 1995-ci illə və 2000-ci illə müqayisədə müvafiq olaraq 1,5% və 7% faiz səviyyəsində artmasına baxmayaraq bu göstəriciyə görə respublikamız İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən 19,4 faiz bəndi geri qalır.

AR DSK-nın məlumatlarına görə, kənd təsərrüfatı məhsullarının həcmi 2006-cı ildə 1995-ci ilə nisbətən 2,7 dəfə, 2000-ci ilə nisbətən 1,8 dəfə, 2002-ci ilə nisbətən isə 49,8% artmasına baxmayaraq, bu məhsulların ÜDM-də xüsusi çəkisi getdikcə azalmaqda davam edir. Belə ki, əgər bu göstərici 1995-ci ildə 33,4%, 2000-ci ildə 22,5% təşkil edirdisə, 2002-ci ildə 21%-ə enmiş, 2005-ci ildə daha da azalaraq 13,8%-i, 2006-cı ildə isə 10,6%-ə düşmüşdür.

Onu da qeyd edək ki, ÜDM-də sənayenin payının artması və kənd təsərrüfatının xüsusi çəkisinin aşağı düşməsi ilə eyni vaxtda, tikinti, xidmət, nəqliyyat və rabitənin ÜDM-də payları artmağa doğru meyl etmişdir. Son illər tikinti sahəsində baş verən yüksək artım onun ÜDM-in strukturunda payının 2002-ci ildə 8,7%-dən 2005-ci ildə 12,1%-ə yüksəlməsinə gətirib çıxarmışdır. Bundan başqa, ÜDM-in artımında əhəmiyyətli iştirak payı olan nəqliyyat sektorunda təhlil olunan dövrdə orta artım tempi 10-15 faiz civarında olmuşdur. Nəqliyyat sektorunda baş verən artımda 1996-cı ildən başlayaraq ölkədən keçən tranzit yük daşımalarının getdikcə intensivləşməsinin əhəmiyyəti yüksəlməkdədir.

AR DSK-nın məlumatlarına görə, 1995-2006-cı illərdə əsas kapitala yönəldilmiş investisiyanın orta illik həcmi 2,0 milyard manat olmuşsa, 1995-ci ildə 228,0 milyon manat, 2000-ci ildə 967,8 milyon manat, 2002-ci ildə 2,1 milyard manat, 2005-ci ildə 5,8 milyard manat, 2006-cı ildə isə 6,2 mlrd. manat olmuşdur (16., s. 570). 2006-cı ildə əsas kapitala yönəldilmiş investisiya 1995-ci ilə nisbətən 27,3 dəfə, 2000-ci ilə nisbətən 6,1 dəfə, 2002-ci ilə nisbətən 3 dəfəyə yaxın çox olmuşdur ki, bu da təxminən 6 mlrd. ABŞ dollarından çoxdur. Nəticədə əsas kapitala investisiyaların ÜDM-də payı 1995-ci ildə 10,7%, 2000-ci ildə 20,5%, 2002-ci ildə 35,6%, 2005-ci ildə 46,0%, 2006-cı ildə isə 34,6% təşkil etmişdir. Bu göstəriciyə görə respublikamız İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (25%) 9,6 faiz bəndi yuxarıdır.

Qeyd etmək lazımdır ki, ölkədə istehsal sferasının inkişafına təhlil olunan dövrdə daha çox investisiya (60-90%) sərf edilməklə yeni istehsal güclərinin işə salınması təmin edilmişdir. Bazar İqtisadiyyatına keçid dövründə xarici investorlar üçün yaradılmış əlverişli investisiya iqlimi onların ölkəmizdə İqtisadiyyatın inkişafına daha çox investisiya yönəltmələri ilə nəticələnmişdir. Belə ki, 1995-2006-cı illərdə əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcminin 21,5 milyard manatını (67,6%) xarici investisiya təşkil edir. Nəticədə investisiyanın ümumi həcmində xarici investisiyanın payı 1995-ci ildəki 34,5%-dən 2000-ci ildə 52,4%-ə, 2002-ci ildə 74,1%-ə və 2005-ci ildə 63,5%-ə, 2006-cı ildə isə 53,5%-ə çatmışdır.

Təhlil göstərir ki, son illər ölkədə həyata keçirilən İqtisadi islahatlar maliyyə - bank sistemində də sabitliyin təmin olunmasında və eləcə də dövlətin maliyyə sisteminin əsas elementlərindən biri olan dövlət büdcəsinin gəlir və xərclərinin artımına öz əhəmiyyətli təsirini göstərmişdir. Belə ki, 2006-cı ildə büdcənin gəlirləri 1995-ci illə müqayisədə 12,2 dəfə, 2000-ci ilə nisbətən 5,4 dəfə, 2002-ci ilə nisbətən 4,3 dəfə artmışdır. Nəticədə dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 1995-ci ildəki 14,9%-dən 2006-cı ildə 21,4%-ə çıxmışdır. 2006-cı ildə büdcə xərcləri 1995-ci ilə nisbətən 3,8 dəfə artaraq ÜDM-in 18,0%-ni təşkil etmişdir. Onu da qeyd edək ki, sosial müdafiə və sosial təminat xərcləri 2006-cı ildə 1995-ci ilə nisbətən 9,4 dəfə, 2000-ci ilə nisbətən 2,5 dəfə, 2002-ci ilə nisbətən isə 1,8 dəfə artmışdır. 2008-ci ildə bütövlükdə büdcə xərclərinin 11,3%-i əhalinin sosial müdafiəsinə və sosial təminatına sərf edilməsi nəzərdə tutulur. Ölkədə İqtisadi təhlükəsizlik sisteminin formalaşması nöqteyi-nəzərindən büdcə xərclərinin 3.3%-ə qədərinin (1246,9 milyon manat) ölkə İqtisadiyyatının inkişaf etdirilməsinə yönəldilməsi tqdirəlayiq hal kimi qədul edilməlidir.

AR Nazirlər Kabinetinin məlumatlarına görə 2005-ci ildə dövlət büdcəsinin kəsiri 85,5 milyon manat olmuşdur ki, bu da ÜDM-in 0,7%-ni təşkil etmişdir ki, bu da proqnoza nisbətən 0,6 faiz bəndi azdır. İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətlərinin 5% olduğunu nəzərə alsaq, müvafiq göstəricinin qənaətbəxş səviyyədə olduğu fikrinə gələrik.

1995-2005-ci illlərdə Azərbaycanın maliyyə-bank sistemi üzrə təhlükəsizlik indikatorunun təhlili göstərir ki, ölkədə qeydiyyatdan keçmiş nizamnamə kapitalının orta kəmiyyəti getdikcə böyüməkdədir (cədvəl 2. 3). Belə ki, 2005-ci ildə bu kəmiyyət 1995-ci illə müqayisədə 19,6 dəfə, 2000-ci ilə nisbətən 3,0 dəfə, 2002-ci ilə nisbətən isə 2,2% artaraq, 29,5 milyard manata çatmışdır.

Qeyd etmək lazımdır ki, əgər ölkənin mərkəzi bankında cəmləşən ehtiyatları nəzərə almış olsaq, onda Azərbaycan Respublikasının valyuta ehtiyatları 2005-ci il ərzində 29,8 faiz artaraq 2006-cı il 1 yanvar tarixinə 2 mlrd. 394 mln. dollara çatmışdır. Bundan başqa, 2006-cı ilin əvvəlinə respublikanın xarici borcunun həcmi 1 mrld. 650 mln. dollar olmuşdur ki, bu da ÜDM-in həcminin 12,8 faizidir. Onu da qeyd edək ki, 2003 və 2004-cü illərdə bu göstərici müvafiq olaraq 22 faiz və 18,6 faiz təşkil etmişdir.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, ölkənin valyuta ehtiyatlarının həcmi xarici borcu 744 mln dollar və ya 45 faiz(2004-cü ildə 16,2 faiz) üstələyir ki, bu da Azərbaycanın İqtisadi təhlükəsizliyinin get-gedə möhkəmlənməsini göstərir.

2006-cı ildə əhalinin pul gəlirləri 1995-ci illə müqayisədə 7,4 dəfə, 2000-ci illə müqayisədə 2,5 dəfə, 2002-ci ilə nisbətən isə 2,9 dəfə artmış və nəticədə əhalinin adambaşına düşən pul gəlirləri 2006-cı ildə 1189,5 mln. manata çatmışdır. Hesablamalara görə, əhalinin sərəncamında qalan pul gəlirləri 9,95 mlrd. manat təşkil edir ki, bu da 2002-ci ilə nisbətən 2,0 dəfə çoxdur. 2003-cü ildə əhalinin pul xərcləri 8006,7 milyon manat təşkil etmişdir ki, bu da 1995-ci ildəki səviyyədən 6,3 dəfə, 2000- ci ildən 2,5 dəfə, 2002-ci ildən isə 1,9 dəfə çoxdur. Təhlil göstərir ki, son illər əhalinin xərclərində əsas yeri mal və xidmətlərin və xarici valyutanın alınması xərcləri tutur.

Bu dövrdə adambaşına pul kəmiyyəti yaşayış minimumu dəyərinin 30-70%-ni təşkil etdiyinə görə, pul gəlirləri yaşayış minimumundan aşağı olan əhalinin sayı təhlil olunan bazis illəri üzrə müvafiq surətdə ölkə əhalisinin ümumi sayında 61,5%; 49% və 29,3% deməkdir. Bununla yanaşı, əhalinin orta aylıq pensiya kəmiyyətinin yaşayış minimumuna nisbəti 1995-ci ildəki 7,1%-dən 2006-cı ildə 70%-ə qalxmışdır. Əhalinin gəlirlərinin formalaşmasında mühüm payı olan əmək haqının səviyyəsi də 1995-ci və 2000-ci illə müqayisədə 2006-cı ildə 11,9 dəfə və 3,4 dəfə artaraq 149,0 min manata bərabər olmuşdur.

Aparılan hesablamalar göstərir ki, ölkə əhalisinin orta ömür müddəti (71-72 il) İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (70 il) bir qədər çoxdur. İqtisadi cəhətdən aktiv əhalinin xüsusi çəkisi isə 46-47% civarındadır. Mədəniyyət xərclərinin və təhsil xərclərinin ÜDM-də xüsusi çəkiləri təhlil olunan dövrdə sabit (0,4 və 3-4%) qalsalar da, səhiyyə xərclərinin ÜDM-də payı 1995-ci ildəki 1,4%-dən 2000-ci ildə 0,9%-ə enmiş və 2006-cı ildə bu göstərici sabit qalmışdır.

Əgər biz yuxarıda qeyd edilənləri ümumiləşdirsək, onda ölkənin sosial

İqtisadi inkişafının əsas cöstəricilərinin İqtisadi təhlükəsizliyin astana kəmiyyətləri ilə müqayisəsini aşağıdakı cədvəldə olduğu kimi verə bilərik (cədvəl 1).

Cədvəlin məlumatlarından göründüyü kimi, respublikamızda taxıl yığımı 2006-cı ildə 1995-ci və 2000-ci illərlə müqayisədə müvafiq olaraq 2,3 və 1,4 dəfə armasına baxmayaraq, əldə olunan bu göstəriciyə görə ildə 2,1 mln. ton təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (ildə 4 mln.ton) hələ xeyli geri (47,5 faiz bəndi) qalırıq.

Beynəlxalq təcrübədə qəbul edilmişdir ki, ÜDM-də xarici borcların xüsusi çəkisi 30%-dən yuxarıdırsa, onda bu, həmin ölkə üçün təhlükəli sayılır. Bəzi İqtisadçılar xarici borclar üzrə kritik həddi 25%, bəziləri isə 40% qəbul edirlər. Belə ki, 40%-lik hədd inkişaf etmiş İqtisadiyyata malik ölkələr üçün özünü doğruldur.

Ölkəmizdə güclü İqtisadi potensiala malik olan Rusiya isə bu yaxınlara kimi xarici borclar üzrə İqtisadi təhlükəsizliyin astana kəmiyyətini 25% qəbul edirdi. Aydındır ki, keçən əsrin sonlarında maliyyə böhranı dövrünü yaşayan Rusiya üçün 25% həddi reallığa daha uyğun gəlirdi. Böhrandan çıxdıqdan və İqtisadi inkişaf dövrünə qədəm qoyduqdan sonra Rusiyanın görkəmli İqtisadçı alimləri 30% həddini xarici borclar üzrə kritik hədd kimi qəbul etdilər. Hazırda Rusiyada bu göstərici 60%-dən yuxarı olduğu halda, Azərbaycanda 11-13% səviyyəsindədir.

Qeyd etmək lazımdır ki, yaxın illərin fərqli xüsusiyyəti dünyanın maliyyə sferasında kəskin təhlükə fazalarının uzlaşması, hər şeydən əvvəl isə əsas kapitalın təkrar istehsalında neqativ meyllərin güclənməsi ilə əlaqədar xarici borc üzrə ödəmələrə görə maliyyə-bank sisteminin, ÜDM-in həddən artıq yüklənməsi sayılır. Bu isə həyat təminatla sahə və istehsallarının energetika, nəqliyyat, mənzil-kommunal təsərrüfatı fəaliyyətində nizamsızlıqlar yarada bilər.

Cədvəl 1.

1995-2006-cı illərdə Azərbaycan Respublikasının sosial İqtisadi inkişafının faktiki indikatorlanın İqtisadi təhlükəsizliyinin astana kəmiyyətləri ilə müqayisəsi

İqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin adları	İqtisadi təhlükəsizliyin asiana kəmiy-yətlərinin səviyyəsi	Respublika üzrə faktiki indikatorların səviyyəsi			
		1995	2000	2002	2006
1.Taxıl yığımı (min. tonla)	4000	921,4	1540,2	2195,9	2078,9
2.Büdcə kəsiri (ÜDM-ə nisbətən %-lə)	3	5,2	1,0	0,4	-
3.Inflyasiya səviyyəsi (%-lə)	125	511,8	101,8	102,8	108,3
4.Qızıl-valyuta resurslarının həcmi (mln. dollarla)	Müvafiq dövrün idxalının 25%-i	250	691,4	681,7	994
5.Dövlət borcu xidmətinə məsrəflərin payı (büdcə xərccərinin ümumi həcminə nisbətən %-lə)	20		1,1	1,1	1,2
6.Müdafiə xərcləri (ÜDM-ə%-lə)	3	1,9	1,6	9,4	13,5
7.Mülki elmə xərclərin ÜDM-də payı (%-lə)	1,5	0,2	0,2	0,2	0,8
8.Innovasiya məhsullarının payı (bütün sənaye məhsullarına %-lə)	15		0,03	1,0	1,0
9.Maşınqayırma və metal emalının sənaye istehsalında payı (%-lə)	25	4,7	3,7	3,9	6,7
10.Işsizlik səviyyəsi	5-8	0,8	1,2	1,3	1,4
11.Gəlirlərinin səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin payı (bütün əhaliyə görə %-lə)	7-10	61,5	49,0	46,7	29,3
12.Pulla təminatın səviyyəsi (ilin sonuna M2-nin ÜDM-ə %-lə nisbəti)	50	9,0	7,0	6,7	11,9
13.Xarici borc (ÜDM-ə %-lə)	30	12,2	25,6	24,8	12,8

Ən təhlükəli gözlənilməz hadisələrdən biri də manatın məzənnəsinin kəskin olaraq dəyişməsi ehtimalı sayılır. Manatın devalvasiyası kimi, onun revalvasiyası da son dərəcə həssas və dağıdıcı ola bilər. Bu və ya digər meylin dağıdıcı nəticələrə malik olması milli və xarici valyutalara əsasən pul sisteminin ikili xarakter daşıması ilə izah olunmalıdır. Bunların, aparıcı şirkətlərin balanslarında, əhalinin əmanətlərində xarici valyutanın payının yüksək olması üzündən manatın məzənnəsində kəskin tərəddüdlər pul və gəlirlər sistemini, maliyyə və bank sisteminin fəaliyyətini poza bilər. Odur ki, onların manatın məzənnəsinə mümkün təsirlərini qiymətləndirmək mövqeyindən xarici İqtisadi fəaliyyətin tənzimlənməsi üzrə tədbirlər sistemi işlənib hazırlanmalıdır. Bununla əlaqədar olaraq valyuta bazarında ixracdan valyuta gəlirlərinin satış normativinin 75%-dən 50%-ə endirməsi haqqında verilən hər hansı təklifin elmi cəhətdən heç bir məntiqi əsası yoxdur. Bu, valyuta təklifinin aşağı düşməsinə və manatın məzənnəsinin kəskin surətdə enməsinə gətirib çıxara bilər. Nəticədə istehlak qiymətlərinin sürətlə artması yeni artımın və əhalinin real gəlirlərinin xeyli aşağı düşməsi, əksər şirkət və bankların müflisləşməsi baş verə bilər.

8.2. Maliyyə-bank sisteminin təhlükəsizliyinin formalaşması məsələsi

Qeyd etmək lazımdır ki, İqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, əhalinin rifahının yaxşılaşdırılması və bütövlükdə yoxsulluq səviyyəsinin aşağı salınmasında maliyyə sektoru müstəsna rola malikdir. Məhz buna görə də ölkənin İqtisadi təhlükəsizlik sisteminin formalaşmasında maliyyə-bank sferasında təhlükəsizlik tədbirlərinin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə ölkənin valyuta-pul, vergi-büdcə və kredit sistemində mövcud olan daxili və xarici təhdidlərin qruplaşdırılmaqla müfəssəl təsnifatı və dərindən təhlili tələb olunur.

Beynəlxalq təcrübədə maliyyə-bank sferasında mövcud olan təhlükəsizlik təhdidləri ümumi şəkildə aşağıdakı kimi təsnifləşdirilir:

- siyasi cəhətdən qeyri-sabitlik;
- maliyyə sisteminin qeyri-sabitliyi;
- makroİqtisadi göstəricilərin (ÜDM-nin, istehsal həcmlərinin, gəlirlərin və s.) dinamikasında nizamsızlıq;
- fond bazarı infrastrukturunun zəif inkişafı;
- daxili və xarici borcun artımı;
- investisiya sferasının böhranı;
- büdcə-vergi sisteminin aşağı səmərəliliyi;
- əhalinin əmlak differensiasiyasının yüksək səviyyəsi;
- xarici-İqtisadi əlaqələrdə uyğunsuzluqlar;
- regional seperatizm;
- özəlləşdirmənin səhvləri.

Maliyyə-bank sferasında mövcud olan İqtisadi təhlükəsizlik təhdidlərini konkret olaraq aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Maliyyə-pul dövriyyəsi sferasındakı təhdidlər:

- ödəmələrin artması;
- yanacaq-energetika kompleksində və nəqliyyatda qiymətlərin tənzimlənməsinin zəif səviyyəsi;
- tədiyə vəsaitlərinin strukturunun pisləşməsi;
- dövriyyədə olan pul kütləsinin məhdudlaşdırılması;
- qiymət nizamsızlıqları;
- qeydiyyatdan keçməyən dövriyyənin payının artması.

2. Bank sferasındakı təhdidlər:

- maliyyə alətlərinin qeyri-sabitliyi;
- bankların müflisləşməsi;
- nizamnamə kapitallarının fiktiv xarakteri;
- alver əməliyyatlarının üstünlük təşkil etməsi;
- riskli kredit siyasəti;
- banklar üzərində yoxlama və nəzarətin zəifliyi;
- depozitlərin sığorta sisteminin yoxluğu;
- bank aktivlərinin aşağı likvidliyi;
- əksər bank strukturlarının işinin aşağı səmərəliliyi;
- İqtisadiyyatın real sektorunun rəqabətqabiliyyətli müəssisələrinin aşağı səviyyəsi;
- Azərbaycan banklarının beynəlxalq standartlara uyğun gəlməməsi.

3. Fond bazarının fəaliyyəti ilə bağlı təhdidlər:

- dövlət qısamüddətli istiqrazlar bazarının borcun yüksək qiyməti ilə bağlı problemləri;
- fond bazarının struktur böhranı;
- xarici investorlardan asılılığın yüksək səviyyəsi;
- İqtisadiyyatın real sektorunun müəssisələrinə zəruri olan investisiya resurslarının cəlb edilməsinin yüksək səviyyəsi;
- maliyyə şirkətlərinin fəaliyyətinə zəif nəzarət;
- veksel dövriyyəsinin tənzimlənməzliyi;
- investisiya resurslarının daxili dövlət borcuna xidmətə ayrılması;
- qiymətli kağızlar bazarının kriminallaşması.

4. Xarici ticarət fəaliyyətində təhlükəsizlik təhdidləri:

- Azərbaycanın xarici borcuna xidmətin böhranı;
- İqtisadiyyatın dollarlaşması;
- milli valyutanın aşağı salınmış məzənnəsi;
- strateci cəhətdən vacib xammalın nəzarətsiz daşınması;
- kapitalın «qaçışı»;
- xarici ticarət sferasında diskriminasiya;
- aksizli malların qeyri-qanuni daşınması;
- satış bazarlarını ələ keçirmək məqsədilə xarici şirkətlərin təcavüzkar siyasəti;
- idxaldan asılılığın son dərəcə yüksək səviyyəsi;

- məhsulların satış bazarlarının itirilməsi.

Hal-hazırda Azərbaycanda maliyyə-bank sistemində təhlükəsizlik indikatorlarının mövcud səviyyəsini qiymətləndirməklə, müasir qloballaşma şəraitində milli İqtisadiyyatımızın maliyyə-bank sferasında təhlükəsizlik prioritetlərinin formalaşması xüsusiyyətlərini aşkara çıxarmaq böyük əhəmiyyət kəsb edir.

Son illərdə ölkədə inflyasiyanın səviyyəsi məqbul olub, milli valyuta məzənnəsinin sabitliyi təmin olunmuş, beynəlxalq normalara uyğun valyuta ehtiyatları qorunub saxlanılmışdır. Bununla yanaşı, dövlətin pul-kredit və məzənnə siyasəti bank sisteminin daha da möhkəmləndirilməsinə və İqtisadiyyatın pulla təminatının daha da yaxşılaşmasına yönəldilmişdir.

Təhlil göstərir ki, Azərbaycanda illik inflyasiyanın səviyyəsi 2003-cü ildə 2,2% olmuşsa, 2004-cü ildə 6,7%, 2006-cı ildə isə 8,3% təşkil etmişdir.

Belə ki, son illərdə ölkəyə valyuta axınlarının çoxalması, əhalinin pul gəlirlərinin ikiqəmli artım tempinin davam etməsi, beləliklə də istehlak bazarında tələbin təklifi xeyli sürətlənməsi və bir çox struktur amillərin formalaşması nəticəsində 2005-ci ilin birinci rübündə illik inflyasiyanın səviyyəsi 10 faizi ötdü. Yüksək inflyasiya şəraiti İqtisadi artıma, daha çox isə qeyri-neft sektorunun inkişafına və sosial proqramların reallaşmasına əngəl törətmiş, aktivlərin dəyərdən düşməsinə və investisiya risklərinin yüksəlməsi, təhlükəsinin artmasına gətirib çıxarmışdır. Mütəxəssislərin fikrincə, ölkədə 2005-ci ilin əvvəllərində baş vermiş inflyasiyanın əsas səbəbləri aşağıdakılardan ibarət olmuşdur:

- İqtisadi artım, gəlirlərin və istehsalın xərclərinin artımı;
- ixracın və neft gəlirlərinin daxili tələbin genişlənməsinə təsirinin artması;
- yüksək investisiya fəallığının yaratdığı güclü multiplikator (məşğulluq və istehsal) effekti;
- istehsalın (təklifin) tələbin (xərclər) ekspansiyasına nisbətən gecikməsi, əhalinin pul gəlirlərinin real artım tempinin istehlak səbətini formalaşdıran qeyri-neft sektorunun (sənaye, kənd təsərrüfatı) artım tempini üstələməsi;
- dövlət tərəfindən tənzimlənən bəzi qiymətlərin artması, sənayedə topdansatış qiymətlərin artması, nəticədə «xərc inflyasiyası» effektinin yaranması;
- bəzi istehsal və ticarət seqmentlərində qeyri-təkmil rəqabət mühiti;
- güclü fiskal ekspansiya, pula tələbin kəskin artması.

Yuxarıda qeyd edilən amilləri nəzərə alan ölkə prezidenti 2005-ci ilin 31 may tarixində «Azərbaycan Respublikasında antiinflyasiya tədbirləri-nin gücləndirilməsi haqqında» Fərman imzaladı. Həmin fərmana əsasən respublikada antiinflyasiya tədbirləri həyata keçirməyə başladı. Tez bir zaman ərzində çevik pul və məzənnə siyasəti və digər tədbirlər nəticəsində təkrəqəmli inflyasiya səviyyəsi əldə olundu.

Inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrin mərkəzi banklarında olduğu kimi, Milli Bankda da pul siyasətinin əsas hədəfi baza inflyasiyasıdır. Baza inflyasiya inzibati qaydada tənzimlənən qiymətlərin dəyişməsindən və

mövsümi amillərin təsirindən tənzhimlənmiş istehlak qiymətləri indeksi, o cümlədən pul siyasətinin inflyasiyaya real təsirini ölçməyə imkan verən indikator kimi çıxış edir.

2005-ci ildə baş verən inflyasiya proseslərinin struktur təhlili göstərir ki, 585 adda mal və xidmət növünün əsasən 15 növü nisbətən kəskin qiymət artımına məruz qalmış, digərlərinin qiymətləri isə son dərəcə mülayim dəyişmişdir. Bu isə o deməkdir ki, istehlak qiymətləri indeksi İqtisadiyyatın təməl göstəriciləri isə şərtlənməyən amillərin təsirinə məruz qalmışdır. Məhz bu amillərin təsiri altında formalaşn baza inflyasiyanın hesablanmış dinamikası İqtisadiyatda müvəqqəti inflyasiya amillərinin mövcudluğundan xəbər verir.

Təhlil göstərir ki, 2005-ci ildə ölkənin rəsmi valyuta ehtiyatlarının 9,7% artaraq 1 milyard ABŞ dollarına yaxınlaşmışdır. Bu isə neft sektoru çıxılmaqla mal və xidmətlərin təxminən 4 aylıq idxalına kifayətdir.

Ölkə İqtisadiyyatına yönəlilmiş xarici sərmayələrin və ölkənin ixrac potensialının durmadan artması respublikamızın xarici borc üzrə olan ödənişlərə tələbatı və idxal olunmuş əmtəə və xidmətlərin dəyərini tam maliyyələşdirməklə yanaşı, ölkənin strate**c**i xarici valyuta ehtiyatlarının da artmasına səbəb olmuşdur. Belə ki, 2005-ci il ərzində strate**ci** ehtiyatları 25,6% artaraq 2006-cı il yanvarın əvvəlinə 2571,7 mln. ABŞ dolları həcmində olmuşdur. Bunun da 1394,0 mln. dolları Dövlət Neft Fondunun aktivlərindən, 1177,7 mln. ABŞ dolları isə Milli Bankın məcmu beynəlxalq aktivlərindən ibarətdir. Həmin vəsaitin 961,7 mln. dolları, Milli Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarından ibarətdir ki, bu da idxalını maliyyələşdirməyə imkan verir. Bu göstəriciyə görə Azərbaycan dünya təcrübəsində qəbul olunmuş İqtisadi təhlükəsizliyin astana kəmiyyətindən yüksəkdir.

Son illər ölkədə valyuta ehtiyatlarının idarə olunmasında mümkün risklərin baş vermə ehtimallarına nəzarəti təşkil etmək üçün valyuta diserfikasiyası həyata keçirilir, valyuta ehtiyatlarının səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatların idarə olunmasına xarici menecerlər cəlb edilir.

Eyni zamanda Beynəlxalq Valyuta Fondundan əldə edilmiş kreditlərin SDR-də ifadə olunmasını nəzərə alaraq məzənnə riskindən qorumaq məqsədilə Milli Bankın valyuta aktivlərində SDR səbətinə uyğun kompozisiya yaradılmışdır. Bu məqsədlə, 2006-ci ilin əvvəlində ABŞ dolları – 75%, avro – 20% və Ingilis funt-sterlinqi – 5% nisbətində olmaqla valyutalar üzrə diversifikasiyalar həyata keçirilmişdir.

Ölkədə beynəlxalq ehtiyat aktivlərinin daxili idarə edilməsində əsas kapitalın qorunub saxlanması və təminatlı gəlirin əldə edilməsi siyasətinin davam etdirilməsi ölkənin İqtisadi təhlükəsizliyinin təminatı baxımından çox əlverişlidir. Bu məqsədlə Milli Bankın xarici əks agentləri qismində yalnız yüksək reytinqli banklarla pul bazarlarında 1 ilədək müddətli depozit və overnayt əks-repo əməliyyatları aparılır.

Dövlətin strate**c**i məqsədlərindən biri də İqtisadiyyatın rol artımına uyğun olaraq və mövcud maliyyə sabitliyinə xələl gətirmədən pul təklifinin

artırılmasına zəmin yaratmaqdan ibarətdir. İqtisadiyyatın pulla təminatının müşahidə olunan yaxşılaşması 2003-2004-cü illərdə də davam etmişdir. Belə ki, manatla pul bazası 2003-cü ildə 23,7%, 2004-cü ildə isə 38,0% artmışdır.

2005-ci ildə ölkənin valyuta bazarına təzyiqin artması şəraitində hökumət pul bazarındakı tarazlığı saxlamaq, əlavə pul emissiyasına yol verməmək və bununla da baza inflyasiya üzrə qoyulmuş hədəfə nail olmaq məqsədilə valyuta bazarına müdaxiləsini xeyli azaltmışdır. Belə ki, 2005-ci ildə müdaxilənin həcmi 119 mln. ABŞ dolları təşkil etmişdir ki, bu da 2005-ci illə müqayisədə 25,1% azdır. Nəticə etibarilə, pul kütləsi artımının əsas mənbəyi olan müsbət müdaxilənin qənaətbəxş səviyyədə azaldılması 2005-ci ildə pul kütləsinin mülayim templə artımına gətirib çıxarmışdır. Onu da qeyd edək ki, müdaxilə nəticəsində artan pul kütləsinin inflyasiya yaradan hissəsini Milli Bank öz notları vasitəsilə sternizasiya etmiş, qısamüddətli likvidliyin tənzimlənməsi məqsədilə REPO əməliyyatlarından daha aktiv faydalanmışdır. Bütün bunların nəticəsində Milli Bankın bilavasitə nəzarətində olan manatla pul bazası 2005-ci il ərzində cəmi 7,5% artmışdır. Bu, 2004-cü ilin müvafiq göstəricisindən 30,5 faiz bəndi azdır. Geniş mənada pul kütləsinin (M2) artım tempi isə 2005-ci ildə 16% təşkil etmişdir ki, bu da 2004-cü ilin müvafiq göstəricisindən 2 dəfə azdır.

Qeyd etmək lazımdır ki, 2,5 saylı cədvəlin məlumatlarından göründüyü kimi, 2003-2004-cü illərdə pul kütləsinin artım tempi ÜDM-in artım tempindən xeyli yüksək olmuşdur. Nəticədə İqtisadi artıma uyğun olaraq monetizasiya səviyyəsi də kifayət qədər yüksəlmişdir. Eyni zamanda həmin illərdə pulun dövretmə sürəti də azalmağa başlamışdır ki, bu da İqtisadiyyatın pula təminatının həmin dövr üçün yaxşılamasına dəlalət edən müsbət amil idi. 2005-ci ildə isə ÜDM-in artım tempi pul kütləsinin artım tempini 10 faiz bəndi üstələməklə, monetizasiya səviyyəsi 1,3 faiz bəndi aşağı düşmüş, pul kütləsini dövriyyə sürəti isə 2,4 dəfə azalmışdır. 2006-cı ildə isə monetizasiya səviyyəsi 11,3% pulun dövretmə sürəti 8,9 dəfəyə bərabər olmuşdur.

2003-2004-cü illərdə pul kütləsinin pul bazarına nisbətən daha yüksək templə artması pul multiplikatorunun yüksəlməsi ilə əlaqədardır. Bank sisteminin pul yaratmaq qabiliyyətini xarakterizə edən pul multiplikatorunun belə bir müsbət dinamika ilə artmasının səbəbi həmin illərdə bank sisteminin yenidən qurulması, bank infrastrukturunun inkişaf etdiilməsi, xüsusilə də ödəniş sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yerinə yetirilmiş işlər olmuşdur.

Lakin bütün bunlara baxmayaraq, ölkəmizdə monetizasiya səviyyəsi İqtisadi təhlükəsizliin beynəlxalq təcrübədə qəbul edilən astana kəmiyyətdən (50%) 4,5 dəfə geri qalır. Dünya təcrübəsinə görə, pul kütləsinin daxili məhsula nisbətən böhran həddindən aşağı olması müxtəlif fəsadlar törədə bilər. Bu, bir tərəfdən, pul əməliyyatlarının dollarlaşmasına, digər tərəfdən isə qarşılıqlı borcların şişməsinə səbəb olan təhlükəli təhdidlərdən sayılır. Odur ki, gələcəkdə bu məsələ daim diqqət mərkəzində saxlanılmalı, pulla təminat səviyyəsini normal kritik həddə çatdırmaq üçün zəruri tədbirlər planı işlənib

hazırlanmalıdır.

AR Milli Bankının məlumatlarına görə pul təklifinin strukturunda baş verən müsbət meyllərdən biri də odur ki, uzunmüddətli investisiya qoyuluşlarının mühüm mənbəyi olan «uzun pulların» cəmi pul kütləsində payı (uzunmüddətli depozitlərin M3-də xüsusi çəkisi) 2003-cü ildə 2,5 dəfə artaraq 12,3%-ə, 2005-ci ildə isə 38,9% artaraq 28,7%-ə 2006-cı ildə isə 2005-ci ilə nisbətən 2,3 dəfə artaraq 35,5%-ə çatmışdır.

Araşdırmalar göstərir ki, 2002-2004-cü illərdə pul təklifinin artması fonunda banklar tərəfindən İqtisadiyyata kredit ekspansiyasının genişlənməsi və faiz dərəcələrinin aşağı düşməsi davam etmişdir. Bu isə ölkədə «ucuz pul» siyasətinin daha da fəallaşması, pul təklifinin artması və bunun nəticəsində yeridilən pul siyasətinin İqtisadiyyata, xüsusən də maliyyə bazarlarına pozitiv transmissiyasının (ötürülməsinin) güclənməsi ilə izah olunur.

2005-ci ildə ölkə İqtisadiyyatında pul təzyiqini azaltmaq məqsədilə Milli Bank mərhələlərlə uçot dərəcəsini 7%-dən 9%-ə, 2006-cı ildə isə 13-14%-ə qaldırdı. Məsələ burasındadır ki, uçot dərəcəsinin hazırkı şəraitdə İqtisadi tsiklin stabilləşdirilməsində rolu o qədər də təsirli olmasa da, onun dəyişdirilməsi inflyasiya gözzləmələrinin müəyyən qədər azalmasına səbəb olmuşdur.

Hazırda ölkənin maliyyə sektorunun əsas seqmentləri – bank sistemi, qiymətli kağızlar bazarı və sığorta sistemindən ibarətdir.

1 yanvar 2006-ci ilə sığorta sisteminin məcmu kapitalı 36 mln. manata qədər təşkil etmişdir ki, bundan da 32,3 mln. manatı və ya 89,8%-i nizamnamə kapitalının 3,3 mln. manatı və ya 9,2%-i əlavə kapitalın, 0,35 mln. manatı və ya 1%-i ehtiyat kapitalın payına düşür.

Qiymətli kağızlar bazarının həcmi bir qədər fərqlidir. 2005-ci ildə öhdəlikləri nəzərə alınmadan qiymətli kağızlar bazarının həcmi təxminən 45,1 mln.manat təşkil edir. Lakin bazarın strukturuna nəzər salsaq, onun 64,8%-nin bank sisteminin emissiya alətlərinin təşkil etdiyini müşahidə etmək olar. Belə ki, qiymətli kağızlar bazarının alətlərindən 15,9 mln. manat bankların borc kağızları, təxminən 29,2 mln. manat isə bank səhmləridir. Qeyd edək ki, bazarın bu seqmentinin formalaşmasında mühüm rol oynamış dövlət borc öhdəlikləri davamlı olaraq məhdudlaşır və bu günə cəmi 8 mln. manat təşkil edir.

Bank sisteminin həcmi və miqyası maliyyə sektorunun digər seqmentlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Onun kəmiyyət və keyfiyyət göstəricilərinin stabil artımı dinamikası indi də davam etməkdədir.

2005-cü ilə ərzində bank sisteminin aktivləri 35,4% artaraq 2251,8 mln. manata çatmışdır. Bank aktivlərinin bu cür böyük templə artmasının əsas səbəbi kommersiya banklarının real sektorla kredit əməliyyatlarının miqyasının genişlənməsi olmuşdur. Belə ki, 2005-ci ildə qeyri-maliyyə sektoruna verilmiş kreditlərin həcmi 2004-cü illə müqayisədə 496,7 mln. manat və ya 54,9% artaraq 1401,3 mln. manata çatmışdər. Müqayisə üçün qeyd edək ki, 2004-cü ilin yekunlarına kredit qoyuluşları 51,9% artmışdır.

Bununla yanaşı, verilmiş kreditlərin valyuta strukturunda müəyyən dəyişikliklər baş vermiş, manatla tətbiq edilmiş kreditlərin payı 2004-cü ildəki 31,1%-dən, 2005-ci ildə 36,1%-i çatmışdır. Qeyri-maliyyə sektoruna verilmiş kreditlərin strukturunda uzunmüddətli kreditlərin payı xeyli artmışdır. Belə ki, 2005-ci ildı müddəti bir ildən artıq olan kreditlərin həcmi 85,5% artaraq cəmi kredit qoyuluşlarının strukturunda 2004-cü ildəki 30,7%-dən 2005-ci ildə 36,8%-ə çatmışdır.

Son dövrdə Azərbaycan Respublikasında bank sistemində uğurlu islahatlar ölkə İqtisadiyyatının inkişafında mühüm rol oynamışdır.

Belə ki, bank texnologiya və məhsullarının genişlənməsi, bank sisteminin innovasiya təşəbbüsləri xeyli çoxalmışdır. Azərbaycanın bank sistemi keçən illər ərzində beynəlxalq bank təcrübəsində tətbiq edilən məhsul və texnologiyaların mənimsənilməsində mühüm irəliləyişə nail olmuşdur. Hazırda bankların həm əməliyyat – idarəetmə sistemləri, həm də bazara təklif etdikləri məhsul və xidmətlər yeni və mütərəqqi texnologiyalara əsaslanır. Bazar seqmentinin genişləndirilməsi strategiyası isə, bankları məhsul çeşidini genişləndirməyə və nou-hau və elmi-tətbiqi innovasiyaları daha aktiv tətbiq etməyə sövq edir.

Təşkilati təkmilləşmə, idarəetmə texnologiyalarının inkişafı sahəsində böyük işlər görülmüşdür. Beynəlxalq maliyyə bazarlarında daha aktiv iştirak istəyi bankları qabaqcıl korporativ idarəetmə standartlarının tətbiqinə təşviq etmişdir.

Hazırda qabaqcıl bank qurumlarında bu sahədə əhəmiyyətli nəticələrə də nail olunmuşdur. Qeyd edək ki, bank sistemində korporativ idarəetmə standartlarının tətbiqi həm əlahiddə bank qanunvericiliyi ilə, həm də bankların institusional inkişafı istiqamətində həyata keçirilmiş iri layihələrlə də dəstəklənmişdir. Bu isə mütərəqqi idarəetmə texnologiyalarının tətbiqi sahəsində banklar üçün korporativ sektorla müqayisədə daha üstün şərtləri təmin etmişdir.

Qeyd etmək lazımdır ki, banklara etimadın bərpa edilməsi üçün mütərəqqi idarəetmə, risklərin tənzimlənməsi və daxili nəzarət sistemləri ilə yanaşı, dolğun maliyyə hesabatlığı sisteminin mövcud olması da vacib əhəmiyyət kəsb edir. Bu sahədə də mühüm nəticələr mövcuddur. Bank sistemi ölkədə Beynəlxalq Maliyyə Hesabatlığı Standartlarına keçmiş yeganə İqtisadi sektordur. Bu standartlar investorların, kreditorların, əhalinin və bütün maraqlı tərəflərin banklar haqqında şəffaf maliyyə məlumatı əldə etmək imkanını artırmaqla, onların risklərinin səmərəli tənzimlənməsinə imkan yaradır. Bu isə nəinki banklara etimadı bərpa edir, habelə bütövlükdə İqtisadi sistemdə risklərin azaldılmasına zəmin verir.

Bank sistemində islahatların ən mühüm nəticələrindən biri də mütərəqqi ödəniş sistemlərinin yaradılmasıdır. Real vaxt rejimində fəaliyyət göstərən xırda və iri ödənişlər üçün avtomatlaşdırılmış sistemlər İqtisadi infrastrukturun ən vacib elementlərinə çevrilmişdir. Lakin mütərəqqi ödəniş sistemləri təkcə infrastruktur əhəmiyyəti ilə məhdudlaşmır, yeni İqtisadi münasibətlərin formalaşdığı şəraitdə İqtisadi agentlərin qarşılıqlı etimadının yüksəlməsinə, bazar aktivliyinin artmasına və bütövlükdə pul dövriyyəsi kanallarında multiplikator effektinin güclənməsinə şərait yaradır.

Bank sisteminin peşəkar mütəxəssislərlə təmin edilməsi istiqamətində görülmüş işlər ötən müddət ərzində əldə edilmiş nəticələri şərtləndirən ən vacib amillərdəndir. Milli Bankın təşəbbüsü ilə Avropa Birliyinin yardımı ilə yaradılmış Azərbaycan Bank Tədris Mərkəzi bank mütəxəssislərinin yeni İqtisadi münasibətlər sisteminə «adaptasiyası» və qabaqcıl bank texnologiyalarının tətbiqi üçün mühüm yardımçı resurs rolunu oynayır. Peşəkar bank kadrlarının hazırlanmasına beynəlxalq tərəfdaşlarımız olan Dünya Bankı və Beynəlxalq Valyuta Fondu da mühüm yardım göstərmişlər.

Bank islahatlarının həyata keçirilməsi realizasiyası və bütövlükdə səmərəli bank fəaliyyətinin təmin edilməsi məqsədilə qanunvericilik davamlı olaraq təkmilləşdirilmişdir. Artıq 3-cü nəsil bank qanunu qüvvəyə minmişdir. Bank fəaliyyətinə dair beynəlxalq standartlara – Bazel prinsipinə və Avropa Birliyinin Bank direktivlərinə tam uyğun olaraq hazırlanmış bu Qanun bankların mülkiyyət strukturunun şəffaflığının təmin edilməsi, risklərin

səmərəli idarə edilməsi, mütərəqqi tənzimləmə və nəzarət sistemlərinin tətbiqi, bank müştəriləri və səhmdarlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və bankların fəaliyyətinin bütün digər aspektləri üzrə ən qabaqcıl hüquqi baza formalaşmışdır.

«Banklar haqqında» qanunla yanaşı «Milli Bank haqqında» qanun da təkmilləşdirilir və bu gün Milli Bank fəaliyyətini tənzimləyən 3-cü nəsil qanun hazırlanmışdır.

Belə bir məsələni vurğulamaq lazımdır ki, Azərbaycanın maliyyə sektorunun İqtisadi inkişafa təsiri amilini qiymətləndirərkən ölkə İqtisadiyyatında neft sektorunun rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, uğurlu neft strategiyasının nəticəsi olaraq, bu gün neft sektorunun maliyyə tələbatı əsasən birbaşa investisiyalar, o cümlədən xarici investisiyalar hesabına ödənilir ki, bu da maliyyə sisteminin həmin sahəyə İqtisadi effektini azaldır. Hasilat sektorunun maliyyə cəlbediciliyi isə onun yüksək kapitalizasiyasını şərtləndirir. Misal üçün, 2005-ci ilin əvvəlinə Azərbaycanın neft sektorunun kapitalizasiyası 426% təşkil etmişdir.

Qeyri-neft sektorunda isə vəziyyət fərqlidir və bu sfera bir qayda olaraq resurslara tələbatını maliyyə sektoru vasitəsilə ödəyir. Ölkəmizdə maliyyə sektorunun bu funksiyası əsasən bank sistemi vasitəsilə realizə olunur. Belə ki, 1 aprel 2005-ci ilə bankların qeyri-neft sektoruna kreditləri ÜDM-ə nisbətdə 9,2%, qiymtəli kağızlar bazarı (dövlət borc öhdəlikləri istisna olmaqla) ÜDM-ə nisbətdə 2,2%, sığorta sisteminin məcmu aktivləri isə ÜDM-ə nisbətdə 0,4% təşkil edir.

Neft sektorunun xüsusiyyətini nəzərə alaraq, bu göstəriciləri qeyri-neft ÜDM-ə nisbətdə qiymətləndirdikdə, onlar müvafiq olaraq, bank sistemi üzrə 13,4%, qiymətli kağızlar bazarında 3,2%, sığorta sistemində 0,5% təşkil edir. Bütövlükdə isə, özəl sektora daxili kreditin qeyri-neft ÜDM-nə nisbəti 17% təşkil edir ki, bu da Qazaxıstanın (17%), Rusiyanın (18%), Baltikyanı ölkələrin (23%) analoci göstəricilərindən ciddi fərqlənmir.

Bununla belə, bu gün hətta maliyyə sektorunun ən qabaqcıl seqmenti olan bank sisteminin də dərinlik səviyyəsi aşağı hesab edilir. Təbii ki, maliyyə sisteminin dayazlığı onun dinamik İqtisadi artımı və İqtisadiyyatın diversifikasiyasının maliyyələşdirilmək imkanlarını məhdudlaşdırır. Bu isə bizi qane edə bilməz. Hesablamalar göstərir ki, yoxsulluq səviyyəsinin əhəmiyyətli azaldılmasını təmin etmək üçün bank sisteminin maliyyə dərinliyi minimum 50%-dək artmalıdır.

8.3. Ərzaq təhlükəsizliyi və onun təmin edilməsi

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin ən mühüm vəzifələrindən biridir. Bu işdə ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyinə nəzarət mühüm rol oynayır. Bu işdə gömrük orqanları müstəsna rol oynayır.

Gömrük orqanlarında ərzaq mallarının ekspertizası QOST dövlət standartı əsasında aparılır. Bu standart MDB ölkələrinin xalq təsərrüfatının bütün sahələrində və müəssisələrində tətbiq olunan məcburi sənəddir.

Azərbaycan Respublikası gömrük, inzibati, cinayət-prosessual, mülki-prosessual və İqtisadiyyat məhkəməsi qanunvericiliyi tələblərinə müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi laboratoriyasında və təşkil olunacaq laboratoriyalarda gömrük ekspertizasının aparılması şəraiti və qaydaları bu Təlimatla müəyyən olunur.

Gömrük ekspertizasının aparılması prosesində aşağıdakı məsələlərin müəyyən olunmasına icazə verilir:

- Xarici İqtisadi fəaliyyətin Mal nomenklaturasına uyğun malın kodunun təyini;
- malın mənşə ölkəsinin təyini;
- malın gömrük dəyərinin təyini;
- malların, o cümlədən emal əməliyyatından sonra, identikləşdirilməsi (eyniləşdirilməsi);
- malların tərkibinin, fiziki və kimyəvi strukturunun təyini;
- malların çeşidi, sortu və növünün təyini;
- malların istehsal texnologiyasının təyini;
- malların istehsal olunduğu xammal mənbələrinin təyini;
- xammalın və digər malların emalı zamanı məhsul çıxımı normalarının (hasilat miqdarının) təyini;
- malların narkotik, güclü təsirə malik zəhərli, zəhərləyici maddələr qrupuna mənsubiyyətinin təyini;
- malların ekoloji və istismar təhlükəsizliyinin təyini;
- malların Azərbaycan Respublikasının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloci varidatına mənsubiyyətinin təyini;
- xüsusi tədqiqat metodu və bilik tələb edən digər məsələlərin həlli.

Bununla əlaqədar gömrük laboratoriyaları aşağıdakı növ gömrük ekspertizaları aparır:

- sinifləşdirmə;
- materialşünaslıq;
- identikləşdirmə (eyniləşdirmə);
- kimyəvi;
- sortlaşdırma və çeşidləmə;
- texnoloci;
- əmtəəşünaslıq;
- incəsənətşünaslıq və s.

Gömrük laboratoriyalarında gömrük ekspertizaları gömrük orqanlarının və ya Azərbaycan Respublikasının digər hüquq-mühafizə orqanlarının qərarı ilə gömrük qaydalarının pozulması işləri, arbitrac məhkəmələrində mübahisəli məsələlərin həlli, cinayət və mülki işlər üzrə, habelə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı, həmçinin digər dövlət orqanlarının, müəssisə, təşkilat, sahibkar və vətəndaşların müraciəti ilə əlaqədar aparıla bilər.

Azərbaycan Respublikası gömrük orqanlarının tapşırığı ilə aparılan ekspertizalar pulsuz, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən ayrılan vəsait hesabına həyata keçirilir. Digər hüquq-mühafizə orqanlarının qərarına, dövlət orqanlarının, müəssisə, təşkilat, sahibkar və vətəndaşların müraciətlərinə əsasən aparılan gömrük ekspertizasının haqqı həmin şəxslər tərəfindən ödənilir.

Gömrük ekspertizaları, bir qayda olaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi laboratoriyalarında aparılır. Bəzi hallarda laboratoriya və digər orqanların icazəsi ilə gömrük ekspertizaları başqa orqanların bu tipli laboratoriyalarında aparıla bilər.

Malların ayrılıqda tədqiqatı sahəsində lazımi rəy almaq üçün Mərkəzi laboratoriya (onun struktur vahidinin) rəhbərliyinin icazəsi ilə laboratoriyanın ekspertləri həmin tədqiqatları digər ekspertiza, sahə və elmi müəssisə laboratoriyalarında apara bilər.

Ekspertizanın aparılması qaydasını pozan, ekspert öhdəliklərinə məsuliyyətsiz yanaşan və cinayət məsuliyyətinə cəlbolunmayan gömrük laboratoriyası əməkdaşları intizam məsuliyyətinə cəlb oluna bilərlər.

Gömrük ekspertizasının əsas obyekti gömrük sərhədindən keçirilən mallar, habelə bu mallar haqqında gömrük və digər sənədlərdə olan məlumatlardır. Ekspert tədqiqatları prosesində başlanğıc material kimi gömrük qaydalarının pozulmasında şübhəli olan və bu qaydanı pozan şəxslərin və şahidlərin izahat və göstərişlərindən, cinayət işləri üzrə şübhəli və müqəssir olanların məlumatlarından və bu iş üzrə digər materiallardan, sənədlərin təftiş aktlarındakı faktlardan, habelə mütəxəssis-ekspertlərin rəylərindən istifadə etmək olar.

Mərkəzi laboratoriya, bir qayda olaraq, mürəkkəb gömrük ekspertizaları, habelə Azərbaycan Respublikası gömrük və digər hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinin digər laboratoriyalarının ekspertlərinin verdiyi rəyin düzgünlüyünə və əsaslandırılmasına şübhəsi olduqda təkrar ekspertizaları aparır.

Gömrük Komitəsinin bölgə laboratoriyaları onlar tərəfindən aparılan ekspertizaların uçotunu aparır və Mərkəzi laboratoriyaya aylıq və illik hesabat verir.

Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin olunmasında beynəlxalq təcrübədən istifadə olunması mühüm rol oynayır.

Əhalinin yaşayışı üçün zəruri olan istehlak mallarının və müxtəlif xidmətlərin bahalaşması müasir dövrün ən böyük sosial çətinliklərindən biridir. Heç kimə sirr deyil ki, işçilərin əmək haqqı, mənzil təminatı, istirahətinin səmərəli təşkili, sağlamlığın qorunması problemlərlə birbaşa əlaqədardır. Odur ki, bahalıq anlayışının özü hər şeydən əvvəl insan həyatının, onun yaşayışının zəruri şərtlərinin bahalaşması kimi başa düşülməlidir.

Ekoloji böhran yalnız konkret bir ərazi-dövlət çərçivəsi ilə məhdudlaşmayıb ümumdünya probleminə çevrildiyi kimi, bahalıq da, xüsusən ərzaq məhsullarının bahalaşması diinya ölkələrinin demək olar ki, əksəriyyətində baş verir. Bu, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə daha kəskin tərzdə formalaşır. Istehlak səbətinə daxil olan ən mühüm ərzaq, qeyri-ərzaq mallarının və xidmətlərin bahalaşması əhalini məcbur edir ki, gəlirlərin daha çox hissəsini ilk növbədə, vacib olan mal və xidmətlərin ödənilməsinə xərcləsinlər. Əks halda isə onların istehlakı sadəcə olaraq ixtisar olunmalıdır.

Bahalaşma əsasən, inkişaf etmiş ölkələrin uzun müddət təsiri altında olan ölkələrdə geniş vüsət almışdır. Məhz buna görə də həmin ölkələrdə əhalinin orta həyat səviyyəsi inkişaf etmiş kapitalist ölkələrində olduğundan çox aşağıdır. Belə ki, həmin ölkələrdə orta ömür müddəti 30-50 faizdən az, ərzaq məhsullarının orta kaloriliyi isə 30-40 faizdən aşağıdır. BMT-nin FAO təşkilatı, BYI Bankının məlumatlarına əsasən dünyada son illərdə aclıqdan və doyunca yeməməkdən hər il 30-40 milyon adam ölür. Bu, II Dünya müharibəsi illərində hər il ölənlərə nisbətən 4-5 dəfə çoxdur. Hazırda doyunca yeməməyin müxtəlif formalarından dünya əhalisinin 40 faizi əzab çəkir, hər gün orta hesabla 40 min uşaq acından ölür. Ərzaq böhranı xüsusilə, Afrikada daha kəskin xarakter alır. Son 10 il ərzində adambaşına düşən ərzaq istehsalı 10 faizdən çox azalmışdır və ərzaq məhsullarının bahalaşması isə daha sürətli olmuşdur.

Dünya ölkələrində ərzaq problemi, ərzaq məhsullarının bahalaşması ümumi ekoloji çətinliklərlə əlaqələnsə də, hər halda ayrı-ayrı ölkələrin İqtisadi, demoqrafik, sosial-siyasi inkişaf amil və meyllərindən daha çox asılı olur. Yalnız ekoloji şəraitin pisləşməsi deyil, məhz göstərilən həmin amil və meyllərin mövcud vəziyyəti son anda hər bir ölkədə istehlak vasitələrinin bahalaşması səbəblərini doğurur. Bu baxımdan, dünya ölkələrinin təcrübəsində istehlak vasitələrinin bahalaşmasının İqtisadi və sosial səbəblərinin öyrənilməsinə daha çox yer ayrılır. Proses mürəkkəb və çoxcəhətli olub bir çox İqtisadi göstəricilərin nəticələrini özündə birləşdirir. Bahalığın yaranmasının əsas səbəbləri siyahısına qiymətlərin qalxmasını, mal təklifi ilə əhalinin alıcılıq qabiliyyətli tələbi arasındakı uyğunsuzluğu, mal qalığını, manatın alıcılıq qabiliyyətinin qeyri-sabitliyini və s. aid etmək olar. Daha dəqiq desək, həmin səbəblər özünü yaşayış vasitələrinin bahalaşmasında əks etdirir. Bahalıq - qiymətlərin qalxmasının aynasıdır. Qiymətlərin qalxması müxtəlif formalarda bahalığın yaranmasına təsir göstərərək əhalinin mövcud tələbatının səviyyəsi ilə onların faktiki istehlakı arasındakı uyğunsuzluğu gücləndirir. Mövcuud

qiymətlərin səviyyəsi ilə bahalıq gözəgörünməz tellərlə bağlıdır. Qiymətlər gizlin qalxır, istehlak malları isə bahalaşır.

Dünyada ərzaq təhlükəsizliyi problemi hələ keçən əsrin 70-ci illərində FAO tərəfindən qaldırılmış və o vaxtdan etibarən bu təşkilatın daimi fəaliyyətdə olan Beynəlxalq Ərzaq Təhlükəsizliyi Komitəsi yaradılmışdır. Məhz bu Komitənin yaxından iştirakı və dəstəyi ilə dünya ölkələrinin əksəriyyətində "Milli ərzaq təhlükəsizliyi proqramı" işiənib hazırlanmış və həyata keçirilməkdədir.

Eyni zamanda Prezident İlham Əliyev tərəfindən 2007-2015-ci illər üçün əhalinin sağlam qida təminatını yerinə yetirmək məqsədilə yeni ərzaq təhlükəsizliyi proqramının işlənib hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Belə ki, 2008-ci ilin payız aylarında dövlət proqramının layihəsi ayrı-ayrı aidiyyatı orqanlarından, təşkilatlarından və digər təsərrüfat subyektlərindən ibarət komissiya tərəfindən hazırlanmışdır. Əhalinin təmiz ərzağa olan tələbatını ödəmək üçün parlamentin Aqrar islahatlar daimi komissiyası "Ekoloji təmiz məhsul" yetişdirilməsinin hüquqi bazasını genişləndirmək məqsədilə ayrıca qanun layihəsi tərtib edərək Milli Məclisin payız sessiyasında qəbul edilmək üçün verilmişdir. Onu da qeyd edək ki, ərzaq təhlükəsizliyi proqramı çərçivəsində regionlarda fermerlərin fəaliyyətini yaxşılaşdırmaq üçün hər hektara dövlət büdcəsindən 40 man. subsidiya ayrılmışdır. Həmin məbləğ daxilində əkinçiliklə məşğul olan torpaq sahibləri lazım olan yanacaq, gübrə və digər ehtiyatları ödəyə biləcəklər. Bunun nəticəsində kənd təsərrüfəatı bitkiləri əkilən torpaqların həcmi 120 000 hektar, taxılın ümumi kütləsi isə 300 000 tona çatmışdır. Bu da öz növbəsində əhalinin çörəyə və digər un məmulatlarına olan tələbatını 80% ödəməyə imkan verəcəkdir.

Ərzaq təhlükəsizliyi həm İqtisadi, həm də siyasi məna daşıyan kompleks anlayış olub, ölkənin bütün sakinlərinin fəal və sağlam dolanışıqları üçün zəruri miqdarda ərzaqla təminatı deməkdir. Dünya təcrübəsində ərzaq təhlükəsinin xroniki və müvəqqəti ola bilməsi qənaətinə gəlinmişdir. Bu təhlükə o zaman reallaşır ki, qida məhsullarını əldə etməyin mümkünsüzlüyü səbəbindən (pul gəlirlərinin çatışmazlığına görə) bu məhsulların istehlakı fizioloci tələbatı qane etmir və ya lazımi miqdarda ərzaq istehlakı baş vermir. Ərzaq mallarının qiymətlərinin vaxtaşırı olaraq artması, aqrar sektorda məhsul qıtlığı və ya gəlir səviyyəsinin aşağı düşməsi nəticəsində ərzaq mallarından istifadə imkanlarının sabitliyi pozulur ki. bu da əslində müvəqqəti ərzaq təhlükəsinin yaranmasına gətirib çıxarır.

İqtisadi ədəbiyyatda xroniki və müvəqqəti ərzaq təhlükəsi ilə yanaşı, potensial ərzaq təhlükəsi vəziyyətinin də mövcudluğu qeyd olunur və göstərilir ki, hər hansı dövlət baş verə biləcək beynəlxalq İqtisadi böhranlara, kənd təsərrüfatı bazarlarının konyunkturunun pisləşməsinə və ticarət müharibələrinə hazır olmadıqda potensial ərzaq təhlükəsi mürəkkəb və hətta xroniki təhlükəyə çevrilə bilər. Deməli, özünü təminetmə əmsalı aşağı olduqda, aqrar-ərzaq

məhsullarına olan tələbatı ödəmək məqsədilə xarici bazarlardan müvafiq məhsul idxalı mümkün olmadıqda ölkə öz əhalisini zəruri ərzaq məhsulları ilə təmin edə bilmədiyinə görə ərzaq təhlükəsizliyi problemi meydana çıxır.

Ölkə İqtisadçılarının fikrincə, İqtisadi qloballaşma bir tərəfdən beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmaqla idxal hesabına ölkə daxilində əhalinin ərzaq təminatı məsələsinin həllinə imkanlar yaradırsa, digər tərəfdən ölkəyə ərzaq ekspansiyası və aşağı keyfiyyətli qida məhsullarının gətirilməsi nəticəsində daxili istehsalçı və istehlakçıların mənafelərinə ziyan vurulması təhlükəsi yaranır. Bu təhlükə konkret olaraq özünü aşağıdakılarda göstərir: idxal ekspansiyası ilə bağlı ölkənin aqrar-sənaye sferası istehsalçılarının daxili bazardan sıxışdırılıb çıxarılması; kənd təsərrüfatında və onunla bağh sahələrdə çalışanların iş yerləri və gəlirlərindən məhrum olmaları; aqrar-ərzaq bazarı işçiləri üçün ərzaq məhsullarının əlyetərliliyinin çətinləşməsi; ölkənin keyfiyyətsiz ərzaq məhsullarının satış bazarma çevrilməsi. Bütün bunlar isə öz növbəsində ərzaq idxalının tənzimlənməsi zəruriliyini doğurur.

Cədvəl 1.

1997-2006-cı illərdə Azərbaycan Respublikasının istehlak bazarında idxalın xüsusi çəkisi.

Illər	Istehlak malları satışı (min dol.)	O cümlədən		Idxal eidlmiş istehlak malları (min dol.)	O cümlədən		Idxal hesabına təmin olunma faizi	O cümlədən ərzaq və qeyri-ərzaq
		ərzaq	qeyri-ərzaq		ərzaq	qeyri-ərzaq		
1997	1708532	720114	289722	240000	130000	110000	23	18-38
1998	2128423	596695	237844	283836	201541	8209	34	33-34
1999	2383521	899308	298970	343084	273600	69484	28	30-23
2000	2294341	1205369	503162	460207	378134	82073	27	31-16
2001	2313122	1494152	634270	249870	177285	72585	11	11-11
2002	2747251	1650468	738052	254165	171883	82282	10	10-11
2003	3744658	1576212	718128	303951	203975	99976	13	13-14
2004	2658411	1584994	728127	331918	166673	165245	14	11-23
2005	3256598	1842816	904435	474168	238105	236063	17	13-26
2006	2115432	1669989	865447	656645	215454	265545	15	14-16

İqtisadi islahatlar dövründə xarici İqtisadi əlaqələrin bazar mexanizminin tətbiqi respublikamızın dünya ərzaq sisteminə inteqrasiyasının sürətləndirilməsinə səbəb olmuşdur. Ölkədə ərzaq mallarının idxalı 1995-ci ildə 2005-ci ilə nisbətən 60.7 faiz çox olsa da, ümumi idxalda ərzaq idxalının xüsusi çəkisi 1995-ci ildəki 41.6 faizdən 2005-ci ildə 10.6 faizə enmişdir.

Cədvəl 2.

Azərbaycan Respublikasında adambaşına ət və süd məhsullarının orta illik istehlakının göstəriciləri (kq-la)

Illər	Ət və ət məhsulları (ətə çevrilməklə)	Süd və süd məhsulları (südə çevrilməklə)
1995	32	299
1996	26	290
1997	20	217
1998	17	203
1999	12	168
2000	15	147
2001	16	136
2002	15	139
2003	18	140
2004	19	142
2005	18	147
2006	16	145

Ümumiyyətlə, son illər ərzində respublikamızda gömrük-tarif tənzimlənməsində idxalın əmtəə strukturunu səmərəliləşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq istiqamətində xeyli iş görülmüş, bu isə ölkə İqtisadiyyatını xarici rəqabətin təsirindən qorumaq üçün əlverişli şəraitin yaradılmasına kömək etmişdir. Ərzaq məhsullarının ümumi idxalda xüsusi çəkisi 2005-ci ildə 2004-cü ilə nisbətən 0,2 faiz bəndi azalmış və cəmi 10,6 faiz təşkii etmişdir. Əhalinin ət və ət məhsullarına, konserv məmulatlarına, mineral sulara, tütün və tütün məmulatlarına, toyuq əti və yumurtaya, habelə bir sıra digər mallara tələbatınm əsas hissəsi daxili istehsal hesabına ödənilmişdir.

Cədvəl 3.

1997-2005-ci illərdə Azərbaycan Respublikasında ərzaq mallarının idxalı və ixracı (min dol.)

Malın adı	1997		1998		2000		2002		2005	
	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac
Diri mal-qara	42216	676	74300	560	103804	1150	35364	775	1031	0.7
Heyvan mənşəli məhsullar	78394	14483	51537	13277	135605	5961	86254	15671	33300	160
Heyvanat və bitki mənşəli piylər, yağlar	22981	119	54483	276	23612	533	6334	5345	13691	4264
Yeyinti sənayesi məhsulları	49113	23153	86257	13831	103449	13547	49808	18015	79288	25578
Alkoqollu və alkoqolsuz içkilər	12280	25568	10295	10586	15206	7368	4968	15535	4715	2121
Xarici ticarət dövriyyəsinin ümumi həcmində ərzaq mallarının xüsusi çəkisi (%)	26	10	31	6	39.7	4.5	22.7	7	7.9	1.4

Keçid dövrünün ilk illərində ərzaq məhsulları idxalının sürətlə artması sayəsində ölkədə kəskin ərzaq qıtlığının yaranmasının qarşısını almaq mümkün olmuşdur. Ölkəyə idxal olunan ərzağın ümumi idxalın xüsusi çəkisinin 40 faizini ötdüyü dövrlərdə bir çox əsas ərzaq məhsulları üzrə pərakəndə satış qiymətlərinin artım templəri müəyyən qədər zəifləmişdir.

1998-2006-cı illərdə Azərbaycan Respublikasında dövründə ərzaq mallarının idxalının dinamikası

Cədvəl 4.

Illər	Malların ümumi idxalı (min dol)	Dəyəri (min dol.)	Idxal edilmiş qida məhsulları	
			ümumi idxalda payı %	sahə idxalında payı %
1998	628806	130000	20	54
1999	777910	201541	26	71
2000	667657	273600	41	80
2001	960636	378134	39	83
2002	704343	177285	22	71
2003	1077169	171883	16	68
2004	1033468	203975	19	68
2005	1172071	169881	14	57
2006	1665564	132205	8	48

Tədqiqatlar göstərir ki, idxalın artması ölkədə istehlak olunan ərzaq məhsullarının çeşidinin xeyli genişlənməsinə, bir sıra ərzaq məhsulları ilə təchizatın mövsümiliyinin zəifləməsinə, daxili bazarda rəqabətin güclənməsinə gətirib çıxarmışdır. Bununla yanaşı, respublikamızın dünya ərzaq sisteminə inteqrasiyasının güclənməsi milli ərzaq kompleksinin inkişafına müsbət təsir göstərmiş, ölkədə istehsal olunan analoci məhsulların maya dəyərinin aşağı salınmasına və həmin məhsulların keyfiyyətinin yüksəldilməsinə İqtisadi stimullar yaratmışdır. Eyni zamanda, onu da yaddan çıxarmaq olmaz ki, ölkəmizə böyük miqdarda ərzaq idxalıınn bir sıra mənfi cəhətləri də olmuşdur. 1992-ci il-dən etibarən ərzaq bazarında qiymətlərin sərbəstləşdirilməsi kənd təsərrüfatı məhsulları ilə sənaye məhsulları arasında qiymət tarazlığının pozulması, idxal malları ilə yerli malların qiymətləri arasındakı nisbətin nəzərə alınmaması, dövlətin bu proseslərə müdaxiləsinin zəif olması, hətta bəzi hallarda tamamilə kənarda qalması, bu sahələrdə fəaliyyət göstərən müəssisələrə külli miqdarda verdiyi subsidiyaları dayandırması ərzaq mallarının qiymətlərinin artmasına və respublikaya kənardan aşağı qiymətlə bəzən keyfiyyətsiz ərzaq malları idxalının genişlənməsinə səbəb oldu. Aqrar sahənin istehlakçıları öz mallarını rentabellik səviyyəsinə uyğun qiymətlə reallaşdıra bilmədiklərinə görə növbəti il üçün istehsalı azaldır və hətta dayan-dırırdı. Məsələ burasındadır ki, aqrar-ərzaq bazarı müəssisələrinin isiehsal etdikləri məhsulun maya dəyərinin belə idxal edilmiş məhsulların satış qiymətindən yuxarı olması həmin müəssisələrin fəaliyyətlərini dayandırmaq məcburiyyətində qoydu. Qiymətlər dövlət tərəfindən tənzimlənmədiyinə görə ölkəmizin aqrar-ərzaq məhsulları istehsal edən müəssisələri zərərlə işləməyə başladılar. Müqayisə üçün deyək ki, əgər 1990-cı ildə respublikamızın kənd təsərrüfatı müəssisələri 28,7 faiz rentabelli işlədiyi halda, 1997-ci ildə 16,5 faiz zərərlə işləmişdir. Məhz bütün bunların nəticəsi idi ki, ölkədə aqrar-ərzaq malları

ilə özünü təminetmə səviyyəsi kəskin şəkildə aşağı düşmüş və res-publikamız birsıra ölkələrin məhsullarının reallaşdırılması üçün açıq bazara çevrilmişdir. Idxalın güclü təsiri ilə yerli istehsalın çıxılmaz vəziyyətə düşməsi respublikanın ərzaq bazarını idxaldan tam asılı vəziyyətə salmaqla ərzaq təhlükəsizliyi problemini daha da kəskinləşdirdi.

Ölkədə qiymətlər buraxıldıqdan və dövlətin bazara müdaxiləsi dayandırıldıqdan sonra İqtisadiyyatın müxtəlif sahə məhsullarının qiymətləri arasındakı mütənasiblik də pozuldu. Bütün bunların qarşısını almaq yalnız çevik idarəetmə qabiliyyətinə və dərin İqtisadi təfəkkürə malik Ümummilli Liderimiz Heydər Əliyevə nəsib oldu. O, böyük uzaqgörənliklə belə bir nəticəyə gəldi ki, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, milli istehsalçıların maraqlarını qorumaq, sahələrarası qiymət paritetliyini təmin etmək üçiin dövlətin İqtisadiyyata müdaxiləsi zəruridir. Bazar özünü tənzimləmə mexanizminə malik olmadığına görə kənar müdaxilə olmadan bazarın özünü tənzimləməsi yalnız lazımi məqamlarda dövlətin onu öz axarına buraxdığı müddətdə baş verə bilər. Beləliklə, dövlət ölkədə ərzaq bazarını qorumaq üçün təcrübədə mövcud olan İqtisadi mexanizmlər vasitəsilə tənzimləmə siyasətini həyata keçirməyə başladı. Bununla yanaşı, həmin dövrdə sərbəst və tənzimlənən bazar şəraitində dövlətin İqtisadi manevr həddini də müəyyən etmək zəruri idi. Ona görə ki, dövlətin müdaxiləsinin həddən çox olduğu şəraitdə də İqtisadiyyatın normal fəaliyyəti pozulmuş olur.

Ölkə əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək üçün özünütəminetmə səviyyəsinin yüksəldilməsi tələb olunurdu. Bu məqsədlə ümummilli liderimiz Heydər Əliyev 2001-ci ilin martında özünün imzaladığı 640 saylı sərəncamı ilə Azərbaycan Respublikasmın Ərzaq Təhlükəsizliyi Proqramını təsdiq etmişdir. Proqrama əsasən ərzaq təhlükəsizliyi siyasətinin həyata keçirilməsi istiqamətləri müəyyənləşdirilmiş, konkret tədbirlər sistemi işlənib hazırlanmış, onların icrası müddətləri və cavabdeh təşkilatlar göstərilmişdir. 2005-ci ildə sənayenin demək olar ki, bütün sahələrində yüksək artım müşahidə olunduğu halda, ərzaq bazarında təklifin strukturunda əhəmiyyətli payı olan yeyinti sənayesi istehsalının real həcmi 2004-cü ilə nisbətən cəmi 12,6 faiz artmışdır. Təbii ki, yeyinti sənayesi məhsullarına olan tələbin genişlənməsi şəraitində istehsalın yetərli səviyyədə artmaması bu məhsulların qiymətlərinin yüksəlməsinə təkan vermişdir.

Ərzaq məhsullarının qiymətlərinin səviyyəsinə dövlət himayəsi müvafiq məhsul istehsalçılarının gəlirlərini artırmağa imkan verir. Dünya təcrübəsində qiymətlərin himayə edilməsi məqsədilə onun səviyyəsinə maliyyə yardımı göstərilməsi (subsidiya) aşağıdakı metodların köməyi ilə həyata keçirilir: fermerlərə birbaşa maliyyə vəsaitinin ödənilməsi (istehsal olunmuş məhsul vahidinə görə); məhsulun bazar və təminatlı dövlət qiymətləri arasındakı fərqin ödənilməsi. Bu metodlar arasındakı fərq özünü dünya bazar qiymətləri dəyişdiyi halda göstərir. Belə ki, istehsal edilmiş məhsul vahidinə görə fermerlərə birbaşa maliyyə vəsaitinin ödənişi zamanı məhsulların qiymətləri

dünya bazar qiymətləri ilə eyni vaxtda dəyişir. Bazar və təminatlı dövlət qiymətləri ilə məhsul fərqinin ödənişi zamanı isə dünya bazar qiymətləri təminatlı qiymətlərin səviyyəsini üstələyirsə, onda isteşsalçılar mövcud təminatlı qiymətlərlə kifayətlənməli olurlar. Belə hal istər-istəməz ərzaq bazarlarında sabitliyin pozulmasına, istehsalçıların gəlirlərinin azalmasına səbəb olur. Əksinə, dünya qiymətləri təminatlı qiymətlərdən geri qaldıqda isə dövlətin əmtəə istehsalçıları qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək imkanları məhdudlaşır.

Ölkənin ərzaq bazarında yerli istehsalçıların maraqlarını qoruması məqsədilə kənd təsərrüfatı məhsullarının qiymətlərinin yüksəldilməsinin mümkün yollarından biri də idxalın məhdudlaşdırılmasıdır. Daxili istehsal istehlakı üstələyirsə, idxal üzərində nəzarət metodu ilə bazar qiymətlərinin himayə edilməsi siyasəti heç də həmişə gözlənilən nəticəni vermir. Onu da qeyd edək ki, ərzaq mallarına tələbin qeyri-elastikliyini nəzərə alsaq, qapalı daxili bazar şəraitində təklifin genişləndirilməsi qiymətlərin nizamsız olaraq enməsinə və gəlirlərin azalmasına səbəb olacaqdır. Digər tərəfdən isə aydındır ki, təklifin məhdudlaşdırılması siyasəti istehsalçı gəlirlərinin yüksəldilməsinə şərait yaradacaqdır.

Çox vaxt daxili bazarın qapalı saxlanması şərtlərinə daxili istehsal xərclərinin beynəlxalq səviyyəsindən aşağı olması və qiymətlərin subsidiyalaşdırılması nəticəsində ölkənin dünya bazarında iri ixracatçıya çevrilməsini aid edirlər. Lakin unutmaq olmaz ki, subsidiyalaşdırılacaq bəzi məhsulların həcminin dövlət tərəfindən müəyyən edilməsi və ixraca meyilli sahibkarlıq qurumlarının İqtisadi cəhətdən stimullaşdırılması ilə daxili bazarın qapalı saxlanılmasının ən mühüm şərtlərindən hesab edilməlidir. Respublika-daxili istehsalın həcmi artdıqca məhsul vahidinə veriləcək subsidiya get-gedə azaldılmalıdır. Beləliklə, qeyd edilən siyasət təminatlı qiymətlərin qorunması məqsədilə dövlət büdcəsindən izafi subsidiya xərclərinin ixtisar edilməsinə yönəldilir. Təcrübədə çox vaxt subsidiya ödənişli müəyyən edilmiş məhsulun həcmi daxili istehlakın həcmi ilə məhdudlaşdırılır.

Ölkə daxilində təklifin səviyyəsini məhdudlaşdırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik: hər hansı məhsul idxalının stimullaşdırılması; istehsal həddinin müəyyən edilməsi (kvotalaşdırılması); kənd təsərrüfatına yararlı torpaq sahələrinin əkin dövriyyəsindən məqsədli olaraq kənarlaşdırılması. Yeni İqtisadi şəraitdə ölkəyə ərzaq idxalının tənzimlənməsi gündəmdə duran ən vacib məsələlərdən biridir. Bunun üçün ilkin şərt kimi tənzimlənmə tədbirlərinin yumşaq və məhdud xarakter daşıması götürülməlidir. Ona görə ki, İqtisadi islahatlar dövründə idxalın liberallaşdırılması ilə əlaqədar ərzaq bazarında həyata keçirilən köklü tənzimləmə tədbirləri bir tərəfdən bu məqsəd üçün çox böyük məbləğdə büdcə vəsaitinin ayrılması ilə bağlıdırsa, digər tərəfdən ərzaq məhsullarının qiymətlərinin yüksəlməsi ilə səciyyələnir.

Ərzaq məhsullarının idxalının tənzimlənməsində ikinci şərt əhalinin tələbatının ödənilməsində beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə edilməsi ilə ölkənin daxili bazarının və ölkə istehsalçılarının mənafelərinin qorunmasının düzgün əlaqələndirilməsi hesab edilir. Bu cür əlaqələndirməni qurmaq üçün ölkədə istehsal olunmayan, habelə daxili tələbatı tam səviyyədə ödəyəcək həcmdə istehsal edilməyən məhsulların idxalı üçün optimal şəraitin yaradılması tələb olunıır. Belə bir şəraitin yaradılması yolunda ölkədə mühüm addımlar atılmış, əsas ərzaq məhsulları növlərinin idxal recimi ölkə istehsalçılarının İqtisadi mənafelərinə tabe etdirilmişdir. İqtisadi islahatlar dövründə respublikada xarici ticarət liberallaşdırıldıqca, ərzaq məhsullarının idxalı sahəsində mövcud əngəllərin ardıcıl olaraq zəiflədilməsi və aradan qaldırılması da təmin edilmişdir. Əksər ərzaq məhsulları üçün idxal gömrük rüsumlarının səviyyələri minimuma endirilmişdir. Son illər aqrar-ərzaq məhsulları istehsalını stimullaşdırmaq üçün idxal olunan toxum, yem, gübrə, ehtiyat hissələri, kənd təsərrüfatı maşın və mexanizmlərinə gömrük vergi və rüsumları tətbiq edilmir və bir sıra kənd təsərrüfatı məhsullarının idxalına isə mövsümi rüsumlar tətbiq edilir.

Gömrük siyasətinin əsas istiqaməti kimi tarif tənzimlənməsinin differensiallaşdırılmış sisteminə keçilməsi mühüm əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda mövcud tarif siyasəti daxili istehsalı dəstəkləməklə yanaşı, yeni texnika və texnologiya idxalını da təşviq edir. Tarif dərəcələrinin ən yüksək həddi 15 faizdir ki, bu da MDB məkanında ən optimal göstəricidir.

Qeyd etmək laçımdır ki, Azərbaycanın ticarət balansında neft sahəsi üstünlük təşkil edir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və «Gömrük Tarifi haqqında» Azərbaycan Respublikasının Qanunu məhsul idxalı və ixracı üçün tarif sistemlərini və nəzarətin həyata keçirilməsi qaydalarını müəyyən edir.

Ölkədə daxili və xarici ticarət recimləri əhəmiyyətli dərəcədə liberallaşdırılmış, dövlət sifarişləri sistemi, idxal və ixrac kvotaları ləğv edilmiş, lisenziya almaq tələbi və ixracın əvvəlcədən qeydiyyatdan keçirilməsi sistemləri aradan qaldırılmışdır.

Dövlət büdcəsinin gəlirləri əsasən beynəlxalq ticarətin idxal əməliyyatlarından asılıdır. Xarici İqtisadi fəahyyət ölkənin təhlükəsizliyi və ümumxalq mənafelərinin qorunması baxımından tənzimlənir. Xarici iqlisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi tarif və qeyri-tarif tənzimlənməsi metodu ilə həyata keçirilir. Tarif metodu ilə tənzimləmə əsasən daxili bazarın xarici rəqabətin mənfı təsirindən qorunmasına yönəldilir. Burada idxal gömrük rüsumları başlıca rol oynayır. Gömrük rüsumlarının üç növü müəyyən edilmişdir: advalor (malların gomrük dəyərinə görə faizlə hesablanması); spesifik və kombinə edilmiş rüsumlar.

Dörd tarif dərəcəsi müəyyən edilmişdir:

(1) — əksər mallar üçün — 15 faiz;

(2 və 3) — qalan mallar üçün — 5 faiz və 10 faiz;

(4) — investisiya təyinatlı mallar, dərman və kənd təsərrüfatmda istifadə olunan maddi-texniki resurslar üçün — 0 faiz.

2001-ci il yanvarın 1-dən Vergi Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar MDB üzvü olan ölkələrdən idxal olunacaq mallara vasiləli vergilərin «istehlak yeri» prinsipinin tətbiqi ilə əlaqədar həmin ölkələrə ixrac ediləcək yerli malların vasitəli vergilərdən (ƏDV, Aksiz) azad olunacağı nəzərdə tululmuşdur.

Tütün məmulatına və alkoqollu içkilərə aksiz vergisi (40-90 faiz dərəcəsi ilə) tətbiq edilir.

Idxal-ixrac əməliyyatları ilə məşğul olan dövlət ticarət şirkətləri, o cümlədən pambıq inhisarçılarının bir hissəsi özəlləşdirilib, digər hissəsi isə ləğv olunub.

Ödəmə balansının tarazlaşdırılması əsasən investisiyaların genişləndirilməsi və iqtisadiyyatın, o cümlədən neft-qaz sənayesinin inkişafı yolu ilə təmin ediləcəkdir.

Ortamüddətli və uzunmüddətli perspektivdə Hökumət rəqabət qabiliyyətli alternativ İqtisadi fəaliyyətə dəstək vermək niyyətindədir. Bu isə idxalın yerli məhsul ilə əvəz olunmasına və ixracın artırılmasına təkan verəcəkdir.

Ixracın aparılmasına təsir göstərən mühüm amillərdən biri düzgün ticarət siyasətidir. Ticarət siyasəti Azərbaycan Respublikası Prezidentinin «Xarici ticarətin daha da liberallaşdırılması haqqında» 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanına uyğun olaraq həyata keçirilir. Həmin Fərmanla,eyni zamanda, idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təşkili qaydaları müəyyən edilmişdir.

Gömrük rüsumlarına cəlb olunan malların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-eu il 27 fevral tarixli 25 nömrəli qərarı ilə yenidən təsdiq edilmişdir;

- Xarici valyutanın idxalına və ixracına nəzarət «Valyuta əməliyyatlarının tənzimlənmsi haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nizamlanır; Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu ilə investisiya məqsədləri üçün idxala gömrük güzəştləri müəyyən edilmişdir;
- Ərzaq təhlükəsizliyi üzrə Dövlət Komissiyası yaradılmışdır; Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə «1999-2002-ci illərdə Azərbaycan Respublikasında Ticarətin İnkişafı üzrə Dövlət Proqramı» təsdiq edilmişdir.

Bu mühüm sahədə ticarət və gömriik siyasətinin aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tutulur:

- Dünya Ticarət Təşkilatının prinsiplərinə uyğun ticarət siyasətinin həyata keçirilməsi;
- daxili bazarın qorunması üçün bir sıra ərzaq məhsullarına yeni gömrük idxal-tarif dərəcələrinin, o cümlədən mövsümi rüsumların

tətbiq edilməsi: Məhsulların keyfiyyətinin və təhlükəsizliyinin sertifikatlaşdırılmasının vahid qaydalarının, eləcə də onların gömrük rəsmiləşdirilməsindən keçirilməsi qaydalarının tətbiqi vasitəsilə gömrük nəzarətinin gücləndirilməsi;

- ərzaq məhsullarının kodu, tədarükçüsü (satıcısı), təyinat yeri, istehsal yeri, keyfiyyət sertifikatı, kontraktın məbləği və digər göstəricilər daxil olmaqla, idxal-ixrac üzrə müntəzəm statistik məlumatın hazırlanması; struktur tədbirləri hesabına gömrük nəzarətinin gücləndirilməsi, fasiləsiz gömrük nəzarətinin təşkili;
- Ümumdünya Gömrük Təşkilatı və İsveçrənin texniki köməyi vasitəsilə yeni gömrük qaydalarmın tədrisi;
- regional və mərkəzi gomrük orqanları arasında vahid məlumat sistеminin yaradılması. (Bu iş BMT-in İnkişaf Proqramı ilə Dövlət Gömrük Komitəsi arasında bağlanmış Sazişə əsasən aparılır. Regional və sərhədyanı gömrük məntəqələrinin fəaliyyətini təmin etmək üçün müvafiq avadanlığın alınmasının maliyyələşdirilməsi təmin olunacaqdır); mənfəətin və əmlakın ikiqat vergiyə cəlb olunmasının qarşısının alınmasının və ƏDV-nin təyinal yerində ödənilməsi prinsipinin tətbiq edilməsi;
- İxraca Yardım Fondunun yaradılması.

Fikrimizcə, idxalı yerli istehsalçıların mənafelərinə zərər vurmayan ərzaq məhsullarının (onların keyfiyyəti üzərində nəzarəti gücləndirməklə) ölkəyə gətirilməsi üçün ən optimal şəraitin təmin olunması məqsədəuyğundur.

Ölkə İqtisadçıları Azərbaycanın ərzaq bazarı üçiin qoruyucu tədbirlərin tətbiqinin aşağıdakı üç əsas istiqamətini ayırırlar:

1. Daxili istehsal hesabına tələbatın ödənildiyi məhsul bazarının qorunması. Respublikamızda indiki şəraitdə ərzaq bazarının qeyd edilən seqmenti əsasən meyvə və tərəvəz məhsullarını əhatə edir. Bu məhsul növlərinin böyük əksəriyyəti respublikadaxili bazarda rəqabətqabiliyyətli hesab edilir. Eyni zamanda, bu məhsullardan ölkə daxilində yetərli həcmdə istehsal olunduğuna görə onların analoqlarının ölkəyə geniş idxalı baş versə də. yorli istehsalçılar tərəfindən bu məhsulların kütləvi bazara çıxarılması nəticəsində qiymətlərin xeyli aşağı düşməsi müşahidə olunur. Bu isə əslində istehsalçı gəlirlərinin kəskin ixtisar olunması və istehsal olunmuş məhsul itkisinin artması deməkdir. Odur ki, respublikanın meyvə-tərəvəz bazarında mövsümi qoruma tədbirlərinin tətbiqi vacib məsələlərdəndir. Fikrimizcə, eyniləşdirilmiş gömrük tariflərindən differensiallaşdırılmış gömrük tariflərinə keçid bu istiqamətdə xeyli uğurlar qazanmağa imkan vermişdir. Hazırda meyvə-tərəvəz məhsullarının əksər növləri üzrə yerli istehsalçıların bazara kütləvi məhsul çıxardıqları mövsümlər üçün nisbətən yüksək idxal gömrük rüsumları tətbiq olunur. Lakin hazırda nəzərdə tutulan müddətlər ya mövsüm dövrünü bütövlükdə əhatə etmir, yaxud həmin müddət qismən mövsüm dövrünə uyğun gəlmir. Odur ki, yüksək idxal gömrük rüsumlarının qüvvədə olduğu müddətin

sərhədləri yerli istehsalçıların bazara kütləvi məhsul çıxardığı mövsümə uyğunlaşdırılmalıdır. Bununla yanaşı, idxal gömrük rüsumlarının mövsümi differensiallaşdırılmasının səviyyəsi yüksəldilməlidir. Belə ki, hazırda tətbiq edilən differensiallaşma bütün zəruri hallarda respublikaya analoci məhsul idxalının məhdudlaşdırılması üçün idxal gömrük rüsumunu təsirli vasitəyə çevirə bilmir. Bundan başqa, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olmasından sonra qoruyucu idxal-gömrük rüsumlarının səviyyəsinin tədricən aşağı salınmasına dair tələblərilə üz-üzə qalacağımızı da nəzərə almalıyıq. Müvafiq rüsumlar ÜTT-nin tələblərinə uyğun olaraq aşağı salındıqdan sonra da daxili meyvə-tərəvəz istehsalçılarının qorunmasına xidmət etməlidir.

2. Tələbatın daxili istehsal hesabına ödənilmədiyi ərzaq məhsulları bazarının qorunması. Bitki və heyvan mənşəli əksər ərzaq məhsulları növlərinin böyük bir hissəsinin idxal hesabına formalaşması ilə əlaqədar olaraq bu qrup qoruyucu tədbirlərə xüsusi diqqət verilməlidir. Qeyd edilən tədbirlər yerli istehsalçıların daxili bazardan sıxışdırılıb çıxanlmasının qarşısının alınmasına yönəldilməlidir. Odur ki, bu tədbirlər heç də idxalın məhdudlaşdırılmasını nəzərdə tutmamalıdır. Ölkə qanunvericiliyi daxili bazarın qorunması vasitəsi kimi xüsusi gömrük rüsumlarının tətbiqinə dair zəruri hüquqi baza yaratmış olsa da, hələ də ərzaq idxalına nəzarətin zəruri səviyyədə təşkil olunmaması ilə əlaqədər olaraq bu mexanizmlərdən zəif istifadə olunur. Eyni zamanda, milli ərzaq bazarının qorunması səmərəliliyi xeyli dərəcədə antidempinq rüsumlarının düzgün tətbiqindən asılıdır.

3. Ölkədə yeni yaradılmalı və yaxud da əsaslı şəkildə dirçəldilməli olan ərzaq istehsalı sahələrinin qorunması. Belə sahələrə şəkər istehsalı, çayçılıq və sənaye quşçuluğu aiddir. Bu sahələrin təşəkkülü, dirçəldilməsi və inkişafına kömək göstərmək üçün müəyyən müddət ərzində qoruyucu tədbirləri tətbiq etmək vacibdir. Bu cür tədbirlərin tətbiqinin başlıca prinsipi müvafiq məhsul istehsalçılarının mənafelərinə ziyan vurmaqdan ibarətdir. Qeyd edilən ərzaq məhsulları üzrə bazarın qorunması zamanı satış qiymətlərinin yüksəlməsinə yol vermək olmaz. Odur ki, ilk növbədə əhalinin tələbatına uyğun həcmdə müvafiq məhsul istehsalının həyata keçirilməsi üçün zəruri maliyyə, maddi-texniki və digər şərtlər təmin edilməli, həmin məhsulların istehsal sahəsinə investor cəlb edilməlidir. Digər tərəfdən, daxili bazarın qorunması üzrə müasir vasitə və metodların onların konkret tətbiqi şəraitinə uyğunlaşdırılmasına və bunun daim təkmilləşdirilməsinə nail olmaq lazımdır. Milli ərzaq bazarının fomalaşdırılması və inkişafi gedişində daxili bazarın müvafiq seqmentinin qorunması məsələlərinin həlli ölkənin ərzaq istehsalçılarının raqabət qabiliyyətinin yüksəldilməsi ilə əlaqələndirilməlidir.

Gələcəkdə daxili ərzaq bazarının qorunması məqsədilə gömrük rüsumlarının yüksəldilməsindən əldə edilən vəsaitin ünvanlı surətdə ölkədə müvafiq istehsal sahələrinin inkişafına yönəldilməsini məqsədəuyğun hesab edirik. Fikrimizcə bu, daxili istehsalçılara dövlət köməyinin maliyyə təminatının

səmərəli təşkili vəzifələrinə uyğun gəlməklə həmin vəsaitin məqsədli istifadəsini təmin edəcək və bazarın qorunması tədbirlərinin davamlılıq müddətini qısaltmağa imkan verəcəkdir.

Azərbaycan hökuməti çalışmalıdır ki, ilk növbədə xarici ərzaq təminatından imkan daxilində az asılı olsun. Bu məqsədlə dövlət fermerlərə, kənd təsərrüfatı işçilərinə sifarişlər verməli, lazım gəldikdə isə güzəştli kreditlər ayırmalıdır. Toxum, gübrə və imkan daxilində texnologiya ilə təchizat məsələləri digər inkişaf etmiş dövlətlərdə olduğu kimi Kənd Təsərrüfatı Nazirliyinin ixtiyarına verilməlidir.

Qeyd etmək lazımdır ki, dövlət miqyasında isə ərzaq təhlükəsizliyi respublika əhalisini qida məhsulları ilə, özünün cari və fövqəladə ehtiyaclarını ilk növbədə daxili istehsal hesabına ödəmək qabiliyyəti deməkdir.

Müasir mərhələdə kənd təsərrüfatı istehsalı və təsərrüfatçılıq ekologiyasının təmin edilməsi hesabına respublika əhalisinin ərzaq məhsulla ilə yetərincə təchiz edilməsi aqrosənaye kompleksi qarşısında duran ən vacib ümumbəşəri vəzifələrdən biridir.

Bu vəzifənin uğurlu həlli əhalinin güzəranının yaxşılaşmasına və dövlətin təhlükəsizliyinin təmin edilməsinə imkan verəcəkdir. Təbiətin Azərbaycana bəxş etdiyi əlverişli torpaq-iqlim şəraitindən bacarıqla istifadə etməklə əkinçilik və heyvandarlıq məhsullarının istehsalını durmadan artırmaq lazımdır. Taxılçılığın inkişafına xüsusi diqqət yetirilməlidir. Taxıl istehsalı həcmini elə səviyyəyə çatdırmaq lazımdır ki, gələn məhsula qədər ölkənin ehtiyacları və adambaşına tələb olunan miqdar təmin edilsin. Təcrübədə müəyyən edilmişdir ki, 60 günlük ehtiyaca və yaxud ümumi istehlakın 17 faizinə uyğun gələn keçici ehtiyatlar səviyyəsi təhlükəsizliyi təmin etmiş olur.

Respublikanın ərzağa olan tələbatının ödənilməsi proqnozu işlənilərkən inkişaf etmiş ölkələrin təcrübəsi və keçmişdə proqnozlaşdırmada ciddi qüsurların mövcud olması nəzərə alınmalıdır. Sonuncu deklorativ xarakter dasıyırdı və zəruri təşkilati-maliyyə, eləcə də hüquqi dayağa malik deyildi.

Müasir İqtisadi ədəbiyyatda ərzaq probleminin həllinə dair müxtəlif fikirlər, müxtəlif yanaşmalar mövcuddur. Bəziləri hesab edirlər ki,dövlet kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat fəaliyyətinə qarışmamalıdır. Digərləri isə əminliklərini bildirirlər ki, kənd təsərrüfatı məhsulları istehsalçıları dövlət dəstəyi olmasa öz fəaliyyətlərini qura bilməzlər. Bu məsələdə bizim mövqeyimiz belədir: bazar İqtisadiyyatının indiki və sonrakı mərhələlərində də bir sıra qlobal problemlərin, o cümlədən ərzaq probleminin həllində dövlətimiz özünün tənzimləyici rolunu saxlamalıdır.

Qeyd etmək lazımdır ki, göstəricilərə nəzər saldıqda açıq-aşkar məlum olur ki, tərəvəz və bostan məhsulları, meyvə, giləmeyvələrdən başqa əhali elmi cəhətdən əsaslandırılmış fizioloci qidalanma normalarından xeyli aşağı səviyyədə təmin olunur. Xüsusilə ən zəruri qida məhsulları hesab edilən ət, ət məhsulları, süd, süd məhsulları, yumurta, şəkər,balıq və balıq məhsulları üzrə faktiki istehlakla fizioloci qidalanma normaları arasında kəskin fərq vardır.

Bütün bunlar bir daha dövlətin nəzər-diqqətini bu mühüm həyati sahəyə cəlb etməyi tələb edir. Bələ ki, aqrar İqtisadiyyatın hərtərəfli inkişaflarını təmin etmədən, ölkədə ərzaq təhlükəsizliyini və əhalinin normal qidalanmasını təmin etmək qeyri-mümkündür. Təcrübə göstərir ki, keçid şəraitində hər bir ölkədə ərzaq probleminin kəskinləşməsi labüddür.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, kənd təsərrüfatı yalnız xüsusi yox, həmçinin dövlət mülkiyyəti şəraitində də lazımi səviyyədə inkişaf edə bilər. Bu mənada Hollandiya yaxşı misaldır. Başqa misal da gətirmək olar. Polşa daha zəif inkişaf etmiş kənd təsərrüfatına malikdir, nəinki kollektiv təsərrüfatçılıq üzərində qurulmuş Macarıstan.

Bundan belə bir nəticəyə gəlmək olar ki, kənd təsərrüfatının çiçəklənməsi üçün digər şərtlərlə yanaşı ən başlıcası əkinçiliyin və heyvandarlığın mədəniyyətinin yüksəldilməsi mütəxəssislərin ixtisaslarının artırılması mühüm əhəmiyyət kəsb edir.

Ərzaq problemi həll edilərkən eyni zamanda tarixi təcrübə də nəzərə alınmalıdır. Sovet dövründə kəndlilərin zorla kollektivləşdirilməsi aqrar İqtisadiyyata böyük zərbə vurması hər kəsə məlumdur. Lazımdır ki, bütün bizim aqrar islahatlar Azərbaycan kəndlisinin ənənə və mentalitetinə uyğun gəlsin. Əks təqdirdə onlar lazımi səmərə verməz. Bununla belə, bazar münasibətlərinin inkişafının, torpağın özəlləşdirilməsinin, çoxukladlı İqtisadiyyatın, elmi-texniki tərəqqinin yaratdığı yeni şərait də diqqətdən qaçırılmamalıdır. Vaxt var idi ki, torpaq mülkiyyəti forması kənd təsərrüfatı istehsalı səviyyəsinə və səmərəsinə təsir edən həlledici faktor olub. Məsələn, ABŞ- da isə azad torpaq sahibkarlığı onun tərəqqisini təmin etmişdir. Hazırda Azərbaycan kəndlisi heç də ABŞ və Avropa kəndlisindən az sərbəst deyil. Amma bizdə kənd təsərrüfatı əməyinin məhsuldarlığı sadalanan ölkələrdəkindən qat-qat aşağıdır. Deməli, kənd təsərrüfatı istehsalının taleyi kəndlinin təkcə nə dərəcədə azad olub olmamasından asılı deyil. Bu asılılıq əsasən kənd təsərrüfatı əməyinin texniki silahlanması və elmi-texniki xidmət ilə bağlıdır. Ona görə də bizə elə gəlir ki, mülkiyyət formasının az əhəmiyyət kəsb etməməsinə baxmayaraq o yalnız elmin və texnikanın nailiyyətlərinin kənd təsərrüfatı istehsalına tətbiq olunduğu halda səmərəli ola bilər.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, həm hazırkı mərhələdə, həm də gələcəkdə ərzaq probleminin əsaslı həlli təkcə mülkiyyət formasının dəyişməsindən deyil, həmçinin elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqindən də həlledici dərəcədə asılıdır.

Başqa sözlə desək, süfrəmizin bol və yüksək keyfiyyətli qida məhsulları ilə bəzədilməsi təkcə kəndlinin işi deyil. Bu işdə eyni zamanda emal sənayesində, ticarətdə, elmdə və texniki araşdırmalarda və digər sahələrdə çalışan yüksək əmək məhsuldarlığına malik olan bütün insanların birgə çalışmaları gərəkdir. Yalnız bu halda ərzaq problemləri müvəffəqiyyətlə həll oluna bilər.

Ərzaq kompleksinin iqtisadiyyatının dinamik inkişafı üçün taxılın, ətin, südün və digər qida məhsullarının tədarükü ilə yanaşı ən yeni texnologiyanın istehsalata tətbiqi ilə də fəal məşğul olmaq lazımdır. Bu halda nəzərə almaq lazımdır ki, hətta dünyanın inkişaf etmiş ölkələrində belə müxtəlif növ qida məhsullarının emalında tətbiq olunan texnologiyalar biri-birindən ciddi şəkildə fərqlənirlər. Məsələn, bir ton şəkərin istehsalına Almaniya, Fransa və Avstriyada 6,5-7,0 ton, Rusiyada isə 9,0 ton çuğundur sərf edilir.

Almaniya, Fransa və Avstriyada bir ton nişastanın alınmasına 5,0-5,5 ton kartof işlədildiyi halda, Rusiyada bu rəqəm 8,0-9,0 tona yaxındır. Deməli, respublikamızda yüksək qənaətli texnologiyaların tətbiqi xammal ehtiyatlarının artırılmasına və qida məhsulları istehsalının rentabelli olmasına imkan verəcəkdir.

Insanın optimal həyat fəaliyyətinin təmin edilməsi üçün gündəlik 2,5-3,5 min kkal. enerci tələb olunur. Yetərli olmayan həyat fəaliyyəti üçün 1,5-2,5 min, kritik həyat fəaliyyəti üçün isə 1,0-1,5 min, kkal.lazımdır. 1,0 min kkal.-dən aşağı enerci istehlak edildikdə insanın nəinki iş qabiliyyəti zəifləyir, həmçinin onun ömrü də qısalır. Insanların enerciyə olan tələbatı norması daxilində tam qidalanmamanın minimum həddini müəyyən edən 1 günlük orta göstərici Yaxın Şərq və Şimali Afrika ölkələri üçün 1710-1990 kkal, Asiya və Sakit Okean ölkələri üçün 1710-1920 kkal, MDB ölkələri üzrə 1730-1960 kkal, o cümlədən Azərbaycan Respublikası üçün 1730 kkal. təşkil edir.

Əhalinin ərzaqla təminatında xüsusi əhəmiyyət kəsb edən yeyinti sənayesinin fəaliyyəti bütövlükdə bitkisiçlik və heyvandarlıq məhsullarının dinamik artımından asılıdır.

İdxaldan asılılıq həm indi, həm də gələcəkdə ərzaq təhlükəsizliyinə ciddi qorxu yaradır. Məhz bununla o fakt izah olunur ki, Finlandiyada istehsal olunan taxıl ABŞ-ın təklif etdiyi qiymətdən 4 dəfə bahadır, bununla belə finlər özlərinin yetişdirdikləri taxıla üstünlük verirlər. Onlar özlərinin ərzaq təminatlarını və təhlükəsizliklərini belə əziz tuturlar.

Avropa ölkələrinin kənd təsərrüfatı məhsulları bazarı da gömrük sistemi vasitəsilə etibarlı şəkildə mühafizə olunur. Beynəlxalq təcrübə belədir. Onu öyrənmək, bilmək və yerli xüsusiyyətlər nəzərə alınmaqla ölkəmizin təcrübəsində istifadə etmək lazımdır.

Beləliklə, hər bir ölkə öz daxili bazarını qorumalıdır ki, ora rəqibləri yol tapa bilməsinlər. Əlbəttə, bu qətiyyən o demək deyil ki, daxili bazar tamamilə bağlı olmalıdır". Bu məqsədə müvafiq və mümkün deyil, belə vəziyyət özünü doğrulda bilməz. Daxili bazar bəzi mallar üçün bağlı, bəzi mallar üçün isə açıq olmalıdır, xarici əmtəə dövriyyəsi balansı elə qurulmalıdır ki, onun saldosu müsbət olsun, gəlirli olsun. Nəzərə alınsa ki, hazırda bizim daxili bazarımızın 50-60 faizə qədəri idxal edilən ərzaq məhsulları ilə təchiz olunur, onda yaxın gələcəkdə onların idxalının 3-4 dəfə azaldılması zərurəti özünü açıqca büruzə verir.

Deyilənlərdən aydın olur ki, 2004-cü ildən 2006-cı ilə qədər ərzaq mallarının idxalı ilbəil artmış və 2006-cı ildə ən yüksək səviyyəyə - ümumi idxalın 39,7 faizinə çatmışdır. 2007-ci ildən başlayaraq bu səviyyə tədricən azalmağa başlamışdır. Bu müsbət meyl son illərdə də davam etməkdədir və ilk növbədə, İqtisadiyyatın aqrar sektorunda daxili istehsal məhsulunun sabit artımı ilə bağlıdır. Daxili məhsul istehsalının sabit artımını isə kənd təsərrüfatında təşkilati-idarəetmə islahatlarının uğurla həyata keçirilməsinin və respublika hökumətinin daxili bazarın qorunmasmda gördüyü himayəçilik tədbirlərinin nəticəsi kimi qiymətləndirmək olar.

Sirr deyil ki, satışa çıxarılan əcnəbi ərzaq malları heç də həmişə lazımi keyfiyyətdə olmur və çox hallarda nəzarətdən kənarda qalır.

Yararsız və zərərli mala cəlbedici görkəm verib onu sadəlövh alıcıya satmaq üçün "işbazlar" kimyəvi maddələrdən ustalıqla istifadə edirlər.

Sovetlər dövründə ərzaq məhsullarının standartlarına və keyfiyyətinə çoxpilləli ciddi nəzarət olunurdu. Hazırda respublikamızda bu funksiyaları əsasən Standartlaşma, Metrologiya və Patent üzrə dövlət Agentliyi və sərbəst istehlakçılar Birliyi həyata keçirirlər. Lakin geniş ictimaiyyətin, istehlakçıların özlərinin hamılıqla fəal iştirakı olmadan bu mürəkkəb məsələdə lazımi qayda yaratmaq müşkül olaraq qalacaqdır.

Təəccüb doğuran odur ki, idxalla səriştəsi var ya yox hamı - iri korporasiyalardan tutmuş fərdi şəxslərə qədər - məşğul olmağa can atır. Zay idxal mallarının keyfiyyətinə isə konkret cavabdehlik daşıyan olmur.

Ticarət obyektlərində tez-tez istifadə müddəti keçmiş ərzaq mallarına rast gəlirik. Hansı ki, onlar çıxdaş edilib dövriyyədən çıxarılmalı idilər.

Küçə ticarəti şəraitində qızmar günəşin altında, toz-torpağın içində satılan ət, süd, yumurta məhsullarının, kolbasa məmulatlarının, "Fanta"ların, "Pepsi-kola"ların və sairlərin keyfiyyətli olmalarına kim zəmanət verə bilər? Yol kənarlarında addımbaşı peyda olan və antisanitariya şəraitində fəaliyyət göstərən "sallaqxanalara" nə deyək?

Xarici ölkələrdən istifadə müddəti bilinməyən çoxlu miqdarda dondurma, pirocna, biskvitlər, bananlar və s. gətirilir. Məktəblilər və uşaqlar istər-istəməz belə keyfiyyətsiz məhsulların istehlakçılarına çevrilirlər. Halbuki, respublikamızda yetişdirilən nar, heyva, albalı, ərik, alma, gilas, armud, əncir, gilanar, xurma kimi çox faydalı, keyfiyyətli meyvə və giləmeyvə məhsulları tonlarla, min tonlarla fermer təsərrüfatlarının və fərdi təsərrüfatların sahələrində batıb qalır.

Respublikamızın bulaqlarının adları altında (bəzən də saxta etiketlə) buraxılan mineral suların keyfiyyəti və baha qiymətlərə satılması da narahatlıq doğurmaya bilməz.

Ümumiyyətlə, xarici mallara qapılarımızı açarkən məhsulların standart-laşdırılması və sertifikatlaşdırılması bazasının gücləndirilməsini, gömrük və ekoloji nəzarətin təkmilləşdirilməsini də unutmamalıyıq. Məsələ ondadır ki, sertifikatlaşdırma xammala deyil, yalnız hazır məhsula şamil edilir. Bu

səbəbdən də tibbi-bioloci və epidemioloci normalara riayət etmədən xammalı asanlıqla kənardan gətirmək olur. Bununla belə biz inkar etmirik ki, təkcə idxal edilən mallar deyil, eyni zamanda ölkə daxilində istehsal olunan məhsullar da ekoloji cəhətdən zərərli maddələrlə çirklənirlər. Belə hallar ona görə baş verir ki, qida məhsullarının istehsalı, emalı və saxlanılması üzərində ekoloji nəzarətin səmərəli sistemi yoxdur. Insanların sağlamlığını qoruyub saxlamaqdan ötəri dünya bazarından ərzaq asılılığının ləğv edilməsi məsələsi gündəmdən düşməməlidir. Bu isə aqrosənaye kompleksinin ərzaq potensialının tam reallaşdırılmasını tələb edir.

Azad bazar münasibətləri şəraitində dövlət tənzimlənməsinin rolu məhdudlaşdırılsa da, inkar edilmir. Təbii ki, dövlət öz iradəsini məhsul istehsalçılarına zorla qəbul etdirməməli, azad rəqabəti məhdudlaşdırmamalı, məhsul bazarında inzibati amirlik etməməli, dolayı yollarla istehsalçıların gəlirlərini mənimsəməməlidir.

Ancaq başqa bir müdaxilə var ki, onsuz keçinmək olmaz. Məsələn, lisenziyaların verilməsi, vergi və gömrük dərəcələrinin müəyyən edilməsi, müxtəlif qadağaların və məhdudiyyətlərin qoyulması, çevik kredit siyasəti həyata keçirilməsi, əmtəə istehsalçılarının hüquqlarının qorunması və sairləri. Bütün bunlar təkcə dövlət üçün deyil, həmçinin azad sahibkarlığın inkişafı üçün də vacibdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi tənzimləyici rolu dövlət özündə saxlayır. Ərzaq təhlükəsizliyi dedikdə, əhalinin əsas qida məhsulları ilə təminatlı, etibarlı və yetərincə təchiz olunmasını, aclıq və az qidalanma qorxusunun olmamasını başa düşmək lazımdır.

Elmi-texniki tərəqqi şəraitində ərzaq təhlükəsizliyi anlayışı bir qədər dəyişmiş və təkmilləşmişdir. Indi o zəruri resurslar, potensial və təminatlar vasitəsilə dövlətin öz əhalisini qida məhsullarına olan ehtiyaclarını ödəmək qabiliyyətini əks etdirir. Yaxşı olar ki, bu vəzifə demoqrafik dinamikaya əlverişli təsir göstərməklə fizioloci qida normaları səviyyəsində əsasən yerli istehsal hesabına həyata keçirilmiş olsun.

Ərzaq təhlükəsizliyi əsas etibarilə idxal edilən qida məhsullarının xüsusi çəkisi ilə müəyyən edilir. İqtisad elmləri doktoru R.Ə.Balayev yazır: "Müasir dünyada ərzaq probleminin xüsusiyyətlərindən biri onun təkcə kənd təsərrüfatı çərçivəsində həll edilə bilməməsidir. Ərzaq problemi enerci, xammal, ekoloji və s.qlobal problemlərin həllini nəzərdə tutmaqla beynəlxalq münasibətlərdən, xüsusilə xarici ticarətin vəziyyətindən daha çox asılı olur. Məhz bu cəhətlər ərzaq problemini, sözün tam mənasında qlobal problemə çevirmişdir".

Qeyd edildiyi kimi, hələlik respublikanın qida balansında idxal malları çox yer tutur. Belə hal təkcə şəhərlərdə yox, əhalini yerli qida məhsulları ilə təchiz etməyə geniş imkanları olan kənd rayonlarında da mövcuddur. Yüksək kalorili zəruri qida məhsullarının əldə edilməsində alıcılıq qabiliyyəti məhdud olduğu üçün, əhalinin bir qismi məcbur olub çeşid seçimini dəyişir. Bele seçim edərkən enerci qıtlığı və qida maddələri qıtlığı daha ucuz və ekoloji cəhətdən

daha təhlükəli qida məhsulları ilə doldurulur, əvəzləşdirilir. Bu isə insanların sağlamlığına çox mənfi təsir göstərir. Belə vəziyyət sayları 1,0 milyondan artıq olan məcburi qaçqın və köçkünlər üçün xüsusilə səciyyəvidir. Ağır şərait və tam qidalanmama onların həyat fəaliyyətinə və gələcək nəsillərinə böyük zərbə vurur. Azərbaycanın hökuməti və dünya ölkələrinin xeyriyyə təşkilatları bu işdə əllərindən gələnləri əsirgəməməlidirlər,

Ümumi və sahə idxalında gətirilmiş ərzaq məhsullarını dinamikada təhlil edək.

Deyilənlərdən görünür ki, 1993-l996-cı illərdə ümumi idxalda ərzaq məhsullarının xüsusi çəkisi yüksək olmuşdur, yəni ümumi mütləq artım şəraitində 20-41 faizə bərabər olmuşdur. Eyni zamanda son altı ildə onun 39 faizdən 8 faizə qədər azalması müşahidə edilir, özü də gətirilmiş malların payı sahə idxalında 83 faizdən 48 faizə qədər enmişdir.

Idxalın ümumi həcmində ərzaq mallarının xüsusi çəkisinin ən yüksək həddi 1996-cı ilə düşür -378134 min ABŞ dolları və yaxud ümumi idxalın 39.3 %-i. Hansı ki, beynəlxalq təcrübəyə görə ümumi idxalın həcmində ərzaq mallarının 10 faizlik həddi normal, 20-25 faizlik hədd isə təhlükəli hesab edilir.

Aydındır ki, hələlik müəyyən miqdarda ərzağın idxalından imtina etmək mümkün deyil. Lakin gətirilən ərzaq və xammal üzərində gömrük və ekoloji nəzarəti sistematik yaxşılaşdırmaq şərtilə və tibbi-bioloci, eləcə də epidemioloci normalara riayət edərək müəyyən malların idxalını ağlabatan həddə saxlamaqla yerli istehsalın sabit artırılması yolu ilə respublkanı xarici bazann asılılığından tədricən azad etmək üçün elmi cəhətdən əsaslandırılmış tədbirlər işlənib hazırlanmalıdır.

Hər hansı bir ölkədə ərzaq təhlükəsizliyin səviyyəsi bilavasitə aşağıdakı əsas faktorların məcmusundan yaranır: növlər üzrə yerli ərzaq məhsulları istehsalı həcmindən; onun dinamikliyindən və sabitliyindən; əhalinin alıcılıq qabiliyyətindən; idxal edilən ərzağın həcmi və onun ödənilməsi üçün maliyyə imkanlarından.

Tədqiqatların göstərdiyi kimi, bu əsas prinsiplər zaman-zaman ciddi şəkildə pozulur və ona görə də etiraf etməliyik ki, respublikamızın ərzaq təhlükəsizliyi hələlik etibarlı qaydada təmin edilməmiş və müəyyən dərəcədə qorxu altındadır.

Yerli istehsalı dəstəkləmək və stimullaşdırmaq, həmçinin daxili bazarı qorumaq üçün xüsusi dövlət proqramı hazırlanıb həyata keçirilməli idi. Bu məqsədlə 1999-cu ildə Azərbaycan Hökuməti təşkilati-hüquqi xarakterli bir sıra tədbirlər irəli sürdü. Belə ki, Nazirlər Kabinetinin 27 fevral 1999-cu il 25 saylı qərarı ilə ərzaq təhlükəsizliyinin təmin edilməsində iştirak edən bütün malların və xammal ehtiyatlarının idxal bazasına yenidən baxılmış, yerli kənd təsərrüfatı və yeyinti məhsulları istehsalçıların məqsədli istifadəsinə yönəldilmiş bütün mallara və xammala yeni güzəştli gömrük rüsumları müəyyən edilmişdir.

Idxal edilən kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərinə gömrük rüsumları artırılmış, eyni zamanda respublikaya gətirilən kənd təsərrüfatı

texnikası, onların ehtiyat hissələri, qarışıq yem, toxum, gübrə, texnoloci avadanlıq, xammal və sairlər onlardan azad olunmuşlar.

Insanların ümumi tələbatları və ehtiyacları kompleksi çərçivəsində qidalanmanın aparıcı əhəmiyyətini ön plana çəkən K.Marks yazırdı: "Qida məhsullarının ərsəyə gətirilməsi bilavasitə istehsalçıların və ümumiyyətlə, hər növ istehsalın mövcudluğunun ən birinci şərtidir".

Bəşər tarixinin sosioloci təhlili göstərir ki, kifayət qədər təbii-iqlim, torpaq və maddi resursların mövcud olmasına baxmayaraq yer üzünün əhalisinin böyük bir hissəsi əsrlər boyu aclıqdan əziyyət çəkmiş və çəkməkdə davam edir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının - FAO-nun məlumatlarına əsasən 1992-ci ildən 1997-ci ilədək dünyada aclıq çəkən insanların sayı təxminən 40 milyon nəfər azalmışdır. Lakin bununla yanaşı, əvvəla, aclıq çəkənlərin azalması tempi çox aşağıdır. Bu tempin saxlandığı şəraitdə aclığa son qoyulması üçün 100 ildən çox vaxt tələb olunur. Digər tərəfdən, ayrı-ayn ölkələrdə aclıq çəkənlərin sayının artması halları da baş verir. FAO-nun məlumatlarına görə 2001-2006-cı illərdə dünyanın 27 ölkəsində aclıq çəkən insanların sayı artmışdır.2006-2008-ci illər üzrə məlumatlara əsasən dünyada 826 mln., o cümlədən, IEOÖ-də 742 mln. adam tam qidalanmır. Inkişaf etmiş və keçid dövründə olan ölkələrdə belə insanların sayı 34 mln.nəfər təşkil edir. Bunların 3/4 hissəsi Şərqi Avropa ölkələrinin və keçmiş SSRI-yə daxil olmuş ölkələrin payına düşür."

Əhalinin ərzaqla etibarlı təminatı hər bir dövlətin başlıca vəzifəsi kimi bütün cəmiyyətlərə mənsub olmuş, konkret şəraitə uyğun olaraq bu və ya digər dərəcədə tarixi ardıcıllıqla öz həllini tapmışdır. Və hər hansı bir ölkənin İqtisadi imkanlarından asılı olaraq bu məsələnin reallaşdırılması hər dəfə cari və perspektiv dövr üçün yeni tələblər baxımından qarşıya qoyulmuşdur. Əbəs yerə deyil ki, indi bu problem bəşəriyyət üçün nəinki geniş sosial və İqtisadi xarakter almış, hətta beynəlxalq siyasətin ən vacib faktorlarından birinə çevrilmişdir. Dünyanın müxtəlif ölkələrində vaxtaşırı ərzaq problemləri üzrə keçirilən ümumdünya konfransları və konqresləri bunu sübut edir.

"Ərzaq təhlükəsizliyi" ifadəsi 1972-1973-cü illərdə dünyada baş vermiş taxıl böhranından sonra FAO tərəfindən qəbul edilərək beynəlxalq İqtisadi leksikona kütləvi şəkildə daxil olmuşdur.

Hər bir vətəndaşın ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca meyarı olmaqla insan hüquqlarının ən əsaslarından biridir. BMT-nin Baş Məclisinin 1946-cı ildə qəbul etdiyi "Insanların İqtisadi, sosial və mədəni hüquqları haqqında Beynəlxalq Müqavilədə ac qalmamaq hüququ əsas insan hüquqlarının sırasına daxil edilmişdir. Dünya ərzaq təhlükəsizliyi haqqında Roma Bəyannaməsində (1996-cı il) "hər bir insanın yaşamaq hüququ və adekvat qidalanma hüququna uyğun olaraq sağlamlıq üçün təhlükəsiz və tam dəyərli ərzaq məhsullarına əlyetərlilik hüququnun" təmin edilməsinin zəruriliyi göstərilmişdir. Odur ki, bu hüququn təmin edilməsi Azerbaycan Hökumətinin ən vacib vəzifələrindən biri hesab edilir.

Sonra Ərzaq Təhlükəsizliyi Proqramı Avropa Komissiyasının (RESAL) tövsiyələrinə əsasən 1999-cu ilin yanvarında Azərbaycan Hökumətinin "Ərzaq təhlükəsizliyi üzrə hökumət komissiyasının yaradılması haqqında" qərarı ilə müvafıq layihə qəbul edilmişdir. *Azərbaycan Respublikası Prezidentinin 2 mart 2001-ci il 640 saylı sərəncamı ilə isə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabineti, Dövlət Aqrar Islahatlar Komissiyası, aidiyyatı üzrə nazirliklər, komitə və təşkilatlar tərəfindən icraata qəbul edilmişdir.*

Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından Avropa Birliyinin TACIS proqramı, Alman Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ), Türk Əməkdaşlıq və Inkişaf Agentliyi (TIKA), Israil Xarici Işlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Mərkəzi və Kənd Təsərrüfatı və Kənd Rayonlarının Inkişafı Nazirliyinin Kənd Təsərrüfatının inkişafı üzrə Beynəlxalq Əməkdaşlıq Mərkəzi (Çl-NADÇO), Dünya Bankı, Beynəlxalq Inkişaf Assosiasiyası (IDA), Kənd Təsərrüfatının Inkişafı üzrə Beynəlxalq Fond (IFAD), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), NATO-nun Ərzaq və Kənd Təsərrüfatını Planlaşdırma Komitəsi, eləcə də Misirin, Niderlandın, Çinin və s. dövlətlərin beynəlxalq aqrar proqramları, habelə aqrar sahənin ayrı-ayrı problemləri ilə məşğul olan digər beynəlxalq və elmi-texniki təşkilatlar, onların nümayəndəlikləri ilə səmərəli əməkdaşlığın təməli qoyuldu. Ilk dövrdə bu təşkilat və proqramların dəstəyi ilə ölkəmizdə aqrar islahatına təkan verəcək yerli və sahə əhəmiyyətli layihələr həyata keçirilməklə, yeni formalaşan aqrar sahibkarlar üçün nümunələr yaradılmasına başlanıldı. Əldə edilən nailiyyətlər daha əhatəli, regional və respublika əhəmiyyətli investisiya layihələrinin həyata keçirilməsinə inam yaratdı. Onlarla belə layihələrdən Dünya Bankının, Beynəlxalq Inkişaf Assosiasiyasının və IFAD-ın maliyyə dəstəyi ilə həyata keçirilən "Nümunəvi özəl təsərrüfatlar", "Kənd təsərrüfatının inkişafi və kreditləşdirilməsi", "Dağ və yüksək dağlıq ərazilərin inkişafı", "Azərbaycan kənd investisiya layihəsini", Almaniya hökumətinin qrantı hesabına GTZ təşkilatı ilə birgə həyata keçirilən "Kənd təsərrüfatında özəl təşəbbüslərin dəstəklənməsi", Yaponiya hökumətinin qrantı hesabına "Azərbaycan Respublikasında ərzaq məhsulları istehsalının artırılması" layihələrini və proqramlarını göstərmək mümkündür. Bu layihələr və proqramlar, eləcə də beynəlxalq və xarici ölkələrlə əməkdaşlıq çərçivəsində aqrar sahənin yüzlərlə mərkəzi və yerli icra orqanlarının işçiləri və mütəxəssisləri, alimlər, həmçinin sahibkarlar beynəlxalq təcrübəni öyrənmək məqsədilə bir sıra xarici ölkələrdə - Qərbi və Mərkəzi Avropa, Yaxın və Uzaq Şərq, Cənubi-Şərqi Asiya, Afrika ölkələrində, ABŞ-da, Kanadada və s. olmuş, seminar və kurslarda iştirak etmişlər.

Bəzi qabaqcıl ölkələrdə orta hesabla adambaşına istehlak edilən qida məhsullarınm ümumi kalorililiyi elmi cəhtdən əsaslandırılmış normalara yaxın olarsa belə, onun tərkibi (istehlakın ümumi həcmində ayrı-ayrı ərzaq növlərinin xüsusi çəkisi) çox hallarda tibbi rasionlara uyğun gəlmir, yəni hər hansı bir

ərzağın kəsiri, çatışmaması digərinin artıq istifadəsi ilə örtülür, əvəzləşdirilir. Əslində isə hər nemətin özünəməxsus ləzzəti, orqanizm üçün öz gərəkliyi, öz faydalılığı var. Bioloci nöqteyi-nəzərdən uzun müddət onların bir-birilə müəyyən miqdarda "üzləşdirilməsi", "əvəzləşdirilməsi" yolverilməzdir. Məsələn, D.l.Mendeleyev cədvəlindəki elementlərin praktiki olaraq hamısını özündə cəmləşdirən, tərkibində 250-yə yaxın müxtəlif maddə saxlayan, "təbiətin özünün hazırladığı ecazkar məhsul" (I.P.Pavlov) olan südü heç bir başqa ruzi növü əvəz edə bilməz.

Azərbaycanın zəngin təbii torpaq və iqlim durumu ərzaq məhsullarının əsas istehsalçısı olan bitkiçiliyin, heyvandarlığın ahəngdar inkişafı üçün etibarlı zəmin yaratmışdır. Buna görə də yaxın və uzaq keçmişimizə nəzər salsaq görərik ki, yurdumuzda tarixən aclıq təhlükəsi olmamış (müharibələr, təbii fəlakətlər illəri istisna olmaqla), yalnız zaman-zaman müəyyən ərzaq məhsullarının qıtlığı özünü büruzə vermişdir. Başqa sözlə desək, diyarımızda ümumi ərzaq çatışmazlığı ilə bağlı siyasi xarakterli problemler deyil, təbii kataklizmlər və demoqrafik dəyişikliklərlə əlaqədar icrası çox da asan olmayan ərzaq təminatını yaxşılaşdırılmaq məqsədini güdən sosial-İqtisadi mahiyyətli cari proqramlar mövcud olmuşdur.

Qeyd etmək lazımdır ki, İqtisadçıların fikrinə görə hər bir ölkənin ərzaqla təminatı vəziyyətini düzgün qiymətləndirmək üçün ərzaq probleminin həllini mərhələlərə bölməklə dinamikada təhlil etmək lazımdır. Bunların birincisi xroniki tam qidalanmamanın qarşısını almaqla bağlıdır ki, bu da gündə adambaşına 1800-2000 kkalori (kkal) istehlak etməklə əhalinin sadəcə təkrar istehsalına şəraitin təmin edilməsinə imkan verir. Ikinci mərhələ ərzaq ehtiyatlarının o həcmlərinə nail olunması ilə səciyyələnir ki, gündə 2300-2800 kkal istehlak edilsin və əhalinin sabit artımı təmin edilmiş olsun. Sabit miqdarda, hətta qida rasionu elementlər üzrə balanslaşdırılmamış olsa belə, gündə 2800-3600 kkal. istehlak etməyə imkan verən ərzaq ehtiyatları həddi üçüncü mərhələyə xasdır. Qida məhsullarının zülal, vitamin və digər komponentlərlə balanslaşdırılmış istehlak səviyyəsi dördüncü mərhələyə məxsusdur. Bu parametrlərə bir vacib və qiymətli element də - ekoloji cəhətdən təmiz qidalanma - əlavə olunduqda onlar beşinci mərhələnin tələblərinə uyğun gəlirlər. Altıncı mərhələ əhalinin bütün sosial qrupları tərəfindən balanslaşdırılmış və ekoloji cəhətdən təmiz məhsulların yetərincə bol istehlakını nəzərdə tutur. Və nəhayət, yeddinci mərhələ - insanın bioloci təbiətini, mənəvi durumunu təkmilləşdirməyə imkan verən və uzunömürlüyün rəhni olan fəal həyat fəaliyyətini təmin edən qida strukturudur.

Hazırda dünyada hələlik elə bir dövlət yoxdur ki, ərzaq probleminin heç olmasa beşinci mərhələsinin tələblərini tam şəkildə həll etmiş olsun. Yalnız o istisna oluna bilər ki, ayrılıqda götürülmüş hər bir ölkədə əhalinin bəzi sosial təbəqələri beşinci və altıncı mərhələlərin məziyyətlərindən zövq alırlar.

FAO-nun (1946-cı iidə BMT-nin xüsusi qurumu statusunu almış Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı təşkilatının) məlumatlarına görə yer

üzünün bütün əhalisinin hər bir nəfərinin gündəlik orta qida məhsulları istehlakı 2600 kkal., dünyanın inkişaf etmiş ölkələrində 3330, o cümlədən Qərbi Avropa ölkələrində 3380, Azərbaycanda isə 2800 kkal. təşkil edir.

Qeyd etmək lazımdır ki, bizim respublikamızda ərzaq məhsullarının ümumi kaloriliyi əsasən rasion normalardan artıq olub tərkibində çoxlu karbohidratlar cəmləşdirən çörəyin, çörək məhsullarının, kartof və şəkərin hesabına əldə olunur.

Zülallara olan tələbat çox hallarda bitki zülallarının hesabına ödənilir ki, amin turşularının tərkibinə görə onlar heyvanat mənşəli zülallara bərabər tutula bilməz.

Hazırda vitamin çatışmazlığı və mineral tərkibin struktur cəhətdən qeyri-tarazlığı açıqca müşahidə edilir. Başqa sözlə, ümumi kaloriliiyin nisbətən yetərli olduğu halda, əhalinin qida rasionunun tərkibcə qeyri-tarazlılığı ərzaq probleminin ən ciddi təzahürüdür.

Əhalinin müxtəlif qruplarının ərzaq məhsullarına olan tələbatları onların yaşı, peşəsi, əmək şəraiti, milli xüsusiyyətləri, yaşadığı coğrafi məkan kimi şərtləndirici amillər nəzərə alınmaqla müəyyənləşdirilir.

Ərzaq istehlakı normalarını müəyyən etmək üçün müxtəlif növ məhsulların enerci tutumunu, yəni onların malik olduqları kalorilik "gücünü" bilmək lazımdır. Alimlərin hesablamalarına görə, yüz qram kərə yağında 734, şəkərdə 390, qoyun ətində 206, çovdar çörəyinde 204, mal ətində 154, yumurtada 150, kartofda 89, süddə 62, almada 40, yerkökündə 36, kələmdə isə 27 kilokalori vardır.

Həyat göstərir ki, qidalanmanın fizioloci normalarından kənarlaşma insanın heyat fəaliyyətinə ciddi ziyan vurur.

Normal həyat fəaliyyəti aşağıdakı faktorlardan asılıdır: qidanın kaloriliiyindən, istehlak olunan əsas qida maddələrinin (zülalların, yağların, karbohidratların, mineral maddələrin və vitaminlərin) miqdarından, təhlükəli, yeni tərkibində toksik maddələr olan ərzaqların qəbul edilməsindən; insanların psixoloci əhval-ruhiyyəsindən; insanların sağlamlığına, əkinçiliyin və heyvandarlığın məhsuldarlığına təsir edən iqlim-hava və ekoloji streslərdən; alkoqolun və narkotiklərin istifadəsindən.

Qida rasionunun təhlili göstərir ki, çörək məhsullarının, südün, ətin, kartofun tərkibində yağ, şəkər və digər zəruri və əvəzedilməz maddələr vardır.

Məhz ərzağın bu qrupları qida rasionunda ümumi kaloriliyin 90 faizini təmin edirlər. Əhali ərzaq məhsulları ilə təkcə kəmiyyət baxımından deyil, eyni zamanda, keyfiyyət və təhlükəsizlik nöqteyi-nəzərdən də düzgün təmin olunmalıdır.

Hazırkı şəraitdə əhalinin ərzaq məhsullarına, emal sənayesinin isə kənd təsərrüfatı xammalına tələbatının ödənilməsində məhsul istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi İqtisadi imkanların tərkib hissəsi və səmərəliliyinin yüksəldilməsinin mühüm amillərindəndir. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalının artırılması, keyfiyyətinin yüksəldilməsi

müasir İqtisadi inkişafın öz mahiyyətindən irəli gəlir və keyfiyyət istehsalın səmərəliliyinin yüksəldilməsinin mühüm ehtiyat mənbəyi kimi çıxış edir.

Məlumdur ki, qida məhsulları toksik maddələrin bir növ akkumulyatorları hesab edilirlər. Özü də bu maddələr kənd təsərrüfatı bitkilərinin, heyvanların və quşların bəslənməsindən başlayaraq onların emalı, saxlanması və satışına qədər istehsalın müxtəlif mərhələlərində baş verə bilirlər. Torpağm özü, mineral və üzvi gübrələr, hava aerozolları, su və sairlər toksikantların mənbələri ola bilərlər.

Ərzaq probleminin sosial aspekti respublikanın ayrı-ayrı rayonlarında ət-süd və bitkiçilik məhsullarının bəzilərinin təchizatındakı qıtlıqla izah olunur ki, bu da əhalinin həmin zəruri qida məhsullarına olan tələbatın ödənilməsində ərazi differensiallaşdırma dərəcəsinin tədricən azalmasına gətirib çıxarır. Bir sıra sosial-İqtisadi və təşkilati-texniki xarakterli faktorlar qida məhsulları istehlakının səmərəliləşdirilməsi prosesinin ləngidilməsini gücləndirirlər. Onların ən başlıcası kənd təsərrüfatı məhsulları istehsalının inkişafi sürətilə əsas qida məhsullarına xeyli dərəcədə yüksək bazar qiymətlərinin mövcudluğu şəraitində əhalinin pul gəlirlərinin artımı arasındakı qeyri-mütənasiblikdir.

Əhalinin real gəlirlərinin nisbətən zəif artımı ərzağın əldə edilməsinə yönəldilən xərclərinin ümumi tərkibinə mənfi təsir göstərmişdir. Əgər 1990-cı ildə əhalinin hər nəfərin ümumi xərclər çərçivəsində ərzağa yönəldilmiş xərc payı 56 faizdən çox deyildisə, 2002-ci ildə bu rəqəm 71-72 faizə yüksəlmişdir ki, bu da kasıblığın bariz göstəricisidir. Müqayisə üçün qeyd edək ki, Amerika Birləşmiş Ştatlarında son illərdə əhalinin ailə büdcəsinin ümumi xərc həcmində ərzağa çəkileən xərclərin xüsusi çəkisi 18-20 faiz həddini keçmir. Bu fakt ona dəlalət edir ki, Azərbaycanda gəlirlərə və həyatın keyfiyyətinə görə arzuolunmayan cəmiyyətin təbəqələşməsi prosesi gedir, əhalinin az bir qrupunun yüksək gəlirləri onların əhalinin çox hissəsindən azalması hesabına formalaşır.

Yoxsulluğun azaldılması hazırda beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri bir problemdir. Əgər əvvəllər yoxsulluq, əsasən, əhalinin gəlirlərinin səviyyəsi və onun ərzaqla təminatı ilə ölçülürdüsə, hazırda bu məfhum daha geniş məna kesb edir. Bu gün yoxsulluğun azaldılması, eyni zamanda, əhalinin istehsal resurslarından, o cümlədən, torpaqdan, su ehtiyatlarından istifadə etməsi, habelə, işlə təmin olunması, təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, bütün səviyyələrdə kişilərlə qadınların hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, habelə, ətraf mühitin yaxşılaşdırılması insan üçün layiqli həyat şəraitinin təmin edilməsi deməkdir.

Hazırda dünya ölkələrinin əksəriyyətində yoxsulluq probleminin həlli mühüm məsələ kimi qarşıya qoyulur. DB-nin hazırladığı Dünyanın inkişafı haqqında məruzəyə (2000/2001) əsasən XXI əsrin başlanğıcında dünya əhalisinin demək olar ki, yarısının (2,8 milyard nəfər) gündəlik gəliri 2 ABŞ dollarından,

1,2 milyard nəfərin gündəlik gəliri isə 1 ABŞ dollarından aşağıdır. Doğulan hər 100 uşaqdan 6-sı bir yaşa, 8-i isə 5 yaşa çatanadək tələf olur. Məktəb yaşına çatmış hər 100 uşaqdan 23-ü təhsil almaq imkanından məhrumdur. Bu problemləri həll etmək üçün hazırda dünyanın 70-ə yaxın ölkəsində yoxsulluğun azaldılması üzrə strategiyanın hazırlanması prosesi gedir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluğun azaldılmasında makro-İqtisadi sabitliyin əldə olunması və bazar prinsiplərinə əsaslanan İqtisadiyyatın formalaşmasına yönəlmiş islahatların həyata keçirilməsi həlledici rol oynayır.

8.4. Bazar İqtisadiyyatı şəraitində İqtisadi təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətləri

Azərbaycan Respublikası öz müstəqilliyinin ilk illərində bir sıra təhlükəli problemlərlə qarşılışmışdır. Həmin problemlər arasında xarici təcavüz nəticəsində ərazimizin 20%-nin erməni işğalçıları tərəfindən qəsb edilməsi, inflyasiyanın «tüğyan» etməsi nəticəsində əhalinin İqtisadi vəziyyətinin pisləşməsi, onun zəruri yaşayış vasitələri ilə təminatının kəskin şəkildə azalması xüsusilə diqqəti cəlb edir. Həmin dövrdə ölkəmizdəki mövcud siyasi-İqtisadi durum, eləcə də müstəqilliyimizi istəməyən xarici və daxili siyasi qüvvələr bu problemin həllini son dərəcədə təhlükəli həddə gətirib çıxardılar. Azərbaycan kifayət qədər zəngin bir ölkə olmasına baxmayaraq, bütün neqativ qüvvələr ölkənin İqtisadi potensialını hərəkətə gətirməyə imkan vermədi. Əhali dünyada qlobal səciyyə daşıyan aclıq, yoxsulluq və müharibə təhlükəsi ilə üz-üzə gəldi. Köhnə İqtisadi sistemdə minimum da olsa sosial müdafiəyə uyğunlaşmış əhali kortəbii bazarın qanunları qarşısında aciz qaldı. Onlardan bir qismi onsuz da məhdud olan vəsaitlərini zəruri yaşayış vasitələrinin əldə olunmasına sərf etməklə var-yoxdan çıxdılar. Keçmiş ittifaq respublikaları ilə İqtisadi əlaqələrin pozulması iş yerlərinin kütləvi surətdə bağlanmasına, müəssisələrin iflic vəziyyətə düşməsi isə insanların yaşayış minimumundan məhrum olmasına gətirib çıxardı. O zamanın real gerçəkliyindəki İqtisadi təhlükəsizliyin ən ümumi cəhətləri ilə yanaşı, bu spesifik cəhətin mövcudluğu respublika hökumətindən daha çevik təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini tələb edirdi. Həmin tədbirlər içərisində ölkənin İqtisadi potensialının İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün optimal payının müəyyən edilməsi mühüm rol oynayır. Bu o deməkdir ki, Azərbaycanın İqtisadi potensialı bir tərəfdən İqtisadi islahatların nəticələrinin reallaşmasına, İqtisadi inkişafın yüksəlməsinə, digər tərəfdən, ərazimizin işğaldan azad edilməsinə cəlb olunmalıdır. Bu, bir daha göstərir ki, Azərbaycanın mövcud vəziyyəti üçün təhlükəsizlik problemlərinin həlli bütün mənalarda (İqtisadi, siyasi, mənəvi, sosial və s.) strateci əhəmiyyətli məsələdir.

İqtisadi təhlükəsizliyin bütün təhdidlərinin bütövlükdə ümumiləşdirilməsi göstərir ki, onlar İqtisadiyyatın ən vacib sferalarını əhatə etmiş, insanın həyat

fəaliyyətinin fundamental əsaslarına toxunmuşdur. Məlum oldu ki, struktur cəhətdən yenidənqurma maraqları altında aparılan, lakin istehsalın tənəzzülünə gətirib çıxaran İqtisadi siyasətin həyata keçirilməsinin özü də milli təhlükəsizliyin əsaslarına zərbə vurmaqla, inkişafı süni olaraq ləngidir.

Amerika İqtisadçısı V.Leontyevin təbirincə, bazar və sahibkarlıq İqtisadiyyatın yalnız «yelkənidir» və sükansız idarəetə, təcrübə və xəta metodu ilə bazar uzun müddət inkişaf istiqamətini və troektoriyasını axtaracaqdır.

Müstəqilliyimizin ilk illərində xalqın tələbi ilə hakimiyyətə gələn Ümumi Milli Liderimiz Heydər Əliyev ölkənin təhlükəsizlik problemlərinin həlli istiqamətində mühüm addımlar atdı və tezliklə problemləri həll etdi. Bu da Heydər Əliyevin böyük dövlətçidik və idarəçilik təcrübəsindən irəli gəlirdi.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin strateci məqsədi şəxsiyyətin həyatı və inkişafı üçün münasib şəraitin, cəmiyyətin sosial-İqtisadi və hərbi-siyasi sabitliyinin yaradılması və dövlətin bütövlüyünün qorunması, daxili və xarici təhdidlərin təsirinə qarşı uğurlu müqavimət göstərilməsi sayılır. Azərbaycanın İqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət strategiyası hər şeydən əvvəl istehsal potensialının və elmi-texniki potensialın lazımi səviyyədə qorunub saxlanmasına, əhalinin həyat səviyəsinin son həddkəmiyyətinə qədər aşağı düşməsinə yol verilməməsinə, əhalinin ayrı-ayrı təbəqə və qrupları, ayrı-ayrı millət və xalqları arasında münaqişələrin aradan qaldırılmasını tələb edir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə dövlət fəaliyyətinin bəzi vacib müddəaları Azərbaycanın sosial-İqtisadi inkişaf proqnozu və hər növbəti il üçün dövlət büdcəsi layihələrinin işlənib hazırlanması prosesində həyata keçirilir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət strategiyası həyata keçirilən İqtisadi siyasət çərçivəsində işlənib hazırlanır və reallaşdırılır. Həmin İqtisadi siyasətin əsas istiqamətləri şəxsiyyətin İqtisadi vəziyyətinin sabitliyinə, cəmiyyətin, dövlətin sosial-İqtisadi sabitliyinə nail olunması, vətəndaşların konstitusiya hüquqlarına və azadlıqlarına əməl edilməsi sayılır. Bu məqsədlə İqtisadiyyata dövlət təsirinin nizamlı və etibarlı sistemi yaradılmalıdır. Həmin sistem ən az itkilərlə mühüm İqtisadi dəyişikliklərin tənzimlənməsini həyata keçirməyə imkan verməli, həm də təhlükəsiz səviyyədə öz üzərinə ölkə İqtisadiyyatının idarə edilməsi və qorunub saxlanması funksiya-larını götürməyə qabil olmalıdır. Bunun üçün dövlətin İqtisadiyyata müdaxiləsinin sərhədləri və meyarları, xüsusilə də dövlət sektorunun sərhədləri dəqiq müəyyən edilməli, eləcə də dövlət tənzimlənməsinin səmərəli metodlarının inkişafı təmin edilməlidir.

«Milli təhlükəsizlik haqqında» AR Qanunun 17-ci maddəsində qeyd edilir ki, «... İqtisadi sahədə milli təhlükəsizliyin təmin edilməsi Azərbaycan Respublikasının milli İqtisadiyyatının və İqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır». Qanunda həmçinin göstərilir ki, respublkanın İqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün aşağıdakı tədbirlər görülməlidir:

- İqtisadi potensialın artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə İqtisadi müstəqilliyin təmin olunması;

- ölkə İqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi;

- ölkədaxili və beynəlxalq maliyyə təisisatları arasında qarşılıqlı sərfəli əməkdaşlığın gücləndirilməsi, daxili və xarici maliyyə ehtiyatlarının ölkə İqtisadiyyatının inkişafına yönəldilməsi;

- İqtisadi potensialın qorunması məqsədi ilə büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;

- İqtisadiyyatın inkişafının təmin edilməsi məqsədi ilə bank sisteminin təkmilləşdirilməsi;

- İqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi;

- İqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması;

- İqtisadi sahədə həyata keçirilən sosial yönümlü islahatların hüquqi təminatının təkmilləşdirilməsi;

- milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədi ilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması;

- enerci ehtiyatlarının istehsalı, nəqli, nəqliyyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi vasitəsi ilə respublikanın dünya İqtisadiyyatına inteqrasiyası;

- İqtisadi fəaliyyət sahəsində cinayətkarlığa qarşı mübarizə aparılması.

Bundan başqa, qanunvericiliyə əsasən, ölkənin sənaye potensialının saxlanılması və möhkəmləndirilməsi üçün dövlət xarici sərmayəçilərə verilmiş zəmanətlərə riayət etməklə, xarici hüquqi və fiziki şəxslərin iştirakı ilə yaradılmış müəssisələrin istifadəsinə, yaxud mülkiyyətindəki İqtisadi obyektlərin vəziyyətinə və istismarına nəzarət etməlidir.

Onu da qeyd edək ki. qanunvericiliyə görə, respublikanın strateci ehtiyatlarının istifadəsi üzrə müqavilələrin bağlanmasında və yerinə yetirilməsində milli təhlükəsizliyin təmin olunması tələbləri mütləq nəzərə alınmalıdır.

Qanunda həmçinin ölkədə daxili bazarın vahid və müstəqil maliyyə sisteminin, milli valyutanın qorunması, maddi və maliyyə vəsaitlərinin ölkə hüquqlarından qanunsuz çıxarılmasının qarşısının alınması, kommunikAsiya və energetika sisteminin fasiləsiz və etibarlı fəaliyyətinin təmin olunması məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi təsbit olunur.

Qeyd etmək lazımdır ki, İqtisadi strategiyanın başlıca məqsədi Azərbaycanda İqtisadi artımın davam etdirilməsini təmin etməkdən ibarətdir. Şübhəsiz ki, bu yeni əsasda və bazar İqtisadiyyatının yeni institutlarının köməyi ilə baş verməlidir. Bu, prinsip etibarı ilə, İqtisadiyyatın başqa bir strukturunun formalaşmasını və kapitalın İqtisadiyyatın yeni İqtisadi inkişaf istiqamətinə axını üçün şərait yaratmağa qabil olan sənaye-maliyyə və bank strukturlarının yaradılmasını göstərir. Struktur siyasətə belə yanaşmanın fərqləndirici xüsusiyyəti sahələrarası və əmtəə-məhsul yanaşmalarının uzlaşdırılmasından

ibarətdir. Əlbəttə, bazar müəyyən edə bilər ki, hansı növ məhsulları və hansı həcmdə istehsal etmək sərfəlidir. Əmtəəni əldə edənə qədər istehsalçı yalnız təxmini bilər ki, onun rentabelliyi və gəlirliliyi necədir. Lakin istiqamətlər, öz-özlüyündə «artım dəhlizi» makroİqtisadi tənzimlənmənin tərkib hissəsi kimi struktur siyasət çərçivəsində işlənib hazırlanır. Odur ki, yeni struktur siyasəti kəsiyində bu və ya digər əmtəə-məhsul dəstinin seçilməsi real əmtəə bazarlarının dərindən öyrənilməsi əsasında həyata keçirilə və ödəmə, qaytarma və mənfəət normasına əməl etmə prinsiplərinə cavab verə bilər.

Qeyd etmək lazımdır ki, mikroİqtisadi səviyyədə struktur siyasətinin həyata keçirilməsi gedişində qarşıda bir sıra vəzifələr durur. Bu məqsədlə, İqtisadi cəhətdən səmərəli müəssisə və təşkilatların inkişafının qorunub saxlanması və stimullaşdırılması, qeyri-səmərəli İqtisadi strukturların ləğv edilməsi və ya yenidən təşkili və qiymət artımlarını dayandırmaq məqsədilə və İqtisadi subyektlərin bazar davranışı normalarının tətbiqi üçün razılaşdırılmış prosesin təşkili həyata keçirilməlidir.

Bundan başqa, təsərrüfat sistemində fəaliyyət göstərən müəssisələrin rolunu və yerini müəyyən etmək, qeyri-səmərəli müəssisələrin ləğv prosesini təşkil etmək, dövlət müəssisələrinin idarə edilməsinin səmərəliliyini yüksəltmək, məhsulları dövlət ehtiyaclarını təmin etmək üçün zəruri olan müəssisələrin siyahısını tərtib etmək (hərbi sifarişlə işləyən müəssisələr) olduqca vacibdir.

İqtisadi təhlükəsizlik tələblərinə əməl edilməsinin zəruri şərti perspektiv xarakterli, həm elmi və innovasiya, həm də istehsal və investsiya səviyyəli lahiyə və proqramlar sisteminin reallaşdırılması sayılır.

Dövlət tərəfindən həyata keçirilən sosial siyasət vətəndaşların sabit İqtisadi vəziyyət şəraitində, onların həyat səviyyəsinin yüksəldilməsinə uyğun olaraq cəmiyyətin birləşməsinə kömək etməlidir. Əhalinin orta aylıq pul gəlirlərinin artımında son vaxtlar müşahidə edilən müəyyən pozitiv irəliləmələr pul ödəmələrinin xeyli ləngimələri, müxtəlif sosial-demoqrafik qrupların gəlirlərində differensiallaşmanın güclənməsi fonunda baş verdi. Cəmiyyətin varlılara və kasıblara təbəqələşməsi prosesi davam edir ki, bu da sosial münaqişələrin meydana çıxmasının potensial təhlükəsini yaradan qeyri-sabitləşdirici amil kimi çıxış edir.

Bununla yanaşı İqtisadi siyasətin reallaşması cəmiyyətin təbəqələşməsinin dərinləşməsi ilə müşahidə olunmamalı, böhran dövrünün ağırlığı əhalinin müxtəlif sosial qrupları arasında bərabər və ədalətli bölüşdürülməlidir. Bu şəraitdə İqtisadi cəhətdən güclü qrupların artımının tənzimlənməsinə yönəldilə bilən kəsərli mexanizm yaratmaq lazımdır. Yüksək məhsuldarlığa malik əməyin, cəmiyyətdə sosial gərginliyin yumşaldılmasının stimulu kimi əmək haqqının əsas funksiyasını bərpa etmək və dövlətin bu məsələlərin həllində rolunu artırmaq zəruridir. Əmək haqqının ödənilməsi müddətlərinin pozulmasına görə mülkiyyət formasından və idarəçilik tabeliyindən asılı olmayaraq, müəssisə, təşkilat və idarələrin rəhbərləri üzərinə maddi məsuliyyətin tətbiq edilməsi məqsədəuyğundur.

Ölkənin strateci maraqlarını və elmi-texniki müstəqilliyini təmin edən elmi-texniki potensialın qorunub saxlanılması və inkişaf üçün, ölkənin İqtisadi təhlükəsizliyinin təmin edilməsi vəzifələrinə uyğun olaraq dövlətin elmi-texniki siyasətinin istiqamətlərini müəyyən etmək tələb olunur. Əsaslı tədqiqatların istiqamətləri üzrə dövlət proqramlarını işləyib hazırlamaq, qabaqcıl texnologiyaların yayılmasının dövlət stimullaşdırılmasının müxtəlif formalarından istifadə etməklə İqtisadiyyatda əlverişli innovasiya iqlimi yaratmaq və elmtutumlu rəqabət qabiliyyətli məhsulların yerli istehsalçılarının müdafiəsini təşkil etmək zəruridir.

Keçid dövründə investisiya siyasətinin əsas istiqaməti investisiya fəallığının yüksəldilməsinə kömək edən, ölkə İqtisadiyyatının yenidən qurulması üçün özəl yerli və xarici investisiyaların cəlb olunmasına imkan verən əlverişli mühitin formalaşması olmalıdır.

Qeyd etmək lazımdır ki, keçid dövründə ölkənin maliyyə-kredit sisteminin möhkəmləndirilməsi üzrə tədbirlər işləyib hazırlamaq zəruridir. Bu məqsədlə vergi sisteminin səmərəliliyinin yüksəldilməsi, vergilərin miqdarının azaldılması və onların yığılmasının yaxşılaşdırılması, büdcə kəsrinin maliyyələşdirilməsinin qeyri-inflyasion metodlarının inkişafı olduqca vacibdir. Bundan əlavə, ümumdövlət prioritetlərindən çıxış etməklə maliyyə resurslarının səmərəli olaraq yenidən bölüşdürülməsi və milli müdafiə xərclərinin səmərələşdirilməsi məsələlərinə də xüsusi fikir verilməlidir.

Qeyd etmək lazımdır ki, inflyasiyanın cilovlanması siyasətində adətən büdcə kəsirinin azaldılmasına və normalaşdırılmasına meyl edilir. Lakin büdcə siyasətində xərclərin gəlirləri ötüb-keçməməsinə əsaslanan sadə hesabı yanaşma təhlükəlidir. Gəlirlərin əldə olunmasına istiqamətlənmiş struktur və sənaye siyasəti olmadan büdcə kəsiri ixtisarının İqtisadiyyatda müsbət nəticələrə gətirib çıxarmasına inanmaq olmaz.

Keçid dövrünün indiki mərhələsində inflyasiyanın aşağı salınmasının başlıca istiqaməti və ən mürəkkəb vəzifələrindən biri – qiymətlərin sabitləşdirilməsinin və məhsul istehsalçılarının ümumi qiymət səviyyəsinə güclü təsir göstərən təbii inhisarlarda onların aşağı salınmasının həllindən ibarətdir. Aydındır ki, əgər tələb təklifi üstələyirsə, onda İqtisadiyyat qıtlıq şəraitindədir, əgər pul kütləsi kapitalın və əmtəə kütləsinin təbii dövriyyəsinin tələb etdiyindən daha yüksək templərlə artırsa, onda qiymətlərin artımı üçün ilkin şərtlər göz qabağında olacaqdır. Lakin o da doğrudur ki, qiymət artımını dayandırmaq üçün pul kütləsinin süni olaraq ləngidilən artımı İqtisadiyyata birbaşa olaraq, ziyan vurur, ödəməmələr adlanan böhran, həqiqətdə isə dövriyyə kapitalının qeyri-maliyyələşdirilməsi meydana çıxır. Dövriyyə-kapitalının maliyyələşdirilməsini təzələmədən büdcəyə mənfəətdən ödəmələr, əlavə dəyər vergisi daxil olur, müəssisəlr isə dövriyyə kapitalının təkrar istehsalını qoruyub saxlamaq, vaxtlı-vaxtında əmək haqqını ödəmək üçün vəsaitlərə malik olmurlar.

Pul kütləsinin tənzimlənməsi tədiyə qabiliyyətli tələbin və inflyasiyanın tənzimlənməsinin ən sadə üsuludur. O, İqtisadiyyata sərt inzibati təsir metodlarını xatırladır. Inflyasiyanın cilovlanmasının daha mürəkkəb və çoxamilli üsulu istehsal xərclərinin və qiymətlərin sabitləşdirilməsinin təmin edilməsi sayılır. Inamla təsdiq etmək olar ki, qiyməti yalnız monetar siyasət istiqamətində, daha doğrusu, pul emissiyasının sərt tənzimlənməsi yolu ilə sabitləşdirmək mümkün deyildir. Qiymətlər liberallaşdırıldıqdan sonra nə qədər çox vaxt keçərsə, bir o qədər aydın olar ki, qiymətlərin sabitləşməsi istehsal və tədavül xərclərini sabitləşdirmədən, eləcə də istehsalı inkişaf etdirmədən mümkün deyildir. Bu vəzifəni yalnız qiymətlərin eyni vaxtda buraxılması vasitəsilə həll etmək olmaz. Burada rəqabətin inkişafı üçün şərait yaratmaq üzrə bütöv tədbirlər sistemi tələb olunur. Bu məqsədlə kiçik və orta müəssisələrin sayının əhəmiyyətli dərəcədə artırılması, əhali əmanətlərinin stimullaşdırılması amili kimi qiymətli kağızlar bazarının inkişafı və investisiya layihələrinin həyata keçirilməsi üçün vəsaitlərin cəlb edilməsi olduqca vacibdir. Bundan başqa, maliyyə-bank sistemi müəssisələri ilə ticarətin, sənaye və kənd təsərrüfatı sahələrinin rentabellikləri arasındakı fərqin azaldılmasına xüsusi diqqət yetirilməlidir. Bu, etibarlı bankların, maliyyə və sığorta şirkətlərin sayının artımı, fiziki və hüquqi şəxslərə göstərilən xidməti tərkibinin genişləndirilməsi, habelə tələb hiss edilən əmtəələrin istehsal həcmlərinin artırılması zamanı mümkündür. Onu da qeyd etmək lazımdır ki, hal-hazırda maliyyə-bank və sığorta əməliyyatlarının rentabelliyi istehsalın rentabelliyini on dəfələrlə, ayrı-ayrı əməliyyatlar üzrə isə yüz dəfələrlə ötüb keçir.

Strateci təhlükəsizlik maraqlarına əməl etməyin əsas istiqamətlərindən biri bazar İqtisadiyyatının çevik tənzimləmə sisteminin yaradılmasından ibarətdir. Aydındır ki, öz-özlüyündə tənzimləmə təhlükəsizliyə zəmanət vermir. O, nəinki faydalı, həmçinin özünü doğrultmayan tənzimləmə formalarına bərpa etmək istədikdə ziyanlı da ola bilər. Hər şeydən əvvəl, unutmaq olmaz ki, söhbət sadəcə olaraq İqtisadiyyatın tənzimlənməsindən deyil, onun bazar modelinin tənzimlənməsindən gedir. Burada təkcə öz-özünü tənzimləmə mexanizminin pozulmasına deyil, həm də bu mexanizmlərin daha səmərəli işi üçün şərait yaratmağa nail olmaq vacibdir. Bunun üçün bazar subyektləri bütövlükdə bazar İqtisadiyyatının inkişafı, struktur siyasətin vəzifələri, dövlət köməyinin istiqamətləri, bazar təchizatı və kəsirləri, proqnozlaşdırılan makroİqtisadi göstəricilər və s. haqqında kifayət qədər tam informasiyaya malik olmalıdarlar. Əlbəttə, bu qədər mürəkkəb vəzifələrə yalnız dövlət idarəetmə strukturları deyil, həm də ictimai və xüsusi analitik mərkəzlər yerinə yetirirlər. Ən ümumi şəkildə dövlətin rolu bazar İqtisadiyyatında səbəb-nəticə və digər asılılıqların dərk edilməsindən, milli təhlükəsizliyin təhdid olunduğu kortəbii inkişaf anlarının xəbərdar edilməsindən, perspektivdə daha böyük mənfəət verməyə qabil olan sferaların müəyyən edilməsindən ibarətdir.

İqtisadi təhlükəsizliyin mahiyyəti və strategiyası yeni struktur siyasəti əsasında İqtisadi artımın bərpası, istehlak və investisiya tələbinin ödənilməsi,

qiymətli kağızlar bazarının inkişafı, rəqabət mühitinin yaradılması, mülkiyyət və menecment nisbətlərinin ortimallaşdırılması, bazar tipli dövlət tənzimlənməsinin çevik sisteminin yaradılması problemləri ilə qurtarmır. Əgər təhlükəsizliyin vəzifələri İqtisadiyyatın ayrı-ayrı sahələrində: maddi istehsal, elmi-texniki, sosial və xarici İqtisadi sferalarda, regionlarda konkretləşdirilməlidirsə, onda strategiya siyasətin kəsərli aləti olmayacaqdır.

İqtisadi təhlükəsizlik strategiyasının aspektlərindən biri də milli valyutanın sabitliyidir. Belə bir qənaətə gəlmək olar ki, monetarist yanaşma çərçivəsində Azərbaycanda hələ də valyutanın sabitliyini təmin etmək mümkün olmamışdır. Onu da qeyd edək ki, milli valyutanın sabitliyi problemi bütün bazar indikatorları sistemində çox mühüm əhəmiyyət kəsb edir. Qiymətlərin tam liberallaşması ilə manatın məzənnəsi istehsal və tədavül xərclərinə, qiymətlərin səviyyə və dinamikasına təsir edən ən başlıca amillərdən birinə çevrilmişdir. Belə ki, əgər 1992-ci ildə və qismən də 1993-cı ildə valyutanın məzənnəsi qiymətlərin dinamikasından asılı idisə, indi hazırda məzənnənin özü qiymətə təsir edən amilə çevrilmişdir. Bu özünü 1994-cü ilin oktyabrında göstərdi: həmin vaxt manatın məzənnəsinin kəskin surətdə aşağı düşməsi qiymətlərin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu.

Yerli istehsal miqyasının, xüsusilə də kənd təsərrüfatında, yüngül və yeyinti sənayedə istehsal miqyaslarının aşağı düşməsi, bu sahələrin aşağı rəqabətqabiliyyətliliyi, zəif gömrük siyasəti ilə əlaqədar olaraq pərakəndə əmtəə dövriyyəsinin həcmi təxminən 35-50%, Bakı və digər iri şəhərlərdə isə 70-80%-i idxal göndərişlərindən asılı oldu. Odur ki, manatın məzənnəsinin kəskin tərəddüdləri idxal əmtəələrinə daxili qiymətlərin yüksəlməsinə doğru aparır ki, bu da rəqabətin yoxluğu və istehsalın aşağı düşməsi zamanı yerli əmtəələrə qiymətlərin yüksəlməsi üçün siqnal sayılır.

Keçid dövründə İqtisadi təhlükəsizliyi təmin edən xarici İqtisadi fəaliyyət sahəsində ölkənin İqtisadi maraqlarına riayət etməklə xarici ticarətin inkişafının tənzimlənməsi və onun İqtisadi təhlükəsizliyinin təmin edilməsi, milli İqtisadiyyatın dünya təsərrüfatına inteqrasiyası şəraitində xarici İqtisadi fəaliyyətin İqtisadi səmərəliliyinin yüksəldilməsi məsələsinə xüsusi fikir verilməlidir.

İlk növbədə maşın, avadanlıq və digər yüksək texnoloci əmtəələrin istehsalının genişləndirilməsi hesabına ixrac potensialının gələcək inkişafı, idxalı əvəzetmə siyasətinin aparılması dünya əmtəə bazarlarında yerli ixracatçıların mövqeyini bərpa etmək və qoruyub saxlamaq məqsədilə xarici bazarlarda onların mənafelərinin qorunması qayğısına qalınmalıdır. Bundan başqa, xarici borcun ödənilməsi məqsədilə Azərbaycan üçün daha əlverişli şəraitin təmin edilməsi və ölkəni xarici bazarlarla birləşdirən nəqliyyat arteriallarının fasiləsiz işinin təmin edilməsi həyata keçirilməlidir.

Dövlət və onun regionları səviyyəsində ilk növbədə konstitusiya quruluşuna ziyan vuran, cəmiyyətin sosial sabitliyinə, İqtisadiyyata, müdafiə qabiliyyətinə, dövlətin İqtisadi fəaliyyət üzrə maraqlarına zərbə vuran İqtisadi

cinayətkarlıq təhdidlərinin əks olunmasını təmin edən tədbirlər həyata keçirilməlidir.

Qeyd etmək lazımdır ki, ölkədə milli İqtisadi təhlükəsizlik sisteminin formalaşmasında makroİqtisadi sabitliyin qorunub saxlanmasına, davamlı İqtisadi artıma və yoxsulluğun azalmasına imkan verən səmərəli pul-kredit və məzənnə siyasətinin həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Odur ki, neft gəlirlərinin artması şəraitində ölkədə makroİqtisadi əlaqələndirmə mexanizmini daha da gücləndirmək məqsədilə pul-kredit siyasətini İqtisadi siyasətin digər istiqamətləri ilə daha sıx uzlaşdırmaq tələb olunur.

Dövlətin pul-kredit siyasətinin əsas monetar istiqamətlərindən biri də İqtisadiyyatın monetizasiyasının daha da artırılmasından ibarətdir. Bunun üçün makroİqtisadi sferada, o cümlədən valyuta bazarında baş verəcək proseslərin çoxvariantlı inkişaf ssenariləri tərtib edilməli, pul kütləsinə təsir edə biləcək bütün potensial monetar və qeyri-monetar amillər qruplaşdırılmalı və bu əsasda pul təklifinin müvafiq dövr üçün proqnozları verilməlidir. Məhz bu baxımdan aparılan hesablamalar göstərir ki, optimal halda 2007-ci ildə pul kütləsinin 29%-ə qədər artması potensialı mövcuddur ki, bu da İqtisadiyyatın monetizasiyasının yaxşılaşması baxımından əlverişli parametrdir. Lakin bununla belə, İqtisadi təhlükəsizliyini qəbul edilmiş astana kəmiyyətlərinin səviyyəsinə rəğmən İqtisadiyyatın pula təminatı səviyyəsi hələ xeyli geri qalır. Belə ki, İqtisadiyyatın monetizasiya səviyyəsi və yaxud M2 aqreqatının ÜDM-də xüsusi çəkisi 10-12%-i ötmür ki, bu da İqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (50%) 38-40 faiz bəndi aşağıdır.

2007-2009-cu illərdə ölkənin valyuta gəlirlərinin xeyli artacağı haqqında verilən proqnozlar bu dövrdə pul kütləsinin xeyli genişlənməsinə əsas yaradır. Belə ki, proqnozlaşdırılan dövrdə M2 pul aqreqatının illik artımının 29-37%, M3 pul aqreqatının illik artımının isə 25-35% həcmində olacağı gözlənilir. Onu da qeyd edək ki, 2009-cu ildə pul təklifinin əvvəlki illərə nisbətən daha yüksək artım tempi ilə proqnozlaşdırılması, 2005-ci ildən başlayaraq əmanətlərin sığortalanması mexanizminin işə düşməsi ilə bağlı bank sisteminə etimadın xeyli yüksələcəyi və nəticədə onun depozit bazasının kəskin artacağı ehtimallarına söykənir. Bankın hesablamalarına görə bu dövrdə cəmi depozit bazasının illik artım tempi 29-37% səviyyəsində olacaqdır. Proqnozlara görə, ilk növbədə milli valyutada depozit bazasının kəskin artması gözlənildiyinə görə M2 pul aqreqatının artıqmının M3 pul aqreqatının artım tempinə nisbətən daha yüksək olacağı ehtimal edilir. Hesablamalar göstərir ki, nəticədə bu dövrdə pulun dövretmə sürətinin orta illik göstəricisinin M2 aqreqatı üzrə azı 10-12%, M3 aqreqatı üzrə isə 15-20% yaxşılaşacağı gözlənilir. Lakin bununla belə İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən ölkəmizdə pulun dövretmə sürəti optimal astana kəmiyyətindən xeyli kənarlaşır (4 – 8 dəfə).

Qeyd etmək lazımdır ki, ölkədə aparılan uğurlu bank islahatı nəticəsində manatla geniş pul kütləsinin 2,5 dəfədən çox artaraq 1,75 mlrd. manata çatacağı və bu əsasda İqtisadiyyatın pulla təminatı səviyyəsinin nisbətən yaxşılaşacağı

gözlənilir. Eyni zamanda qeyd olunan göstəricinin İqtisadi təhlükəsizliyin beynəlxalq səviyyədə qəbul edilmiş astana kəmiyyətindən fərqi 2005-ci ildəki 43,3%-dən 2008-ci ildə 32%-ə enmiş, 2009-cu ildə isə 27%-ə qədər azalacaqdır.

Qeyd etmək lazımdır ki, pul siyasəti ilə fiskal siyasətin səmərəli şəkildə əlaqələndirilməsi məsələsinə xüsusi diqqət yetirilir. . Odur ki, pul təklifi parametrlərinin formalaşa biləcək bütün halları üzrə inkişaf ssenarilərinin və mümkün sterilizasiya variantlarının işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir ki, bu da pul kütləsinin adekvat səviyyəsini təmin etməyə imkan yaradır.

Bununla yanaşı, maliyyə bazarlarında faiz dərəcələrinin yüksəlməsi meyllərinin, inflyasiyanın artma səviyyədə olmasını, pul təklifinin genişlənməsi və İqtisadi artım proseslərində nəzərə alaraq, gələcəkdə yenidənmaliyyələşdirmə dərəcəsinin 9%-dən 11-13%-ə qədər qaldırılmasını məqsədəuyğun hesab edirik. Fikrimizcə, pul bazarlarında faiz dərəcələrinin aşağı salınmasının reallaşması gələcəkdə İqtisadi artımın sürətlənməsində kredit qoyuluşlarının rolunun artmasına daha əlverişli şərait yaradacaqdır. Kredit qoyuluşlarının illik artım templərinin 35-40% səviyyəsində nəzərdə tutulması və onun kəmiyyətinin 5,85 mlrd. manata qədər proqnozlaşdırılması nəzərdə tutulsa da, ÜDM-in daha yüksək templə artması nəticəsində kredit qoyuluşlarının ÜDM-də xüsusi çəkisinin azalması müşahidə olunacaqdır.

Proqnozlaşdırılan dövrdə tədiyə balansı sabit qalacaq və kapitalın hərəkəti hesabının müsbət saldosunun cari əməliyyatlar hesabı üzrə kəsiri tam örtəcəkdir. Bu isə tədiyə balansının bütün maddələri üzrə xarici valyuta ödənişlərini tam örtməklə yanaşı, dövlətin xarici ehtiyat aktivlərinin xeyli artmınıa səbəb olacaqdır.

Ölkənin pul-kredit siyasətinin səmərəliliyini artırmaq üçün daha əsaslandırılmış qərarların qəbuluna imkan verən İqtisadi tədqiqatlar bazası təkmilləşdirilməlidir. Bu zaman ekonometrik metodların daha geniş tətbiqinə xüsusi fikir verilməli, mütərəqqi ekonometrik modellərin tətbiqi genişləndirilməlidir. Eyni zamanda, yaxın vaxtlarda bank risklərinin qiymətləndirilməsinə və real sektorun ekonometrik modellərinin, habelə ölkə İqtisadiyyatının ümumi makromodelinin qurulub başa çatdırılmasına nail olunmalıdır. Son illərdə İqtisadi artımın sürətləndirilməsi, İqtisadiyyatın regional və sahəvi strukturunun optimallaşdırılması və bu əsasda yoxsulluğun tam aradan qaldırılması bank islahatlarının daha da dərinləşdirilməsini zəruri edir. Aparılacaq islahatlar son nəticədə bank sisteminin sabitliyinin qorunmasına, maliyyə vəsaitlərinin səmərəli şəkildə səfərbər edilməsinə, milli İqtisadi təhlükəsizlik sisteminin möhkəm dayaqlarının formalaşmasına kömək edəcəkdir.

Bank islahatlarının həyata keçirildiyi dövr ərzində bankların kapitalının 25 dəfədən çox artmasına baxmayaraq, onun ÜDM-ə nisbəti cəmi 2,9%, qeyri-neft ÜDM-ə nisbəti isə 4,0% təşkil edir. Odur ki, bank sisteminin İqtisadi əhəmiyyətinin artırılması, kapital bazasının genişləndirilməsi və sərbəst

maliyyə resurslarının bank sistemi vasitəsilə maksimum səfərbər edilməsi məqsədilə banklara minimum məcmu kapital tələbinin radikal olaraq artırılması siyasəti davam etdirilməlidir. Ölkədə İqtisadi təhlükəsizlik sisteminin formalaşması tələblərinə uyğun olaraq proqnoz hesablamalarına görə, banklara minimum məcmu kapital tələbinin 2008-ci ilin əvvəlinə 7,5 mln. ABŞ dollarına, 2009-cu ilin əvvəlinə isə 9,0 mln. ABŞ dollarına çatdırılması zəruridir. Bundan başqa, ölkədə bank kapitalının strukturunun şəffaflığının təmin edilməsi və postsovet məkanı ölkələrinə xas olan «süni kapitallaşmanın» qarşısının alınması üçün ciddi tədbirlər görülməlidir. Kapitallaşma ilə paralel surətdə bankların konsolidasiyası və iriləşməsi prosesi də güclənməlidir. Bunun üçün mütərəqqi korporativ standartların və yeni bank qanunlarının işlənib hazırlanmasına böyük ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, əhalinin və İqtisadi agentlərin inamının artmasına baxmayaraq, bank sistemi hələlik geniş İqtisadi tədbirləri maliyyələşdirəcək iri maliyyə resurslarına malik deyildir. 2005-ci ildə bank depozitlərinin ÜDM-ə nisbəti 12,1%, əmanətlərin ÜDM-ə nisbəti isə 4,3% təşkil edir. Həmin göstəricilər qeyri-neft ÜDM-ə nisbətdə müvafiq olaraq 20% və 5,9% təşkil edir.

Son dövrdə əmanətlərin sığortalanması sisteminin tətbiqi sərbəst maliyyə resurslarının bank sistemi vasitəsilə daha aktiv akkumulyasiya edilərək onların investisiyalara transformasiyasını təmin edən ən mühüm mexanizmlərdən biri kimi çıxış edir. Əksər İqtisadçıların təsdiq etdiyi kimi əhaliyə - zəmanət, banklara - daha geniş inam, İqtisadiyyata isə – investisiyalar lazımdır. Bütün bu ehtiyatların ödənilməsinin ən səmərəli vasitələrindən biri məhz əmanətlərin sığortası sisteminin tətbiqidir. Dünya ölkələrinin təcrübəsi sübut edir ki, əmanətlərin sığortası sistemi bank sisteminə etimadı artırmaqla, əhalinin yığımlarını irimiqyaslı investisiya prosesinə səfərbər edir. Məsələn, Qazaxıstanda əmanətlərin sığortası sistemi tətbiq edildikdən sonrakı 11 ay ərzində əmanətlərin həcmi 3 dəfədən çox artaraq 1,0 mlrd. dollara çatmışdır. Onu da qeyd edək ki, mütəxəssislərin məlumatlarına görə, bu sistemin tətbiqinədək Qazaxıstan banklarında əmanətlərin həcmi həmin vaxtda Azərbaycan banklarında olduğu qədər, yəni 285 mln. dollar olmuşdur.

Qeyd etmək lazımdır ki, bank sistemi investisiya resurslarını formalaşdırmır, o yalnız sahələrarası bölgüsünü təşkil etməklə sahələrarası maliyyə uyğunsuzluqlarını aradan qaldırır. Bunu nəzərə alaraq, İqtisadiyyatın maliyyə resurslarına tələbatının ödənilməsində dövlət vəsaitlərinin maliyyə sektoru vasitəsilə bölgüsü mexanizmlərinin inkişaf etdirilməsi zəruridir. Bu sahədə

respublikanın Sahibkarlığa Kömək Milli Fondunun təcrübəsi belə mexanizmlərin məqsədəuyğunluğunu bir daha təsdiq edir.

Respublikamızda «Banklar haqqında» qanun korporativ idarəetmə standartlarının daha geniş və tam tətbiqinə imkanlar yaradır. Bank sisteminin səmərəliliyinin artırılması, banklara etimadın daha da yüksəlməsi və Azərbaycan banklarının beynəlxalq maliyyə bazarlarına daha aktiv inteqrasiyasını təmin etmək üçün gələcəkdə həmin standartların banklarda tam tətbiqinin təmin edilməsi strategiyası davam etdirilməlidir. Bu məqsədlə banklarda strateci idarəetmə strukturunun formalaşdırılması, maliyyə və risk menecmenti sistemlərinin yaradılması və tətbiqi, səmərəli daxili nəzarət və daxili audit mexanizmlərinin təmin edilməsi üzrə normavtiv-hüquqi və təşkilati tədbirlərin görülməsini məqsədəuyğun hesab edirik.

Onu da qeyd etmək lazımdır ki, birmənalı olaraq qeyd edilməlidir ki, yalnız sağlam rəqabət mühiti bank sisteminin səmərəli artımını və beləliklə də, İqtisadiyyatın maliyyə resurslarına tələbatının tam ödənilməsini təmin edə bilər. Bundan başqa, ədalətli rəqabət mühiti bank məhsulları istehlakçılarının, yəni əhalinin, kiçik və orta sahibkarlıq subyektlərinin və bütövlükdə İqtisadiyyatın bank sektoru ilə münasibətlərinin bərabər şərtlər əsasında qurulmasını təmin edir. Bu isə ölkədə maliyyə təhlükəsizliyini formalaşdırmağın ən vacib amillərindəndir.

Hazırda respublikanın bank bazarında seqmentləşmə və məhdud rəqabət mühiti müşahidə olunmaqdadır. 2005-ci ildə dövlət banklarının məcmu bank aktivlərində xüsusi çəkisi 56,2%, əmanətlərdə xüsusi çəkisi isə 43,8% təşkil edir. Xeyli bazar payına malik olmasına baxmayaraq dövlət banklarının məcmu bank kapitalında xüsusi çəkisi cəmi 9,4% təşkil edir ki, bu da bank sisteminin riskliliyini artırır.

Belə ki, dövlətin pərakəndə bank xidmətləri bazarında çıxması bank sistemində azad rəqabət mühitini təmin edə biləcək ən mühüm vasitə hesab edilə bilər. Çox vaxt dövlət bankları bazar şərtlərinə əsaslanmayan kredit fəaliyyəti göstərir ki, bu da özəl banklar və bütbövlükdə özəl sektor üçün qeyri-bərabər şərtlərin yaranmasına səbəb olur. Dövlət banklarının üstün bazar şərtlərinə malik olması

onların inhisarçılıq mövqelərini gücləndirir, daha çox inzibati metodlarla idarə olunması isə bu bankların və nəticə etibarilə bütövlükdə bank sektorunun səmərəliliyinə mənfi təsir göstərir. Qeyd olunan səbəbdən, habelə İqtisadi artıma və İqtisadiyyatın diversifikasiyasına istiqamətlənmiş səmərəli bank sisteminin formalaşması üçün dövlət banklarının özəlləşdirilməsi strategiyasının tamamlanması zəruridir. Dünya təcrübəsi göstərir ki, dövlətin bank xidmətləri bazarında iştirakçı yalnız prioritet layihələrin, məsələn, ixracın stimullaşdırılması və dəstəklənməsi, regional infrastrukturun inkişafı kimi layihələrin maliyyələşdirilməsinə xidmət edən xüsusi bank strukturlarının yaradılması ilə təmin edilə bilər.

Hazırkı şəraitdə bank sisteminin bazarın boşluqlarına sirayət etməsi və regionlara doğru genişlənməsi mühüm əhəmiyyət kəsb edir. İqtisadi subyektlərin və əhalinin, xüsusilə də, regionların maliyyə ehtiyaclarının tam və dolğun ödənilməsi bank sistemi ilə yanaşı, maliyyə infrastrukturunun genişləndirilməsini tələb edir. Məhz bu baxımdan, ev təsərrüfatlarına və kiçik sahibkarlığa pərakəndə bank xidmətləri göstərilməsində mikromaliyyə institutları xüsusi əhəmiyyət daşıyır. İqtisadi artımın təmin edilməsində kiçik və orta sahibkarlığın oynayacağı mühüm rolu nəzərə alaraq, həmin maliyyə institutları üzrə normativ-hüquqi bazasının və institusional əsaslarının formalaşdırılması üçün zəruri təşkilati tədbirlər görülməlidir.

Qeyd etmək lazımdır ki, çeşidli maliyyə xidmətlərinin mövcudluğu İqtisadiyyatın diversifikasiyası və istehsal sahələrinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Məsələn, son vaxtlar ölkədə mənzil tikintisinin geniş vüsət aolması hamımızın gözü qarşısındadır. Əhalinin yaşayış şəraitini yaxşılaşdırmaq və İqtisadiyyatın bu sferasındakı artımının davamlılığını təmin etmək üçün ipoteka krediti mexanizmlərinin tətbiqi məqsədilə «Ipoteka haqqında» «Yaşayış-tikinti əmanət bankları haqqında» və s. qanun layihələrinin işlənib hazırlanmış və Milli Məclis tərəfindən qəbul edilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, ölkənin maliyyə-bank sisteminin təhlükəsizliyinin daha möhkəmləndirilməsi, bank

xidmətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, əhalinin və bütövlükdə İqtisadi sferanın maliyyə-bank xidmətlərinə çıxış imkanlarının mühitdə, maliyyə sektorunun digər seqmentlərində və korporativ sektorun özündə ciddi islahatların həyata keçirilməsini və bu tədbirlərin qarşılıqlı əlaqələndirilməsini tələb edir.

IX FƏSİL. DÖVLƏTİN NƏQLİYYAT SİYASƏTİ

Hər bir dövlətin İqtisadi potensialı, güclü və qüdrətli həm də onun malik olduğu nəqliyyat sektorunun inkişaf səviyyəsi ilə ölçülür.

İlham Əliyev

9.1. Azərbaycanda nəqliyyat vasitəsinin inkişafına dövlət qayğısı

Keçid dövrünün təcrübəsi göstərir ki, yaxın gələcəkdə Azərbaycan Respublikasında sürətli İqtisadi artımın əsas təminatı İqtisadiyyatın infrastruktur sahələrinin, xüsusi olaraq nəqliyyat sisteminin dinamik inkişafından çox asılı olacaqdır. Ölkəmizdə mövcud nəqliyyat növlərinin (dəmir yol, dəniz, hava, avtomobil və boru kəməri kimi) texnoloci səviyyəsinin yuksəldilməsinə əsas səbəb TRASEKA, eləcə də digər marşrutlar üzrə layihələr çərçivəsində daxili yük və sərnişin daşıma həcminin tədricən ilbəil artması, xarici investisiyaların İqtisadiyyatın bütün sahələrinə yönədilməsi nəticəsində istehsal müəssisələrinin sayının və istehsal imkanlarının artması, ərazimizin əsas transmilli nəqliyyat arteriyası kimi region dövlətləri arasında strateci cəhətdən tranzit mövqeyinin güclənməsi ilə bağlılıq və s. hesab olunur.

Müstəqillik əldə edildikdən sonra keçən son illər ərzində milli nəqliyyat sektorunun dinamikliyi daha sürətli inkişaf tempinə malik olmuşdur. Buna birbaşa «təkanverici qüvvə» 1998-ci ilin sentyabr ayında Böyük Ipək Yolunun bərpası üzrə Bakıda keçirilən Beynəlxalq Konfransda imzalanmış «Avropa-Qafqaz-Asiya» dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş olmuşdur. Bu saziş imzalandıqdan sonra Azərbaycanda İqtisadiyyatın hər bir sahəsi üzrə, o cümlədən nəqliyyat sektoruna investisiya qoyuluşlarının sürətli artım tendensiyası daha çox müşahidə edilməyə başlanılmışdır. Lakin buna baxmayaraq milli nəqliyyat sektorunun müasir səviyyəsinin dünya standartlarına çatdırılması üçün daha geniş həcmli yeni beynəlxalq investisiya qoyuluşlarının cəlbi vacib amildir. Məsələn, Avropanın nəqliyyat üzrə beynəlxalq ekspertləri tərəfindən ölkəmiz üzrə texniki İqtisadi əsaslandırmalara uyğun olaraq hazırlanmış layihələrdə nəqliyyatın bütün növlərinin infrastruktur komplekslərinin istismar səviyyəsini yaxşılaşdırmaq və daha da inkişaf etdirmək, sahəvi maddi-texniki bazanı möhkəmləndirmək üçün təxminən 900 milyon ABŞ dolları maliyyə vəsaiti tələb olunduğu müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, bütün nəqliyyat növləri arasında avtomobil nəqliyyatının üstün mövqedə olması, onun əsasən, dəmir yol, eləcə də digər nəqliyyat növləri ilə uğurlu rəqabət aparmaq imkanlarının ildən-ilə artması ilə bağlıdır. Beynəlxalq nəqliyyat üzrə ekspertlərin verdikləri proqnozlara görə

dünyada avtomobil nəqliyyatı üzrə mövcud parklarda nəqliyyat vasitələrinin artım tempi 2010-cu ilə kimi hər il təqribən 4-5 faiz təşkil edəcəkdir ki, bu da digər nəqliyyat növlərindən fərqli olaraq ən yüksək göstərici hesab olunur. Avtomobil nəqliyyatının ölkəmizdə digər nəqliyyat növləri arasında daşınmalar üzrə hər il artım faizinin yüksəlməsini nəzərə alaraq bu tendensiyasının ölkəmizdə də gələcəkdə davam edəcəyini güman etmək olar. Nəqliyyat sahəsi üzrə bir sıra müsbət irəliləyişlərin qeydə alınmasına baxmayaraq Azərbaycanda təəssüf ki, avtomobil nəqliyyatı seqmenti üzrə son illər bəzi bir sıra ciddi problemlər müşahidə olunmağa başlanılmışdır. Məsələn, ölkəmizdəki xarici avtomobil şirkətlərinin (əsasən, Türkiyə dövlətinə məxsus) beynəlxalq və daxili bazarlarda daşınma tarifləri orta hesabla təqribən hər kub metr (m^3) üçün 70-110, hər kiloqram üçün isə 0,20-0,35 ABŞ dolları təşkil edir. Nəticədə, ölkəmizdə fəaliyyət göstərən yerli və xarici iş adamları yüklərinin daxildə və xaricdə daşınması üçün İqtisadi cəhətdən daha aşağı fərqli daşınma tariflərinə malik xarici avtomobil yük daşıma şirkətlərinə (AYDŞ) müraciət edərək onların fəaliyyətinə birbaşa stimullaşdırıcı şərait yaratmış olurlar. Düzdür, Azərbaycanda az sayda rəqabət imkanlı milli «AYDŞ»-ləri də fəaliyyət göstərir. Lakin onların kredit və lizinq əməliyyatlarından kifayət qədər yararlana bilməməsi, yerli vergi rüsumlarının onlar üçün xarici şirkətlərlə müqayisədə kifayət qədər yüksək olması, mövcud nəqliyyat vasitələrinin keçmiş sovet avtomobilləri olması baxımından Avropa standartlarına cavab verməməsi, nəqliyyat üzrə milli sığorta sisteminin hələ tam formalaşmaması, yerli və xarici daşınma yuklərinin tapılmasında olan çətinliklər, daşınma tariflərinin nisbətən yüksək olması, beynəlxalq daşınmalarda kifayət qədər təcrübənin çatışmaması və s. səbəblər onların yerli və beynəlxalq avtomobil Nəqliyyat Xidməti Bazarında (NXB) rəqib xarici avtomobil şirkətlərilə rəqabət imkanlarını tam aşağı salır. Bundan başqa, Azərbaycanda Işveçrənin dünyanın 80 ölkəsində fəaliyyət göstərən 12 min işçini əhatə edən nəqliyyat-logistika şirkəti «Panalpina»nın filiallarının olması, eləcə də digər ölkələrin xarici logistika şirkətlərinin məsələn, Fransanın «Deugro Caspian Ltd», Almaniyanın «Keuhne & Nagel KG» və s. mövcudluğu yerli azsaylı milli nəqliyyat-logistika şirkətlərinin rəqabət nəticəsində sıxışdırılmasına, xarici AYDŞ-lərinin ölkəmizin NXB-na sərbəst daxil olmalarına, həmçinin daxili və xarici bazarlarda yüklərin axtarıb tapılmasında da onların fəaliyyətinə stimullaşdırıcı şərait yaradır. Beynəlxalq yük daşınmalarında iştirak edən milli nəqliyyat şirkətlərimizə Avropa Birliyinin TRASEKA layihəsi üzrə nəzarətedici müvafiq qurumları tərəfindən daim yüksək texniki və maliyyə tələbləri irəli sürülür. Belə ki, ölkəmizdə mövcud milli AYDŞ-lərinin ümumi nəqliyyat vasitələrinin təqribən 8-10 faizi Avropa standartlarına (Avro-1,2,3 və s.) cavab verdiyindən, yalnız onlar müvafiq kvotalara uyğun Avropa ölkələrinə yük daşıma imkanına malikdirlər. Qalanları isə MDB, Iran və Türkiyə ərazisinə yük daşınmalarında iştirak edə bilirlər (Iran və Türkiyə ərazisində avtonəqliyyat bolluğunu nəzərə alsaq, onların hələlik ən çox MDB ölkələrinə yük daşınmaları daha sərfəli hesab

olunur).Belə ki, ölkəmizdə 1993-cü ildən beynəlxalq avtomobil daşınmaları üzrə milli nəqliyyat assosiasiyası (ABADA) yaradılsa da, son on ildə bura yalnız 11 assosiativ üzv daxil olmuşdur. Ümumi Assosiasiyanın ölkəmiz üzrə nəzdində olan 180 ədəd avtomobildən yalnız 20 faizinin xarici ölkə istehsallı avtomobil olması və beynəlxalq standartlara cavab verməsi, onlara Avropa ölkələrinə yük daşınmalarda iştirak etmək imkanını verir. Bundan başqa, beynəlxalq ekspertlərin ölkəmiz üzrə apardığı təhlillər göstərmişdir ki, Azərbaycanın avtomobil nəqliyyat sektorunun dünya standartları səviyyəsinə çatdırılması üçün minimum 108,5 mln. ABŞ dolları vəsait tələb olunur. Məhz buna görə «ABADA», öz iş fəaliyyətində yaxın illərdə, assosiasiyanın üzvlərinin sayının artırılmasına, yerli sahibkarların müvafiq sahə üzrə zəruri analitik informasiya ilə təmin olunmasına, bu sahədə milli avtonəqliyyat şirkətləri ilə xarici şirkətlər arasında qarşılıqlı əlaqələrin yaradılmasına, beynəlxalq daşınmalar üzrə milli nəqliyyat şirkətlərinin əməkdaşlarının praktiki təcrübələrinin artırılmasına, yerli sürücülərin beynəlxalq NXB-da olan mövcud qanunvericilik toplusu haqqında məlumatlandırılmasına və s. istiqamətlərdə daha da yaxından köməklik etməli, yeni nəqliyyat firmaları yaratmaq istəyən yerli sahibkarlara (regionlar da daxil olmaqla) hüquqi və İqtisadi baxımdan informasiya dəstəyi verməsi və s. labüddür.

Son illərin statistik məlumatları göstərir ki, ölkəmizdə avtomobil nəqliyyatı üzrə sərnişin daşınmalarının həcmində (həm avtobus, həm də taksi nəqliyyatı daxil olmaqla) ciddi artım meylləri müşahidə olunmaqdadır. Belə ki, avtobus nəqliyyatı seqmenti üzrə aparılan irimiqyaslı özəlləşdirmə siyasəti nəticəsində özəl sektorun inkişafı daha dinamik xarakter almağa başlamışdır. Məhz bunun nəticəsidir ki, hal-hazırda Bakı və onun ətraf rayonlarında (taksi nəqliyyatı istisna olmaqla) hər gün 348 marşrut üzrə 3 mindən artıq, əsasən kiçik və orta tutumlu özəl sərnişin avtonəqliyyat vasitəsi xəttə çıxır ki, bu da paytaxt şəhərimiz üçün ərazi baxımından çox böyük göstəricidir. Avtomobil nəqliyyatı üzrə sahibkarlıq fəaliyyətinin sürətlə genişlənməsinə baxmayaraq, bu sahədə bəzi problemlər hələ də qalmaqdadır. Məsələn, 2002-ci il sentyabr ayında Ümummili Liderimiz Heydər Əliyev tərəfindən «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» verilmiş fərmanı ilə avtomobil nəqliyyatı da daxil olmaqla müxtəlif fəaliyyət növlərinə lisenziya tətbiqi ləğv edilmişdir. Bu qanun avtomobil nəqliyyatı üzrə fəaliyyət göstərən sahibkarlara böyük güzəştlər yaratdı.

Artıq MDB-nə daxil olan dövlətlərdə avtomobilqayırma sənayesi üzrə bir sıra irəliləyişlər nəzərə çarpmaqdadır. Məsələn, ölkəmiz kimi eyni vaxtda müstəqillik əldə etmiş Özbəkistan Respublikasında Cənubi Koreyanın «Daewoo» şirkətinin investisiyalarına dövlət zəmanətinin verilməsi ilə ilk dəfə olaraq yerli avtomobilqayırma sənayesinə 1996-cı ildən başlayaraq son illər ərzində 650 mln. ABŞ dolları məbləğində investisiya qoyulmuşdur ki, nəticədə bu müəssisənin illik istehsal gücü 200 min avtomobilə çatmışdır.

Avtomobilqayırma sənayesinin yeni inkişafı «dalğası» postsovet məkanı çərçivəsində Rusiya, Ukrayna, Türkmənistan və s. ölkələrdə intensiv xarakter daşımağa başlamışdır. Bunun da əsas səbəbi sənayenin bu sahəsinin digər sənayenin sahələrinin əlaqəli inkişafını sürətləndirməsi, çoxlu sayda əhalinin işlə təmin olunmasına imkan verməsi, ölkə regionlarının dinamik inkişafına, dövlətin ixrac potensialının artmasma kömək etməsi və s. hesab olunur. Qeyd olunanları nəzərə alaraq, Azərbayan Respublikasında da keçmiş Sovet dövlətlərinin müvafiq sahənin inkişafı, məşğulluğun təmin olunması, ixracın artırılması və s. təcrübələrindən yararlanmaq daha faydalı hesab oluna bilər.

Qeyd etmək lazımdır ki, ölkəmizin dəmir yol nəqliyyatı üzrə mövcud infrastrukturun istismarını yaxşılaşdırmaq və daha da inkişaf etdirmək (dünya standartlarına onun uyğunlaşdırılması prosesi nəzərdə tutulur), maddi-texniki bazanı möhkəmlətmək üçün TRASEKA layihəsi üzrə Avropa Birliyinin mütəxəssislərinin hesablamalarına görə minimum 242,5 mln. ABŞ dolları vəsait tələb olunduğu müəyyənləşdirilmişdir. Beynəlxalq maliyyə təsisatları ölkəmizdə dəmir yol nəqliyyatı üzrə dövlət inhisarçılığının aradan qaldırılması üçün struktur islahatların bu sahədə başlanılmasını bir neçə dəfə tələb etsələr də, hələlik bu problem öz həllini tapmamışdır. Ölkəmizdən fərqli olaraq postsovet dövlətlərinin bəziləri (Estoniya, Qazaxıstan, Rusiya və s.) artıq dəmir yol nəqliyyatında özəlləşmə siyasətini uğurla həyata keçirməkdədir. Nəticədə bu dövlətlərdə bu nəqliyyat sahəsinə son illər böyük həcmdə daxili və xarici investisiya qoyuluşlarının daxil olması sürətlənmiş, mövcud şəbəkə infrastrukturu, vaqon və lokomativ parkı tamamilə modernləşdirilmiş, daşınma tariflərinin aşağı salınması, xidmət keyfiyyətinin yüksəldilməsi səbəblərindən yük və sərnişin daşınma həcmi artmış, dövlət büdcəsinə ödəmələrin miqdarı bir neçə dəfə çoxalmışdır. Ümumiyyətlə, hazırda milli dəmir yol nəqliyyatı seqmentində mövcud olan problemlərin aradan qaldırılması yönümündə aşağıdakı tədbirlərin həyata keçirilməsini yaxın perspektiv üçün daha məqsədəuyğun hesab etmək olar: postsovet, həmçinin digər qabaqcıl dünya dövlətlərinin dəmir yol kompleksi üzrə özəl sektorun yaradılması istiqamətində apardıqları struktur islahatlar sahəsində təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiqi, nəticədə özəlləşmə prosesinin bu nəqliyyat növündə sürətləndirilməsi yönümündə intensiv işlərin görülməsi; dəmir yol magistral xətlərinin və hərəkət vasitələrinin saxlanılması, bərpası, eləcə də yük və sərnişin daşınmaları üzrə özəl nəqliyyat səhmdar cəmiyyətlərinin yaradılması sahəsində beynəlxalq praktikanın ölkəmizdə mərhələ-mərhələ tədricən tətbiqi; bu nəqliyyat növünün yaxın illərdə digər nəqliyyat növləri ilə (əsasən, avtomobil, dəniz, boru nəqliyyatı kimi) sərbəst rəqabət imkanlarının artırılması üçün, ilkin olaraq bu seqmentdə nəqliyyat (ekspeditor) şirkətlərinin (ilk növbədə neft və neft məhsullarının daşınması üzrə) formalaşdırılması; dəmir yol nəqliyyatı üzrə struktur islahatların aparılması sahəsində beynəlxalq maliyyə təsisatları tərəfindən ayrılan kreditlərə dövlət zəmanətinin verilməsi və s.

Hava nəqliyyatı bütün dünya ölkələrində olduğu kimi ölkəmizdə də İqtisadi cəhətdən ən mühüm və ən geniş inkişaf etmiş nəqliyyat növlərindən biri sayılır. Təhlil göstərir ki, son illərdə sərnişin və yük daşınmalarının həcminin azalma intensivliyi, müasir səviyyənin dünya standartlarından geri qalması prosesi və s. daha sürətli temp almışdır. Bütün bunları diqqətlə izləyən AYIB, DB və s. kimi beynəlxalq maliyyə təsisatlarının ekspertləri ölkəmizdə dövlət inhisarında olan yeganə ən böyük avia xidmətləri həyata keçirən «AZAL» avia konserninin verdikləri tövsiyələrə əsasən özəlləşdirilməsini dövlətimizə bir neçə dəfə təklif etmişlər. Bütün bunları nəzərə alan dövlətimiz «AZAL» şirkətinin tərkibində olan ilkin olaraq «AZAL Carqo Ltd» müəssisəsinin özəlləşdirilməsinin həyata keçirilməsini nəzərdə tutmuşdur ki, bu məsələnin də gedişatı öz həllini hələ də qeyri-obyektiv səbəblərdən tapmamışdır. Belə ki, müəssisənin artıq özəlləşdirilməsi məqsədi ilə xarici konsaltinq şirkəti tərəfindən hətta onun inventarizasiyası və qiymətləndirilməsi də həyata keçirilmişdir. Hal-hazırda bu şirkətin özəlləşdirilməsində beynəlxalq aviadaşımalar bazarında güclü mövqeyə malik olan Almaniyanın «Lufthansa» şirkəti daha çox maraqlıdır. Məhz investisiya müsabiqəsi vasitəsilə AZAL-ın özəlləşdirilməsi nəticəsində bu sahəyə investisiya axınlarının cəlbi daha məqsədəuyğun addım hesab oluna bilər. Artıq AZAL-ın tabeçiliyində olan bu və ya digər müəssisələrin özəlləşdirilməsi prosedurları uzandığı üçün xarici investorlar hələlik bu sahəyə geniş həcmdə investisiya qoymaq zərurətini hiss etmirlər. AZAL avia konserninin özəlləşdirilməyə olan digər zərurəti onun bir sıra beynəlxalq maliyyə institutlarından son illər həyata keçirilmiş layihələr üzrə aldığı xarici kreditlərin ümumi faizlərlə birlikdə həcminin təqribən 200 mln. ABŞ dollarını keçməsidir. AZAL-ın götürmüş olduğu kreditlərin tam ödənilməsi imkanlarını məhdudlaşdıran müxtəlif səbəblər vardır. Belə ki, AZAL-ın təyyarə parkının sərəncamından son illər işləmə müddətini başa vurmuş mülki təyyarələrin və helikopterlərin istismardan çıxarılması ilə əlaqədar olaraq ümumi balansda uçuşa yararlı kredit əsasında götürülmüş müasir azsaylı nəqliyyat vasitəsi qalmışdır ki, onların da istismarından kifayət qədər gəlir əldə edilə bilinməməsi səbəbindən alınan kreditlərin hamısının vaxtında ödənilməsi imkanları ləngiyir və yaxın perspektivdə tam qaytarılması mümkün deyildir.

Son illər Azərbaycan Respublikasında Avropanın və bir sıra Yaxın Şərq ölkələrinin avia şirkətləri Nəqliyyat Xidmətləri Bazarında (NXB) avia-daşımaların həcmində yüksək artım tempinə nail olmuşlar. Bu tendensiya yük və sərnişin daşınmalarında özünü daha qabarıq göstərməkdədir. Daşınmaların tərkibinin bu cür dəyişilməsi ölkəmizin dünya ölkələri ilə beynəlxalq İqtisadi əlaqələrinin genişlənməsini, həmçinin beynəlxalq marşrutlarda sərnişin, o cümlədən turist axınlarının strukturunun dəyişilməsini, eləcə də avia NXB-da yerli və xarici şirkətlərlə İqtisadi rəqabətin daha da artdığını bir daha təsdiq edir. Azərbaycanda fəaliyyət göstərən Avropanın qabaqcıl «British Airways», «KLM», «Lufthansa» və s. kimi avia şirkətləri həm tarif, həm keyfiyyət, həm

imic, həm təhlükəsizlik və s. baxımından AZAL-ı, eləcə də digər azsaylı müştərək yerli avia şirkətləri İqtisadi rəqabətdə «sıxışdırmağa» nail olmuşlar. Məsələn, Lüksemburqun (o, Avropada ən kiçik dövlət hesab olunur) ölkəmizdə fəaliyyət göstərən «Carqolux» avia şirkəti il ərzində hər ay vergilər şəklində dövlət büdcəmizə 600-800 min dollar vəsait ödəyir. Türkiyənin «Türk Hava Yolları» avia konsernin yalnız 2002-ci ildə ölkəmizdən əldə etdiyi mənfəət 97,5 mln. ABŞ dolları həcmində qiymətləndirilir. Məhz bu və ya digər səbəblər tezliklə AZAL-ın özəlləşdirilərək çoxsaylı rəqabətə davamlı özəl milli avia şirkətlərə bölünməsini, onların bazar mexanizmlərini qısa müddətdə mənimsəmə ehtiyacını, bu sektorda rəqabətin yeni forma və metodlarının, beynəlxalq səviyyədə müqavilə işləri üzrə təcrübələrin və s. öyrənilməsini tələb edir. Milli özəl sektorda avia daşımalarda fəaliyyət göstərən yerli müştərək «Silk Way Airlines» «IMAIR» və s. kimi şirkətlərin dünya standartlarına uyğun kifayət qədər yük və sərnişin təyyarələrinə malik olmaması, mövcud təyyarə parkının nəqliyyat vasitələrinin əksəriyyətinin keçmiş postsovet ölkələrində istehsal olunması, Avropa, eləcə də dünyanın əksər qabaqcıl ölkələrində həm texniki, həm təhlükəsizlik, həm də ekoloji baxımdan onların uçuşlarına qismən məhdudiyyətlərin tətbiqi, mövcud daşınma tariflərinin qeyri-elastikliyi, lizinq xidmətləri əsasında yeni nəqliyyat vasitələrini almaq imkanlarının məhdudluğu, xarici beynəlxalq maliyyə təsisatlarının kreditlərinin bu şirkətlər tərəfindən lazımi həcmdə alına bilinməməsi və s. səbəblər onların rəqabət imkanlarını milli və beynəlxalq avia NXB-da məhdudlaşdıran əsas faktorlardandır. Bütün bunları nəzərə alaraq AZAL avia konserni 2010-cu ilə kimi ölkəmizin Mülki Aviayasiyasının Inkişafı üzrə «Milli Proqram» tərtib etmişdir. Beynəlxalq və yerli bu sahə üzrə nəqliyyat ekspertlərinin hesablamalarına görə nəzərdə tutulan proqramın tam reallaşdırılması üçün minimum 400 mln. ABŞ dolları vəsait lazımdır. Həmin proqramda mülki aviasiyanın maddi-texniki bazasının modernləşdirilməsi, uzaq, orta və yaxın məsafələrə uçuş təyinatlı təyyarə və helikopterlərin alınması (eyni zamanda kənd təsərrüfatı aviasiyası üçün), həmçinin Gəncə, Yevlax, Şəki, Ağstafa, Lənkəranda regional aeroportların rekonsruksiyası və s. məsələlər əks olunmuşdur.

Qeyd etmək lazımdır ki, boru nəqliyyatı-digər nəqliyyat növləri ilə müqayisədə ən sürətli inkişaf dinamikasına malik nəqliyyat növü hesab olunur. 1994-cü ildən başlayaraq Ümummili Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə «Əsrin müqaviləsi» neft müqavilələrinin reallaşması yönümündə beynəlxalq neft şirkətləri tərəfindən ölkəmizin neft-qaz sektorunun inkişafına 5 mlrd. ABŞ dollarından artıq maliyyə vəsaiti ayrılmışdır. Neft-qaz sahəsi üzrə beynəlxalq ekspertlərin Xəzər dənizinin Azərbaycan sektorunda apardıqları tədqiqatlar göstərmişdir ki, ölkəmizin real neft ehtiyatları 600 mln. tondan artıq olmaqla, (əsasən, «Azəri-Çıraq-Günəşli» yataqları üzrə) qaz ehtiyatları isə («Şahdəniz» yatağı timsalında) 1 trln. kub. metrdən çoxdur.

Keçən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda hasil olunmuş neft

və neft məhsullarının dünya bazarlarına çıxarılması yönümündə yeni Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərlərinin çəkilməsi müstəqilliyimizin ilk illərində bu istiqamətdə atılan ilk addımlardan hesab olunur. Bakı-Supsa boru kəmərinin illik ötürmə gücü 6 mln., Bakı-Novorossiysk boru kəmərinin isə 6 mln. tondan bir qədər artıq neft və neft məhsullarının ötürülməsi üçün nəzərdə tutulmuşdur. Qeyd olunan boru xətlərinin ötürmə imkanlarının artırılması üçün əlavə texniki qurğular, məsələn, nasos stansiyaları qoyularsa, uyğun olaraq, hər iki kəmərin buraxılış imkanlarını 10 və 15 mln. tona kimi çatdırmaq mümkündür. Beynəlxalq ekspertlərin proqnozlarına görə 2005-ci ildən başlayaraq Azərbaycanın Xəzər dənizi sektoru üzrə neft hasilatı ildə 20 mln., 2010-2020-ci illərdə isə 75-100 mln. tona çatacaqdır. Təbii ki, belə bir gələcək reallığı nəzərə alaraq Azərbaycan hökuməti qarşısında yeni ixrac boru kəmərlərinin inşası bir neçə il bundan əvvəl ilkin zərurət kimi qarşıda durmuşdur. Nəhayət, bu problemin aradan qaldırılması üçün 2002-ci ilin sentyabr ayından başlayaraq Azərbaycan, Türkiyə və Gürcüstan dövlətləri arasında əldə olunan razılaşmaya əsasən Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin tikintisinin həyata keçirilməsinə başlanılmışdır. 2005-ci ilin axırlarından istismara verilən bu boru xəttinin 443 km-i Azərbaycanın, 248 km-i Gürcüstanın, 1076 km-i Türkiyədən keçməklə (ümumi uzunluğu cəmi 1767 km olmaqla), illik ötürmə gücü 50 mln. ton olmaqla, hasil olunmuş Azərbaycan neftinin Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxışını təmin etməlidir. Lakin buna baxmayaraq bu sahədə bəzi problemlər hələ də qalmaqdadır. Ölkəmizin ən yüksək həcmdə neft hasilatının yalnız 2007-2008-ci illərdə BTC-nin mümkün maksimum ixrac həcminə bərabər olacağını nəzərə alaraq qonşu sahəvi uyğun sektora malik dövlətlərin də bu layihədə iştirak etməsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi zəruri faktordur. Məsələn, BTC-nin iş prosesinə Rusiyanın böyük neft hasiledici şirkətlərinin qoşulmasını təmin etmək üçün bu yönümdə ciddi addımlar atmaq mümkündür. Bunun üçün Rusiya ərazisindən Bakı-Novorossiysk neft boru kəmərinin birbaşa ötürmə istiqamətini əks istiqamətə yönəltməklə, (qeyd edək ki, borunun texniki konstruksiyası buna tam imkan verir) onun BTC-a qoşulmasını təmin etmək, bu ölkənin idxal neft məhsullarının dünya bazarlarına çıxışını daha da asanlaşdırmaq olar. Bunu həmçinin qış vaxtı Qara dənizin Bosfor boğazında nəqliyyat vasitələrinin hərəkəti zamanı yaranan tıxaclarla bağlı gərgin vəziyyət müşahidə olunduğu halda həyata keçirmək daha məqsədəuyğun hesab oluna bilər. Belə ki, bu boru xətti konstruksiya baxımından əslində, Rusiyadan Bakının neftayırma zavodlarına xam neftin nəqli üçün nəzərdə tutulmuşdur. Rusiyadan başqa, Qazaxıstanın da bu layihəyə qoşulması məqsədilə dövlətlərarası konkret rəsmi razılaşmalar əldə olunmalıdır. Belə ki, Qazaxıstanın Xəzərətrafı regionda çox böyük enerci - 4 mlrd. ton neft və 2 trln. kubmetr qaz ehtiyatlarına malikdir. Artıq Ukrayna dövləti tərəfindən BTC-a rəqib olan təklif olunmuş Odessa-Brod neft boru kəməri (illik buraxılış gücü 9-14 mln. ton olmaqla) 2002-ci ilin may ayından istismara verilmişdir. Bu boru

xətti Ukrayna vasitəsi ilə tranzit neft və neft məhsullarının Şimali və Şərqi Avropa ölkələrinə (Polşa, Çexiya, Almaniya timsalında) ötürülməsi məqsədilə layihələndirilmişdir. Qazaxıstan dövləti ilə, Ukrayna arasında rəsmi səviyyədə aparılan danışıqlar Qazaxıstanın bu layihədə iştirak etmək perspektivlərinin mümkünlüyünü göstərmişdir. Məhz buna görə Azərbaycanla Qazaxıstan arasında (BTC-na qoşulmaq istiqamətində) tezliklə «Aktau-Bakı» (Xəzər dənizindən keçməklə) sualtı neft boru kəmərinin çəkilməsi, yaxud, yeni tankerlərlə neft daşınmalarının həcminin bir neçə dəfə artırılması yönümündə konkret razılaşmalar əldə olunmalıdır.

Azərbaycanın son illər Şahdəniz yatağında böyük həcmli qaz ehtiyatlarının kəşfindən sonra 2002-ci ilin mart ayının 14-ü ABŞ-ın Vaşinqton şəhərində Gürcüstan, Azərbaycan və Türkiyənin iştirakı ilə beynəlxalq investorlar və hökumətlərarası müvafiq «Bakı-Tbilisi-Ərzurum» (BTƏ) yeni boru xəttinin inşası barədə saziş imzalanmışdır. Layihənin icrası artıq başlanılmışdır və 2006-cı ilin sonuna qədər tikintinin başa çatdırılması planlaşdırılır. BTƏ layihəsinin dəyəri 2,6 mlrd. ABŞ dolları olmaqla, 1050 km məsafə boyunca uzanacaqdır ki, bu da Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasına tam imkan verəcəkdir. Ölkəmizin neft strategiyasının ildən-ilə daha yüksək inkişaf tempinə malik olması nəticəsində neft-qaz sektoru çərçivəsində məşğulluq siyasətinin təmin olunması yönümündə bir sıra tədbirlər görülsə də bu sahədə də bəzi problemlər hələ də qalmaqdadır. Hal-hazırda ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərdə işləyənlərin yalnız müəyyən bir qismini yerli mütəxəssislər təşkil edir. Məhz buna görə dövlət səviyyəsində neft-qaz sektoru üzrə yerli mütəxəssislərin iştirak payının artırılması məqsədilə ciddi addımlar atılmalıdır. Milli İqtisadiyyatımızın müxtəlif sahələrində mövcud işsizlik probleminin tamamilə aradan qaldırılması üçün yaxın gələcəkdə Neft Fondundan effektiv istifadənin istiqamətlərini müəyyənləşdirmək çox vacib faktordur. Bunun üçün yaradılmış milli Neft Fonduna toplanmış maliyyə vəsaitlərindən (artıq 1 mlrd. ABŞ dollarından artıqdır) səmərəli istifadə olunması, regionlar üzrə bu vəsaitlərdən yeni xidmət və istehsal sahələrinin yaradılmasına, mövcudlarının rekonsturksiya olunmasına, regional istehsal və xidmət infrastukturlarının modernləşdirilməsinə yönəldilməsi və s. zəruridir. Sonda milli neft-qaz sektorunun inkişafı üçün yekun olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsini vacib hesab edirik:

- ölkəmizin neft-qaz sektoru üzrə qabaqcıl dünya ölkələrində olduğu kimi özəl sektorun formalaşdırılması yönümündə struktur islahatların həyata keçirilməsinin təmin edilməsi;
- BTC, BTƏ layihələrində irihəcmli neft-qaz ehtiyatlarına malik regional dövlətlərin də iştirakının alternativ rəqib layihələrə nəzərən ölkəmiz tərəfindən İqtisadi baxımdan stimullaşdırılması;
- milli neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaradılmış Neft Fondunun vəsaitlərindən İqtisadiyyatın qeyri-neft seqmentləri üzrə

səmərəli istifadə istiqamətlərinin müəyyənləşdirilməsi və s.

Şəhər Elektrik Nəqliyyatının (ŞEN) ölkəmizdə gələcək inkişaf perspektivlərini təmin etmək üçün bu sahədə mövcud problemlərin aradan qaldırılması yönümündə dövlətimiz tərəfindən çox böyük səmərəli tədbirlərin həyata keçirilməsi labüd məsələdir. ŞEN-na daxil olan-tramvay, trolleybus, metropoliten nəqliyyatı hələ də dövlət sektorunda olduğundan, özəl sektorun bu sahədə fəaliyyətinin (əsasən, tramvay, trolleybus nəqliyyatında) təmin olunmaması, mövcud maddi-texniki təchizatın getdikcə aşağı səviyyəyə düşməsinə, infrastrukturun müasir dünya səviyyəsindən geri qalmasına, son illər yeni hərəkət xətlərinin çəkilməməsinə, yeni nəqliyyat vasitələrinin alınmamasına, ümumiyyətlə, bu sahəyə dövlət subsidiyalarının ayrılmamasına və s. səbəb olmuşdur ki, bu da keçən əsrin 90-cı illərindən başlayaraq rəsmi statistikaya əsasən (ümumi keyfiyyətli xidmət baxımından) sərnişin daşıma həcminin ŞEN-da kəskin aşağı düşmə tendensiyasının artması ilə nəticələnmişdir. Hətta 2002-ci ildə bu nəqliyyat növlərində bəzi kateqoriyalı vətəndaşların sosial güzəşt kimi pulsuz gediş hüququnun ləğvi də sonrakı illərdə ŞEN-dan gözlənilən «mənfəətin» əldə olunmamasına gətirib çıxarmışdır. Rəsmi statistika göstərir ki, göstərilən bu və ya digər problemlər nəticəsində, məsələn, 1995-ci ildə Azərbaycanda tramvay yollarının uzunluğu (qoşa xətt hesabı ilə) 46,3 km olmuşdursa, 2003-cü ildə bu göstərici 52,4% azalaraq 22,0 km-ə çatmışdır. Trolleybus nəqliyyatında da oxşar vəziyyət müşahidə olunmuşdur. 2004-cü ildə ölkəmiz üzrə trolleybus yollarının uzunluğu 1995-ci illə müqayisədə 83,1% azalaraq 48,2 km-ə çatmışdır. Son illərdə nəqliyyat xətlərinin və parklarının sürətli ləğvi prosesinin gedişatı, yaxın gələcəkdə ölkəmizdə tramvay və trolleybus nəqliyyatının tamamilə ləğv olmasına gətirib çıxaracağını ehtimal etməyə əsas verir. Hətta, 2003-cü ildə Yaponiyanın, Almaniyanın, Fransanın müvafiq sahə iş adamları ölkəmizdə mövcud olan tramvay, trolleybus nəqliyyatının özəlləşdirilərək idarə olunmasının onlara verilməsi, həmçinin mövcud nəqliyyat parklarının, yeni nəqliyyat vasitələri ilə təchizatının təmin olunması, yeni müxtəlif istiqamətli hərəkət xətlərinin çəkilməsi sahəsində investisiya qoyuluşunun həyata keçirilməsi təşəbbüsü ilə BŞIH-nin rəhbərliyinə müraciət etsələr də bu məsələlər də öz həllini hələ də qeyri-real səbəblərdən tapmamışdır.

Metropoliten nəqliyyatına ŞEN-na daxil olan digər nəqliyyat növlərindən fərqli olaraq daha çox dövlət diqqətli hiss olunur. Bunu 1995-2002-ci illər ərzində metropoliten yollarının uzunluğunun (qoşa xətt hesabı ilə) 28,5 km olduğu halda, 2004-cü ildə isə bu göstəricinin 5,2% artaraq 30 km-ə çatmasından görmək olar. Qeyd edilən hal əsasən, 2003-cü il iyul ayında Avropa Birliyinin ayırdığı 4,1 mln. evro qrant, eləcə də az həcmli dövlət vəsaitinin köməkliyi hesabına «Həzi Aslanov» metrostansiyasının tikilib istismara verilməsi ilə əlaqədar olmuşdur. Son illər dövlət büdcəsi hesabına metropoliten nəqliyyatının vaqon parkının modernləşdirilməsi yönümündə də ciddi tədbirlər görülməkdədir. Yalnız 2004-cü ildə Rusiyanın

«Metrovaqonmaş» SC-dən dövlət büdcəsindən ayrılan 40 mlrd. manat vəsait hesabına 25 vaqon (5 qatar) alınmış və nəticədə dövlət hesabına, 2002-2004-cü illər ərzində alınan yeni vaqonların sayı 75-ə çatdırılmışdır. Bu nəqliyyat növü üzrə statistik məlumatlara nəzər yetirsək görmək olar ki, ölkəmizin metro parkında 37 qatar (185 vaqon) vardır ki, (əksəriyyəti 1973-1977-ci il istehsallı olan) onların da 80 %-nin modernləşdirilməyə, yaxud tamamilə istismardan çıxarılmaya ehtiyacı vardır. Lakin bütün bu müsbət dəyişikliklərə baxmayaraq, bu sahədə həll olunmamış bəzi problemlər hələ də qalmaqdadır. Yaxın illərdə metropoliten nəqliyyatının nəzərdə tutulan bir neçə stansiyasının tikintisinin həyata keçirilməsinin dövlət büdcəsi hesabına aparılması imkanlarının qismən məhdudluğu onun perspektiv inkişafını ləngidən əsas amillərindən biri hesab olunur. Bu amillərə Avropa Birliyinin bu sahə üzrə ekspertlərinin apardıqları hesablamalara görə ölkəmizdə nəzərdə tutulan yeni stansiyaların «Memar Əcəmi» - «Nəsimi-Azadlıq prospekti» - 84 mln. ABŞ dolları (9 mln. dollar 20 yeni vaqonun alınmasına), «Azadlıq prospekti – Depo-2» tikintisinə isə 55 mln. dollar (həmçinin 4,5 mln. ABŞ dollar yeni 10 vaqonun alınmasına) vəsait sərf olunmalı olduğunu misal göstərmək olar. Azərbaycanın metropoliten nəqliyyatında mövcud prosesləri diqqətlə izləyən beynəlxalq maliyyə təsisatları (məsələn, DB və BVF və s. kimi) 2004-cü ilin iyul ayınadək «Bakımetropoliten»-ə irihəcmli dövlət subsidiyalarının ayrılmasının dayandırılmasını, metro nəqliyyatında tədricən struktur islahatların aparılmasını tələb etmiş, əks təqdirdə gələcəkdə ölkəmizə bu beynəlxalq maliyyə təsisatlarından ayrılacaq maliyyə yardımlarının azaldılacağını bildirmişlər.

Artıq 2008-ci ilin sonunda metropolitenin «Nəsimi» stansiyası istismara verilmiş, «Azadlıq prospekti» stansiyasının isə 2009-cu ilin, «Depo-r» isə 2010-cu ilin sonlarında istifadəyə verilməsi nəzərdə tutulub. 2008-ci ilin sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən metropolitenin 20 illik dövr üçün baş planının hazırlanması barədə göstəriş verilmişdir. Ümumiyyətlə, sonda Azərbaycanın ŞEN-nin inkişafında dövlətimiz tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsini yaxın perspektiv üçün məqsədəuyğun hesab edirik: ŞEN-da, əsasən tramvay, trolleybus nəqliyyatı üzrə dünyanın qabaqcıl ölkələrinin özəlləşdirmə və bu sahənin yerli özünüidarəetmə orqanlarına (bələdiyyələrə) verilməsi təcrübələrinin öyrənilərək ölkəmizdə tətbiqinin təminini; metropoliten nəqliyyatı üzrə yeni stansiyaların tikintisini, vaqon parklarının təzələnməsini, Rusiyada olduğu kimi, ölkəmizdə də «metro-tramvay» nəqliyyat sisteminin, həmçinin metro nəqliyyatı üçün yerüstü monorels yolların, yerüstü metro sisteminin (məsələn, perspektivdə nəzərdə tutulan M.Əzizbəyov – Binə hava limanı istiqamətində) yaradılmasını, xüsusən, milli tramvay və trolleybus nəqliyyatı seqmentinin idarə olunmasında, bu nəqliyyat növünün inkişafında maraqlı olan xarici ölkələrin nəqliyyat şirkətlərinin bu sahəyə böyük həcmli investisiya qoymaq maraqlarının təşviqləndirilməsi, cəlb ediləcək investisiyalar üçün əlverişli təminatlı İqtisadi mühitin formalaşdırılması, eləcə də, bu investisiyaların İqtisadi səmərəliliyinin artırılması yönümündə fəaliyyətin

genişləndirilməsi; metropoliten nəqliyyatına dövlət tərəfindən ayrılan subsidiyaların dayandırılması və ona daşınma tariflərinin azad təyin olunmasında İqtisadi «sərbəstlik» verilməsi, həmçinin sərnişin daşınmalarında kart sisteminin tətbiqi, eləcə də dünyanın qabaqcıl ölkələrində olduğu kimi, bu nəqliyyat növünün tam «kommersiyalaşdırılmasına» nail olunması və s.

Qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq ticarət əlaqələrinin həyata keçirilməsində dəniz nəqliyyatı ən mühüm nəqliyyat növlərindən biri hesab edilir. Son illər dəniz nəqliyyatında da digər nəqliyyat növlərində olduğu kimi milli donanmamızın say tərkibinin artırılmasında, daşınmaların həcmində, dəniz limanlarının rekonstruksiyasında və s. bir sıra müsbət dinamik dəyişikliklər qeydə alınmağına baxmayaraq, dəniz nəqliyyatının inkişafı istiqamətində bəzi bir sıra məsələlər təcili olaraq öz həllini gözləməkdədir. Məsələn, Azərbaycan Xəzər Dəniz Gəmiçilik Şirkətinin (ADXDGŞ) nəqliyyat vasitələrinin dünya okeanına çıxmasında ən böyük maneə olan Rusiyaya məxsus «Volqa-Don» kanalından keçidlə bağlı problem hələ də qalmaqdadır. Belə ki, Sovetlər Birliyi dağıldıqdan sonra son dövrlər bu kanaldan milli gəmilərimizin məhdud keçid kvotasını Rusiyanın Nəqliyyat Nazirliyi Azərbaycanın Nəqliyyat Nazirliyi tərəfindən bir il öncə daşıyıcı gəmilərin texniki göstəriciləri, daşınacaq yükün növü, həcmi və təyinat yeri və s. barədə müvafiq sənədlər təqdim olunduqdan sonra rəsmi razılıqla təsdiq edir. Təbii ki, belə bir halda Rusiyanın çoxsaylı dövlət dəniz (qismən də özəl) nəqliyyat şirkətləri əldə edəcəkləri informasiya əsasında dəqiqləşdirilmiş sifarişlərin əvvəlcədən öz xeyirlərinə dəyişidirilməsinə cəhd göstərə və buna da nail olmaq imkanlarına malikdirlər. Bütün bunlara baxmayaraq, təəssüf ki, bu istiqamətdə ölkəmiz tərəfindən heç bir ciddi tədbirlər görülmür.

«ADXDGŞ»-nin gəmi nəqliyyat vasitələrinin çoxunun köhnələrək istismardan çıxacaq səviyyədə mənəvi və fiziki aşınmaya məruz qalması, şirkətin beynəlxalq fəaliyyət dairəsinin daha da genişləndirməsinə tam imkan vermir. Belə ki, şirkətin nəqliyyat vasitələrinin əksəriyyətinin, istismar müddəti demək olar ki, 15-20 ildən artıqdır. Dəniz donanmalarındakı nəqliyyat vasitələrinin bir çoxunun istismar müdətini başa vurması baxımından texniki nasazlıqların bu sahədə daha da çox müşahidə olunması, ekoloji baxımdan ətraf mühitin çirkləndirmə normasının artması və s. bu və ya digər səbəblər ardıcıllığını nəzərə alan Avropa Birliyi 2010-cu ilə kimi hər il istismar müddəti 15-20 ildən artıq gəmilərin tezliklə dövriyyədən çıxarılmadığı təqdirdə onların Avropanın dəniz limanlarına tədricən daxil olmasına icazə verilməcəyini bildirmişdir. 1995-cı ildən başlayaraq son illər milli dəniz şirkətinin Xəzər dənizi üzrə əsas rəqibləri olan Qazaxıstan, Türkmənistan, Iran, Rusiya kimi dövlətlərin dəniz şirkətləri daşıma imkanlarının artırılması üçün özlərinin milli dəniz donanmalarının müxtəlif xarici ölkələrdə (məsələn, Türkiyə, Almaniya, Rusiya və s.) sifariş əsasında istehsal olunmuş çoxlu miqdarda iri tutumlu yük və sərnişin gəmiləri ilə təchizini həyata keçirirlər. Artıq, 1999-cu ildən başlayaraq «ADXDGŞ»-nin Xəzər dənizi üzrə, qonşu dövlətlərin rəqib dəniz

şirkətlərinin donanmalarının tərkibinin genişlənməsi ilə əlaqədar - Aktau-Mahaçqala, Türkmənbaşı-Mahaçqala və s. istiqamətlərində paralel olaraq intensiv daşınma fəaliyyəti nəzərə çarpmaqdadır.

Son vaxtlar Azərbaycanda bir sıra əcnəbi ölkələrin dəniz nəqliyyatı eləcə də, nəqliyyat-logistika (ekspeditor) xidmətləri sahəsində şirkətlərinin fəaliyyəti daha çox diqqəti cəlb etməyə başlamışdır. Məsələn, yalnız Iranın ölkəmizdə bu sahədə iki böyük şirkəti «Khazar Shipping Company» eləcə də, «Pişahənq Tərabər» adlı nəqliyyat və logistika, eləcə də Danimarkanın «Blue Water Shipping Caspian Ltd» şirkətlərinin filiallarının adını çəkmək olar ki, bu da onların təklif etdikləri xidmətlərdən hər il mln. manatlarla gəlir əldə etməsinə (bu sahədə milli özəl şirkətlərin olmaması baxımından) səbəb olur. Qeyd etmək lazımdır ki, ölkəmizdə əvvəllər mövcud olmuş, sonralar iş prosesi dayandırılmış çay nəqilyyatının fəaliyyətinin bərpa olunmasına da real imkanlar və zərurət vardır. Belə ki, vaxtı ilə Xəzər dənizindən Yevlax şəhərinədək Kür çayı vasitəsilə hərəkət edən nəqliyyat vasitələrimiz ölkədaxili yükdaşıma əhəmiyyətinə görə çox böyük İqtisadi üstünlüyə malik olmuşdur. Ölkəmizin Kür-Araz regionları üzrə İqtisadi inkişafın son illər daha dinamik səciyyə daşıdığını nəzərə alaraq dövlətimizin regional inkişaf layihəsi çərçivəsində çay nəqliyyatının fəaliyyətini tədricən bərpa etmək zəruridir. Bu İqtisadi cəhətdən həmin ərazilərin yük və sərnişindaşınma imkanlarından daha səmərəli istifadə edilməsinə imkan verə bilər.

Azərbaycanın nəqliyyat sektorunun inkişafı üzrə bu sahə ilə bağlı problemlərin kompleks olaraq üzə çıxarılması, həlli, ona lazımi təminat verilməsi və s. yönümdə (maliyyə, material-texniki, təşkilati, hüquqi baxımdan və s.) uyğun tədbirlərin təşkili və həyata keçirilməsi yalnız dövlətimizin bu sahənin inkişafı ilə bağlı yeni Dövlət Proqramının hazırlanması və reallaşdırılması ilə tənzimlənə bilər. Proqramın həyata keçirilməsində, ölkəmizin regionlarının inkişafı üzrə nəzərdə tutulmuş sosial-İqtisadi proqramların əsas istiqamətlərini də nəzərə almaq vacibdir. Mövcud problemlərə baxmayaraq dövlətimizin milli nəqliyyat sisteminin balanslaşdırılmış şəkildə və məqsədəuyğun olaraq aktiv nəzarət altında inkişaf etdirilməsi üçün kifayət qədər vasitə, metod və

üsullar vardır ki, onlara da diqqətlə yanaşmaq lazımdır. Belə ki, dünyada hər bir dövlətin nəqliyyat sektorunun inkişaf səviyyəsi onun texnoloci tərəqqisinin və sivilizasiyalılığını təsdiq edən amillirdən sayılır.

9.2. Nəqliyyat xidmətinin təkmilləşdirilməsi istiqamətləri.

Azərbaycanda aparılan uğurlu islahatlar bütün nəqliyyat növləri: dəmir yol, dəniz, hava, boru və avtomobil nəqliyyatı ilə təmsil olunması, eləcə də onların hər birinin ayrı-ayrılıqda milli NXB-nın tərkib hissəsini təşkil etməsi ümumi halda dövlətimizdə, sahəvi bazar kompleksinin tam formalaşmasına imkan verir. Milli nəqliyyat xidmətləri bazarında nəqliyyat xidmətlərinin ümumi səmərəlilik meyarlarına aşağıdakıları aid etmək mümkündür:

- nəqliyyat xidmətlərindən istifadə edənlər üçün (əsasən, ümumi nəqliyyat xərclərinin, o cümlədən məhsulun itkisiz saxlanılması, korlanmaması və oğurlanmaması məqsədləri üçün minimal xərclərin olmasını) nisbətən yüksək çatdırılma sürəti, fasiləsizlik, daşınmaların əlverişli dəyəri;
- daşıyıcı üçün yüksək mənfəət normasının mövcudluğu, o cümlədən nəqliyyat vasitələrinin yükgötürmə və sərnişin tutumundan maksimum istifadə imkanları, boş (yüksüz və sərnişinsiz) yürüşlərin kənar edilməsi, minimal istismar xərclərinə və yüksək gəlir əldə edilmə səviyyəsinə nail olunma;
- cəmiyyət üçün - ətraf mühitin, ekologiyanın mühafizəsi, cəmiyyətin ayrı-ayrı sosial təbəqələrinin tələbatının təmin edilməsi və s.

Qeyd etmək lazımdır ki, son illər ölkəmizdə bütün dünyada olduğu kimi, milli nəqliyyat kompleksinin fəaliyyətinin tənzimlənməsi istiqamətində onun hüquqi, İqtisadi və təşkilati əsaslarını müəyyənləşdirən «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il) qəbul edilmişdir. Həmin qanunun «Nəqliyyatın İqtisadi fəaliyyətinin əsasları» adlı III fəslin, 8-ci maddəsində «Nəqliyyatın İqtisadi fəaliyyətinin əsasları» başlığı altında nəqliyyat xidmətlərinin mahiyyəti daha dolğun şəkildə təsvir olunmuşdur:

- nəqliyyatda İqtisadi münasibətlərin əsasını nəqliyyat xidmətlərinə tələb və təkliflər bazarı formalaşdırır;
- nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini kommersiya və təsərrüfat prinsipləri əsasında həyata keçirə bilərlər;
- nəqliyyat müəssisələri və daşıyıcılar nəqliyyat xidmətlərini qanunvericiliyə uyğun bağlanılmış müqavilələr əsasında həyata keçirmək imkanına malikdirlər və s.

Son illər ərzində Azərbaycan Respublikasında hər bir nəqliyyat növü üzrə nəqliyyat xidmətləri bazarının formalaşması istiqamətində xeyli iş görülmüşdür.

Belə ki, nəqliyyatın əsas növlərindən birini avtmobil nəqliyyatı təşkil edir. Avtomobil nəqliyyatı üzrə müasir xidmətlər bazarının formalaşması və inkişafı müstəqillik dövrlərindən başlayaraq, daha dinamik vüsət almağa başlamışdır. Son onilliklər ərzində ölkəmizdə müxtəlif nazirliklərə, sənaye, tikinti, ticarət konsernlərinə, eləcə də bütün dövlət yük və sərnişin (avtobus, taksi) müəssisələrinə məxsus (strateci əhəmiyyətli təşkilatların, həmçinin güc nazirliklərinin nəzdində olan avtomobil nəqliyyatından başqa) mövcud avtomobil nəqliyyat vasitələrinin çoxu özəlləşdirilmişdir. Məhz bu istiqamətlərdə aparılan islahatlar nəticəsində, rəsmi statistikaya, əsasən, nəqliyyat sektoru üzrə ümumi daşınmış yüklərin, 1995-ci ildə 33,3%-i, 1999-cu ildə 46,6%-i, 2003-cü ildə 54,0%-i 2004-cü ildə 55,5%-i, sərnişindaşınmaların isə 1995-ci ildə 72,3%-i, 1998-ci ildə 81,0%-i, 2003-cü ildə 85,3%-i, 2004-cü ildə 84,7%-i məhz avtomobil nəqliyyatının payına düşmüşdür. Avtomobil nəqliyyatında daimi qurğuların saxlanılma xərcləri nisbi cəhətdən böyük olmadığı üçün bu nəqliyyat növü qısa məsafələrdə yüksək rəqabətqabiliyyətini daha çox saxlaya bilməsi baxımından, yükün, yaxud sərnişinin tez bir zamanda «qapıdan-qapıya» çatdırılma tezliyinə malikliyi, eləcə də digər nəqliyyat növləri ilə qarşılıqlı əlaqə imkanlarının mümkünlüyü və s. üstünlükləri onun İqtisadi səmərəliliyini artırır. Bundan başqa, avtomobil nəqliyyatının çevikliyi, alternativ daşıma marşrutlarının seçilməsinin təminində də, yüklərin və sərnişinlərin uyğun olaraq konkret istehlakçıya və ya təyinat məntəqəsinə çatdırılmasında da əsas aparıcı rola malik olmasına kömək edə bilir.

Əksər MDB dövlətlərində olduğu kimi Azərbaycanda da keçən əsrin 90-cı illərindən başlayaraq avtomobil nəqliyyatı üzrə dövlət müəssisələrində özəlləşdirmə siyasəti həyata keçirildikdən sonra, son illər bu sahədə bəzi ciddi problemlər də yaranmağa başlamışdır. Ölkəmizdə aparılan struktur islahatlar nəticəsində bu seqmentdə yeni yük və sərnişin (avtobus, taksi) daşınmaları ilə əlaqəli milli nəqliyyat şirkətləri formalaşsa da, tezliklə onlarla nəqliyyat xidmətləri bazarına güclü rəqabət aparmağa qadir xeyli sayda əcnəbi nəqliyyat şirkətləri də daxil olmuşdur ki, bunun da əsas səbəbi, ölkəmizdə bu nəqliyyat növü üzrə mükəmməl (təmiz) rəqabət bazarının artıq təşəkkül tapmasının onlar üçün əsas stimul olması hesab oluna bilər.

Belə ki, Azərbaycanda son vaxtlar sərt rəqabət şəraitində avtomobil nəqliyyatı üzrə NXB-da həm yük, həm də sərnişindaşımalar üzrə milli şirkətlərin bəziləri öz fəaliyyətini dayandırsalar da, bir qismi öz mövqelərini hələ də saxlaya bilmişlər. Lakin mövcud milli nəqliyyat şirkətlərinin nəqliyyat vasitələrinin, keçmiş sovet istehsallı olması baxımından onların yük və sərnişin tutumlarının nisbətən aşağı olması, eləcə də istismar müddətini başa vurması, yerli və tranzit yüklərin, həmçinin sərnişin axınlarının tapılmasında kifayət qədər təcrübənin çatışmaması səbəblərindən yaranan çətinliklər, qonşu dövlətlərlə bu nəqliyyat növü üzrə birgə qarşılıqlı əlaqələrin (logistik xidmətlər də daxil olmaqla) yaradılmaması, yerli və tranzit daşıma tariflərinin kifayət qədər yüksək olması, kredit və lizinq xidmətlərindən lazımi səviyyədə bəhrələnə bilinməməsi,

sahibkarların milli maraqlarının müvafiq qanunvericilik toplusunda kifayət qədər qorunmaması və s. səbəblər onların rəqib xarici şirkətlərlə rəqabət imkanlarını ilbəil tədricən aşağı salmaqla yanaşı, fəaliyyət dairələrinin həm daxili, həm beynəlxalq səviyyədə məhdudlaşmasına səbəb olmuşdur. Ölkəmizin avtomobil nəqliyyatının inkişafında əsas vasitə olan müxtəlif infrastruktur sahələrin rekonstruksiyası, məsələn, avtomobil yollarının inkişafı üzrə bəzi problemlər hələ də qalmaqdadır. Belə ki, Azərbaycanın əksər tranzit avtomobil yollarının səviyyəsi bir çox mövcud texniki-istismar göstəricilərinə görə Avropa standartlarına hələ də cavab vermir. Onlara əsasən aşağıdakılar aid edilir: yollarda orta axın sürətinin aşağı olması, oxa düşən ağırlıq normasının beynəlxalq standartlara uyğun tənzimlənməməsi, müasir yol hərəkəti üzrə işarə və nişanların bütün regional yollar üzrə tətbiq olunmamsı, kifayət qədər texniki-təmir, tibbi yardım, eləcə də istirahət, yağ-yanacaqdoldurma, telefon-rabitə əlaqəsi üzrə və s. məntəqələrin olmaması, yüksək sürət imkanlı I kateqoriyalı yolların çatışmaması və s. aiddir. Məhz buna görə avtomobil nəqliyyatının perspektiv inkişafı üzrə bu istiqamətlərdə ciddi tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Qeyd etmək lazımdır ki, boru nəqliyyatı - üzrə xidmətlər seqmenti ölkəmizdə ən böyük sahə hesab olunur. Bu nəqliyyat növünün dövlət nəzarətində olması, qabaqcıl dünya ölkələrində olduğu kimi bu sahədə özəl sektorun hələ də formalaşmamasına, maliyyələşmə mənbələrinin dövlət və özəl xarici sahəvi şirkətlərin hesabına olmasına və s. səbəb olmuşdur. Boru nəqliyyatı ölkəmizdə öz seqmenti üzrə inhisarçı mövqeyə malik olduğundan, bu nəqliyyat sektorunda inhisar bazarı formalaşmışdır. Məhz bu səbəbdən boru nəqliyyatında daşınma tariflərinin təyin edilməsi, daxili xətlərin tikintisinin maliyyələşdirilməsi, saxlanılması və s. xərcləri dövlət tərəfi həyata keçirir.

Boru nəqliyyatı nəqletmənin nisbi cəhətdən daha aşağı maya dəyərinə, dəqiq avtomatlaşdırılmış iş rejiminə, yüksək səviyyədə itkisizliyə malik olması ilə xarakterizə olununr. Məhz bu xüsusiyyətlər onu digər nəqliyyat növləri ilə müqayisədə fərqli rəqabət imkanlarına malik olmasını təmin edir. Bəzi hallarda isə müəssisənin fasiləsiz istehsal prosesi ilə təmin edilməsində (məsələn, neftayırma zavodlarında) o əvəzedilməz nəqliyyat növü hesab olunur. Boru nəqliyyatı üzrə inhisar bazarında onunla rəqabət aparan sahədaxili rəqib olmadığı üçün, bu nəqliyyat növü yalnız oliqapoliya bazarında digər dövlət nəzarəti altında olan oxşar daşınma məhsulları üzrə daşınma xidmətlərini həyata keçirən nəqliyyat növləri ilə (məsələn, əsasən dəmir yol, dəniz nəqliyyatı ilə neft və neft məhsullarının daşınmaları sahəsində) rəqabət aparmaq imkanlarına malikdir.

Ümumi Milli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Bakı şəhərində xarici çoxsaylı neft və qaz şirkətlərinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən 3 böyük neft yatağının («Azəri, Çıraq və Günəşli») birgə işlənilməsinə dair «Əsrin müqaviləsi» adı altında hasilatın pay bölgüsü haqqında ilkin saziş imzalandıqdan və bu müqavilə Milli Məclis tərəfindən 12 dekabr 1994-cü ildə ratifikasiya edilib və qanuni

qüvvəyə mindikdən sonra yeni yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) Xəzər dənizində Azəri, Çıraq və Günəşli yataqlarının dərinliklərində yerləşən neft və qazın hasilatını, həmçinin, hasilat məhsullarının ölkə ərazisinə və xaricə çatdırılmasını təmin etməyə başlamışdır. Beynəlxalq ekspertlərin proqnozlarına görə adı çəkilən neft yataqlarının real ehtiyatları 600 milyon tondan çoxdur. Son illər kəşf edilmiş Şahdəniz yatağında mövcud ehtiyatlar təxminən 1 trilyon kubmetr həcmində qiymətləndirilir. Yaxın illər ərzində bağlanmış müqavilələr üzrə nəzərdə tutulan cəlb ediləcək investisiyaların güman edilən məbləğinin 50 milyard ABŞ dolları olacağı ehtimal edilir. İndiyədək ölkəmizin neft-qaz hasilatına təqribən 5 mlrd. ABŞ dollarından bir qədər çox investisiya qoyulmuşdur. Hasilat neftinin dünya bazarlarına çıxışını təmin etmək məqsədi ilə artıq istismara verilmiş «Bakı-Tbilisi-Ceyhan» neft boru kəmərinin inşası prosesində 2002-2005-ci illərdə 2,5 mlrd. dollardan artıq maliyyə vəsaiti sərf edilmişdir. Bu xəttin ötürmə gücünün ildə 50 mln. ton xam neft olacağı nəzərdə tutulur. Eyni zamanda «Şahdəniz» yatağından çıxan qazın Avropaya nəqli üçün dəyəri 1 mlrd. dollardan artıq olan «Bakı-Tbilisi-Ərzurum» boru xəttinin çəkilişi başa çatdırılıb.

Bu sahə üzrə əsas mövcud problemlərə milli neft-qaz sektorunun maliyyələşdirilməsində xarici investisiyaların daha çox üstünlük təşkil etməsi, dünya təcrübəsində olduğu kimi özəl sektorun hələ də formalaşmaması və s. hesab olunur.

Şəhər elektrik nəqliyyatına (ŞEN) daxil olan tramvay, trolleybus, metropoliten üzrə xidmətlərin məcmusu, bu nəqliyyat növləri üzrə dövlət inhisar nəzarəti altında olan inhisar bazarını formalaşdırır. Keçən əsrin 90-cu illərindən başlayaraq ölkəmizdə bu sahəyə kifayət qədər diqqət yetirilməməsi nəticəsində ŞEN-na lazımi səviyyədə investisiya qoyuluşlarının həyata keçilməməsi, mövcud əsasən tramvay, trolleybus parklarının son illər müasir nəqliyyat vasitələri ilə təchiz olunmaması, fəaliyyətdə olanların əksəriyyətinin öz istismar müddətini başa vurması, təmir üçün müvafiq ehtiyat hissələrin çatışmaması, yeni hərəkət xətlərinin çəkilməməsi və s. səbəblər şəhər elektrik nəqliyyatının 1995-ci ildən başlayaraq sərnişin daşımalarının dinamikasının kəskin aşağı düşmə tendensiyası ilə müşahidə olunmasına səbəb olmuşdur. Ölkəmizdə nəqliyyat xidmətləri bazarında bu seqmentin ən potensial rəqibi avtomobil (avtobus, taksi) nəqliyyatı hesab olnur ki, o da özəl sektorun hesabına daha sürətli artım tempinə malik olması baxımından bu nəqliyyat növlərini kifayət qədər «sıxışdırmağa» nail olmuşdur (metro nəqliyyatı istisna edilməklə).

Dəmir Yol Nəqliyyatı - ölkəmizdə ən geniş yayılmış və inkişaf etməkdə olan nəqliyyat növlərindən biri hesab olunur. Dəmir yol nəqliyyatı, digər əksər nəqliyyat növləri kimi (avtomobil nəqliyyatı istisna olunmaqla) dövlət sektorundadır və bu nəqliyyat növü öz seqmentində Azərbaycan Dövlət Dəmir Yol Idarəsi timsalında inhisar mövqeyinə malikdir. Dəmir yol seqmenti, müxtəlif tip nəqliyyat növləri ilə yalnız ümumi oliqapoliya bazarında rəqabət aparmaq imkanına malikdir. Bu nəqliyyat növünün əsas nöqsanlı cəhətlərindən biri mövcud əlaqə yolları ilə məhdudlaşması, daşınmaların həcmindən asılı olmayaraq daimi qurğuların (yolların, rabitə vasitələrinin, süni qurğuların və s.) saxlanılma xərclərinin yüksək olması və s. hesab olunur. Dəmir yolu nəqliyyatı üzrə yük daşınmalarının bazar strukturu daşınma proseslərində iştirak edən müxtəlif İqtisadi maraqların öz aralarında qarşılıqlı təmin olunmasına yönələn subyektlərin proporsional olaraq əlaqələndirilməsini həyata keçirir.

Yük (eləcə də sərnişin) daşınma xidmətləri üzrə bazarın təşkilati strukturunu dəmir yollarının infrastrukturu, xidmət istehsalçıları, sifarişçilər və xidmət istehlakçıları, peşəkar iştirakçılar (loqistiklər), digər təsərrüfat subyektləri təşkil edir.

Azərbaycanın dəmir yol nəqliyyatı Astara və Culfada yerləşən dəmir yol stansiyası ilə Iran dövlətinə, Yalama stansiyası ilə Rusiyadan keçməklə Avropa ölkələrinə, Bakı stansiyası ilə Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya dövlətlərinə, Böyük-Kəsik stansiyası ilə Gürcüstan ərazisindən və Qara dənizdən keçməklə Avropa bazarlarına keçidi təmin edir . Ölkəmizin dəmir yol şəbəkəsi milli nəqliyyat kommunikasiya sistemində Avropa ilə Mərkəzi Asiya və Yaxın Şərq arasında etibarlı körpü rolunu oynamaq imkanına malikdir.

Azərbaycan Dövlət Dəmir Yol Idarəsi ölkəmizdə dəmir yol nəqliyyatı üzrə nəqliyyat xidmətlərini həyata keçirən yeganə təşkilatdır. Onun tərkibinə 3 şöbə-Bakı, Gəncə və Naxçıvan daxildir. Ümumi əsas yolların uzunluğu 2939 km, istismar uzunluğu isə 2122 km-dir. Bu yollardan 815 km-i ikitərəflidir. Dəmir yollarının istismar uzunluğunun 1272 km-i, (yaxud 60%) elektrikləşdirilmiş, 850 km-i və ya 40 %-i teplovoz dartqısı əsasında işləyir. 1126 km məsafə avtobloklama sistemi ilə təchiz olunmuş, 479 km-i isə mərkəzləşdirilmiş dispetçer nəzarətinə, 465 km-i isə yarım avtobloklama sisteminə malikdir. Ölkəmizdə dəmir yolu xətti boyunca 176 stansiya mövcuddur.

Onu da qeyd etmək lazımdır ki, dövlət sektorunda olan dəmir yol nəqliyyatının özünəməxsus ilbəil artan böyük maliyyə vəsaiti tələb edən istismar və saxlanma, enerci, bərpa işləri, əmək haqqı və s. xərcləri kimi problemləri də mövcuddur. Məhz bu baxımdan dəmir yol nəqliyyatında daşıma tariflərinin təyinini, eləcə də, sahə üzrə perspektiv nəqliyyat siyasətini yanlız dövlət həyata keçirir.

Qeyd etmək lazımdır ki, hava nəqliyyatı - müstəqillik əldə etdiyimiz ilə qədər milli aviasiyamız sabiq SSRI-də yeganə aviasiya şirkəti olan «Aeroflot»un nəzdində olduğundan bu nəqliyyat növü üzrə yalnız regional və yerli uçuşlar sahəsində inhisar bazarlarında fəaliyyət göstərirdi. 1990-cı illərdən başlayaraq, SSRI-nin süqutu ilə nəticələnən, bir sıra siyasi-İqtisadi proseslər, yeni suveren dövlətlərin yaranmasına səbəb oldu ki, nəticədə bu da hər bir dövlətin, o cümlədən Azərbaycanın öz yeni milli aviaşirkətlərinin yaradırılmasına təkan verdi.

Azərbaycanda da əksər yeni müstəqil dövlətlərdə olduğu kimi ilk dövrlər yeganə aviasiya şirkəti «AZAL» formalaşsa da, sonrakı illər daxili nəqliyyat xidmətləri bazarına postsovet məkanında olduğu kimi yerli və xarici kapitala əsaslanan müştərək aviasiya şirkətləri, (Imair, Silk Way Airlines, Turan Air və s.) eləcə də dünyanını qabaqcıl əcnəbi aviasiya şirkətləri (Turkish Airlines, KLM və s. kimi) daxil olması ilə, bu nəqliyyat növü üzrə artıq ölkəmizdə inhisarçı rəqabət bazarının təşəkkül tapmasına imkan yarandı. Məhz bu səbəbdən həm yük, həm də sərnişindaşımalarda optimal daşınma tariflərinin qarşılıqlı rəqabət şəraitində - tələb və təklif əsasında formalaşması «AZAL»-la xarici aviasiya şirkətləri arasında kəskin rəqabətin artmasına gətirib çıxarmışdır.

Hava nəqliyyatında daha çox İqtisadi səmərəliliyin təmin olunması, təcili, qiymətli və tez xarab olan yüklərin, həmçinin sərnişinlərin uzaq məsafələrə daşınması prosesindən əldə edilir. Uzaq məsafələrdə bu nəqliyyat növü avtomobil və dəmir yol nəqliyyatına nisbətən tamamilə yüksək rəqabət funksiyasını saxlamaq imkanına malikdir ki, bunun da əsas səbəbi daşınma məsafələrinin artması zamanı digər nəqliyyat növləri ilə müqayisədə onun nəqliyyat xərclərinin daha çox aşağı düşməsidir. Bundan başqa, hava nəqliyyatının istər yük, istərsə də sərnişin daşınmalarında İqtisadi cəhətdən səmərəliliyinin təmini zamanı onun yerüstü infrastruktur xidmətlərinin texniki xüsusiyyətlərindən yüksək asılılığın

nəzərə alınması tələb olunur ki, məhz bu sahə də daha çox malliyyə məsrəflərinin sərfi ilə səciyyələnir.

Son onillik ərzində «AZAL» dövlət konserninin nəqliyyat parkının tədricən köhnəlməsi, maddi-texniki təchizatın zəif olması, infrastruktur sahələrin modernləşdirilməsinin kifayət qədər sürətlə həyata keçirilməməsi, əksər, regional hava limanlarının fəaliyyətinin tamamilə dayandırması tendensiyalarının müşahidə olunması, bir neçə hava nəqliyyat vasitəsinin alınması üçün verilmiş beynəlxalq kreditlərin faiz baxımından həcminin ildən-ilə artması və s. səbəblər, onun beynəlxalq, eləcə də tranzit daşınmalarda, rəqabət imkanlarının məhdudlaşmasına gətirib çıxarmışdır.

Hava nəqliyyatında həllini tələb edən məsələlərə ilk növbədə milli nəqliyyat parkının modern nəqliyyat vasitələrilə təmini, regional hava limanlarında yeni avia struktur sahələrin inşası və rekonstuksiyası (ilk növbədə enmə-uçuş zolaqları nəzərdə tutulur), sahədaxili rəqabət mühitinin yaradılması istiqamətində aviasiya nəqliyyatının özəl sektor səviyyəsində idarə olunmasında struktur islahatların təşkili, təchizat sisteminin təkmilləşdirilməsi, uçuş tariflərinin elastikliyinə nail olunma və s. aiddir.

Qeyd etmək lazımdır ki, dəniz nəqliyyatı - Azərbaycanda ən sürətli inkişaf edən, xarici nəqliyyat əlaqələrinin, həyata keçirilməsində başlıca rol oynayan nəqliyyat növlərindən biri hesab olunur. Ölkəmizin xarici ticarət əlaqələrinin təmin olunmasında Xəzər dəniz gəmiçiliyinin rolu çox böyükdur. Azərbaycan Respublikasının Xəzər dənizi hövzəsində əlverişli coğrafi mövqedə yerləşməsi onu Xəzəryanı, Orta və Yaxın Şərq dövlətləri ilə, eləcə də dünyanın digər yaxın və uzaq ölkələri ilə dəniz nəqliyyatı üzrə İqtisadi əlaqələrin artırılmasında tranzit ölkə rolunu oynamağa imkan verir.

Dəniz nəqliyyatı texniki-liman qurğularının, dəniz xətlərinin saxlanılmasıının, eyni zamanda başlanğıc-son əməliyyatların (yükləmə-boşaltma, gəmilərin liman təmiri və s.) həyata keçirilməsi üçün yüksək maliyyə məsrəflərinin olması ilə xarakterizə olunur ki, bu da onun qısa marşrutlarda rəqabət imkanlarının məhdudlaşmasının əsas səbəbidir. Dəniz nəqliyyatı uzaq məsafələrdə böyük həcmli yük və sərnişin daşınmalarında daşınmaların maya dəyərinin aşağı olması baxımdan, coğrafi şərtlərin təsiri nəzərə alınmadığı hallarda (digər nəqliyyat növlərindən fərqli olaraq) İqtisadi baxımdan ən əvəzedilməz nəqliyyat növü hesab olunur. Müstəqillik əldə etdiyimiz ilk illərdən başlayaraq, (Sovetlər Birliyində olduğu kimi) ölkəmizdə dəniz nəqliyyat xidmətlərini həyata keçirən yeganə təşkilat Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçilik Şirkəti (ADXDGŞ) hesab olunur. Dəniz nəqliyyat xidmətlərini həyata keçirən bu dövlət təşkilatı ölkəmizdə dəniz nəqliyyatı üzrə daşınmalarda vahid inhisar mövqeyində olduğundan, yenə də öz seqmentində rəqibsiz olaraq inhisar bazarını təşkil edir.

Dəniz nəqliyyatı dövlət sektorunda olduğundan, onun infrastruktur sahələrinin inkişafı, maddi-texniki təchizatı, yeni nəqliyyat vasitələri ilə təmin olunması, investisiya ayırmalarının təmini və s. dövlətə məxsus olmasından dolayı məhz bu nəqliyyat növü üzrə də yeni tarif siyasəti, inkişaf strategiyası və s.

məsələlər dövlətimiz tərəfindən həyata keçirilir. Milli nəqliyyat xidmətləri bazarında, dəniz nəqliyyatı, digər nəqliyyat növləri ilə (əsasən, dəmir yol, və boru nəqliyyatı ilə neft və neft məhsullarının daşınmaları üzrə) yalnız oliqapoliya bazarında mübarizə aparmaq imkanlarına malikdır.

Keçən əsrin 90-cı illərindən başlayaraq Xəzər dəniz hövzəsi üzrə əksər, sahilyanı dövlətlərin (məsələn, Türkmənistan, Qazaxıstan, Iran kimi) yeni dəniz donanmalarını (qeyd edək ki, bu ölkələrin hər biri son illər böyük tutumlu ixtisaslaşmış onlarla dəniz nəqliyyat vasitələrinə sahib olmuşlar) yaratması prosesi, müasir dəniz liman infrastrukturlarının modernizə edilməsi üçün böyük həcmli yerli və beynəlxalq investisiya axınlarının cəlbi yönümündə həyata keçirdikləri tədbirlər, güzəştli daşınma tarif sistemlərinin tətbiqi və s. ADXDGŞ-nin tədricən sahəvi rəqabət imkanlarının eləcə də, beynəlxalq dəniz daşınmalarında mövcud payının azalmasına gətirib çıxarmışdır.

Azərbaycanın dəniz ticarət donanmasının orta yük tutumunun inkişaf etməkdə olan ölkələrdən nisbətən aşağı olması da əsas problemlərdən sayılır. Qeyd etmək lazımdır ki, ölkəmizdə bu nəqliyyat seqmentinin perspektiv inkişafının təmini yönümündə dünya təcrübəsinə uyğun olaraq struktur dəyişikliklərin həyata keçirilməsi bu sahədə həyata keçirilməli olan ən zəruri tədbirlərdəndir.

X FƏSİL. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ

Azərbaycan Respublikasında yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, İqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.

İlham Əliyev

10.1. Davamlı ekoloji tarazlığın təmin edilməsinin İqtisadi zəruriliyi və İqtisadi metodlardan istifadənin istiqamətləri

Dünya ölkələrində müxtəlif təyinatlı müəssisələrin tikintisinin genişlənməsi, əksər ölkələrdə nəqliyyat vasitələrinin sayının xeyli artması beynəlxalq səviyyədə ekosistemlərin tarazlığının pozulmasına, bitki və heyvanat aləminin ciddi təhlükəyə məruz qalmasına gətirib çıxarmış, atmosfer havası və torpaqlar çirklənmiş, içməli su azalmış, ayrı-ayrı təbii sərvət növləri, demək olar ki, tükənmişdir. Nəticədə insan sağlamlığının özü böyük təhlükə altında qalmaqla bəşəriyyətin genetik fonduna ciddi xələl gətirməyə başlamışdır. Odur ki, məhz bu səbəblərdən ətraf mühitin mühafizəsi, insan sağlamlığının qorunması dünya alimlərini və bütövlükdə bəşəriyyəti düşündürən ciddi problemə çevrilmişdir

Qeyd etmək lazımdır ki, hazırda isə dünyada daha çox qəbul və tətbiq edilən inkişaf konsepsiyalarından biri "Davamlı inkişaf" konsepsiyasıdır. Əslində bu konsepsiyanın meydana çıxması və qəbul edilməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə bağlı olmuşdur.

"Davamlı inkişaf" konsepsiyasının mahiyyəti gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, İqtisadi və ekoloji cəhətdən normal ödənilməsindən ibarətdir .

1992-ci ildə Rio-de Caneyroda ətraf mühit və inkişaf üzrə keçirilmiş BMT konfransında müasir cəmiyyətin davamlı inkişafa keçid strategiyası qəbul edildi. Ingilis dilinin "sustain"-möhkəmləndirmək, kömək etmək və "to be abble"-qabiliyyətli olmaq sözlərindən əmələ gələn "davamlı inkişaf" termini inkişafın özünü təmin etməsi, başqa sözlə, özü-özündən təkan, gələcək irəliləyişə stimul verən inkişaf kimi başa düşülür.

Keçən əsrin sonlarında əsası qoyulmuş Davamlı Inkişaf Beynəlxalq Institutu (INSD) davamlı inkişafa aşağıdakı tərifi verir: "Davamlı inkişaf vahid ətraf mühiti, İqtisadi səmərəliliyi və xalqların rifahının cəmləşməsi deməkdir".

Mütəxəssislərin fikrincə, bu terminin məzmununda ekoloji davamlılıq imperativi və sosial-İqtisadi davamlılıq imperativi ayrılır. Ekoloji davamlılıq

imperativi ekoloji imkanlar çərçivəsində yaşamaq deməkdir, yəni bəşəriyyətin tələbləri təbiətin imkanları xaricində olduğuna görə, insanlar öz tələblərini və tullantılar istehsalını azaltmaqla təbii ehtiyatların vəhşicəsinə sərfinə son qoymalıdırlar.

Qeyd etmək lazımdır ki, davamlı inkişaf konsepsiyasına bir-birilə qarşılıqlı asılılıqda olan və paralel olaraq mövcudluğu şübhə doğurmayan üç aspektin üzvi sintezi kimi baxılmalıdır: 1) İqtisadi inkişafın artımı; 2) ətraf mühitin və ekosistemlərin mühafizə və bərpası; 3) sosial ədalətin bərqərar olması.

Ekoloji problemlərin həlli üçün BMT tərəfindən "davamlı inkişaf" konsepsiyası beynəlxalq və milli qurumlar vasitəsilə həyata keçirilməklə "gələcəksiz inkişafın" qarşısını almağa, ətraf mühiti, biomüxtəlifliyi, insanların sağlamlığını və uzunömürlülüyünü qorumağa yönəldilmişdir. Şübhəsiz ki, hər hansı istehsal layihəsini həyata keçirərkən, başqa sahələrdə fəaliyyət göstərərkən insanlar istər-istəməz bu və ya digər dərəcədə xarici mühitə təsir edirlər. Lakin "davamlı inkişaf" konsepsiyası bu layihələrin həyata keçirilməsində elə texnologiyaların, avadanlıq və cihazların istifadəsini nəzərdə tutur ki, onların ətraf mühitə təsiri minimuma endirilsin və təbii ehtiyatların istifadəsini optimal şəkildə təşkil etməklə gələcək nəsillərin xammaldan istifadə imkanlarını məhdudlaşdırmasın.

Artıq uzun müddətdir ki, ölkəmizdə böyük İqtisadi, sosial və siyasi əhəmiyyəti olan ardıcıl neft startegiyası həyata keçirilir. "Əsrin müqaviləsi"nin imzalanmasından başlayaraq uğurla həyata keçirilən bu strateci xəttə uyğun olaraq dünyanın, o cümlədən ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Rusiyanın, Italiyanın, Türkiyənin, Yaponiyanın, Fransanın və bir sıra başqa ölkələrin aparıcı neft şirkətləri Azərbaycan İqtisadiyyatına sərmayə qoymuşlar və burada müasir texnologiyalar tətbiq etməklə öz işlərini yüksək ekoloji standartlar səviyyəsində qurmağa çalışırlar. "Əsrin müqaviləsi" və ondan sonra imzalanmış müqavilələr regionda bir sıra ölkələrin strateci maraqlarını təmin etmiş, bu da Azərbaycan Respublikasının sərhədlərinin bərpa olunması və regionda sülhün bərqərar edilməsi üçün vacib bir amilə çevrilmişdir. Beynəlxalq fəaliyyət istiqaməti kimi "davamlı inkişaf konsepsiyası" keçən əsrin 70-ci illərində bir sıra ölkələrdə İqtisadi inkişafın sabitləşdirilməsi və sosial vəziyyətin bərabərləşdirilməsi məqsədilə formalaşmışdır. "Davamlı inkişafın" əsasına təbii resurslardan (xüsusilə də bərpa oluna bilməyən) istifadənin optimallaşdırılması, uzunmüddətli perspektivdə ətraf mühitin keyfiyyətinin qorunub saxlanılması və yaxşılaşdırılması prinsipi qoyulmuşdur.

Keçid dövrünün son dərəcə ağır çətinliklərinə məruz qalan insanlar bəzi hallarda ekologiyanın, təbii resursların qorunmasını arxa plana keçirmək məcburiyyətində qalırlar. Keçmiş strukturların dağılması, ölkədə yaranmış qanun boşluğu və özbaşınalıq nəticəsində istehsalın səviyyəsinin getdikcə aşağı düşməsi nəinki yüksək texnologiyaya malik sənaye sahələrinin yaranmasına, eləcə də köhnə sənaye müəssisələrinin belə normal işləməsinə imkan vermir.

Qısa zaman çərçivəsində gəlir gətirən sahələrin sürətli inkişafına üstünlük verildiyinə görə təbii ehtiyatların, havanın, suyun və meşələrin qorunması arxa plana keçir. Odur ki, bu məsələyə ölkənin İqtisadi siyasət strategiyası çərçivəsində kompleks şəkildə yanaşmaq vacibdir. Sənaye cəhətdən zəif inkişaf etmiş ölkə yoxsul vəziyyətdə və dünya sivilizasiyasından kənarda qaldığı kimi, onun son dərəcə bərbad ekologiyası da ümumbəşəri dəyərlər sistemində miskin görünəcəkdir. Məşhur amerikan alimi Fred Li Smitə görə, hələ indiyə qədər ekologiyanı bütövlükdə İqtisadi sistemə inteqrasiya edən məqsədli model qurulmamışdır.

Qeyd etmək lazımdır ki, təbii resursların ölkənin milli sərvəti olduğunu nəzərə alsaq, onda onların özəlləşdirilməsi zamanı İqtisadi təhlükəsizlik kontekstində ekologiya probleminin həlli məsələsi də daim diqqət mərkəzində saxlanılmalıdır. Dünya təcrübəsində qlobal problem kimi ətraf mühitin qorunmasının aşağıdakı prinsipləri ön plana çəkilməlidir.

- əgər təbii resursların qorunmasını özəl sektor öz üzərinə götürməyə qadirdisə, onda dövlətin bu sahəyə xərc çəkməsi istisnalıq təşkil etməlidir;
- ekoloji problemlərin həlli zamanı hər bir rayon ekoloji və İqtisadi məsələlərin seçilməsində tam sərbəst olmalıdır;
- müştərək təsərrüfat fəaliyyəti ilə digər yerdəki ekoloji ziyan arasındakı qarşılıqlı əlaqənin aşkara çıxarılmasına nail olunmalıdır;
- sağlam ekoloji mühitin yaradılması üçün mülkiyyət obyektlərinin sərhədləri müəyyənləşdirilməli və onların toxunulmazlığının təmin edilməsi məqsədilə işlər həyata keçirilmişdir.

Daha çox məhsul istehsalına olan meyl böyük ərazilərdə faydalı qazıntı yataqlarının sürətlə istismarına gətirib çıxarmışdır ki, bu da böyük ərazilərdə təbii mühitin pozulmasını sürətləndirmişdir. Torpaqların rekultivasiyası, bitki örtüyünün bərpası və hasilat prosesi başa çatmış, bir sıra sahələrin təbiəti mühafizə və ekoloji tarazlığın bərqərar edilməsi üzrə işlər üzrə isə, əslində aparılmamış, bu tədbirlərin təşkili və həyata keçirilməsi üçün zəruri olan maliyyə vəsaitləri avadanlıqlar və texniki vəsaitlər daha "məhsuldar" məqsədlərə, daha doğrusu, təbii sərvətlərin yeni yataqlarının mənimsənilməsinə yönəldilmişdir. Nəticədə külli miqdarda dağıdılmış torpaq sahələri, bərbad vəziyyətə düşmüş təbii bitki örtüyü, çirkləndirilmiş çoxlu su hövzələri, səmərəsiz istifadə nəticəsində yararsızlaşmış, bir sıra böyük əhəmiyyətə malik faydalı qazıntı yataqları respublikanın ekoloji cəhətdən zərərli zonasına çevrilməsinin başlıca səbəblərindən biri olmuşdur.

Hazırda böyük torpaq sahələri dağıdılmaqla yanaşı, su hövzələrinin hasilat və saflaşdırma tullantıları ilə intensiv çirkləndirilməsi, bitki və heyvanat aləminin qismən və ya tamamilə məhv olması kimi acı reallıq üzə çıxmışdır. Abşeron, Gəncə, Daşkəsən, Qazax, Qaradağ rayonlarının ərazilərində və Naxçıvan MR-də bu vəziyyət özünü daha açıq şəkildə büruzə vermişdir. Ilkin hesablamalara görə, bu rayonlarda ətraf mühitin çirkləndirilməsi nəticəsində

ölkənin xalq İqtisadiyyatına dəyən İqtisadi zərərin ümumi miqdarı 150-200 milyon dollar təşkil edir.

Dəymiş zərərin aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi isə daha böyük həcmdə investisiya qoyuluşlarının həyata keçirilməsini tələb edir. Bununla yanaşı, təbiəti mühafizə tədbirləri üçün ayrılan kapital qoyuluşunun vaxtında, lazımi məqsədlər üçün və yüksək səviyyədə mənimsənilməsini təmin etmək məqsədilə bir sıra İqtisadi və təşkilati tədbirlərin həyata keçirilməsi məqsədəuyğun sayılır.

Qeyd etmək lazımdır ki, hazırda ən maraqlı hal cənub sərhədləri boyu axan Araz çayı bədnam qonşu Ermənistan Respublikasının ərazisindən çirkab materiallarla çirkləndirilir. Çay sularının tərkibində xüsusilə də ağır metalların miqdarı üstünlük təşkil edir. Təəssüflər olsun ki, bu sular kənd təsərrüfatında və Bakının su təchizatında istifadə edilir. Respublikanın 45 şəhərindən 35-ində təmizləyici qurğular fəaliyyət göstərir ki, bunlar da yalnız mexaniki təmizləmə xarakterli işləri yerinə yetirirlər. Həmin qurğuların texnoloci cəhətdən yararsızlığı isə mövcud problemləri daha da dərinləşdirir. Hazırda Bakı şəhərində məişət sularının yalnız yarıya qədəri təmizlənir və Xəzər dənizinə axıdılır. Əslində Bakı təmizləyici stansiyasının istismar müddəti 14 il olduğundan artıq onun mənəvi köhnəlməsi baş verir.

Məsələ burasındadır ki, Abşeron yarımadasında sənaye çirkab suları ilə ətraf mühitin çirklənməsi çox təhlükəli vəziyyət yaratmışdır. Bakı və Sumqayıt şəhərlərində içməli suyun aşağı keyfiyyəti səth sularının çirklənməsi ilə bağlı olsa da, texnika köhnə olduğuna görə müvafiq problem öz zəruri həllini tapmır.

Onu da qeyd edək ki, ətraf mühitin və suların çirklənməsində kənd təsərrüfatının da rolu az deyildir. İqtisadi islahatların ötən dövründə ölkəmizin kənd təsərrüfatında hər il 300 min ton kimyəvi gübrələr və 40-50 min tondan artıq pestisidlər işlənmişdir. Kollektiv təsərrüfatlarda onlradan səmərəsiz istifadə edilməsi regionlarda əhalinin sağlamlığına mənfi təsirlə nəticələnmişdir.

Qeyd etmək lazımdır ki, tədqiqatlar göstərir ki, son illər respublikada davamlı ekoloji tarazlığın pozulmasına ən çox səbəb olan sahə hasilat və emal sənayesidir. Sənayenin sahələri içərisində isə xüsusilə yanacaq-energetika, metallurgiya və kimya sahələri ətraf mühitə kifayət qədər təhlükə törədir.

Bundan başqa, respublikada mineral-xammal sərvətlərinə olan tələbatın artması və onların təbii ehtiyatlarının tükənməsi ilə yanaşı hasilat sənayesində filiz və qeyri-filiz sərvətlərinin külli miqdarda itkisinə yol verilir.

Mövcud sənaye istehsalı artımını nəzərə alaraq bu ziddiyyətin yaxın dövr üçün daha da kəskinləşəcəyini gözləmək olar və əgər son dərəcə qısa bir müddət ərzində əsaslı tədbirlər həyata keçirilməzsə, bu ziddiyyət respublikanın sənaye sahələrində bir sıra gözlənilməz pis nəticələrə səbəb ola bilər.

Qeyd etmək lazımdır ki, əvvəllər irihəcmli istismar işləri aparılmış Daşkəsən rayonunda həm istismar sahələrində, həm də filiz saflaşdırma kombinatı yerləşən ərazidə, Zəylik alunit yatağının istismarı sahəsi və Gəncə gil-torpaq kombinatı ərazisində 100 minlərlə ton ölçülən istehsalat

tullantılarının ətraf mühitə neqativ təsiri sərbəst davam etməkdədir. Abşeronda əhəng daşı yataqlarının, Xəzər sahilində qum yataqlarının, çay vadilərində qum-çınqıl yataqlarının kortəbii istismarı nəticəsində yaranan ekoloji problemlər artmaqdadır.

Ümumiyyətlə mütəxəssislər dağ-mədən sənayesinin ətraf mühitdə problem yaradan istehsalat prosesləri və amillərini aşağıdakı kimi qruplaşdırırlar:

1. Faydalı qazıntıların açıq və yeraltı üsullarla çıxarlması.
2. Ətraf sahədə istehsalat strukturlarının yerləşdirilməsi və fəaliyyət göstərməsi.
3. Zənginləşdirmə və ya saflaşdırma qurğularının yerləşdirilməsi və onların fəaliyyət göstərməsi.
4. Istehsalat tullantılarının yaranması, toplanması, təkrar istehsalat tullantıları.
5. Ağır yüklərin nəqli.
6. Yarımfabrikat məhsulların hazırlanması üzrə qurğuların yerləşdirilməsi və onların fəaliyyət göstərməsi.

Bazar münasibətlərinə keçid şəraitində qarşıya çıxan mühüm problemlərdən biri-müəssisələrdə tullantıların zərərsizləşdirilməsi və təbiəti mühafizə tədbirlərinin lazımi səviyyədə maliyyələşdirilməsi mənbələrinin dəqiqləşdirilməsi təşkil edir.

Mühüm məsələlərdən biri ətraf mühitin mühafizəsi üzrə mühüm təbii ehtiyatların tam və kompleks istifadə edilməsi, təkrar xammal ehtiyatları və istehsal tullantılarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi məsələsidir. Hazırda zibilxanalarda külli miqdarda təkrar xammal ehtiyatları toplanmışdır. Onların səmərəli istifadə edilməsi sənaye müəssisələrində bir sıra texniki və İqtisadi tədbirlərin həyata keçirilməsini tələb edir. Balakən rayonunun şimal hissəsində, Böyük Qafqazın cənub yamacları boyunca uzunluğu 50-60 km, eni 25-30 km olan geniş ərazidə Zaqatala-Balakən filiz zonası kəşf edilmişdir. Buradan aydın olur ki, Zaqatala-Balakən rayonları XXI-əsrdə respublikamızın intensiv inkişaf edən dağ-mədən və metallurgiya sənayesi bazasına çevriləcəkdir.

Inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrin təcrübəsi sübut edir ki, ekoloji tarazlığın pozulmasına qarşı mübarizənin inzibati və ya birbaşa metodları vaxtilə İqtisadiyyatda texnogen inkişafın nəticəsi kimi ətraf mühitin deqradasiyasına yönəldilən ilk sərt və ənənəvi addımlar olmuşdur. Maddi istehsal sahələrinin, xüsusilə də sənaye və kənd təsərrüfatının ətraf mühitə güclü təsiri təmizləyici filtrlərin və qurğuların, texnogenezdən xüsusi qorunan ərazilərin yaranmasına, tullantıların yığılıb saxlanması sisteminin təkmilləşməsinə, eləcə də çirklənmiş torpaqların rekultivasiyasına səbəb oldu. Məsələ burasındadır ki, elə bu günün özündə də bütün dünyada ətraf mühitin mühafizəsi üzrə bütün plan və proqramlarda yuxarıda qeyd etdiyimiz tədbirlərə xüsusi diqqət verilir. Lakin bu metodlarla əslində texnogen inkişafın nəticələri ilə mübarizə aparılır, onu doğuran səbəblər isə məhdudlaşdırılmır və ya ləğv olunmur.

Ekoloji tarazlığın qorunmasında birbaşa tənzimləmə metodları rolunun gələcəkdə də böyük olacağına baxmayaraq, texnologiyanın müasir səviyyəsi istehsalın inkişafının mənfi ekoloji nəticələrinin ancaq alternativ variantlar və aztullantılı texnologiyalar əsasında ləğv olunmasına imkan vermir. Ölkədə bazar İqtisadiyyatının mükəmməl rəqabət sistemi formalaşmadığına görə İqtisadi-hüquqi mexanizmlər ətraf mühiti mühafizə etməyə imkan vermir.

İqtisadi inkişafın müasir mərhələsində ekoloji tarazlığın pozulması ilə bağlı və ekologiya-İqtisadiyyat münasibətlərinin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə təbiət və cəmiyyətin ahəngdar qarşılıqlı əlaqə və təsir istiqamətində lazımi tədbirlərin görülməsi zərurəti meydana çıxır. Bunun üçün xüsusi olaraq ekoloji tənzimləmə sisteminin yaradılması vacib sayılır. Ekoloji tənzimləmə davamlı ekoloji inkişafın təmin edilməsində dövlətin həyata keçirdiyi siyasətə İqtisadi baxımdan təsir göstərir. O, çox mühüm təsir obyekti kimi təbiət və cəmiyyətin istehsalla bağlı olmayan ünsürlərinə mənfi təsir göstərir istehsalla bağlı olmayan ünsürlər İqtisadiyyat üçün kənar amillər hesab edilsə də, onlar da öz növbəsində keçid dövründə qarşılıqlı ekoloji tarazlığa səbəb ola bilərlər. Kənar amil dedikdə, ətraf mühitə atılan qaz və bərk formalı tullantılar və çirkab suları nəzərdə tutulur.

Mövcud problemlərin aradan qaldırılması məqsədilə bir sıra İqtisadi metodlardan istifadə edilir. Konkret halda burada söhbət vergi və maliyyə alətlərinin tətbiq olunmasından gedir. Əgər kənar amillər İqtisadi proseslərə mənfi təsir göstərirsə, onda vergi mexanizminin təsir vasitələrindən, əgər müsbət təsir göstərirsə, subsidiyalardan istifadə olunur. Hazırda ekoloji tarazlığı qoruyub saxlamaq və ekoloji təhlükəsizliyi təmin etmək məqsədilə dünya ölkələrinin çoxunda xüsusi dövlət orqanları fəaliyyət göstərir. Bu orqanlar ekoloji tarazlığın qorunmasına cavabdeh olmaqla yanaşı, ətraf mühiti çirklənməkdən qorumaq üzrə məqsədli proqramlar və tədbirlər hazırlayıb həyata keçirirlər. Təcrübə göstərir ki, ilk vaxtlar ekoloji tarazlığın qorunması tədbirlərinin İqtisadi müxanizmləri həmin orqanlar tərəfindən çox az tətbiq olunmuş, əvəzində isə daha çox inzibati-amirlik mexanizmlərinə üstünlük verilmişdir.

Inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrdə ekoloji tənzimləmənin çoxillik təcrübəsinin öyrənilərək ümumiləşdirilməsi respublikamızın İqtisadiyyatında da davamlı ekoloji inkişafın təmin edilməsində İqtisadi mexanizmlərin yaradılması üçün mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə sübut edir ki, İqtisadi inkişafın müasir mərhələsində ekoloji tənzimləmə qarşılıqlı əlaqədə olan hər iki metodla aparılmalıdır. Onlardan hansının harada tətbiq edilməsi isə konkret region və yaxud müəssisədən asılı olaraq müəyyən edilir. İqtisadi ədəbiyyatda tətbiq olunan mexanizmlərin və ya tədbirlərin müəssisənin təsərrüfat fəaliyyətinə yaxşı və ya pis təsir göstərməsindən asılı olaraq müvafiq şəkildə müsbət və ya mənfi stimulların yaranması fikri qeyd olunur.

Təcrübədə ekoloji tənzimləmənin İqtisadi metodlarından istifadə ilk növbədə təbii ehtiyatlara qiymət qoyulması ilə bağlıdır. Eyni zamanda bu

metodlardan istifadə zamanı makroİqtisadi səviyyədə dövlətin həyata keçirdiyi İqtisadi siyasətin konseptual əsasları da mühüm əhəmiyyət kəsb edir. Bazar İqtisadiyyatına keçidin indiki mərhələsində güzəştli kreditlərin və güzəştli vergi sisteminin, çirklənməyə görə cərimələrin sistemli şəklə salınaraq tətbiq edilməsi, şübhəsiz ki, ilk növbədə təbiəti mühafizə orqanlarının borcudur.

Respublikamızın bazar İqtisadiyyatına qədəm qoyması ekoloji tarazlığın qorunması sahəsində də bir sırı tədbirlərin həyata keçirilməsinə imkan verir. Beynəlxalq təcrübə göstərir ki, sözügedən sahədə İqtisadi maraqlandırma tədbirlərinin həyata keçirilməsi müsbət nəticələrə gətirib çıxarır. Bazar İqtisadiyyatlı ölkələrin əksəriyyətində bu sahə daim diqqət mərkəzində saxlanılır. Bura əsasən çirklənmədən dəyən sosial-İqtisadi zərərin qiymtləndirilməsi və istehsalın təşkilində ekoloji məsələlərə fikir verilməsi daxildir.

Ekoloji tarazlığın pozulduğu əksər ölkələrdə ətraf mühitin mühafizəsinə xidmət edən dövlət sistemi fəaliyyət göstərir. Həmin sistemə aşağıdakılar aiddir:

- ətraf mühitin mühafizəsinə dair dövlət tədbirlərinin həyata keçirilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində özəl sektorun fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması (birbaşa və ya dolayı maliyyə yardımları, güzəştli vergi, kredit və s.);
- normativ tənzimləmə və cərimə sanksiyalarının tətbiqi (ekoloji ekspertiza, ekoloji normativ və məhdudiyyətlər, çirklənməyə görə ödənişlər və s.);
- ekoloji layihə və ideyaların maliyyələşdirilməsi.

Inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrdə ekoloji tarazlığın qorunmasının aşağıdakı prinsipləri əsas götürülür: ekoloji təhlükəsizliyin üstünlüyü prinsipi; ekoloji təhlükəsizliyin təmin olunmasında əhalinin kütləvi iştirakının vacibliyi;istehsal texnologiyalarının və avadanlıqlarının ekoloji cəhətdən əlverişli səviyyədə olması; ekoloji baxımdan əlverişsiz vəziyyətin yarana bilməsi ehtimalının qabaqcadan dərk edilməsi; ekoloji təhsilin formalaşması və inkişafı; istehsal və ekoloji təhlükəsizliyin vəhdəti prinsipi.

İqtisadi ədəbiyyatda davamlı ekoloji tarazlığın təmin edilməsində istifadə edilən İqtisadi metodları müxtəlif cür təsnifləşdirirlər. Bəzən bu İqtisadi metodları ümumi və xüsusi metodlara ayırmaqla aşağıdakı kimi qruplaşdırırlar:

- makroİqtisadi səviyyəli metodlar, yəni bütün təsərrüfat sahələrini əhatə edən İqtisadi metodlar;
- xüsusi metodlar-bilavasitə ətraf mühitin mühafizəsi ilə bağlı olan İqtisadi metodlar.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, təbii ehtiyatlardan ödənişli istifadə ekoloji tarazlığın qorunması üzrə fəaliyyətin iqtisadi stimullaşdırma sistemini müəyyən edir. Bu sistem tarixən bazar iqtisadiyyatlı ölkələrdə istehsal və istehlakçıların balanslaşdırılmış hərəkətinin formalaşmasına imkan vermişdir. Ayrı-ayrı ölkələrdə tətbiq olunan iqtisadi stimullaşdırma tədbirləri onların davamlı ekoloji inkişafında çox mühüm roil oynamışdır.

Müasir davamlı ekoloji inkişafın təmin olunmasında istifadə edilən ən mühüm İqtisadi metodlardan biri də vergilərdir. Dünya təcrübəsi sübut edir ki, ekoloji vergilər aşağıdakı problemləri həll edir:

- məhsulun qiymətinin ona sərf olunan xərclərə, o cümlədən də təbii ehtiyatlara, ətraf mühitə dəyən zərərə uyğun olması;
- çirkləndirənlər tərəfindən ekoloji zərərin kompensasiyasına şərait yaratmaq.

Ekoloji vergilər, bir tərəfdən, ekoloji cəhətdən balanslaşdırılmış fəaliyyəti stimullaşdırır, digər tərəfdən isə, resurstutumlu istehsalı sıxışdırır. Bu vergilərin tətbiqi zamanı əvvəlcə, ətraf mühitin mühafizəsi orqanları tərəfindən ilkin addım atılır, sonra isə qalan proseslər bazar mexanizmlərinin öhdəsinə buraxılır.

Beynəlxalq təcrübəyə görə, bütövlükdə istehsalçılar üçün vergi güzəştləri ekoloji fəaliyyət növündən asılı olaraq müəyyən edilir. Ekoloji tarazlığın pozulmasına qarşı aparılan mübarizənin səmərəliliyini yüksəltmək məqsədilə güzəştli vergilər sisteminin tətbiqi təcrübəsi geniş yayılmışdır. Bəzən isə belə hallarda istehsalçılar vergiyə cəlb olunmur. Inkişaf etmiş bazar İqtisadiyyatlı ölkələrdə fəaliyyət göstərən ekoloji fondların, eləcə də tullantılardan istifadə edən və onların emalı ilə məşğul olan müəssisələrin vergidən azad olması buna əyani misaldır.

Beynəlxalq ekoloji vergilər sistemində dörd əsas tətbiq sahəsi fərqləndirilir: sahəvi, texnoloci, regional və məhsula aid olan. Davamlı ekoloji inkişaf tipinə keçidlə əlaqədar olaraq təbiət tutumlu sahələrdə yüksək vergilərin tətbiqi bu sahələrin inkişafına mane olur. Odur ki, texnoloci proseslərin sonunda vergilər yumşaldılmalıdır ki, bu sahələr daha yaxşı inkişaf etsin və ətraf mühitə tullantıların atılması azalsın. Ekoloji vergilərin regional tətbiq sahəsinə rəğmən isə bəzi İqtisadçılar ekoloji cəhətdən gərgin rayonlarda vergilərin nisbətən yumşaq olmasını və bu yolla həmin ərazilərə investisiyaların cəlb edilməsinin mümkünlüyünü əsaslandırmağa çalışır, digər qrup İqtisadçılar isə əksinə, bu ərazilərdə vergilərin daha sərt olmasını, bununla da ətraf mühitə zərərli təsir göstərən müəssisələrin ixtisarını və ərazinin tezliklə reabilitasiyasını təklif edirlər.

Davamlı ekoloji inkişafa nail olmaq məqsədilə ABŞ-da ekoloji vergilər daim diqqət mərkəzində saxlanılır. Bütövlükdə dünyada ozon qatının seyrəlməsinə səbəb olan freonun istehsalını ixtisar etmək məqsədilə 1989-cu ildə federal hökumət tərəfindən onun satışına vergi qoyuldu. Freonu əvəz edən maddələrlə istehsala keçmək üçün vaxt lazım olduğuna görə bu vergi mütərəqqi əhəmiyyət kəsb edir.

Hazırda qolobal istiləşmə ilə əlaqədar olaraq bəzi ölkələrdə karbona görə vergi tətbiq etmək haqqında düşünürlər. Onların fikrincə, kömür yanarkən təbii qaza nisbətən daha çox karbon ayrıldığına görə o, daha yüksək vergiyə cəlb olunmalıdır. Belə ki, gələcəkdə karbon vergisinin tətbiqi dünyada enerci ehtiyatlarının istismarını azaltmağa və alternativ enerci mənbələrinin istifadəsinə, meşələr salınmasına və s. stimul yaradacaqdır.

Davamlı ekoloji inkişafın təmin edilməsi sistemində ətraf mühitin çirklənməsinə görə ödənişlər mühüm əhəmiyyətə malikdir. Bu ödənişlər müəssisə və firmalar tərəfindən ətraf mühitə dəyən ekoloji-İqtisadi zərərin kompensasiyası üçün vacibdir. Ətraf mühitin çirklənməsinə görə ödənişlər dəymiş zərərin yalnız kiçik bir hissəsi olmaqla çirkləndirən müəssisələrin cəzalandırılması vasitəsi kimi çıxış edir.

Bazar İqtisadiyyatının tələblərinə uyğun olaraq qiymət mexanizminin təkmilləşdirilməsi problemi davamlı ekoloji inkişafın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Təbii ehtiyatların qiymətlərinin aşağı olduğu hallarda ETT-nin nailiyyətlərindən istifadənin daim artan problemləri, eləcə də az tullantılı texnologiyaların tətbiqi məsələləri çox vaxt resursların israfçılıqla istifadəsinə gətirib çıxarır. Eyni zamanda, məhsulun qiyməti ekoloji təhlükəsizlik səviyyəsindən asılı olmalı, ekoloji cəhətdən daha təmiz məhsul isə daha ucuz olmalıdır. Bu zaman beynəlxalq təcrübəyə görə ekoloji vergidən, subsidiya və güzəştlərdən istifadə edilməsi məqsədəuyğun hesab olunur.

Azərbaycanın müstəqillik əldə etməsində, onun qorunub saxlanılmasında və möhkəmlənməsində, ölkə İqtisadiyyatının sürətli inkişafında, xalqın rifahının yaxşılaşdırılmasında əvəzsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi daima xüsusi diqqət mərkəzində olmuşdur. 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar, qərarlar, sərəncamlar qəbul edilmiş, institusional dəyişikliklər baş vermişdir.

Respublikada həyata keçirilən struktur islahatları çərçivəsində, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin ayrı-ayrı aspektlərilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir neçə dövlət qurumu ləğv edilmiş, ulu öndərimiz Heydər Əliyevin 23 may 2001-ci il 485 saylı Fərmanı ilə ölkədə ekologiya, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, geologiya**,** meşəçilik və balıqçılıq sahəsində vahid dövlət siyasətini həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Ötən müddət ərzində nazirlik tərəfindən "Ekoloji cəhətdən dayanıqlı sosial-İqtisadi inkişafa dair", "Meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli proqramlar, "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair" Dövlət Proqramı və "Azərbaycan Respublikasında Hidrometorologiyanın inkişaf proqramı" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq edilmişdir.

Ölkədə ətraf mühit qanunvericiliyinin Avropa Ittifaqı qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, ictimaiyyətin ekoloji biliklərinin və ətraf mühit haqqında məlumatlılığının artırılmasına, habelə dövlət və özəl əmlak mənafelərinin qorunmasına təminat verən qanunlar qəbul edilmiş, digər normativ hüquqi sənədlər hazırlanmış və hökumət qərarları ilə təsdiq edilmişdir.

Müasir Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə başlanmış çoxşaxəli islahatların bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkənin sosial-iqtisadi inkişafı daha da sürətləndirilmiş, inkişaf sürətinə görə Azərbaycan nəinki regionda, hətta dünya ölkələri arasında ön sıralara çıxmışdır.

Ekoloji şəraitin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, meşəçilik, hidrometeorologiya, geologiya, balıqartırma sahəsində son bir neçə ildə ölkə rəhbərliyinin prinsipial mövqeyi nəticəsində böyük işlər görülmüş, uzun illər ərzində yaranmış və müstəqil Azərbaycana miras qalmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən 5 Milli və Dövlət Proqramları təsdiq edilmiş, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik aktları və hökumət qərarları qəbul edilmiş və ya təkmilləşdirilmiş, ölkəmiz beynəlxalq əlaqələri genişləndirərək 20-dək beynəlxalq konvensiyalara qoşulmuşdur. Ətraf mühitin mühafizəsi sahəsində inzibati metodlara söykənmiş idarəetmə sistemi təkmilləşdirilmiş, ekoloji təbliğat və monitorinq fəaliyyəti gücləndirilmiş, "çirkləndirən ödəyir" prinsipindən geniş istifadə edilmişdir. Ətraf mühitin mühafizəsi tədbirlərinə ictimaiyyətin cəlb olunması istiqamətində tədbirlər həyata keçirilmiş, ətraf mühitə əlaqəli nəzarət şəbəkəsi yaradılmışdır. Ətraf mühitə vurulmuş zərərə görə İqtisadi sanksiyalar sərtləşdirilir, ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna daxilolmalar son bir neçə ildə dəfələrlə artmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsinə nəzarəti həyata keçirən qurumlar tərəfindən 2006-cı il ərzində hüquqi və fiziki şəxslər və vətəndaşlar tərəfindən yol verilmiş qanun pozuntularına görə 4375 akt və protokol tərtib olunmuş, müəyyən edilmiş nöqsanlarla əlaqədar idarə, müəssisə və təşkilatlara Ətraf mühitin mühafizəsi haqqında Qanuna əsasən 917 icrası məcburi tələbnamələr verilmişdir. 108 iş üzrə sənədlər tədbir görülməsi üçün hüquq-mühafizə orqanlarına, ətraf mühitə vurulmuş zərəri ödəməkdən imtina etdiyinə görə 376 iş məhkəmələrə göndərilmişdir. Qanun pozuntusuna yol verdiklərinə görə hüquqi və fiziki şəxslərə qarşı, ümumilikdə 1935 iş üzrə 71427,83 man. məbləğində cərimə tətbiq edilmiş, əvvəlki ilin cərimələri daxil olmaqla 74546,06 man ödənilmişdir. Ətraf mühitə dəymiş ziyanla bağlı 982 iş üzrə 1194009,7 man. məbləğində iddia qaldırılmış, ondan 128907,56 manatının ödənilməsi təmin edilmişdir. 2982 iş üzrə 405875,47 manat məbləğində ödəmə verilmiş, ondan 143359,79 manat ödənilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2003-cü il tarixli 1152 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram"ın tələblərinə uyğun olaraq 2006-cı ildə 10140 hektar sahədə meşə-bərpa və salma tədbirləri həyata keçirilmişdir. Bunun 3848 hektarını yeni meşələrin salınması, 6292 hektarını isə meşə-bərpa işləri təşkil etmişdir. Bu da keçən ildəkinə nisbətən 403 hektar çoxdur. Proqramın icrası ilə əlaqədar 2003-2006-cı illər ərzində 37724 ha-da meşə-bərpa tədbirləri aparılmışdır ki, bunun 15104 ha-ı yeni meşələrin salın-

masıdır. Ilk növbədə meşələrin bərpası və artırılmasının əsası olan toxum tədarükünün və əkin materialı istehsalının çoxaldılması sahəsində əsaslı nailiyyətlər əldə edilmişdir. Belə ki, tinglik sahəsinin səpin, böyütmə və kökləndirmə şöbələrində 2006-cı ildə 37,5 mln. ədəd, 2001-2006-cı illər ərzində isə cəmi 165,5 mln. ədəd müxtəlif çeşiddə əkin materialı yetişdirilmişdir.

Yarımsəhra ərazilərdə meşə sahələrinin genişləndirilməsi məqsədi ilə yeni Meşəsalma Müəssisələri (Cəngi, Qaradağ, Giləzi, Zərdab və Naxçıvan) yaradılmış, ötən müddət ərzində həmin müəssisələr tərəfindən 88 hektardan çox ərazidə yeni meşəliklər salınmışdır.

Tükənməyən enerci mənbələrindən istifadə sahəsində beynəlxalq təcrübənin ölkədə nümayiş etdirilməsi məqsədi ilə respublikanın müxtəlif regionlarda günəş enercisindən istifadə edilməklə bioqraz qurğuları və Pirallahı adasında meteoroloci stansiyada külək və günəş enercisi ilə işləyən qurğular quraşdırılmışdır. Respublika ərazisində aparılan geoloci-kəşfiyyat işləri nəticəsində ölkənin İqtisadi potensialını möhkəmləndirən etibarlı mineral-xammal bazası yaradılmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası MDB ölkələri arasında tikinti materiallarına olan tələbatı daxili imkanlar hesabına ödəyən qabaqcıl ölkələrdən biridir. Geoloci-kəşfiyyat xidmətinin maddi-texniki bazası gücləndirilmiş, müasir cihaz və avadanlıqla təmin edilərək modernləşdirilmişdir.

Təkcə Daşkəsən rayonunda aşkarlanmış Çovdar qızıl yatağının ehtiyatları bazasında istismar dövründə 2,0-2,5 mlrd. ABŞ dolları həcmində əmtəə istehsal edən dağ-mədən müəssisəsi yaratmaq mümkündür.

Son bir neçə il ərzində aparılmış geoloci-kəşfiyyat işləri nəticəsində 30-dan artıq qeyri-filiz və tikinti materialları, 4 yeni qızıl yataqları aşkar edilmiş, ölkənin qızılçıxarma sənayesinin baza ehtiyatları 2 dəfədən çox artırılmışdır. Azərbaycan geologiyası tarixində ilk dəfə təcrübi yolla 573,3 qram təbii qızıl əldə edilmişdir.

"Azərbaycan Respublikasında Hidrometeorologiyanın inkişaf proqramı" nın icrası uğurla davam etdirilmiş, dövlət hidrometeoroloci müşahidə şəbəkəsinin modernləşdirilməsi, onun müasir cihaz və avadanlıqlarla təchiz edilməsi, informasiya mübadiləsi sisteminin təkmilləşdirilməsi, proqnoz və xəbərdarlıqların dəqiqliyinin artırılması ilə respublikada əhaliyə, dövlət strukturlarına və İqtisadiyyatın ayrı-ayrı sahələrinə göstərilən hidrometeoroloci xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Əvvəllər hava proqnozlarının hazırlanmasında beynəlxalq şəbəkədən alınmış 2 sinoptik xəritədən istifadə edilirdisə, görülmüş tədbirlər nəticəsində 3 şəbəkədən (Avropa, Türkiyə və Rusiya) alınmış 52 xəritə vasitəsilə verilən proqnozların dəqiqliyi xeyli artırılmışdır.

Ətraf mühitin komponentləri olan hava, torpaq, suyun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədi ilə ətraf mühit üzrə monitorinq sistemi təkmilləşdirilmiş, ətraf mühitin çirklənmə vəziyyətinə dair dəqiq məlumatlar alınması məqsədi ilə 6 analitik tədqiqat laboratoriyasının fəaliyyəti yendən

təşkil edilmiş, müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təchiz edilmiş, nəticədə əvvəllər primitiv üsulla-əl ilə görülən analitik tədqiqat işləri avtomatlaşdırılaraq müasir tələblər səviyyəsinə çatdırılmışdır. Bundan əlavə, əvvəllər laboratoriyalarda mövcud olan analitik cihazlar havada, suda və torpaqda mövcud olan yalnız 30 çirkləndiricinin təyin edilməsinə imkan verirdisə, ABŞ istehsalı olan və avtomatik sistemdə işləyən Xromotomas-spektrometr cihazının laboratoriyalarda quraşdırılması havada, suda, torpaqda 3 mindən artıq üzvi çirkləndiricini təyin etmək imkanı yaratmışdır.

Ətraf mühitin idarə olunmasında beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir. Azərbaycan Respublikası hazırda 20-yə yaxın Beynəlxalq Ekoloji Konvensiyanın və bir çox Beynəlxalq Ekoloji Təşkilatların tamhüquqlu üzvüdür. BMT-nin Ətraf Mühit, Inkişaf və Ərzaq proqramları, Sənaye İnkişaf Təşkilatı, Qlobal Ekologiya Fondu, Dünya Bankı, Avropa İttifaqının TASIS Proqramı və YUNESKO kimi dünyanın aparıcı beynəlxalq təşkilatları ilə sıx əlaqələr qurulmuş, bir sıra region ölkələri və inkişaf etmiş dövlətlərlə (Gürcüstan, İran, Türkiyə, Kanada, Almaniya, Danimarka, Moldova və s.) ikitərəfli əməkdaşlıq sazişləri imzalanmış və bu əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyət uğurla davam etdirilir.

Son illər respublikamızda ekoloji preoblemlərin həlli sahəsində çoxlu işlər görülsə də uzun illərdən bəri yığılıb qalmış məsələlərin həlli külli miqdarda maliyyə vəsaiti, texniki imkanlar və vaxt tələb edir. Ölkə İqtisadiyyatının sürətli inkişafı, dövlət büdcəsinin imkanlarının artması və ölkə Rəhbərinin qayğısı bu problemlərin həllinə imkan yaradır. 3 iyul 2006-cı il tarixdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin yanında keçirilmiş müşavirənin yekunları əsasında hazırlanaraq Dövlət Başçısının 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" problemlərin həlli istiqamətində mühüm addımdır.

Kompleks Tədbirlər Planının əsas istiqamətləri Bakı, Bibi-Heybət zonasında, Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ətrafında, Abşeron yarımadasında, Azərbaycan Respublikasının digər ərazilərində, o cümlədən Sumqayıt, Naxçıvan, Gəncə, Əli-Bayramlı, Mingəçevir və digər şəhərlərdə ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə konkret işlərin görülməsindən, habelə ümumi ekoloji problemlərin həllinə yönəlmiş tədbirlərin yerinə yetirilməsindən və qanunvericiliyin təkmilləşdirilməsindən ibarətdir.

Davamlı ekoloji inkişafın təmin edilməsinin əsas İqtisadi metodlarından biri də ekoloji auditdir. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitin mühafizəsini səmərəli təşkil etmək, təbii ehtiyatlardan səmərəli istifadə etmək, bu sahədə səmərəli İqtisadi-maliyyə nəzarəti yaratmaq, ətraf mühitə vurulan zərərin qiymətləndirilməsini müəyyən etmək məqsədilə ekoloji auditin vurulması zəruri sayılmışdır. Ölkə qanunvericiliyinə görə, ekoloji audit dedikdə, "... təbii

resursların istifadəsi və bərpası üzrə hesabatların düzgün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərin, ətraf mühitin mühafizəsi normalarının və qaydalarının gözlənilməsi məqsədilə onların təsərrüfat və digər fəaliyyətlərinin müstəqil yoxlanılmasıdır". Ekoloji audit təbiətdən istifadəçi ilə ekoloji auditor arasında bağlanmış müqaviləyə əsasən aparılır.

Ekoloji audit təbiətdən istifadənin tənzimlənməsi sahəsində tətbiq olunan əsas İqtisadi modellərdən biridir. Ekoloji audit təbiətdən istifadənin İqtisadiyyatın digər elementləri olan ekoloji menecment, ekoloji lizinq, ekoloji sığorta ilə sıx əlaqədardır. O, ilk dəfə olaraq keçən əsarin 70-ci illərindən etibarən ABŞ-da tətbiq olunmağa başlanmışdır.

Ekoloji audit hazırda Böyük Britaniya, Hollandiya, İsveç, Almaniya və digər ölkələrdə geniş inkişaf tapmışdır. Bu ölkələrdə ekoloji auditin aşağıdakı növləri xüsusilə inkişaf etmişdir:

- operativ audit;
- dövlət idarələrinin göstərişi ilə normativ aktların auditi;
- mühasibat uçotunun auditi.

Ekoloji audit aşağıdakı sahələr səviyyəsində həyata keçirilə bilər:

- dövlət idarələri;
- transmilli korporasiyalar;
- regionlar;
- bələdiyyə idarələri;
- müəssisələr.

Ekoloji audit prosesində təbiətdən istifadəçinin fəaliyyəti ekoloji qanunvericilik üzrə qəbul olunmuş normativ-hüquqi sənədlərə və standartlara uyğun olaraq aparılır. Ekoloji auditin əsas mahiyyəti təbiətdən istifadəçilərin fəaliyyətinin düzgün və səmərəli qurulmasına zəruri kömək göstərməklə yanaşı, dövlətin ekoloji siyasət sahəsində qəbul etdiyi tələblərin tam həyata keçirilməsi üçün şərait yaratmaq, ölkənin təbii resurslarının, ətraf mühitin, ekoloji tarazlığının qorunmasının səmərəli istiqamətini müəyyən etməkdən ibarətdir. Beynəlxalq ticarət palatasının tərifinə görə isə, ekoloji audit təbiətdən istifadənin idarə olunmasının dövri və obyektiv qiymətləndirilməsini sistematik və sənədlərlə təsdiq olunan və qiymətləndirməni tərkibinə daxil edən idarəetmə vasitəsidir. Beynəlxalq standatlaşdırma təşkilatının təbirincə, ekoloji audit vaxtdan-vaxta keçirilən yoxlama prosesi olub, onun əsas məqsədi obyektiv məlumatların alınması, eləcə də ekoloji tədbirlərin ekoloji tələblərə cavab verib-verməməsini təyin edir.

Ekoloji auditin məqsədi ətraf mühitin, ekoloji təhlükəsizliyin təmin olunması üçün təbiətdən istifadəçilərin fəaliyyətinin mövcud qanunvericiliyə, ekoloji norma və standatlara uyğunluğunu müstəqil yoxlamaq, onların fəaliyyətinin səmərəli təşkili və ekoloji siyasətin düzgün müəyyənləşdirilməsi ilə bağlı zəruri məsləhətlər vermək, kömək göstərməklə dövlətin ekoloji siyasətinin həyata keçirilməsinə imkan yaratmaqdır.

10.2. Azərbaycanda ekoloji durum və iqtisadi inkişafın tarazlıq problemi.

Repsublikamızda ətraf mühitin mühafizəsi məsələləri keçən əsrin 50-60-cı illərindən sonra daha da kəskinləşmişdir. Keçmiş SSRI tərkibində respublikamızın təbii sərvətlərindən kortəbii istifadə, ekoloji tutum nəzərə alınmadan çirkli sənaye sahələrinin yerləşdirilməsi və onların təmizləyici qurğularla təchiz edilməməsi nəticəsində ətraf mühitə antropogen təsir güclənmiş, bəzi ərazilərdə texnogen landşaftlar əmələ gəlmişdir. Aqrar bölmədə istifadə edilən zəhərli kimyəvi maddələrin normadan artıq tətbiq edilməsi nəticəsində torpaqlar çirklənməyə məruz qalmışdır. Bütün bu təsirlər nəticəsində torpaqların, su hövzələrinin, atmosferin, bitki və heyvanat aləminin və bütövlükdə landşaft komplekslərinin mühafizəsi respublikamızın əsas ekoloji problemlərinə çevrilmişdir.

Azərbaycanda ekoloji problemlər daha çox sənaye və kənd təsərrüfatının inkişaf etdiyi rayonlar üçün səciyyəvidir. Bu baxımdan ekoloji problemlərin kəskinləşdiyi ərazilərə neftçıxarma sənayesinin inkişaf etdiyi Xəzər dənizi, Abşeron yarımadası, Cənub-Şərqi Şirvan və Muğan düzlərini; dağ-mədən sənayesinin inkişaf etdiyi Daşkəsən, Balakən və Naxçıvan MR ərazilərini; iri sənaye şəhərləri olan Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı və Mingəçevirin texnologen pozulmuş torpaq sahələrini; respublikanın atmosfer və su hövzələrini; Kür-Araz ovalığının şoranlaşmış və dağlarımızın eroziyaya uğramış torpaqlarını; ilbəil qırılaraq seyrədilən və məhvolma təhlükəsi altında olan düzən və dağ meşələrini və s. aid etmək olar. Bütün bunlar öz həllini gözləyən çox mürəkkəb problemlərdir.

Lakin məsələ burasındadır ki, sosial-iqtisadi problemlərin çoxluğu ekoloji məsələlərin həllini çətinləşdirir, dövlətin ekoloji problemlərin həllinə yönəltdiyi vəsaitlər onların aradan qaldırılması üçün kifayət etmir.

Cədvəl 1.

1995-2006-cı illərdə Azərbaycan Respublikası üzrə ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşu

	1995	2000	2001	2002	2003	2004	2005	2006
Cəmi, min manat	5354,7	1722,7	1271,1	2404,9	2965,1	1911,3	2912,3	8879,4
O cümlədən								
Su ehtiyatlarının mühafizəsinə	826,6	603,6	765,3	944,7	1949,8	1706,5	1309,8	6838,1
Atmosfer havasının mühafizəsinə	682,1	825,9	177,1	1426,1	879,1	204,8	1503,9	1601,9
Torpaqların mühafizəsinə	3795,2	293,2	328,7	34,1	136,2	-	98,6	439,4
Digər tədbirlərə	50,8	-	-	-	-	-	-	-

Cədvəl məlumatlarından göründüyü kimi, respublikamız üzrə ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşunun həcmi 2006-cı ildə 1995-cı ilə nisbətən 1,7 dəfə, 2000-ci ilə nisbətən isə 5,2 dəfə artaraq 8,9 milyon manata çatmışdır. Təhlili göstərir ki, 2006-cı ildə bu məqsəd üçün sərf olunan əsas investisiya qoyuluşunun həcmi 2003-2005-ci illərdəki müvafiq investsiya qoyuluşunun həcmindən 14,1% və ya 1,1 mln.manat çox olmuşdur. Bu, əsasən 2006-cı ildə su ehtiyatlarının mühafizəsinə yönəldilən əsas investisiya qoyuluşunun 1995-ci və 2000-ci illərlə müqayisədə müvafiq olaraq 8,3 dəfə və 11.3 dəfə artması nəticəsində mümkün olmuşdur. 2006-ci ilin məlumatına görə, su ehtiyatlarının mühafizəsinə yönəldilmiş əsas investisiya qoyuluşunun (6,84 milyon manat) bütövlükdə ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşu həcmində xüsusi çəkisi 77,0%-ə bərabər olmuşdur. Atmosfer havasının mühafizəsinə yönəldilmiş investisiya qoyuluşlarının həcmi 2006-cı ildə 1995-cı ilə nisbətən 2,35 dəfə, 2000-ci ilə nisbətən 1,94 dəfə və 2005-ci ilə nisbətən 6,5% artaraq 1,6 milyon manat təşkil etmişdir ki, bunun da bütövlükdə respublika üzrə ətraf mühitin mühafizəsinə və təbii resusrlardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşunun həcmində xüsusi çəkisi 18,0%-ə bərabərdir.

Qeyd etmək lazımdır ki, son dövrdə torpaqların mühafizəsinə yönəldilən investisiya qoyuluşunun həcmi isə 1995-ci illə müqayisədə xeyli azalsa da, 2000-ci və 2005-ci illərlə müqayisədə 1,5 dəfə və 4,5 dəfə artaraq 2006-cı ildə 439,4 min manata çatmışdır.

Ölkəmizdə ekoloji vəziyyətin sağlamlaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsi üçün ilk növbədə atmosferin mühafizəsinə diqqət yetirmək

lazımdır. Aparılan tədqiqatlar göstərir ki, respublikamızın atmosfer havasının vəziyyəti gərgin olaraq qalmaqdadır.

Cədvəl 2.

Azərbaycan Respublikası üzrə 1995-2006-cı illərdə çirkləndirici maddələrin atmosferə atılması mənbələri

	1995	2000	2001	2002	2003	2004	2005	2006
Çirkləndirici maddələrin atmosferə atılması, cəmi min ton	1325,4	908,1	978,9	620,7	837,9	975,3	1054,3	875,1
O cümlədən								
Stasionar mənbələrdən	878,6	515,4	577,1	217,4	425,9	539,8	557,9	344,2
Avtomobil nəqliyyatından	446,8	392,7	401,8	403,3	412,0	435,5	496,4	530,9

Cədvəl məlumatlarından göründüyü kimi, 2006-cı ildə atmosferə atılmış çirkləndirici maddələrin həcmi 2006-cı ildə 1995, 2000 və 2005-ci illərlə müqayisədə müvafiq olaraq 34,0%, 3,6% və 17,0% azalmasına baxmayaraq, avtomobil nəqliyyatından atmosferə daxil olan çirkləndirici maddələrəin həcmi müqayisə edilən illərə nisbətən 18,8%, 35,2%, 7,0% artaraq 2006-cı ildə 530,9 min ton təşkil etmişdir.

Respublika Dövlət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məLumatına görə, sənaye müəssisələrinin tam gücü ilə işlədiyi dövrlərdə ölkənin hava hövzəsinə 112 min ton toz hissəcikləri, 93 min ton kükürd 2-oksid, 638 min ton karbon oksidi, 82 min ton azot oksidi, 1 mln. 665 min ton karbohidrogenlər 37 min ton müxtəlif tərkibli kimyəvi maddələr atılmışdır.

Atmosfer havasına atılan tullantıların həcminə və xüsusi çəkisinə görə Bakı, Sumqayıt, Şirvan, Gəncə və Mingəçevir şəhərləri öndə gedirlər. Bu şəhərlərin hava hövzəsini çirkləndirən əsas sənaye müəssisələri, neftayırma, neft-kimya, kimya, energetika, metallurgiya, tikinti materialları sənayesi sahələri və avtomobil nəqliyyatı hesab olunurlar. Həmin sənaye müəssisələri nəinki atmosfer havasını, eyni zamanda, bütövlükdə şəhərlərin ətraf mühitinin çirkləndirilməsinin başlıca mənbəyi hesab olunurlar. Respublikanın atmosfer havasına 2006-cı ildə atılan tullantıların 79,0% -i (271,9 min tonu) Bakı şəhərinin, 4,7%-i (16,3 min tonu) Mingəçevirin, 4,6% -i (15,9 min tonu) Şirvan, 3,5%-i (12,0 min tonu) Sumqayıtın, 1,5%-i (5,3 min tonu) Gəncənin payına düşür (cədvəl 3.).

Cədvəl 4.

Azərbaycan Respublikasının iri sənaye şəhərləri üzrə stasionar mənbələrdən çirkləndirici maddələrin atmosfer havasına atılması (min ton)

Şəhərlər	1995	2000	2001	2002	2003	2004	2005	2006
Respublika üzrə, cəmi	878,6	515,4	577,1	217,4	425,9	539,8	557,9	344,2
O cümlədən								
Bakı	623,9	333,8	306,8	110,3	331,4	417,36	464,6	271,9
Şirvan	27,8	28,6	27,6	20,5	21,7	19,4	17,5	15,9
Gəncə	4,8	5,7	3,0	2,2	4,0	6,6	4,3	5,3
Mingəçevir	26,7	28,6	13,8	12,0	15,0	13,4	14,5	16,3
Sumqayıt	40,2	17,6	22,3	13,0	32,3	58,9	27,1	12,0

Qeyd etmək lazımdır ki, respublikamızın iri sənaye şəhərlərinin hava hövzəsinin çirkləndirilməsinin əsas səbəbi son 40-50 il ərzində avadanlıq və mövcud texnologiyaların dəyişdirilməməsi, təmizləyici qurğularla tam təmin olunmaması, nəticədə avadanlığın köhnələrək yararsız vəziyyətə düşməsi olmuşdur.

Ölkənin hava hövzəsini mühafizə etmək üçün ilk növbədə mövcud çirkləndirici sənaye sahələrini yenidən qurmaq, müasir texnolo**ci** qurğular, təmizləyicilər tətbiq etməklə, atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarının azaldılmasına və zərərsizləşdirilməsinə nail olmaq, az tullantılı və tullantısız istehsal sahələri yaratmaq lazımdır. Çirkləndirici müəssisələrdə daha hündür borular tikmək, müəssisələrin ətrafında qaz və tozların təsrinə davam gətirən, havadakı toz, pas və müxtəlif qazları tutub saxlaya bilən ağac və kol bitkilərindən ibarət yaşıllıq-mühafizə zolaqları yaratmaq da atmosferi mühafizə tədbirləri sırasına daxildir.

Məlumdur ki, respublikamız məhdud su ehtiyatlarına malikdir. Respublikamızın su təminatının belə zəif olmasına səbəb ilk növbədə əlverişsiz təbii şəraitdir. Lakin bununla belə, tədqiqatlar göstərir ki, respublikanın potensial su ehtiyatları sənayenin, kənd təsərrüfatının və məişətin suya olan tələbatını ödəyə bilər. Su ehtiyatları bir ildə 27-31 kub km. təşkil edir. Bir çox regionlarda, xüsusilə də Abşeron yarımadasında su çatışmazlığı əsasən sudan istifadənin düzgün olmaması ilə bağlıdır.

Təhlil göstərir ki, hər il respublikamızın su hövzələrindən 12 kub km, yeraltı laylardan 1,1-1,2 kub km şirin su götürülür. Repsublikanın suya olan tələbatı isə 11,0 -13,0 kub km-dir. Götürülən suyun 20-25%-i sənaye və məişət məqsədləri üçün istifadə olunur. Su obyektlərinə atılan tullantı sularının həcmi 160-170 mln.kubmetr arasında tərəddüd edir.

Qeyd etmək lazımdır ki, respublikamızda aşkar olunan və gələcəkdə kəşf ediləcək faydalı qazıntı yataqlarının ehtiyatının müəyyən edilməsi, müasir, gələcək və hətta uzaq gləcəkdə xalq təsərrüfatının xammal ilə təminatının optimal qiymətləndirməyə imkan verir.

Mineral xammallar təbii sərvətlərin ayrılmaz bir hissəsidir. Təbii sərvətlərin digər növlərindən fərqli olaraq (məsələn, torpağın münbitliyi, məhsuldarlığı, su ehtiyatı, günəş və külək ener**ci**ləri, bitki və heyvanat aləmi və s.) mineral sərvətlər bərpa oluna bilmirlər. Buna görə də faydalı qazıntı olan, yeraltı mineral sərvətlərdən qənaətlə, ehtiyatla və məqsədyönlü istifadə olunmalıdır.

Müasir texniki-İqtisadi göstəricilərin müqayisəsi göstərir ki, istismar zamanı faydalı qazıntıların bir qismi yerin təkindindən çıxarılarkən digər bir qismi isə zəngiləşmə prosesində itirilir.

Müstəqil respublikamızın və həmçinin Muxtar Respublikanın dağ-mədən sənayesinin XXI əsrdə ətraf mühitə zərərli təsirini azaltmaq, bu sahədə çalışan mütəxəssislərin ümdə vəzifələrindən biridir. Dağ-mədən sənayesinin ətraf mühitə təsiri ilk öncə faydalı qazıntıların kəşf edilməsindən başlayır. Ikinci onların istismarı zamanı filizin çıxarılması məqamında və onun nəqlində zərərli təsirlər baş verir. Nəhayət üçüncü növ təsir, çıxarılan filizin mədənlərdə zənginləşdirilməsi zamanı baş verir.

Qeyd etmək lazımdır ki, torpaqların inventarlaşdırılmasının aparılması göstərir ki, respublika ərazisində torpaqların korlanması əsas iki sənaye sahəsi tərəfindən olur. Bu sənaye sahələrindən biri neft, digəri isə faydalı qazıntıların açıq üsulla (yəni karyer üsulu ilə) istismarı zamanı baş verir. Faydalı qazıntı yataqlarının istismarı zamanı ətraf təbii mühitin bütün elementlərinə təsir edir. Bu hal əsasən açıq üsulla istismar zamanı baş verir. Bu təsir bir sıra hallarda uzun illər qalaraq, son anda konkret səviyyələrdə və proseslərdə üzə çıxır, yaxud da ekoloji mühitin tam kompleksində müvazinətin pozulması ilə nəticələnir. Kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin dövriyyədən çıxarılması, meşələrin seyrəkləşməsi və tamamilə məhv olmağı dağ-mədən işləri aparılan ərazinin hidrogeolo**ci** re**ci**minin tamamilə pozulması və relyefin dəyişməsi bu qəbildəndir. Respublika ərazisində buna aid yüzlərcə misallar göstərmək olar. Hasilat sənayesinin intensiv inkişafı getdikcə daha çox faydalı qazıntı yataqlarının istifadəyə verilməsi, dağ-mədən müəssisələrinin istehsal gücünün artırılması və qazıntıların dərinləşdirilməsi ilə müşayiət olunur. Belə bir şəraitdə təkcə dağ-mədən işlərinin aparıldığı yerlərdə deyil, ətraf sahələrdə də torpaq fondlarını qorumaq və min illər boyu təşəkkül tapmış təbii kompleksin pozulmasını almaq müasir dövrün mühüm vəzifələrindən biridir.

Azərbaycan ərazisində fəaliyyət göstərən dağ-mədən sənayesi müəssisələrinin ətraf mühitə göstərdikləri mənfi təsirlər, hər şeydən əvvəl, torpaq fondlarının pozulmasında, bitki və heyvanat aləminə dəyən ziyanlarda, su ehtiyatlarının çirklənməsində və bunun vasitəsilə balıq ehtiyatlarının məhvində, suvarılan torpaqların aşağı düşməsində, su ehtiyatlarından istifadə və kənd

təsərrüfatı məhsularının istehlakçısı olan əhalinin səhhətinin korlanmasında özünü göstərir. Bununla birgə, qeyd etmək lazımdır ki, onların heç də hamısı ümumiləşdirilmiş şəkildə yalnız dağ-mədən sənayesinə aid edilə bilməz. Burada hər şeydən əvvəl, torpaq ehtiyatlarına dəyən ziyanlar xüsusi ilə böyük miqyas alır. Məsələ bundadır ki, torpaqların ümumi istehsal vasitəsi kimi çıxış etdiyi digər sənaye sahələrindən fərqli olaraq, dağ-mədən sənayesi ondan, yəni torpaqdan həm də əmək vasitəsi kimi istifadə edir. Bu zaman yaranan tullantılar yerin təkindən və üst qatından çıxarılmış maddələr olurlar və mənşə etibarı ilə əmələ gələn torpaqların özlərini korlayırlar. Paralel olaraq hasilat prosesinin bilavasitə həyata keçirildiyi sahələrin dağılması prosesi baş verir ki, bu da mövcud ziddiyyətləri daha da dərinləşdirir.

Respublikanın dağ-mədən sənayesinin bir sıra müəssisələrində həmin proses olduqca təhlükəli şəkil almışdır. Məsələn, Azərbaycan dağ-mədən filiz saflaşdırma tullantıları 250-300 hektar, Zəylik-alunit mədəni idarəsinin 10-110 hektar, Gəncə alüminium oksidi kombinatının tullantıları 300-350 hektar torpaq sahələri istifadədən çıxarılmışdır. Bundan əlavə, bu rayonların, bitki örtüyünə böyük ziyan dəymiş, heyvanat aləmi demək olar ki, məhv olmuşdur. Yaz və payız aylarında intensiv yağışların başlanması ilə Daşkəsən dağ-mədən kombinatının ətrafında toplanmış tullantılar yuyularaq Qoşqar çayı müxtəlif tərkibli kimyəvi maddələrlə çirkləndirir.

Qeyd etmək lazımdır ki, faydalı qazıntı yataqlarının istismarı ekoloji mühitə dəyən zərər indiyə qədər özünün obyektiv əksini ümumi bir göstəricidə tapmışdır. Faktların yalnız sadə şəkildə verilməsi, bu sahədə uyğun müəssisələrin ekologiyaya dəyişdirici təsiri gücünü düzgün qiymətləndirməyə heç tam şərait yaratmır. Hasilat prosesində torpaq sərvətlərinə dəyən ziyanla dağ-mədən müəssisəsinin istehsal gücü arasında asılılığın təhlili bu qəbildəndir.

Dağ-mədən sənayesinin ətraf mühitin mühafizəsinin başlıca problemlərindən biri yerin təkinin və torpaq ehtiyatlarının mühafizəsinin idarə olunması metodlarının təkmilləşdirilməsi təşkil edir. Bu sahədə aparılan tədqiqat işləri yerin təkinin mühafizəsinin yaxşılaşdırılması və mineral xammal sərvətlərinin səmərəli və kompleks istifadə olunmasını, onların hasilatı, saflaşdırılması və sonrakı emalı zamanı hər sür itkilərin azaldılmasını təmin etməlidir. Respublikanın İqtisadi zonalarında və kontinental şelfində ətraf təbii mühitin saflığının mövcud tələblərə uyğun saxlanılması təmin olunmalıdır.

10.3. Azərbaycanda ekoloji inkişafın təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi ətraf mühitin mühafizəsi sahəsində də beynəlxalq əməkdaşlıq fəaliyyətini xeyli genişləndirmişdir. Bu işdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işi təqdirəlayiqdir.

Azərbaycan Repsublikasında ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əsas prinsipləri ekoloji davamlılığı təmin etmək və inkişaf üçün qlobal təcrübənin öyrənilməsi, beynəlxalq qanunvericilik və ətraf mühit siyasətinin hazırlanması prosesində iştirak və beynəlxalq təşkilatlarla əməkdaşlıq, müasir beynəlxalq siyasət, standart, norma və texnologiyanın tətbiq edilməsi, Avropa Ittifaqının direktivlərinə müvafiq qanunvericiliyin uyğunlaşdırılması, «Avropa üçün ətraf mühit» prosesində iştirak, ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində regional və beynəlxalq layihələrin həyata keçirilməsi, region ölkələrilə, donor ölkələrlə və digər vacib tərəfdaşlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq konvensiya və protokollara qoşulmasından ibarətdir.

Hazırda dünyanın heç bir ölkəsi ətraf mühitin mühafizəsi problemlərini təklikdə həll etmək iqtidarında deyil. Bu məqsədlə ölkəmiz üçün ətraf mühitin mühafizəsi sahəsində digər ölkələr və təşkilatlarla razılaşma və sazişlərin imzalanması, beynəlxalq konvensiyalara qoşulması olduqca vacibdir. Bununla əlaqədar son illər ərzində «Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikası Hökuməti və Türkiyə Repsublikası Hökuməti arasında Razılaşma», «Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Iran Islam Respublikasının Ətraf Mühit Departamenti arasında Anlaşma Memorandumu», «Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında Qarşılıqlı Əməkdaşlıq», «BMT-nin Iqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökümәti arasında Anlaşma Memorandumu» imzalanmışdır. Bundan başqa, «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kanadanın Dövlət Idarəçilik Institutu arasında Xəzər hövzəsində istilikxana qazı tullantılarının azaldılması üzrə 2002-2005-ci illər Tədris Proqramının həyata keçirilməsinin şərtləri haqqında Anlaşma Memorandumu», «Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Nümayəndəliyi və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında Bakı şəhərində Ətraf Mühitə dair Ictimai Məlumat Mərkəzinin Yaradılması haqqında Əməkdaşlıq Sazişi» imzalanmış və eyni zamanda Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ

Respublikası, Yaponiya, Ukrayna, Misir, Çexiya Hökumətləri arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş layihələri hazırlanaraq imzalanması üçün dövlətdaxili prosedurlar həyata keçirilir.

Eyni zamanda Azərbaycan ətraf mühitin qorunması sahəsində bir neçə qlobal və regional konvensiya və protokollara qoşulmuşdur (əlavə olunur). Bundan başqa, ölkəmizin «Köçəri Heyvan Növlərinin Qorunması üzrə» Bonn Konvensiyası, «Avropada yarasaların qorunması» protokolu, «Afrika-Avrasiya Köçəri Su Quşlarının Qorunması» Sazişinə qoşulması və ümumdunya Təbiəti Mühafizə Təşkilatına (IUCN) üzv olması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyində müvafiq işlər aparılır.

Həmçinin BMT-nin Inkişaf Proqramı (UNDP), Ətraf mühit Proqramı (UNEP), Sənaye Inkişafı Təşkilatı (UNIDO), TASIS, Dünya Bankı, Qlobal Ekologiya Fondu, Avropa Yenidənqurma və Inkişaf Bankı, Asiya Inkişaf Bankı ilə əməkdaşlığa dair danışıqlar aparılır və artıq bu istiqamətdə bir sıra nailiyyətlər əldə edilmişdir.

Eyni zamanda Azərbaycan bir sıra beynəlxalq layihələrin həyata keçirilməsində iştirak edir və bununla bağlı artıq bir neçə saziş və razılaşmalar imzalanıb:

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına uyğun olaraq Azərbaycan Respublikası ilə Beynəlxalq Inkişaf Assosiasiyası arasında «Inkişaf krediti haqqında Sazişi» (Kənd Ətraf mühit Layihəsi), Kənd Ətraf mühit layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi və Azərbaycan Repsublikası ilə Qlobal Ekologiya Fondunun icraçı təşkilatı kimi çıxış edən Beynəlxalq Yenidənqurma və Inkişaf Bankı arasında «Qlobal Ekoloji Fondun Trast Fondunun Qrantı üzrə Saziş» (Kənd Ətraf Mühit Layihəsi);

2. Azərbaycan Respublikası və Kreditanştalt für Videraufbau, Frankfurt am Main («KfW») arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə proqramı çərçivəsində «Samur-Yalama Milli Parkının yaradılması» layihəsi üzrə maliyyələşdirmə Müqaviləsini və həmin Müqaviləyə dair Xüsusi Razılaşma;

3. «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye Inkişafı Təşkilatı (UNIDO) arasında «Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ)» haqqında Stokholm Konevensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə.

Bundan əlavə, Kanada Beynəlxalq Inkişaf Agentliyinin dəstəyi ilə Pirallahi Metereolo**ci** Stansiyasında 2 külək və 1 günəş qurğusu quraşdırılmış, Türkiyənin özəl şirkətləri tərəfincən respublikamızda bioqazın istehsalı ilə əlaqədar pilot layihələr həyata keçirilmiş və artıq 3 regionda 4 ədəd bioqaz qurğuları quraşdırılmışdır.

Azərbaycan Respublikası hidrometeorologiya sahəsində Ümumdünya Meteorologiya Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurur. Regionda Türkiyə, Özbəkistan, Qazaxıstan Respublikaları ilə hidrometeorologiya sahəsində ikitərəfli qarşılıqlı əməkdaşlıq proqramları mövcuddur. Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlətlərarası Hidrometeorologiya Şurasının (DHMŞ) işində Azərbaycan fəal iştirak edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti Cənubi Qafqazda su ehtiyatlarının idarə olunması ilə bağlı bir sıra regional layihələrdə iştirak edir.

Asiya Inkişaf Bankının krediti ilə yerinə yetirilən «Azərbaycan Respublikasında Daşqın zərərlərinin aradan qaldırılması layihəsi»ndə nəzərdə tutulmuş hidrometeorologiya komponenti də qabaqcadan xəbərdarlıq sisteminin inkişafına kömək edəcəkdir.

BMT-nin Iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasını Azərbaycan Respublikası 1995-ci ildə ratifikasiya etmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə iqlim dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır. Konvensiyanın milli əlaqələndiricisi təyin edilmiş və əlaqədar təşkilatların ekspertlərindən ibarət işçi qrupu yaradılmışdır.

Konvensiyadan irəli gələn öhdəlik və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Qlobal Ekologiya Fondu (QEF) və BMT-nin Inkişaf Proqramının maliyyə yardımı ilə «Azərbaycan Respublikasının Birinci Milli Məlumatları» hazırlanmış və konvensiyanın Katibliyinə təqdim edilmişdir.

«Birinci Milli Məlumatlar» layihəsinin birinci fazasında iqlim dəyişmələrinin təsirinin minimuma endirilməsi üçün müvafiq tədbirlər planı hazırlanmış, ikinci fazada isə İqtisadiyyatın prioritet sahələrində istilik effekti yaradan qaz tullantılarının azaldılması üçün ekoloji cəhətdən təmiz texnologiyalara dair tələbatlar qiymətləndirilmiş və həmin texnologiyaların tətbiqinə dair təkliflər hazırlanmışdır.

Hazırda «Azərbaycan Respublikasının Ikinci Milli Məlumatları» hazırlanır. Bu mərhələdə əsas diqqət insan sağlamlığı, ekosistemlərə təsir, təmiz inkişaf mexanizmi üzrə layihələrin seçilməsinə yönəldiləcəkdir.

Konvensiyanın Kioto Protokolunu Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Azərbaycan Respublikası Kioto Protokolu üzrə konkret olaraq kəmiyyət öhdəlikləri götürməmişdir və yalnız həmin Protokolun Təmiz Inkişaf Mexanizmində iştirak edir. Bu məqsədlə konkret pilot layihələrinin həyata keçirilməsi üçün Kanada, Danimarka, Fransa, Yaponiya kimi inkişaf etmiş ölkələrlə müvafiq danışıqlar aparılır. 2004-cü ildə Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu imzalanmışdır. Fransa Hökuməti ilə karbonun udulmasına dair meşə sahələrinin

genişləndirilməsi layihələrinin həyata keçirilməsi məqsədi ilə ilkin texniki-İqtisadi qiymətləndirmə hesabatı hazırlanmışdır.

Hazırda Avropa Ittifaqının TACIS Proqramı çərçivəsində Cənubi Qafqaz ölkələrinə və Moldovaya texniki dəstək layihəsi və istilik effekti yaradan qazların kadastrına dair Qlobal Ekoloji Fondun yardımı ilə Azərbaycanda regional layihə həyata keçirilir.

Azərbaycanda Qlobal Ekologiya Fondunun maliyyə yardımı ilə ODM-dən istifadə edən müəssisələrdə (Bakı «Çinar Soyuducuları» və Sumqayıt kompressor zavodlarında) rekonstruksiya işləri aparılmış və həmin müəssisələrdə ozondağıdıcı sayılmayan alternativ maddələrdən istifadə etmək nəzərdə tutulmuşdur.

* «Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında» Konvensiyanı Azərbaycan Respublikası 2002-ci ildə ratifikasiya etmişdir. Konvensiyanın Milli Əlaqələndiricisi təyin olunmuş və bu sahədə işlərin aparılması üçün işçi qrupu yaradılmışdır. Azərbaycan Respublikası üzrə atmosfer havasına atılan tullantılar barədə 2002-ci il üzrə məlumatların Konvensiyanın Katibliyinə verilməsi təmin olunmuş və sonrakı illər üzrə belə məlumatların hazırlanması davam etdirilir. Konvensiyanın «Ağır metallar», «Davamlı üzvi çirkləndiricilər» və «Turşuluğun azaldılması, evtrofikasiya və yerin ozon qatının bərpası» Protokollarını ratifikasiyaya hazırlamaq üzrə işçi qrupu tərəfindən müvafiq tədbirlər görülür.

* «Sənaye qəzalarının transsərhəd təsiri haqqında» Konvensiya Azərbaycan Respublikası tərəfindən 2004-cü ildə ratifikasiya edilmişdir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Konvensiya üzrə səlahiyyətli orqan təyin edilmişdir.

Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə kömək məqsədi ilə Almaniyanın Təbiətin və Ətraf Mühitin Mühafizəsi, Nüvə Reaktorlarının Təhlükəsizliyi üzrə Federal Nazirliyinin maliyyə dəstəyi ilə «Kür çayı hövzəsində qəza vəziyyətlərinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi» layihəsi həyata keçirilir. Layihəyə əsasən Cənubi Qafqaz dövlətlərində Kür çayı hövzəsində qəza vəziyyətlərinin xəbərdarlıq edilməsi məntəqələrinin yaradılması və müvafiq avadanlıqlarla təchiz edilməsi nəzərdə tutulmuşdur.

*BMT-nin «Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında» Bazel Konvensiyasına Azərbaycan Respublikası 2001-ci ildə qoşulmuşdur. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bazel Konvensiyası üzrə səlahiyyətli orqan təyin edilmişdir. «Təhlükəli tullantıların pasportlaşdırılması» qaydası və «Azərbaycan Respublikasında təhlükəli tullantıların idarə olunmasının Dövlət Strategiyası» təsdiq edilmişdir. Həmçinin təhlükəli tullantıların basdırılması üçün beynəlxalq standartlara uyğun poliqon inşa edilmiş və 2004-cü ildən təhlükəli tullantıların saxlanılması üzrə Milli Mərkəz fəaliyyətə başlamışdır.

* BMT-nin ciddi quraqlıq və yaxud səhralaşma baş verən ölkələrdə, xüsusilə Afrikada səhralaşma ilə mübarizə üzrə Konvensiyasını Azərbaycan Respublikası 1998-ci ildə ratifikasiya etmişdir. Ötən müddətdə Konvensiyanın Azərbaycanda həyata keçirilməsi haqqında Milli Məruzə hazırlanmış, Milli Fəaliyyət Planının hazırlanması üçün məlumatlar təhlil edilmiş, ölkənin müxtəlif bölgələrində Konvensiyanın məqsədləri mövzusunda seminarlar keçirilmiş və digər işlər götürülmüşdür. Hazırda səhralaşma problemləri ilə əlaqədar Meşələrin Bərpası Proqramının əməli həyata keçirilməsinə başlanmış, proqram üzrə ildə 3,9 min ha meşə əkini və 5,9 min ha təbii bərpaya kömək tədbirləri nəzərdə tutulmuşdur. 2004-cü ildə «Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Texnogen təsirlər nəticəsində çirklənmiş torpaqların reabilitasiyası və rekultivasiyası üzrə də bir sıra layihələr həyata keçirilir.

Konvensiyanın yerinə yetirilməsi üzrə aidiyyəti nazirliklərin və idarələrin, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət Koodinasiya şurası yaradılmışdır.

* «Davamlı üzvi çirkləndiricilər haqqında» Stolkholm Konvensiyası Azərbaycan Respublikası tərəfindən 2003-cü ildə ratifikasiya olunmuşdur. Konvensiya üzrə səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edilmişdir. Nazirlikdə Konvensiya ilə bağlı geniş məlumatlar toplanmış, aidiyyəti təşkilatların mütəxəssislərindən ibarət işçi qrup yaradılmış və müvafiq təkliflər planı hazırlanmışdır. Konvensiyanın qüvvəyə minməsi ilə əlaqədar 2004-cü ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində müxtəlif nazirliklərin, idarələrin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə «Pestisidlər, ətraf mühit və əhalinin sağlamlığı» mövzusunda geniş toplantı keçirilmişdir, işçi qrupun üzvləri tərəfindən ölkənin regionlarında keçirilən görüşlərdə davamlı üzvi çirkləndiricilər barədə məlumatlar verilmiş və bu maddələrin ətraf mühit və sosial sahə üçün təhlükəsi barədə maarifləndirmə işləri aparılmışdır.

2005-ci ilin iyul ayından etibarən Qlobal Ekoloji Fondun və BMT –nin Sənaye Inkişafı Təşkilatının dəstəyi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində Milli Fəaliyyət Planının hazırlanması prosesinə başlanılmışdır.

* BMT-nin «Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə» Konvensiyasını Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Eyni zamanda, 22 oktyabr 2002-ci ildə Azərbaycan Respublikası Konvensiyasının «Su və Sağlamlıq» Protokoluna qoşulmuşdur. Protokol 2005-ci ildən hüquqi qüvvəyə minmişdir.

Konvensiya çərçivəsində 2002-2003-cü illərdə TASIS Proqramının xətti ilə maliyyələşdirilən «Çayların birgə idarə olunması» layihəsi yerinə yetirilmişdir. Layihənin əsas məqsədi transsərhəd çirklənmələr sahəində

müşahidələr aparmaq, onları qiymətləndirmək və daim nəzarətdə saxlamaq, çirklənmənin aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməkdir. Layihənin yerinə yetirilməsi zamanı 4 transsərhəd çayın, o cümlədən Kür çayının monitorinqi aparılmışdır.

* «Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında» beynəlxalq Konvensiyaya (MARPOL) Azərbaycan Respublikası 2004-cü ildə qoşulmuşdur. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq struktur bölmələri tərfindən həyata keçirilən Xəzər dənizinin mühafizəsi, o cümlədən dənizin gəmilər vasitəsilə çirklənməsinin qarşısının alınması istiqamətində fəaliyyəti sözügedən Konvensiyanın tələblərinə uyğun aparılır.

Son dövrdə respublikamızda konvensiya üzrə milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması işlərinin davam etdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Həyata keçirilən layihələr sırasına isə aşağıdakıları aid etmək olar:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Kanadanın Dövlət Idarəçilik Institutu arasında Xəzər Hövzəsində Istilik Effekti Yaradan Qazların tullantılarının azaldılması üzrə 2002-2005-ci illər Tədris proqramı.

2. «Istilik effekti yaradan qazların inventarlaşdırılmasının keyfiyyətinin təkmilləşdirilməsi üçün potensialın yaradılması» regional layihəsinin həyata keçirilməsi sahəsində görülən işlər haqqında.

3. «Qafqaz Ölkələri və Moldovada Qlobal Iqlim Dəyişmələri üzrə Öhdəliklərin Yerinə Yetirilməsində Texniki dəstək» layihəsi.

4. «Qlobal ekoloji problemlərin həlli məqsədilə imkanların artırılması üçün milli tələbatların qiymətləndirilməsi» layihəsi.

5. BMT-nin Ətraf mühit proqramı tərəifndən maliyyələşdirilən «Milli biotəhlükəsizlik» layihəsi.

6. Kür çayı hövzəsində qəza vəziyyətinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi layihəsi.

7. Kür-Araz çayı hövzəsinin suyunun sərhədlərarası pisləşməsinin azaldılması layihəsi.

8. «Azərbaycan Respublikasında Ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət planı və ekoloji siyasətin həyata keçirilməsinə yardım» layihəsi (TACIS). UNEP-lə birgə (Xəzər Ekoloji Proqramı çərçivəsində).

9. «Xəzər regionunda transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə Metodiki vəsait layihəsinin təkmilləşdirilməsi» layihəsi.

10. Milli «Nərə» balıqartırma zavodunun tikintisi layihəsi «Sahənin civə çirklənməsindən təmizlənməsi və təhlükəli tullantıların basdırılması üçün Poliqonun tikintisi» layihəsi.

11. Ekololoci idarəetmə sisteminin təkmilləşdirilməsi layihəsi.

12. Gözlənilməz Neft Yayılmaları üzrə Azərbaycan Milli Planın Inkişafına yardım layihəsi.

13. Azərbaycan Respublikasının «Davamlı üzvü çirkləndiricilər üzrə tədbirlərin həyata keçirilməsi» layihəsi.

14. NATO – nun dəstəyi ilə həyata keçiriləcək «Xəzər dənizi ekosisteminin çoxsahəli analizi» layihəsi.

Respublikamızda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından iştirakı ilə ölkədə ekoloji mühiti yaxşılaşdırmaq istiqamətində beynəlxalq layihələrin reallaşması üçün böyük işlər həyata keçirilmişdir. Bütün bunlar isə respublikamızda ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində müəyyən uğurların əldə edilməsinə səbəb olmuşdur.

KİTABIN ARXASINA GEDƏCƏK

Şəkərəliyev Arif Şəkərəli oğlu 1949-cu ildə müəllim ailəsində anadan olmuşdur.

1966-cı ildə Bakı Plan-uçot Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildə D.Bünyadzadə adına Azərbacan Xalq Təsərrüfatı İnstitutunun «Sənaye İqtisadiyyatı» fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1976-cı ildə namizədlik dissertasiyasını və 1991-ci ildə Leninqrad Maliyyə-İqtisad Unversitetində doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1992-ci ildən professordur.

2000-ci ildən 2006-cı ilə qədər Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi işlər üzrə prorektoru vəzifəsini yerinə yetirmişdir.

2002-ci ildə Ümummilli Milli Lider Heydər Əliyevin Fərmanı ilə «Əməkdar elm xadimi fəxri» adına layiq görülüb.

Dövrü olaraq mətbuatdakı çıxışlarında Azərbaycan dövlətinin reallıqlarını təbliğ etdiyinə görə 2002-ci ildə «Azərbaycan Bayrağı» media mükafatına, 2003-cü ildə isə «Qızıl Qələm» mükafatına layiq görülüb.

2001-ci ildən «Gömrük işinin təşkili» kafedrasının müdiri vəzifəsini yerinə yetirir. Universitet Böyük elmi və ixtisaslaşdırılmış müdafiə şurasının müxtəlif vaxtlarda sədri olub və hal-hazırda üzvüdür.

2004-cü ildə Beynəlxalq Menecment Akademiyasına üzv seçilmişdir. 250-dən çox elmi məqalənin, 60-a yaxın dərslik, dərs vəsaiti və monoqrafiyaların müəllifidir. İyirmidən çox elmlər namizədi və elmlər doktorunun dissertasiya işlərinə rəhbərlik etmiş və onlar müvəffəqiyyətlə müdafiə etmişlər.

Prof. A.Ş.Şəkərəliyev tərəfindən «Ümummilli Lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan ulu öndər» (2007), «Xidmət sahəsi: sosial-İqtisadi problemlər» (1990), «Bazarın mahiyyəti və quruluşu» (1992), «Bazar İqtisadiyyatı şəraitində xidmət sahələrinin inkişafı» (1993), «Beynəlxalq valyuta sistemi və valyuta məzənnəsi» (1993), «Dünya təsərrüfatının formalaşması və beynəlxalq bazarın təşəkkülü» (1994), «İqtisadi nəzəriyyə» (1995), (2000), «Azərbaycan İqtisadiyyatı» (1996), «Biznesin əsasları» (1996), «Dünya İqtisadiyyatı və beynəlxalq İqtisadi münasibətlər» (1999), «İqtisadi təlimlər tarixi» (2000), «Keçid İqtisadiyyatı və dövlət» (2000), «Azərbaycan gömrük tarixi» (2001), «Bazar İqtisadiyyatına keçid: dövlətin İqtisadi siyasəti» (2001), «Dünya İqtisadiyyatı: müasir dövrün problemləri» (2003), «Gömrük ekspertizası» (2003), «Gömrük işinin təşkili və idarə edilməsi» (2003), «Nobel mükafatı almış İqtisadçılar və onların nəzəriyyələri» (2004), «Daşınmaz əmlakın İqtisadiyyatı» (2004), «Sahibkarlıq fəaliyyətinin təşkili» (2006), «Xarici İqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi» (2006) kitablarının müəllifidir.